AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

NƏRGİZ ƏLİYEVA

# AZƏRBAYCANDA İSLAM MƏDƏNİYYƏTİ (VII-XIII ƏSRİN ƏVVƏLLƏRİ)

"Elm və təhsil"
Bakı – 2017

Azərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi Elmi Şurasının qərarı ilə çap olunur.

**Rəyçilər:** **Nailə Vəlixanlı**
AMEA-nın həqiqi üzvü

**Vasim Məmmədəliyev**
AMEA-nın həqiqi üzvü

**Tarix Dostiyev**
*tarix elmləri doktoru*

**Nərgiz Ağasəlim qızı Əliyeva**. Azərbaycanda islam mədəniyyəti (VII-XIII). Bakı: "Elm və təhsil", 2017 - 488 səh.

*Monoqrafiyada Azərbaycanda islam dini və mədəniyyətinin yaranması və inkişafı mərhələlərə ayrılaraq tədqiq edilmiş, bu prosesdə xəlifələrlə bərabər Azərbaycan və azərbaycanlıların mövqeyi açıqlanmış, azərbaycanlı ziyalıların Xilafətin idarəetmə strukturlarında fəaliyyəti, Xilafətin mədəniyyət mərkəzləri ilə elmi-mədəni əlaqələri və tədris fəaliyyəti, Azərbaycanda müsəlman monumental tikililəri və s. məsələlər haqqında ətraflı məlumat verilmişdir.*

*Monoqrafiyanın elmi-populyar dildə yazılmasında məqsəd tarixçilər, şərqşünaslar, Azərbaycan tarixinin Ərəb Xilafəti dövrü ilə maraqlanan elmi işçilərlə bərabər tələbələr, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmasıdır.*

ISBN 978-9952-8176-1-4

© AMEA Milli Azərbaycan Tarixi Muzeyi, 2017
© "Elm və Təhsil" nəşriyyatı, 2017

# MÜNDƏRİCAT


ÖN SÖZ .......... 4
GİRİŞ .......... 6
**I FƏSİL. BAŞLICA MƏNBƏLƏR VƏ ELMİ ƏDƏBİYYATIN İCMALI .......... 15**
1.1. Mövzuya dair qaynaqlar barədə .......... 17
1.2. Elmi ədəbiyyatın araşdırılması .......... 25
**II FƏSİL. AZƏRBAYCANDA İSLAM MƏDƏNİYYƏTİNİN YAYILMA MƏRHƏLƏLƏRİ .......... 49**
2.1. İslam dinini mənimsənilməsi prosesi və ölkədə gedən konfessional dəyişikliklər .......... 51
2.2. Raşidi xəlifələr mərhələsi (h. 11-40/632-661) .......... 84
2.3. Əməvilər dövrü (h. 40-127/661-749) .......... 103
2.4. Abbasilər dövrü (VIII-IX əsrlər) .......... 128
2.5. Yerli müstəqil dövlətlər dövrü (IX-XI əsrlər) .......... 147
2.6. Səlcuqlar və Atabəylər dövrü .......... 170
**III FƏSİL. İSLAM MƏDƏNİYYƏTİNİN YARANMASI VƏ İNKİŞAFI PROSESİNDƏ AZƏRBAYCAN VƏ YERLİ ƏHALİNİN MÖVQEYİ .......... 191**
3.1. Azərbaycanda İslamdan əvvəl və islam ərəfəsində elmlər .......... 193
3.2. İslam mühitində ilk addımlar .......... 197
3.3. İslam mədəniyyəti Azərbaycan şəhərlərində .......... 203
**IV FƏSİL. AZƏRBAYCANLI ZİYALILARIN FƏALİYYƏTİ .......... 241**
4.1. Azərbaycanlı alimlərin təsnifatı .......... 243
4.2. Azərbaycanlılar idarəetmə strukturlarında .......... 270
4.3. Azərbaycalı alimlərin fəzilətləri .......... 285
**V FƏSİL. AZƏRBAYCANIN XİLAFƏTİN DİGƏR ÖLKƏLƏRİLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ .......... 291**
5.1. Xilafətin mədəniyyət mərkəzlərilə əlaqələr .......... 293
5.2. Ərəblər Azərbaycanda .......... 304
**VI FƏSİL. AZƏRBAYCANDA İSLAM MƏDƏNİYYƏTİ OCAQLARI VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİ .......... 325**
6.1. İlk elm, mədəniyyət və təhsil ocaqları .......... 327
6.2. Nizamiyyə mədrəsələri və yerli ziyalılar .......... 335
6.3. Təhsildə rolu olmuş digər müəssisələr .......... 360
6.4. Görkəmli təhsil xadimləri azərbacanlıların təhsilində .......... 364
**VII FƏSİL. AZƏRBAYCANDA MÜSƏLMAN MEMARLIĞININ YARANMASI VƏ İNKİŞAFI .......... 373**
NƏTİCƏ .......... 388
QAYNAQLAR .......... 398

# ÖN SÖZ

Bakı Dövlət Universiteti Şərqşünaslıq Fakültəsi Ərəb Filologiyası şöbəsinin məzunu olduğuma görə Yəmən, Liviya, Suriya, Livan və Misirdə Azərbaycan tarixşünaslığı üçün yeni olan ərəbdilli mənbələri üzə çıxararaq tədqiqatlar aparmağım təmamilə təbiidir. Düzdür, filoloq olaraq tarixçi kimi fəaliyyət göstərmək, tarixi mənbələrin ecazkar dərinliyinə düşmək, tarixi faktlar qarşısında bəzən sevinmək, bəzən də məyus olmağım ilk anlar məni bir qədər qorxudurdusa, orta əsrlərdə Xilafət dili olan ərəb dilini bilməyim də işimi bir o qədər asanlaşdırırdı. Universitetdə müəllimlərim olmuş akademik Vasim Məmmədəliyevin, prof. Ələsgər Məmmədovun, prof. Malik Mahmudovun dərslərində təkcə dərs deyil, həyat və özünə inam məktəbi də keçmişdim. Bəzi alimlərimizin bu pillədən başlayaraq tarixçi-alim kimi yetişdiklərini də bilirdim. Mənbələrə əvvəlcə həvəskar kimi yanaşsam da sonralar bu bir tutquya çevrildi. Xalqımın tarixində yeri olan, dünya elminə saysız-hesabsız elmi əsər, araşdırma, fakt və tarixi bilgi yadigar qoyan həmvətənlərimin layiqli qiymət almaları üçün əlimdən gələn hər imkandan istifadə edəcəyimə dair özümə söz verdim. Bu gün orta əsr mənbələrinə həsr olunmuş bir sıra monoqrafiyalarım işıq üzü görmüşdür. Ərəb ölkələrində olduğum dövrdə VII-XII əsrlər Azərbaycanında islam mədəniyyəti ilə bağlı xeyli material toplamışdım və bu mövzuda bir elmi iş yazmaq məni çoxdan düşündürürdü.

Böyük bir mədəniyyətin yaranmasında Xilafətin bir parçası olmuş Azərbaycana islamla bərabər yeni mədəniyyətin gəlməsi, daha doğrusu, yerli mədəniyyətin çalarlarına yeni rənglərin qatılması ilə yaranan islam mədəniyyəti kontekstində Azərbaycanın öyrənilməsi böyük məsuliyyət, gərgin iş və onlarla, yüzlərlə mənbənin təkrar-təkrar oxunmasını, faktların, məlumatların dəqiqləşdirilməsini, uzlaşdırılmasını tələb edirdi. Olduqca böyük bir yük altına girdiyimi hiss edirdim. Lakin, məşhur ərəb alimi Corci Zeydanın “Bir millətin həqiqi tarixi o millətin mədəniyyət tarixidir” kəlamı məni həvəsləndirdi və ürəkləndirdi. Eyni zamanda, bəzi məqamlar - yeni müstəqillik dövründə Azərbaycanda islamla bağlı bir sıra əsərlərin işıq üzü görməsi, rus işğalı və sovet ateizmi dövründə yazılmış əsərlərin yeni nəzərlə gözdən keçirilməsi işi bir qədər asanlaşdırırdı. Monoqrafiya

yazılana qədər Azərbaycan tarixşünaslığında qədim təhsil ocaqlarımız və azərbaycanlı müəllimlər, elm-bilik sahibləri, böyük şəxsiyyətlər haqqında bir sıra yeni mənbələri ortaya çıxartmağım və dövrlə bağlı məlumatlarımın çoxluğu bu yükün çəkisini xeyli azaldırdı.

Azərbaycanda islam mədəniyyətinin ərəblərdən monqollaraqədərki dövrünü açmaq üçün həmin dövrdə və ya ona yaxın dövrlərdə Xilafət bayrağı altında birləşmiş elm-bilik adamlarının, eləcə də ölkə daxili və xaricində bu mövzuya toxunan yaşlı və gənc nəslin əsərlərindəki məlumatlardan maksimum dərəcədə yararlanmağa çalışdım. Ümidvaram ki, oxucuların ixtiyarına verilən bu yeni əsər ölkəmizin vətəndaşlarına yaşama haqqını sübut edən mədəniyyətimizin bir mərhələsinin öyrənilməsində yardımçı rolunu oynaya biləcəkdir. Xüsusilə, monoqrafiyanın bu il - 2017-ci ildə Azərbaycan prezidenti cənab İlham Əliyevin sərəncamı ilə İslam həmrəyliyi ili elan edildiyi dövrdə ərsəyə gələrək çap olunmasının gənc nəsil üçün faydası böyükdür. Yeri gəlmişkən qeyd edək ki, dərindən öyrənilməsi vacib olan islam mənəvi dəyərləri monoqrafiyada ziyalılarımızın timsalında əks olunmuşdur. Bunun gənclərimizin bəzən daxilən hiss etdikləri mənəvi boşluğu doldurmağa yardım edə biləcəyinə inanıram.

*"Bir millətin həqiqi tarixi*
*o millətin mədəniyyət tarixidir"*
***Corci Zeydan***

# GİRİŞ

On beş əsrlik tarixə malik islamın yarandığı dövrlərdən Azərbaycan ərazisində* islam mədəniyyəti məkanının formalaşması başlamışdır. Bu proses cəmiyyətin həm ictimai-iqtisadi, həm də mədəni-ideoloji sahələrində təzahür etmişdir. Orta əsrlərdə Azərbaycanda baş vermiş hər bir mühüm tarixi hadisədə islam faktorunun izi vardır. Ərazinin Ərəb Xilafətinin tərkibinə daxil edilməsi, ərəb dilinin yayılması, Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə ticarət və mədəni əlaqələri, ərəb-islam ədəbiyyatının yayılması, milli azadlıq mübarizəsi, islam dini və çoxallahlılıq, yazılı abidələr və başqa bu kimi problemləri yalnız "islam kontekstində" dərk etmək mümkündür. Lakin uzun müddət ərzində Azərbaycanda, eləcə də postsovet məkanında islam mədəniyyəti zəif öyrənilmiş, hüquqi və etik normaları özündə ehtiva edən islam dininə obyektiv qiymət verilməmiş, hər şeydən əvvəl isə elmi metodologiyaya məhəl qoyulmamışdır. Bu səbəbdən də zaman çərçivəsində nəinki islama, hətta islamla bağlı olan elmlərə, maddi abidələrə yanaşmada da qərəzçiliyə üstünlük verilmişdi.

XIX əsrin ortalarına doğru Orta Asiyada, Sibirdə, Şimali Qafqazda[1] olduğu kimi, Cənubi Qafqazda da islam dininə sitayiş edən yerli xalqları islamdan uzaqlaşdırmaq, xristianlaşdırmaqda hər cür vasitədən istifadə edilirdi. Çar I Aleksandrın hakimiyyəti dövründən onun razılığı ilə xarici

---

* Azərbaycan türklərinin əsrlərdir vətən saydıqları ərazilərin şimal qismi 150 ildən artıq bir vaxt ərzində Rusiyaya, cənubu isə İranla bağlı qalmışdır. Bu iki ölkə tərəfindən paylaşılmış olan Azərbaycan xalqı arasında bənzərlik, soy-kök, dil, din və mədəniyyət baxımından eynidir. Lakin, keçən zaman ərzində Azərbaycan torpaqlarındakı bu türk xalqı ayrı mədəniyyətlərin təsiri altında qalmışdır. Monoqrafiyada Azərbaycan Respublikasının xaricində hazırda İran İslam Respublikasının ərazisinə daxil olan tarixi Azərbaycan torpaqlarını Cənubi Azərbaycan adlandırmışıq. Türklər 107 min$^2$ kilometr sahəni əhatə edən Cənubi Azərbaycanın əsasən Təbriz, Ərdəbil, Xoy, Səlmas, Urmiya, Maku, Marağa, Xalxal, Astara, Culfa, Mərənd, Miyanə, Zəncan şəhərlərində, onlarla qəsəbə və kəndlərində yaşayırlar.

[1] О мерах по приостановке дальнейшего усиления ислама и распростронения (усл)/http: zerrspige.orientphil.unihalle.de/ t 545.html

missionerlər Rusiyada, o cümlədən Qafqazda aktiv fəaliyyət göstərirdilər. Londonda, Stokholmda, İstanbulda, hətta Urmiyada səkkiz dəfə nəşr olunmuş "Kitabi müqəddəs" ("Əhdi Ətiq", "Əhdi cədid") Şimali Azərbaycanda da aktiv təbliğ edilirdi. Çar hökuməti tərəfindən dəstəklənən N.Ostroumov kimi şərqşünas-missionerlər bütün müsəlman ruhanilərini şəhvətpərəst, mənfəətpərəst, "Kaspi" və "Həyat" qəzetlərini şübhəli və panislamist, islamı isə xalqlar arasında düşmənçilik salan fanatik din, tərəqqi düşməni kimi təqdim edirdilər[1]. Qraf İ.F. Paskeviç[*] 1830-cu il aprel ayının 15-də mitropolit[**] İona məxfi məktub yazaraq, ingiloyları xristianlaşdırmaq üçün bölgəyə "bir neçə gürcü keşişinin göndərilməsini" və bu məsələnin yerli əhalidən gizli aparılmasını məsləhət görmüşdü. "Qafqazda xristianlığın bərpası" cəmiyyəti də XIX yüzillikdə Azərbaycanın xristianlaşdırılmasında xüsusi canfəşanlıq edirdi. Müsəlman-xristian qarşıdurması Rusiya və gürcü rəsmilərinin səyləri nəticəsində XIX yüzilliyin 60-cı illərində zirvə nöqtəsinə çatdı. Xristianlaşdırma siyasəti çar üsul-idarəsinin, Rusiya Pravoslav kilsəsinin müəyyən qurumlarının nəzarəti altında həyata keçirilirdi. Lakin bu siyasət real nəticələrə gətirib çıxarmadı. Əksinə, Azərbaycan türklərinin ərəbcə öyrənməsinin mürəkkəbliyi şəraitində, Quranın doğru anlaşılması məqsədi ilə islam mədəniyyətini düzgün dərk etməyə kömək edən bir sıra qiymətli əsərlər yazıldı. Onlardan biri də Mir Məhəmməd Kərim əl-Bakuvinin "Kəşful-həqayiq" ("Həqiqətlərin kəşfi") adlı üç cidlik "Quran" təfsiri əsəridir ki, Tiflisdə Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə çap edildi[2]. Bu əsərin nəşri islam aləmində böyük əks-səda yaratdı[***].

---

[1] Fərhadov Ə. XIX-XX əsrin əvvəlləri Şimali Azərbaycanda xristian missionerliyi tarixindən. AMEA-nın Xəbərləri: tarix, fəlsəfə və hüquq seriyası. Bakı, 2014, № 1, s.49-59.

[*] Qraf İ.F.Paskeviç 1827-1830-cu illərdə Qafqazın canişini.

[**] Kilsə üsul- idarəsində vəzifə sahibi.

[2] Əl-Bakuvi Mir Məhəmməd Kərim Mircəfər. Kəşful-həqayiq. 3 cilddə, Tiflis, 1904.

[***] Müsəlmanlar arasındakı məzhəb ixtilaflarını yox edib, onları bir arada birləşdirmək arzusuna uygun gələn bu əsərin müəllifinə II Əbdülhəmid tərəfindən ağ platindən səkkiz guşəli medal, İrandan isə "Şiri-xurşid"medalı təqdim olundu (bax: Fərhadov Ə. Ərəb qrafikası ilə yazılmış bəzi əsərlər haqqında. Milli Azərbaycan Tarixi Muzeyi-2012. Bakı, "Elm", 2012, s.80-93)

Sovet hakimiyyətinin ilk illərindən keçən əsrin 80-ci illərinədək olan dövr bütün müsbət və mənfi çalarlarıyla birlikdə həm də ateizmin qələbəsi və dini mədəniyyətin demək olar ki, ən aşağı həddə düşməsi ilə də tarixə düşmüşdür. Ölkədəki bir çox memarlıq abidələri (məscidlər, minarələr, xanəgah, türbələr və s.) müsəlman abidələri hesab edilərək dağıdılmış, üzəri ərəb yazılı abidələr, hətta dekorativ ərəb yazılı xalçalar belə islam dini ilə əlaqələndirilərək məhv edilmişdi. Bu dövrdə görkəmli din xadimlərinin, o cümlədən Axund Mövlazadə Şəkəvi, Axund Ağa Cavad oğlunun əsərləri kitabxanaları qarışıq talan edilib yandırılmışdı[1]. Lakin bəzi tədqiqatçılarımız mənəvi irsimizin məhv olunmaqdan qorunması üçün əllərindən gələni əsirgəməmişlər. Qətran Təbrizi divanının ilk çapını gerçəkləşdirən Məhəmməd Əli Naxçıvani yazırdı: "Çoxdan idi bu arzudaydım ki, Qətran Təbrizinin, Azərbaycanın min il bundan əvvəlki tarixi haqqında yeganə sənəd olub, əlimizə gəlib çıxan bütün şeirlərini toplayıb çap etdirim. Mən ona görə bu fikirdə idim ki, onun bu mövcud şeirləri də müxtəlif hadisələr nəticəsində məhv olub aradan getməsin"[2].

İslam və islam mədəniyyətinə münasibətdən irəli gələrək islam dini ilə əlaqədar aparılan elmi tədqiqat əsərləri də obyektivlikdən uzaq olmuşdur. Sovet dövrünün "Domokl qılıncı" yaradıcı insanların başı üzərində hazır dayandığından hər hansı bir problemi obyektiv təhlil etmək və tarixi həqiqətləri üzə çıxarmaq həmin dövrün tədqiqatçıları üçün olduqca mürəkkəb məsələ idi. Tarixçilərin qarşısında sanki "Çin səddi" dayanırdı. Belə ki, bəzən islam mədəniyyətinə aid, o cümlədən islam dinindən bəhs edən mənbələr tədqiqata cəlb olunmur, ya da tarixə aid kitablar yazılarkən bu mövzunun üzərindən sükutla keçilirdi. Hətta ilk mənbədən gətirilən iqtibaslarda təhriflərə yol verilirdi. Bağışlanmaz haldır ki, belə əsərlərdən iqtibas gətirən müasir alimlərimizdən bəziləri hələ də eyni səhvləri təkrar edirlər.

XX əsrin əvvəllərində sərt şəkildə qəbul etdirilən, dövlət siyasətinin bir "qoluna" çevrilən ateizm 60-80-ci illərdə bir qədər zəiflədi. Həmin illərdə elmi mühitin də nisbətən normallaşması Azərbaycan tarixşünaslığına da müsbət təsir göstərmiş, ölkənin qədim və orta əsrlər tarixinə aid sanballı və böyük əhəmiyyətli elmi tədqiqat işləri yazılmış, mənbəşünaslıq məktə-

---

1 İslam ensiklopedik lüğəti. Bakı, "Elm", 2013, s.515-517 .
2 Qətran Təbrizi. Divan, Təbriz, 1333, müqəddimə, s.5.

bi formalaşmağa başlamışdır. Bu baxımdan, araşdırılan dövr üçün Azərbaycan şərqşünaslarından Ziya Bünyadov, Nailə Vəlixanlı, Zakir Məmmədov, Malik Mahmudov, Məmməd Şəriflinin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Ərəbdilli mənbələrin oxunması və araşdırılması üçün əsas şərt olan ərəb dilinin öyrədilməsi sahəsində Azərbaycan Dövlət Universiteti Şərqşünaslıq Fakültəsinin Ərəb dili kafedrası və onun yaradıcısı prof. Ələsgər Məmmədovun, həmçinin ilahiyyat elmləri tədqiqatçısı, "Qurani-Kərim"i dilimizə çevirənlərdən biri akademik Vasim Məmmədəliyevin böyük rolu olmuşdur.

Qeyd etmək lazımdır ki, dünya muzey və kitabxanalarına səpələnmiş mənbələrin çoxluğu onların tədqiqat işinə cəlb olunmasını çətinləşdirir. Müxtəlif mədəniyyət mərkəzlərinə səfər edən həmvətənlərimiz öz əlyazmalarını da həmin ölkələrə aparmışlar. Ona görə də onların ölkəmizdə[1*], dünya muzey və kitabxanalarında saxlanılan əlyazmalarının tədqiqi də aktuallıq kəsb edir. Təkcə ərəb ölkələrində deyil, Türkiyədə, İranda, hətta Hindistanda da belə əlyazmaların olması barədə məlumatlar vardır[2]. 1975-ci ildə özbək tədqiqatçıları Hindistanda qorunan Azərbaycan, özbək və fars-tacik ədəbiyyatı ilə bağlı 254 əlyazmanın təsvirini vermişdilər. Salarcanq şəhəri muzeyindəki Azərbaycan və özbək dillərində olan əlyazmalar isə muzeyin kataloquna daxil edilməmişdir[3]. Kəşmir şəhəri şairlərindən Şeyx Yaqub Sərfi, Əşrəf Bülbül, Bəhaiddin Bəha, Amid Şah Abadi və başqalarının böyük şair Nizami Gəncəvinin əsərindən bəhrələnərək yazdıqları "Xəmsə" və s. hələ çap olunmamışdır[4]. Azərbaycanın bir sıra mədəniyyət xadimlərinin həmin şəhərin kitabxanalarında saxlanan əlyazmalarının da bir çoxu hələlik gün üzü görməmişdir. Hələ də dünya ölkələ-

---

* Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elm və mədəniyyət tarixinə dair 50 mindən artıq müxtəlif çeşidli əlyazmalar, arxeoqrafik sənədlər, qədim çap kitabları, əski mətbuat materialları, elektron surətlər, mikrofilmlər və müasir ədəbiyyat saxlanılır.

2 Сулейманов Х.С. Хафиз Хорезми//Памятники культуры. Ежегодник. Ленинград, "Наука", 1982.

3 Əliyeva N.A. Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli ədəbiyyatın rolu (XI-XIII əsrlər), Bakı, "Elm və Təhsil" ,2015, s.5.

4 Qafar Kəndli. Azərbaycan şairləri Kəşmirdə. Azərbaycan Elmlər Akademiyasının Xəbərləri, İctimai Elmlər Seriyası, 1963, № 2, s.69-70.

rinin arxiv və kitabxanalarında, həmçinin şəxsi kolleksiyalarda saxlanan və xalqımıza mənsub olan əlzyazmalar tədqiqatdan kənarda qalmışdır. Onlardan çox az adamın xəbəri vardır. Bu hal bir daha göstərir ki, xarici ölkələrin kitabxanalarında, ayrı-ayrı fondlarda, şəxsi kolleksiyalarda saxlanılan, haqqında az və ya çox dərəcədə məlumat olan əsərlər tədqiq olunmalı, dünya ictimaiyyətinə çatdırılmalıdır.

Azərbaycanın görkəmli şəxsiyyətlərinə aid materialların bir qismi akademik Ziya Bünyadov tərəfindən respublikamıza gətirilərək elmi ictimaiyyətə çatdırılmışdır. Əlyazmalar İnstitutunun əməkdaşı t.e.d. Fərid Ələkbərov 2011-ci ildə Vatikandan, bu yaxınlarda isə Parisdən indiyədək bizə naməlum və Azərbaycan elmi üçün yeni olan orta əsrlərə aid əlyazmalar gətirmişdir[1]. O, Vatikanın arxivlərində apardığı tədqiqatlar nəticəsində belə qənaətə gəlmişdir ki, orta əsrlərdə Azərbaycanda mövcud olmuş dövlətlərin hökmdarları missionerlər vasitəsilə Vatikana məktub və kitablar göndərmiş, cavab və kitab hədiyyəsi almışlar. Bu dövlətlər arasında müəllif tədqiqata cəlb etdiyimiz Atabəylər dövlətrinin də adını çəkir. Nəinki xaricdə, hətta Respublikamızın müxtəlif bölgələrində evlərdə saxlandığına görə, tədqiq olunmamış əlyazmalar mövcuddur. Keçmişdə damlarda, divarlarda və torpaq altında saxlanılan əlyazmaların bir qismi əldə edilərək, satışa çıxarılmış və təəssüf ki , dövlət müəssisələri tərəfindən alınmadığı üçün çoxu ölkə xaricinə çıxarılmışdır. Beləcə çox dəyərli Azərbaycan mədəniyyət nümunələrinin bir hissəsi əldən çıxmışdır. Az sayda əsər mühafizə edilmiş, xaricə çıxarılmalarına mane olunmuşdur. Bir neçə il öncə Milli Azərbaycan Tarix Muzeyi rayonlarda ayrı-ayrı şəxslərin evlərində saxlanan əlyazmalar əldə etmişdir. 21 əlyazmadan ibarət olan bu kolleksiyada XI-XIX əsrlərdə yazılmış nadir və maraqlı əlzaymalar var. Onların arasında iki təfsir, XVIII və XIX əsrlərdə yazılmış üç ədəd Qurani-Kərimin əlyazması, Həsən əl-Kaşinin IX əsrdə fars dilində yazdığı və Azərbaycanda üzü köçürülmüş təfsir kitabı, Nəsirəddin Tusinin fars dilində yazdığı və Əli ibn Mirzə Məhəmməd Zaman əl-Xoyi tərəfindən üzü köçürülən "Bəyani məarifəti iman və islam" əlyazma kitabı, islam dünyasında ən çox məşhur olan Quran təfsirlərindən biri, XVIII əsrdə

[1] Paris Milli Kitabxanasında saxlanılan əsərlərimizin surətləri AMEA Əlyazmalar İnstitutuna gətirilmişdir. "Elm" qəzeti, № 1-2(1059-1060), 23 yanvar 2013-cü il, s.11.

üzü köçürülmüş,cildinin özü belə sənət nümunəsi olan Bəyzavi ət-Təbrizinin təfsir kitabı da bu kolleksiyadadır. Bu nadir nüsxələr Şəki, Qusar və Quba ərazisindən toplanmışdır. Belə əlzaymaların tədqiq edilərək elmi ictimaiyyətə çatdırılması elmimiz qarşısında duran aktual problemlərdəndir.

Müasir dövrdə, dünya mədəniyyəti tarixində islamın oynadığı rol, onun bəşər mədəniyyətinə verdiyi töhfələr beynəlxalq konfrans və simpoziumların müzakirə obyektinə çevrilmişdir. 1998-ci ildə "İslam sivilizasiyası Qafqazda", 2009-ci ildə "Bakı-islam mədəniyyətinin paytaxtıdır", 2015-ci ildə "İslam maarifçiliyi və müasir dövr" mövzusunda keçirilən beynəlxalq konfranslar, 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili" elan olunması, IV İslam Həmrəyliyi Oyunlarının və elə həmin il "İslam Əməkdaşlıq Sammiti"nin keçirilməsi Azərbaycanın islam mədəniyyəti sistemində oynadığı rolu ortaya çıxartmaqla, belə tədbirlərin təkcə Azərbaycan üçün yox, bütün islam aləmi üçün əhəmiyyətini göstərmişdir. Tarixi həqiqətləri görkəmli alimlərimizlə bərabər dövlət rəsmilərimiz də beynəlxalq aləmə çatdırmış, yüksək tribunadan öz sözlərini demişlər. Qafqazda islamın Azərbaycandan başladığını vurğulayan ulu öndər Heydər Əliyev "İslam sivilizasiyası Qafqazda" mövzusunda 1998-ci il dekabr ayının 10-da Bakıda təşkil olunan Beynəlxalq simpoziumda demişdir: "... Məlumdur ki, Qafqazda islamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır. İslam Qafqaz xalqlarına səadət, xöşbəxtlik gətiribdir, inkişaf, islami dəyərlər gətiribdir. Müqəddəs kitabımız Qurani Kərimdən gələn islami dəyərlər, Qafqaz xalqlarının milli-mənəvi dəyərlərinin əsasını təşkil edibdir".

Yaradılmış bir sıra fond və cəmiyyətin orta əsrlər Azərbaycan mədəniyyətinin tədqiqi və təbliğindəki rolu təkzibedilməzdir.

Xilafət tərkibinə daxil olan və islam mədəniyyətinin yayıldığı Azərbaycanın tarixi sərhədlərinin müəyyənləşdirilməsi problemləri elmi ədəbiyyatda yenidən müzakirə mövzusuna çevrilmişdir. Akademik Nailə Vəlixanlı "Azərbaycan" inzibati-siyasi termininin ərəb müəllifləri tərəfindən yalnız Azərbaycanın cənubuna (indiki İran İslam Respublikasının şimal qərbi) aidliyi iddiası ilə çıxış edən bəzi tədqiqatçıların (A.Şaginyan və b.) iddialarının əsassız olduğunu göstərir, eləcə də, Araz çayından şimalda olan ərazilərin (müasir Azərbaycan Respublikası əra-

zisinin) guya avtoxton erməni əhalisinin yaşadığı "Persarmeniya, Paytakaran və Vaspurakan" deyil, mənbələrdə həmçinin Yuxarı (yəni şimal) Azərbaycan və ya sadəcə Azərbaycan adlandırılan Arran vilayətinə aidliyini təsdiq edir[1].

Öyrənilən dövrə aid ərəb, fars və erməni mənbələrindəki terminlərin bəzisinin müasir tarixçilərin əsərlərində interpretasiya edilərək təhrif olumuş şəkildə verilməsi, terminoloji problemin artıq yeni səviyyədə, tədqiqat səviyyəsində təkrarlanmasına gətirib çıxarır. Mənbələrə görə, XIII əsrin əvvəllərində Cənubi Qafqaz bölgəsində Gürcü çarlığı, Atabəylər Dövləti və yarımüstəqil Arran mövcud idi. Ərminiyə adı altında verilən bölgə isə mərkəzi və digər atributları olan müstəqil dövlət kimi təqdim edilirdi ki, bu da mənbələrin təhrif olunması deməkdir. Tədqiqatçı D.M.Tімохin haqlı olaraq Ərminiyənin siyasi mənada işlədilməsini orta əsr ərəb və fars mənbələrinin təhrif olumuş şəkildə çatdırılması kimi qələmə verir[2].

Acınacaqlı hallardan biri də orta əsr mənbələrindəki kitabların adlarının da təhrif olunmasıdır. Misal üçün, Gəncəli Kirakosun 1946-cı ildə T.Ter Qriqoryan tərəfindən tərcümə edilən əsəri "Tarix" adlandığı halda, həmçinin həmin əsərin ilkin variantlarından birinin də K.Patkanov tərəfindən bu şəkildə verildiyi halda, 1976-cı ildə L.Xanlaryan tərəfindən rus dilində çap edilən variantı "Ermənistan tarixi" adlanır. Eyni tarixi mənbənin fərqli ad daşıması, bu fakta naşir və tərcüməçinin heç bir izah və ya şərh verməməsi təəccüb doğurur.

Azərbaycanın orta əsrlərə dair mədəniyyət tarixinin öyrənilməsi məsələsində son zamanlar xeyli uğur qazanılmış, çoxsaylı mənbələr tərcümə və tədqiq olunmuş, elmi ictimaiyyətə təqdim edilmişdir. Bununla yanaşı, Azərbaycan orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrilə Xilafət tərkibində olduğuna görə, onun bu ölkələrlə mədəni əlaqələrinin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu sahədə də bir sıra nailiyyətlər əldə

[1] Велиханлы Н.М. Еще раз о пределах Азербайджана IX-X веков//Москва, Вопросы истории, № 9, 2017, стр.110-119.

[2] Тимохин Д.М.Об использовании понятия «Армения» при описании истории Южного Кавказа первой половины XIII века: проблемы интерпретации источников в отечественной историографии //Материалы III Международной научно-практической конференции. ВГУ имени П.М. Машерова, Витебск, 2015, стр.66-69.

olunmuşdur. Lakin, Azərbaycanın orta əsrlər iqtisadi-siyasi həyatının öyrənilməsində qazanılan uğurlar mədəniyyət sahəsinin araşdırılmasını hələ də üstələməkdədir. Müqayisə üçün deyə bilərik ki, əgər Xilafət tərkibində olan Azərbaycanın və onun ayrı-ayrı şəhərlərinin iqtisadi-siyasi həyatı işıqlandırılarkən mədəni həyata toxunulsa da[1], orta əsrlərdə Azərbaycan mədəniyyətinin təkamülünün başlıca mərhələləri tədqiq edilsə də[2] və islam

---

[1] Академик З.М.Буниятов. Избранные сочинения в трех томах. Баку, “Элм”, 1999; Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана. Баку, Изд-во Акад. наук АзССР, 1956; Şərifli M.X. IX-XI əsrlər Azərbaycan feodal dövlətləri, Bakı, “Elm”, 1973; Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyasünas səyyahları Azərbaycan haqqında. Bakı, “Elm”, 1974; Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, “Azərnəşr”, 1993; Велиханова Н.М. Ибн Хордадбех. Книга путей и стран. Баку, «Элм», 1986; Vəlixanlı N.M. Naxçıvan-ərəblərdən monqollaradək (XII-XII əsrlər). Bakı, “Elm”, 2005; Vəlixanlı N.M. Naxçıvan VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan, 2015; Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə.: tarix, mənbələr, şərhlər. Bakı, “Elm və təhsil”, 2016; Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, “Elm”, 1977; Ахмедов Г.М. Средневековый город Байлакан, Баку, 1979; Джидди Г.А. Средневековый город Шемаха IX-ХУП века. Баку, «Элм», 1981; Гейдаров М.Х. Города и городское ремесло Азербайджана ХШ-ХУШ вв. Баку, Изд-во Акад. наук АзССР, 1982; Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку, «Элм», 1983; Ашурбейли С.Б. История города Баку. Период средневековья. Баку, «Азернешр», 1992; Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку,1987; Cəfərzadə İ.Qədim Gəncənin tarixi-arxeoloji oçerki. B.,1947; Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi. Bakı, “UniPrint”, 2000; Fərzəlibəyli Ş.F. Quba tarixi. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2001; Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı, “Bakı Universiteti”, 2001; Abbasova F.Ə. Şabran. Bakı, “Elm”, 2002; Piriyev V. Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, “Nurlan”, 2003; Naxçıvan tarixi. Üç clddə. I cild, Naxçıvan,”Əcəmi”, 2013. Мамедов Р.А. Города северного АзербайджанаVII-XIV вв. Б., “Elm və təhsil”, 2015; İbrahimov K.F. Bakı İşərişəhər. II cildlik. Bakı, 2006; Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва, 2000; Гаджиев М.С. Древний город Дагестана. Москва, 2002; Кудрявцев А.А. Великий город на Каспий. Махачкала: Даг. книж. изд-во 1982; Кудрявцев А.А. Феодальный Дербент: пути и закономерности развития города в VI - середине XIII в. М.,1993; Кудрявцев А.А., Кудрявцев Е.А. Феодальный город Северного Кавказа. (средневековый Дербент в VI-XIII вв. ). – Ставрополь, Изд-во СКФУ, 2015.

[2] Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, “Azpoliqraf”, 2008.

elmi-mədəni mühiti bioqrafik mənbələr əsasında öyrənilsə də[1], Xilafətin monqollaraqədərki dövrü ərzində Azərbaycan mədəniyyətinin İslam mədəniyyətinin bir parçası kimi işıqlandırılması yönündə Azərbaycan tarixşünaslığında atılan hər yeni addım ölkəmizin mədəniyyətinin öyrənilməsi üçün çox vacibdir. Akademik Z.M. Bünyadov haqlı olaraq göstərir ki, orta əsrlər Azərbaycan ziyalılarının Yaxın və Orta Şərq dövlətlərinin ictimai və mədəni həyatının müxtəlif sahələrində elmi və ictimai-siyasi fəaliyyətləri o qədər genişdir ki, onlar haqqında hətta kiçik bir məlumatın belə, bizim o dövrün tarixi və mədəniyyəti haqqında biliyimizi artıracağı sözsüzdür[2].

Ümidvarıq ki, orta əsrlərə aid çoxsaylı mənbələrin istər yerli, istərsə də xarici mütəxəssislər tərəfindən araşdırılması, bu sahədə aparılan tədqiqatlar, daha qədim mənbələrin aşkarlanması, ortaya çıxarılan yeni faktların, həmçinin geniş ictimaiyyətə təqdim edilən əsərlərin İslam mədəniyyətində Azərbaycanın mövqeyini öyrənmək baxımından böyük faydası olacaqdır.

[1] Əliyeva N.Ə. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu", 1999; Əliyeva N.Ə. Əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi.Bakı, "Şərq-Qərb", 2010; Əliyeva N.Ə. İbn Makula azərbaycanlı alimlər haqqında. Bakı, "Turxan", 2014; Əliyeva N.Ə. Azərbaycanlı alimlərin elmi əlaqələri və tədris fəaliyyəti. Bakı, "Turxan", 2015; Azərbaycanın elmi mühitinin öyrənilməsində bioqrafik ədəbiyyatın rolu. Bakı, "Elm və təhsil", 2015; Алиева Н.А. Ибн Макула о мухаддисах Азербайджана. Москва, Серия восточная библиотека, НИИ ИЭП, 2016.

[2] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья третья)//Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1980, №2, стр.59.

# I FƏSİL

# BAŞLICA MƏNBƏLƏR VƏ ELMİ ƏDƏBİYYATIN İCMALI



### 1.1. Mövzuya dair qaynaqlar barədə

Azərbaycan tarix elminin müasir səviyyəsi tələb edir ki, tədqiqat və maraq dairəsini genişləndirməklə daha dərinlərə nəzər salaq, islam fütuhatından sonrakı ilk əsrlərdə Azərbaycan xalqının bu və ya digər dərəcədə bağlı olduğu millətlərin xəzinəsində gizlənmiş ziyalılarımız haqqında məlumatları üzə çıxaraq. Bu baxımdan Xilafət tərkibində yaşayıb yaradan müxtəlif millətlərdən olan müəlliflərin ərəb dilində yazdıqları əsərlərindən faydalanaraq hər bir yeni məlumatın üzə çıxarılması irəliyə doğru növbəti bir addımdır.

Azərbaycanın orta əsrlər mədəni həyatının öyrənilməsi; - Şəhərin intellektual mühitini formalaşdıran şəxsiyyətlər və onların əsərləri haqqında bütöv təsəvvürün yaradılmasında, Azərbaycan ziyalılarının ümummüsəlman mədəniyyəti kontekstində rolunun aşkarlanmasında ərəbdilli bioqrafik janrda yazılmış mənbələrin misilsiz əhəmiyyəti vardır. Monoqrafiyada XI-XIII əsrlərdə yaşayıb-yaratmış ərəbdilli bioqrafik janr nümayəndələrinin əsərlərinə geniş istinad edilmişdir. Əd-Daraqutni (918-995) Xətib Bağdadi (v.e. 1071-ci il)[1], İbn ən-Nədim[2], Hakim Nişapuri (h. 300 (912)-cü illərin II yarısında)[3], İbn Makula (v.e. 1095)[4], əs-Səmani (1113-1167)[5], İbn Nöqtə (v.e. 629/1232)[6], Əbu Tahir əs-Siləfi (1085-1180)[7], İbn əs-Sabuni (1207-1282)[8], İbn Xəllikan (1211-1282)[9], İbn Əbi Useybiyə (v.e. 1269), İbn əl-Qifti (v.e. 1248), İbn əl-Qaysarani[10], İbn əl-Cavzi[11], Əbülfəllah

---

[1] Xətib ibn Əbu Bəkr əl-Bağdadi. Tərixu Bağdad, Qahirə, 1938.
[2] İbn ən-Nədim Məhəmməd ibn əbu Yaqub. Fihrist. Misir, 1348.
[3] Hakim Nişapuri.İ'dəd əş-Şeyx Kamil Məhəmməd Uveyda. Beyrut, 1961.
[4] İbn Makula. Əl-İkməl fi raf'il-irtiyəb an mu'xəlif va-l müxtəlif fil-əsmə va-l kunə va-l ənsab. Beyrut, 1990.
[5] Əs-Səmani Əbu Səad Əbdülkərim ibn Məhəmməd. Əl-Ənsab. Beyrut, 1998.
[6] İbn Nöqtə. Ət-Taqyiid li-məarifət ruvat əs-sunən val məsənid. Nəşru Yusif əl-Hud. Beyrut, 1998.
[7] Əs- Siləfi Əbu Tahir ibn Məhəmməd. Mucəm əs-Səfər//www.mostafa.com
[8] İbn əs-Sabuni. Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. Beyrut, 1990.
[9] İbn Xəllikan. Vəfayət əl- ə'yən. Qahirə, 1981.
[10] İbn əl-Qaysarani. Əl-Mutəlif val Müxtəlif. Beyrut, 2001.
[11] İbn əl-Cavzi.Əl-Muntəzəm li İbn əl-Cavzi. Heydərəbad, 1938-1940.

əl-Hənbəli[1], Yaqut əl-Həməvi (1178-1179-/1226-1227)[2], İbn əl-Füvati[3], əl-Əskəlani[4], əz-Zəhəbi[5], İbn Qutlubuğa[6], İbn Səad əl-Bəsri[7], Hacı Xəlifə[8], əs-Suyuti[9] və digər ərəbdilli müəlliflərin bioqrafik janrda yazılmış əsərlərində Azərbaycan mədəniyyətinin formalaşmasında böyük rol oynamış elm adamları barədə maraqlı məlumatlar verilmişdir. Bu əsərlərdə elmli şəxslər digərlərindən fərqləndirilmiş, böyük nüfuzu olan alimlər yüksək dəyərləndirilmişlər.

*İbn-Makulanın* (XI əsr) onomastika əsərləri seriyasından sayılan "Əl-İkməl fi raf'i-l-irtiyəb ani-l-mu`təlif va-l-muxtəlif fı-l-əsmə va-l-kunə va-l-ənsab”("İsim, künyə və ləqəblərdəki oxşar və müxtəliflik üzərində olan şübhələrin aradan qaldırılmasının başa çatdırılması”) əsərinin ayrı-ayrı məqalələrində azərbaycanlıların adları oxşar adlarla qruplaşdırılaraq verilmişdir. Əsərdə azərbaycanlıların adları, yaşadıqları dövr, onların ixtisasları və yeri gəldikcə mədəni həyatda tutduqları mövqe dəqiqləşdirilir.

*Əbu Tahir əs-Siləfinin* (1085-1180) “Mucəm əs-Səfər” (“Səfərlər toplusu”) əsərindən monoqrafiyada ilk mənbə kimi bir sıra yeni məlumatlar əxz edilmişdir. Azərbaycanla yaxından bağlı olan alim, hədis toplamaq arzusu ilə səyahət edərkən dövrünün çoxsaylı tanınmış şəxsləri ilə görüşmüşdür. Əs-Səmani, Yaqut əl-Həməvi kimi səyyah, ensiklopedik alimlərdən fərqli olaraq, Əbu Tahir təkcə Cənubu Azərbaycan şəhərlərinə deyil, həmcinin Araz çayından şimala, Arran, Şirvan və Naxçıvana da səyahət etmişdir. Ümumiyyətlə, onun səyahəti uzun müddət, yəni on illərlə davam etmişdir. Onun, xüsusilə, Gəncə mədrəsəsi və müdərrisləri, Şirvan,

---

1 Əbülfəllah əl-Hənbəli. Şəzərat əz-zəhəb fi əxbar mən zəhəb lil-müərrix əl-fəqih əl-ədib Əbifəllah ibn Əbdülhayy ibn əl-İbad. Beyrut.

2 Yaqut əl-Həməvi. Mucəm əl-Üdəba’. Nəşru Marqolius.1907-1937; Mucəm əl-Buldən. Beyrut, 1977; Əl-Muştərik vad’an va-l muftarik suq’an. Vyana, 1846 .

3 İbn əl-Fuvati.Təlxis məcm’ə əl-ədəb fi mucəm əl-əlqab. Lahor, 1934.

4 Əl-Əskəlani Əbu Həcər. Əl-İsər bi-məarifət ruvat əl-Əsar. Beyrut, 2009.

5 Əz-Zəhəbi Şəmsəddin. Kitab təzkiratil-huffaz. Heydərabad, 1955-1956.

6 İbn Qutlubuğa Zeynəddin Qasim. Tərixu-t-təracim fi tabəqati-l-hənəfiyyə. Bağdad, 1962.

7 İbn Səad Məhəmməd ibn Səad ibn Məni’ əl-Həşimi əl-Bəsri. Ət-Tabəqat əl-kubra. Beyrut, 1997.

8 Hacı Xəlifə.Kəşf əz-zunun. Dər Səadə, 1301.

9 Əs-Suyuti Cəlaləddin Əbdürrəhman İbn Əbu Bəkr. Nuzum əl-’iqyən fil-ə’ayənil- ə’ayən. Nyu-york, 1927.

Təbriz, Ərdəbil,Vəravi, Səlmas, Marağa, Mərənd, Xoy, Əbhər, Sərav, Zəncan alimləri haqqında başqa mənbələrdə olmayan qiymətli məlumatlar vardır.

Dövrün xüsusiyyətlərinə görə islam faktoru milli faktoru üstələyirdi. Buna görə də ərəb dünyası mədəniyyətinin təkamülünü tədqiq edən İ.Qoldziher (1850-1921) milliliyi haqlı olaraq müxtəlif millətlərin eyni dərəcədə tabe olduqları ümummüsəman mədəniyyəti cərəyanı kimi qəbul edir[1]. Bioqrafik ədəbiyyatda ziyalı haqqında məlumat verilərkən ziyalının adından sonra gələn nisbəyə görə onun haralı olmasını müəyyənləşdiririk (məs, əgər ziyalının adından sonra "əş-Şirvani" nisbəsi gəlirsə, onun şirvanlı olmasını qəbul edirik-N.Ə.). Əbu Tahir əs-Siləfinin "Mucəm əs-Səfər" əsərində yalnız bir yerdə, "mənşə" sözü qeyd olunur. Əs-Siləfi Misirdə doğulan ərdəbilli Yusif və atası Əbu Məhəmməd ibn Yusifi (h. 467-524/1074-1129) doğulduğu yerə və mənşəyinə görə "azərbi" adlandırmış və bunun atasının xətti ilə yazıldığını görmüşdü[2].

*İbn Nöqtənin* (v.e. 629/1232) "Təkmilət-ul-İkməl" (İkməlin təkmilləşdirilməsi") əsəri İbn Makulanın "əl-İkməl" əsərinə əlavədir. İbn Nöqtənin əsərinin əlyazmasının bir hissəsi 622 saylı nömrə ilə Britaniya muzeyində saxlanılır. Bu hissə "d" hərifindən "s" hərifinə qədərdir. Biz İbn Nöqtənin "Kitab ət-Təqyid li-məarifət ər-ruvat va-s-sünən va-l-məsənid" ("Sünnə və müsnəd ravilərinin qeydiyyatı") əsərini də tədqiqata cəlb etmişik. "Ət-Təqyid" əsəri "hafizlərdən Məhəmməd ibn Tahir əl-Müqəddəsi və Əbu Musa əl-İsfahaninin kitablarına əlavə olaraq yazılmış nisbələr haqqında lətif kitabdır"[3]. Azərbaycanlı ziyalılar haqqındakı İbn Makulanın "İkməl" əsərində mövcud olmayan, lakin İbn Nöqtənin "İкməlil-ikməl" və "ət-Təqyid" əsərində qeyd olunan məlumat tədqiqatda yeri gəldikcə əlavə informasiya kimi verilmişdir.

Azərbaycan tarixşünaslığında yeni üzə çıxarılan mənbərdən biri də Əbu Hamid Məhəmməd *İbn əs-Sabuninin* (604-680/1207-1282) "Kitab Təkmilət İkməlil ikməl" ("İkməl"in əlavəsinin təkmilləşdirilməsi") əsəridir. İbn əs-Sabuni İbn Nöqtənin üstündən sükutla keçdiyi şəxsiyyətlərin qeyd

1 Бартольд В.В. Ислам. Сочинения, т. IX. Москва, «Восточная литература», 1977, стр.729.

2 Əbu Tahir əs-Siləfi.Mücəm əs-səfər. № 1555.

3 İbn Nöqtə. Ət-Taqyiid li-məarifəti ruvati-s-sunən va-l-məsənid. Nəşru Yusif əl-Hud. Beyrut, 1998.

olunması arzusu ilə bu əsəri yaratmışdır[1]. Onların arasında azərbaycanlılar da göstərilir. Mustafa Cavad tərəfindən nəşrə hazırlanmış bu kitab iki dəfə - birinci dəfə 1957-ci ildə Bağdadda, ikinci dəfə 1990-ci ildə Beyrutda çapdan çıxmışdır. Əsərdə müəllif daha çox mühəddislərə[*] yer verir. Mühəddislərlə (hədis bilicisi) bərabər alim, müdərris, müfəssir (şərhçi) vəzir, ədib, yazıçı, təbib, tarixçi, vaiz (moizəçi), sufi, nəssəx (yazı üzü köçürən), mücəllid (cildçi), sahibkar və başqaları haqqında məlumatlar da bu kitabda toplanmışdı. Mustafa Cavada görə, müəllifin öz elmi ilə şöhrət tapmış qadınlara yer verməsi, onun əsərinin əhəmiyyətini daha da artırır[2].

Bioqrafik janrda yazılmış əsərlər arasında *əs-Səmaninin* "Kitab əl-Ənsab" əsəri[3] xüsusi yer tutur. "Kitab əl-Ənsab" əsəri islam dünyasının bir çox xalqları, o cümlədən Azərbaycanın coğrafiyası, tarixi və mədəniyyət tarixi üzrə qiymətli mənbələrdən sayılır. XII əsrdə yazılmış bu əsər təkcə öz dövrünün deyil, həmçinin IX–XI əsrlərin də məlumatını özündə ehtiva edir. Əsərin əsas qayəsi nisbələri[**] əsas götürməklə ziyalılar haqqında bilgini artırmaqdır. Azərbaycanlıların hansı əlamətlərinə görə Xilafət tərkibində olan digər xalqlardan seçilərək qeyd edilməsi bəzən mübahisəyə səbəb olur. Əs-Səmaninin Azərbaycanda olması, əldə etdiyi məlumata tənqidi yanaşması onun verdiyi informasiyanın mötəbər olması, yüz iyirmiyə yaxın azərbaycanlı ziyalının tərcümeyi-halı haqqında məlumatı əhatə etməsi Xilafətin ümummüsəlman mədəniyyətində rol oynamış Azərbaycanın mədəni həyatının öyrənilməsində köməyi vardır[4]. Eyni zamanda islam mədəniyyətinin təşəkkülündə yer almış azərbaycanlılar haqqında bir çox məlumatlar da bu məxəzdən alınmışdır.

Monoqrafiya yazılarkən Yaqut əl-Həməvinin "Mucəm əl-Buldən" və "Mucəm əl-üdəba" əsərləri ilə yanaşı omonimlər (yazılış və tələffüzünə görə eyni, yerləşdiyi yerə görə müxtəlif olan yer adları) haqqındakı

---

[1] İbn əs-Sabuni. Kitabu təkmiləti-ikməli-l ikməl.Naşir Mustafa Cavad.İraq, 1957.
[*] mühəddis-hədis bilicisi.
[2] Yenə orada.
[3] Əs-Səmani Əbu Səad Əbdülkərim ibn Məhəmməd. Əl-Ənsab. Beyrut, 1998; Əs-Səmani. Kitab əl-Ənsab.Leyden,1912.
[**] Nisbələr haqqında bax: Nərgiz Əliyeva. Orta əsr Azərbaycan ziyalılarının nisbələri haqqında. Öndər"(elm,ədəbiyyat, sənət jurnalı), № 02. Bakı, 2003, s.40-41.
[4] Əliyeva N.A. Əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi. Bakı, "Şərq-Qərb", 2010.

*"Kitab əl-Müştərik"* əsərindən bir çox mədəniyyət xadiminin mənşəyini götürdüyü yerlərin dəqiqləşdirilməsi üçün istifadə olunmuşdur[1].

Ərəbdilli müəlliflərdən *İbn Səad əl-Bəsri*[2]*, əz-Zəhəbi*[3]*, İbn Xəllikan*[4]*, İbn ən-Nədim*[5]*, Məsud ibn Namdar*[6]*; Takiəddin əs-Sübki*[7]*, Hacı Xəlifə*[8]*, İbn əl-Əsir*[9]*, İbn Həcər əl-Əsqəlani*[10]*, İbn əl-Fuvati*[11]*, Əs-Suyuti*[12]*, əl-Kəhhalə*[13]*, əz-Zərqəli*[14] və başqalarının bioqrafik janrda yazılmış əsərlərindən də istifadə olunmuşdur.

XI əsrdə Azərbaycanda islam mədəniyyətinin öyrənilməsi sahəsində iki mənbəni xüsusi olaraq qeyd etmək lazımdır. Bunlar *Nizamülmülkün* (Əbu Əli Həsən ibn Əli ət-Tusinin v.e.1092) "Siyasətnamə" və *Məsud ibn Namdarın* "Hekayələr, məktublar və şeirləri" dir. İki sultan hakimiyyəti dövründə dövləti idarə edən Nizamülmülkün "Siyasətnamə" əsərində orta əsrlər islam mədəniyyətində təhsil, əxlaq, davranış, nizam - intizam və s.haqqında məlumatlarla bərabər vəzirin yaşadığı dövrün sultanları və xəlifələri haqqında da qiymətli məlumatlar vardır.[15] Əslən Azərbaycandan olan Məsud ibn Namdarın qələmindən çıxan əsər isə Arran və Şirvanın XII əsrin əvvəlləri ictimai-mədəni həyatı barədə digər mənbələrdə təsadüf

---

1 Əliyeva N.A. Azərbaycan mədəniyyət xadimlərinin adlarının dəqiqləşdirilməsində "Kitab əl-müstərək" əsərinin rolu//Azərbaycan Tarixi Muzeyi-2003, Bakı, "Elm", 2003, s.322.

2 İbn Səad Məhəmməd ibn Səad ibn Mən'I əl-Həşimi əl-Bəsri. Ət-Tabəqat əl-Kubra. Beyrut, 1997, VII c.

3 Zəhəbi. Kitab təzkirat əl-huffaz, IV c., s.110-112

4 İbn Xalliqan. Kitab vəfayət əl-əyan və ənbə əz-zaman, I c. Qahirə, s.301.

5 İbn ən-Nədim Məhəmməd ibn əl-Yaqub. Əl-Fihrist. Beyrut, 1964.

6 Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и укаэатели В.М.Бейлиса. Москва, «Наука», 1970, 63 с, араб.текст)

7 Takiəddin əs-Sübki. Tabəqat əş-Şafiiyyə əl-kubra. IV c. Qahirə.

8 Hacı Xəlifə.Kəşf əz-zunun. Dər Səadə, 1301.

9 İbn əl-Əsir.Əl-lubab fi təhzib əl-Ənsab. Qahirə, 1357.

10 İbn Həcər əl-Əsqəlani .Əl-İsər biməarifət ruvat əl-Əsər, Beyrut, 2009.

11 İbn əl-Fuvati. Təlxis Məcm'ə əl-Ədəb fi mu'cəm əl-Əlqab, Lahor, 1934.

12 Cəlaləddin əs- Suyuti. Nuzum əl-'iqyan fi Ə'ayənul Ə'ayən

13 Əl-Kəhhalə Ömər Rza. Mu'cəm əl-Müəllifin. Beyrut, I-IV c.

14 Əz-Zərqəli Xeyruddin. Ə'aləm, Qahirə, 1954-1959, VI c., II nəşr.

15 Nizamülmülk. Siyasətnamə/Farscadan tərcümə, əsər və müəllif haqqında qeydlər R.Sultanovundur. Bakı, "Elm", 1987.

olunmayan məlumatlarla zəngindir. Əsərin Azərbaycanda yazıldığı və Azərbaycan şəhərlərinin həyatından bəhs etməsi onun qiymətini bir qədər də artırır[1].

Qeyd etmək yerinə düşərdi ki, İbn əl-Fuvatinin özünün yaşadığı dövrü əhatə edən məlumatı daha qiymətli olsa da, biz onun Azərbaycanın nəzərdən keçirilən dövrdəki elmi mühiti ilə bağlı materiallarını əks etdirməyə, yeri gəldikcə bu məlumatdan məqsədyönlü listifadə etməyə çalışmışıq.

*Şihabəddin əl-Qəlqəşəndinin* (1355-1418) müəllifi olduğu "Sübh əl-ə`şa fit sinaat əl-inşa" əsərindən bir mənbə kimi Arran və Tiflis və onun alimləri haqqında məlumatları əxz etmişik. Tiflis şəhəri haqqında məlumatlarda o, buranın işğaldan əvvəl Arranın olduğu, işğaldan sonra isə gürcülərin əlinə keçən bir şəhər olduğunu yazır. Qəlqəşəndi Tiflisi Bərdədən sonra Arran iqliminin ikinci paytaxtı kimi qeyd etmişdir[2].

Azərbaycanda islamın yayılması, ərəb qəbilələrinin Azərbaycana köçürülməsi, Azərbaycan şəhərlərində islam mədəniyyətinin yayılması və xəlifələrin bu istiqamətdə fəaliyyətlərinin öyrənilməsində tarixi qaynaqların böyük əhəmiyyəti vardır. *Ət-Təbəri (838-923)*[3], *əl-Bəlazuri (v.e.892)*[4], *əl-Yəqubi (IX)*[5], *İbn əl-Əsir*[6], *əl-Kufi (Xəsr)*[7], *İbn Kəsir*[8], *Şihabəddin ən-*

---

1 Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса. Москва, «Наука», 1970.

2 Əl-Qəlqəşəndi. Sübh əl-Ə'şa fi Sinaat əl-İnşa. Azərbaycanın və qonşu ölkələrin tarixinə aid çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Esmeralda Ağayeva//Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Vətən tarixi seriyası. AMEA akademik Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu. Bakı, "Nurlan", 2005, s.267.

3 Ət-Təbəri Əbu Cəfər ibn Cərir. Tarix ər-rusul val-muluk. Ən-nəşru-s-səni, əl-Qahirə, dərul-mə'arif, 1970

4 Əl-Bəlazuri. Kitab futuh əl-Buldən, Qahirə, 1954-1957.

5 əl-Yaqubi Əhməd ibn Əbu Yaqub ibn Cəfər. Ət-Tarix. Leyden-Brill, 1883; Ал-Якуби. История. Текст и перевод с араб. проф. П.Г. Жузе. Материалы по истории Азербайджана. Изд. Общества обследования и изучения Азербайджана, Выпуск IV, Б., 2-ая типография АЗГИЗА, 1927

6 İbn əl-Əsir. Kibab əl-kamil fit-tarix, Beyrut, 1980.

7 Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981.

8 İbn Kəsir. Əl-bidəyə va-n-nihayə. Dər ət-taqva. Mədinə Munavvara.

*Nəsəvi*[1], *Əbu Həfs ən-Nəsəfi*[2] kimi orta əsr müəlliflərinin əsərlərindən ərəb fəthləri dövrünün tədqiqi ilə əlaqədar istifadə olunmuşdur. Onların arasında əl-Yəqubi tarixən Azərbaycanla bağlı nəslin nümayəndəsidir. Onun ulu əcdadı Vadih xəlifə əl-Mehdi zamanında Misirdə, sonra isə Azərbaycanda yaşamışdır. Məhz buna görə də Azərbaycanla bağlı məlumatlarının əsasında onun şəxsi müşahidələri dayanır. Monoqrafiyada onun "Əl-Buldən" ("Ölkələr") əsərindən də müəyyən iqtibaslar verilmişdir[3].

Azərbaycanda olmasa da, istifadə etdiyi mənbələrə ciddi yanaşması, müşahidələrini əlavə şərh vermədən qələmə almış "Peyğəmbərlərin və hökmdarların tarixi" adlı fundamental əsərin müəllifi olan *ət-Təbərinin* (838-923) Azərbaycanla bağlı təsvir etdiyi hadisələr X əsrin iyirminci illərinə qədər davam etmişdir. Tədqiqatın ehtiva etdiyi dövrə aid sonrakı məlumatları *İzzəddin Əbülhəsən İbn əl-Əsirin (1160-1234)* "Əl-Kamil fit-tarix"("Mükəmməl tarix") *və Ərib ibn Səid əl-Qurtubinin* (X əsr) "Silət tarix ət-Təbəri" ("Təbəri tarixinin davamı") adlı əsərlərdən əldə etmişik. "Əl-Kamil fit-tarix" əsərinin ana xəttini Təbəridən əxz olunmuş məlumatlar təşkil etsə də, onun bir sıra fərqli cəhətləri vardır. Belə ki, İbn əl-Əsir ət-Təbəridən fərqli olaraq məlumatların qələmə alınması üslubunda çoxsaylı süjetlərin və ifadələrin təkrarından, təfərrüatı ilə nəql etmədən hadisələr haqqında fərqli düşüncələrin verilməsindən imtina etmişdir. Bununla yanaşı o, əsərini digər mənbələrdən götürdüyü yeni məlumatlarla tamamlamışdır. Erkən islam dövründə Azərbaycanda islamın yayılmasını öyrənmək üçün dəyərli mənbələrdən biri də Əbülabbas *əl-Bəlazurinin* (v.e.892-ci ildə) "Kitab fütuh əl-Buldən" ("Ölkələrin fəthi") kitabıdır. Yüksək dövlət mənsəbi olmasa da, xəlifə sarayı ilə bağlılığı əl-Bəlazuriyə özünə qədərki müəlliflərin əsərlərindən yetərincə yararlanmağa imkan vermişdir. Bununla yanaşı, o, istedadlı bir tarixçi məharəti ilə istifadə etdiyi məlumatların ən doğrusunu seçməyi

[1] Ан-Насави Шихаб ад-Дин Мухаммад ибн Ахмад ибн Али ибн Мухаммад ал-Мунши. Жизнеописание султана Джалал ад-Дина Манкбурны. Пер. с арабского, предисловие, комментарии, примечания и указатели З.М.Буниятова. Баку, «Элм», 1973.

[2] Наджм ад-Дин Абу Хафс Умар ибн Мухаммад ан-Насафи. Ал-Канд фи зикр улама Самарканд.//Общественные науки в Узбекистане. Ташкент, 1997, № 9-10-11.

[3] əl-Yaqubi Əhməd ibn Əbu Yaqub ibn Cəfər. Əl-Buldən. Leyden-Brill, 1891.

bacarmışdır. Əl- Bəlazurinin bu bacarığını akademik İ.Y. Kraçkovski xüsusi vurğulamışdır[1]. Bu baxımdan onun əsəri ümumxilafət xarakterli hadisələr müstəvisində hər bir ölkə, o cümlədən Azərbaycan tarixinə aid məlumatların təfsilatı və dəqiqliyi ilə seçilir. Azərbaycana aid məlumatlar əsasən ərəb fəthləri, müsəlman fatehlərin yerli xalqla münasibətlərində hüquqi təməllərin qurulması, etnoslararası inteqrasiya meyllərinin yaranması və s. məsələlərlə əlaqəlidir. Bunlar isə Xilafət tərkibində birləşmiş digər ölkələrlə yanaşı Azərbaycan tarixinin və onun bir hissəsi olan mədəniyyətini formalaşdıran cəhətlərin hansı məqamlardan qaynaqlandığını müəyyənləşdirməyə əsas verir.

Eyni adlı və məzmununa görə az fərqlənən əsərlərdən biri də X əsrin əvvəllərində Əbu Məhəmməd Əhməd ibn Əs`am *əl-Kufi (X əsr*) tərəfindən yazılmışdır[2]. Əsər Raşidi xəlifələri dövründən başlayaraq Abbası Xəlifəsi əl-Müstənsirin (866-868) hakimiyyətinə qədər olan tarixdə Xilafətin mərkəzində, eləcə də Azərbaycanda baş verən hadisələrdən bəhs edir. Hər hansı hadisədən daha çox, onun ətrafında cərəyan edən proseslərdən xəbər verməsi, eləcə də məlumatlarının həm zəngin, həm də yeni və orijinal olması əl-Kufini digərlərindən fərqləndirir.

Azərbaycanın tarixi coğrafiyası haqqındakı məlumatların da verildiyi *İbn Xordadbeh (820-912)*[3] *, Əbu Düləf (X əsr)*[4]*, əl-Məsudi (896-956)*[5]*, əl-İstəxri (v.e.951-952)*[6]*, İbn Havqəl (X əsr)*[7]*, əl-İdrisi (1100-1165)*[8]

---

1 Крачковский И.Ю. Арабская географическая литература. Избр. соч., т. IV. Москва-Ленинград, Изд-во АН СССР, 1957, стр.154.

2 Əl-Kufi Əbu Məhəmməd ibn Əs`am. Kitab əl-Futuh. Heydərabad, 1968-1976.

3 Ибн Хордадбех. Книга путей и стран/Перев с араб., коммен., исслед, указ. и карты Н. Велихановой. Баку, «Элм», 1986.

4 Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, “Elm”, 1974.

5 Əl-Məsudi Əbülhəsən. Kitabut-tənbih val-işraf. Leyden, 1967.

6 Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, “Elm”, 1974

7 Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, “Elm və təhsil”, 2016, s.285-306.

8 Yenə orada, s.319-324.

*, əl-Qərnati (1080-1170)*[1]*, Yaqut əl Həməvi (1178/79-1229)*[2]*, Zəkəriyyə əl-Qəzvini (1203-1283)*[3]*, əl-Qəlqəşəndi (1353-1419)*[4]*, Əbdürrəşid əl-Bakuvi (1402-1473)*[5] kimi ərəbdilli müəlliflərin əsərləri və eləcə də, "Hudud əl-Aləm"[6] əsərinin tədqiqata cəlb olunmasından məqsəd islam və islam mədəniyyətinin yayılmasında Azərbaycan şəhərlərinin mövqeyinin və rolunun araşdırılması olmuşdur.

### 1.2. Elmi ədəbiyyatın araşdırılması

İstər ərəb ölkələrində, istərsə də Qərbdə və Rusiyada orta əsrlər islam mədəniyyətinə aid meydana gəlmiş tədqiqat əsərləri arasında ərəb yazıçısı *Corci Zeydanın* (1861-1914) "Tərixu-t-təməddunil-islami" ("İslam mədəniyyəti tarixi") əsəri xüsusi yer tutur. Əsər XX əsrin əvvəllərində Mirabbas Mirbağırov tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Müəllifin özü əsərin yazılması səbəblərindən biri kimi orta əsr ərəb tarixçilərinin yarnız hərb xarakterli məlumatları nəql etmələrini, mədəni, tarixi hadisələr arasında isə əlaqəni, elmi hökm və nəticəni göstərməmələrini irəli çəkirsə, digər səbəb kimi, islam və qərb mədəniyyətləri arasındakı irtibat haqqında qərb şərqşünaslarının ona müraciət etmələrini göstərir. Corci Zeydana görə "Bir millətin həqiqi tarixi o millətin mədəniyyət tarixindən ibarətdir. Belə bir tarix kitabına ehtiyac isə zəruridir".[7]

İngilisdilli şərqşünqaslar arasında Azərbaycan tarixşünaslığına ən böyük töhfələrdən birini professor *V.F. Minorski* vermişdir. Onun türk tarixçisi Münəccimbaşının kompilyativ əsərinin tərkibində dövrümüzə

---

1 Путешествие Абу Гамида ал-Гарнати в восточную и центральную Европу (1131-1153). Исторический комментарий А.Л.Монгайт, Москва, 1974.

2 Yaqut əl-Həməvi.Mucəm əl-Buldən.Beyrut, 1977; Əl-Muştərik vad'an va-l muftarik suq'an. Vyana, 1846.

3 Zəkəriyyə Qəzvini. Əsərul-biləd və əxbərul -'ibəd. Beyrut, 1960.

4 Əl-Qəlqəşəndi Əbülabbas Əhməd. Sübh əl- ə'aşə.

5 Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар. Пер. и комм.З.М.Буниятова. Москва, «Наука», 1971.

6 Minorsky V. Hudud al-alam. The Regions of the voled E.J.W. Gibb memorial series, new series, XI. London, 1937.

7 Zeydan C. Mədəniyyət-i İslamiyə tarixi. Tərc. Z.Mugamiz, I c., Der-səadet, İstanbul, "İqdam", 1328, Fond № 230.

gəlib çatan və Şirvan və Dərbəndin 1075-ci ilə qədərki hadisələrini əhatə edən və şərti olaraq "X-XI əsrlərdə Şirvan və Dərbəndin tarixi" adlanan əsərində və İslam Ensiklopediyasında Azərbaycanın ayrı-ayrı şəhərlərinə aid məqalələrində bölgənin siyasi tarixi ilə bərabər ictimai və az da olsa mədəni həyatı haqqında da məlumat vardır[1].

Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin canlı şahidi olmuş *Məsud ibn Namdarın* h.505/1111-12-ci ildə ərəb dilində yazdığı və 1612-ci ildə Paris Milli kitabxanasına daxil olan "Hekayə, məktub və şeirlər toplusu" əsərində bəzən heç bir sənədli mənbədə əks olunmamış Gəncə, Beyləqan, Şirvanın daxili ictimai həyatı ilə yanaşı mədəni həyatı haqqında da qiymətli məlumatlar vardır[2]. Monoqrafiyada prof. *V.M. Beylisin* Məsud ibn Namdarın XII əsrin əvvəllərində Arran və Şirvanın tarixinə aid yazdığı doktorluq dissertasiyasının avtoreferatından, əsərin faksimilesi və bir neçə ətraflı yazılmış şərhlərindən Azərbaycan şəhərlərinin ictimai-mədəni həyatını araşdırmaq üçün istifadə edilmişdir[3].

Müəllif azərbaycanlı ziyalıların təsnifatı, islamın yayılması, islam qanunlarının liberallığı, xüsusilə səlcuq hökmdarları dövrünə məxsus farsdilli ədəbiyyatda sufilər haqqında bilgilərin ortaya çıxarılması üçün

---

[1] Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. Москва, «Восточная литература», 1963 г.; Minorsky V. Studies in Caucasian History,- "Cambridge Oriental series", London, 1953, №6; Minorsky V. Hudud al-alam. The Regions of the voled E.J.W. Gibb memorial series, new series, XI. London, 1937.

[2] Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и укаэатели В.М.Бейлиса. Москва, «Наука», 1970.

[3] Бейлис В.М. Масуд ибн Намдар и городское население Байлакана//Изв. АН Аз.ССР. Серия истории, философии и права, 1966, №3, стр.50-65; Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста , предисловие и указатели В.М. Бейлиса. М.: Наука, 1970; Бейлис В.М. Изнаблюдений над текстом Масуда ибн Намдара. Стихи и афоризмы Масуда ибн Намдара. Ежегодник. 1970. Москва, «Наука», 1974; Бейлис В.М. Из наблюдений над текстом и терминологией сборника рассказов, стихов и писем Масуда ибн Намдара. Ежегодник. 1968. Москва, «Наука», 1970; Бейлис В.М. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975; Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975.

yeri gəldikcə rus şərqşünasları O.Q. *Bolşakov*[1], *Y.A. Belyayev*[2], *A.Y. Krımski*[3], *Y.E. Bertels*[4], *İ.M. Filştinskinin*[5] əsərlərindən bəhrələnmişdir.

Monoqrafiyada müasir dövr tədqiqatçılarından *Əbdülhadi Məhbubə*[6], *Qeys əl-Qeys*[7], *Mustafa Cavad*[8], *Naci Məruf*[9], *Nəcdə Xəməş*[10], *Zəkəriyyə Haşim Zəkəriyyə*[11] və digər ərəb tarixçilərinin ərəb dilində olan əsərlərindən istifadə olunmuşdur.

XIX əsrin ortalarından Azərbaycan, rus və xarici ölkə şərqşünaslarının əsərlərində islam mədəniyyətinin yayılması və inkişafında rolu olmuş bir sıra müəlliflər və onların əsərləri haqqında məlumat verilir. Bu əsərlərdən önəmli olanlardan biri tanınmış alman şərqşünası *Karl Brokelmannın* (1868-1956) 1898-1902-ci illər arasında Veymarda nəşr olunan "Geschichte der Arabischen Litteratur" adlı İslam mədəniyyəti tarixinə dair biobiblioqrafik əsərdir. GAL adlanan bu iki cildlik kitabda İslam dünyasında ərəbcə yazmış müəlliflərə və onların əsərlərinə mühüm yer ayrılır.

---

[1] Большаков О.Г. История Халифата. Т.II. Эпоха великих завоеваний**.** 633-656. Москва, 1993; Беленицкий А.М., Бентович И.Б., Большаков О.Г. Средневековый город Средней Азии. Ленинград, «Наука», 1973

[2] Беляев Е.А. Арабские источники по истории туркмен и Туркмения IX-XIII вв.//Материалы по истории туркмен и Туркмении. Москва-Ленинград, 1939

[3] Крымский А.Е. Персидская литература периода междоусобного разложения сельджукского царства (ХП-ХШ в.); Крымский А.Е. История Персии, её литературы и дервишской теософии: В 3-х т., Ш ч. 1906; Крымский А.Е. Страницы из истории Северного или Кавказского Азербайджана//Сборник в честь Н.Я. Марра, Москва, 1937; Крымский А.Е. Низами и его современники. Баку, «Элм», 1981.

[4] Бертельс Е.Э. Очерк истории персидской литературы. Ленинград, 1928.

[5] Фильштинский И.М. История Арабов и Халифата (750-1517). Москва, АСТ, 2006; Арабская литература в средние века (VIII-IX вв.), Москва, «Наука», 1978;Фильштинский И.М., Шидфар Б.Я. Очерк арабо-мусульманской культуры. Москва. 1971.

[6] Əbdülhadi Məhbubə. Əl-Həhəkə əl-'ilmiyyə fi miət əl-xəmisə əl-hicriyyə və əsəru nizam əl-mulk, Bağdad, 1942-1943.

[7] Qeys əl-Qeys.Əl-iraniyyun fil-ədəbil-arabi. Tehran, 1363.

[8] İbn əs-Sabuni.Təkmilət ikməlil-İkməl, Naşir Mustava Cavad. İraq, 1957.

[9] Naci Məruf. Mədəirs qabl ən-nizəmiyyə Bağdad, 1973.

[10] Nəcdə Xəməş. Əl-Əsrul-islamiyyu hattə nihəyətil-ahdil-məmlukiyyi. Dəməşq, 2008.

[11] Zəkəriyyə Haşim Zəkəriyyə. Fadlul-hadarətil-islamiyyə əl-arabiyyə fil-aləm. Qahirə, 1970.

İlk dəfə 1912-ci ildə əs-Səmaninin (1113-1167) "Kitab əl-Ənsab" ("Nisbələr kitabı")nın əlyazmasının faksimilesini Leydendə çap etdirən Oksford Universitetinin professoru *D.S. Marqolius* bu əlyazmaya yazdığı giriş mətnində əs-Səmani və onun əsəri haqqında şərh yazaraq, ziyalıların nisbələri haqqında geniş məlumat vermişdir[1].

Akademik *V.V. Bartoldun* IX cildlik seçilmiş əsərlərinin əsasən I, II, III, VI və VII cildlərindən Azərbaycanın şəhər həyatı və mədəniyyətinin öyrənilməsində əhəmiyyəti nəzərə alaraq istifadə edilməsi qeyd olunmalıdır[2].

XI əsrin ikinci yarısından bioqrafik ədəbiyyatın özünün müxtəlif növ və formaları ilə çiçəkləndiyini göstərən görkəmli şərqşünas *A.B. Xalidov* müsəlman xalqlarının etnik tərkibi, ərəb dili və mədəniyyətinin yayılması prosesi haqqındakı fikirlərinin əks olunduğu "Ərəb əlyazmaları və ərəb əlyazma ənənəsi" və "Yazı mədəniyyəti" əsərlərindən yeri gəldikcə istifadə edilmişdir[3].

Orta əsrlər ərəb-müsəlman cəmiyyətinin mənəvi həyatı istər dini, istərsə də elmi-fəlsəfi cəhətdən amerikalı şərqşünas *F.Rouzentalın* "Biliklərin təntənəsi" əsərində ətraflı təhlil olunur[4]. Monoqrafiyada orta əsrlərdə təhsil, müəllim və tələbə münasibətləri haqqında yazarkən müəllifin bu əsərinə müraciət edilmişdir[5].

Yaxın Şərq və o cümlədən Azərbaycan elminə mühüm yeniliklər gətirən *A.Bakıxanovun* 1841-ci ildə yazdığı və zəngin tarixi mənbələrə əsaslanan "Gülüstani İrəm" əsərində XI-XIII əsrin məşhur alim və şairləri haqqında qısa da olsa, məlumatı Azərbaycan tarixşünaslığında ilk dəfə verildiyindən çox qiymətlidir. Bakıxanov tədqiqatında yazılı qaynaqlarla yanaşı maddi-mədəniyyət abidələrindən də istifadə etmişdir. O yazır ki, hər bir tayfanın kəmalət dərəcəsini, vəziyyət və hallarının gözəlliyini onların təlifatından və sair əsərlərindən gözəlcəsinə anlamaq olar[6]. A.Bakıxanovun

---

1 The Kitab al-ansab of Abd al-Karim al-Sam"ani/With an introduction by D.S/ Marqoliuth. Leyden-London: E.J.W. Gibb memorial series/XX,1912/603 f., p.1-4.

2 Бартольд В. В. Сочинения, т.I-IX, I (1929), II (1963), III (11965), VI (1966), VII (1971), Москва, «Восточная литература».

3 Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. Москва, «Наука», 1985; Халидов А.Б. Книжная культура//Очерки истории арабской культуры V- XV вв. Москва, «Наука», 1982, стр.215-310

4 Роузенталь Ф.Торжество знаний., Москва, "Наука",1978.

5 Yenə orada, стр.284-285.

6 Bakıxanov A. Gülüstani İrəm. Bakı, "Möminin" intişaratı, 2001, s.232-242.

əsərindən əsasən Azərbaycanda dini təşkilatlar haqqında bizə gəlib çatmış məlumatlar əxz edilmişdir.

Böyük Azərbaycan alimi və ədibi Mirzə *Məhəmmədəli Tərbiyət* Təbrizinin (1875-1940) "Danişməndani Azərbaycan" adlı əsərində XX əsrin birinci yarısına qədər fəaliyyət göstərmiş yüzlərlə azərbaycanlı şair və alim haqqıda məlumat verilir. Məhəmmədəli Tərbiyətin bu əsəri azərbaycanlı ziyalılar haqqında toplu şəklində məlumatın verildiyi ilk bioqrafik tədqiqat əsəri sayıla bilər.

Azərbaycan tarixşünaslığında *Həsən əl-Qədarinin* 1891-ci ildə əski Azərbaycan dilində yazdığı və böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin vəsaiti hesabına çap etdirdiyi "Əsəru Dağıstan" əsərinin orta əsrlər Azərbaycan tarixinin öyrənilməsində özünəməxsus yeri vardır. Xilafətin Şirvan və Dərbənd bölgələri haqqında bəzi məlumatlar əl-Qədarinin qələmindən çıxmışdır[1].

Dərbəndi epiqrafik abidələr əsasında öyrənən *Ə.Şıxsəidov* bölgənin islamlaşmasını əks etdirən silsilə əsərləri ilə şərqşünaslıq elminə öz töhfəsini vermişdir. Müəllif Dərbənd tarixinə həsr etdiyi əsərlərində[2] islamın hansı ictimai-iqtisadi və siyasi şəraitdə yayılması, onun mərhələləri, daşıyıcıları, yeni dinin sosial mahiyyəti tədqiqat süzgəcindən keçirilərək oxuculara çatdırılır.

Milli tarixşünaslığımızda Azərbaycan ziyalılarının tapılıb üzə çıxarılmasında ən böyük rol akademik *Z.M. Bünyadova* məxsusdur. Onun "VII-IX əsrlər Azərbaycan tarixi" adlı əsəri ərəb fəthləri ərəfəsində və xilafət dövründə Azərbaycanda islamın yayılması, əhalinin islamlaşdırılması və qriqoryanlaşdırılması, Azərbaycan ərazisində ayrı-ayrı müstəqil dövlətlərin yaranması və s. məsələlərin öyrənilməsinə

---

[1] Əl-Qadari Həsən. Əsəru Dağıstan (əski əlifba ilə). Bakı, 1928.

[2] Шихсаидов А.Р. Когда и как насаждался в Дагестане ислам. Махачгала, «Дагкнигоиздат», 1962; Ислам в средневековом Дагестане (VII-XV вв.). Махачкала, «Дагкнигоиздат», 1969; Арабские источники IX-Хвв. и вопросы социально-экономического и военно-политического положения раннесредневекового Дагестана//Источниковедение средневекового Дагестана, Махачкала,Типография Дагестанского филиала АН СССР, 1986; Арабский халифат и Северный Кавказ//Проблемы исламизации Дагестана-Пути, реальные силы, последствия. Взаимовлияние цивилизаций на Востоке . Тезисы докладов и сообщений, т. II. Москва, 1988; Ислам и исламская культура в Дагестане.Москва, «Восточная литература» РАН, 2001 və s.

həsr olunmuşdur[1]. Müəllifin "Azərbaycan Atabəylər dövləti" əsərində isə siyasi tarixlə yanaşı Azərbaycanın XII əsrdən monqol hücumlarına qədərki dövr islam mədəniyyətinin öyrənilməsi üçün ayrıca fəsil (VIII fəsil) verilmişdir.[2] 1970-1990-cı illərdə Z.M. Bünyadovun "Azərbaycanın görkəmli simaları haqqında yeni materiallar" və "Şirvan XII əsr-XIII əsrin birinci yarısında" adlı məqalələrində bir çox Azərbaycan ziyalıları haqqında məlumatı seçib ayıraraq Azərbaycan tarixşünaslığında ilk dəfə oxuculara təqdim edilmişdir[3]. Mərhum akademikin son elmi əsərlərindən olan "Dinlər, təriqətlər, məzhəblər" kitabının[4] qiymətli materialından da yeri gəldikcə istifadə edilmişdir.

1962-1967-ci illərdə Mustafa Cavad tərəfindən Dəməşqdə nəşr olunmuş *İbn əl-Fuvatinin* (1244-1326) bioqrafik ədəbiyyatın nümunələrindən olan "Təlxis məcm'ə əl-ədəb fi mu'cəm əl-əlqab" ("Ləqəblər lüğətindəki məlumatların qısa icmalı") adlı əsərində Azərbaycanın mədəni həyatına dair az məlum olan və ya nadir məlumat da hifz olunmuşdur. Əsərin Azərbaycana aid çıxarışları Z.Bünyadovun silsilə məqalələrində[5] və *M.Seyidbəylinin* "Azərbaycanın elmi-mədəni həyatı (XIII əsrin ikinci yarısı-XIV əsrin əvvəlləri)" adlı monoqrafiyasında[6] tədqiq edilmişdir.

Akademik *Nailə Vəlixanlı* əsasən ərəb mənbələri əsasında Azərbaycanın

---

[1] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı,"Azərnəşr", 1989.

[2] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı. "Elm", 1984, s.221-232.

[3] Bünyadov Z.M. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья . Изв.АН Аз.ССР,1980, № 2, (статья третья); "Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья . Изв. АН Аз.ССР,1980, № 3, (статья четвертая)"; Ширван в XII -первой половине XIII в.(статья вторая). Изв. АН Аз.ССР,Серия ИФП.1976, № 2, стр.60-74.

[4] Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər.Bakı, "Azərbaycan",1997.

[5] Выдающиеся личности Аэербайджана в сочинении Ибн ал-Фувати Талхис маджма ал-адаб фи муджам ал-алкаб.//Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1970,№3-4,с.157-173; Видные деятели Азербайджана в сочинении Ибн ал-Фувати(статья вторая).//Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1979, №2, стр.61-67; Сведения о некоторых сотрудниках Марагинской обсерватории в сочинении Ибн ал-Фувати. Циркуляр ШАО, 1971, №7, стр.6-11; Сведения Камал ад-Дина ибн ал-Фувати о представителях семьи Санджара ибн Абдаллаха ан-Нахичевани. DAH Аз. ССР, 1978, т.XXXIV, №5,стр.77-80.

[6] Сеидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в., Баку, 1999.

siyasi həyatı və tarixi coğrafiyasını tədqiq etsə də onun "İpək yolu" jurnalının iki nömrəsində dərc etdiyi məqaləsi[1] VII-XII əsrlər Azərbaycan elmi-ədəbi mühiti və onun dili məsələsinə həsr olunmuşdur. Müəllif Xilafətin ərəbləşməyib, yalnız müsəlmanlaşmış xalqlarından biri kimi azərbaycanlıları latın dilindən istifadə edən avropalılarla müqayisə edərək onların XI əsrədək elmi, dini və ədəbi yaradıcılıqda ərəb dilindən istifadə etməsini yazır. Ərəb dilinin işlədilməsinə kömək edən faktorlardan biri kimi müəllif şimallı-cənublu tarixi Azərbaycan ərazisində dil müxtəlifliyinin olması, dar çərçivədə tətbiq edilən alban əlifbası nəzərə alınmazsa ümumi əlifbasızlıq üzündən ərəb əlifbasının qəbul edilməsini göstərir. Müəllif Səlcuqların hakimiyyətinə qədər geniş xalq kütlələri arasında türk dilinin və ya türkdilli folklorun yayılmasına baxmayaraq, türk xalqlarının, o cümlədən azərbaycanlıların ümumi ədəbi dilinə çevrilə bilməməsini "ta qədimdən türklərin yaşadığı" Azərbaycan ərazisində mövcud hakim dairələrin tarixi obyektivlik üzündən irançılığa daha artıq meyl etmələrində görür. Müəllifin 2015-ci ildə nəşr olunan "Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda" əsərində Atabəylər dövründə, xüsusilə Cahan Pəhləvanın Naxçıvanın mədəni həyatında oynadığı rola toxunaraq bəzi məlumatlar verir. Xüsusilə, Azərbaycan Atabəyləri dövlətinin süqutundan sonra Naxçıvanın ictimai-siyasi həyatında xanədan qadınlarının oynadıqları rolu mənbələr əsasında işıqlandırır[2].

Azərbaycanın mədəni həyatı, xüsusilə ədəbi mühitini tədqiq edən görkəmli alimlərimizdən biri professor *Malik Mahmudov* olmuşdur. Onun "Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər)" əsəri[3] ərəbdilli Azərbaycan ədəbiyyatının tədqiqində ilk addım sayıla bilər. Müəllif haqlı olaraq göstərir ki, müxtəlif xalqların eyni dildə yaratdıqları ədəbiyyatla sıx bağlılığı olduğu kimi, hər bir ədəbiyyatın da özünəməxsus spesifik keyfiyyətləri olmalıdır. M.Mahmudov eyni zamanda göstərir ki, bu ədəbiyyatlar arasında güclü və səmərəli əlaqələr, çoxəsrli qarşılıqlı təsir də inkar edilə bilməz. Bu sözləri farsdilli ədəbiyyata da şamil edən

---

[1] Vəlixanlı N.M. VII-XII əsrlər Azərbaycan elmi-ədəbi mühiti və onun dili məsələsinə dair. "İpək yolu" jurnalı, Bakı, 1998, №1-2.

[2] Vəlixanlı N.M. Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan, "Əcəmi", 2015

[3] Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər). Bakı, 1983.

tədqiqatçı belə nəticəyə gəlir ki, müasir dövrdə klassik ərəbdilli ədəbiyyata da bir xalqın irsi kimi baxmaq, onu bir xalqa məxsus ədəbi proses kimi tədqiq etmək düzgün olmazdı.

Poeziyanın coşqun inkişaf etdiyi bir dövrdə, XI əsrdə yetişmiş, Azərbaycanla bağlı Xətib Təbrizi şəxsiyyəti professor M.Mahmudovun "Xətib Təbrizi" monoqrafiyasında və elmi məqalələrində öz əksini tapmışdır[1]. Monoqrafiyada bu görkəmli alimin yaradıcılığı, onun formalaşdığı ədəbi və siyasi mühitin təhlili ilə sıx əlaqədə nəzərdən keçirilir. Bununla yanaşı azərbaycanlı alimlərdən Yusif Tahir oğlu Xoylu və Eyn əl-Ğuzatın yaradıcılığı ilə bağlı problemlər M.Mahmudovun ayrı-ayrı məqalələrində işıqlandırılmışdır[2]. Müəllifin bir sıra elmi məqalələrində ərəbcə ilk əsərlərin meydana gəlməsi, İsmayıl ibn Yəsar, Musa Şəhəvat, Əbül-Abbas əl-Ə'ma kimi azərbaycanlı şairlərin yaradıcılığı təhlil olunur[3].

1965-ci ildə *M.Azərli* tərəfindən yazılmış "Xəlifə Əbdülməlik ibn Mərvanın islahatı və Azərbaycan (685-705-ci illər)" adlı namizədlik dissertasiyasında[4] müəllif xəlifə Əbdülməlikin keçirdiyi əlifba, divanların ərəbləşdirilməsi, Xilafətin bütün ərazilərində ərəb dilinin dövlət dili elan olunması kimi islahatlar araşdırılmışdır. Müəllif istər ərəbləşdirmə, istərsə də pul islaharları kimi problemlərə sovet təfəkkür sistemindən yanaşaraq bu məsələlərdə sinfi mübarizəni ön plana çəkir və bu islahatların zəhmətkeş kütlələrə qarşı çevrildiyini göstərir. *M.Azərli* Corci Zeydanın panərəbizm ideyalarının Əməvilərin dövründə yarandığı fikrinə də etiraz edərək bu ideyaların ilk fəthlər dövründən yarandığını, sinfi mübarizənin də məhz həmin dövrdən, yəni Məhəmmədən (s.a.s.) axırıncı Raşidi

---

1 Mahmudov M. Xətib Təbrizinin həyat və yaradıcılığı. Bakı, "Elm", 1972; Xətib Təbriziyə aid edilən bir əlyazması haqqında.- Az.SSR EA məruzələri, 1978, №3, s.70-73.

2 M.Mahmudov. Yusif Tahir oğlu Xoylu və onun "Tənvir" əsəri.-Ərəb filologiyası məsələləri. №2, Bakı, 1973, s.3-53; M.Mahmudov. Eyn əl-Quzat. "Ulduz", 1978, №9, s.56-60.

3 Mahmudov M. Azərbaycanda ədəbi fikrin inkişafına dair.- Şərqşünaslıq ser., ADU, 1977, №2, s.6-14; Musa Şəhəvat. Az. SSR EA Xəbərləri. Ərəb dili və incəsənət ser., 1970, № 2, 47-54; İsmail ibn Yəsar.- Az.SSR EA Xəbərləri. Ərəb dili və incəsənət ser.,1970, № 3, s.3-12; Əbül-Əla yaradıcılığında dinin və din xadimlərinin ifşası. Elmi əsərlər. Şərqşünaslıq ser., ADU, 1971, № 1, s.28-37.

4 Azərli M. Xəlifə Əbdülməlik ibn Mərvanın islahatı və Azərbaycan (685-705-ci illər) Bakı, 1964. Tarix İnstitutunun elmi arxivi, № 5678.

xəlifələr dövrünədək başladığını iddia edir və əlavə olaraq yazır ki, ərəb dili panərəbizmin güclənməsində mühüm stimullardan biri idi. Müəllif ərəbləşmənin asanlaşmasını Quranla bağlayaraq göstərirdi ki, "... Quran bütün savadlı adamları öz yazılarını ərəb dilində yazmağa məcbur edirdi."[1]. Daha sonra M.Azərlinin "IX əsrin ərəbdilli mənbəyi qədim Azərbaycan haqqında" adlı məqaləsi işıq üzü gördü[2]. İlk orta əsrlər tarixinin tədqiqində əhəmiyyəti olan bu məqalə ərəblərin Azərbaycana ilk yürüşlərini əks etdirir.

Şərqşünas alim *E.Əzizov* "IX əsr ərəb poeziyasında xürrəmilər hərəkatının əksi" adlı monoqrafiyasında Babəkin başçılıq etdiyi üsyanın ərəb poeziyasında əksi problemini öyrənmişdir[3]. Bu problemin həlli bir tərəfdən xürrəmilər hərəkatının vüsət və əzəmətini daha düzgün şəkildə qiymətləndirmək üçün zəruridirsə, digər tərəfdən tarixi mənbələrdə təsadüf olunmayan bir sıra dəyərli faktların meydana çıxarılmasında böyük əhəmiyyət kəsb edir. Bu ondan irəli gəlir ki, Babək üsyanı ilə əlaqədar hadisələri əks etdirən tarixçilər daha sonralar yaşayıb yaratdıqları halda, bu haqda şeirlər yazmış şairlər (Əbu Təmmam, əl-Buhturi, əl-Hüseyn ibn əd-Dəhhak və b.) həmin hadisələrin müasiri olmuşlar.

Ərəb dilinin qrammatikası və leksikologiyasına dair sanballı əsərləri miras qoyub getmiş azərbaycanlı alimlərdən bəzilərinin yaradıcılığı *N.A. Ağayevanın* "Orta əsrlərin Azərbaycan dilçiləri" əsərində tədqiqat obyektinə çevrilmişdir. N.A. Ağayeva bu əsərində göstərir ki, Azərbaycan dilçilərinin tədqiqatlarının çox hissəsi görkəmli orta əsr müəlliflərinin əsərlərinin şərhinə həsr olunmuşdur.[4] O, əsərində Camal əd-Din əl-Ərdəbili və Sə'd əd-Din əl-Bərdəi kimi alimlərin əz-Zəməxşərinin qrammatikaya aid məşhur traktatı sayılan "Ən-Nümuzəc fi-n-nəhv" ("Nəhvdə nümunə") risaləsinə yazdıqları şərhləri tədqiq etdiklərini göstərir. Hər iki şərhi təhlil edən müəllif belə nəticəyə gəlmişdir ki, bu şərhlərin müəllifləri məntiq, ədəbiyyatşünaslıq,

---

[1] Азерли Мамед. Реформы халифа Абд ал-Малика ибн Марвана и Азербайджан (685-705).Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Изд-во АН Аз.ССР. Баку, 1965, стр.17.

[2] Azərli M .IX əsrin ərəbdilli mənbəyi qədim Azərbaycan haqqında". Az.SSR EA Məruzələri, XXX c.,1974, s.86-89.

[3] Əzizov E.Z. IX əsr ərəb poeziyasında xürrəmilər hərəkatının əksi. Bakı, "BDU" 2004.

[4] Агаева Н.А. Азербайджанские языковеды средневековья.Баку, «Элм», 1990, стр. 3.

semantika və leksikanın əsas ehkamlarına istinad etdiklərindən onların əsərləri öz nəzəri əhəmiyyətinə görə bu növ əsərlər arasında xüsusi yer tutur.

*L.M. Orucova və Z.E. Şıxəlibəylinin* "Azərbaycanda ərəb filologiyasının inkişafı" adlı əsərində müəlliflər tədqiq etdikləri problemi müqayisəli tarixi aspektdə, xronoloji qaydada öyrənməyi qarşılarına məqsəd qoymuşlar. Kitabda orta əsr azərbaycanlı müsəlman alimlərin ərəb dili və ədəbiyyatını öyrənmələrinin ilkin şərait və səbəbləri açıqlanır, ərəb filologiyasının ümumi inkişaf prosesində onların əvəzolunmaz rolu qeyd olunur[1] .

1970-1990-cı illərdə orta əsrlər Azərbaycan fəlsəfəsi, onun nümayəndələrinin fəaliyyəti filosof-alim AMEA-nın müxbir üzvü *Z.C. Məmmədovun* əsərlərində işıqlandırılmışdır. Onun "Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir" adlı monoqrafiyası (1978) bu sahədə uğurlu addımlardandır[2]. Əsərin ayrı-ayrı müddəaları isə 1983-cü ildə rus dilində çap olunmuşdu[3]. Başqa tədqiqat işlərindən fərqli olaraq ilk dəfə məhz bu əsərdə elmi-fəlsəfi cərəyanlar problemlər istiqamətində tədqiq edilir. Tədqiqatçı əsərində sübut edir ki, XI-XIII əsrlərdə Azərbaycanda, eləcə də bütün Yaxın və Orta Şərq ölkələrində fəlsəfi fikrin əsasını təşkil edən peripatetizm, sufizm və işraqilik[4*] kimi cərəyanlar aparıcı rol oynamışdır. İctimai-fəlsəfi fikir, müəyyən dərəcədə, islam sxolastikası olan Kəlamda[**] da inkişaf etdirilmişdir. Bununla bərabər əsərdə qoyulan və tədqiq edilən problemlərlə XI əsrə qədərki ictimai-siyasi və dini- fəlsəfi fikir arasında varislik əlaqələrinə xüsusi diqqət yetirilir, Azərbaycanda yayılmış atəşpərəstlik, məzdəkilik, manilik və xürrəmiliyin, habelə xristianlığın XI-XIII əsrlər Azərbaycan fəlsəfi fikrinə təsiri göstərilir, islam zəminində yaranmış bir sıra cərəyanların onunla bağlılığı tədqiq edilir. XI-XIII əsrlərdə Azərbaycanda iqtisadi və ictimai - siyasi vəziyyət, eləcə də

---

[1] Оруджева Л.М., Шихалибейли З.Е. Развитие арабской филологии в Азербайджане. Баку, «Нурлан», 2004.

[2] Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, "Elm", 1978.

[3] Мамедов З.Дж. Основные философские течения в Азербайджане в XI-XШ вв. Методологические вопросы истории развития средневековой философии народов Закавказья. Баку, «Элм»,1983, стр. 208-226.

[*] Şəhabəddin es-Sühreverdî'nin (v.e. 587/1191) qurduğu mistik ve teosofik fəlsəfə. İşığın çıxması ya da günəşin doğması anlamındakı işrak kəlimesinden düzəlmişdir.

[**] Kəlam elmi dini əqidələr, yəni üsuli-din haqqında elmdir. Bəzilərinin fikrincə, bu elmin mövzuları Allah kəlamı ətrafında olduğundan elm də kəlam elmi adlandırılmışdır.

elmi - mədəni mühitin təhlilini verən müəllif belə nəticəyə gəlir ki, həmin dövrdə Azərbaycanda, bir tərəfdən feodal münasibətlərin kəskinləşməsi və sinfi mübarizənin güclənməsi, digər tərəfdən müxtəlif elmlər, xüsusilə təbiətşünaslıq sahəsində qazanılmış nailiyyətlər fəlsəfi fikrin inkişafına güclü təkan vermişdir.

Z.C. Məmmədovun 1980-90-cı illərdə orta əsrlər Azərbaycan filosofları və mütəfəkkirləri haqqında dərc olunmuş silsilə məqalələrində[1] bəşər elmi-fəlsəfi fikrinin zənginləşdirilməsində rol oynamış Azərbaycan filosoflarından bəziləri haqqında dəyərli məlumat verilir. Nəhayət, 1994-cü ildə müəllifin otuz ildən şox müddətdə tədqiq etdiyi Azərbaycan filosoflarının və mütəfəkkirlərinin zəngin fəlsəfi irsinə dair sanballı əsəri - "Azərbaycan fəlsəfəsi tarixi" monoqrafiyası işıq üzü gördü. Kitabda qədim dövrdən XIX əsrin sonlarına qədər Azərbaycan fəlsəfəsi tarixinin inkişaf yolu, təlimlər, onların azərbaycanlı nümayəndələrinin dünyagörüşü Şərq fəlsəfi fikri zəminində araşdırılır[2].

Şeyxulislam *A.Paşazadənin* 1991-ci ildə işıq üzü görmüş "Qafqazda islam" əsərində[3] islamın Qafqazda yayılması və təşəkkül tapması, burada yaşayan bir çox xalqların mənəvi mədəniyyətinə təsiri məsələləri araşdırılır. Orta əsrlərdə Azərbaycanda elmin, fəlsəfənin, ədəbiyyat və incəsənətin öz inkişaf istiqamətini, əxlaqi qayə və dəyərlərini müəyyən etmək işində islamdan necə faydalanması məsələsinə həsr olunmuş hissə böyük maraq doğurur. Müəllifin orta əsr Azərbaycan mütəfəkkirlərinin əqidə və məfkurə yönümləri barədə bir sıra yeni və cəsarətli fikirləri onların dünyagörüşlərinin səciyyəsinə dair indiyə qədər məqbul sayılan bəzi baxışların incələşdirilməsi və dəqiqləşdirilməsi məsələsinin nə qədər ciddi olduğunu göstərir.

İslamda elm tarixinin təhlili problemləri *S.Həsənlinin* "İslam mədəniyyətində elm" adlı əsərində öz əksini tapmışdır[4]. Müəllif belə hesab edir ki, müsəlman mədəniyyətinin mahiyyətini düzgün başa düşmək üçün

---

[1] Məmmədov Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, "Azərnəşr", 1986; Мамедов З. Дж. Азербайджанские философы и мыслители средневековья. Баку, 1993; Məmmədov Z.C. Bəhmənyarın fəlsəfəsi. Bakı, 1983; Məmmədov Z.C. Eynəlqüzat Miyanəci. Bakı, "Elm", 1992

[2] Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, "İrşad", 1994

[3] Paşazadə A. Qafqazda islam. Bakı, "Azərnəşr", 1991

[4] Həsənli S. İslam mədəniyyətində elm. Bakı, "Elm və həyat", 1998.

onun elmlə qarşılıqlı əlaqəsinin öyrənilməsi vacibdir. Tədqiqatçı əsərin "Azərbaycan intibahı dövründə elm" adlı fəslində islam mədəniyyətində Azərbaycan əhalisinin də payı olduğunu göstərərək sonda belə nəticəyə gəlir: intibah dövrü Azərbaycanda elmin inkişaf səviyyəsi belə qənaətə gəlməyə imkan verir ki, poeziyada Nizami, elmdə Nəsirəddin Tusi səviyyəsinə yüksəlmək yalnız mədəniyyətcə yüksək inkişaf etmiş bir mühitdə mümkün ola bilərdi.

*R.Əliyevin* "İslamşünaslıq" kursu üzrə mühazirələr əsasında hazırladığı "İslam, tarix, fəlsəfə" adlı əsərinin "Azərbaycanda islam və müsəlman mədəniyyəti" adlı fəsli və "Dinin əsasları" adlı əsərinin "İslam mədəniyyəti" fəslinin "Azərbaycanda islam mədəniyyəti" adlı bölməsi tələbə və şagirdlərə Azərbaycanın mədəni-mənəvi irsini, müasir inkişaf xüsusiyyətlərini düzgün qavramaqda kömək edir[1].

Azərbaycan oxucularının maariflənməsində böyük köməyi olan əsərlərdən biri də E.N*əsirovun* "İslam tarixi" əsəridir. Səlis və oxunaqlı dildə oxucuya təqdim edilən əsər müəllifin "Ön söz"də qeyd etdiyi kimi, daha çox öyrədici, praqmatik tərzdə qələmə alınmışdır[2].

*Z.Səidovun* Bərdə alimlərinə həsr olunmuş məqaləsi, IX-X əsrlərdə Bərdədən çıxmış alimlərin Bağdad və Xilafətin digər mədəniyyət mərkəzlərindəki fəaliyyəti ilə bağlıdır[3]. Müəllif bərdəli alimlər haqqında məlumat verərək göstərir ki, əl-Müqəddəsi "Bərdə- bu vilayətin Bağdadıdır" deyərkən şəhərin Cənubi Qafqazda müsəlman icmasının mədəni-mənəvi mərkəzi kimi əhəmiyyətini xüsusi olaraq nəzərə çarpdırmaq istəmişdir.

Tədqiqatçı *E.Ağayeva* əl-Qəlqəşəndinin "Sübh əl-Ə'şa" əsərinin Azərbaycanın və qonşu ölkələrin tarixinə aid çıxarışlarını ərəbcədən tərcümə etmiş, ön söz, qeyd və şərhlər yazmışdır[4]. Əl-Qəlqəşəndinin "Sübh

---

[1] Əliyev R.Y. İslam,tarix,fəlsəfə, ibadətlər. Bakı, "Elm", 1994; Dinin əsasları. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2001.

[2] Nəsirov E. İslam tarixi. I c., Bakı, "Nurlar", 2014

[3] Саидов З.А. Выходцы иэ Берда в среде ученых Багдада и других культурных центров Халифата в IX –X веках//Изв.АН Аз.ССР, Серия истории, философии и права, Баку, «Елм», 1990, № 1, стр.115-121.

[4] Əl-Qəlqəşəndi. Sübh əl-Ə'şa fi Sinaat əl-inşa/Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi E.Ağayeva. s.259-277//Orta əsr mənbələrində Azərbaycan tarixinə aid materiallar Bakı, "Nurlan", 2005.

əl-Ə'şa" əsərində istifadə etdiyi mənbələr içərisində əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri ilə müqayisə aparan müəllif əsərin mötəbərlik dərəcəsini üzə çıxara bilmişdir.

Tədqiqatçı *E.Mirzəyevanın* "Azərbaycan şəhər idarəçiliyi (XI-XIII əsrlər)" adlı əsəri Azərbaycan şəhərlərinin daxili strukturunun yaranması və formalaşması məsələsinə həsr olunmuşdur. Əsərdə müəllif Azərbaycanın feodal şəhərlərinin inzibati idarəsində ruhanilik, mülki və hərbi bürokratiyanın tutduğu mövqe və oynadığı roldan bəhs edir[1].

*S.Aşurbəylinin* "Şirvanşahlar dövləti" və "Bakı şəhərinin tarixi" əsərlərində Şirvan şəhərləri, Şirvanşahların mədəniyyət sahəsində fəaliyyətləri ilə bağlı bir sıra qiymətli məlumatlar vardır. Onun "Şirvanşahlar dövləti" əsərinin "XI-XIII əsrin I rübündə Şirvanın mədəniyyəti" adlı IV fəslin 6-cı paraqrafı[2] göstərilən dövr Azərbaycanın mədəni həyatına həsr olunmuşdur. S.Aşurbəylinin arxeoloji materiallara müraciət edərək Qız qalasının tarixi və təyinatının təyin edilməsində də bir sıra qiymətli fikirlər söyləmişdir. Görkəmli alim Azərbaycanın dövrümüzədək gəlib çatmış ən qədim sufi divanının müəlifi İbn Bakuyə haqqında da məlumat vermiş, onun divanının sufiliyin ilk dövrünü tədqiq etmək baxımından xüsusi əhəmiyyətini vurğulamışdır.

Orta əsr mənbələri ilə yanaşı bu mənbələri araşdıraraq Azərbaycan tarixi və mədəniyyətinə də aid mənbələrin iqtibası və Azərbaycan dilinə tərcüməsi də mənbəşünaslıq işinin davamı kimi qeyd edimәlidir. *Akademik Y.Mahmudov və prof. S.Əlyarovun,* eləcə də *akademik G.Baxşəliyevanın* redaktəsi ilə tərtib olunan qaynaqlar orta əsrləri tədqiq edən tarixçi, arxeoloq və epiqrafiya ilə məşğul olanlar üçün köməkdir[3]. *Akademik Y.Mahmudovun* 2008-ci ildə nəşr olunmuş "Azərbaycan tarixi. Erkən intibah dövrü (IX əsrin ikinci yarısı- XIII əsrin əvvəlləri.)" adlı əsəri Ərəb

---

[1] Мирзоева Э. Городское управление Азербайджана (XI-XIII века). Баку, «Нурлан», 2002.

[2] Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, "Azərnəşr", 1997, s.258-279 ; Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2006, s.45; О датировке и назначении Гыз-галасы в крепости Баку, стр.42-43.

[3] Azərbaycan tarixi üzrə qaynaqlar. S.S. Əlyarov və Y.M. Mahmudovun redaktəsi ilə Bakı, "Azərbaycan", 1989; Orta əsrlər ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar.Bakı,Nurlan, 2005; Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, "Çıraq", 2007.

xilafətinin süqutundan sonra Azərbaycanda yerli dövlətlərin syasi, iqtisadi və mədəni dirçəlişi haqqındadır. Müəllif XIII əsrin əvvəllərinədək davam etmiş bu oyanış dövrünü ilk dəfə olaraq Erkən intibah kimi qələmə alır[1].

İslamın və Xilafətin yaranmasından sonra ərəb-türk münasibətlərinin araşdırılması tədqiqatçı F.Əsədovdan[2] sonra akademik *N.Axundovanın* "Türklər Ərəb Xilafətinin dövlət idarəetmə sistemində" mövzusundakı monoqrafiyasında və bir sıra məqalələrində[3] öz əksini tapmışdır.[4] Müəllif göstərir ki, türklər ərəblərlə qarşılıqlı təsir nəticəsində xüsusilə Abbasilər sülaləsinin idarəçiliyi dövründə özlərinin etnik mənsubiyyət çərçivəsindən çıxmış, Xilafət tərkibinə daxil edilmiş bütün xalqların nümayəndələrinin qəbul edə bildiyi vahid siyasi dövlət idarəçilik sistemi və müsəlman sivilizasiyasını yaratmışdı.

Akademik *G.Baxşəliyeva* X əsrin görkəmli ərəb filoloqu Əbü-l-Fərəc əl-İsfahaninin həyatı və şəxsiyyətini, həmçinin "Kitab əl-Əğani" abidəsinin əsas xüsusiyyətlərini ortaya çıxararaq şərh edir. O, ərəb-Azərbaycan ədəbi əlaqələrinin, erkən ərəbdilli Azərbaycan poeziyasının öyrənilməsi üçün bu qiymətli abidənin mənbəşünaslıq baxımından xüsusi əhəmiyyətini qeyd etmişdir[5].

Tədqiqatçı *X.Qasımovun* "Orta əsrlərdə Azərbaycan mədəniyyəti" əsərində Azərbaycan mədəniyyətinin təkamülünün başlıca mərhələləri və əsas cəhətləri müəyyənləşdirilir, milli mədəniyyət tarixinin mühüm və aktual problemləri araşdırılır. Orta əsrlərin Azərbaycan mədəniyyət

---

1 Mahmudov Y.Azərbaycan tarixi. Erkən intibah dövrü (IX əsrin ikinci yarısı-XIII əsrin əvvəlləri.) B., "Azpoliqraf", 2008.

2 Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье. Баку, «Элм», 1993.

3 Axundova N.Ç. Тюрки в системе государственного управления Арабского Халифата. Баку, «Элм», 2004; Əməvilər dövründə ərəb-türk münasibətləri// Şəqşünaslığın aktual problemləri mövzusunda Respublika konfransının materialları. Baku, 2003, s.333-334;

4 Ахундова Н.Ч. А.Тюрки в системе государственного управления арабского халифата: VIII-сер. X вв. Баку , Элм, 2004.

5 Бахшалиева Г.Б. Абу-л-Фарадж ал-Исфахани. Рассказы о Кайсе ибн Мулаввахе по прозвищу Меджнун и арабоязычных азербайджанских поэтах. Баку, «Элм», 2006.

faktları dövrün ictimai-iqtisadi, siyasi, dini-ideoloji prosesləri kontekstində tədqiq olunur[1].

*N.A. Əliyevanın* bir sıra monoqrafiyaları[2] və yüzdən artıq elmi məqaləsi Azərbaycanın orta əsrlər mədəni həyatına həsr edilmişdir. Bu əsərlərdəki tarixi material Azərbaycanın VIII-XII əsrlərdə yaşamış görkəmli elm və mədəniyyət xadimləri haqqında bəzən heç bir başqa məxəzdə olmayan orijinal məlumat əldə etmək, dövrün mədəni həyatına daha dərindən bələd olmaq, müsəlman dünyasının ayrı-ayrı mərkəzləri arasındakı elmi və mədəni əlaqələri öyrənmək baxımından qiymətlidir.

Vətən tarixşünaslığında ayrı-ayrı mədəniyyət xadimlərimiz haqqında da elmi məqalə və əsərlər yazılmışdır. *Ə.Seyidzadə* XI əsr Azərbaycan alimlərindən Pir Hüseyn Şirvani və naxçıvanlı Əbu Ömər ən-Naxçıvani haqqında[3], *C.Rzaquluzadə* Baba Kuhi Bakuvi[4], *E.Mehrəliyev* şirvanlı alimlər[5] haqqında, *S.Nəsirov* isə hicri onuncu əsrə qədər yaşayıb yaratmış azərbaycanlıların tərcümeyi-hallarını əks etdilən ərəb dilində "Təracimu azərbaycaniyyə fi-l-masadiri-l arabiyyə hattə-l-quruni-l aşiri-l hicriyyə" adlı tədqiqat əsəri yazmışdır[6].

Gənc tədqiqatçı *Rəşad Mustafa* Tiflis əmirliyinə həsr etdiyi tədqiqatında Tiflis əmirlərinin fəaliyyətini geniş əks etdirməklə yanaşı, ərəb və gürcü mənbələrinə, tədqiqatçıların əsərlərinə əsaslanaraq onların

---

1 Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, "Azpoliqraf", 2008.

2 Əliyeva N.A. Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə aid mənbə kimi.Bakı, "Şərq-Qərb", 2010; Şeyx əs-Siləfi və Azərbaycan . Bakı, "Elm və təhsil", 2016.; Yaqut əl-Həməvi və Azərbaycan, Bakı, "Çaşıoğlu", 1999; İbn Makula azərbaycanlı ziyalılar haqqında. Bakı, "Turxan", 2014; Ибн Макула о мухаддисах Азербайджана. Москва, "Восточная библиотека", НИИ ИЭП, 2016; Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti. Bakı, "Turxan", 2015.

3 Сейдзаде А.А. Пир-Хусейн Ширвани. Доклады АН Азерб.ССР, XVI с., 1961, № 12, стр.12-65.

4 Рзакулизаде С.Д. Мировоззрение Баба Кухи Бакуви. Баку, «Элм», 1978.

5 Mehrəliyev E.Q. Şirvanilər (II kitab), Bakı, 2003; Şirvanilər (III kitab), Bakı, 2011; Babakuhi Bakuvi (Nişəpuri, Şirazi) və Pirhüseyn Şirvani (X-XI əsrlər). Bakı, "Nafta-Press", 2002.

6 تراجم اذربيجانية في المصادر العربية حتى القرن العاشرة الهجرية . تاليف سيمور بن راحم نصيروف. القاهرة ، ٢٠١١

şəxsi keyfiyyətlərini də işıqlandırmışdır. Rəşad Mustafa həm Xəlifə Məmunun, həm də Mötəsimin hakimiyyətləri dövründə yaşamış Tiflis əmiri İshaq ibn İsmayılın fəaliyyətini incələyərək göstərmişdir ki, o, əslində islam hakimiyyətinə qarşı çıxmırdı, əksinə, islamın yayılmasına çalışırdı və bu məqsədlə daxili müstəqilliyini qorumağa səy göstərirdi[1*]. Tədqiqatçı əmirin bu siyasətinə müsbət qiymət verərək bildirir ki, əslində

[*] Azərbaycan Respublikasının sərhədləri daxilində qalmayan Tiflis bölgəsi uzun müddət Azərbaycan tarixşünaslığında tədqiqatdan kənarda qalmış, bəzi qonşu tarixçilər tərəfindən isə öz mənafelərinə uyğun şəkildə təqdim edilmişdir. Nəticədə, bu bölgənin mənsubiyyəti məsələsinə obyektiv yanaşmada problemlər yaranmış, bir çox tədqiqatçı müvafiq mənbələri araşdırmadan bölgənin mənsubiyyətini birbaşa gürcülərə bağlamışdır.Müəllif mövcud mənbələri diqqətlə tədqiq etdikdən və bir sıra gürcü tarixçilərinin yazdığı elmi tədqiqat əsərlərinə yeni prizmadan yanaşdıqdan sonra yeni iddialar irəli sürmüşdür. O, sübut edə bilmişdir ki, Tiflis bölgəsinin tarixi gürcü mənbələrində iddia edildiyi kimi, IV-V əsrlərdən deyil, e.ə. IV yüzillikdən başlayır. Numizmatık və arxeoloji materiallar əsasında tədqiqatçı buranın e.ə. IV əsrdən başlayaraq artıq dünya tacirlərinə məlum olduğunu iddia edir.Tədqiqatçı məqsədinə nail olmaq üçün doğru  yol seçmişdir. O, Tiflis əmirliyinin tarixinin Azərbaycan tarixinin bir parçası olaraq öyrənilməsinə cəhd etmişdir. Müəllif Tiflis əmirliyinin tarixini IX-XI əsrlər arasında mövcud olmuş Şirvanşahlar, Şəddadilər, Sacilər, Salarilər, Rəvvadilər, Haşimi Dərbəndilər və Şəki hakimliyinin tarixi ilə yanaşı öyrənilməsinin vacibliyini sübut etmişdir. O, geniş araşdırmalarla əmirliyin yaranması, çiçəklənməsi və süqutunun səbəblərini açıqlaya bilmişdir.Tədqiqatçı mövzunu açmaq üçün təkcə Tiflis əmirliyinin mövcud olduğu IX-XII əsrlərə deyil, antik dövrlərə aid olan məlumatlara da diqqət ayırmış, antik və gürcü mənbələri əsasında sərhəd problemlərini tədqiq etməyə çalışmışdır. O, eyni zamanda əmirliyin yaranmasında VII əsrdə baş vermiş ilk ərəb yürüşlərinin əvəzsiz rolu olduğunu diqqətə çəkə bilmiş, bu dövrdə Tiflisdə baş verən hadisələri geniş təhlil etmişdir. Müəllif çoxsaylı ərəb coğrafi və tarixi mənbələrindən istifadə etməklə bərabər türkdilli mənbələr arasında “Kitabi Dədə Qorqud” abidəsində nəql olunan oğuzlarla qıpçaqların mübarizəsini, həmçinin Salur Qazanın Gürcüstana yürüşünü və həmin dövrdə bu ərazidə cərəyan edən digər hadisələri də başqa mənbələrlə tutuşdurduqdan sonra öz tədqiqat mövzusuna daxil etmişdir. Bu da öz növbəsində Tiflis əmirliyi ilə gürcülər arasında olan sərhədlərə müəyyən dərəcədə aydınlıq gətirməklə yanaşı adı çəkilən regionun sakinləri olan türklərin tarixini öyrənməyə də yol açir. Ümumiyyətlə, əsərin məziyyətlərindəndir ki, müəllif mövzuda ərəb və gürcü mənbələri ilə bərabər türk xalqlarının ölməz abidəsi “Kitabi Dədə Qorqud” dan, ilk dəfə olaraq əmirliyin mədəni və elmi həyatını öryənmək üçün orta əsrlər bioqrafik mənbələrdən bacarıqla istifadə edə bilmişdir.

İshaqın yürütdüyü siyasət özlüyündə doğru bir siyasət idi[1].

Azərbaycanın ayrı-ayrı orta əsr şəhərlərini arxeoloji materiallar əsasında tədqiq edən *Q.Əhmədov*[2], *T.Dostiyev*[3], *Q.Cəbiyev*[4], *Q.Hacıyev*[5], *H.Ciddi*[6], *R.Məmmədov*[7], *F.Abbasova*[8] *B.İbrahimov*[9], *K.İbrahimov*[10], *M.Hacıyev*[11], *A.Kudryavtsev*[12] kimi tədqiqatçılar yazılı mənbələrdən və arxeoloji materiallardan geniş istifadə etdikləri əsərlərində şəhərlərin mədəni həyatına da toxunmuşlar.

Orta əsr Azərbaycanın maddi-mədəniyyət abidələri üzərindəki yazılar, o cümlədən, müsəlman memarlığına aid materiallar XIX əsrdən etibarən öyrənilməyə başlamışdır. Xüsusilə, XIX əsrə qədər gəlib çatmış abidələrin

---

[1] Rəşad Mustafa, Tiflis əmirliyi.Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2015.

[2] Əhmədov Q.M. Azərbaycanın IX-XIII əsr şəhərləri və onların öyrənilməsi. Azərbaycanın şirsiz saxsı məmulatı Az.SSR EA nəşriyyatı, Bakı, 1959; Orta əsr Beyləqan şəhəri. Bakı, "Elm", 1979

[3] Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə (Quba-Xaçmaz bölgəsinin materialları əsasında. Bakı, "BDU", 2001; Orta əsr şəhərlərinin arxeoloji tədqiqinin bəzi nəticələri. II Azərbaycanşünaslar müstəqil birliyinin beynəlxalq elmi-nəzəri yubiley konfransının məruzələr məcmuəsi. Bakı, 2004; Azərbaycanın orta əsr şəhərləri (IX-XIII əsrin əvvəlləri), Bakı, "Elm və təhsil", 2016.

[4] Cəbiyev Q.C. Girdiman tarixi (VI-IX əsrlər). Bakı, "Şərq-Qərb", 2010.

[5] Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi. Bakı, 2000.

[6] Джидди Г.А. Средневековый город Шемаха IX- XVII века. Баку, 1981.

[7] Məmmədov R.A. "Naxçıvan şəhərinin tarixi oçerki". Bakı, "Elm", 1977; Məmmədov R.A. Naxçıvan şəhərinin X-XII əsrlər tarixindən//Azərbaycan Tarixi Muzeyinin əsərləri. VI cild, Bakı: Az.SSR EA-nın nəşriyyatı, 1963, s.16-52; Мамедов Р.А. Города северного Азербайджана VII-XIV вв. Б., "Elm və təhsil", 2015.

[8] Abbasova F.Ə. Şabran. Bakı, 2002.

[9] Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва, 2000.

[10] İbrahimov K.F. Bakı İşərişəhər. II cildlik. Bakı, 2006.

[11] Гаджиев М.С. Древний город Дагестана. Москва, 2002.

[12] Кудрявцев А.А. Великий город на Каспий. Махачкала: Даг. книж. изд-во 1982; Кудрявцев А.А. Феодальный Дербент: пути и закономерности развития города в VI-середине XIII в. М., 1993; Кудрявцев А.А., Кудрявцев Е.А. Феодальный город Северного Кавказа. (средневековый Дербент в VI-XIII вв.). – Ставрополь, Изд-во СКФУ, 2015.

kitabələri rus şərqşünasları *N.Xanıkov*[1], *B.Dorn*[2], *İ.Beryozin*[3] tərəfindən tədqiq edilmişdir. *N.Xanıkov* Naxçıvan və Bərdə abidələri, *B.Dorn* Şirvan, *İ.Beryozin* isə Dərbənd və Bakı abidələri haqqında məlumat vermişlər. Onların məlumatları vaxtı ilə mövcud olmuş, lakin itib getmiş müsəlman abidələrini əhatə etmələri baxımından çox qiymətlidir.

Milli tarixşünaslıqda orta əsrlər Azərbaycanının sosial-ictimai həyatında rol oynamış dini təsisatlar və qəbir abidələrinə əsasən, görkəmli şəxslər haqqında araşdırmalar epiqraf alimlərdən *Ə.Ələsgərzadə*[4], *M.Nemət*[5],

---

[1] Ханыков Н.В. Археологические открытия (известия о 12 мусульманских надписях в Закавказье), газ. «Кавказ», 1850, № 52-53; Ханыков Н.В. О некоторых арабских надписях в Дербенте и в Баку, ТВО, часть торая, 1856.

[2] Дорн Б. Опыт истории Ширваншахов.Перевод на русский язык Дж.Джафаров. НАИИ НАНА, ф. 1741; Дорн Б.Атлас к путешествию Б.Дорна по Кавказу и Южному побережью Каскийского моря, СПб, 1861; Дорн Б. Отчет об ученом путешествии по Кавказу и Южному берегу Каспийского моря, СПб, 1861.

[3] Березин И. Арабские надписи Дербента. «Записки Санкт-Петербургского археологического и нумизматического общества». СПб., 1850, т. II, вып. I.

[4] Алескер-заде А. Надписи Агбильских мавзолеев. Докл.АН Азерб.ССР, №10, 1956; Алескер-заде А.А. Надписи мавзолея Халифа Али и Мухаммед Момина.Ученые записки Института Востоковедения АН Аз.ССР., т. I, 1959; Алескер-заде А.Ф., Саламзаде А.В. О надписи на Девичьей башне. Докл. АН Азерб.ССР, 1955, XI, №5; Алескер-заде А.А. Надписи архитектурных памятников эпохи Низами, ААЭН.-Москва-Ленинград, 1947; Алескер-заде А.А. Надписи архитектурных памятников Азербайджанской ССР, НАИИ АН Азербайджана, инв.№ 1061; Ələsgərzadə Ə.Ə. Yusif bin Kusəyr və Möminə xatun türbələrinin kitabələri. A.Bakıxanov adına Tarix İnstitutunun Əsərləri, I c., Bakı, 1947, s.81-82.

[5] Нейматова М.С. Новые епиграфические памятники из Нахичеванской АССР.//Бартольдовские чтения. Москва, «Наука», 1987; Нейматова М.С. Надписи как источник для изучения истории ханаки Пир Хусейна.// Восточное историческое источниковедениие и специальные исторические дисциплны , вып.1. Москва, 1989, стр.292-298; Нейматова М.С. Mis qablar üzərindəki kitabələr//Azərbaycan Tarixi Muzeyi, Bakı, "Elm", 2003. s.247-253; Mis qablar üzərindəki kitabələr//Azərbaycan Tarixi Muzeyi, Bakı, "Elm", 2004. s.27-36; Məşədixanım N. Mis qablar və döyüş əşyaları üzərindəki kitabələr// Azərbaycan Tarixi Muzeyi, Bakı, "Elm", 2006. s.346-356.

*H.Səfərli*[1], *H.Əliyeva*[2] tərəfindən davam etdirilmişdir. M.Nemətin beş cildlik əsərində Azərbaycan bölgələrində tapılmış maddi mədəniyyət abidələri üzərindəki epiqrafik yazıların tərcüməsi verilməklə tədqiq olunmuşdur[3].

Ə.Ələsgərzadə X.Fren, N.Xanıkov və bir sıra səyyahların Orta Şərqin ən gözəl incilərindən biri sayılan Atabəy və Möminə xatun türbələri haqqındakı məlumatlarını dəqiqləşdirərək türbənin Şəmsəddin Eldəgizin oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən arvadı Möminə xatunun şərəfinə tikdirdiyini[4], mənbəşünas tarixçi alim R.Məmmədov isə qaynaqlar vasitəsilə Möminə xatunun kimliyini üzə çıxarmış, onun Məhəmməd Cahan Pəhləvanın xanımı olduğunu tarixi qaynaqların təsdiq etdiyini göstərmişdir[5].

Azərbaycan xalqının məişətində İslam dəyərləri əsasında formalaşmış adət-ənənələr, qaydalar özünəməxsus yer tutmuş, həyatın ayrılmaz parçası kimi nəsildən-nəslə ötürülmüşdür. Tariximizin müasir mərhələsində bu dəyərlərin böyük bir qismi, xüsusilə də, dini mərasimlər zamanı həyata keçirilən adət-ənənələr, türk-islam mədəniyyətinin təlqin etdiyi geyim elementləri, müxtəlif tipli qoruyucu amuletlər vasitəsilə icra edilən ayinlər hələ də istifadə edilməkdədir. Azərbaycan muzeylərində, xüsusilə, Milli Azərbaycan Tarixi Muzeyində qorunan dini məzmunlu maddi mədəniyyət nümunələri xalqımızın mədəni-ictimai və məişət həyatında İslam mədəniyyətinin oynadığı rolun və onun xüsusiyyətlərinin öyrənilməsinə

---

[1] Səfərli H. Orta əsrlərdə Naxçıvanın sosial –siyasi həyatında dini mərkəzlərin rolu. Bakı, "Elm", 2003.

[2] Əliyeva H. Qurani Kərim və ərəb atalar sözü sənət nümunələri üzərində// Şəqşünaslığın aktual problemləri mövzusunda Respublika konfransının materialları. Bakı, 2003, s.211-214;

[3] Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. т. I., Баку, «Элм», 1991; Корпус эпиграфических памятников Азербайджана. т. II., Баку, «Элм», 2001; Корпус эпиграфических памятников Азербайджана. т. II., Баку, «Элм», 2001; Корпус эпиграфических памятников Азербайджана. т. III., Баку, «Элм», 2001; Корпус эпиграфических памятников Азербайджана. т. IV, Баку, «Нурлан» , 2008; Корпус эпиграфических памятников Азербайджана. т. V, Баку, «Элм ва тахсил» , 2011.

[4] Ələsgərzadə Ə. Yusif bin Kusəyr və Möminə xatun türbələrinin kitabələri. A.Bakıxanov adına Tarix İnstitutunun Əsərləri, I c., Bakı, 1947 s.81-82.

[5] Məmmədov R.A. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında//Az.SSR EA Xəbərləri, 1962, № 4, s.17.

imkan verir. Etnoqraf Tural Şiriyevin bir sıra məqalələri və çapa hazırladığı "İslam mədəniyyəti və Azərbaycan məişəti" adlı kataloq Muzeyin dini məzmunlu maddi-mədəniyyət nümunələrinə həsr olunmuşdur.

1963-cü ildə Moskvada işıq üzü görmüş *M.Hüseynov, L.Bretanitski və S.Salamzadənin* birgə hazırladığı "Azərbaycan memarlığı tarixi"[1] kitabı İslam memarlığının örənilməsi sahəsində gərəkli olan ilk əsərlərdən hesab etmək olar. Müəlliflərin çox sayda yüksək bədii qiyməti olan memarlıq abidələrinin öyrənilməsi sahəsində apardıqları elmi tədqiqat işləri, xalqın ümumi tarixi ilə sıx bağlı olan Azərbaycan memarlığı tarixinin əsas inkişaf mərhələlərini təyin etməyə imkan vermişdir. Abidələrin öyrənilməsi müəllifləri belə fikrə gətirmişdir ki, görkəmli memarlıq nümunələri yaratmış Azərbaycan memarları öz yaradıcılıqları ilə Yaxın və Orta Şərq ölkələri memarlığının formalaşması prosesində fəal iştirak etmişlər. Islamın Azəbaycana daxil olduğu VII-IX və sonrakı XII-XIII əsrin əvvəllərini müqayisə edən müəlliflər belə qənaətə gəlmişlər ki, VII-IX əsrlərə qədər gəlib çatan Azərbaycan memarlığını təmsıl edən abidələr son dərəcə azdır və ölkənin memarlığı haqqında mənbələrin məlumatının sayının çox olmasına baxmayaraq, onlar korrekt deyillər, natamam və çox vaxt da ərəbdilli orta əsr tarixçi və coğrafiyaşünasların təkrar olunan müşahidələridir[2]. Bu baxımdan görkəmli memar alim *Cəfər Qiyasinin* Orta əsr Azərbaycan memarlarının beynəlxalq əlaqələrinə həsr etdiyi "Yaxın-uzaq ellərdə" və müsəlman renessansı dövründən bəhs edən "Nizami dövrü memarlıq abidələri"[3] adlı əsərləri Azərbaycanın orta əsr memarlığının öyrənilməsi sahəsində irəliyə atılmış addımdır.

1920-ci illərdə Azərbaycan Universitetinin Şərqşünaslıq Fakültəsinin ilk dekanı ərəb əsilli professor *Panteleymon Juzenin* (Bəndəli Cuzenin) IX-XIII

---

[1] М.Усейнов. Л.Бретаницкий. А.Саламзаде. История архитектуры Азербайджана. Москва, «Госстройиздат», 1963.

[2] Там же, стр.39.

[3] Cəfər Qiayasi. Yaxın-uzaq ellərdə. Bakı, "İşıq", 1985; "Nizami dövrü memarlıq abidələri" Bakı, "İşıq", 1991.

əsr ərəbdilli müəlliflərin əsərlərindən[1] Azərbaycana aid çıxarışların ərəb dilindən tərcümələri Azərbaycanın orta əsrlər mədəniyyətinin öyrənilməsində bir çox alimlərə böyük kömək olmuşdur. Təəssüflər olsun ki, onun bəzi əsərləri arxivdən yox olmuş, bəziləri isə, o cümlədən orta əsr müsəlman - Azərbaycan cəmiyyətinin ictimai-siyasi hadisələrinin öyrənilməsində əhəmiyyəti olan bir neçə əsəri[2] hələ də çap olumamış əlyazma şəklində qalır.

Azərbaycan numizmatikasının korifeyi *Y.A. Paxomov* (1880-1966) numizmatika və arxeoloji materiallar vasitəsilə Azərbaycanın şəhər həyatının öyrənilməsində böyük xidmətləri olan tədqiqatçılardandır[3]. Sikkələr vasitəsilə müəllif Şirvanşahlardan bəzilərini müəyyənləşdirmiş[4], IX və xüsusilə də X əsrdə Azərbaycanın digər ölkələrlə ticarət mübadiləsinin genişlənməsini tədqiq etmişdir[5]. Bu dövrdə Xilafət gümüşünün, o cümlədən Azərbaycan dövlətləri- Şirvan Məzyədiləri, Sacilər, Salarilərin

[1] Ал-Баладзори. Книга завоевания стран/Текст, перевод с арабского проф. П.К. Жузе. Материалы по истории Азербайджана. Вып. 3, Издание Общества Изучения Азербайджана. Баку, 1927; Ал-Якуби. История. Текст и перевод с араб. проф. П.Г. Жузе. Материалы по истории Азербайджана. Изд. Общества обследования и изучения Азербайджана, Выпуск IV, Баку, 2-ая типография АЗГИЗА, 1927; Ибн ал-Асир. Ал-Камил фи-т тарих. Перевод П.К. Жузе. Материалы по истории Азербайджана. Баку, АзФАН, 1940; Жузе П.К. Из сочинения Ибн ал-Каланиси. АИИ № 944; Выдержки переводов по Азербайджану. Труды Института Истории, Инв.№ 504, 505.

[2] Жузе П.К. Мазядиты-шейбаниты в Азербайджане (Историко-биографический очерк). АИИ № 647. 63 с.; Жузе П.К. Арабские племена в Закавказье. АИИ № 507, 18 с.; Жузе П.К. Из сочинения Ибн ал-Каланиси. АИИ № 944; Жузе П.К. Выдержки переводов по Азербайджану. Труды Института Истории, Инв.№ 504, 505.

[3] Пахомов Е.А. Башни-мавзолеи в Барде и их надписи. АН СССР// Труды Азербайджанского филиала. XXV, ист. сер. Баку, Изд-во Аз-кого филиала ФР СССР, 1936 г., стр.81-97; Монеты Азербайджана. Вып. I, Баку, 1959; Крупнейшие памятники Сасанидского строительства в Закавказье// Проблемы истории материальной культуры. Ленинград, 1933, № 9-10, стр.37-45.

[4] Пахомов Е.А. Краткий курс истории Азербайджана. Баку: 1-ое Типог. Труд. Т-ве, 1923; Пахомов Е.А. Цамбаур Е. Руководство генеалогии и хронологии по истории ислама//Отд. отт. из Известий о-ва обследования и изучения Азербайджана, № 5, Баку, 1928, стр.299-301.

[5] Пахомов Е.А. Арабские и прикаспийско-иранские феодалы в Азербайджане X-XI вв.//Сборник памяти И.Я.Марра., стр.428.

gümüş dirhəmlərinin xaricə axını, yəni əmtəə-pul mübadiləsində gümüş defisiti, sözdə "gümüş böhranı" baş verdi[1]. Bu isə ticarət mübadiləsinə öz müsbət təsirini göstərmişdi. Mübadilənin xüsusilə X əsrdə əhəmiyyətli dərəcədə genişlənməsini Y.A Paxomov sikkələr əsasında tədqiq etmişdi.

Şirvanşahlar dövlətçiliyinin sikkələr vasitəsilə öyrənilməsi prof. Y.Paxomovdan sonda prof. *Ə.Rəcəbli* tərəfindən davam etdirilmişdir. O, "Şirvanşahlar dövlətinin sikkə zərbi" monoqrafiyasında göstərir ki, yüzillər ərzində daxili çəkişmələr və çoxsaylı hərbi müdaxilələrlə üzləşən, daha güclü dövlətlərin hücumuna məruz qalaraq zaman-zaman müstəqilliyindən mərhum olan Şirvanşahlar bütün çətinliklərə baxmayaraq dövlətçilik ənənələrini davam etdirmişlər. Numizmatik materiallara əsaslanaraq, yazılı mənbə və arxeoloji materialları əlavə edərək Əli Rəcəbli belə nəticəyə gəlir ki, Şirvanşahlar dövləti özünün iqtisadi potensialı və yüksək sosial-mədəni inkişaf səviyyəsinə görə III Mənuçehr ibn Əfridunun (1126-1160) dövründə "Müsəlman intibahı" nın ən möhtəşəm mərkəzlərindən birinə çevrilmişdir. Müəllifə görə müasir dövrə qədər gəlib çatan çoxsaylı sikkələri və gümüş suyuna tutulmuş dirhəmlərdən ibarət bütöv bir dəfinə də, sikkələr üzərində həkk edilmiş yazılar-şahın dəbdəbəli titulu (ədalətli məlik, dünya və dinin cəlalı şirvanşah) da onun müstəqilliyinə dəlalət edir[2].

Son illər Türkiyədə islam tarixinə və mədəniyyətinə aid bir sıra əsərlər işıq üzü görmüşdür. Monoqrafiya yazılarkən *Zekeriya Kitapçı, Hakkı Dursun Yıldız, Haydar Baş, Hamidullah Muhammed, Kazıcı Ziyanın əsərləri ilə bərabər Səlcuq dövrünə aid OsmanTuran, Kenan Çetin, Yusuf Ayönü* və b.-nın əsərlərindən də istifadə edilmişdir.

Türk tarixçilərindən *Təhsin Yazıçı, Kandemir M.Yaşar, Mustafa Kara, Abdulla Aydemir, Abdurrahman Cami, İsmail L, Mustafa el-Azami, Nuri Topaloğlu, Reşat Öngören* və b.-nın İslam Eksiklopediyasında çap olunmuş məqalələrindən orta əsr müəllifləri, onların əsərləri, islam elmləri, islami müəssisələr, o cümlədən təhsil müəssisələri bölməsində istifadə edilmişdir.

---

[1] Пахомов Е.А. Отчет о поездке в Дивичинский район в 1935г. НАНА НАИИ, инв.№ 320.

[2] Rəcəbli Ə. Şirvanşahlar dövlətində sikkə zərbi (VII-XVI əsrlər). Bakı, "Elm və təhsil", 2015.

XI-XV yüzillərdə baş verən siyasi və sosial hadisələrin fonunda etnomədəni mühitin formalaşması və inkişafı proseslərinin öyrənilməsi sahəsində azərbaycanlı alimlər bir sıra uğurlar qazanmışlar. Akademik *Ş.Mustafayev* "Səlcuqilərdən Osmanlılara" adlı əsərində[1] türk kimliyinin inkişafı və türk etnik şüurunun təkamül dinamikasını araşdırır. Tədqiqatçı alim *R.Ağayev* isə son tədqiqatlarında Azərbaycanın yerli əhalisinin dili ilə bağlı bəzi yeni fikirlər irəli sürmüşdür. Orta əsr ərəb qaynaqlarına istinad edən tədqiqatçı Azərbaycanın yerli əhalisinin türk mənşəli olduğunu elmi dəlillərlə əsaslandırmış və səlcuqların Azərbaycan ərazisinə gəlişindən uzun illər əvvəl də bu bölgənin yerli əhalisinin türk mənşəli olduğu qənaətinə gəlmişdir. Bu sülalənin Azərbaycana gəlişi isə etnik türk əhalisinin üstünlüyünü daha da möhkəmləndirmişdir. R.Ağayevə görə, Azərbaycanda yaşayan türklərlə xəzər türkləri bir-birlərindən fərqlənmişlər. Belə ki, Azərbaycan əhalisinə türk, Dərbənddən şimalda yaşayan əhaliyə isə xəzər türkləri deyilmişdir[2]. Gənc tədqiqatçı *A.Şirəliyeva* yeni gündəmə gətirdiyi Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd əs-Səaləbinin "Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar" ("Gurar əxbər muluk əl-furs va siyarihim") adlı mənbəyə əsaslanaraq yuxarıda deyilən fikri inkişaf etdirərək yazır: "Xosrov Ənuşirvanın hakimiyyəti dövründə İranşəhr çiçəkləndi, elm və mədəniyyət ön plana keçdi. Ənuşirvan İranşəhr əhalisini düşmənlərdən: türklərdən, xəzərlərdən və ruslardan qorumaq məqsədi ilə sərhədlərə və keçid yollarına nəzarəti və ümumən sərhədləri gücləndirdi[3]. Müəllif göstərir ki, əs-Səaləbi bu məlumatda xəzər türklərini yerli Azərbaycan türklərindən fərqləndirir[4].

---

[1] Mustafayev Ş.M. Səlcuqilərdən osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı, "Elm", 2010.

[2] Ağayev R.Ə. Səlcuqlara qədərki dövrdə Azərbaycanda türklərin varlığına dair/Tarix və onun problemləri, № 2, s.28-34.

[3] Zoterberg H.Histore des Rois des Perses par Abou Mansour Abd Al-Malik İbn Mohammad İbn İsmail Al-Tha`alibi. İmprimerie nationale, Paris, 1900, p.610-611.

[4] Şirəliyeva A. Əbu Mənsur əl-Hüseyn ibn Məhəhəmməd əs-Səaləbinin "Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar" ("Gurar əxbər muluk əl-furs va siyarihim") əsəri Azərbaycanın erkən orta əsrlər tarixinin mənbəyi kimi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2016, s.35

Qərb tarixşünaslığında, xüsusən də ingilis tarixşünaslığında ilkin orta əsrlərdə Azərbaycanda baş vermiş tarixi hadisələrə toxunarkən, xalqımıza məxsus tarixi reallıqları bəzən təhrif etmişlər. Bu da təəssüf ki, bu və ya digər tarixi hadisələrin saxtalaşdırılmasına gətirib çıxarmışdır. Bu gün Azərbaycan tarixini tədqiq edən Qərb tədqiqatçılarının əsərlərində yer almış yanlış mövqeyi dağıdaraq yox etmək, Azərbaycan tarixşünaslığının qarşısında duran və həlli vacib sayılan məsələlərdən biridir. Gənc tədqiqatçı *L.Qafar-zadə* "Azərbaycanın erkən orta əsrlər tarixi ingilisdilli tarixşünaslıqda" mövzusundakı tədqiqatında cəlb etdiyi 30-a yaxın müəllifin əsərini Azərbaycan tarixşünaslığında üzə çıxarılmış mənbələrlə müqayisəli şəkildə araşdıraraq təhlil etdikdən sonra ümumiləşdirmələr aparmış, onların mənbələrdən nə dərəcədə düzgün istifadə etdiklərini və təhrif edib-etmədiklərini müəyyənləşdirmiş və bəzi mənfi anları göstərə bilmişdir[1].

[1] Qafarzadə L. "Azərbaycanın erkən orta əsrlər tarixi ingilisdilli tarixşünaslıqda" mövzusunda tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiya. Bakı., 2016.

# II FƏSİL

# AZƏRBAYCANDA İSLAM MƏDƏNİYYƏTİNİN YAYILMA MƏRHƏLƏLƏRİ



### 2.1. İslam dinini mənimsənilməsi prosesi və ölkədə gedən konfessional dəyişikliklər

İslam tarixinin ilk dövrlərindən təkcə dini-mənəvi yox, həm də icmanın sosial bərabərliyi, cəmiyyət üzvlərinin Allahın himayəsi altında varlığını nəzərdə tutan ümmət anlayışı formalaşmağa başlayarkən Məhəmməd Peyğəmbərin (s.a.s.) ilk ardıcılları sırasında qeyri-ərəb xalqların nümayəndələri (Bilal əl-Həbəşi, Süheyb ər-Rumi, Salman əl-Farisi və b.) də var idi. Erkən islam təsəvvürlərinin formalaşmasında əhalisi digər dindən olan qəbilələrlə Peyğəmbər (s.a.s.) arasında bağlanmış müqavilələrin də böyük əhəmiyyəti olmuşdur. Belə müqavilələrdən Aus və Xəzrəc kimi Mədinə qəbilələləri ilə Məhəmməd peyğəmbər (s.a.s.) arasında bağlanmış müqavilənin böyük rolu xüsusi qeyd olunmalıdır. Bu müqavilə VII əsrin Quranaqədərki ilk sənədi olmaqla, həm də islam dövlətinin ilk konstitusiya sənədi kimi tarixə düşmüşdür. Müqavilə dövlət başçısının vəzifəsini təsdiq etməklə yanaşı, Məhəmməd peyğəmbərin (s.a.s.) əsas məqsədlərindən birini - ərəbləri bir bayraq altında siyasi cəhətdən birləşdirməyə edilən cəhd idi[1].

İslamı qəbul edən ölkələrin hüdudları genişləndikcə, ümmət anlayışı yeni məna kəsb etməyə başladı. Belə ki, müsəlman icmasının etnik tərkibi tezliklə qeyri-ərəb xalqları əhatə edərək, rəngarəng xarakter almış oldu. Xilafət tərkibinə daxil olmuş xalqları birgə yaratdıqları mədəniyyət birləşdirirdi. Milli mənsubiyyət arxa plana keçmişdi. Bəs, İslam dininin yayılması prosesində yerli dinlər hansı rolu oynamışdır. Yeni din daşıyıcıları ilə yerli din daşıyıcıları arasında qarşılıqlı münasibət necə olmuşdur.

İslam fəthləri dövrünün ictimai mühiti, özündə islamın yayılmasına müxtəlif aspektdən təsir göstərən hadisə və istiqamətləri ehtiva edir. Quranın Ali-İmran surəsinin 26-cı ayəsi[*] (yəni ölkələrin fəth edilməsinin Allahın hökmü ilə olması) İslamın ərəb fəthlərindən sonra Asiya və Afrika

---

[1] Наккаш А. Первая исламская «Конституция» (соглашения между Мухаммедом и жителями Медины VII в.)//Четвертая всесоюзная школа молодых востоковедов. том I, История, востоковедение, историография, Москва, 1986, стр.62

[*] [Ya Məhəmməd] De ki, "Ey mülkün sahibi olan Allah. Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsdən alarsan, istədiyin şəxsi yüksəldər, istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən Sən hər şeyə qadirsən"..

ərazilərində tez bir zamanda yayılması üçün əsas vermişdi. Yeni dinin fatehlər vasitəsilə yayılması yerli dinlərin taleyinə də təsir göstərdi. İslam çevrəsində olan ölkələrdə islamın yerli dinlərə təsiri müxtəlif şəraitə uyğun formalarda təzahür edirdi. Klassik Albaniya və Atropatena ərazisi də bu cəhətdən istisna deyildi.

İslam dininin Azərbaycanın mədəni həyatına daxil olması, islam dini və mədəniyyətinin tədricən mənimsənilməsi proseslərini izləmək üçün ölkədə digər dinlərin islama təsirini və ya islam dininin konfessional təsir gücünü müəyyənləşdirmək lazımdır.

Konfessional dəyişikliyin özünü iki dövrə bölmək olar:

- *İslamaqədərki dövrdə dinlərin qarşılıqlı təsiri;*
- *İslamın ilk fəthlərindən sonrakı dövrdə dinlərin qarşılaşması.*

İslamın Azərbaycana gəlişinə qədər Azərbaycan ərazisi Arazın hər iki tayında yaşayan həmvətənlərimizin arasında dini zəmində fərq qalmaqda idi. Cənubi Azərbaycan əhalisinin əksəriyyəti atəşpərəst idi. Atəşpərəstliyin ən müqəddəs yerlərindən biri olan Azərquşnasp məbədi Adurbadaqanda (Cənubi Azərbaycanda) yerləşirdi. Məbədin əsası Sasanilər tərəfindən qoyulmuş və XIII əsrə qədər fəaliyyət göstərmişdir[1]. Əhalinin yalnız az bir hissəsi xristian idi[*].

Çox az qismi xristian olmaqla əhalisinin əsas hissəsi atəşpərəst olan Cənubi Azərbaycan əhalisindən fərqli olaraq Şimali Azərbaycan əhalisi arasında əsasən xristianlıq hökm sürürdü. Lakin İranda Sasanilər sülaləsinin güclənməsi, onların xristianlığa düşmən münasibəti Albaniyada iki əsrdə

---

[1] Касумова С.Ю. Южный Азербайджан в III-VII вв.. Баку, «Элм», 1983, стр.123.

[*] Adurbadaqanda xristianlar haqqında ilk məlumat katolikos I Yabalaxın Kilsə Qanunnaməsi "Aktlar"ında 420-ci il tarixi göstərilməklə verilir. Atropatenanın paytaxtı Qanzakda yepiskopun olmasını təsdiq edən dəqiq məlumata 485-ci ildən başlayaraq rast gəlinməyinə baxmayaraq, tədqiqatçı S.Qasımova Qanzakda bundan əvvəl də xristianlığın ola bilməsi haqqında fikir yürüdür. Müəllif yazır ki, din yolunda əzab çəkən Vaxunamanın adı Qanzakla əlaqədar çəkilir. Rahib kimi fəaliyyət göstərən bu gənc Ərdəşirin dövründə təqiblərə məruz qalmışdı. Tədqiqatçı fikrini Urmiya gölündən cənubda Uşnu rayonunda müqəddəs Behnamə monastrının olması ilə təsdiq edir (bax: Касумова С.Ю. Южный Азербайджан в III-VII вв.. Баку, «Элм», 1983, стр.117).

xristian dininin qazandığı müvəffəqiyyəti heçə endirdi[1]. Xristian dini özünün vətəndaşlıq hüququnu yalnız IV əsrdə, Yaxın və Orta Şərqdə özünün ümumi təntənəsindən - Roma imperiyasında qələbəsindən sonra aldı. Xristianlığın yayılması və bərqərar olmasında alban əlifbasının yaradılması, alban yazısının təkmilləşdirilməsi, məktəblərin təsisi, dini ədəbiyyatın süryani və yunan dilindən alban dilinə tərcümə edilməsi böyük rol oynadı. Bu dövrdə alban hökmdarları kilsəyə və xristian ruhanilərə böyük imtiyazlar verdilər. Saray məhkəməsi ilə yanaşı, kilsə məhkəməsi də yaradıldı.

Lakin, IV əsrin əvvəllərindən çar, saray əyanları və feodallar tərəfindən qəbul olunan, dövlət dini elan edilən xristianlıq ümumxalq dininə çevrilmədi və hər yerdə istənilən kimi yayılmadı. Bu dövrdən etibarən Şərqi Roma imperiyasında xristianlığın qalib gəlməsilə Ərminiyə və İberiya kimi, təbəələri olan Albaniyanın xristian əhalisinə qarşı da Sasanilərin siyasəti dəyişdi. Sasani şahları öz dövlətlərində rəsmi kilsə ilə mübarizə aparan müxtəlif xristian təriqətlərini dəstəkləməyə başladılar[2].

İranda Sasanilər sülaləsinin, Bizansda isə xristianlığın gücləndiyi VI əsrdən başlayaraq iki dinin-atəşpərəstliklə xristianlığın toqquşması daha intensiv xarakter alır. Bizansla İran arasında imperiya mənafelərinin toqquşması, əslində atəşpərəstliklə xristianlığın təsir dairəsi uğrunda mübarizəsi idi. Digər tərəfdən, xəzərlərin və şimaldan gələn köçəri tayfaların da bu ərazidə öz mənafeləri var idi. Mənbələr hələ 552-ci ildə Xosrov Ənuşirvan sabirləri Bizansla mübarizəyə cəlb edən dövrdə xəzərlərin Dərbənd keçidindən keçib Albaniyanı talan etməsini, kilsələrin bir hissəsini və kilsə ədəbiyyatını yandırdığını göstərirlər. Şimal köçərilərinin qarşısını almaq məqsədilə, Sasanilər Albaniyada Böyük Qafqaz sıra dağlar boyunca güclü divarlar, Qafqaz dağları ilə Xəzər dənizi arasında müdafiə sədləri çəkməklə bərabər, Albaniya ərazisində böyük ordu da saxlayırdılar.

Bununla belə, Albaniyada Sasani asılılığından imtina etmək halları da yox deyildi. Bu dövrdə Albaniyada dini zəmində daha bir dəyişiklik edilir. 551-ci ildə keçirilən Dvin məclisindən sonra Alban patriarxlığının iqamətgahı Çoladan Qəbələyə köçürülür. Albaniyada Sasani-Bizans

[1] Мамедова Ф.Дж. Политическая история и историческая география Кавказской Албании. Баку, «Элм», 1986, стр.226.
[2] Yenə orada, стр.229.

müharibəsindən istifadə edərək 603-604-cü illərdə Sasani imperiyasına qarşı üsyan qaldırıldı. Bu, həm katolikos, həm də knyaz səviyyəsində baş vermişdi. Alban katolikosu Viro (582-630) özünə tabe olanları şahənşaha qarşı itaətsizliyə səsləməklə antisasani üsyanına başçılıq etdi. Sasani şahı II Xosrov elə həmin il üsyanı amansızlıqla yatırtdı, ölkənin say-seçmə şəxsləri qətl edildi, ölkə talan olundu. Albanlar məğlub oldular, katolikos həbs edildi. Digər dinlərə qarşı amansız olan şahənşah II Xosrov özü atəşə tapınsa da xanımı şahzadə Şirin xristian idi. Katolikos Viro məhz şahzadə Şirin sayəsində sağ qaldı və ona ömrünün sonuna qədər katolikos titulu saxlanmaqla Sasanilərin paytaxtı Ktesifonda qalması şərtilə yaşamasına icazə verildi. Bu, ev dustaqlığı şəraitində sürgün idi. Burada o, şahzadə Şirinin himayəsi altında Alban kilsəsinə başçılıq etməyə davam etdi.

Albaniyada Sasani asılılığından imtina edilməsi ilə əlaqədar 603-604-cü illərdə üsyan qaldırılarkən, qeyd edildiyi kimi bu işə alban katolikosu qarışmış, lakin dindən imtina halı baş verməmişdi. Mehranilərin yerli feodallarla qohumluq əlaqələri genişlənmiş, onların siyasi nüfuzu daha da artmışdı. Bununla bərabər bəzi arxeoloji materiallar ərəb fəthlərinə qədər Şimali Azərbaycanın bəzi bölgələrində, o cümlədən Abşeron əhalisinin atəşpərəstliyə sitayişini ehtimal etməyə əsas verir.[1] Bölgədə Sasani İranı ilə bərabər Bizansa məxsus gümüş pullardan ibarət dəfinələrin tapılması da, xristianlıq və atəşpərəstliyin bu ərazidə də təsir dairəsi uğrunda mübarizə apardığını göstərir.

Alban katolikosu müqəddəs Yelizarın 688-ci ildə vəfatından sonra vaxtilə Girdman yepiskopu olmuş, xalkedon-diofizit təriqətinə mənsub Nerses Bakurun monofizit kimi katolikos seçildiyi, lakin M.Katankatuklunun qeyd etdiyi kimi, bir müddət sonra xalkedon (diofizit) təriqətinə qayıtdığı qeyd olunur[2]. “Alban tarixi” əsərinin müəllifinin yazdığı kimi, “Tərtər çayına atılan sandıqlarla əsərlər”, heç şübhəsiz, məhz xristianlığın yayılmasından sonra diofizit alban katolikosları tərəfindən alban dilində yazılmış dini, tarixi ədəbiyyat və alban leksionarisi (bayramlarda və dini mərasimlərdə keçirilən

[1] Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı, “Azərnəşr”, 1997, s.44.
[2] Kalankatuklu M. Albaniya. Bakı, “Avrasiya press”, 1993, s.175; Vəlixanlı N.M. AzərbaycanVII-XII əsrlərdə. Bakı, “Elm təhsil”, 2016, s.43.
[*] Moniofizitlik- Misirli, suriyalı, həbəş və ermərilər arasında yayılan xristian təriqəti.

dini ayinlər toplusu - və ya ayin zamanı oxunan dualar toplusu) olmuşdur. Müəllifə görə, ölkəyə şimaldan basqın edən xəzərlər kilsə və müqəddəs yazıları oda vermişlər. Alban yazılı abidələrinin məhvi bundan sonra da davam etmişdir. 1860-cı ildə ermənilər mərkəzi Gəncəsər olan müstəqil Alban kilsəsinin ləğv edilərək Eçmiədzinə (Üçmüəzzin-N.Ə.) tabe edilməsinə nail olduqdan sonra, 1910-1911-ci illərdə müqəddəs Rusiya Sinodunun dini arxivlərdə yerləşən "lazımsız sənədlərin məhv edilməsi" qərarı adı altında Alban kilsəsinə məxsus dini və tarixi əsərlər məhv edilmişdir.

Yerlərdə olan konfessional siyasətdəki dəyişikliyə Xəlifələr də öz münasibətlərini bildirir və bu zaman Xilafətin maraqları siyasi gedişdə ön plana çıxırdı. Bunu, alban və erməni katolikosluğu arasındakı münaqişənin həllində əməvilər sülaləsinin tutduğu mövqe təsdiqləyir. Xilafətin Azərbaycanı fəth etdikdən sonra öz mövqeyini gücləndirmək məqsədilə diofizit Bizansına müxalif olan monofizitləri* müdafiə etməsi təbiidir. Erməni katolikosu İlyanın şikayətlə Xəlifəyə müraciət etməsi erməni kilsəsinin xeyrinə həll olundu. Bizanspərəstlərin cəzalanmasına sərəncam verən xəlifə, alban diofizitliyinin qarşısının alınmasını erməni katolikosuna həvalə etdi ki, bu da alban kilsəsinin xəlifənin köməkliyilə erməni kilsəsinə tabe edilməsi ilə nəticələndi. Erməni katolikosu İlyanın xəlifə Əbdülməlikə yazdığı məktubda bəhs edilən hadisə, yəni "Partav taxtında oturan alban katolikosunun öz ibadətlərində yunan imperatorunun adını çəkməsi" dinlərin qarşıdurması səbəbilə deyildi. İlya məktubun əvvəlində erməni və alban kilsələrinin bir ilahi İsa dininə etiqad etməsindən bəhs edirdi. Alban katolikosunun ibadətlərində yunan imperatorunun adını çəkməsi albanların onun təsri altına düşərək yunan himayəsinin qəbul edilməsi ilə nəticələnəcəyi erməni katolikosunu qorxudurdu. Xəlifəyə təsir etmək üçün məktubunun sonunda bu hadisəni alban katolikosunun və Sparmanın "Allaha qarşı etdikləri günah"[1] kimi təqdim edirdi. Bütün bu hadisələr gərginliyi daha da artırmış və Nerses devrildikdən sonra başda alban knyazı Şero olmaqla bütün alban feodal əyanları Əbdülməlikin divanı qarşısında İsanın iki təriqətinə ibadət edəcəkləri halda qılıncdan keçiriləcəklərinə dair öhdəlik götürdülər. Qeyd etmək lazımdır ki, təriqətin

[1] Bax: Erməni katolikosu İlyanın Əbdülməlikə məktubu, Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Elm", 1965, s.94

dəyişməsi kilsələrdə mehrabların sökülməsi ilə yekunlaşırdı. Arxeoloji tədqiqatlar nəticəsində Alban kilsə mehrablarının döşəmə səviyyəsindən 50 sm hündürlükdə olduğu təqdirdə, sonrakı dövrlərdə bu hündürlüyün 70 sm ilə 1 m arasında dəyişməsi müəyyən edilmişdir[1].

Beləliklə, Sasanilərin siyasətinin davamı olan bu siyasət onsuz da gəngin olan vəziyyəti bir az da mürəkkəbləşdirdi. VIII əsrdə Bərdə Alban katolikosluğunun mərkəzi iqamətgahı olaraq qalırdı. Bu şəhər baş iqamətgah olduğundan burada albanların inancları ilə əlaqədar və məhz alban dilində yazılmış sənədlər arxivinin olmasını qaçılmaz edir.

Albaniyaya olan iddiaların islamın xeyrinə həll olunması da yalnız VIII əsrin əvvəllərində baş tuta bildi[2]. Buna baxmayaraq, əl-Müqəddəsinin (X əsr) məlumatına görə, hətta X əsrdə belə Dəbil, Şəki və Əshabu-r-Rassın (Araz çayı ətrafı əhalisi-N.Ə.) əhalisinin əksəriyyəti xristian olaraq qalırdı[3]. V.V. Bartold hələ X əsrin sonunda Şəki ilə Şabranda da əhalinin

---

[1] Alışov N.Ə. Azərbaycan Albaniyasının xristian abidələri (arxeoloji materiallar əsasında) t.ü.f.d. elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı.Bakı, 2014, s.11.

[2] Бартольд В.В.Краткий обзор истории Азербайджана. Сочинения, т.II, ч.1. Москва, «Восточная литература»., 1963, стр.777.

[3] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.130.

* Tarixi mənbələrdən, xüsusilə M. Kalankatuklunun əsərindən məlumdur ki, xristian missionerləri Albaniyada xristian dinini məhz Xəzərin qərb sahili ərazilərindən yaymağa başlamışlar. Apostol Faddeyin şagirdi Yelisey Şərq ölkələrinə xristianlığı yaymaq üçün göndəriləndə Yerusəlimdən İrana, Masqətlərin elinə və nəhayət, Çolaya gəlib öz təlimini yaymağa başlamışdı (bax: Геюшев Р.Б. Христанство в Кавказской Албании. Баку, «Элм», 1985, стр.25). Ona görə də Çolanın qonşuluğunda yerləşən, paytaxtı Şabran olan və geniş bir bölgəni əhatə edən Şirvanşahların ərazisində əhalinin xristianlaşması başqa yerlərə nisbətən daha tez ola bilərdi. Ərəb coğrafiyaşünası əl-Müqəddəsinin "Şabranın əhalisinin çoxu xristianlardır" fikrini (bax: Мухаммед ал -Мугаддаси (X век). Наилучшие распределения для ознокомления со странами. Перевод с арабского Н.А. Караулова-СМОМПК вып.XXXVIII, Тифлис, 1908, стр.9) arxeoloq F.Abbasova Şabranda aparılan arxeoloji qazıntıların nəticələri ilə təsdiqləyir. O, yazır ki, Şabranda tapılan qızıl üzüyün tac hissəsindəki xaç təsviri, xeyrə tipli polixrom qabın içərisindəki ucları dairələnmiş xaç şəkli və sanki ondan çıxan günəş şüalarını xatırladan, qabın ağzınadək çatdırılan zolaqlar xristianlıq üçün xarakterik təsvir üsulu olub, inkişaf etmiş orta əsrlər dövründə burada xristianlığın yaşadığını sübut edir (bax: Abbasova F. Şabran. Bakı, "Elm", 2002, s.39).

əksəriyyətinin xristian olduğunu yazır*. Şirvanlı səyyah Hacı Zeynalabdin Şirvaninin (1780-1838) yaşadığı dövrdə Şirvanda xristianların və bir qədər də yəhudilərin yaşaması haqqında məlumat verilir[1].

Albaniya ərazisində 20-yə yaxın monastır, o cümlədən Xocavənddə Amaras, Ağdərədə Gəncəsər, Müqəddəs Yelisey, Kəlbəcərdə Xotavəng, Böyük Aran, Arzuxatun, Xudavəng, Qaxda Kürmüx, Ləkit Kötüklü kəndində yerləşən iki monastır, Gədəbəydə Həmşivəng, Mahrasa, Naxçıvanda Qızılvəng, Qaxın Zərnə kəndi və Gədəbəydən cənubda yerləşən Çanaqçı, Novosaratovka, Çaldaş və Yenikənddə Kilsədərəsi monastırları islam dövründən ötərək müasir dövrə qədər gəlib çıxmışdır.

Keçən əsrin 20-ci illərində Arxeoloji Komitənin Şamaxının Meysəri kəndində apardığı arxeoloji kəşfiyyat işləri nəticəsində kənddən 200 metr aralı qədim monastırın qalıqlarının tapılması da bu ərazilərdə xristianlığın olmasının göstəricilərindəndir. C.Aleksandroviç (Nasıfi) yazır ki, monastır torpağın altında, qülləsi isə üstündə görünür. Monastırda çoxlu sütunlu otaqlar var, onlardan 7 xanə salamat qalmışdır. Giriş hissədə olan zəng qülləsi üzərində şirin barelyef (qabartma naxışlı) şəkli, iki və bir başlı qartal həkk edilmişdir. Aşağı düşərkən qüllənin döşəməsinə qopub düşən üzərində barelyef şəkilli nizə tutmuş mələk təsvirli daş tapılmışdır[2]. Son tədqiqatlar nəticəsində Çanaqçı monastrının mənbələrdə orta əsrlərdə bir müddət Gədəbəy ərazisində alban katolikoslarının mərkəzi iqamətgahı olan Çarek-Hamşi olması fikri irəli sürülmüşdür.

Maraqlıdır ki, bəzi monastırlarların qalıqları və ya dağıntıları üzərində orta əsrlərdə yenidən tikinti-quruculuq işləri aparılmışdır. Bu cəhətdən Naxçıvan Muxtar Respublikasının ərazisində olan Qızılvəng monastırı maraq doğurur. 1928-ci ildə abidəyə baxmış V.M. Sısoyev yazır ki, abidənin divarlarında 18 dini şəkil freska vardır. Onlardan 8-i daxili sütunlarda, 10-u isə günbəzdədir. Onun təsdiqinə görə, abidənin əsası V əsrdə qoyulmuşdur. Dağılmış divarların özülləri üzərində XIII əsrdə

---

[1] Керемов Н.К. Известный географ-путешественник Зейналабдин Ширвани об Азербайджане//Летопись науки в Азербайджане. Баку, «Элм» 1969, стр.25.

[2] Дж. Александрович (Насыфи). Шемаха.Известия археологического комитета.Баку, 1926, стр.31.

yenidən tikinti aparılmış, XVII əsrdə isə bərpa edilmişdir. Hal-hazırda abidənin özülü qalmışdır[1].

Xristianlıq ölkənin şimalında - dağlıq ərazilərdə özünü daha çox saxlaya bilmişdi. Belə ki, Ağoğlan çayının (Laçın rayonu) sahilindəki monastır, Amaras kompleksi, Ləkit məbədləri (Qax rayonu), Əskipara monastır kompleksi (Qazax rayonu) və bir sıra dini tikili qalıqları bu dövrdə xristianlığın Şimali Azərbaycanda öz nüfuzunu saxladığını göstərir. Lakin, zaman keçdikcə xristianlığın özü kimi, onun bina və tikililəri, ənənələri yeni bina tiplərinin formalaşmasında iştirak etmişdir[2].

Lakin, Səlcuq sultanlarının kitab əhlinə qarşı dini dözümlülüyü erməni tarixçiləri tərəfindən başqa yöndə yozulurdu. Gəncəli Kirakos yazırdı ki, Albaniyada katolikosun başına əl qoyması türk (səlcuq-N.Ə.) hökümət başçısı tərəfindən həyata keçirilirdi. O bunu yerli əhalinin xristian hissəsinin istismarı və bu məqsədlə müxtəlif güzəştlərə getməsi ilə izah edirdi[3]. Lakin qeyd etmək lazımdır ki, böyük səlcuq sultanı Məlikşah Albaniyada xristian kilsə və monastırlarını, keşişləri vergidən azad etmişdi.

Albaniyada monastr tikilməsi isə ölkə sərhədləri ilə məhdudlaşmayıb Qüds[*] şəhəri ərazisində də yayılmışdı. M.Kalankatlının əsərində Qüds şəhərində tikilən Pand, Mruv, Bərdə, Kalankatuk, Arsax, Amaras, Araveank kimi monastrların adları sadalanır. Bu, erməni tədqiqatçısı K.Yüzbaşyanın mülahizəsinin yanlış olmasını ortaya çıxarır. Tədqiqatçıya görə, VII-IX əsrlərdə ibadətxanaların tikilməsindəki durğunluq Xilafətin kilsə iqtisadiyyatı və mədəniyyətinin hüquqları məhdudlaşdırmağa

[1] Мамедова Г.Г. Зодчество Кавказской Албании. Баку, «Чашыоглу», 2004, стр.134-135.

[2] Cəfər Qiayasi. Nizami dövrü memarlıq abidələri. Bakı, "İşıq", 1991, s.12.

[3] Кирокос Гандзакский . История. Пер.Т.И.Тер-Григоряна.Баку, 1941, рукопись ИИФ, стр.126.

[*] M. Kalankatlının "Tarix"ində Yerusəlim kilsəsinin Alban kilsəsi ilə genetik qohumluğu və azalmayan əlaqəsi qırmızı xətlə keçir. Müəllif dəfələrlə qeyd edir ki, I əsrdə Yerusəlimdə patriarx İakovdan patriarxlıq üçün izin alan Faddeyin şagirdi Yelisey Zaqafqaziyada birinci Alban kilsəsinin əsasını qoymuşdu (bax: Мамедова Ф. Дж. Политическая история и историческая география Кавказской Албании, Баку, «Элм», 1986, стр.224).

cəhdetmə siyasəti idi[1]. Yuxarıda deyilənlər bunun əksini göstərir. Digər tərəfdən, K.Yüzbaşyan daha bir təhrifə də yol verir. O, yazır ki, atəşpərəst olan əhali islamı qəbul edərkən yeni dini daha ağrısız qəbul etmişlər. Xristianlar və yəhudilər isə ümumiyyətlə götürüldükdə öz dinlərinə daha çox sadiq idilər. Yeni din Ərminiyə, Gürcüstan və Albaniyada müvəffəqiyyət qazana bilməmişdi[2]. Düzdür, Sasanilərin süqutundan sonra atəşpərəstliyin rəsmi və hakim din mövqeyinə xitam verilməsi, Cənubi Azərbaycanda islamın daha tez yayılma səbəblərindən biri idi. Lakin, bir incə məqamı da nəzərə almaq lazımdır ki, bu dinə xitam verilməmişdən əvvəl ərəb-islam fəthləri zamanı atəşpərəstlik artıq zəifləmişdi. Bu, daha çox məzdəkiliklə bağlı idi. Qafqazda Ərminiyə, Gürcüstan və Albaniyaya gəldikdə isə, Ərəb fəthləri zamanı xristianlığa qarşı münasibət loyal olmuşdur. "Kitab əhli" kimi Arran əhalisi onlar üçün yeni olan dini qəbul etməyə məcbur olunmur, əksinə, islam xristianların özləri tərəfindən xüsusi həvəslə qəbul edilirdi[3]. V.V. Bartolda görə, islamın zorla qəbul etdirilməsi təkcə xristianlığa aid deyildi, nə yəhudilər, nə də atəşpərəstlər təqib edilmirdi[4]. Əksinə, xristian ərəblər Xilafətdə əhəmiyyətli rol oynamışlar və onların tarixi ərəb mədəniyyətinin maraqlı səhifələrindən biridir.[5]

Lakin, bəzi siyasi vəziyyətlərdə dindən sui-istifadə hallarına da rast gəlinirdi. Bizans ərazisinə keçən xürrəmilərin başçısı Nasir Feofab adını xristianlığın pravoslav təriqətinə keçəndən sonra almışdı[6]. Belə bir hadisə Axsartanın da başına gəlmişdi. Alp Arslan (1063-1072) gürcüləri əzdikdən

[1] Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI вв. Москва, «Наука», 1988, стр.49.

[2] Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI вв. Москва, «Наука», 1988, стр.49.

[3] Розен В. Рецензия на «Alberuni», India, s.155.

[4] Бартольд В.В.Краткий обзор истории Азербайджана. Сочинения, т.II, ч.1. Москва, «Восточная литература», 1963, стр.777.

[5] Крачковский И.Ю. Над арабскими рукописями. Москва, "Правда", 1948, стр.23.

[6] Treadgold W. A History of the Bizantine State and Sosiety. Stsanford, Californiya, 1997, p.439; Самедов В. Средневековые источники о происхождении хуррамитского военачальника Насира – Феофоба и его бегстве в Византию. AMEA Xəbərləri (ictimai elmlər seriyası) , 2015, № 1, стр.37.

sonra Şəkinin hakimi Axsartan islamı qəbul etmişdi[1]. Sədrəddin Əli əl-Hüseyni bu mərasimi belə təsvir edir: "Sultan sarayına frankların məliki və Şəki məliyi Axsartan[*] bir neçə süvari ilə gəldi. O, girişdə dayanmışdı. Sultan dedi: "Ona daxil olmağa kömək edin, çünki o, əsil-nəcabətdən olan nəsildəndir". Onda o (Axsartan) tələsdi, sultanın yanına daxil oldu və dedi: "təcrübə mənə insanlara qarşı səhv etməməyi öyrədib, amma sənin taxtına məni xüsusi bir şey gətirib: düşüncələrimdəki İslam anlayışı və xristianlıqla olan bütün düşüncələrimi və əlaqələrimi qəti qırmaq istəyi". Axsartan kəlmeyi-şəhadəti dedikdən sonra sultan onu qiymətli hədiyyələrlə mükafatlandırdı və hörmət əlaməti olaraq öz atı üstündə oturtdu"[2]. Maraqlıdır ki, Alp Arslan Şəki vilayəti üzərində hakimiyyəti ona tapşırmazdan əvvəl onun şəriəti, namazı və Quran surələrini öyrənməsini vacib saymışdı. Buna görə, Axsartana islam qaydalarını bilən fəqih göndərir və ona sünnət olunmasını əmr edir[3]. Bu isə islamın qəbulunun səlcuqi hökmdarı üçün nə qədər önəmli olduğunu göstərir.

Müsəlman Səlcuqlardan fərqli olaraq, kilsə başçıları islamı qəbuletmə hallarına mənfi münasibət bəsləyirdilər. Yuxarıda qeyd edildiyi kimi, İslam dinini qəbul etmiş Şəki hakimi I Axsartan 1084-cü ilə qədər xristian təbəələri üzərində hakimlik etmişdir. Xristian təəssübkeşi Platon İosseliana bunu dəhşətli faciə adlandırmışdı[4]. Bəs, məliyi islam dinini qəbul etmiş bu vilayətin özünün əhalisinin islam dininə münasibəti necə idi, islam dini şəkililər arasında necə yayılmışdı? Axsartana qədər Şəki məlikliyindəki

---

[1] Садраддин Али ал-Хусейни. Ахбар ад-давлат ас-салджукиййа. Издание текста, перевод, введение, примечания и приложения З.М. Буниятова. Москва, «Наука», 1980, стр.54-55.

[*] Qeyd: akad. Bünyadov adı çəkilən Şəkinin hakimi Axistan haqqında yazır: "Bu Axistan, və ya Şəkki məliyi, Kaxetiya hakimi Qaqik oğlu II Axsartandır (Bax: Садр ад -Дина Али ал-Хусейни. Ахбар ад-даулат ал-Салджукиййа. Издание текста, перевод, введение примечание и приложений З.М. Буниятова. М., 1980. С.53, 54, 86, 94, 95).

[2] Садраддин Али ал-Хусейни. Ахбар ад-давлат ас-салджукиййа. Издание текста, перевод, введение, примечания и приложения З.М. Буниятова. Москва, «Наука», 1980, стр.54-55..

[3] Буниятов З.М. Сведения Камал ад-Дина ибн ал-Фувати о представителях семьи Санджара ибн Абдаллаха ан-Нахичевани//Доклады АН Аз.ССР, 1978, т. XXIV, №5, стр.32.

[4] Платон Иосселиана. Исторический взгляд на состояние Грузии под властью царей – Магометан. Тифлис, 1849, стр.12.

şəhərlərdə came məscidlərinin olması, burada müsəlmanların olmasını göstərir. Əl-Müqəddəsi Şəki şəhəri haqqında belə yazırdı: "Şəki düzənlikdə böyük şəhərdir. Əhalisinin çoxu xristiandır. Came məscidi müsəlmanların bazar meydanındadır"[1]. Coğrafiyaşünas səyyahlardan İbn Rusta "Nəfis daş-qaşlar kitabı"nda Xayzan şəhəri və onun hökmdarı Azərnəsrə haqqında danışaraq onun üç dinə etiqad etməsini göstərir: "Yəni, cümə günü müsəlmanlarla namaz qılır, şənbə günü yəhudilərlə, bazar günü xristianlarla. İbn Rusta əlavə olaraq göstərir ki, "...kim ki, hökmdar olur, o da qərar verir, bütün bu dinlərdən olanlar öz dinlərinə çağırırlar və düşünürlər ki, həqiqət öz əllərindədir və batil öz dinində deyil. Mən də bütün dinlərə etiqad edirəm, beləliklə bütün dinlərdəki həqiqətə çatıram"[2*].

Bəzən dininə görə himayə olunanlara (kitab əhlinə) bu və ya digər sahədə çalışmaq üçün icazə verilirdi. Adam Metsə görə, daha gəlirli sahələr olan bank, ticarət, iri sahibkarlıq, həkimlik xristianların və yəhudilərin əllərində cəmləşmişdi[3]. Beyləqanda xristian və yəhudi icmaları o dərəcədə güclü idi ki, onlar bu və ya digər şəxsin hakim seçilməsi uğrunda mübarizəyə belə girişirdilər[4].

Səlcuqlar şəhərləri tutarkən kilsələri dağıtmamışdılar. Buna misal kimi, Sədrəddin Əli əl-Hüseyninin Tiflis şəhəri haqqında yazdıqlarını misal gətirmək olar. O, qeyd edir ki, Alp Arslan Tiflisə daxil olanda burada isti su mənbələrinin yerində əsası qoyulan hamamla qarşılaşdı. Sədrəddin eyni zamanda Tiflis qalasının möhkəmliyini və bir kilsənin mövcud olduğunu da

---

[1] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.131; əl-Müqəddəsi. Əhsən ət-təqasim fi məarifəti-l əqalim.Leyden, 1967, s.376 .

[2] İbn Rusta, Əbu Ali Əhməd ibn Amr. Kitab əl-A'laq ən-nəfisə. Leyden: Bril, 1892 - s. 147

[*] Qeyd etmək lazımdır ki, De Quye özü də qeydlərində İbn Rustadakı xayzanlı Azərnərsənin Məsudidə Şəki hökmdarı (regem regionis) adlandırıldığını qeyd edir: (bax: İbn Rusta, Əbu Ali Əhməd ibn Amr. Kitab əl-A'laq ən-nəfisə. Leyden: Bril, 1892 - s.147). Gənc tədqiqatçı R.Ə. Mustafa İbn Rustaya əsaslanaraq qeyd edir ki, bu adət - dini demokratiya, dini dözümlülük, üçdinlilik və hətta dörddinlilik xəzər türklərində də rast gəlinirdi ki, bu da Şəki məlikliyindəki albanları xəzərlərə çox yaxınlaşdırır (Tiflis əmirliyi. namizədlik dissertasiyası, Bakı, 2013.)

[3] Мец А. Мусульманский ренессанс/Перевод с немецкого, предисловие, библиография и указател Д.Е. Бертелъса. Москва, «Наука», 1966, стр.44 .

[4] Пахомов Е.А. Пайтакаран-Байлакан-Орен-кала//Материалы исследования по археологии СССР, № 67, Москва-Ленинград, Изд-во АН СССР, 1959, стр.25.

qeyd edir. Müsəlmanlar şəhəri tutduqdan sonra heç kimin dinini məcburi surətdə dəyişdirməmişdilər və burada tam dini azadlıq var idi. Lakin, illər keçdikcə, şəhərdə keçmişin qalığı kimi, bütün xristianlar tərəfindən hörmət göstərilən bir kilsə qalmışdı. Sultan çox güman ki, əzəməti ilə kilsəni ötsün deyə bu şəhərdə böyük bir cami inşa etdirir[1]. Bu möhtəşəm kompleks, güman ki, IV Davidin Tiflisi işğalı və Cəlaləddinlə gürcülərin mübarizəsi ərəfəsində Tiflisdən müsəlmanları qovmaq məqsədilə Tiflisi yandırdıqları zaman məhv olmuş və işğalçı gürcülər tərəfindən ortadan qaldırılmışdır[2].

XII əsrin sonlarında xristian məhkəmə sistemi Mxitar Qoşun tərtib etdiyi hüquq məcəlləsi olan "Qanunnamə" əsasında aparılırdı. Bu hüquq məcəlləsini Mxitar Qoş alban katolikosu III Stepanosun təkidi və xahişi ilə yazmışdı. "Qanunnamə"yə Bizans qanunları ilə yanaşı alban və erməni xalq adətləri, kilsə qanunları - "Musanın qanunları" da daxil edilmişdi.

Sərhəd vilayətlərində konfessional sahədə daha sərt siyasət həyata keçirilirdi. Və bu siyasət xrstianlığa etiqad edənlərin nufuzunu məhdudlaşdırmaqla bərabər müsəlmanlığın saxlanmasına ciddi nəzarət edilirdi. Atabəylər dövründə Naxçıvan haqqında yazılmış bir sənəddə konfessional siyasətdə ortaya qoyulan dəyişikliklərin daha çox islamın xeyrinə olması daha qabarıq nəzərə çarpırdı. Vilayətlərin sərhədlərində başqa dinə etiqad edənlərin nüfuzunu məhdudlaşdırmaqla bərabər, müsəlmanlığın saxlanmasına ciddi nəzarət edilirdi. Azərbaycanda vilayətlərin başında duran valilərin qarşısında digər vəzifələrlə yanaşı islamla əlaqədar vəzifələr də qoyulurdu: "...İslamın qoyduğu qanun-qaydalara əməl olunmalı və onlar yayılmalı, dinə münasibəti olan adamlara - seyidlərə, imamlara, sufilərə, ruhanilərə, şeyxlərə xüsusi hörmət edilməlidir[3]. Naxçıvan vəzirliyinin Xəlifə Osman ibn Əffanın

---

[1] Садр ад-дин Али ал-Хусейни. Ахбар ад-даулат ас-сельджукиййа /Издание текста, перевод, введение, примечания и приложения З.М. Буниятова, Москва, «Восточная литература», 1980, стр.55; Minorsky V. Studies in Caucasian History,-"Cambridge Oriental series", London, 1953, № 6, p.65.

[2] Rəşad Mustafa. Tiflis əmirliyi. Tarix üzrə fəlsəfə doktoru dissertasiyası, 2016, s.137.

[3] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı, "Elm", 1984, s.180.

nəslindən olan Sədrəddin Əbülbərəkət əl-Osmaniyə tapşırılması haqqında olan sənəddə ona aşağıdakı işləri görmək da tapşırılmışdı: "Əgər Naxçıvan qalasının adamlarından hər hansı biri islamı qəbul edib dinsizlikdən imtina etsə, vəzir onu cizyə ödəmədiyi üçün məsuliyyətə cəlb etməməli və heç bir tələb irəli sürməməlidir.O, [xristianların] kilsə tikmələrinə, onu təmir etmələrinə, kilsələrə adam yığmalarına mane olmamalı, lakin onların mühüm bir yenilik və təzə ziyarət yerləri yaratmalarına yol verməməlidir. Bundan əlavə o, istərsə yüksək, istərsə də aşağı təbəqədən olan xristianların müsəlmanlardan ayrı yaşamaları qayğısına qalmalı, onlara at üstündə gəzməyi və silah gəzdirməyi qadağan etməlidir.

Vəzir yolları qorumalı, zimmi təbəqəsindən olanların islam məntəqəsindən çıxıb dinsizlərə birləşməsinin qarşısını almaq üçün bütün gediş - gəliş yollarını nəzarət altında saxlamalıdır. Heç bir tacir – istər müsəlman, zimmi, dindar və ya əcnəbi olsun - həmin yerə silahla, qulla və mal – qara ilə getmək imkanına malik olmamalıdır. Düşmən ölkədən (dar əl-hərb) islam ölkəsinə (dar əl-islam) köçmək istəyənləri o, hörmətlə və ədəblə qarşılamalı, lakin onların ölkədə həddindən artıq çox məskunlaşmasına yol verməməlidir. Əgər müsəlmanlardan biri kafirlərin tərəfinə keçmək istəsə, vəzir ona sərbəstlik imkanı verməməli, istədiyini deməyə və yerinə yetirməyə qoymamalı, üç gün ərzində onunla yumşaq rəftar etməli və cəhd göstərməlidir ki, o, dinə olan şəkkindən əl çəksin. Əgər həmin şəxs yenidən dinə qayıtmış olsa, "onda vəzir, böyük qələbə qazanmış olur". Əks təqdirdə vəzir onun bəraəti haqqında deyil, edamı haqqında hökm verməlidir..."[1] Göründüyü kimi, artıq başqa dindən olanlar daşımalı olduqları fərqləndirici nişanları gəzdirmirdilər. Xaşpərəstlər bu dövrdə müsəlmanlardan ayrı yaşamalıydılar, onlara at üstündə gəzmək və silah gəzdirmək qadağan sayılırdı. Bu dövrdə atəşpərəstlik və ya bütpərəstlikdən danışmaq isə əbəsdir. Belə ki, atəşpərəst və ya bütpərəstləri gündüz çıraqla gəzsən belə tapmaq mümkün deyildi. İslam bölgədə inkişafını yaşayırdı.

[1] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı, "Elm", 1984, s.180-181.

Qeyd etmək yerinə düşərdi ki, bu dövrdə divanda yazışmalar əksər halda fars dilində idi[1*]. Digər tərəfdən, Şirvanşahların həmin dövrə aid yazışmalarının bir hissəsinin ərəb dilində olmasını da qeyd etməmək olmaz[2].

Beləliklə, demək olar ki, Azərbaycanın müxtəlif ərazilərində islam dövründə bütpərəstlərlə atəşpərəstlik yanaşı yaşamışlar. X-XI əsrlərdə Azərbaycanda islam ideologiyasının bərqərar olmasına baxmayaraq, xristianlıq burada qalmaqda davam edirdi. Beyləqanda tapılmış XII-XIII əsrə aid küplərdən birinin üzərində xristianlığın simvolu olan xaç təsviri verilmişdir. Bu hal küpün işləndiyi müsəlman aləmində hələlik xristianlıq əlamətlərinin də qaldığına müəyyən işarədir[3]. Yuxarıda qeyd edildiyi kimi Beyləqanda xristianlıqla bərabər yəhudi icmaları güclü olmuşdur. Belə ki, onlar da bu və ya digər şəxsin hakim seçilməsi uğrunda mübarizə apara bilirdilər. Bu isə xristianlıqla yanaşı yəhudilərə də ölkədə hörmətlə yanaşıldığı və onların fikri ilə hesablaşıldığını göstərir.

[*] Məlumdur ki, islam dünyasında aparıcı dil ərəb dilidir. Orta əsrlərdə əksər elmi, fəlsəfi və dini əsərlər bu dildə yazılmışdır. Hətta qeyri-ərəblər, o cümlədən iranlılar və türkdilli xalqlar, o cümlədən Azərbaycan türkləri öz əsərlərini ərəbcə yazmışlar. Ərəb dilindən sonra ikinci yeri fars dili tutur və türkdilli xalqların bir çox alimləri öz əsərlərini farsca yazmışlar.Türk dilində elmi əsərlər ərəb və fars dilində yazılmış kitablarla müqayisədə çox azdır və fars dili daha çox poeziyanın və bədii nəsrin daşıyıcısı olmuşdur. Orta əsr Azərbaycanının dahi şairləri Nizami Gəncəvi, Xaqani Şirvani əsərlərini bu dildə yazmışlar. Ədəbi düşüncə və ənənəyə İran təsirinin daha güclü olmasını Fuad Köprülü belə izah edir: "Mavereunnehrin bir çok büyük merkezleri bile manen "türk" olmakdan ziyade "irani" idi. İşte, bundan dolayıdır ki, islamiyetden öncə de danışdıkları için türklere yabançı gelmeyen iranlılar, islam medeniyeti dairesine girmek için yene onlara yol gösterdiler ve tabii, bu hal, türk edebiyyatının gelişmesi üzerine yüz yıllarca tesirli oldu". (bax: Prof. Dr. Fuad Köprülü.Türk ədəbiyyatında ilk mutasavvifler. Ankara, Diyanet İşleri Bakanlığı Yayınları. 1991, s.21)

[2] Бейлис В.М. Из наблюдений над текстом Масуда ибн Намдара. Стихи и афоризмы Масуда ибн Намдара. Ежегодник. 1970. Москва, «Наука», 1974, стр.44.

[3] Əhmədov Q. M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, Azərb.SSR Elmlər Akademiyası Nəşriyyatı, 1959, s.79.

Azərbaycanda bu və ya digər türk tayfaları, xüsusilə, D.M. Danlopun qeyd etdiyi kimi, xəzərlər[1*] islamın şimala doğru yayılmasının qarşısının alınmasında həlledici rol oynamışlar[2]. Xilafət dövrü Bizansa keçərək xristianlığı qəbul edənlər də yox deyildi. Məsələn, Babəkin tərəfdarlarından bəziləri Bizans imperiyası ərazisinə keçərək xristianlığı qəbul etmişdilər. Belə ki, 837-ci ildə impetator Feofil ərəblərə hücum edərkən onun 100 minlik qoşununda imperiya ərazisinə keçərək xristianlığı qəbul etmiş və əvvəllər Babəkin tərəfdarları olanlar da var idi[3]. Bu hadisə siyasi şəraitdən irəli gəlirdi.

Cənubi Azərbaycanda –Atropatenada isə vəziyyət fərqli idi. 227-ci ildə Atropatena Sasanilər tərəfindən işğal olunarkən onun qonşu ölkələrdən irəlidə olması, atəşpərəstliyin geniş yayılması, Sasani dövlətinin hərbi-siyasi gücü ilə bərabər, dini-ideoloji gücünün də formalaşmasına ciddi zəmin yaratmışdı. Sasanilərin sonuncu nümayəndələri dövründə inkişaf etmiş atəşpərəst dualist sisteminin daxili məzmunu öz gücünü, xarici vəziyyəti isə əhəmiyyətini itirmişdi[4].

Həbib ibn Məsləmənin Dəbil əhalisi ilə bağladığı müqavilədən[5] aydın görünür ki, Ərəb fəthlərinin ilk dövrlərində ərəblər yerli əhalini məcuslar (atəşpərəstlər-N.Ə.), xristianlar və yəhidilər kimi zümrələrə bölərək onları fərqləndirmişlər. Bunlar dini kitabı olan təbəqələr idi.

---

* VIII əsrin II yarısınadək xəzərlər Albaniyada əsas aparıcı faktor olaraq qalırdı (bax: 185. Асадов Ф.М. Полемика о длительности доминирования хазар на южном Кавказе в хазароведческих исследованиях второй половины XX века/Средневековый Восток: проблемы историографии и источниковедения (Сборник статей памяти Героя Советского Союза, академика З.М.Буниятова). Баку, «Элм», 2015, стр.16.

2 Dunlop D. The History of the Jewish Khazars/Princeton: 1954, p.87.

3 Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI вв. Москва, «Наука», 1988, стр.94.

4 Пигулевская Н.В. Византия и Иран на рубеже VI и VII веков. Ленинград, Изд-во АН СССР, 1946, стр.234

5 Ал-Баладзори. Книга завоевания стран/Текст, перевод с арабского проф. П.К.Жузе. Материалы по истории Азербайджана. Вып.3, Издание Общества Изучения Азербайджана. Баку, 1927, стр. 11; Пахомов Е.А. Пайтакаран-Байлакан-Орен-кала//Материалы исследования по археологии СССР, № 67, Москва-Ленинград, Изд-во АН СССР, 1959, стр.19.

Fəthlərin ilk dövrlərində Azərbaycanda olan xristianlar kimi atəşpərəstlər[1] Xilafətin siyasi hakimiyyətini qəbul etsələr də, cizyə[*] verməklə islamı qəbul etməmiş[2] və öz dinlərini saxlamışlar. Buna görə də, Albaniya əhalisinin əksəriyyəti xristian, Cənubi Azərbaycan ərazisində yaşayan əhalinin əksəriyyəti atəşpərəst idi. Hər iki bölgənin yerli əhalisi arasında xristianlıqla bərabər, həm də atəşpərəstlər var idi və onlar cizyə verməklə uzun müddət öz inanclarını qoruyub saxlaya bilmişdilər.

Etnosların və dini mənsubiyyətin öyrənilməsində qəbir abidələrinin rolu böyükdür. Azərbaycanda tapılan qəbir abidələrinin tipoloji baxımdan müxtəlifliyi yerli əlalinin etnik tərkibi ilə bərabər dini baxışlarının da müxtəlifiyindən xəbər verir. Şimali Azərbaycan ərazisindən xeyli sayda təknə qəbir abidələrinin tapılması Albaniyanın Sasani imperiyasının tərkibində olduğu dövrdə burada zərdüştlüyün yayılması istiqamətində fəal iş aparıldığını əyani surətdə təsdiq edir. Akademik İ.Əliyev və arxeoloq F.Osmanovun fikrincə, torpaq və küp qəbirlərindən fərqli olaraq təknə qəbirlər yerli alban etnoslarına deyil, İrandan bu əraziyə köçürülmüş insanlara aiddir. Tədqiqatçı Q.Cəbiyev bu fikri bir qədər də dəqiqləşdirərək təknə qəbirlərini bilavasitə zərdüştlüyü qəbul edən əhaliyə xas olan dəfn adəti kimi xarakterizə edir[3].

Sasanilər süləsinin axırıncı nümayəndələrinin dövründə atəşpərəstlik artıq zəifləməyə başlayır ki, bu prosesin hərəkətverici qüvvələrindən biri

---

[1] Sasani dövlətinin yaradıcısı I Ərdəşir (e. 226-241) Atropatenada (Cənubi Azərbaycan) hakim olan atəşpərəstliyi, rəsmi din elan etmişdi. Təxminən 3000 illik bir keçmişə sahib olan bu din, zamanımıza qədər gəlmişdir. Hazırda bu din Hindistan və İranda, Kirman və Yezd şəhərində və Qəzvin yaxınlığında 14 kənddə davam etməkdədir. Bəzi ölkələrdə bu din təbliğ edilməkdədir. Hətta Amerikada bir atəşpərəst cəmiyyəti də qurulmuşdur. Son araşdırmalara görə müxtəlif ölkələrdə 129 min atəşpərəst vardır. Atəşpərəstliyin kökləri möhkəm olmuşdur.

[*] Cizyə - İslam dövlətində can, namus və mülkiyyətin qorunması, fiziki təhlükəsizliyin təmin edilməsi və hərbi xidmətdən azad olunma müqabilində qeyri-müsəlman əhalidən ildə bir dəfə alınan vergidir. Quranda cizyə haqda belə deyilir: “Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din olan İslama etiqad etməyənlərlə, zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun.” (Tövbə surəsi/29). Mənbələrdə Beyləqan və Naxçıvanda yəhudilərdən cizyə alınması haqqında məumat verilir (bax. З.М. Буниятов. Государство Атабеков Азербайджана.Баку, «Элм», 1978, стр.220).

[2] Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, “Azərnəşr”, 1993, s.70.

[3] Cəbiyev Q.C. Girdman tarixi və tarixi coğrafiyası.B., “Elm-təhsil”, 2015, s.267.

ölkədə baş qaldıran məzdəkilər hərəkatı idi. Artıq ölkədə atəşpərəstliyin əsaslarına zərbə vurulmuşdu. Belə ki, mobedani mobed (baş kahin) məmurlar siyahısında özünün birinci yerini itirmiş və təqib olunan xristianlıq atəşpərəstliklə uğurla rəqabət aparır və yepiskopların təmsilçiliyində hətta saraya daxil ola bilirdi[1].

Azərbaycanda miladdan təqribən 1500 il əvvəl yaranmış zərdüştlüyün ilk böyük mədəni abidəsi onun müqəddəs kitabı - "Avesta"* hesab edilir. Zərdüştün vətənindən söhbət gedərkən orta əsr müəllifləri, o cümlədən Əhməd əl-Bəlazuri (IX əsr), Əbu Reyhan əl-Biruni (XI əsr) onun Azərbaycandan çıxdığını söyləmişlər. Yaqut əl-Həməvi (1179-1229) Zərdüştün Şizdən olduğunu yazırdı. "Şiz Azərbaycanda nahiyədir. Deyirlər ki, məcusların peyğəmbəri Zərdüşt buradandır. Bu nahiyənin paytaxtı Urmiyadır."[2]. Alim Urmiya haqqında danışarkən oranı "məcusların peyğəmbəri Zərdüştün şəhəri" adlandırmışdır. Qütbəddin Şirazi onu "görkəmli filosof, kamil imam Zərdüşt Azərbaycani" deyə yad etmişdir.

Orta əsr müəlliflərinin fikrincə, zərdüştlikdə bütün söhbət işığın qaranlıqla çulğalaşmasının səbəbi və işığın qaranlıqdan xilas olmasını izah etmək qaydalarından gedir. Belə ki, bir-birinə zidd olan iki əsas (işıqla qaranlıq) dünyadakı mövcud şeylərin mənbəyidir. XII əsrdə yaşamış fəlsəfə

[1] Пигулевская Н.В. Византия и Иран на рубеже VI и VII веков. Ленинград, Изд-во АН СССР, 1946, стр.235

* "Avesta" ("Qanun") üç kitabdan –"Vendidad", "Yasna" və "Vispered"dən ibarətdir. Birinci iki kitabda toplanılmış dini mərasimləri əks etdirən mətnlər-yaştlar "Avestanın" ən qədim hissələri hesab olunur. Onlar müxtəlif vaxtlarda yaranmış, irili-xırdalı iyirmi bir himndir. "Yasna"nın əsas məzmununu Zərdüştün lirikası-qatalar əsas məzmununu təşkil edir. "Vispered" "Yasna"nın ayrı-ayrı hissələrinə əlavədir. Bütünlükdə götürüldükdə Avestanın əsas ideyası dualizmdir; hər yerdə işıqla qaranlıq, həyatla ölüm, xeyirlə-şər, ədalətlə haqsızlıq mübarizə aparır. Zərdüştiliyə görə, Hörmüz (Ahura-Mazda) Əhrimənə (Anhra Manyuya) əvvəl-axır qələbə çalacaq, şər həmişəlik yox olacaqdır. Bununla belə "Avesta" politeist və monoteist müddəalardan xali deyildir. Onun ən qədim parçalarında çoxallahlılıq, o cümlədən Günəşi, Ayı və ulduzları ilahiləşdirmək meyli, qatalarda isə təkallahlılıq meyli güclüdür. Əhəmənilər dövründə (miladdan əvvəl VI-IV əsrlərdə) atəşpərəstlik rəsmi din elan edildikdən sonra onun düalist və politeist cəhətləri arxa plana keçirilmiş, sonralar Hörmüz formasında tələffüz edilən Ahura-Mazda (Hikmət ağa) bütün mövcudatın vahid yaradıcısı olmasa belə, vahid Allah sayılmışdır.

[2] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində, Bakı, "Çaşıoğlu, 1999, s.171.

və din tarixçisi Məhəmməd Şəhristani yazır: "Tərkiblər o ikisinin (işıq ilə qaranlığın) qatışığından hasil olmuş, surətlər müxtəlif tərkiblərdən meydana çıxmışdır". İşraqilik fəlsəfəsinin banisi Şihabəddin Əbülfütuh Yəhya ibn Əmirək əs-Sührəvərdi (1154-1191) atəşpərəstliyin küfrünü, daha doğrusu, dualizmi rədd etdiyi halda Zərdüştün adını hörmətlə çəkmiş, işraqilik fəlsəfəsinin* şərhində ona əsaslanmışdır. "Avesta"dakı dini-fəlsəfi elmi, social-siyası baxışlar o dövrün ideologiyasında yüksək səviyyəsi ilə seçilir. Azərbaycanda yaranmış "Avesta" İran, Orta Asiya və başqa ölkələrdə də yayılmışdı. Onun elmi və ideoloji nüfuz dairəsi isə daha uzaqlara gedib çıxırdı. Bu, yunan elmi fəlsəfi fikrində, xüsusən yunanlar arasında ilk ensiklopedik zəka sahibi, materialist filosof Demokritin (e.ə.460-370) dünyagörüşünün formalaşmasında özünü aşkar büruzə verirdi[1]. Demokrit ilə midiyalı maqlar** arasında yaxınlıq hava, su, torpaq ünsürlərinin qəbulunda və şərhində aydın nəzərə çarpırdı. Avestada bütün mədəniyyət üç ifadədə yekunlaşdırılırdı: xeyirxah fikir, xeyirxah söz, xeyirxah iş. Demokrit Zərdüştün bu üçlüyünü

---

* Ərəb-müsəlman fəlsəfəsinin işraqilik adlanan mühüm cərəyanının əsası Yəhya əs-Sührəvərdinin "İşıq haqqında", "İşraq hikməti" və "İşığa dair traktat" adlı əsərlərində qoyulmuşdur. İşraqilik təlimində bütün varlığın vahid işıqdan yaranması qəbul olunur. Burada işıq, eyni zamanda həqiqət, bərabərlik, düzgünlükdür. Sührəvərdi inanırdı ki, dünyəvi proses işığın qələbəsi ilə də başa çatacaqdır-N.Ə.).

1 Məmmədov Z.C. Azərbaycan fəlsəfə tarixi, Bakı, "Şərq-Qərb", 2006, s.14.

** III əsr filosofu Parfiosa görə, "maq" Allaha sitayiş edib, onun elmi sirrlərinə yiyələnənlərə deyilir (bax: https://az.wikipedia.org/wiki/Zərdüştilik). Maqlar mənşə etibarı ilə Mada tayfalarından biri idilər. Bir çox hallarda etnik mənsubiyyətindən asılı olmayaraq sadəcə kahinlər də "maq" adlandırılırdılar. Oda sitayişin xidmətçiləri və qədim ənənələrin mühafizəçiləri olan maqlar, daha doğrusu maqlar tayfasından olan kahinlər Midiya(Mada) hökmdarlarının, hər halda son Mada hökmdarı Astiaqın rəsmi saray kahinləri idi. Orta əsr mənbələri təbabətdə islamaqədərki atəşpərəst ənənələrindən də bəhs edirlər. Əbu Reyhan əl-Biruni özünün "Kitab əs-Saydana fi-Tıbb" əsərində dərman bitkilərindən "xaum əl-macus" ("məcusların xaumu") haqqında məlumat verərək yazırdı ki, "Macuslar hesab edirlər ki, bu bitki gövdəsizdir. O, Azərbaycanda elə yerlərdə bitir ki, oraya heç kimin ayağı dəymir. (bax: Бируни Абу Рейхан. Фармакогнозия в медицине/Иссл., пер. и прим. У.И. Каримова//Избранные произведения, том IV. Ташкент: Фан, 1974, с.873). Əsərdə daha sonra deyilir ki, bu bitki Azərbaycan maqları tərəfindən tibbi mərasimlərdə istifadə olunur. Zərdüşt kahinləri dini mərasimlərdə bu bitkinin budağını əllərində saxlayırdılar.

təkrarlamışdır. Avestada həqiqət, düzgünlük və ədalət hər şeydən üstün tutulurdu. Demoktik də bunu iqrar etmişdir.

Antik və orta əsr müəlliflərinin verdikləri məlumatları təhlil edən S.B. Aşurbəyli Albaniya və Arran ərazilərinin ətraflı izahını vermiş, "Rotibaqa", "Baqanrod", "Atli-Baqavan", "Atəşi-Baquan" və s. toponimləri diqqətlə araşdıraraq onların qədim atəşpərəstlərlə bağlılığını əsaslandırmışdır[1]. Müəllifin fikrincə, Sasanilər dövründə və onlardan xeyli əvvəl Azərbaycanın şimal-şərq və cənub hissəsində, İranda "Baqavan","Baqa-ran", "Baq-ni", "Baqa-yaric" və s. adlar altında şəhər və yaşayış məntəqələri mövcud olmuşdur. Bu məntəqələrin hər birində sönməz odlar şölələnir, bütxanalar və atəşpərəst məbədləri yerləşirdi[2]. 1925-ci ildə Bakıya səfər etmiş hind alimi, qeyd edirdi ki, qədim hind kitabələrinə görə Xəzər dənizinin qərb sahillərində çoxsaylı atəşpərəst məbədləri olmuşdur. S.B. Aşurbəyli tarixi mənbələrə, xüsusən də ərəb müəllifi əl-Məsudinin və xəlifənin uyğur xaqanı Bögü xana göndərdiyi səfirin məlumatlarına, Məhəmməd ibn Bakranın "Cahan-namə"sinə (1210) və b.-nın əsərlərinə müraciət edərək Bakıda Qız qalasının hündürlüyü, forpostu (ön mövqe, ön istehkam–N.Ə.), daxili quruluşu, su quyusu və üzərində yazı olan daşdan danışmış, onun Şərq ölkələrində analoqu olmadığını bir neçə dəfə göstərmişdir[3]. Qız qalasının xarakterini müəyyənləşdirən müəllif onun müdafiə tikilisi olması fikrini birmənalı şəkildə təkzib etmişdir. S.B. Aşurbəyli Qız qalası haqqında İ.Berezin, S.Qmelin və b.-nın nümunə gətirdikləri əfsanələri təhlil edərək göstərirdi ki, Sasanilərin hakimiyyəti dövründə bu abidə artıq mövcud olduğuna görə, onun inşasını daha qədim dövrlərə aid etmək doğru olardı. O, 1903-1905-ci illərdə Venesiyada nəşr olunmuş coğrafi lüğətə əsaslanaraq, XVIII əsrdə Bakıda Od və Dəniz Tanrısı məbədlərinin yerində kilsə

---

1 Ашурбейли С.Б. О датировке и назначении Гыз-галасы в крепости Баку, Изв. АН Азерб.ССР, История, философия и право, 1974, № 3, стр.42-43.

2 Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2006, s.45

3 Yenə orada, s.45-47.

tikilməsi barədə məlumat vermişdir[1]. Abidənin analoqunun olmaması[*], onun haqqında orta əsr yazılı mənbələrinin məlumat verməməsi, müxtəlif fərziyyələrə yol açmışdır.

İslam dininin qəbulu Azərbaycan əhalisinin maddi-mədəni həyatının bütün sahələrinə təsir edib, türk-islam mədəniyyətinin formalaşması üçün şərait yaratmasına baxmayaraq, ölkəmizin ərazisində aparılmış arxeoloji ekspedisiyaların nəticələri, mövcud epiqrafik və numizmatık material hələ də buradakı memarlıq abidələrinin qalıqlarında, dulusçuluq məmulatlarında nəbati və həndəsi ornamentlərin hakim mövqe tutmasını göstərir. Şabran yaşayış məskənindən tapılmış ilan başını xatırladan ucları olan qolbağ və gümüş üzüklər, şir formalı asma və s. islam dininin hakim olduğu dövrdə hazırlanmasına baxmayaraq, qədim dini təsəvvürlərin qalıqlarının, atəşpərəstliyə sitayiş edənlərin hələ də mövcudluğunu və islam mədəniyyəti təsirinə məruz qaldığını göstərir[2]. Arxeoloji qazıntılar

---

[1] Ашурбейли С. Б. О датировке и назначении Гыз-галасы в крепости// Известия АН Азербайджанской ССР. История, философия и право, Баку, 1974, № 3, стр.48.

[*] Qız qalası Abşeron qəsrlərinin dairəvi qüllələrindən böyük hündürlüyü və mərtəbələrinin çoxluğu ilə seçilir. Onun planının bənzərsizliyi həm də araşdırıcıların gah dalğaqıran, gah da gizli xəzinə yeri və s. saydıqları dairəvi qülləyə bitişik çıxıntısının olmasıdır. Qalanın üzərindəki kitabə də mübahisələri kəsə bilməmişdir, çünki kitabə Mərdəkan, Nardaran qəsr qüllələrində olduğu kimi, üzlük hörğüyə daxil edilməmişdir. Bu səbəbdən də mütəxəssislərin çoxu onun sonradan divara quraşdırıldığını qəbul edirlər. Kitabənin mətni də mütəxəssislərdə çaşqınlıq yaratmışdır. Qısaca olaraq yazılan "Məsud Davud oğlunun qübbəsi "çətin izah olunur. Belə ki, Abşeron qalalarının sahibləri yüksək vəzifəli dövlət adamları olduğundan kitabələrdə özlərinin dəbdəbəli titullarını sayıb "tikməyi əmr etmişdir" ifadələri ilə tikintidəki rollarını konkret göstərmişlər. Digər tərəfdən, kitabənin xətti üslubca XII yüzilə aid edilsə də, Qız qalasının həmin çağda tikildiyini təsdiq etmək olmaz. Çünki, başqa Abşeron qalalarında tikinti zamanı hakimiyyətdə olan Şirvanşah böyük təntənə və dəbdəbə ilə kitabələrdə göstərildiyi halda, Abşeronun ən möhtəşəm abidəsində belə kitabə göstəricisi yoxdur. Bu səbəbdən də Qız qalasının Şirvanşahlar çağında ucaldılması ağlasığmazdır. Şirvanşahlar olsa-olsa bu qədim abidədə yenidənqurma işləri apara bilərdilər (bax: Cəfər Qiyasi. Nizami dövrü memarlıq abidələri. Bakı, "İşıq", 1991, s.162-163).

[2] Аббасова Ф.А. Об одной группе зооморфных изделий из средневековых памятников Азербайджана (по материалам раскопок 1983-1984 гг.) - Всесоюзная археологическая конференция «Достижения Советской археологии в XI пятилетке». Тезисы докладов. Баку, «Элм», 1985.

nəticəsində aşkar olmuş zoomorf əşyaların islam dövründə hazırlanmasına baxmayaraq, onların böyük qisminin gildən düzəldilməsi, islam dininin qızıl və gümüş qablarda xörək yeməyi günah elan etməsi, dəmir, qurğuşun, mis qablarda qida qəbulunu qadağan olunmasıyla əlaqədardır.

Müasir dövrdə də bu dini qalıqların, o cümlədən atəşpərəstliyin mövcudluğunu göstərən maddi-mədəniyyət abidələri mövcuddur. Lənkəran rayonundakı Bəlləbur qalasında günəşə və aya sitayiş izləri qeydə alınmışdır. Divarlar üzərində atəşpərəstliklə əlaqədar təsvirlər də tapılmışdır[1]. Arxeoloq V.A. Kvaçidze orta əsrlər Şirvanının Quştəsfi vilayətində tapdığı, XII əsrə aid olunan saxsı qabların üzərindəki kompozisiyanı atəşpərəstliyə aid hesab edir. O, dairənin ortasındakı şir təsvirini günəş tanrısı, ətrafındakı dairədə çəkilmiş üç şir təsvirini isə od qoruyucusu kimi izah edir. Üç şir təsvirinin od qoruyucusu qismində izahı atəşpərəstliyin hakim olduğu cəmiyyətdə simvol kimi verilməsi inandırıcı görünür. X əsr müəllifi Həmzə İsfahaninin simvollar, xüsusən də şir simvolu ilə əlaqədar verdiyi məlumata görə, "Ənuşirvanın Bab-əl-Əbvab səddinə təyin etdiyi sərkərdələrin obrazları onlara ayrılmış fəxri paltarlarla yanaşı, mundirlərinə taxılmış rəsmlərə (qaban, şir, fil, qarğa) əsasən verilirdi[2]. Bütün bunlar, ərazidə islam dövründə bütpərəstliklə bərabər atəşpərəstliyin də olması qənaətinə gəlməyə əsas verir. "Hədisi Xosrov və Şirin" hələ qədimlərdən bəri Azərbaycanda və Azərbaycan poeziyasında yayılsa da, Nizami bu dastanı nəzmə çəkərkən onun Bərdədə saxlanılan yeganə əlyazmasının atəşpərəstlik illərində yazılmış nüsxəsinə əsaslanmışdır. Q. Kəndli bunun "Kəşfü-z-Zünun" əsərində Katib Çələbinin xəbər verdiyi əl-Bərdəinin "Arran tarixi" əsərinin əlyazma nüsxəsinin ola biməsi fikrini irəli sürür[3].

Zərdüştliyin Azərbaycanda qalması barədə ərəb coğrafiyaşünası, səyyah əl-Qərnati (1080-1169-70) də təsdiq edir. O göstərir ki, "Dərbənd yaxınlığındakı dağ kəndlərində "islamı qəbul etməmiş, hətta cizyə

[1] Haqverdiyev T.Ş. Daşların hekayəti. Bakı, "Gənclik", 1989, s.48.
[2] Ашурбейли С.Б. История государство Ширваншахов (VI-XVI вв.). Баку, «Элм», 1983, стр.45.
[3] Kəndli Q. Nizami "Xosrov və Şirin"inin tarixilik zəminəsi və Azərbaycan Atabəyliyinin bir neçə xəzinə sənədi. Nizami Gəncəvi almanaxı. Birinci kitab. Bakı, 1984, s.260-261.

də verməyən", dəfn mərasimlərinə görə, zərdüşt olduqları görünən atəşpərəstlərə rast gəldim"[1]. Bu faktlar tarixçiləri Azərbaycan ərazisində islam dövründə bütpərəstliklə bərabər atəşpərəstliyin də olması qənaətinə gəlməyə imkan verir.

Şirvanda olmuş və Xəzərdə üzmüş ərəb müəllifi əl-Məsudi (956-cı ildə vəfat edib) 943-947-ci illərdə yazdığı "Muruc əz-zəhəb və mədaini-l-cavhəri" əsərində Azərbaycanın Abşeron yarımadası, oradakı neft mədənləri və bu mədənlərlə üzbəüz adalarda güclü alov fontanları olduğunu yazır.

Abşeronun daim yanar odları haqqında Əbu Əli Əhməd ibn Ömər (X), Əbülfərəc Qudama (928), əl- İstəxri (930), əl-Bəkri (XI), əl-İdrisi (1154), İbn Səid əl-Məğribi (XII) və başqaları məlumat vermişlər[2].

Tədqiqatçı N.Kərəmova görə, V əsrdən başlayaraq ədəbiyyatda Xəzərin Azərbaycan sahillərində sönməyən odlar haqqında qeydlər var. X-XIII əsrlərdə Bakı özünün "daim yanar odları" və nefti ilə bir çox ölkələrdə, xüsusilə Yaxın Şərqdə məşhur idi[3].

XIII əsr müəllifi Zəkəriyyə əl-Qəzvininin məlumatına görə, Marağada atəşpərəstlərdən qalma çoxlu qədim abidələr var idi. Əl-Məsudidən (X əsr) başlayaraq əl-Qərnati (XII əsr), Yaqut əl-Həməvi (XIII əsr), Zəkəriyyə əl-Qəzvini (XIII əsr) və Əbdürrəşid əl-Bakuviyə (XV əsr) qədər ərəbdilli müəlliflər Bakıda öz-özünə yanar odların olması haqqında yazırlar. Yanar odların olması burada atəşpərəstliyin yayılması üçün münbit zəmin yaratmışdı. Şizdəki od məbədinə də atəşpərəstlərin etiqad etməsi ərəb ədəbiyyatı nümayəndələri tərəfindən vurğulanır. Əbu Duləf (X əsr) Şizdə atəşpərəstlərin sitayiş etdiyi çox möhtərəm Atəşkədə (od evi) haqqında

---

[1] Ал-Гарнати. Путешествие Абу Хамида ал-Гарнати в восточную и центральную Европу (1131-1153). Публикация О.Г. Большакова, А.Л. Монгайта, Москва, «Восточная литература», 1971, стр.50; Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan, Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 1993, s.68-70; IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.161.

[2] Керемов Н.К. Из истории географической изученности Азербайджанской части Б. Кавказа, «Уч. Зап. АГУ», 1961, №1.

[3] Керемов Н.К. Известный географ-путешественник Зейналабдин Ширвани об Азербайджане//Летопись науки в Азербайджане. Баку, «Элм», 1969, стр.22.

məlumat verir. O yazır ki, Şərq və Qərbdə yaşayan atəşpərəstlər buradan od aparırlar[1]. Lakin, maraqlıdır ki, Şizdə atəşgah məbədinin olmasını xəbər verən Əbu Duləf (X əsr) Bakıda atəşgah məbədinin olub-olmaması haqqında heç nə yazmır. Ya belə məbəd mövcud olmamış, ya da islam fəthlərinin ilkin dövründə dağıdılaraq ondan əsər-əlamət qalmamış, və ya mövcud nüsxədə bu barədə məlumat olmamışdır. 1964-cü ildə Qız qalasının 30-35 m şimal tərəfində aşkar olunmuş sıratağlı abidənin tədqiqatçılarından V.e.S. İsmizadə və H.Ə. Ciddiyə görə, sütunun yuxarı hissəsi yanar odun təsirindən qırmızı rəng almışdır ki, bu da onun dini mərasim zamanı şam və çıraq yandırmaq üçün istifadə edildiyini göstərir.

Son zamanlar arxeoloq N.Muxtarovun Balakən rayonu ərazisində, Qazma kəndinin "Qoz tala" adı ilə tanınan hissəsində apardığı qazıntılara görə, diametri 36, hündürlüyü 3 metr olan kurqanın qərb ətəyində, üst səhtdən 1 metr aşagıda üzə çıxmış məbədin divarları və döşəmə hissəsində yanğın izləri aşkar edilmişdir. Torpağın xeyli hissəsinin qırmızımtıl olması, hətta yanmış tirlərin kömür qalıqları buradakı yanğının miqyasının böyük olduğunu göstərir. Digər tərəfdən kurqanın qazıntı aparılmış hissəsində 40-dan artıq skelet aşkar edilmişdir ki, arxeoloqun fikrincə, onların çoxu erkən xristianlıq dövrünün, bir neçəsi isə daha qədim dövrün dəfn adətlərinə uyğun dəfn edilmişdir.

Azərbaycanın mədəni həyatında atəşpərəstliklə bərabər buddizmin də müəyyən təsiri olmuşdur. Zəvvar Syuan Tszyanın (təqr. 630) dediyinə görə, buddizm bəzi yerlərdə, o cümlədən Səmərqənddə ərəb fəthlərindən bir qədər əvvər atəşpərəstlik tərəfindən sıxışdırılmışdır. Digər yerlərdə isə, o cümlədən Oksdan cənub və şərqə doğru tam çiçəklənmə dövrü keçirirdi və öz yerini yalnız islama verdi. Zərdüştün vaxtında budda dini Biruninin sözlərinə görə, bütün İran və Məvaraunnəhrdən Suriya sərhədlərinə qədər olan ərazilərdə yayılmışdı[2]. Zərdüşt Azərbaycandan Bəlxə gələrək çar Quştaspı öz dininə döndərmişdi. Onun oğlu İsfəndiyar yeni təlimi şərqə və qərbə, Çindən Roma imperiyasına qədər bəzən silah, bəzən də sülh yolu ilə yayaraq od məbədləri tikdirmişdi. Hicri I əsrdən

---

[1] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.78.

[2] Бартольд В.В. Иранский буддизм и его отношения к исламую.Сочинения, т. VII, Москва, "Наука», 1971, стр.469.

atəşpərəstlik və buddizm islama tabe olmağa başlayır. Bu dövrdə dini dözümlülüyün xristianlar və yəhudilərlə bərabər atəşpərəstliyə də aid edilməsi ümumi olaraq qəbul edilmişdi[1]. Səmərqənddə qazıntılar zamanı tapılmış "gildən düzəldilmiş insan və heyvan fiqurları"na münasibət birdirən M.Hartman hesab edirdi ki, belə nümunələrin fəthlərdən, yəni h.93/ 712-cü ildən sonra gizli surətdə hazırlanması mümkün deyildi. Buxaralı tarixçi-alim Əbu Bəkr Məhəmməd ibn Cəfər ibn Zəkəriyyə əl-Xəttab ibn Şarik ən-Nərşaxi (899-959) bu bütlərin ildə üç dəfə Buxara bazarında açıq şəkildə satıldığı haqda məlumat verir. Ən-Nərşaxi h.332/943-cü ildə yazdığı əsərində bu adətin onun dövründə (yəni ərəb fəthlərindən 200 il keçəndən sonra) də davam etdiyini göstərir[2]. Belə bütlərin Azərbaycan ərazisində aparılan qazındılar zamanı da aşkar edilməsi (bax: Azərbaycanın antropomorf terrakotları. Kataloq. Bakı, AMEA MATM, 2010) nəinki atəşpərəstlik, hətta bütpərəstliyə qarşı da dini dözümlülüyün olmasını təsdiq edir. Nəinki Azərbaycanda, hətta islamdan əvvəlki Ərəbistanda da atəşpərəstliyə sitayiş edən qəbilələr (Təmim qəbiləsi) olmuşdur[3].

Ərəblərin fəthilə İranda, o cümlədən Azərbaycanda zərdüştlük təqib olunmağa başladı. Təsadüfi deyil ki, Bakı sakinləri arasında rəvayət edirlər ki, İçərişəhərdə yerləşən Cümə məscidi qədim zərdüşti məbədi üzərində tikilmişdir. 1873-cü ildə Bakıda Cümə məscidini görmüş səyyahın təsvirinə görə, məscidin ortasında üzəri örtülməyən dörd tağ ucaldılmışdı. Məsciddən daha qədim olan bu tağlar zərdüşti məbədinin qalıqları idi ki, sonradan müsəlmanlar onlardan məscidin tikintisi üçün istifadə etmişdilər[4].

Müqəddəs mətnlər Sasani hökmdarı I Ərdəşirin dövründə yenidən toplanaraq nizama salınmış və "Avesta" ərəblərin vaxtında tamamilə unudulmuşdu. Y.E. Bertelsə görə, "Avesta"nın o hissəsi qalmışdı ki, öz

---

1 Бартольд В.В. Иранский буддизм и его отношения к исламую.Сочинения, т. VII, Москва, "Наука», 1971, стр. 470.

2 Yenə orada, s.471.

3 Иностранцев К.А. Сасанидские этюды. СПб, 1809, стр.4.

4 Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджане с Индией в средные века. Баку, «Элм», 1990, стр. 43; Etimad əs-Səltənə Məhəmməd Həsən xan. Marat əl-buldən. Tehran, 1293, fars mətni, s.154.

dədə-baba dinlərinə sadiq qalmış bir qrup iranlı ibadət vaxtı bunsuz keçinə bilmirdi. Onların da çoxu İrandan Hindistana köçmüş və nəsilləri indiyədək orada qalmaqdadır”[1]. Lakin İranda Avestanın az bir hissəsinin qalmasına baxmayaraq, onun əsasları müxtəlif təriqətlərdə təzahür edə bilirdi. Əbdülqahir əl-Bağdadi “Əl-miləl va-n-nihəl” (“Dinlər və təriqətlər”) kitabında qeyd edirdi ki, ismaililərin məqsədi islamı məhv etmək və atəşpərəstliyi bərpa etməkdir[2].

Mənbələrin məlumatına görə, hələ X əsrdə İran, o cümlədən Cənubi Azərbaycan ərazisində zərdüştilər o qədər çox idi ki, onlar paltarlarında daşımalı olduqları fərqləndirici nişanələrlə gəzirdilər. Əl-Biruni hələ X əsrin sonlarında Mərkəzi Asiyada Buxara vilayətinin kəndlərində atəşpərəst icması haqqında məlumat verir[3]. Ərəb mənbələrində onları macuslar (məcusi-N.Ə.), fars mənbələrində isə muqlar adlandırırdılar.

V.V. Bartold İranda yaşayan zərdüştilərlə xristianları müqayisə edərək belə nəticəyə gəlir ki, islam farsların qədim dini olan zərdüştliyi tədricən sıxışdırıb çıxartsa da, xristianlığı tam çıxara bilməmiş, lakin onun sonralar yayılmasının qarşısına səd çəkmişdi[4]. V.V. Bartold yazır ki, atəşpərəstliyin izlərinin nə vaxt itməsi barədə məlumat yoxdur[5]. Lakin, bəzi mənbələrdə öz əksini tapan “zimmilər”[*] adı altında verilən məlumatlarda atəşpərəstlər də gedə bilərdi. Hələ XIV əsrin əvvəllərində zimmilərdən cizyə toplanması

---

[1] Бертельс Е.Э. Очерк истории персидской литературы. Ленинград, б/н. изд-ва, 1928, стр.11.

[2] Paşazadə A. Qafqazda islam. Bakı, “Azərbaycan”, 1991, s.89.

[3] Al-Beruni.Chronologie orientalischer Volker von Alberuni, herausg.von E.Sachau. Leypzig, 1848, ss.234, 235; Негматов Н.Н. Государство Саманидов. Душанбе, «Дониш», 1977, стр.139-140.

[4] Бартольд В.В. Мусульманский мир. Петербург, «Наука и школа», 1922, стр.30.

[5] Бартольд В.В. История культурной жизни Туркестана. Сочинения, т.II, ч.1, Москва, «Восточная литература», 1963, стр.211.

[*] Qeyd: Zimmi-kitab əhlindən müsəlmanın himayəsi altında olan adam. İslam yaılmağa başlayan ilk dönəmlərdə zimmi statusu xristian və yəhudilərə və İraqda çox da böyük olmayan sabiilər icmasına- Quranda deyildiyi kimi, “Kitab əhlinə” aid edilirdi. İslam dövlətinin genişlənməsi ilə əlaqədar olaraq, bu status zərdüştlərə də verilməyə başladı. Onların adı Quranda bir dəfə - “macus” sözü altında gedir. Bundan əlavə, bu status Məvəraunnəhrdə buddistlərə, Hindistanda hindulara da verilməyə başladı. Beləliklə, bütpərəstlərdən başqa fəth olunmuş ölkələrdə dini qrupların böyük hissəsi bu kateqoriyaya aid edilmişdi.

barədə məlumat vardır. İbn əl-Fuvati onlardan biri - İbn əl-Yəməni əş-Şirvani adı ilə məşhur olan İzz əd-Din Əbu Məhəmməd əl-Həsən ibn Mahmud ibn Mamlanı h.707-ci ildə (1307-1308) Sultaniyyədə görərkən, o xaricilərin (qəriblərin) divanında (divan əl-cavali) işləyirdi. Müəllif xəbər verirdi ki, "o, zimmilərdən cizyə toplayırdı"[1]. Zimmilər adı altında xristian, yəhudi və atəşpərəstlər nəzərdə tutulduğundan, ola bilsin ki, onların arasında atəşpərəstlər də olmuşdur.

Ərəbdilli mənbələrdə adı çəkilən və Sasanilərin köçürmə siyasəti ilə əlaqədar məlumat verilən parslar həm də atəşpərəstlər adlanırlar. Parsların bir çoxu Azərbaycan, Hindistan və İranda bu gün də yaşamaqdadır. Bu haqda məlumat verən İ.P. Petruşevski yazır ki, ərəblərin fəthindən bir əsr sonra atəşpərəstlərin daha fanatik və barışmaz olan böyük bir kütləsi Hörmüzə, oradan da Hindistana, Qudcerata köçmüşdü[2].

M.Nemətin qənaətinə görə, onların bir hissəsi Azərbaycana XVII əsrdə Hin-distandan gəlmiş və Suraxanı yaxınlığında Atəşgah məbədini inşa etmişlər. Abşeron yarımadasının bəzi yerlərində yaşamaqda davam edən parslar tat dilində danşırlar.

*Yəhudilik.* Azərbaycanda yəhudilər haqqında məlumatlar qədim dövrlərə gedib çıxır. Ön Asiyada eradan əvvəl VII yüzilliyin sonlarında Sakların hakimiyyəti çöküb VI yüzillikdə Yuda dövləti də (e.ə.587) Babil hökmdarı Nabukadnezar tərəfindən darmadağın edilincə, yəhudilərdən bir qismi Şimali Azərbaycan və sonra xəzər məmləkətində hakim olan Sakların ölkəsinə iltica etmişdir. Onlar Kür çayı hövzəsi və Dağıstana yerləşmişlər. Xəzər dənizinin şimalında yaşayan Xəzər və Sabir kimi türk boyları arasında yəhudiliyin yayılmasında bunların rol almış ola biləcəyi irəli sürülmüşdür[3]. Bunu Azərbaycan alimləri R.Göyüşov və Q.Qoşqarlı da təsdiq edir. Müəlliflərə görə, Babil əsarətinə düşən yəhudilərin bir hissəsi öz yerlərinə qayıtmaqdan imtina etmiş və e.ə. V əsrdən etibarən

---

[1] Сеидбейли М.Г. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.). Баку, "Чашыоглу", 1999, стр.118.

[2] Петрушевский И.П. Ислам в Иране в VII–XV веках. Ленинград, «Ленинградский Университет», 1966, стр.36.

[3] Zeki Velidi Toğan.Umumi türk tarihine giriş. Cild I, En eski devirlerden 16 asra kadar. 3. baskı. İstanbul,1981, s.20; Durmuş Arik. Azərbaycan türklerinin dini tarihi ve halk inancları. Ankara, 2005, s.37.

farslar tərəfindən bu torpaqlara köçürülmüş və böyük yaşayış məskənləri-məhəllələr salmışdılar[1].

Bəlkə də fransız səyyahı Rubrukun (1215-1279) Dərbənddən cənuba gedərkən gördüyü qalalarda yaşayan yəhudilər bu türk boylarıdır. Son tədqiqatlara görə, türkdilli köçəri xalqlar arasında xristianlıq da yayılmışdı. Albaniyanın bəzi xristian abidələri göstərir ki, xristianlığı qəbul etmiş köçəri əhalinin müxtəlif qrupları artıq məskunlaşmışdı[2].

Azərbaycana ən qədım türk axınlarını izləyən tarixçilər bu köçün "Şimali Qafqazla Cənubi Qafqazı birləşdirən aşırımlar vasitəsilə baş tutduğunu yazırlar[3]. Türk tayfaları eramızın əvvəllərindən etibarən bu aşırımlardan keçməklə Cənubi Qafqaza köç etmişlər. Türklərin, türk tayfalarının adı ilə bağlı (Qax rayonu ərazisində - İlisuda "hunaşırımı" və ya " hun beli", Balakən rayonu ərazisindəki "hunbul", yaxud "Hunbol çay" hidronimi, Hunələr (hinələr) nəsli) yer adları hələ də qalmaqdadır.

Sasani hökmdarları Qubad (446-531) və Xosrov Ənuşirvan (531-579) şimaldan gələn türk tayfalarının qabağını almaq üçün keçidləri bağlamaq məqsədilə 40 istehkam tikdirmiş[4], Dərbənddən Dəryal keçidinədək sədd çəkdirmişdilər. Ayrı-ayrı fraqmentləri hal-hazırda Balakən rayonunun Kaxet, Zaqatalanın Muxax kəndi ərazisində qalmaqda olan bu sədd, köçəri türklərin axınını dayandırmaqla, digər dinlərin təsir dairəsini gücləndirmiş oldu.

Qədim mənbələrə əsaslanaraq yazılan əsərlərə görə, m.ö. VII əsrdə Saklar dövründən etibarən bir çox türk millətləri (qövmləri) Dərbənd (Bab əl-Əbvab) yoluyla Qafqazı aşaraq Azərbaycanın şimal böglərinə gəlib yerləşmişdilər. Bu səbəbdən Dərbəndə "Türk qapısı" deyilmiş, Şimali Azərbaycanda bir türk nüfusu oluşmuşdur. Aşur kitabələrində keçən Saklar hökmdarı Gök, eyni zamanda Tövrata və Yəhudi mənkibələrinə

---

[1] Геюшев Р.Б., Кошкарлы К.О. Иудеи на трассе Великого шелкового пути Азербайджана//Görkəmli Azərbaycan arxeoloqu Saleh Mustafa oğlu Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi sessiyanın materialları. Баку, "Elm", 1994, стр.128

[2] Xəlilov M.C. Albaniyanın xristian abidələri. Bakı, "Xəzər Universiteti", 2011, s.70-83

[3] Arzu Əşrəfqızı. Car-Balakən camaatlığı. Bakı, "UniPrint", 2007, s.25

[4] Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan, Bakı, "Azərnəşr", 1979, s.40.

də keçmişdir[1].

Azərbaycanın şimal-şərq bölgəsində aparılan arxeoloji qazıntılar zamanı tapılan və yəhudilikdə müqəddəs hesab edilən altıguşəli ulduz təsvirli qablar, Şabrançayın sağ sahilində aşkar olunan yəhudi məbədinin qalıqları[*] bölgədə həqiqətən də onların yaşamaları haqqında tarixi mənbələrin - Gilyom de Rubrukun[2] və başqalarının məlumatını təsdiq edir.

Qeyd etmək lazımdır ki, ilk dövrlərdə "yəhudi" termininin dini inamla bağlı olmasına baxmayaraq, sonralar bu, həm də xalqa münasibətən işlənmişdir. Belə ki, İsrail oğulları və yəhudi adı bir-birinin sinoniminə çevrilmişdir. Bu terminin nə vaxt dini, nə vaxt etnik mənada işləndiyini yalnız kontekstdən anlamaq olar. Məsələn, yəhudi xəzərlər dedikdə sırf dini mənsubiyyət nəzərdə tutulur. Atəşpərəstlər isə öz varlıqlarını qoruyub saxlamaq üçün fars və qarqar (A.Qarkaviyə görə - türk dili) dilləri ilə bərabər yəhudi dilindən də istifadə etmişlər[3].

Hələ XI-XII əsrlərdə Beyləqanda müsəlman və xristian icmaları ilə yanaşı yəhudi icması da mövcud olmuşdur[4]. XI əsrdə yəhudi dininə etiqad edən şəxslərdən cizyə toplanması haqqında Məsud ibn Namdar məlumat verir[5]. Qeyd olunur ki, Beyləqanın yəhudi əhalisi əhəmiyyətli dərəcədə idi və bəzən şəhərin siyasi həyatına da müdaxilə edə bilirdi. Məlumatdan aydın olur ki, hakimiyyət uğrunda gedən mübarizədə yəhudi icması Alpkuşa ibn

---

1 Ramazan Şeşen. İbn Fadlan seyahetnamesi. İstanbul, "Bedir", 1995, s.188.

* Bu barədə arxeoloqlar arasında yekdil fikir yoxdur.Bəzi arxeoloqlar Şabrandakı məbədin qalıqlarının yəhudi məbədi deyil, günbəzli islam memarlığına xas monumental bina kimi qeyd edirlər.

2 Гильом де Рубрук. Путешествие в Восточные страны. Выступ. статья и комментар//М.Б. Горнунга. Москва, «Мысль», 1977, стр.182.

3 Марр Н.Я. Племенной состав населения Кавказа. Петроград, 1920, стр.30.

4 Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975, стр. 29; Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М. Бейлиса. Москва, «Наука», 1970, л .109а, 210а, 257 а.

5 Yenə orada, s. 28; Масуд ибн Намдар…. Сборник рассказов. л .210а.

Altuntaşı dəsləkləyirdi[1].

Beləliklə, Azərbaycanda dinlərin qarşıdurmasının nəticəsi kimi, islami dəyərlərin aparıcı roluna baxmayaraq, azərbaycanlıların məfkurəsində islamaqədərki mədəni ənənələr az da olsa özünə yer tapa bilmişdi. Bu isə özünü, adətən ölkədəki mövcud din və dini inancların rəmzi olan maddi-mədəniyyət əşyalarında, etik normalarda, adət-ənənələrdə tapırdı. Bunlar isə islam mədəniyyəti süzgəçindən keçdikdən sonra yeni formalarda təzahür edirdi.

*Bütpərəslik.* Arxeoloji qazıntılar zamanı Mingəçevir, İsmayıllı, Şamaxı rayonları ərazisində çoxlu daş heykəl və bütlərin tapılması, burada əhalinin daha çox bütpərəst türklərdən ibarət olması fikrinə gəlməyə əsas verir[2]. Albaniyanın şərqində, yəni Şirvan və Xəzər dənizi boyu ərazilərdə bütpərəstlik hələ də qalmaqda idi. Strabon Albaniyanın İberiyaya yaxın ərazilərində Ay ilahəsinin şərəfinə tikilmiş məbədlərə rast gəlinməsindən bəhs edir. İslam dininin yayılması ilə Cənubi Azərbaycanda və Arranda təsviri incəsənətin tətbiqi məhdudlaşır, yəni qadağa olunur. Qadağa yalnız bütpərəstlərə və coxallahlılığa qarşı idi. Əsasən, qədim Şərq, o cümlədən Misir, İraq, Hindistan və Orta Asiya əhalisi üçün səciyyəvi olan heykəlciklərdən ibarət olan antropomorf fiqurların tapılması bütpərəstliyin göstəricisidir. Lakin, kiçik ölçülü qadın heykəlciklərin baş hissəsi və qolları qırılmış vəziyyətdə tapılması xristianlıq və zərdüştlüyün bütpərəstliyə qarşı mübarizəsindən xəbər verir. I əsrdən başlayaraq Albaniyada xristianlığın təbliği istiqamətində aparılan maarifçilik işi bütpərəstlik məbədləri və bütlərin yandırılması, sındırılması və dağıdılması ilə müşayət olunurdu. Arxeoloqlar tərəfindən tapılan Girdiman abidələrinin içərisində sınıq vəziyyətdə olan çoxsaylı antropomorf fiqurlar bunu təsdiqləyir[3]. Bu mübarizə Azərbaycanda artıq islam dövründə də davam etmişdir.

Hər halda ölkənin digər regionlarında bir çox xristian məbədlərinin indiyə qədər qalması və ya arxeoloji qazıntılar zamanı aşkara çıxarılması, bu ərazidə isə belə məbədlərin tapılmaması təsadüfi sayıla bilməz. Bu,

[1] Бейлис В.М. Из наблюдений над текстом и терминологией сборника рассказов, стихов и писем Масуда ибн Намдара. Ежегодник. 1968. Москва, «Наука», 1970, стр.20; Масуд ибн Намдар. Сборник рассказов…1970, л .108 b.

[2] Osmanov F.L. İsmayıllı rayonu ərazisindən tapılmış antik dövrə aid antropomorf fiqurlar haqqında. Azərb.SSR, TFHS,1971, № 1, s.60-66.

[3] Cəbiyev Q.C. Girdman tarixi və tarixi coğrafiyası. B., “Elm-təhsil”, 2015, s.268.

bizə "həmin ərazidə yaşayan türk qəbilələri islamaqədərki etiqadlarından əl çəkməmişdilər" mülahizəsini söyləməyə əsas verir.

XIII əsrin sonlarında Təbriz ərazisində bütpərəst məbədi olduğu barədə məlumata rast gəlirik. Monqolların hakimiyyəti dövründə Azərbaycan ərazisində İlxanilərdən Arğun (1284-1291) tərəfindən Təbrizin qərbində bütpərəst məbədinin tikilməsi haqqında məlumat verilir. Bu, onun hələ islamı qəbul etməməsi ilə əlaqədar idi. Məbədin divarlarında Arğunun təsviri var idi. Onun oğlu Qazanın islamı qəbul etməsindən sonra Qazan Təbrizdə özü üçün məqbərə tikdirdi. Bu məqbərə Mərvdə Sultan Səncərin məqbərəsindən daha üstün idi[1].

*Tanrıçılıq və türkçülük.* İslamı qəbul edənə qədər türklər əsasən təkallahlığa-tanrıçılığa, müxtəlif din və inanclara – totemizmə, şamanizmə, animizmə, maniliyə, buddizmə, bütpərəstliyə və xristianlığa etiqad etmişlər[2]. Lakin, çox qədim zamanlardan tanrı və tanrıçılıqla bağlı düşüncələr türk xalqının təfəkküründə geniş yer tutmuş, onun dini etiqad və təsəvvürlərinin əsasını təkil etmişdir. Türklər yeri və göyü, onların arasında yaşayan bütün canlıları yaradan uca Tanrıya inanırdılar. Türk xalqlarının qədim yazılı mənbələrində, hətta daha sonrakı dövrün abidələrindən sayılan Mahmud Kaşğarinin "Divan"ında da maraq doğuran əsas məsələlərdən biri Tanrı sözünə tez-tez rast gəlinməsidir. İbn Fadlana görə, "oğuzların tək Tengri" ifadəsi və tanrıya yalvararkən başlarını səmaya qaldırmalarından, digər türklər kimi, onların bütün tanrısal güclər üzərində səmanı uca tanrı (yaradıcı qüvvə, tək Tanrı) qəbul etdikləri düşünülə bilər. Oğuzlar özlərinə xas bir inanca sahib olmuşlar. Qurbanla bağlı mətnlərdən onların qurban mərasimlərini idarə edən bir din adamına da sahib olduqları anlaşılmaqdadır[3].

Strabon Atropatenada-Midiya dağları adlanan dağlıq ərazidə, Xəzərin cənub-qərbində alban və uti tayfalarının yanaşı yaşadığını qeyd edir[4]. Etnik termin olaraq udin terminini ilk dəfə işlədən Böyük Plini utilərin

---

[1] Бартольд В.В. Азербайджан и Армения. Сочинения. т.7, Москва, «Наука», 1971, стр.207.

[2] Каралиоглу С.К. История тюркской литературы. Реферативный сборник иностранной литературы. Филология и искусствоведения. Баку, 1980, стр.23.

[3] İbn Fazlan. el-Risale (Seyahetname), terc. eden R.Şeşen, İstanbul, 1975, s.38.

[4] Strabon. XI, s.25.

(udinlərin) "skif xalqına məxsus" olduğunu göstərir[1]. Gənc tədqiqatçı Z.H. Həsənov qafqazdilli skiflərlə yanaşı türkdilli skiflərin də olmasını fikrini irəli sürür və bunu tədqiqatı ilə təsdiq edir. Digər fakt, Dağlıq Qarabağda və qədim türk yurdu Zəngəzurun Urud kəndində aşkarlanmış 1478, 1578-79-cu illərə aid qəbir daşlarının üzərində ərəb qrafikalı yazılardır. Bu yazılarda, türklərə məxsus təsvirlər verilmiş və "min ulədi ağvan" ("albanların nəslindən") ifadəsi yazılmışdır. Bu da dədə-babalarımızın bu torpaqlara gəlmə deyil, yerli olduqlarını göstərən mənbələrdən biridir. Bu fikri italyan tədqiqatçısı Mario Alineli "Etruslar türk olmuşdur" adlı məqaləsində geniş şərh etmişdir. Onun keçən əsrin 90-cı illərində irəli sürdüyü "Paleolitik fasiləsizlik nəzəriyyəsi" ildən-ilə dünya alimləri arasında çoxlu tərəfdar toplamaqdadır. O, sübut etmişdir ki, türk dilləri eneolitin sonunda təşəkkül tapmış və hələ e.ə. IV minillikdə Qərbi Asiyada (Ön Asiyadan Xəzər dənizinin şimal sərhədlərinədək) yayılmışdı. Onun fikrincə, qədim türklər heç də monqoloid irqindən olmamışdır[2].

Babı kəndinin (Horadiz) qəbristanlığında bir qədər zədələnmiş daş qoç heykəli ilə bərabər kənd məqbərəsində aşkar edilmiş kufi yazısı da bu ərazidə türklərin olduğunu göstərir.

Dağlıq Qarabağ ərazisində mövcud olan animizm, astral, bütpərəstlik və ibtidai dini təsəvvürlərlə bağlı abidələri ilk dəfə elmi cəhətdən sistemləşdirən və faktoloji təhlil edən İ.Petruşevski obyektiv və cəsarətli elmi nəticələrə gəlmişdir. O yazır ki, Dağlıq Qarabağ heç bir zaman erməni mədəniyyətinin mərkəzi olmamışdır[3]. İ.Petruşevski faktiki materiallarla bu ərazinin qədim Alban torpağı olduğunu təsdiq etmişdır.[4] Alimə görə, həmin regionda ən geniş yayılmış ibtidai dini təsəvvürlər, əsasən səma səltənəti ilə bağlı olmuşdur. Göydə olan Tanrı (qədim türk mənbələrində dəfələrlə təkrar olunan Gök Tanrı və ya Gök Tenqri-N.Ə) onların səcdə etdikləri ilahilərdən ən böyüyüdür. Səma səltənəti deyərkən təkallahlıq-tanrıçılıq başa düşülür. Bu isə türklərə xas xüsusiyyətdir.

Əlbəttə, Allahın bir olmasını elan edən yeni din - islamdan əvvəl iudaizm və xristian dinində də təkallahlıllıq elan edilmişdi. Lakin, bu

---

[1] Plini, VI, s.38.

[2] Arineli Mario. Etruslar türk olmuşlar.http.//baymedia.az//neus.php

[3] Петрушевский И.О. О дохристианских верований крестьян Нагорного Карабаха. Изв. Аз. ГНИИ. Историко-этнографический отдел, т.1, V. Баку, 1930.

[4] Bəxtiyarova R.Ə. Azərbaycanda ağac ayini. Avtoreferat. Bakı, 2004, s.6.

vahidliyə xələl gətirən bəzi səbəblər də yox deyildi. Yəhudilərin Allahı Yahvenin Savaof, İeqova kimi adları olduğu kimi, xristianlıqda Allah üç obrazda - Allahda, onun oğlunda və Müqəddəs Ruhda tanınırdı. Quranda Allahın vahidliyinin hansısa üçlükdə ifadəsi bütünlüklə rədd edilir, Allahdan başqa ilahinin olmadığı (lə ilahə illəllah) qeyd olunur və bu ehkama "Məhəmmədun Rəsulullah" ehkamı da əlavə olunur. Quranda göstərildiyinə görə, bu məfhum Allahın göstərişi kimi qəbul edilir.

Din-dövlət münasibətləri daha qabarıq şəkildə Səlcuqların da qarşısına çıxmışdı. Abbasi imperiyasının ərazisində siyasi və dini hakimiyyəti bərpa etmək bir problem kimi onların da qarşısında dururdu. Səlcuq sultanları üç imperiyanın parçalanaraq yerində yaranan müstəqil dövlətləri birləşdirmək üçün din-dövlət münasibətlərini qaydaya salmalıydılar. Lakin, dini-ictimai nizamın qaydaya salınması onlar üçün çətin olmadı. Səlcuq türkləri zahirən islamın sünni- hənəfi və maliki məzhəblərinə mənsub olsalar da, heç bir zaman din təəssübkeşi olmamış, hər cür dini inanca və düşüncəyə geniş yer vermişlər. Səlcuq imperiyasının idarəsi altında qeyri-müsəlman əhali belə rahat yaşamış, hətta Anadolu xristianları Bizans yerinə Səlcuq üsul-idarəsinə üstünlük vermişlər. Sultan Alp-Arslan imperiyasının xristian ölkələrində ədaləti və mərhəməti ilə tanınmış, Sultan Məlikşah isə xristianlara şəfqətlə yanaşmışdır[1].

*Kənd yaşayış məskənlərində dini durum.* Ölkənin ictimai, iqdisadi və syasi durumu kənd məskənlərinin durumuna təsir edən başlıca amillərdəndir. Şəhərlərin formalaşması və yüksəlişi kənd məskənlərinin yaranması və inkişafı ilə düz mütənasibdir. Belə ki, siyasi sabitlik şəraitində onların yüksəlişi müşahidə olunursa, kənd tipli yaşayış məskənlərinin xarabalığa çevrlməsi ölkədə qeyri - sabit durumdan xəbər verir. Şəhər əhalisinin artması, səhər sənətkarlığının yüksəlişi kənd nahiyəsinin genişlənməsini sürətləndirir. Yazılı mənbələrdə şəhərlərlə yanaşı kəndlərdə də müsəlman dini binaların tikilməsi, müsəlman dini adətlərinin qalması haqqında məlumatlara rast gəlirik. Azərbaycanın Xalxal nahiyəsindəki Səncəbaz kəndi haqqında məlumat verən Yaqut əl-Həməvi göstərir ki, bu kənd vadidə yerləşir və minarəsi var. Zəkəriyyə əl-Qəzvini Əbu Hamid əl-Qərnatinin dilindən Savalan dağının ətəyində kənddə tikilən məscid haqqında məlumat

[1] Turan O. Selcuklular tarihi ve türk- islam medeniyyeti.İstanbul, "Ötüken", 2009, s.211.

verir. Orta əsr Dərəzarat, Köhnə Pir, Dağbilici, Cuxurev kənd tipli yaşayış yerlərinin yaxınlığında müsəlman qəbristanlıqlarının aşkar edilməsi IX-XIII əsrlərdə ölkədə hakim dinin islam olmasını göstərir[1]. Arxeoloq alim T.Dostuyev kənd tipli yaşayış məskəni Sərkərtəpədən tapılmış sümük alətlərinin müsəlman adət-ənənələrinin nümunəsi olan oğlan uşaqlarının sünnət edilməsi ilə əlaqədar olması haqqında məlumat verir[2].

Yazılı mənbələrdən o da aydın olur ki, şəhər yaşayış yerləri ilə müqayisədə kənd yaşayış yerlərində islam dininin yayılması prosesi nisbətən zəif getmiş, islam dini ilə yanaşı kənd əhalisinin dini etiqadında qədim adət-ənənələrə, köhnə dinlərə sitayiş öz varlığını müəyyən dərəcədə saxlamışdı. Məsələn, əl-Qərnatiyə görə, Dərbənd yaxınlığındakı Zəryəgəran kəndində atəşpərəstlik XII əsrdə qalmaqda idi[3].

Orta əsr kəndlərində aparılmış arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri ümummüsəlman mədəniyyəti üçün səciyyəvi olan elementləri özündə ehtiva edir. Bu materiallar bəzən köhnə dinlərin qalıqları haqqında da yeni məlumatlar verir, sakinlərin dini durumlarından da xəbər verir.

Kəşfiyyat xarakterli arxeoloyi tədqiqatlar zamanı Tatlı kənd yaşayış yerindən üçnefli xristian məbədinin qalıqlarının qeydə alınması, Daşbulaq, I Qıraq Kəsəmən kənd yaşayış yerlərindən qazıntılar zamanı tapılmış osteoloji qalıqlar arasında donuz sümüklərinin olması yazılı mənbə məlumatlarını təsdiq edir[4].

Xalqımızın mənşə və təşəkkülü tarixində dinlərin qarşılıqlı təsirinin gedişatı məsələsi ən çətin problemlərdəndir. Müxtəlif tarixi məlumatlar arasında gizlənmiş zərrələrin üzə çıxarılması etnik məsələlərin həllinə

---

[1] Bayramov M.C. Azərbaycanın orta əsr kənd tipli yaşayış yerləri (IX-XIII əsrin əvvəlləri). tarix üzrə fəlsəfə doktoru elmi adını almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2015, s.137

[2] Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə (Quba-Xaçmaz bölgəsinin materialları əsasında. Bakı, "BDU", 2001, s.188-189.

[3] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.161; Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, "Azərnəşr", 1993, s.68-70.

[4] Hüseynov M.M., Cəlilov B.M. Orta əsr Daşbulaq yaşayış yeri/Şəmkir arxeoloji irsi tarixi və memarlığı. I Respublika elmi-praktik konfransının materialları. Bakı, 2008, s.233; Геюшев Р.Б., Нуриев А.Б. Поселение Татлы/АЭИА- арх-ие и этнографические изыскания в Азербайджане. 1978, стр.43.

yardım edir. Bunlardan biri indiki Ermənistan ərazisində Sisyan rayonu (orta əsrlərdə Sünik, daha sonralar isə Zəngəzur) Urud kəndində tapılmış epiqrafik abidədir. Sənduqə formalı bir-birindən 100 il fərqi olan qəbir daşlarının üzərindəki ərəb dilindəki yazıların tərcüməsindən aydın olur ki, müsəlman və uğvan (ağvan) nəslindən olan Əmrusal və İftixar 883-cü il və 936-cı illərdə burada dəfn edilmişlər. Məlum olduğu kimi, Sünik ayrı-ayrı tarixi dövlərdə Albaniyanın ərazisinə daxil olmuşdur. Ona görə də, bu ərazidə albanların olması tarixi faktdır. Digər tərəfdən qəbir daşlarının kitabələrində yazılmış "ağvan nəslindən" sözləri dəfn edilənlərin etnik mənsubiyyətini bildirir. Görünür, İftixar və Əmrusəlim və onların ata-babalarının alban nəslinə mənsub olmaları xüsusi bir etnososioloji məna kəsb etmiş, ona görə də həmin mənsubiyyətin yad edilməsi bir ənənəyə çevrilmişdir[1]. Burada baş verən etnik proseslər xristianlığın VIII əsrdən genişlənməkdə olan islam dininin nüfuz dairasinə daxil olmasını göstərir. Xristianlığın və islam dininin belə bir rolu orta əsrlərdə Azərbaycanın Ermənistan və Gürcüstanla qonşu rayonlarında açıq-aydın görünür. Xristianlıq həmin ərazilərdə erməniləşmə və gürcüləşmə, islamlaşma isə onların digər hissəsinin azərbaycanlaşmasını sürtləndirir. Müəlliflər göstərirlər ki, belə bir təsir hətta XX əsrə qədər davam etmişdir. Məs.; mənşəcə udin olan Tovuz rayonunun Kirzan kəndinin müsəlmanlığı qəbul etmiş sakinləri azərbaycanlılaşmış, xristianlığı qəbul edənlər erməniləşmiş, Zaqatala–Kaxetiya zonasının inqiloyları isə pravoslav-xristianlığın təsiri altında artıq gürcüləşmişlər.

### 2.2. Raşidi xəlifələr mərhələsi (h. 11-40/632-661)

Dövlətçilik və mədəniyyət tarixi çox qədim, əhalisinin mütləq əksəriyyəti müsəlmanlardan ibarət olan Azərbaycan, islam dünyasının ayrılmaz hissəsini təşkil edir. Azərbaycan mədəni-mənəvi dəyərlərini yüz illər ərzində islam dini dəyərləri əsasında yaratmış, xalqın əxlaqı və adət-ənənələrinin, məişətinin formalaşmasında bu dinin müstəsna rolu olmuşdur.

624-cü ildə Bədr savaşında cəmi 314 müsəlman əsgəri olan islam, 100 il sonra hökmünü Pireney dağlarının arxasına qədər yaymış, Fransaya belə

[1] M.Nemətova, M.Heydərov. Nadir tapıntı."Elm və həyat" yurnalı, № 5, 1977, s.11-13.

sirayət edə bilmişdi. Suriya, İran, Misir, avropalıların barbar ölkələr hesab etdikləri Əlcəzair, Tunis, Mərakeş fəth edilmiş, əhalisi müsəlmanlığı qəbul etmişdi. İslamın bu qeyri-adi uğuru, bütün böyük dinlər üçün qaçılmaz mərhələ olan təqiblərlə müşayiət edilən fövqəladə aktiv, sürəkli təbliğin ardınca baş tutmuşdu.

İslamın yayılma sürəti və səviyyəsinin çalar və çoxçeşidli xüsusiyyətləri olmuşdur. Məsələn, Ərəbistan yarımadasında islamın yayılması ləng getmişdir. Quranda elan edilən - Allah qarşısında hamının bərabər olması prinsipi, ərəb qəbilələri üçün yad idi. Anri de Kostri 632-ci ilə qədər islamın Ərəbistan yarımadasının çox da böyük olmayan bir ərazisində yayılmasının səbəbini, şöhrətli nəsilləri ilə fəxr edən ərəblərin öz ənənələrinə sadiq qalmalarında görür.[1] O, tarixi ədəbiyyatda Ərəbistan yarımadasında islamın ləng yayılma səbəbi kimi, bu ərazidəki qəbilələrin həddindən çox qonaqpərvər və azadfikirli olmaları ilə də əlaqələndirir. Lakin qeyd etmək yerinə düşər ki, bunun özü də yəqin ki, Ərəbistan yarımadasından sonra fəth edilmiş digər ölkələrdə islamın yayılması üçün bir növ təcrübə idi. Belə ki, islamı qəbul etmiş ərəblər Məhəmməd peyğəmbərin (s.a.s) nümunəsində baxışlarını dəyişdirməyə başlamışdılar. Artıq müsəlman olan ərəblərin insanlara verdikləri dəyər onların milliyyətinə deyil, dindəki səmimiyyətlərinə və qabiliyyətlərinə yönəlirdi.[2] Təsadüfi deyil ki, Peyğəmbər (s.a.s.) öz köləsi olmuş Zeyd ibn Harisəni və Üsəma ibn Zeydi ordu komandirləri təyin etmiş və onların kölə əsilliklərinə görə edilən etiraza sərt cavablar vermişdi. Peyğəmbər (s.a.s.) "Ən yaxşılarınız Allah qatında üstün olanlarınızdır" deyərək, insanlar arasında irqi ayrı-seçkiliyi rədd etmişdi.[3]

İslam fəthlərinin ilk dövrlərində nəzərə çarpan əsas xüsusiyyətlərindən biri də onda idi ki, bu dövrdə Məhəmməd peyğəmbərə (s.a.s) iman gətirənlər səmimi, saf, təmiz, düzgün, həssas və ağıllı şəxslər idi. Nəhəng imperiyanı idarə edən şəraitin fövqündə duran xəlifələr Əbu Bəkr və Ömər ibn Xəttab əqidə etibarilə möhkəm, səbatlı, mətin olmaqla bərabər, həm

---

[1] Граф Анри де Костри. Ислам и христианство в эпоху завоеваний и владычества арабов. Пер. с французского Умат-Гирей Мецхаль. Петроград, 1915, стр.9.

[2] Təbəri Əbu Cəfər Məhəmməd. Tərixu-l-uməm ve-l-muluk. Beyrut, 1995, II c., s.225.

[3] Quran. Hücurat surəsi, 13-cü ayə.

də ədalətli, mülayim, fəal, aza qane olan adamlar idi. Raşidi xəlifələri vəzifələrə təyin etdikləri məmurlardan da bunu tələb edirdilər. Hüzeyma ibn Sabitin söylədiyinə görə, "Ömər vali təyin edərkən, ona məktub yazaraq at sürməməsini, ləziz yeməklər yeməməsini, bahalı libaslar geyinməməsini və qapısını ehtiyac içində olanlara qapatmamasını şərt qoyar və əgər ki, bunları etmiş olarsa fəlakətlərin onun üzərində olacağını söylərdi"[1] . Sərt məcazı ilə tanınan Ömər şikayət olunan insanları, hətta öz doğma övladı olsa belə ağır şəkildə cəzalandırmaqdan çəkinmirdi. Kufə şəhəri salınan vaxt insanlar orada qalmış və möhrədən tikdikləri kiçik evlərdə yaşamaqda idilər. Lakin, yanğın baş vermiş və qamış evlərin əksəriyyəti yanıb kül olmuşdu. Bu hadisədən sonra Səad ibn Əbu Vəqqas kufəlilərə kərpicdən ev tikməyə icazə vermişdi. Səad ibn Əbu Vəqqas şəhərin mərkəzində böyük bir məscid və onun yanında da böyük bir iqamətgah tikdirmişdi. O, Sasani şahının köşkünün qapısını sökdürərək Mədaindən Kufəyə gətirmiş və həmin bu iqamətgaha qoydurmuşdu. Ömər ibn Xəttab bundan xəbər tutanda Səada yazdığı məktubu ona çatdırmaq üçün Məhəmməd ibn Məsləməyə vermiş və ona belə demişdi: Kufəyə get, Səadın tikdirdiyi iqamətgahın qapısına odun yığdır və oda verib yandır. İqamətgahdan geri nə varsa yıx. Bu məktubu da Səada ver və ona başqa heç bir söz söyləmə. Kufəyə gələn Məhəmməd ibn Məsləmə xəlifənin əmr etdiyi kimi iqamətgahı oda verib yandırmış, sonra divarları yıxdırmışdı. Səad ibn Əbu Vəqqas xəlifənin bu sətirlərini oxuyanda utandığı üçün çox kədərlənmişdi: "Kəsranın igamətgahına bənzəyən bir iqamətgah inşa etdiyinə dair xəbər aldım. Kəsranın sarayının qapısını da gətirib oraya qoydurmusanmış. Yanına gələnlərin qapısını kəsib geri qaytaran mühafizəçiləri qapına qoymaq niyyətində deyilsən ki? Bu Allah Rəsulunun (s.a.s.) yolunu buraxıb İran Kəsrasının yolunu tutmaq deyilmi? Unutma ki, Kəsranı taxtından alıb yerə atdılar.Və bunu sən etdin. Sən bunu edərkən sarayı Kəsranı qoruya bilmədi. Məhəmməd ibn Məsləməni o iqamətgahı yandırmaq üçün göndərdim. O, səndən çəkinmədən bunu edəcək. Ey Səad, sənə bu dünyada iki torpaq (çiy kərpicdən tikilmiş) ev yetər. Birində özün yaşa, digərində isə müsəlmanların ortaq malını, beytülmalı saxla". Bu hadisədən sonra Səad ibn Əbu Vəqqas kərpicdən sadə bir ev tikdirmiş

[1] Celaleddin Suyuti. Halifeler tarihi. İstanbul, "Ötüken", 2014, s.141.

və vəfat edənə qədər orada yaşamışdı[1].

Ömər ibn Xəttab Səad ibn Əbu Vəqqasa[*] göndərdiyi başqa bir məktubunda yazırdı: "Müsəlmanlardan xəstə olanları ziyarət et. Ölənlərin cənazə mərasimində iştirak et. Qapın yanına gələnlərin üzünə daim açıq olsun. Sən sadəcə onlardan birisən. Aranızda bir fərq var ki, Allah sənə onlara yüklədiyindən daha ağır bir yük yükləmişdir və sən onların yükünü daşıyırsan. Mənə deyirlər ki, sənin ailən kasıb müsəlmanların minmədiyinə minir, geymədiyini geyir, yemədiyini yeyirlər. Unutma ki, iqtidar sahibinin Allahın nəzdində hər kəsdən fərqli bir vəziyyəti vardır. İqtidar sahibi yolunu azanda təbəəsi də yolunu azar. İnsanların ən bədbəxti isə idarəçiliyi altında olanları bədbəxt edəndir. Vəssəlam"[2].

Bu xəlifələr mübarizə apardıqları xristian hökmdarlardan son dərəcə yüksəkdə dururdular.[3] Raşidi xəlifələr dövrünün nisbətən qısa olmasına baxmayaraq, onların islamın yayılmasında böyük əhəmiyyəti və müstəsna xidmətləri vardır. Bu dövrün xəlifələri yaddaşlarda təkcə hərbi-siyasi və tarix nöqteyi-nəzərdən oynadıqları rolla deyil, həm də cəmiyyətin sonrakı həyatı üçün önəmli işlər gördükləri üçün qalmışlar. Belə ki, onların müsəlman inzibati sisteminin iqtisadi-siyasi və dini məsələlər üzrə çıxardığı qərarlar sonrakı yüzillikdə cəmiyyətin həyatı üçün normaya çevrilmişdi[4].

Məhəmməd peyğəmbər (s.a.s.) hələ sağ ikən (h.11-13/632-634) kollektiv ibadətin aparılmasına başçılıq etməyi Əbu Bəkrə həvalə etmişdi. Əbu Bəkr Peyğəmbərdən (s.a.s.) iki yaş kiçik idi. İlk xəlifə olaraq məhz o seçildi. Əbu Bəkrin xəlifə seçilməsində əsas rol ondan sonra xəlifə olmuş Ömər ibn əl-Xəttaba məxsus idi. Dövlət xadimi funksiyasını yerinə yetirən xəlifə, sözsüz ki, Allahdan vəhy gətirən deyildi. Vəyhlərin gətirilməsi Peyğəmbərin (s.a.s.) ölümü ilə sona yetmişdi. Əbu Bəkr, onun meracının həqiqət olmağına birinci şəhadət verdiyinə görə, peyğəmbər (s.a.s.) ona "Siddiq" ("ən düz danışan") ləqəbi vermişdi.

---

1 Nəsirov E. İslam tarixi. I c., Bakı, "Nurlar", 2014, s.369-370.

* Səad ibn Əbu Vəqqas- Peyğəmbərin (s.a.s) hələ həyatda ikən cənnətlə müjdələdiyi on nəfərdən biri.

2 Nəsirov E.İslam tarixi. I c., Bakı, "Nurlar", 2014, s.370.

3 Abbe de Broglie. Problemes et conclusions de I`histoire de religions. Paris, 1886.

4 Колесников А.И. Завоевание Ирана арабами. Москва, «Наука», 1982, стр.14.

Əbu Bəkrin xəlifəliyi 2 il 3 ay 15 gün davam etmişdi. Bu illər İslam tarixinə çətin sınaq illəri kimi daxil olmuşdur. Məhəmməd peyğəmbərin (s.a.s.) vəfatı bütün islam aləminə sarsıdıcı təsir etmişdi. Peyğəmbərin (s.a.s.) insanlara çatdırdığı vəhylər və onun miras qoyub getdiyi müqəddəs Quran vahid və cəm halda Ərəbistan yarımadasında yaşayan qəbilə və tayfaların hamısına yol tapmamışdı. Ərəblərin bir qismi bütpərəst olaraq qalır, bəziləri isə islamı şərti olaraq qəbul etsələr də, əslində islam onların qəlblərinə hakim kəsilməmişdi. Quranın "Hücürat və "Tövbə" surələrində deyildiyi kimi, onlar qənimət payı almaq üçün islamı qəbul etmişdilər. Ona görə də xəlifə Əbu Bəkr, fəaliyyətinin birinci günündən peyğəmbərin (s.a.s) son əmrinin yerinə yetirilməsi məsələsini həll edir. Peyğəmbərin (s.a.s) Fələstinin Qəzzə şəhəri üzərinə yürüş təşkil etmək fikrini xəlifə Əbu Bəkr gerçəkləşdirdi. Bu əməliyyatdan sonra I xəlifə hərb işinə xüsusi diqqət yetirməyə başlayır. Onun göstərişi ilə 10 iri qoşun birləşməsi yaradılır və qayda-qanunu bərpa etmək üçün Ərəbistanın müxtəlif regionlarına göndərilir.

Əbu Bəkr bir neçə ərəb qəbiləsi arasında baş qaldırmış həyəcanları da yatırandan sonra Suriya, Misir və Ərəbistan yarımadasına yaxın olan digər ölkələrə hücum əməliyyatına başladı. Lakin onun hakimiyyətinin qısamüddətli olması, bu ölkələrdən heç birini tam fəth etməyə imkan vermədi. Suriya, Fələstin və Misirin fəthi, onun xələfi olan xəlifə Ömər (634-644) tərəfindən başa çatdırıldı. 639-cu ildə Suriya, ondan iki il sonra isə Misir fəth edildi.

Xəlifə Əbu Bəkr dövründə baş verən əhəmiyyətli məsələlərdən biri də Ouranın cəm edilməsi məsələsi olmuşdur. Belə ki, h. 12-ci ildə (miladi 633-cü il) Yəmamə savaşında Quranı əzbər bilənlərin əksəriyyəti şəhid olduğundan Quranın toplanması sahəsində problem üzə çıxmışdı. Ömər ibn əl-Xəttab xəlifə Əbu Bəkrdən Quranın cəm edilməsini xahiş etdikdən sonra Zeyd ibn Sabitin rəhbərliyi ilə Quranı əzbər bilənlərdən Ömər, Osman, Əli və b.-dan ibarət heyət təşkil edildi. Cəm edilən Quran ayələri iki şahidlə təsdiqlənərək Peyğəmbərin (s.a.s.) əmr etdiyi şəkildə düzüldü. Cəm edilən Qurana "əl-Mushaf" adı verilərək xəlifə Əbu Bəkrə təhvil verildi. O da vəfat edəndə bu Quran nüsxəsini Ömərə, o isə öz qızı və Peyğəmbərin (s.a.s.) yoldaşı Həfsəyə təhvil verdi.

Əbu Bəkr hakimiyyətdə olduğu 2 il ərzində Peyğəmbərin (s.a.s.) layiqli davamçısı olduğunu göstərdi. O, yaranmış mürəkkəb və gərgin vəziyyətdə

İslamın dayaqlarının zəifləməsinə imkan vermədi, yalançı peyğəmbər və onların davamçıları ilə mübarizə apararaq onları susdurdu.

İslamın Azərbaycana dini və siyasi fenomen kimi gəlməsi xəlifələrdən ikincisinin - yəni, xəlifə Ömər ibn Xəttabın (h. 13-23/634-644) adı ilə bağlıdır. Ömər hicrətin 13-cü ilində Əbu Bəkrin vəfat etdiyi gün (25 avqust 634-cü ildə) xəlifə seçildi. Müsəlman ruhani cəmiyyəti ilə ərəb dövlətinin funksiyaları IX əsrə qədər fərqləndirilmədiyi kimi, xəlifənin ruhani və siyasi funksiyaları arasında da hədd qoyulmurdu. Hesab edilirdi ki, idarəetmə "Allahın kitabı olan Quran" və Allahın insanlara elçi olaraq göndərdiyi və ona görə də Allahın rəsulu adlandırılan Peyğəmbərin (s.a.s.) sünnəsi əsasında qurulmalıdır. Ona görə də onun qurduğu dövlət forma və mahiyyətinə görə fərqlənirdi. Bu, yeni dinin əsasları üzərində qurulan tamamilə yeni bir dövlət idi. Məhəmməd peyğəmbərin (s.a.s.) təməlini qoyub meydana gətirdiyi dövlət onun şəxsinə, ailəsinə və soyuna aid bir mülk deyildi. Bu dövlət onun qoyduğu qanunlarla deyil, elçisi olduğu Allahın qanunları ilə idarə olunmaqda idi və bu mövzuda Allah rəsulu (s.a.s.) dövlət başçısı olaraq həmin qanunları icra edirdi. Ona görə də, Azərbaycanın fəthində böyük rolu olmuş xəlifə Ömər siyasi hakimiyyətin başçısı olmaqla yanaşı həm də "əmir əl-möminin"*, yəni "möminlərin əmiri") adlanırdı[1].

O, dövləti tam müvəffəqiyyətlə idarə etmişdir. Peyğəmbərin qurduğu dövlət Əbu Bəkrdən sonra 10 il müddətində xəlifə Ömər tərəfindən idarə olundu. Onun dövründə fəthlərin sayı daha da artdı. Azərbaycanın fəthi də onun hakimiyyəti dövrünə təsadüf edir. Digər ölkələrdə olduğu kimi, burada da ictimai-iqtisadi və siyasi xarakterli problemlər mövcud idi. Buna görə də xəlifə Ömər ibn Xəttab Azərbaycanın fəthindən əvvəl məsləhətləşmələr aparmışdı. Onun Azərbaycan haqqındakı söhbətindən görünür ki, xəlifə İran və Azərbaycan bölgələrindən hansının fəthinə daha əvvəl başlamaq barədə xeyli götür-qoy etmişdir. O, Hörmüzandan soruşanda ki, "Farsdanmı

[1] Петрушевский И.П. Ислам в Иране в VII–XV веках. Ленинград, 1966, стр.38

* Xəlifə Ömər Əbu Bəkrin xələfi olduğu üçün ona "Rəsulallahın xəlifəsinin xəlifəsi" kimi uzun və tələffüzü çətin bir ləqəblə xitab edilmişdi. Səhabələrdən Muğira ibn Şu`bənin Ömərə "Yə əmirul-mu`minin" ("möminlərin əmiri") kimi müraciət etməsindən sonra Ömərə və ondan sonra gələn xəlifələrə bu şəkildə xitab etmişlər (bax: Nəsirov E. İslam tarixi, I c, Bakı, "Nurlar", 2014, s.367-368)..

başlayım, yoxsa Azərbaycandan, yoxsa İsfahandanmı? Hörmüzan ona belə cavab verir: Fars və Azərbaycan bir quşun iki qanadları, İsfahan isə başıdır. Zira, başı kəsilən bir quşun uçması mümkün deyil”[1]. Beləliklə, h.22-ci ildə (642-643) zərbə endirmək üçün Azərbaycan torpaqları hədəfə alındı. Xəlifə Ömər ərəblərin Kufədən Azərbaycan, Rey və İsfahana döğru hərəkət etməsi haqqında əmr verdiyi zaman Muğan və Taylasan əraziləri də ərəblərin əlində idi. Hər bir birləşmənin hərbi səfər və müharibələrdə 4 il iştirak etməsi, ordu toplanan yerə qayıtması və onun əvəzinə sonrakı 4 il üçün yeni ordu göndərilməsi qaydası ərəb fəthlərinin başlanğıc dövrünə aid idi. Bu hərbi səfərlər zamanı ərəblərin döyüşdə sağ qalan hissəsindən müəyyən bir hissəsi geri qayıtmır və fəth edilən ərazilərdə qalırdılar.

İlk müsəlman sərkərdələrinin fəth etdikləri şəhərlərin əhalisi ilə bağladıqları sülh müqaviləsi İslamın burada yayılması üçün dayaq nöqtəsi olmuşdur. Qeyd etmək lazımdır ki, müsəlman tarixi salnamələrində dövrün hərbi-siyasi tarixinin, fəthlərin və yerli xronikaların öyrənilməsi ölkə ərazisinin böyük hissəsinin (demək olar ki, ən azı dörddə biri) sülh yolu ilə, yəni müqavilə əsasında tabe edilməsini deməyə imkan verir.[2] Raşidi xəlifələr dövründə, yəni xilafət fəthlərinin 30 ili ərzində bir sıra səbəblərə görə, bəzi ərazilər bir neçə dəfə fəth olunmuşdu. Bəzən elə hallar olurdu ki, əvvəl bağlanmış müqavilə ikinci fəth zamanı öz qüvvəsini itirirdi və üsyan qaldırmış əhali müqaviləni pozmuş kimi qiymətləndirilirdi. Buna görə də ərəblər bağladıqları müqaviləni ləğv olunmuş hesab edirdilər ki, bu halda da əhali qula çevrilə bilərdi[3].

Əhdnamə (ər.– عهدmüqavilə) adlandırılan bu barış sazişləri hələ Məhəmməd peyğəmbərə (s.a.s.) qədər də mövcud idi. Bu sazişlər qonşu dövlətlərin hakimləri ilə qarşılıqlı əlaqələri, qəbilələrarası və dini çəkişmələri yoluna qoyurdu. Quranda əhd (عهد) ifadəsi iki mənada – ya müsəlmanların bütpərəstlərlə sazişi ya da “Allahla əhd bağlamaq”

---

1 Ət-Təbəri Əbu Cəfər ibn Cərir. Tarix ər-rusul val-muluk. Ən-nəşru-s-səni, IV c., əl-Qahirə, dərul-mə’arif,1970, s.142; Zekeriya Kitapçı. Azerbaycan-Harezm ve türk-oğuz boyları arasında islamiyyet. Konya, 2005, s.41.

2 Колесников А.И. Завоевание Ирана арабами. Москва, «Наука», 1982, стр.150.

3 Колесников А.И. Договоры между мусульманами и покоренным населением в годы завоевания Ирана арабами//Письменные памятники и проблемы истории кукльтуры народов Востока. XII научная сессия ЛО ИВАН СССР. Москва, 1977, стр. 23-30.

mənasında işlədilir. Ərəb-müsəlman ədəbiyyatında fəthlər dövründə birinci termin işlədilirdi. Belə sazişlərdən biri, xəlifə Ömərin sərkərdəsi Hüzeyfə ibn əl-Yəmən ilə Ərdəbil əhalisi arasında bağlanmışdı. Ərəb əsgərlərinin təhlükəsizliyini təmin edən bu müqavilə, eyni zamanda əhalinin islam yönündə maarifləndirilməsi sahəsində atılan ilk addımlardan biri sayıla bilər. Müqavilənin daha bir cazibəli şərti də vardı. Müqaviləyə görə, əgər qeyri-müsəlman şəxs islam ordusunda bir il müddətinə xidmət edərsə o, illik vergidən azad olunurdu. Sözsüz ki, orduya daxil olanlar burada islam və Quranı daha tez qavramağa nail ola bilirdilər. Müqavilələrə görə, müsəlmanlar üçün bələdçilik etmək, səmimilik göstərmək, onu bir gecə-gündüz qonaq saxlamaq kimi şərtlər gəlmə ərəbləri yerli xalqla yaxınlaşdıran amillər olmuşdur.[1] Onu da qeyd etmək lazımdır ki, digər dinlərdən olanların islama keçməsi onlara müəyyən üstünlüklər verirdi, yəni onları müsəlman ərəblərlə bərabərləşdirirdi. Bununla belə, müqavilənin şərtləri bütün şəhərlər üçün eyni deyildi. Şəraitə uyğun olaraq müqavilələrin şərtləri də dəyişirdi[2].

Müsəlman fəthlərinin ilkin çağlarında bir şəxsin üzərinə müxtəlif vəzifələr düşə bilirdi. Peyğəmbər (s.a.s.) səhabəsinin sərkərdə olması adi bir hal idi. Xəlifə Ömərin Azərbaycanın fəthinə göndərdiyi Numan ibn Mukarrin sərkərdəlikdən əvvəl Peyğəmbərin (s.a.s.) səhabələrindən idi. Bu səhabə barədə tarixçi ət-Təbəri belə yazır: "Ömər ibn Xəttab Dərbənd hakimi Hörmüzanla apardığı məşhur söhbətindən sonra Peyğəmbərin (s.a.s.) məscidinə gəlmiş və bu vaxt orada namaz qılan böyük səhabə Numan ibn Mukarrinin yanında oturmuş və namazını bitirdikdən sonra onu "amil" (vergiyə nəzarət edən) təyin edəcəyəni söyləmişdi. Tutulmuş torpaqlarda başlıca məqsədin vergi toplamaq olduğu bu dövrdə, həm mülki, həm hərbi hakimiyyət çox vaxt o yeri fəth etmiş hərbi başçıya həvalə edildiyi üçün "amil" və "əmir" (hərbi başçı) titulları "vali" (canişin) titulunu əvəz edirdi[3] . Səhabələr vergi yığmaqdansa Allah yolunda qəza və cihad etməyi daha şərəfli iş hesab etmişlər. Böyük səhabə Numan ibn Mukarrin də belə düşündüyü üçün Peyğəmbərdən (s.a.s)

[1] Qeyd: digər dinlərdən olanların islama keçməsi onlara müəyyən üstünlüklər verirdi, yəni onları müsəlman ərəblərlə bərabərləşdirirdi.

[2] Колесников А.И. Завоевание Ирана арабами. Москва, «Наука», 1982. стр.172.

[3] Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 1993, s.38.

aldığı uca ruh və özünə yaraşan imanla: "Məni vergiyığan göndərəcəksənsə "xeyir", qəza və cihad üçün göndərəcəksənsə "bəli" cavabını vermişdi"[1]. Göründüyü kimi, səhabə üçün Allah yolunda qəza və cihad etmək həyatın ən böyük qayəsi sayılırdı.

Azərbaycanda islamı yayan yüzlərcə səhabə olmuşdur. Onların arasında Səlman əl-Farisi, Əbu Hüreyrə, Abdulla ibn Ömər, Abdulla ibn Abbas, Abdulla ibn Əmr ibn əl-As, Hüzeyfə ibn əl-Yəmən, Abdurrahman ibn Rəbiə əl-Bəhili, Səlman ibn Rəbiə əl-Bəhili səhabələrin ən görkəmli simalarındandır[2].

İslamı təbliğ etmək, yeni əraziləri öyrənmək, o cümlədən fəth olunmuş ərazidə islam qayda-qanunlarının tətbiqinə nəzarət üçün döyüşçülərlə birlikdə elm adamları da gəlirdilər. Sərkərdələrlə yerli əhali arasında bağlanan müqavilənin təsdiqi də onların öhdəsinə düşürdü. Bükeyr ibn Abdullahın Muğan əhalisi üçün yazdığı amannaməyə şahidlik edən əş-Şammax ibn Dirar, ər-Rusaris ibn Cunədib və Hamələ ibn Cüveyyə sərkərdələrlə gələn elm adamlarından idi. "Onlardan əş-Şəmmax (h. ?/644) görkəmli şair olmaqla bərabər, müsəlmanların bir çox hərbi yürüşlərində iştrakçı olmuş, öz şeirlərində onların hünər və fədakarlığını vəsf və tərənnüm etmişdir. O, Muğan uğrunda döyüşdə həlak olmuşdur[3]. Ər-Rusaris ibn Cunədib və Hamələ ibn Cuveyyə ərəblərin sayılan-seçilən və nüfuzlu şəxslərindən olmuşlar. Ət-Təbəriyə görə, Hamələ ibn Cuveyyə xəlifə Ömərin göstərişi ilə İran şahı ilə danışıqlar aparmaq üçün hazırlanan heyətin tərkibində olmuşdur. Azərbaycan valisi Mərvan ibn Məhəmmədi yürüşlərdə müşayiət edən Nuh ibn Saib əl-Əsədi və Əbdürrəhman ibn Fulan əl-Haulani isə islam təlimini və Quranı təbliğ edənlərdən olmuşdur. Mərvan ibn Məhəmməd Xəzər xaqanını məğlub edərkən bu ziyalılar onunla birlikdə olmuş, xaqana islam və Quranın mahiyyətini başa salmışlar[4].

Xəlifə Ömərin dini siyasətində qəribə və gözlənilməz vəziyyət yaradan

---

[1] İbn Əsakir.Tərixu ibn Əsakir. XII c., s.142.

[2] Kitabçı Zekeriya. Azərbaycan-Harezm ve türk-oğuz boyları arasında islamiyyet. Konya, 2005, s.65.

[3] Ət-Təbəri. Tərix ər-rüsul va-l-müluk. Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar. Bakı, "Nurlan", 2005, s.141.

[4] Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981, стр.52.

amilləri də müşahidə etmək mümkündür. Xəlifələr xristianlardan təkcə cizyə almaqla kifayətlənərək, din azadlığına yol verirdilər. Əbu Bəkr əl-Tartuşinin məlumatına əsaslanan A.Y.Krımski haqlı olaraq qeyd edir ki, "hər bir küfrün amansızlıqla təqib olunduğu" Bizansın xristian qanunları ilə müqayisədə "islam qanunları hətta "Ömər nəzəriyyəsində" belə kifayət qədər liberal olmuşdur"[1]. "Ömər nəzəriyyəsi" deyərkən, zimmilərin boynunda qurğuşun möhürlər gəzdirmələri haqqındakı qanun nəzərdə tutulurdu. Bu qanun, onlara aşağı təbəqəyə mənsub olmalarını və cizyəni ödəməyi yaddan çıxarmamaları üçün qəbul edilmişdi.

İbn Səid xəbər verir ki, xəlifə Ömər xilafətin işlərini idarə edərkən bir dəfə Suriya canişinindən belə bir məktub alır: "Ərəblər bu ölkədə çoxalmış, şəhər ərəblərlə dolmuşdur, lakin onların burada imamları (ruhani başçıları-N.Ə.) yoxdur. Ya Əmirəl-Möminin! Mənə kömək et, bizə müəllimlər göndər!" Xəlifə Ömər Quranı yaxşı bilənləri yanına çağıraraq onlardan soruşmuşdu: "Suriyaya getmək istəyirsinizmi? Onlardan ikisi - Əbu Əyyub və Ubay, birincisi qoca olduğuna, ikincisi isə xəstə olduğuna görə gedə bilmədi. Qalan üçü isə, o cümlədən Əbd ibn Səlman Suriyaya gedərək orada qaldı. Muqac əvvəlcə Suriyaya, oradan Fələstinə getdi. Əbu Dərd isə Dəməşqdə qaldı. Başqa vilayətlərə də dini rəhbərlər göndərildi[2].

Dini rəhbər termini ilə bağlı digər bir məqama diqqət etmək lazımdır. Orta əsrlərdə Azərbaycanın şəhər həyatına həsr olunmuş əsərlərin çoxu, akad. V.V. Bartoldun sözləri ilə desək, "Monqol hücumları zamanı, hətta sonrakı mənbələrin də iz qoymayaraq birdəfəlik yox olduğuna" görə, bu dövrə aid analoq əsərlərin məlumatlarından istifadə etmək məcburiyyətində qalırıq[3]. Bizcə, ərəblərin fəth etdikləri ölkələrlə bağladıqları müqavilələrin oxşarlığı, analoji mənbələrə müraciət etməyə əsas verir. Bu müqavilələrə görə, islamı yaymağa gələn missionerlər yəhudi, xristian və atəşpərəstləri yeni dini qəbul etməyə məcbur etmirdilər.

---

[1] Крымский А.Е. Страницы из истории Северного или Кавказского Азербайджана.Сборник в честь Н.Я. Марра. Москва-Ленинград, 1937; Буниятов З.М. Избранные сочинения в трех томах, т. I. Баку, «Элм»,1999, стр.113; Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Azərbaycan", 1989, s.89.

[2] Остроумов Н.П. Исламоведение. Коранъ.Ташкент, 1912, стр.77.

[3] Бартольд В.В. Туркестан в эпоху монгольского нашествия. Соч. в 9-ти томах, т. 1, Москва, «Восточная литература», 1963, стр.60-61.

Əbu Həfs yazırdı: "Quteybə ibn Məsləmə Buxaranı mühasirəyə alarkən, oranın dehqanı ona aşağıdakı məzmunda məktub göndərmişdi: Mənim ölkəmdə bir alim var. Mən onu sənin yanına göndərəcəyəm ki, o səninlə söhbət edərək səni dinləsin. Əgər sən onu öz həqiqətinə (inamına) çağıra bilsən, mənə bu haqda bildir ki, sənin arxanca gedim. Yox, əgər sənin sözlərin nahaq olarsa, onda mən sənin tərəfində olmayacağam və səninlə müharibə edəcəyəm". Həmin dehqan Xuştiyarı onun yanına göndərdi. Quteybə onu islamı qəbul etməyə dəvət edərək Peyğəmbərin (s.a.s.) xüsusiyyətlərindən danışdı. Xuştiyar başa düşdü ki, o, haqlıdır və islamı qəbul etdi. Bu xəbər dehqana çatdı, o bundan üzüldü, qorxuya düşdü və türklərin ölkəsinə qaçdı, şəhər əhalisi isə islamı qəbul etdi. Sonradan Xuştiyarın ən-Nadir adlı oğlu Nəsəfə gəlmiş və orada öz nəslini davam etdirmişdir"[1].

Belə analoji hal atəşpərtəstlikdə də mövcud olmuşdur. Müdrik şəxslər və alimlər əhali arasında dinin yayılmasında böyük rol oynamışlar. Farsların şahı Quştasb ibn Laxsaruf ibn Key Xosrov Zərdüştün Allah tərəfindən göndərilən elçi olduğunu təsdiq etməzdən əvvəl demişdi: "Biz bu möcüzəni, yəni sənin künbəzdən endiyini görsək də, nəinki bununla kifayətlənəcək, hətta öz alimlərimizin və müdriklərimizin səninlə mübahisəyə girməsinə belə imkan verəcəyik. Əgər onlar təsdiq etsələr ki, sən haqlısan, onda biz sənin ardıcılların olacağıq"[2].

Xəlifə Ömərin hakimiyyəti dövründə Azərbaycana və buranın islamlaşmasına xüsusi önəm verilirdi. O, Peyğəmbərin (s.a.s.) səhabələrindən olan Əbdüləziz ibn Hatim ibn ən-Numanı buraya vali təyin etmişdi. Azərbaycanda islamın yayılmasında bu valinin xüsusi rolu olmuşdur. O, Azərbaycanda islami idarə mərkəzi olan Ərdəbilə gəlmiş, onun bu gəlişi ilə şəhərdə yeni bir canlanma və islamın təbliğində yeni bir hərəkat başlamışdır. Ərəb müəllifi əl-Qəlqəşəndi qeyd edir ki,

[1] Ан-Насафи Наджм ад-Дин Абу Хафс Умар ибн Мухаммад. Ал-Канд фи зикр улама Самарканд//Общественные науки в Узбекистане. Ташкент, 1997. № 9-10-11, стр.111.

[2] Буниятов Дж.З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанской ССР. Серия истории, философии, права. 1976, № 3, стр.46-56; N.M.Vəlixanlı. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər, Bakı, "Elm və təhsil", 2016, s.336.

Azərbaycanda ilk məscid Ərdəbil şəhərində tikilmişdir.[1] Bu məscid ölkəyə hakim təyin olunmuş əl-Əşas ibn Qeys[*] (599-661) tərəfindən tikilmişdir.[2] Ərdəbil haqqında məlumat verən coğrafiyaşünas-səyyah əl-Müqəddəsiyə (təqr. 946-1000) görə, şəhərdəki came məscidi hündür yerdə, istehkamın arxasında yerləşir[3]. Yeni vali islamın yayılmasına ayrı bir önəm verdiyi kimi, Azərbaycan şəhərlərində tikinti fəaliyyəti ilə sıx məşğul olmuşdur. O, Ərdəbil şəhərini tikmiş, şəhərin divarlarını möhkəmlətdirmiş, getdikcə çoxalan müsəlman camaatının ehtiyacını ödəmədiyi üçün şəhər camesini də genişləndirmişdi.[4] Xəlifə Ömərin dövründə Azərbaycanda islamın kök saldığı şəhərlər arasında Ərdəbil xüsusi statusa malik olmuşdur. Belə ki, ərəb fatehləri Azərbaycanın bu şəhərini həm özlərinə idarəetmə mərkəzi seçmiş, həm də sərkərdələrin iqamətgahı kimi istifadə etmişlər. Bunu da qeyd edək ki, xərac divanları hələ Xəlifə Ömərin vaxtında xilafətin mərkəzi rayonlarında uğurlu olmasa da ərəb dilində aparılmağa başlamışdı[5].

Ərəb müəlllifləri islamı Azərbaycanda yaymaqda xidməti olmuş bir sıra sərkərdələrin fəaliyyəti haqqında da məlumat vermişlər. Onlardan Bükeyr ibn Abdulla Muğana,[6] Suraka ibn Əmr[7] Dərbəndə (Babul-Əbvaba),[8]

---

[1] Əl-Qəlqəşəndi. Lubəb əl-Əlbab. s.356.

[*] Əş`as ibn Qeys-Əvvəllər imam Əlinin tərəfində olmuş və onun tapşırığı ilə Azərbaycanı idarə etmişdir. Sonradan xaricilərə qoşulmuşdu. Onun anası Umm Fərva Əbu Bəkrin bacısı olmuşdur. Onun oğulları Məhəmməd və Qeys Hüseynə məktub yazaraq onu Kufəyə dəvət etmiş, sonradan isə onun düşmənləri tərəfinə keçmiş və aşura günü Yəzidin ordusunda döyüşmüşlər.

[2] Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı,", 1993, s.72

[3] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.133.

[4] Kitapçı Zekeriya. Azerbaycan-Harezm ve türk-oğuz boyları arasında islamiyyet. Konya, 2005, s.87.

[5] Əl-Cəhşiyəri .Əl-Vuzara va-l-Kuttəb. Əl-Qahirə, 1938, s.138.

[6] Ət-Təbəri. IV c., s. 157; İbn əl-Əsir. III c., s.29.

[7] Qeyd: Zu-n-Nur adlı ilə əlaqədar sərkərdə haqqında informasiya verən İbn Makula yazır ki, Suraka ibn Əmrə Zu-n-Nur deyirlər. Seyf ibn Ömər demişdir: "Ömər Suraka ibn Əmri Baba göndərəndə onu Zu-n-Nur da adlandırmışdı. Surakanın vəfatından sonra Əbdürrəhman ibn Rəbiə onun yerinə keçdi, Ömər (r.a.) onu bu işə təsdiq etdi (bax: İbn Makula. İkməl. III c., s.390)

[8] Ət-Təbəri. IV c., s.155; İbn əl-Əsir. III c.,s.28.

Ədürrəhman ibn Rəbiə əl-Bəhili Azərbaycanın şərq sərhədlərinə,[1] Həbib ibn Məsləmə isə Tiflisə[2] göndərilmişdi.

Xəlifə Ömərin və Osmanın hakimiyyəti illərində sərkərdə olmuş Hüzeyfə ibn əl-Yəmən (v.e. 36/656) Nihavənd savaşından bir il sonra 22/642-ci ildə Azərbaycana hücum edib onlarla sülh müqaviləsi bağlayan ilk sərkərdə olmuşdur. Hüzeyfə həm də Məhəmməd peyğəmbərin (s.a.s.) 14 ən yaxın səhabəsindən biri olmuşdur. Məhəmməd peyğəmbər (s.a.s.) və xəlifə Ömər haqqında hədislər söyləyən bu sərkərdə - valinin əl-Buxari[*] və Müslimin hədislər toplusunda 225 hədisi vardır.

Xəlifə Ömərin sərkərdələri yerli xalqlarla, o cümlədən azərbaycanılarla bağladıqları əhdnaməyə əsasən, islam Azərbaycanın içərilərinə qədər yayılmışdı. Azərbaycanın Ağdaş şəhərinin Xınalıqlı kəndi yaxınlığında Veysəl Qəraniyə aid edilən və "Üveys baba" adıyla tanınan bir qəbir var. İslam peyğəmbərinin dövründə yaşayıb məlum səbəblərlə onu görə bilməyən, ola bilsin ki, sərkərdələrlə xəlifə Ömərin dövründə bu bölgəyə islamı yaymağa gəlmiş Veysəl Qəraninin burada vəfat etdiyi bəzi mənbələrdə qeyd olunur. Əhməd ibn Hənbəlin "Kitab-əz-Zöhd" əsərində Abdulla ibn Salim belə rəvayət edir: "Ömər ibn Xəttab dövründə Azərbaycanda savaşdaydıq. Üveys də yanımızdaydı. Qayıdarkən yolda xəstələndi və öldü. Burada qonaqladıq, bir də baxdıq ki, orada hazır məzar və kəfən var. Kəfənləyib dəfn etdik. Bir müddət getdikdən sonra bir-birimizə "kaş ki, qəbrin üstünə bir nişanə qoysaydıq", dedik. Yenidən qayıdıb dəfn etdiyimiz yerə gəldikdə qəbrin yerini tapa bilmədik"[3].

Xəlifə Ömərin fərmanına görə, islamı qəbul etmiş kəndli hətta xəzinədən mükafat da alırdı. Bundan başqa, islamı qəbul etmək, həmin adamları nəzəri olaraq müsəlman ərəblərlə bərabərləşdirirdi. Yeni dinə keçənlərin böyük bir hissəsi müsəlman ordusuna yazılır, bununla da, cizyədən azad edilirdi.

---

[1] Ət-Təbəri. IV c., s.158; İbn əl-Əsir. III c., s.29.

[2] Yenə orada.

[*] Qeyd: Şprengerə görə, hədis topluları, xüsusilə əl-Buxarinin hədislər məcmuəsi Peyğəmbərin (s.a.s.) tərcümeyi-halını təyin edən əsas mənbələrdəndir. Bu toplu bioqrafik ədəbiyyatdan daha mötəbərlidir (Bartold V.V. VI c., s.281). Bunu məşhur səhabələr, o cümlədən Hüzeyfə haqqında da demək mümkündür.

[3] Hüseynli Akif. Azərbaycana təsəvvüfün gəlişi. Uluslararası Seyyid Yahya Şirvani ve Halvetilik Sempozyumunun materialları. Eksişehir, 21-23 Kasım, 2013, s.485.

Ona görə də sərkərdələr əvvəllər bütlərin saxlandığı yerlərdə məscid tikdirərək hər cümə günü ibadətə gələnlərə mükafat vəd edirdilər[1]. İlk vaxtlar belə məscidlər yalnız ərəb qəbilələrinin yerləşdirildikləri şəhərlərdə fəaliyyət göstərirdi. Ərəb qəbilələrinin Azərbaycanda yerləşdirilməsində 4 əsas məqsəd güdülürdü:

- *İslam dininin yayılmasını təmin etmək;*
- *Fəth edilmiş ərazilərdə hakimiyyəti möhkəmləndirmək;*
- *Dövlət təqaüdü alanları torpaq və mülklə təmin etmək;*
- *Narazı ərəb qəbilələrini mərkəzi vilayətlərdən uzaqlaşdırmaq.*

Bunlardan ilk üçünün həyata keçirilməsinin başlanğıcı, Raşidi xəlifələr, daha doğrusu xəlifə Ömərin dövrünə təsadüf edir. Xəlifə Ömərin dövründə əl-Əşas dövlət xəzinəsindən maaş və təqaüd alan bir dəstə ərəbi Azərbaycana köçürtdürərək, onlara əmr etmişdi ki, buranın əhalisini islamı qəbul etməyə sövq etsinlər.[2]

Yəqin ki, xəlifə Ömərin müsəlmanlara beytülmaldan illik maaş ödənməsi üçün hesablama aparmağı əmr etməsi bu siyasətlə, yəni yerlərdə əhalinin islamı qəbulunu təşviq etməsi üçün verilmişdi. Maaşların miqdarı kateqoriyalara görə müəyyənləşdirilmişdi. Bu kateqoriyalar insanların İslamı qəbul etdikləri dövrlərə və Peyğəmbərə (s.a.s) yaxınlıqlarına görə tənzimlənmişdi.

Müəyən səbəblərə görə, Xəlifə Ömər müqavilələrin şərtlərində də dəyişikliklər edirdi. Məsələn, əgər Xuzistanda islamı qəbul etmiş yeni müsəlmanlar öz xalqı ilə əlaqəni kəsir, şəhərlərdəki hərbi düşərgəyə yerləşdirilirdisə, başqa bir şəraitə uygun olaraq Babilistanda islamı qəbul etmiş yeni müsəlmanlar öz yerlərində qalırdı. Ömər ibn Xəttab onların işlərinə qarışmır, onlardan torpaq almır, üzərlərindən cizyəni götürürdü[3].

Ərəb qəbilələrinin Azərbaycana köçürülməsi bu xəlifənin dövründə başlamış, bu işi zaman keçdikcə Əməvi xəlifələri, daha sonra isə Abbasi xəlifələri davam etdirmişlər. Hələ islamın bu ərazilərdə yayılmasından

---

[1] Абу Бакр Мухаммад ибн Джафар ан-Наршахи (ум. 348/960) «История Бухары»//Общественные науки в Узбекистане. Ташкент, 1997, № 9-10-11, стр.68.

[2] Əl-Bəlazuri. Kitab fütuh əl-buldən. Qahirə, 1957, II c., s.818; H.Əkbərov. Kitab əl-Buldən. Azərb-nın VII-IX əsrlər tarixinə aid çıxarışlar.//Bakı, “Nurlan”, 2005, s.180.

[3] Колесников А.И. Завоевание Ирана арабами. Москва, «Наука», 1982. стр.172.

əvvəl də, yəni Sasanilər dövründə də bu diyara xüsusi önəm verilmişdir. Albaniyanı şimaldan gələn köçəri tayfalardan müdafiə postu (avanpost, qarovul məntəqəsi) hesab edən Sasanilər Dərbənd keçidini möhkəmlədərək, Xəzər dənizi və Qafqaz sıra dağları boyunca (Beş barmaq, Çıraq-qala, Bələncər arasında) müdafiə sədləri tikmişdilər.[1] V-VI əsrlərdə isə Sasanilər dövlətin şimal sərhədlərinə farsdilli tayfalarla bərabər, sami tayfalarını, yəni yəhudiləri köçürmüşdülər.

Yuxarıda qeyd etdiyimiz kimi, bura Bizansla İran arasında imperiya mənafelərinin toqquşması, həm də atəşpərəstliklə xristianlığın təsir dairəsi uğrunda mübarizəsi idi. Buna görə də bu ərazidə çoxlu Sasani qoşunu saxlanılırdı. Ayrı-ayrı hipotezlərin olmasına baxmayaraq, aparlan qazıntılar zamanı çoxsaylı maddi-mədəniyyət abidələrinin, Sasanilərə və Bizansa məxsus gümüş pullardan ibarət dəfinələrin tapılması bölgənin hakimləri üçün nə qədər önəm daşıdığından xəbər verir. Prof. Ə. Rəcəbli bunu adi tezavrasiya deyil, eyni zamanda Cənubi Qafqazda Sasani təsirinə qarşı əks-təsir göstərməyə çalışan Bizansın Alban şəhərlərində özünün pul zərbini həyata keçirməsi ilə əlaqələndirir. O, Albaniyada 10-a qədər belə zərbxananın olduğunu göstərir.[2] Sasani hökmdarları bu siyasətin bir qolu olaraq yadelli tayfaları da həmin ərazidə yerləşdirirdilər.

XIV əsr astronomu, coğrafiyaçı əl-Cuzcani Ənuşirvanın Dərbənddə yollara nəzarət üçün Suriya, Mosul və əl-Cəzirədən olan ərəbləri göndərməsini qeyd edərək yazmışdır: "Onların nəsilləri burada qalmışdır və onlar ərəb dilində danışırlar"[3].

Ərəb ordusunun Albaniyanı fəth etməsi ilə artıq iki deyil, üç dinin qarşı-qarşıya durması islamın qəbulunu bir qədər də çətinləşdirirdi. Qeyd etmək lazımdır ki, islam dünyasında ilk təfriqənin əlaməti də xəlifə Ömərin dövründə baş vermişdi. Belə ki, 643-cü ildə Suraka ibn Əmrin ön dəstələrinə rəhbərlik edən kufəli Əbdürrəhman xəzərlərlə döyüşdə öldürüldükdən sonra onun qardaşı Səlman və ona Şamdan köməyə gələn Həbib ibn Məsləmə arasında orduya rəhbərlik etmək üstündə münaqişə

---

[1] Пахомов Е.А. Крупнейшие памятники Сасанидского строительства в Закавказье.Проблемы ГАИИМК, Ленинград, 1933, стр.9-10.
[2] Rəcəbli Ə.M. Azərbaycan numizmatikası. Bakı, "Elm və Həyat", 1997, s.33-37.
[3] Шихсаидов А.Р. Когда и как насаждался в Дагестане ислам. Махачкала, «Дагкнигоиздат», 1962, стр.33.

başladı. Münaqişə sülh yolu ilə həll edilsə də bu, islam dünyasının ilk təfriqəsi olaraq tarixə keçdi.

İslamın Ömər ibn əl-Xəttab dövründə başlanan təbliğini ondan sonra xəlifə Osman (h.23-35/644-656) davam etdirmişdir. Sasanilərin hakimiyyəti onun dövründə, yəni 651-652-ci illərdə tam məhv edildi. İranın şimala, şərqə, qərbə doğru yolları üzərində yerləşən ölkələr fəth olundu. Bununla da müsəlmanların hakimiyyəti daha böyük əraziyə yayıldı və Xilafət dövrün ən nəhəng dövlətinə çevrildi. Xəlifə Osmanın hakimiyyətinin sonunda islam siyasi və dini cəhətdən də güclü mərkəzləşdirici amilə çevrilə bilmişdi.



***Xəlifə Osmanın dövründə Quran nüsxələri çoxaldıldı və vilayətlərə göndərildi.***

*Xəlifə Osmanın dövründə (644-656)* islam fəthləri ən yuksək pilləyə çatdıqdan sonra başqa bölgələr kimi, Azərbaycanda da nisbi sabitlik bərqərar olmuşdu. Həmin xəlifə iqtidarda olarkən, Azərbaycanda islamın yayılması üçün uğurlu dövlət siyasəti həyata keçirilmişdir.[1] Bir çox müsəlman ərəb döyüşçülərin və onların ailələrinin burada yerləşdirilməsi məhz bu siyasətlə əlaqədar idi.

Xəlifə Osmanın sərkərdələri Azərbaycanda islam yayılarkən ideoloji zəmində meydana gəlmiş bir sıra çətinlikləri aradan qaldıra bilmişdilər. Belə sərkərdələrdən biri Hüzeyfə ibn əl-Yəmən olmuşdur. İbn Şammə əl-Müqəddəsi Musa ibn İsmailə, o İbrahimə, İbrahim isə İbn Şihaba əsaslanaraq Ənəs ibn Malikin* söylədiklərini belə nəql edirdi: Ərminiyə və Azərbaycanla müharibə vaxtı İraq və Suriya əsgərləri Quranın düzgün

[1] Kitapçı Zekeriya. Azerbaycan-Harezm ve türk-oğuz boyları arasında islamiyyet. Konya, 2005, s.74.

oxunması haqqında mübahisə edirdilər. Bu vaxt həmin qoşunda olan Hüzeyfə ibn əl-Yəmən belə mübahisələrin gələcəkdə baş verməməsi üçün Mədinəyə getmiş, xəlifə Osmana Quranın yeni, tam və əsaslı şəkildə cəm edilməsi xahişi ilə müraciət etmişdi.[1] Hüzeyfə ona demişdi: "Ya Əmirəl-Möminin! Bizim dinimizdə olan bu şəri məhv et ki, Qurana qarşı mübahisəli fikirlərin artaraq yəhudi və xristianların mübahisəsinə bənzəyən mübahisələr yaranmasın"[2].

Xəlifə Osmanın dövründə Zeyd ibn Sabitin rəhbərliyində olan bir heyətlə xəlifə Əbu Bəkrin cəm etdiyi Quran 4 (bəzi müəlliflər 7 nüsxə olduğunu iddia edirdilər) nüsxə çoxaldıldı, vilayətlərə göndərildi və əsl nüsxə Həfsəyə geri verildi. Osmanın ölümündən sonra bu nüsxə yandırıldı[3]. Xəlifə Osmanın Cənubi Qafqaza göndərdiyi qoşunlar fəth etdikləri yerlərdə möhkəmləndikdən sonra belə burada hələ də mövcud olan Albaniya dövlətinin hakimi Cavanşir öz siyasi hakimiyyətini qorumağı bacarmışdı.

Lakin, bütün ciddi - cəhdlərinə baxmayaraq, ərəblərin tabeliyindən çıxa bilməmiş, ərəb valisinə müəyyən qədər vergi də ödəməli olmuşdu[4]. Xəlifə Ömərin bölgəyə vali təyin etdiyi Həbibi 640-cı ildən etibarən digər ərəb valisi - Hatim ibn ən-Numan əvəz etdi. İqamətgah bu dövrdə Dəbildən Albaniyanın əsas şəhəri olan Bərdəyə köçürüldü. Ola bilsin ki, Cavanşirin ödədiyi vergi Bərdə şəhərini yeniləşdirməyə, onun ətrafındakı xəndəkləri dərinləşdirməyə yönəlmişdi. Bunu ərəb müəllifi əl-Bəlazurinin məlumatı təsdiq edir. O, göstərir ki, Hatim, buradakı valiliyi dövründə Beyləqan

---

* Ənəs ibn Malik (təqr.710-cu ildə vəfat edib)-Peyğəmbərin (s.a.s) ən gənc səhabələrindən biri.10 yaşında valideynləri tərəfindən xidmət üçün Peyğəmbərə verilmiş, ömrünün sonuna qədər onun yanında qalmışdı. Katiblər arasında olan Ənəs, gecə-gündüz Peyğəmbəri (s.a.s.) müşayiət etmişdir. Hələ Peygəmbərin (s.a.s.) sağlığı dövründə yazdığı bir çox hədisi Peyğəmbər (s.a.s) özü yoxlamışdı.

[1] İbn Şammə əl-Müqəddəsi. Kitab əl-Murşid əl-vaciz. Ankara, 1982, s.48.

[2] Остроумов Н.П. Исламоведение. Коранъ. Ташкент, 1912, стр.77-78.

[3] Doğuştan günümüze büyük İslam tarihi. Red. Prof.dr. Hakkı Dursun Yıldız. c.II, İstanbul, 1992, s.60.

[4] Vəlixanlı N.M. Naxçıvan Ərəb Xilafəti dövründə (VII-IX əsrlər)//Azərbaycan Tarixi Muzeyi-2003. Bakı, "Elm", 2003, s.16.

şəhərini də yenidən qurmuş, bu şəhərlərdə yeni məscid tikdirmişdi.[1] Müəllifin verdiyi məlumata görə, xəlifə Osmanın dövründə Şəmkirdə ərəb döyüşçüləri və ailələri yerlşdirilmişdi. Həmin şəhər siyavurdilər[*] tərəfindən dağıdılana qədər çiçəklənən bir şəhər idi. Siyavurdilər hər tərəfdən hücum çəkərək ərəb valisini şəhəri tərk etməyə məcbur etdilər. Yalnız IX əsrdə (854-cü il) Buğa şəhəri yenidən bərpa etdi.[2]

Xəlifə Osman sui-qəsd nəticəsində öldürüldükdən sonra - 656-cı ildə hakimiyyətə sonuncu Raşidi xəlifə - *Əli ibn Əbu Talib* sahib oldu.

Xəlifə Əli hakmiyyəti təhvil almaqla uzun bir müharibə və üsyanlar zənciri onu əhatə etdi. Məhəmməd peyğəmbərin (s.a.s.) ölümü və Əbu Bəkrin onun xələfi olaraq seçilməsi ərəblər arasında bir çox narazı quvvələrin yaranmasına səbəb olmuşdu. Bu quvvələr hesab edirdilər ki, xəlifə istər mənəvi, istərsə də dünyəvi baxımdan yalnız islamın əsasını qoyan Məhəmməd peyğəmbərin (s.a.s.) bilavasitə qan qohumu olmalıdır. Lakin çoxluq tərəfindən Əbu Bəkr xəlifə seçildi. Əlinin özü qeyri-şərtsiz Əbu Bəkrin xəlifəliyini tanımışdı və o zamanlar bu narazılıq çox da böyük rezonans yarada bilməmişdi. Lakin sonralar, ikinci və üçüncü xəlifələr seçilərkən bu narazılıq daha da artmışdı. Xəlifə Osmanın ölümündən sonra Peyğəmbərin (s.a.s.) kürəkəni olan Əli xəlifə seçilərkən Ömər və Osmanın tərəfdarları da güclü qüvvəyə çevrilmişdilər. Əvvəllər Məhəmməd peyğəmbərin (s.a.s.) katibi olmuş Müaviyə ibn Əbu Süfyan o

---

[1] Əl-Bəlazuri. Kitəb futuh əl-buldən.Orta əsr ərəb mənbələrində Azərbaycan tareixinə aid materiallar.B., "Nurlan", 2005, s.166.

[*] Siyavurdilərin mənşəyi haqqında alimlərin rəy müxtəlifliyi bu gün də davam edir.Tədqiqatların nəticəsinə görə, onların türk mənşəliyi, daha doğrusu türk sabirlərlə əlaqəsi, əslində heç bir şübhə doğurmur.Bir sıra tədqiqatçılar, o cümlədən macar şərqşünası D.Moravçik İ.Markvart və V.Minorskinin siyavurdilərin mənşəyinə dair fikirlərinə şübhə ilə yanşır, onları VI əsrin sonunda Sasani ordusu tərkibində Mesopotamiyaya hücumda iştirak edən türk sabirlərdə eyniləşdirirlər.Tədqiqatçı Y.Cəfərovun fikrincə, 526-cı ildə bizanslılar tərəfindən Kürün sağ sahilinə köçürülmüş sabirlər məhz indiki Ağstafa ilə Şəmkir arasında yerləşdirilə bilərdilər.(bax: Джафаров Ю.Р. Гунны и Азербайджан. Б., 1985, стр.101; həmçinin bax: Vəlixanlı N.M. Azərbaycan VII-IX əsrlərdə6tarix, mənbələr, şərhlər. Bakı, "Elm və təhsil", 2016, s.111)

[2] Буниятов З.М. Из истории Кавказской Албании VII-VIII вв. Вопосы истории Кавказской Албании (Сборник статей), Баку, Из-во АН Аз.ССР, 1962, стр.175

zaman Suriyanın hakimi idi və bir çox ərəb təbəələrini xəlifə Əliyə qarşı çevirərək Əliyə əks qüvvələrin başında dururdu.

Əli ibn Əbu Talibin Azərbaycanda apardığı ilk fəaliyyətlərdən biri, yerli əhalinin islamlaşdırılması yönündə işlərin genişləndirməsi idi. O, əl-Əşası Azərbaycanın hakimi təyin etdi. Yeni xəlifənin Azərbaycanın hakimi təyin etdiyi əl-Əşas ibn Qeys haqqında əl-Bəlazuri xəbər verərək göstərir ki, o, Azərbaycanın baş şəhəri elan edilmiş Ərdəbilə çatanda, əhalinin əksəriyyətinin islamı qəbul etdiyini və Quranı oxuduğunun şahidi oldu. O, Ərdəbildə əta və divan siyahısına salınmış ərəbləri (dövlət xəzinəsi hesabına təqaüd və məvacib alanlar-N.Ə.) yerləşdirdi.[1] Azərbaycanın, o cümlədən Ərdəbilin abadlaşdırılması və şəhərdə yeni məscidin tikilməsi xəlifə Əlinin vaxtında da davam etdirilmiş, buradakı məscid isə sonralar böyüdülüb genişləndirilmişdi.[2] Dövlət hesabına məvacib alanlar bu xəlifədən əvvəl də Azərbaycana göndərilmişdi.

Raşidi xəlifələr dövrünün nisbətən qısa sürməsinə baxmayaraq, Azərbaycanda islamın yayılmasında böyük əhəmiyyəti vardı. Düzdür, Raşidi xəlifələr dövrü cəmi 25 il sürmüşdür. Bu xəlifələrin təbliğ etdikləri islam dini hələ yeni düşüncə tərzinə çevrilməmişdi. Monoteist dinin ərəb-islam mədəniyyətinin klassik dövrü, yəni islam mədəniyyətində aparıcı rolunun qələbəsi üçün lazım olan bir əsrin yarıdan çoxu hələ irəlidə idi. Raşidi xəlifələr dövrü islam dininin düşüncələrə tam hakim olması üçün lazım olan bir əsrin dörddə biri idi. Bu zaman kəsiyində İslam dövləti öz ərazilərini genişləndirərək böyük bir ərazini- Yaxın və Orta Şərq və Şimali Afrikanı əhatə edərək öz çevrəsində çox sayda xalqları birləşdirmişdi. Beləliklə, bu dövr təkcə Azərbaycanda hərbi-siyasi tarix nöqteyi-nəzərindən deyil, həm də cəmiyyətin sonrakı yüzillik həyatı üçün önəmli rol oynamışlar. Dünyagörüşündə antik dövr fəlsəfəsinin izləri olan, zərdüştilik və xristianlığın əsas yer tutduğu Azərbaycanda islam mədəniyyətinin rüşeymləri yaranırdı.

---

[1] əl-Bəlazuri. Kitab futuh əl-buldən. Qahirə, 1956-1957, II c., s.818.

[2] Yenə orada.

## 2.3. Əməvilər dövrü (h. 40-127/661-749)

VII əsrdə yeni teokratik dünya imperiyası-Ərəb xilafətinin yaranması imperiya tərkibinə daxil olan ölkə və xalqların sosial-iqtisadi, mədəni-dini həyatından məlum olduğu kimi, köklü dəyişikliklərlə əlamətdardır. Bu dəyişiklik Əməvilərin hakimiyyətə gəlməsindən sonra daha qabarıq şəkildə özünü biruzə vermişdir. Strategiya isə dəyişməmişdi. Yəni, Məhəmməd peyğəmbərdən (s.a.s.) başlayaraq axırıncı Əməvi xəlifəsinə qədər onların hamısını bir ideya-islam dini uğrunda mübarizə birləşdirirdi. Azərbaycanın da tərkibinə qatıldığı Xilafətin əraziləri bu dövrdə həcminə görə, Roma və Çin ərazilərini geridə qoya bilmişdi.

Əməvilər dövründə islamlaşma davam etmiş və müsəlman mədəniyyətinin təməli qoyulmuşdur. İslamlaşma və ərəbləşdirmə siyasətinin təsir gücü fəth edilmiş ölkələrdə eyni cür olmamış, hər iki proses yerli xalqların dini və dilinə müxtəlif dərəcədə təsir etmişdi. Bəziləri nə yeni dini qəbul etmiş, nə də ərəbləşmiş, cizyə verərək Xilafət tərkibinə daxil olmuşdusa, digərləri, islamlaşmaqla bərabər həm də ərəbiləşmişdilər. Azərbaycan isə islamlaşsa da, onlardan fərqli olaraq, ərəbləşməyən xalqlar arasında özünə yer almışdı.

Əməvilər mərhələsi Xilafətin daxili həyatı və xəlifələrinin bir sıra xüsusiyyətləri ilə yaddaşlarda qalmışdır. Əməvilərin ibtidai islam prinsiplərinə sadiq qaldıqlarına və balanslaşdırılmış dini siyasət yeritdiklərinə baxmayaraq, fərqli xüsusiyyətləri də nəzərə çarpırdı. Quranın hər zaman müsəlmanın yeganə kodeksi olaraq qalmasına baxmayaraq, Əməvilər dövründə müsəlmanlar bəzən onun qayda-qanunlarını pozmaqdan çəkinmirdilər. Bəzi Əməvi xəlifələri məişətdə, gündəlik həyatda islami meyarlar əvəzinə bizanslılar və ya islamaqədərki ərəblərin yolu ilə gedirdilər. Məsələn, Quranın qadağan etməsinə baxmayaraq, xəlifə Yəzid ibn Müaviyə (680-683) şərab içirdi. Xəlifə Əbdülməlikin (685-86/705) kəsdirdiyi sikkədə isə onun qılıncla şəkli həkk olunmuşdu[1]. Hətta xəlifə Yəzidin ova sərxoş çıxması, onun atdan

[1] Позднев П. Дервиши в мусульманском мире. Оренбург, Типография Б.Бреслина, 1886, стр.24.

yıxılması və ölümü ilə nəticələnmişdi[1]. Belə hadisələr dövrün müsəlman alimlərinin narazılığına səbəb olurdu. İslama qarşı imanın zəifləməsi ilkin islamı dirçəltməyə çalışan bir-neçə ifrat dərcədə təəssübkeş təriqətin meydana gəlməsinə səbəb olmuşdu. Bu təriqətlərdən birinin daşıyıcıları olan xaricilər hesab edirdilər ki, onlar müsəlmanlara islamın həqiqi ruhunu qaytarmaq naminə mübarizə aparırlar. Onlar bəzən fanatikliyə gətirib çıxaran güclü enerjiləri ilə fərqlənirdilər. Bu insanlar yeri gələndə ideyalarının qələbəsi naminə silaha əl ataraq öz canlarından keçməyə belə hazır idilər. Xaricilər Əməvilər dövründə böyük bir ərazidə yayılmışdılar. IV Xəlifə Əli ibn Əbu Talibin (656-661) Şamda Müaviyə ibn Əbu Süfyanla müharibədə qələbəyə yaxın olduğu halda döyüşü dayandırıb danışıqlar aparmağa məcbur olduğu vaxt onun ordusundan bir qrup ayrılmışdı (xaric olmuşdu). Buna görə də onlara xaricilər deyirdilər. Onlar bu qərarı Hərur adlı yerdə qəbul etdiklərinə görə, bəzən hərurilər də adlandırılırdılar. Abdulla ibn Vahbini özlərinə başçı seçmişdilər. Xaricilərin dini təliminə görə, islamın dini ehkamlarına öz işi və hərəkətilə əməl etməyən dindar özünü heç bir çətinliklərdən qurtara bilməz və cənnətə nail ola bilməz. Hər bir xaricinin borcu bu təriqətin proqramını həyata keçirməkdir. İslam tarixində onlar ən ilkin dini-siyasi qüvvə sayılırlar..Yeni qələbələrdən sonra meydana çıxan bu qruplaşma "لا حكـم الا الله" (Lə hökm illallah) – "Allahın hökmündan başqası yoxdur" şüarı altında qeyri-bərabər qüvvə ilə mübarizəyə başlamışdı. 685-ci ildə xəlifə I Mərvanın ölümündən sonra hakimiyyətə gələn Əbdülməlik ibn Mərvanın* dövründə Xilafət əleyhinə xaricilərin çoxsaylı çıxışları olmuşdur. Xaricilərin təriqəti, məqsədləri və hərəkatları haqqında çox yazılmışdır. İslam tarixində mühüm yer tutan xariciliyin Xilafətin müxtəlif vilayətlərində öz təsisatları olmuşdur. İbn ən-Nədim xaricilərin Azərbaycanda da təsisatı olması haqqında məlumat vermişdir[2].

---

[1] О.Г. и Н.О.Гудратовы. Ислам. Москва-Санкт-Петербург, "Диля", 2008, стр.471.

* Əbdülməlik xəlifə olana qədər Mədinədə zahid və fəqih kimi həyat sürürdü. Gecə-gündüz Mədinə məscidində günlərini keçirən Əbdülməlik Mədinənin dörd ən nüfuzlu fəqihlərindən sayılırdı (bax: Доктор Рахман. Краткая история Ислама. Москва, «Умма», 2002, стр.125).

[2] İbn ən-Nədim Məhəmməd ibn Əbi Yaqub.Əl-Fihrist. Misir, 1348, s.29.

Əli ibn Əbu Talibin ordusundan ayrılmış xaricilərin Azərbaycanda da tərəfdarlarının olması burada xaricilik və mötəzililik cərəyanlarının yaranması və fəaliyyəti üçün mühüm sosial baza olmuşdur[1]. Xaricilik hələ Əməvilərin hakimiyyəti ələ almaq cəhdləri zamanı meydana çıxsa da, sonralar Xilafətə qarşı ən barışmaz mövqedə dayanan cərəyana çevrilmişdir. Xariciləri anarxiya tərəfdarları kimi qələmə verən Q.E.Qrunebaum onların kökünü kəsməyin çətin olduğunu göstərir. Bunu hakimiyyət orqanlarına qarşı "islama yaraşmayan" hərəkətlərə etiraz edən xaricilərin, sosial cəhətdən incidilənlərin hamısını öz ətrafında cəmləşdirə bilmələrilə əlaqələndirir[2]. *Xəlifə II Mərvanın* (744-750) dövründə xaricilərin dəstəsinin başında duran beyləqanlı Müsafir ibn Kəsirin başçılığı ilə başlayan üsyan şəhər qalasının alınması ilə nəticələndi. Beyləqan isə uzun müddət xaricilərin qalasına çevrildi[3]. İraqda Əməvilərə qarşı çıxmış xarici təriqətinə mənsub Dəhhak ibn Qeys əş-Şeybani Beyləqanda Müsafirinköməkliyi ilə hakimiyyətdən narazı olan yerli əhalini Xilafətə qarşı yönəldə bilmişdi[4]. Sonra Müsafirin tərəfinə keçən xaricilərdən Sabit ibn Nueym əl-Cüzəmi Ərdəbilə gələrək, üsyançıların bir hissəsini özünə birləşdirdi[5]. Azərbaycanda xaricilər hərəkatının başçısı Müsafir ibn Kəsir və Sabit ibn Nueym əl-Cüzəminin Ərdəbil və Beyləqanla bərabər Bacərvan, Varsan, Yunanda da xariciləri öz ətrafına toplaya bilməsini, Arranın şəhərlərində xariciləri dəstəkləyənlərin xeyli sayda olması kimi qəbul etmək olar. Beyləqanda baş qaldırmış və bütün Arranı bürümüş xarici hərəkatının üsyanı Əməvilər sülaləsinin hakimiyyətdən devrilməsindən Abbasilər sülaləsinin hakimiyyətə gəlməsinə qədər davam etmişdir. Arrandakı xaricilərin üsyanını ilk Abbasi xəlifəsi Əbülabbasın Azərbaycana hakim təyin etdiyi Məhəmməd ibn Sul yatıra bildi. Dəhhak ibn Qeys əl-Xaricinin özü isə daha əvvəl, 128/745-ci ildə müxalifətdə olduğu II Mərvana qarşı

---

[1] Məmmədov Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, "ADN", 1986, s.8.

[2] Qrünebaum Q.E. Klassik islam. Bakı, "Azərbaycan Ensiklopediyası", 1998, s.81.

[3] Пахомов Е.А. Пайтакаран-Байлакан-Орен-кала//Материалы исследования по археологии СССР, №67, Москва-Ленинград, Изд-во АН СССР, 1959, стр.23.

[4] Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981, стр.58-59.

[5] Yenə orada, стр.19.

qiyamda öldürülmüşdü[1]. Xaricilərin yenidən baş qaldırması Abbasilərin dövründə də baş vermişdi. Bu dövrdəki axırıncı toqquşmada da Beyləqandakı hadisələr mühüm rol oynamışdı. Əlbəttə, xaricilərin təqib edilərkən Azərbaycana qaçmaları da bu diyarda onların bazasının güclü olmasını göstərir.

Dini-siyasi təfriqəçiliyin baş alıb getdiyi dövrdə 6 ay xəlifə olmuş Əli ibn Əbu Talibin oğlu Həsən bu təfriqəçiliyi yüngülləşdirmək üçün bəzi addımlar atdı. Xəlifə Əli Kufədə bir xarici tərəfindən qətlə yetirildikdən sonra Həsən qarışıqlığın qarşısını almaq, dini təfriqəçiliyə yol verməmək üçün xəlifəlik iddiasından əl çəkdiyini bildirdiyi haqda məktub yazaraq Müaviəyə göndərdi. Dörd bənddən ibarət məktubda Həsən birinci şərt kimi, Müaviyənin Allahın kitabına və onun peyğəmbərinin sünnəsinə əməl edəcəyi barədə söz verməsini istəyir. İslam alimləri Həsənin bu təşəbbüsünü yüksək qiymətləndirir, islami birlik təhlükəli vəziyyətdə olarkən bunun vəziyyətdən ən düzgün çıxış yolu olduğunu bildirirlər. Müaviyə onun tələblərini yerinə yetirəcəyinə dair söz verdikdən sonra, 661-ci ildən, yəni Həsənin 6 ay çəkmiş xəlifəliyindən sonra Əməvilər sülaləsinin Süfyanilər nəslindən olan I Əməvi xəlifəsi Müaviyə ibn Əbu Süfyan (661-680) 62 yaşında hakimiyyətə gəlir. Onun xəlifəliyi 20 il davam edir. Müaviyə xəlifə olandan əvvəl də 20 il Suriyanı idarə etmişdi. Suriyadakı fəaliyyəti dövründə Müaviyə Bizansa qarşı hərbi əməliyyatlar aparmış və yaxşı təlim görmüş ordu yarada bilmişdi. Ümumiyyətlə o, yaddaşlarda görkəmli ərəb-müsəlman dövlət xadimi kimi qalmışdır. Müaviyə Məkkədə yaşayan Qüreyş qəbiləsinin ən nüfuzlu və varlı Bənu Ümeyyə (Əməvi) nəslindən idi. Məhəmməd peyğəmbərin (s.a.s.) çıxdığı Bənu Haşim (haşimilər) nəslindən fərqli olaraq, Üçüncü xəlifə Osman ibn Əffanın da çıxdığı Bənu Ümeyyə nəsli islama qarşı daha barışmaz mövqe tutanlardan idi.

Müaviyə xəlifə olduğu dövrdə Arran və Azərbaycan onu daha çox məşğul edirdi. Buna görə o, "Azərbaycan nədir?" sorğusuna cavab tapmaq üçün etibarlı bildiyi mənbələrə müraciət etmiş, Übeyd ibn Sariyədən:

[1] Самарканди Низами Арузи. Собрание редкостей или четыре беседы. Москва, «Восточная литература», 1963, стр.399.

"Bura qədim vaxtlardan türklərə aid bir ölkə idi" cavabını almışdı[1]. Azərbaycan türklüyünü bir reallıq olaraq görən Müaviyə, Peyğəmbərin (s.a.s) türklər haqqındakı hədislərini xatırlayaraq öz xəlifəliyi dövründə (661-680) "Türklərə qarşı bir dövlət siyasəti olaraq tətbiq etmiş və beləcə hədis mədəniyyətinə əsaslanan "Türk imici"ni islam cəmiyyəti və Azərbaycanın sərhəd xətlərinə qədər çatdırmışdı"[2]. Bu mövzuda bəzi hədisləri Peyğəmbərin dilindən Müaviyənin nəql etdiyi söylənilir. Müaviyə tərəfindən nəql olunan bir hədisdə deyilir:

"عن معاوية بن أبى سفيان ( ر. ع. ) قال قال النبى (صلعم) . لا تبعثوا الرابضين أتركوهم ما تركوكم الترك والحبشة."

(tərcüməsi: Müaviyə ibn Əbu Süfyandan rəvayət edildiyinə görə, Peyğəmbər (s.a.s.) belə buyurmuşdur: "Sizlər iki toplum (qövm) üzərinə getməyin. Türklər və həbəşlər sizə toxunmadıqca siz də onlara toxunmayın")[3].

Xəlifə Müaviyənin qəbul etdiyi ilk qərarlardan biri Abdullah ibn Hatim ibn Numan ibn Əmr əl-Bəhilini Azərbaycana vali təyin etməsi olur[4*].

Müaviyə xəlifə Əliyə qarşı digər yerlərdən orduları geri çəkdiyi kimi, xəlifə Osman dövründən bəri regionda bir çox yerləri fəth edən Həbib ibn Məsləmənin tabeliyindəki böyük bir ordunu Gürcüstan[5**] və Ərminiyədən geri çağırdı[6]. O, xəlifə olduğu vaxt ərzində Azərbaycanda əsası Xəlifə Ömər tərəfindən qoyulmuş islam fəthləri və islamlaşmanı davam etdirmiş, islam dininin yayılmasına xüsusi fikir verilmişdir. Onun sayəsində bir çoxları müsəlmanlığı qəbul etmişdir[7]. 644-cü ildə Ərminiyə ərazisində

---

[1] İbn Hişam. Kitabu-t-Tican. Heydərəbad çapı; Toğan Z.V. Ümumi türk tarihine giriş. İstanbul, 1981, s.172; Azərli M.İ. IX əsrin ərəbdili mənbəyi qədim Azərbaycan haqqında. Azərb.SSR EA-nın Məruzələri, XXX c., 1974, s.86-89.

[2] Kitapçı Zekeriya. Azerbaycan-Harezm ve türk-oğuz boyları arasında islamiyyet. Konya, 2005, s.52.

[3] Yenə orada , s.52-53.

* Abdulla əl-Bəhili Azərbaycanda vəfat edən valilərdən biridir (Əl-Bəlazuri. Futuh əl-buldən, I c., Qahirə, 1956, s.519.

** Qeyd: Orta əsrlərdə bu ölkə ərəblər tərəfindən Gürzan adlandırılmışdır.

[6] Fayiz Nəcib. Əl-Fütuhət əl-isləmiyyə libilədi-l-Qurc,1988, s.64; Səlimli Q. Hz.Əli (m.656-661) dövründə Azərbaycan. BDU İlahiyyat fakültəsinin Elmi məcmuəsi. Bakı, 2010, s. 40.

[7] Kitapçı Zekeriya.Azerbaycan-Harezm ve türk-oğuz boyları arasında islamiyyet. Konya, 2005, s.87.

bizanslılarla vuruşan Həbib ibn Məsləmə onların hücumunun qarşısını aldıqdan sonra, Tiflisi fəth edir və şəhərin əhalisi ilə müqavilə bağlayır. Müqaviləyə görə, Tiflis öz ətrafı ilə birlikdə Xilafətin Arran vilayəti tərkibinə daxil olunur. Müaviyənin xəlifəliyi dövründə "Ərminiyə əhalisi [sülh müqaviləsini] pozur və [Müaviyə] Həbib ibn Məsləməni (v.e. 662) - o zaman Həbib Curzanda (ərəblərin Gürcüstana verdikləri ad-N.Ə.) [idi]- əl-Baba (Dərbənd-N.Ə.) əmir təyin edir. Həbib yenidən Tiflis və ətraf dağların əhalisi ilə yazışmalar aparır..."[1]. Artıq bu dövrdə Tiflisdə xeyli müsəlman var idi. Tiflis əhli oradakı müsəlmanların nümayəndələri olan Təflini Həbib ibn Məsləmənin yanına göndərir. Ət-Təbəri əsərində bu yazışmaların mətnini verir[2]. Məktubdan görünür ki, Tiflisdə bu dövrdə müsəlmanlar kifayət qədər çox idi və onlar islama gəldikləri üçün özlərini "doğru-dürüst" millət hesab edirdilər. Müsəlmanlar öndə gedənlərdən biri olan Təflini qiymətli hədiyyələrlə Həbib ibn Məsləmənin yanına göndərərək, öz təhlükəsizliklərinə inam verəcək yazılı bir sənəd istəmişlər. Digər tərəfdən aydın olur ki, Xəlifə Müaviyənin dövründə bölgələrin, o cümlədən Azərbaycanın fəthini davam etdirdikcə vali- sərkərdələr özləri ilə dinin mahiyyətini yerlərdə camaata başa salıb öyrədə biləcək Quran və ilahiyyat əhli, yəni hafizlər, qarelər (Quran oxuyanlar) göndərirdilər. Həbib ibn Məsləmə Əməvilər dövründə Tiflislə ikinci dəfə amannamə imzaladıqdan sonra İslam dinini təbliğ etməkdən ötrü "Quran əhli və öz aralarındakı ən alim şəxs" olaraq tanıtdığı Əbdürrəhman ibn Caz əs-Suleymini buraya göndərir. Əbdürrəhmanın uğurlu təbliğ fəaliyyəti nəticəsində şəhər əlalisinin böyük bir qisminin müsəlman olduğu bildirilir[3]. Əbdürrəhmanın təbliği ilə yanaşı Yaqut əl-Həməvinin verdiyi məlumata görə, Həbib ibn Məsləmənin yanına tiflislilər tərəfindən gətirilən hədiyyələrin dəyərinin təsbit edilib cizyə kimi qəbul edilməsinin, cizyə vergisinin bir qisminin buradan ödənilməsinin də Tiflisin islamlaşmasına, əhalinin kütləvi şəkildə İslamı qəbul etməsinə təsiri

[1] Ət-Təbəri.Tərix ər-rüsul va-l-müluk.Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar. Bakı, "Nurlan", 2005, s.121-123.
[2] Yenə orada.
[3] Əbu Cəfər Məhəmməd ibn Cərir ət- Təbəri. Tarix ər-Rusul və-l-Muluk, 4-cü cild (Tahqiq Muhamməd Əbu-l Fadl İbrahim) Qahirə: Daru-l Maarif bi Mısr, 1970, s.162; Ət-Təbəri. Tarix ər-Rüsul va-l-Müluk. Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar. Bakı, "Nurlan", 2005, s.122.

olmuşdur[1]. Müaviyənin hakimiyyəti Azərbaycanda bir çox dağıdılmış şəhərlərin yenidən qurulması, məscidlərin tikilməsi ilə də yadda qalmışdır. Xilafətin Azərbaycanda idarəetmə mərkəzi sayılan Ərdəbildən başlayaraq ölkənin bir çox şəhərlərində came və məscidlər tikilmişdir. Hələ 628-ci ildə Sasani və Bizans orduları arasındakı müharibə vaxtı bizanslıların müttəfiqi olmuş xəzərlər tərəfindən dağıdılmış Bərdə Xəlifə Müaviyə tərəfindən yenidən tikilmişdir. Müaviyənin adından Əbdüləziz ibn Hatim Bərdə ilə bərabər Dəbil şəhərini möhkəmlətmiş, orada məscid tikdirmiş, bununla yanaşı Nəşavə və Beyləqan şəhərlərini də tikdirmişdi. Daha sonra xəlifə Mərvan Marağanın tikintisini başa çatdırmışdı. Əl-Bəlazuri xəbər verir ki, xəlifənin şəhərin idarə olunmasına həvalə etdiyi adamlar yerli camaatla xoş münasibət yaratdılar. Müəllifə görə, bu, oraya bir-birinə əl tutmaq, kömək etmək istəyən çox sayda adamın köçüb gəlməsinə səbəb oldu: onlar şəhəri bərpa edib abadlaşdırdılar[2].

Xilafətin qarşısıalınmaz gücə çevrilməsi, bəzi yerli hakimlərin siyasətində dəyişikliklərə səbəb oldu. Xəlifə Müaviyənin dövründə Albaniya hakimi Cavanşir 667-670-ci illərdə Əməvilərin paytaxtı Dəməşq şəhərinə gələrək, xəlifə Müaviyə ilə görüşmüş və bu görüşdən sonra siyasətini dəyişərək Albaniyanı Xilafətin vassalı elan etmişdi. Onun atdığı bu addım, Cavanşir üçün ölkəsinin nisbi sakitliyini qorumaq imkanı yaratmışdısa, Müaviyə üçün islamın Albaniyada yayılmasına rəvac vermişdi. Cavanşirin bu siyasi addımı Xilafət üçün neqativ halların yaranmasına da səbəb oldu. Belə ki, yerli zadəganlar içərisində olan bizanspərəst qüvvələr baş qaldırdılar və 680-ci ildə (bəzi mənbələrə görə, 681-ci il) Cavanşirə qarşı sui-qəsd təşkil etdlər. Bu, ölkənin daxilində bizanspərəst qüvvələrin hələ də güclü olduğunu göstərir. İkinci Əməvi xəlifəsi I Yəzid (680-683) Cavanşirdən sonra hakimiyyətə keçmiş qardaşı oğlu I Varaz Tridatı (680-699) Şərq vılayətlərinin canişini, Alban padşahlığı və Uti əyalətinin hökmdarı elan edir. 705-ci ildən Konstantinopoldan Albaniyaya qayıdan Varaz Tridatın

---

[1] Yaqut, Şihabəddin Əbu Abdullah. Muc'əm əl-Buldən. 2-ci cild. Beyrut, "Dar Sader", 1977 , s.36; Gümüş N. İlk Dönem İslam-Gürcü İlişkileri. Rize, Karadeniz Basın Yayın, 2007, s.209 .

[2] Əl-Bəlazuri. Kitəb Futuhi-l-Buldən. Azərbaycanın VII-XII əsrlər tarixinə aid çıxarışlar. Bakı, "Nurlan", 2005, s.182.

dövründən etibarən, Albaniya həm faktiki, həm də hüququ baxımdan Xilafət tərkibinə daxil olur. Varaz Tridatdan sonra Albaniyanı ərəb əmirləri idarə edirlər[1].

Qeyd etmək lazımdır ki, bu xəlifənin dövründən başlayaraq ilk dəfə vəliəhdlik yarandı. O, ölümündən qabaq oğlu Yəzidi vəliəhd təyin etdi. Bu ənənə ondan sonra gələn xəlifələr tərəfindən də davam etdirilərək məqbul sayılmış, sülalə hakimiyyətinin əsası qoyulmuşdur.

Atasının vəfatından sonra Xilafət taxtına çıxan *Yəzidin* (680-683) hakimiyyətini ölkənin çox hissəsinin tanıdığına baxmayaraq, o bir sıra çətinliklərlə üzləşdi. Əli ibn Əbu Talibin ikinci oğlu Hüseyn Yəzidə beyət etməkdən imtina etdi. Məkkə, Mədinə və Kufə sakinlərinin çoxu da ona qoşuldu. Übeydullah ibn Ziyadın başçılıq etdiyi təcrübəli, yaxşı təlim görmüş məğlubedilməz Suriya ordusu ilə üzləşən şiələr[*] Yuxarı Fərat boyunca yerləşən Ayn əl-Vard adlanan yerdə faktiki olaraq qırıldı. Şiə hərəkatının yaranmasına səbəb olan iki hadisədən birincisi məhz bu zaman Xəlifə I Yəzidin dövründə (680-682) baş verdi. Kərbəlada Peyğəmbərin (s.a.s.) nəvəsinin başının kəsilərək nümayişkaranə şəkildə Şama göndərilməsi 680-ci ildə şiə hərəkatına səbəb oldu. İkinci hərəkat isə Əməvi xəlifəsi Mərvanın (684-685) hakimiyyətinin son dövrlərində 16 min nəfərədək şiənin Kərbəlada şəhid olmuş Hüseynin məqbərəsi ətrafında toplaşaraq dini ekstaz atmosferində Dəməşqə Əməvilərdən qisas almağa yollanması idi. Daha sonra, yəni 685-ci ildə Muxtar ibn Übeyd Kufə şiələrini "Hüseynin qisasını almaq" şüarı ilə öz ətrafında birləşdirərək Kufə şəhərinin hakimini devirdi. Bundan sonra Kufədə Hüseynə qarşı vuruşanları planlı şəkildə məhv etməyə başladı. Muxtar tezliklə ibn Zübeyrin hakimiyyətini tanıyan Şimali İran və İraq üzərində nəzarət yarada bildi və beləliklə, dövlət Əbdülməlik (Suriya və Misir), Abdulla (Ərəbistan və İraqda Bəsrə) və yeni rəqib olan Muxtarın təsir dairəsinə bölündü.

---

[1] Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, "AND", 1993, s.203.

[*] Qeyd: Sünnilikdən sonra ikinci (əhəmiyyəti və sayına görə) istiqamət kimi şiəlik VII əsrin ikinci yarısında İraqda xəlifə Əlinin tərəfdarları arasında meydana gəlib. Şiələr Quranı ilahi vəhy kimi qəbul edirlər, lakin hesab edirlər ki, Əlinin haqqını sübut edən surənin biri və ya bir neçə ayə qəsdən Quranın Osman tərəfindən tərtib edilən nüsxəsinə daxil edilməmişdir. Şiələr Əlidən başqa bütün sünni xəlifələri qəsbkar hesab edir və on iki imamı onlara qarşı qoyurlar (bax: Bünyadov Z.M. Dinlər, təriqətlər, məzhəblər. Bakı, "Azərbaycan", 1997, s.277-278)


*Əməvilər dövründə kəsilmiş ilk qızıl dinar. Üzərində xəlifə Əbdülməlikin surəti nəqş edilmişdir.*

Əməvilər dövründə ərəb ordusuyla Azərbaycana ərəb mənşəli qəbilələr də gəlir və burada məskunlaşırdılar ki, bu da islamın yerlərdə möhkəmlənməsinə rəvac verirdi. Müaviyədən sonra yeni bir ərəb ordusunun axını Yəzid ibn Usaydın valiliyi vaxtında baş vermişdi. Buna səbəb Xəzər xaqanının iki nəvəsinin ölümü olmuşdur. *Xəlifə Yəzid* (680-682) İraqdan 35 min, Suriya və Cəzirədən 20 min əsgəri Arrana göndərir. Mənbələrdə İraqdan göndərilən qoşun sərkərdələrindən Cəbrail ibn Yəhya, Məhəmməd ibn əl-Həsən, Humeyd ibn Qəhtab kimi sərkərdələrin adları çəkilir. Hər iki tərəf, yəni xəzərlərlə müsəlman qoşunları döyüş üçün Şirvan torpağında görüşürlər. Hərbçilərin gəlişi qəbilələrin məskunlaşması ilə müşayiət olunurdu. Çox güman ki, Şirvanda əsilləri ərəb mənşəli qəbilələr yaşayan “Ərəblər”, “Ərəbqiyaslı”, “Ərəbçəltikçi”, “Ərəbmehdibəy”, “Ərəbşamlı”, “Ərəbcərbirli”, “Ərəbsarvan”, “Ərəbkükəl”, “Ərəbocaq”, “Ərəbuşağı”, “Ərəbdəhnə”, “Ərəbli”, “Ərəbkeymurad”, “Ərəbdəhnə Hacılı” və s. kəndlərin əhalisi məhz bu dövrdə ərəb ordusu ilə gəlmiş qəbilələrin nəslindəndir.

Qeyd etmək yerinə düşər ki, artıq 684-cü ildə Xilafətdə hakimiyyət Əməvilər sülaləsinin başqa qoluna keçdi. *Mərvan ibn əl-Hakəm* yaşlı dövründə xəlifə oldu. Müaviyə və onun Sufyanilər nəslindən fərqli olaraq, Əməvilər sülaləsinin bu qolu Mərvanilər adlanmağa başladı.

Xilafətə daxil olmuş ölkələrdə, o cümlədən Azərbaycanda islam mədəniyyətinin yayılmasında V Əməvi xəlifəsi *Xəlifə Əbdülməlik ibn Mərvanın* (685-86/705) böyük rolu xüsusi qeyd olunmalıdır. Onun ölkə daxilində apardığı islahatlar, Xilafəti möhkəmləndirməyə və Xilafətə daxil olan ölkələr arasında inzibati, siyasi vəhdət və mərkəzləşdirmənin mənafeyinə uyğun iqtisadi əlaqə yaratmaq üçün həyata keçirdiyi tədbirlər içərisində pul və əlifba islahatı, divanların ərəbləşdirilməsi, ərəb dilinin Xilafət dili elan edilməsi məsələləri olduqca mühüm yer tutur. Ə.Rəcəbli bu dövrdə baş verən dəyişikliyi ilk növbədə dönəmin sikkə zərbi və pul



*Əbu Məhəmməd İlyas ibn Yusif (Nizami Gəncəvi) (1140-1211)*

dövriyyəsi ilə bağlayır. O göstərir ki, ilk zamanlar Sasani və Bizans sikkələrinə cüzi tipoloji əlavələr etməklə keçinən Xilafət Əbdülməlikin 696-cı ildə keçirdiyi pul-sikkə islahatı əsasında vahid dövlət sikkə sistemi təsis olundu. Bu sistemin tətbiqi ilə islamlaşma və "ərəbləşmə" prosesinin faktiki olaraq təməl daşı qoyuldu. Pul-sikkə islahatı nəticəsində əvvəllər mövcud olan Ərdəbil, Şiz, Cənubi Qafqazın Naxçıvan, Aran-Paytarakan, Partav-Bərdə, Boqvan-Baku, Dərbənd və Tiflis zərbxanalarından əlavə Ərz əl-Xəzər, Bəlx əl-Beydə, Cənzə (Gəncə), əl-Yəzidiyyə (Şamaxı), əl-Mütəvəkkiliyyə (Şəmkir) şəhər-zərbxanaları fəaliyyətə başladı. Azərbaycan və Arran sikkə sisteminin əsas sikkə vahidi - gümüş dirhəmin ilk zərb olunduğu Xilafət əyalətlərindən birinə çevrildi[1].

Xəlifə Əbdülməlikin əlifbanı dəyişdirmək, divanları ərəb dilində aparmaq haqqında 700-701-ci illərdə başlayan islahatının müvəffəqiyyətlə həyata keçirilməsi böyük tədqiqat işləri aparılmasını, mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcüməsini zəruri etmişdi. VII əsrin sonu VIII əsrin əvvəllərindən başlayaraq, Əməvilər sülaləsi elm və mədəniyyətin inkişafı sahəsində bir sıra addımlar atmağa başlayır. Əməvi şahzadələrindən Xalid ibn Yəzid ibn Müaviyə (v.e. 85/704) kitabları tərcümə etdirmə sahəsində xüsusi fəallıq göstərmişdi. Tərcümələr isə "Dərul-tərcümə" ("Tərcümə evi") də aparılırdı. Bu müəssisə isə Əməvilər sülaləsinin paytaxt şəhəri olan Dəməşqdə[*] "Beytül-hikmə"dən əvvəl inşa edilmişdi.[2] "Tərcümə evinə" kitabları da ilk dəfə *Xalid ibn Yəzid* toplamışdır. Onun bu işini Əməvi Xəlifələrindən Mərvan ibn əl-Hakəm (684-685) və Ömər ibn Əbdüləziz (717-720) davam etdirmişdi.

Antik müəlliflərin elmi əsərlərinin ərəb dilinə tərcüməsi sayəsində bu əsərlər Azərbaycanda da yayılmışdı. Əfzələddin Xaqaninin (1126-1199) öz

---

1 Rəcəbli Ə.M. Azərbaycan numizmatikası. Bakı, "Elm və həyat". 1997, s.33-37.
* Xəlifə Müaviyə dövlətin paytaxtını Mədinədən Dəməşq şəhərinə köçürür.
2 Nəcdə Xəmaş. Əl-asru-l-islami hattə nihayəti əl-ahdi-l-məmluki. Əş-Şam asımətu əs-səqafə əl-islamiyyə. Dəməşq, 2008, s.126.

əmisi Kafiəddin Şirvani haqqında yazdığı şeirdən görünür ki, o Aristotelin, Hippokratın və Platonun ərəb dilinə tərcümə olunmuş əsərlərindən istifadə etmişdir. Bu əsərlərin tərcüməsinin əsası isə çox güman ki, "Tərcümə evində" qoyulmuşdu. Eləcə də, "Respublika", "Qanunlar", Platonun "Timsos"unu, Aristotelin məntiqdən bəhs edən əsərlərini, Arximed, Evklid, Hermes Trismegist, Fales Miletski, Appoloni Tianski, Porfiri Tirski və başqalarının əsərləri ilə Nizami Gəncəvinin (1140-1211) yaxından tanış olması[1], yəqin ki, əsası Əməvi sülaləsi tərəfindən qoyulmuş "Tərcümə evi"nin fəaliyyəti sayəsində mümkün olmuşdu.

Xəlifə Əbdülməlik ibn Mərvanın (65-86/685-705) ərəbləşdirmə siyasəti uğurla aparılmağa başlandı. Onun əlifba islahatı, divanların ərəbləşdirilməsi, ərəb dilinin Xilafətin rəsmi dili elan edilməsi sahəsində həyata keçirdiyi tədbirlər Xilafətin tərkibində olan xalqların dinini, mədəniyyətini və yazılı abidələrini əvvəlkindən daha artıq sıxışdırmağa başladı. Xəlifə Əbdülməlikin Azərbaycanda həyata keçirdiyi dil siyasəti xalqın dilini dəyişdirməsə də, ideologiya, elm və mədəniyyətə təsir edirdi. Onun bu siyasəti yerli ziyalıların öz xalqından ayrılmış imtiyazlı zümrəsinin formalaşmasına əlverişli şərait yaratdı. Bioqrafik ədəbiyyat bu imtiyazlı zümrəyə daxil edilən və müsəlman adları ilə yazıb-yaradan məvalilərin[2*] hərbi fəaliyyətləri haqqında yazmasalar da, onların mühəddislık və şairlik fəaliyyəti haqqında məlumat verirlər. Həmin ziyalılardan biri də Əli ibn

---

[1] Низами Гянджеви. Сем красавиц. Филологический перевод с фарси, предисловие и комментарии Рустама Алиева. Баку, «Элм», 1983, стр.9.

[*] Qeyd: "Məvali" مـوالـى ərəbcəولـى felindən düzəlmiş "məvla" مـولـى sözünün cəmidir ki, bunun da mənası "yaxın olmaq, kiminsə arxasınca getmək, qoşulmaq" deməkdir. Mövlə (məvali-cəm) termini islamdan əvvəlki Ərəbistanda geniş yayılmışdı. Bu termin tez-tez müxtəlif asılı kateqoriyadan olan əhaliyə şamil edilirdi. Məfhum çoxmənalı (qan qohumlarından tutmuş hamiliyə qəbul edilmiş özgə xalqlardan və azad edilmiş qullara qədər) olduğuna görə, mavlə sözünün qrammatik məna kimi real məzmununu yalnız kontekstən çıxış edərək açmaq olar (Вах: Негря Л.В. К вопросу о значениях понятия мавла в Аравии V-VII вв., Москва, «Вестник МГУ», I (1977), стр.25-33). Ərəb fəthləri dövründə məvla termini yeni məzmun kəsb edir. Onlar yeni müsəlmanlar kimi, ərəb ordusu tərəfdə döyüşən müsəlman-ərəblərlə bərabər tutulurdu. Qənimətlərin bölgüsündə də bu təbəqədən olanlar ərəblərlə eyni pay alırdı. Ayrı-ayrı ərəblərə təhkim olan bu qeyri-ərəblər Xilafətin həyatında öyəmli rol oynamağa başladı. Onlar təhkim olunduqları qəbilə başçıları və onun qəbilə üzvləri ilə birlikdə fəth olunmuş yerə yerləşdirilir, onu hərbi əməliyyatlarda müşayiət edirdilər (Вах: Колесников А.И. Завоевание Ирана арабами. Москва, «Наука», 1982, стр.173).

Əbu Talibin məvlası ərdəbilli qazı Cəfər ibn İbrahim Əbu Məhəmməd əl-Qənbəridir. O Abdulla ibn Cəfər ibn Farisdən hədis danışmışdır. Ona istinadən isə həmyerlisi ərdəbilli zahid Əbu Abdulla Məhəmməd ibn Əhməd ibn İsmayıl ibn Rəvvad hədis söyləmişdir[1]. İbn Quteybəyə əsaslanan M.Mahmudov məvali şairlər - Musa Şəhəvat, Əbülabbas, İsmayıl ibn Yasar və onun qardaşları haqqında yazır, onların VII əsrin sonları və VIII əsrin I yarısında yaşayıb-yaratmaqları barədə məlumat verir[2]. Azərbaycanda islam mədəniyyətinin yayılmasında böyük rolu olmuş Xəlifə Əbdülməlikin özü ədəbiyyata böyük maraq göstərmişdir. O, əhalinin toplandığı yerlərdə şeir oxunması və şairlərdən söhbət açılması barədə əmr vermişdi[3]. Sözsüz ki, bu şairlərdən Əməviləri, o cümlədən bu sülalənin nümayəndəsi olan Əbdülməliyi tərifləmək, Haşimilər və xilafət fikrinə düşən başqa nəsilləri pisləmək tələb olunurdu[4].

Ərəb dili qısa müddət ərzində fəth olunmuş ölkələrin əhalisinin dilini çox sürətlə sıxışdırmağa başlayır, tezliklə ədəbi məclislərin və ziyalıların rəsmi dili ərəb dilinə keçir. Akad. V.V. Bartold göstərirdi ki, ərəb dili həm islam dinini qəbul etmiş ölkələrin əhalisinin, həm də müsəlman olmayanların arasında dövlət dili kimi yayılmağa başladı[5].

Ərəb Xilafətində 680-692-ci illər ərzində davam edən ikinci Vətəndaş müharibəsi Bizansın Xilafət ərazisinə hücumlarını aktivləşdirdi. Belə ki, imperator qoşunlarının şimali Suriyanı təhdid edən Kilikiyaya hücumu, xəlifə Əbdülməliyin II Yustianla sülh sazişi bağlamasına gətirib çıxardı. Bu sülh sazişindən sonra Ərminiyə, Curcan və Arrandan toplanan vergi müqavilə bağlayan tərəflər arasında bərabər şəkildə bölünməli idi[6].

---

[1] Əliyeva N.A. İbn Makula Azərbaycanlı ziyalılar haqqında. Bakı, "Turxan", 2014, s.87.

[2] Mahmudov M.R. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər) Bakı, "Elm", 1983, s.11.

[3] İbn Qüteybə. Əl-Məarif vəl-lataif. Leyden, 1908, s.70.

[4] Azərli Məmməd. Xəlifə Əbdülməlik ibn Mərvanın islahatı və Azərbaycan (685-705-ci illər). Bakı, 1964. Tarix İnstitutunun elmi arxivi, №5678, s.92.

[5] Бартолъд В.В. Културa мусулъманства. Петроград, " Огни", 1918, стр.25.

[6] Greenwood T. Armenian Nei qhbours (600-1045)/The Cambridge History of the Byzantine Emprie стр. 500-1492/Ed/by Shepard/Cambridge: Cambridge University Press, 2008, pp.333-364.

Dini-siyasi təfriqəçilik Xilafətin müsəlman əhalisi arasında olduğu kimi, xristian əhali arasında da baş verirdi. Alban patriarxı Nerses Bakurun yunan kilsəsinə meyl etməsindən ustalıqla istifadə edən erməni yepiskopu İlyanın (703-707) xəlifə Əbdülməlikə yazdığı məşhur məktubu Xilafətin Albaniyanın daxili işlərinə qarışması və Alban kilsəsinin erməni kilsəsinə tabe olunması ilə nəticələndi. Məktubda alban katolikosunun Rum imperatoru ilə sazişə girib, ibadətlərində onun adını çəkməsi və ölkəni onun məzhəbini qəbul etməsinə məcbur edilməsi fikri bildirilirdi. Albaniyanın Bizansla yaxınlaşması və onun təsir dairəsinə düşməsi Xilafətin ziyanına idi. Xəlifə xalkedon dini etiqadına qriqoryan dini etiqadına uyğun düzəlişlər edilməsi haqqında əmr verdi. Daxili çəkişmələr sayəsində yaranan vaqeə albanları qriqoryanlaşdırmaqla bərabər Azərbaycanın din tarixini təsdiq edən sənədlərin bir çoxunun məhv olmasına gətirib çıxardı. Erməni yepiskopu İlyanın təşkil etdiyi yığıncağın qərarı ilə Nersesin bütün kitabları sandıqlara doldurulub Tərtər çayına atıldı. Daha çox erməni kilsəsinin xeyrinə olan bu siyasi gediş, nəticə olaraq b.e. 74-cü ilindən mövcud olan Alban kilsəsinin erməni kilsəsinə tabe edilməsi və 1836-cı ildə Peterburq Müqəddəs Sinodunun qərarıyla ləğv edilməsi ilə sonunclandı.

Əbdülməlikin hakimiyyətinin son on ilində Xilafət ölkələrinin dini həyatı yeni mərhələyə qədəm qoyur. Fəthlərdən sonra islamın yerlərdə bərqərar olması, islamın yerlərdə möhkəmləndirilməsi üçün sərkərdələrin üzərinə çətin vəzifə düşmüşdü; onlar qanunla qəbul olunmuş çərçivədə yerli sakinlərə islamı qəbul etdirməyə çalışırdılar, çünki zahirən elə idi ki, əhali islamı qəbul etmiş və müsəlman olmuşdur, lakin daxilən bütpərəst olaraq qalırdı. Bu yöndə sərkərdələr hər fürsətdən istifadə etməyə çalışırdılar. Ən-Nəsəfinin məlumat verdiyi kimi, əvvəllər bütlərin saxlandığı yerlərdə sərkərdələr bəzən məscid tikdirərək əmr verirdilər ki, şəhər sakinləri hər cümə günü buraya ibadətə gəlsinlər, üstəlik də əmrə əlavə olaraq bildirilirdi ki, ibadətə gələn hər adama 2 dirhəm veriləcək.[1] Əlavə olaraq qeyd etmək lazımdır ki, ərəb fəthləri zamanı bütpərəstlikdən fərqli olaraq, xristianlığa qarşı münasibət loyal olmuşdur. “Kitab əhli kimi” Arran əhalisi onlar üçün yeni olan dini qəbul etməyə məcbur edilmirdi, əksinə, islam xristianların özləri tərəfindən

[1] Ан-Насафи Наджм ад-Дин Абу Хафс Умар ибн Мухаммад. Ал-Канд фи зикр улама Самарканд//Общественные науки в Узбекистане. Ташкент, 1997, № 9-10-11.

xüsusilə sevinclə qəbul edilirdi[1].

Hesab edirik ki, Məhəmməd peyğəmbərin (s.a.s.) sağlığında "Kitab əhlinə" olan münasibət, o cümlədən xristianların toxunulmazlığı Əməvilər tərəfindən də qorunmuşdur.

Xəlifə Əbdülməlik 693-cü ildə öz qardaşı Məhəmməd ibn Mərvanı "əl-Cəzirənin" (v.e.719-720) Azərbaycan və Ərminiyənin valisi təyin etmiş, islamın bu yerlərdə möhkəmləndirilməsi missiyasının ağırlığı bu valinin də üzərinə düşmüşdü. Məhəmməd ibn Mərvan islamın Xilafət ölkələrində mökəmləndirilməsini və ərəblərin Azərbaycanda yerləşdirilməsi prosesini davam etdirmişdir.

704-cü ildə, Ərəb-Bizans müharibələrinin başlanması ilə əlaqədar xəlifə Əbdülməlik Məhəmməd ibn Mərvanın siyasətində də dəyişiklik başladı. Xəlifə başçılığı ilə Arrana qoşun göndərildi. Knyaz Şeroy və ona yaxın adamlar tutulub Dəməşqə göndərildi[2]. Knyaz I Varaz Tridatın hökmranlığından başlayaraq Arran hətta öz vassallığını da itirdi. Ölkədə xəlifənin canişinləri tam hökmran olmağa başladılar. Knyaz və katolikos canişinlərin yanında bir növ məşvərətçi oldular; onlar müstəqil surətdə daha heç bir qərar qəbul edə bilmirdilər[3]. Mihranilərin[*] son nümayəndəsi

---

[1] Розен В. Рецензия на "Alberuni's İndia", s.155.

[*] Albaniya knyazı və Girdiman hökmdarı.

[2] Мовсес Каганватци. История Агван. СП.б, 1861, стр.259-260.

[3] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Azərbaycan", 1989, s.104-105.

[*] Mihranilər - miladi tarixlə 628-705-ci illər arasında Qafqaz Albaniyasını idarə etmiş İran əsilli sülalə.

[**] VIII əsrin əvvəllərindən başlayaraq inzibati-ərazi sistemi baxımından Ərəb Xilafətinin Zaqafqaziya əraziləri şərti olaraq "Ərminiyə" adı altında verilməyə başladı. Romalılar və bizanslılar "Ərminiyə" adı altında Kür çayından Xəzərə qədər olan ərazini, yəni Arran və Gurzan (Gürcüstan, İberiya) eləcə də Qafqazın Dərbəndə qədər olan dağlıq vilayətlərini nəzərdə tuturdular. Ermənilər bu termin altında "erməni" torpaqlarını nəzərdə tuturlar. İngilisdilli ədəbiyyatın nümayəndəsi M. Kanarddan sitat gətirən L.Qafarzadə göstərir ki, emənilərdən fərqli olaraq bu termin altında Arran da başa düşülürdü. Bu inzibati sistem bəzən dəyişirdi. Məsələn, Bosvorta görə, Cənubi Azərbaycan ayrıca bir vilayət idi. Lakin, vaxtaşırı Cəbəl, Mosul və Cəzirə ilə birləşirdi ki, bu da inzibati sistemin dəyişkən olduğunu göstərirdi. Beləliklə, inzibatı ərazi bölgüsünü Azərbaycan və ingilis tarixşünaslığında yazılanlarla müqayisə edən tədqiqatçı onların fikrinin üst-üstə düşdüyünü, ərəb hakimiyyətinin inzibati üsul-idarəsinə Bizans modelinin götürüldüyünü təsdiq edir.

Varaz Tridatın cəmi bir neçə il davam edən nominal hökmranlığına son qoyulduqdan sonra bölgədə yeni inzibati bölgü sistemi yaradıldı[**].

Bu inzibati bölgü sisteminə aid edilən və Sasanilər sistemindən götürülmüş Azərbaycan adı yalnız Araz çayından cənuba - Ərəb Azərbaycanı vilayətinə şamil olunurdu. Ərəb ordusunun Cənubi Qafqazda fəth etdiyi torpaqlara isə ümumi "Ərminiyə" inzibati adı verilir. Ət-Təbəri və əl-Kufi kimi mötəbər ərəb müəlliflərinə isnad edən akad. N.M. Vəlixanlı göstərir ki, Ərəb Ərminiyəsi inzibati bölgəsinə aid edilən Arran-Albaniya ərazisi bəzən Azərbaycan adlandırılır və tarixi Azərbaycan ərazisinin obyektiv coğrafi təsviri təmin edilirdi[1].

Ərəblərin Cənubi Qafqazda möhkəmlənmə prosesi həm xəlifə Əbdülməlik dövründə, həm də ondan sonra - VIII əsrin 30-cu illərinə qədər, yəni II Mərvanın xəzərlər üzərinə yürüşünə qədər davam edir. Bu proses əhali və qoşun hissələrinin yerləşdirilməsi ilə bərabər islamlaşma prosesinin inkişafına gətirib çıxarır. Digər tərəfdən, Xəlifə Əbdülməlikin hakimiyyəti dövründə Musa Şəhəvat, Əbülabbas, İsmayıl ibn Yasar və onun qardaşları kimi məvalilər VII əsrin sonlarında olduğu kimi, VIII əsrin I yarısında da xəlifələrdən I Valid (705-715), Süleyman ibn Əbdülməlik (715-717), Ömər ibn Əbdüləziz (717-720), II Yəzid (720-724) və Hişam ibn Əbdülməlikin (724-743) dövründə fəaliyyət göstərmişlər. Əsilləri Azərbaycandan olan bu məvali şairlərin yaradıcılığı ərəb dilində olmuşdur. Onlar ictimai ziddiyyətlərin son həddə çatdığı Əməvilər dövründə öz mənafelərinə uyğun olaraq bu və ya digər siyasi dəstənin tərəfində dururdular[2]. Həmin siyasi qruplar da öz növbəsində məvalilərin xidmətindən həvəslə istifadə edirdilər.

Azərbaycan tarixşünaslığında mənbə və tədqiqatçıların müxtəlif fikir ayrılığına səbəb olmuş çoxsaylı fakt və məqamlar var. Bunlardan biri də vali Məhəmməd ibn Mərvanın adı ilə bağlıdır. Əl-Bəlazuriyə

---

1 Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə.: tarix, mənbələr, şərhlər. Bakı, "Elm və təhsil", 2016, s.48.

2 Mahmudov M.R. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər) Bakı, "Elm", 1983, s.11.

* Bu, Məhəmməd ibn Mərvanın 703-cü ildə cəza dəstəsi ilə Ərminiyəyə daxil olarkən, katolikos Saxakaya təqdim etdiyi fərman idi. Bu xüsusi fərman ölkədə dini azadlığın qorunması barədə idi.(bax, Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI вв. Москва, «Наука», 1988, стр.49).

görə, Məhəmməd ibn Mərvan müqavilənin şərtlərini pozaraq üsyan edən ölkənin azadlarına (qədim erməni zadəganlarına verilən ad- N.Ə.) və onların təbəələrinə qarşı yürüşə çıxdı, zəfər çaldı, onları qətlə yetirdi, əsir tutdu və ölkəni yenidən tabe etdi. Bu zaman, azadları Xilat vilayətindəki kilsəyə yığdılar. O (Məhəmməd), kilsəni bağlatdı, qapılarını öz adamlarına tapşırdı və onlara od vurdurdu. N.M. Vəlixanlı yazır ki, əsərin əlyazmasında "yandırmaq" deyil, "qorxutmaq" sözü işlədilmişdir. Dini azadlığın qorunması üçün xüsusi fərmanın mövcud olması[*] və V.V. Bartoldun islamın zorla qəbul edilməsinin yolverilməz olduğu[1] fikrini qəbul etsək, əl-Bəlazurinin əlyazmasındakı "qorxutmaq" ifadəsinin səhih olmasını təsdiq edə bilərik.

Əməvilər sülaləsinin hakimiyyətdə olmuş nümayəndələrindən Müaviyə, Əbdülməlik və Hişamın xilafətin ən bacarıqlı təşkilatçılarından hesab edilmələrinə baxmayaraq, fəthlərin daha intensiv və davamlı surətdə aparılması *I Valid ibn Əbdülməlikin* (705-715) dövrünə təsadüf edir. Onun adı daha çox yeni fəthlərlə əlaqədar çəkilir. Xəlifə I Validin dövründə ərəb əsgərləri uzaq dağlıq rayonlarda, ağır iqlim şəraitində müharibələr aparırlar. Şimali Afrikanın fəthi də onun adı ilə bağlıdır. H.91/710-cu ildə müsəlman döyüşçüləri Cəbəllütariqdən İspaniyaya keçir, sonra isə Pireneydən keçməklə Fransaya həmlələr edirlər. Şərqi İrana-Xarəzmə daxil olaraq tədricən Mavəraunnəhrin fəthini başa çatdırılar. Şərqi Anadolunun yunanlarla sərhəd rayonlarının ələ keçirilməsi əməliyyatları hələ də davam edirdi. Bu dövrdə müsbət sayılan irəliləyişlərdən biri də ərəblərin Hindistanın bir hissəsini fəth etmələri və İslamın birinci dəfə Hindistana qədəm qoymasıydı.

Xilafətin şimal hissəsində də bəzi dəyişikliklər baş verdi. Bizans imperatoru II Yustinian (705-711-ci illərdə hakimiyyətdə olub) öldürüldükdən sonra Bizansda yenidən xaos baş qaldırdı. Beş il ərzində hakimiyyətdə olmuş üç imperatordan (Filippik, II Anastasi və III Feodosi) sonra 716-cı ildə hakimiyyətə gəlmiş Lev II İsavr ölkədə nizam-intizam və birliyi yenidən bərpa etdi. Bizansda qarışıqlığın hökm sürdüyü dövrdə Bizanspərəst qüvvələrin zəiflədilməsi işi xəlifə Əbdülməlikdən sonra

[1] Бартольд В.В. Краткий обзор истории Азербайджана. Сочинения, т.II, ч.1. Москва/«Восточная литература», 1963, стр.777.

xəlifə I Valid tərəfindən davam etdirildi. Valid qardaşı Məsləmənin Kiçik Asiyada Bizansın təsir gücünün azaldılmasına yönəlmiş cəhdlərini təşviq edirdi. Xəlifə Əbdülməlik tərəfindən Bizansa qarşı başlanan müharibəni, xəlifə I Valid xəzərlərə qarşı çevirdi. Ərəb-xəzər müharibələri ərəbləri Azərbaycanın şimal sərhədində möhkəmləndirilmiş hərbi düşərgələr (rabatlar) yaratmağa məcbur edirdi. Bu düşərgələrdə əsasən, xəlifədən maaş almayan könüllü (mütətaviyyə) əsgərlər toplanırdı. Bu əsgərlər də ilk dəfə Azərbaycan torpaqlarına qədəm qoyan əsgərlərdən fərqlənirdilər. Belə ki, ilk döyüşçülər İslam fanatikləri, ikincilər isə peşəkar döyüşçülər idi[1].

Əs-Suyuti Xəlifə Validin fəth etdiyi şəhərləri sadalayarkən, h.91-ci ildə fəth olunmuş yerlər arasında Azərbaycan dənizindəki[2*] qalaların da adlarını çəkir[3].

Xəlifə Valid atasının hərb işi ilə bərabər mülki işlərində də layiqli davamçısı idi. Onun hakimiyyət illəri sülh və bolluq illəri olmuşdur. Xəlifə Validin göstərişi ilə kimsəsiz uşaqlar sünnət edilmiş, onlar üçün müəllimlər təyin olunmuş, xəstələrə yardımçı, korlara da bələdçilər verilmişdi. Fəqir, gücsüz və fəqihlər günlük ərzaqla təmin edilmiş və insanların dilənməsi yasaqlanmışdı[4].

Bu dövrdə mədrəsə, xəstəxana, sığınacaq evləri ilə yanaşı möhtəşəm ibadət yerləri tikilmiş, bəzi məscidlər, o cümlədən Nəbəvi məscidi yenilənmiş və genişləndirilmişdi. Qeyd etmək lazımdır ki, I Validin dövründə böyük şəhərlərdəki mərkəzi məscidlər təkcə ibadət yeri funksiyasını yerinə yetirmir, bir neçə binadan ibarət olub, kompleks, külliyyə vəzifəsini görürdü. Bu kompleksərdə ibadətlə yanaşı, həm təhsil verilir, həm də dövlət işləri həyata keçirilirdi. Məscidlərin tikintisinə önəm verən Əməvilər nahiyələrin xəzinəsini (beytul malını) məscidlərdə qoruyurdular. İbn Havqəl Bərdənin gözəl, geniş came məscidi haqqında

[1] Г.Э. фон Грюнебаум Классический ислам. Очерк истории (600-1258). Москва, «Наука», 1986, стр.63.

[*] Cəlaləddin əs-Suyutinin "Xəlifələr tarixi" əsərini orijinaldan türk dilinə çevirən Onur Özatağ qeyddə Xəzər dənizi kimi göstərir.

[3] Cəlaləddin əs-Suyuti. "Xəlifələr tarixi". Ərəb dilindən türk dilinə çeviren Onur Özatağ, Ankara, "Ötü-ken", 2014, s.230.

[4] Yenə orada.

xəbər verərək onu Misirdəki məscidlə müqayisə etmiş və göstərmişdir ki, bu məsciddə nahiyənin beytulmalı (xəzinəsi) yerləşir[1]. Bu cəhətdən Dəməşqdəki Əməvilər məscidi[*] və Babul-Əbvabdakı məscidlə yanaşı Bərdə məscidinin Cənubi Qafqazda müsəlman icmasının mədəni-mənəvi mərkəzi kimi əhəmiyyəti qeyd olunmalıdır.

İslam dininin ilk çağlarında, o cümlədən Əməvilər dövründə insanlar yeni müsəlman cəmiyyətində ixtilafların aradan qalxacağına və nisbətən yaxşı həyat quracaqlarına böyük ümid bəsləyirdilər. Lakin elə həmin zamandan etibarən sosial ziddiyyətlər də özünü biruzə verməyə başladı. Bu vəziyyət II Ömər ibn Əbdüləzizin (717-720) dövrünə qədər davam etdi. Orta əsr mənbələrində aşağı və yuxarı təbəqənin vəziyyəti barədə kifayət qədər məlumat var. Hakim təbəqənin və dövlət məmurlarının özbaşınalığına qarşı mübarizəyə məhz II Ömər başladı. Xristianların üzərindən verginin götürülməsi də bu dövrə təsadüf edir. Yovxan Odznetsi (718-728), (həmin dövrdə ermənilərin tanınmış din xadimlərindən biri) Dəməşqə gedərək Xəlifə II Ömər ilə görüşür və bu görüş xəlifənin xristianlar üçün dini azadlığı tanıması və ruhanilərin üzərindən verginin götürülməsi ilə nəticələnir[2]. Xəlifə II Ömərin dövründə "Kitab əhlinin" toxunulmazlığı qorunmuş, hətta bəzi tədqiqatçılara görə, xristian ərəblərin tarixi ərəb mədəniyyətinin maraqlı səhifələrindən olmuşdur.[3]

---

[1] Vəlixanlı N.M.Azərbaycan.VII-XII əsrlərdə.Bakı, "Elm və təhsil", 2016, s.290.

[*] Qeyd: Memarların böyük himayədarı kimi, I Validin Dəməşqdə tikdirdiyi məşhur Əməvilər məscidi ibadətxana olmaqla bərabər, həm də dövlət başçısının qonaqları rəsmi qəbul etdiyi məkan qismində istifadə olunurdu. Bu məqsədlə xəlifə xüsusi palata da hazırlatmışdı. Bu məscid klassik tipli məscidlərin ən böyüyüdür.

[2] Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI вв. Москва, «Наука», 1988, стр.50.

[3] Крачковский И.Ю. Над арабскими рукописями. Москва, «Правда», 1948, стр.23.

Tarixçilərə görə, Ömər ibn Əbdüləziz Əməvilər sülaləsinin ən ədalətlisi idi[1*]. Hakimiyyəti 2 il 5 ay sürən xəlifə II Ömər islam tarixinə mömin, ədalətli və müsəlman qanunvericiliyinin gözəl bilicisi kimi daxil olmuşdur. O, hakimiyyətdə olduğu dövr ərzində, bütün gücü ilə Əməvilərin islam aləminə gətirdikləri daxili parçalanmanın qarşısını almağa cəhd göstərmişdir. Xəlifə II Ömər Həccac ibn Yusifin[2**] vəhşiliklərini mədinələrin yaddaşlarından silmək üçün çox səylər göstərmişdir. O, islam peyğəmbərinin (s.a.s.) məscidini təmir etdirərək sahəsini də böyütdürmüşdü. Məşhur din xadimi və islamın ilk ilahiyyatçılarından olan Həsən əl-Bəsri (642-728) II Ömərin dövründə Bəsrə qazısı təyin edilmişdi. Onun ətrafında qruplaşmış ilahiyyat dərnəyi Bəsrənin və bütün Əməvilər dövlətinin intellektual həyat mərkəzi idi. Bu mömin şəxsiyyətin və şəriət bilicisinin nüfuzu bir çox dini məktəblərin gələcək inkişafına təsir edəcək zəmin yaratmışdı.

II Ömər özünün qısa sürmüş hakimiyyəti dövründə bir sıra vacib işlərə imza atmışdır. Bunlardan bir neçəsini nəzər-diqqətizə çatdıraq: şəraitə uyğun olaraq Konstantinopol üzərindən mühasirənin götürülməsi; əzan vaxtı imam Əlinin ünvanına qarğış deyilməsinin qadağan edilməsi;

[*] Qeyd: Müsəlman tarixçilərinin məlumatına görə, II Ömərin sülalənin ən ədalətli xəlifəsinə çevrilməsinə aşağıdakı hadisə səbəb olmuşdu. Xəlifə Valid ibn Əbdülməlikin dövründə o, 6 il (706-cı ildən 712-ci ilə qədər) Mədinədə canişin vəzifəsində fəaliyyət göstədiyi dövrdə digər Əməvi sülaləsinin nümayəndələri kimi, dəbdəbəli yaşamış, bahalı paltarlar geyinmişdi. Canişin olduğu müddətdə baş vermiş bir hadisə onun mənəvi həyatını tamamilə dəyişdi. Xəlifə Validin əmri ilə Əbu Bəkrin nəticəsi Abdulla ibn Zübeyrin oğlunu cəzalandırarkən o, verilən işgəncələrə dözməyərək ölmüşdü. Cəzaya görə, onu əvvəlcə qamçı ilə döyəndən sonra üzərinə soyuq su töküb, qış vaxtı əlləri-qolları bağlı şəkildə məscidin yanında saxlamışlar. Əbu Bəkrin nəticəsinin ölümü Ömərdə cox ağır təəssürat yaratmışdı. O, vəzifəsindən imtina edir və dövlət xəzinəsindən aldığı maaşı da geri qaytararaq Dəməşqə geri dönür. Hətta sonradan hakimiyyətə gələndə də öz ailə büdcəsini azaldaraq dövlət təminatından imtina edir. Onun gəliri 200 dinarı ötməmişdi.

[**] Həccac ibn Yusif (661-714) - Əməvilər tərəfindən şiə və xaricilərin münaqişələrinin gücləndiyi bir dövrdə ən narahat bölgələrdən birinə - İraqa təyin edilmiş canişin. 692-694-cü illərdə Hicazda, 694-714-cü illərdə İraqda canişin və sərkərdə olmuşdur.Vəzifədə olduğu müddət ərzində qanunlara yazıldığı kimi, yəni hərfiyyən əməl etmiş, sülaləyə olduqca sadiq və zalım bir şəxs olmuşdur. Vəzifədə olduğu 20 illik dövr ərzində qətl etdirdiyi adamların 120 min nəfərdən çox olduğu haqqında məlumatlar var.

Peyğəmbərin (s.a.s) hədislərinin öyrənilməsi prosesinə böyük qayğı və diqqətin göstərilməsi, onların sünnə şəklində formalaşdırılması və s.

Xəlifə II Ömərin təxminən üç ilə yaxın sürən hakimiyyəti nəinki Əməvilər sülaləsi tarixində, hətta ümumiyyətlə müsəlman dövlətçiliyi tarixində müstəsna hadisə idi[1]. Tarixçilərin rəyinə görə, Əməvilər dini icmanı dünyəvi dövlətə çevirmişdilər. II Öməri bəzən beşinci Raşidi xəlifəsi adlandırırdılar[2]. Bu xəlifə haqqında biri digərini inkar edən mülahizələr də yox deyildir. Rəvayətə görə, Ömər diğərlərinə nisbətdə Əməvilərə üstünlük vermir, hətta onların qeyri-qanuni topladıqlarını əllərindən alırdı. Bu isə onların kəskin etirazına səbəb olmuşdu. Xəlifə II Ömər bu hadisədən sonra onları Suriyanı tərk edərək Mədinəyə gedəcəyi və ya hakimiyyəti bir neçə müsəlmandan ibarət şuraya verəcəyi ilə hədələdi. Tarixdə bunun əksinə olan məlumatlar da var. Ət-Təbəriyə görə, II Ömər Misirdə olan Suriya hərbçilərinin hər birinə məvacibdən başqa 10 dinar da əlavə maaş verirdi. O, belə bir faktı da əlavə edir ki, Əməvilər II Ömərin hakimiyyəti illərində xəzinədən 200 dirhəm həcmində yüksək məvacib götürürdülər. Bu zaman Haşimilərdən olan şeyx cəmi 60 dirhəm maaş alırdı.[3] Buna əsaslanan V.V. Bartold belə nəticəyə gəlir ki, Əməvilər sülaləsinin ənənələrini kəsmək xəlifə II Ömərin planına daxil deyildi. Əməvilər sülaləsi xəlifələrindən ən ədalətlisi sayılan bu xəlifə öldürüldükdən sonra haqsızlıqlar daha da artdı.

720-724-cü illərdə hakimiyyət başında olmuş II Yəzid ibn Əbdülməlikin dövründə islam tarixi üçün təqdirəlayiq hadisələr baş verməmişdir. Əksinə, Ömər ibn Əbdüləzizin apardığı islahatların üzərindən xətt çəkilmiş və Əməvilər sülaləsinin süqutunun başlanğıcı olmuşdur. Onun hakimiyyəti dövründə xəzərlərin, qıpçaq və digər türk tayfalarının köməyi ilə yaradılan 30 min nəfərlik ordunun Arrana soxulması Əməvilərin məğlubiyyəti ilə nəticələndi[4]. Bundan qəzəblənən II Yəzid Kür və Araz çayı ərazilərinə Azərbaycan və Ərminiyəyə vali təyin etdiyi Cərrah ibn Abdullanın (722-725) başçılığı ilə böyük bir qoşun göndərir. Vuruşma nəticəsində bu dəfə xəzərlər məğlub olurlar. Cərrah ibn Abdulla fəth edilmiş şəhərlərin əhalisini Arrana, xüsusilə Qəbələyə köçürtdü. Bundan məqsəd çox

---

1 Бартольд В.В. Халиф Омар II и противоречивые известия о его личности. Сочиненияя , т.VI, Москва, «Наука», стр.504.

2 Yenə orada.

3 Bartold. VI c., 1966, s.521.

4 Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Elm", 1965, s.106.

güman ki, köçürülən xəzərlərin islam dinini qəbul etməsi və müsəlman olmayan xəzərlər arasında islamı yayma prosesini sürətləndirmək idi. O, Bələncərdən sonra 40 min türk evi olan Vabandar şəhərini fəth edir və qışlamaq üçün Şəki vilayətinə çəkilir. Onun dövründə bağlanan müqavilə ilə əvvəlki dövrdə bağlanan müqavilənin şərtləri müqayisə olunarsa, axırıncı müqavilədə yerli əhalinin xeyrinə yox, ziyanına olan şərtlərin yer aldığı görünür. Belə ki, Xəlifə II Yəzidin dövründə "Ərminiyə və Azərbaycanda valilik edən Cərrah ibn Abdulla ilə Tiflis əhalisi arasında bağlanan müqaviləyə görə, əvvəlki müqavilənin şərtləri çərçivəsində yerli əhalinin ixtiyarında qalmış torpaqlar, üzümlüklər, dəyirmanlar və s. yenə də onlarda qalır, bununla yanaşı üzümlük və dəyirmanlara görə ildə əlavə 100 dirhəmin ödənilməsi təyin olunurdu"[1]. Əməvi sülaləsindən olan bu xəlifənin dövründə xarici siyasətdə də geriləmə baş verir. Belə ki, II Ömərin hakimiyyətdə olduğu dövrdə Fransanın cənubunda fəth edilmiş bir neçə şəhər fransız hersoqu Akvitanski tərəfindən geri alınır. Əməvilər sülaləsinin 4 il 1 ay hakimiyyətdə olmuş 9-cu xəlifəsi II Yəzid 40 yaşında vəfat edir. Mənbələrin verdiyi məlumata görə, bu xəlifə özündən əvvəlki xəlifənin islahatlarını ləğv edərək Xilafəti fəlakətə sürükləmişdi.

40 yaşında hakimiyyət başına gələn *Xəlifə Hişam*[*] (724-743) Əməvi xəlifələri arasında atası Əbdülməlikdən sonra hakimiyyətinin uzun sürməsinə görə ikinci yeri tuturdu. Onun hakimiyyət illəri Əməvilərin ən ağır dövrünə, yəni Xilafətin bir çox regionlarında kütləvi iğtişaşların baş alıb getdiyi bir dövrə təsadüf edir. Xorasan valisi Aşras ibn Abdullanın qeyri-ərəb müsəlmanlardan cizyə tutulması haqqındakı fərmanı bütün vilayəti ayağa qaldırır. İş o yerə çatır ki, bir-birinə qarşı nifrət hissi bəsləyən farslar və türklər ərəblərə qarşı birləşərək silaha sarılırlar. 728-ci ildən 738-ci ilə qədər, yəni on il davam edən müharibə hər iki tərəfin böyük itkisi bahasına başa gəlir. Xəlifə Hişamın dövründə Xorasan və Mavaraunnəhrə yeni təyin edilən vali Nəsr ibn Səyyar (738-743) Dəməşqdən gələn əmrə tabe olaraq Şərq vilayətlərinin islamlaşdırılması və ərəbiləşdirilməsi siyasətini davam etdirdi. O, müsəlman olmayanları Xorasan inzibatı

[1] Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə. Bakı, "Elm və təhsil", 2016, s.35.
[*] Əməvilər sülaləsinin 10-cu xəlifəsi Hişam ibn Əbdülməlik 724-730-cü illərdə hakimiyyətdə olmuşdur.

idarəetməsindən çıxartdı[1].

Əməvilər dövründə Azərbaycana təyin olunan hakimlərin də qonşu ərazilərdə islamı yaymaq cəhdləri davam edirdi. Xəlifə Hişam tərəfindən 730-cu ildə Azərbaycana yenidən hakim təyin edilən Məsləmə ibn Əbdülməlik 733-cü ildə Dərbənddəki ərəb qəbilələrinin adlarına uyğun olaraq, şəhəri yeddi məhəlləyə böldü və onların hər biri üçün məscidlər tikdirdi[2]. Adları sadalanan məscidlərə (Hadari məscidi, Fələstin məscidi, Dəməşq məscidi, Homs məscidi, Qeysər məscidi, Cəzayir məscidi, Mosul məscidi) nəzər yetirəndə hansı qəbilənin hara yerləşdirildiyini (tarixi mənbələrdən onların köçürülmə səbəbi və məqsədini öyrənmək, keçdikləri ölkə və ərazilər haqqında geniş məlumat almaq olar-N.Ə) görmək olardı. Suriya və Fələstindən gələn ərəblərin çoxluq təşkil etdiyi Dərbənd bir növ şəhər – düşərgəyə çevrilmişdi. Maraqlıdır ki, Əməvilər dövründə qəbilə prinsipi əsasında yerləşdirilən ərəblər arasında artıq iraqlı hərbçilərin, o cümlədən kufəlilərin adları çəkilmir. Ə.Şıxsəidov bunu kufəlilərin Əməvilərə qarşı müxalifətdə olmaları ilə əlaqələndirir[3]. Doğrudan da, ictimai-siyasi hərəkatların artdığı bir dövrdə Əməvi xəlifə və sərkərdələri şiələrin üstünlük təşkil etdikləri Kufə əhlinə ehtiyatla yanaşırdılar. Ona görə də xəlifələr strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən bölgəyə yalnız özlərinə sadiq tayfaların yerləşdirilməsini qənaətbəxş hesab edirdilər.

Dağıstanlı tədqiqatçı əl-Qadariyə görə, Urdun məscidi həm də Xəzər məscidi adlanırdı. Ola bilsin ki, bu məscid ilk olaraq tikilmiş, müsəlmanlığı qəbul etmiş xəzərlər bu məsciddə namaz və digər ayinləri yerinə yetirmişlər. Bunlardan başqa şəhərin mərkəzində Cümə məscidi inşa edilmişdi[4]. Dövrümüzə qədər gəlib çatan həmin məscidin üzərindəki kitabəyə əsasən demək olar ki, məscid h.115/733-734-cü ildə tikilmişdir və Dəməşqdəki Əməvilər məscidi kimi qədim sayılır.

Xəlifə Hişam 6 il sonra Əsəd ibn Zəfəri islam dininin mövqeyini

---

[1] Фильштинский И.М. История Арабов и Халифата (750-1517). Москва, «АСТ», 2006, стр.9.

[2] Dərbəndnamələr. Bakı, “Nurlan”, 2010, s.32-33.

[3] Арабские источники IX-X вв. и вопросы социально-экономического и военно-политического положения раннесредневекового Дагестана// Источниковедение средневекового Дагестана, Махачкала, Типография Дагестанского филиала АН СССР, 1986, стр.17.

[4] Dərbəndnamələr. Bakı, “Nurlan”, 2010, s.33.

gücləndirmək üçün Şirvan və Dərbəndə göndərdi. Daha sonra Azərbaycan, Arran və Ərminiyənin hakimi seçilmiş Səid ibn Əmr əl-Həraşi xəstə olduğuna görə, 735-ci ildə xəzərlərlə mübarizədə xüsusilə fərqlənən Mərvan ibn Məhəmməd ibn Mərvan Azərbaycan hakimi təyin edilmiş və ona xəzərlərə hücum etmək əmri verilmişdi[1].

Xəlifə Hişam dövründə İslamın təbliğində sərkərdələrlə bərabər tərcüməçilərin də böyük rolu olmuşdur. Xəlifə Hişamin Ərdəbilə göndərdiyi sərkərdə Səid ibn Əmr əl-Həraşi[*] daha sonra xəzərlərlə danışıqlarda və kəşfiyyatda xəzər dilində gözəl danışa bilən İbrahim ibn Asim əl-Uqeylinin xidmətindən istifadə etmişdir[2]. Əl-Kufi İbrahimin xəzərcə çox yaxşı danışdığını bildirirdi. Müəllif göstərirdi ki, o xəzər geyimli olduğu üçün özü də onlara oxşayırdı[3].

Şamaxıdakı məscid tikintisini VIII əsrə aid edən bəzi tədqiqatçılar onun xəlifə Validin qardaşı Əbu Müslim (719-755) tərəfindən tikildiyini göstərirlər. Belə ki, 1902-ci ildə Şamaxı zəlzələsinin nəticələrini araşdıran komissiyanın tərkibində çalışan geoloq Şəhqulu Qacar vaxtilə came məscidinin üzərində olmuş kitabə əsasında onun h. 126-cı ildə (miladi 743) inşa edildiyini müəyyənləşdirmişdir[4].

Əməvilər Xilafətinin (661-750) son dövrlərində siyasi və ictimai-iqtisadi həyatda gərgin hallar yaşanmağa başladı və Xəlifə Hişamın dövründə əhalinin iqtisadi vəziyyəti xüsusilə pisləşdi. 725-26-cı illərdə mal-qara sayının aşağı düşməsi və aclığa baxmayaraq, Zaqafqaziya ərazisində, o cümlədən Azərbaycanda əhali və mal-qara siyahıya alındı. Azərbaycan və Arranda vəziyyət o qədər ağırlaşdı ki, torpaqlarını tərk etmiş əhali "suluklara"- torpaqsız kəndlilərə çevrildilər[5]. Bu, özünü icitimai sahədə də göstərirdi. Bir tərəfdən sünni-şiə, digər tərəfdən xaricilər, üçüncü tərəfdən isə

---

[1] Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Бунията. Баку, "Элм", 1981, стр.49.

[*] Səid ibn Əmr əl-Həraşi 721-722-ci illərdə Xorasanda xəlifənin canişini olmuşdur.

[2] Куфи Ахмад ибн Асам. Книга завоеваний..........., 1981, стр.31.

[3] Əbu Məhəmməd Əhməd ibn Ə`səm əl-Kufinin "Kitab əl-Fütuh" əsərindən çıxarışlar//Orta əsr ərəb mənbələrinə aid materiallar. Bakı, "Nurlan", 2005, s.40.

[4] Fətullayev-Fiqarov Ş. Azərbaycanın qədim məscidləri//Azərbaycan, "İrs" jurnalı, 2003, № 14-15, s.49; İbrahimov F.Ə. Dini, xatirə və qəbir abidələri// Azərbaycan arxeologiyası, VI c., Bakı, "Şərq-Qərb", 2008, s.169.

[5] Azərbaycan tarixi. II c. (III-XIII əsrlər). Məsul redaktor: Nailə Vəlixanlı, Bakı, "Elm", 1998

ərəb və məvalilər arasında ziddiyyətlər son dərəcə kəskinləşdi. Məvalidən ibarət qoşun məvacib yox, pul təminatı və hərbi qənimətin bir hissəsini alırdı. Məvalilər, adətən piyada qoşunlarında, ərəblər isə süvari qoşunlarında xidmət edirdilər. Onlar torpaq vergisindən-xəracdan və xərac əvəzinə alınan onda birdən (uşr-1/10) azad edilməmişdilər.Yaxşı təhsil görmüş və varlı adamlardan ibarət nisbətən çoxsaylı və ortabab məvalilər dindarlar arasında böyük hörmətə malik idi. Məsələn, hələ 700-cü ilə qədər məvaliyə hüquqçu peşəsinə yiyələnmək ixtiyarı verilmişdi. Lakin, onların sosial statusu ictimai - iqtisadi həyata etdikləri töhfələrə uyğun gəlmirdi ki, bu da narazılıqların partlayış gücünü artırırdı[1]. Narazılıqların artması, həmin qüvvələrin Xilafətin müxtəlif əyalətlərində, o cümlədən Azərbaycanda Əməvilərə qarşı mübarizə şüarı altında birləşməsinə gətirib çıxardı.

Sonuncu Əməvi xəlifəsi *II Mərvan ibn əl-Hakəmin*[2*] (744-750) adı Azərbaycanla bağlı daha çox yuxarıda da qeyd edildiyi kimi, xaricilərlə əlaqədar çəkilir. Dördüncü Raşidi xəlifəsi Əliyə qarşı üsyan edən xaricilərin üsyanı 661-ci ildən İraqda Əməvi canişini əl-Həccacın amansız təqibləri nəticəsində yatırılsa da, sonradan onlar güc toplayaraq Əməvi rejimini devirməyə cəhd etdilər. Buna görə də II Mərvan xaricilərin dayaq məntəqəsi sayılan Mosul ətrafında onların şiddətli müqavimətlərini qırmaq üçün ora tam bir hərbi ekspedisiya göndərmişdi.

İslamı yaymaq sahəsində də II Mərvan bir sıra işlər görmüşdü. Xəzərləri məğlubiyyətə uğradarkən Xaqandan islamı qəbul etməsini istəmiş, xaqan da ondan islamı ona başa salıb-öyrədəcək adamlar göndərməyi xahiş etmişdi. Əl-Kufinin məlumatına görə, Mərvan tərəfindən göndərilən Nuh ibn əs-Saib əl-Əsədi və Əbdurrahman ibn Fulən əl-Hauləni islamın

[1] Q.E. fon Qrünebaum. Klassık islam (600-1258). Rus dilindən çevirəni Ş.H.Hənifəzadə, müqəddimə Maqsud Fərhadoğlu, ön söz V.V. Naumkin. Bakı, “Azərbaycan Ensiklopediyası”, 1998, s.86.

[*] Qeyd: döyüşlərdə məğlub olmuş bu xəlifə sonradan Abbasilərin təqibindən qaçaraq Misirə pənah gətirmiş, lakin misirlilər tərəfindən asanlıqla ələ keçirilmiş və Abbasilərdən olan yeni hakimiyyət qüvvələrinə verilmişdir. Abbasilər sülələsi hakimiyyətə gələrkən Əməvilər nəslinin 80-dan çox üzvü qətlə yetirilmişdi. Sağ qalanlardan yalnız əmir Əbdürrəhman və bir neçə südəmər körpə Əndəlüsə qaçmaqla canlarını qurtara bilmişdilər. Əbdürrəhman kəlbi qəbilələrinin köməyi ilə orada hakimiyyəti ələ keçirmiş və Əndəlüs bir Əməvi əmirliyi (756-1031) olaraq qorunub saxlanılmışdı (bax: Беляев Е.А. Арабы, ислам и арабский халифат в раннее средневековье. Изд.второе. Москва, «Наука», 1966 г., стр.213).

mahiyyətini xaqana başa salmışlar[1]. Bundan sonra xaqan və onun yaxınları islamı qəbul etmişdilər.

Məhəmməd peyğəmbərin (s.a.s.) Quranın şərtləri əsasında cizyə ödəmək müqabilində "himayə olunan azlıq" və onların dininə hörmət əsasında qurduğu siyasət, bəzi sapmalara baxmayaraq, Əməvilər dövründə də davam etdirilmişdi. Onların mənsub olduqları dini icmalardan hər biri özlərinin dini rəhbərlərinin başçılığı altında daxili muxtariyyətlərini qoruyub saxlayırdılar. Hüquqi problemlərdə, günahkarların cəzalandırılması və s. məsələlərdə əgər müsəlmana aid deyildisə, öz dinlərinə məxsus qanunlara dayanaraq azad fəaliyyət göstərə bilirdilər. Müsəlmanlar və digər dindən olan əhali arasında kifayət qədər yaxşı və dözümlü münasibət hökm sürürdü. Xilafətin vilayətlərində xristian icmaları var idi. Müsəlmanlarla xristian Bizans arasındakı hərbi əməliyyatlar Xilafətin himayəsi altında olan təbəələrin vəziyyətinə təsir etmirdi. Xəlifə Müaviyənin arvadlarından biri (Xəlifə Yəzidin anası) Maysun xristian idi. Dini lider və görkəmli din xadimi olan Yuhanna (675-753) İslam dininin "Üçlüyün" küfr sayılmasına qarşı mübarizə aparması və bir çox açıq müzakirələrdə öz fikirlərini deməsinə baxmayaraq, təqib olunmurdu.Yuhanna əd-Diməşqinin atası Əbdülməlik ibn Mərvanın sarayında xidmət edirdi. Sonradan Yuhannanın özü də Xilafət sarayında xidmət etmişdi[2]. Əbdülməlikin dil siyasəti müsəlman olmayanlara şamil edilmirdi. Hətta xristianlara ərəb dilində danışmaq və uşaqlarını müsəlman məktəblərində oxutmaq qadağan edilmişdi. Buna baxmayaraq, islam əhalinin çox böyük hissəsinin dininə çevrilmiş, hətta əhalinin islamı qəbul etməmiş hissəsi belə, ərəb dilini qəbul etmişdi[3].

Əməvilər digər dindən olanlara – xristian və yəhudilərə hörmətlə yanaşırdılar. Bunu qeyd etmək kifayətdir ki, Xəlifə Müaviyənin (661- 680) dəftərxanasına yəhudi rəhbərlik edirdi. Yəhudilərin aralarında müəyyən problem yaranarkən xəlifəyə müraciət edər, xəlifələr də münsif rolunda məsələnin həllinə çalışardılar[4].

[1] Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981, стр.52.

[2] https://ru.wikipedia.org/wiki/Иоанн_Дамаскин

[3] Бартольд В.В. Начало Халифата и арабской культуры. Сочинения, т. VI, Москва, «Наука», 1966, стр.156.

[4] Большаков О.Г. История Халифата. т.III, Москва, "Наука», 1998 г., стр.115–117.

Artıq Əməvilərin son dövrlərində cəmiyyətdəki ayrı-seçkilik daha kəskin şəkil almışdı. Daxili çəkişmələr dini təfriqəçilik və ictimai parçalanma kimi proseslər əsasında baş verirdi. İraqdan çıxan və özlərinin missionerlik fəaliyyətlərini Şimali Afrikada davam və inkişaf etdirən xaricilərin Ərəbistanda olduğu kimi, İranda və Azərbaycanda da ardıcılları vardı. Peyğəmbərin (s.a.s.) nəslindən olan ədalətli imamın hakimiyyətə gəlməsinə dəstək verən şiələr də müxalif hərəkat kimi, hakim idarəyə real təhlükə idi. İran və Azərbaycandan olan məvlalar bu cərəyanın söykəndiyi əsas dayaq idi.

Əməviləri onların dövründə böyük qüvvəyə çevrilmiş xaricilər və onlarla bərabər şiə çıxışları daha çox narahat edirdi. Bəzi tədqiqatçılar Əməvilərin süqutu və Abbasilərin hakimiyyətə gətirilməsi ideyasının başında duran dəstə, qrup və təriqətlər halında mübarizə aparan quvvələr arasında daha böyük qüvvə kimi, qeyri-ərəb əsilli məvaliləri görürlər. Hər halda Əməvilərin hakimiyyətinin süqutu və Abbasilərin hakimiyyətə gəlməsində hər üç qrupun - xarici, şiə və məvalilərin rollarını inkar etmək olmaz.

Beləliklə, Raşidi xəlifələr dövründə olduğu kimi, Əməvilərin də dövlət siyasətinin əsasını İslamı yaymaq və yerlərdə möhkəmlənmək təşkil edirdi. Yerli hakimlərlə qohum olmaq, məscid və ya mədrəsələr tikdirmək, vergi toplamaq işi isə bu vəzifənin yerinə yetirilməsi üçün bir vasitə olmuşdur.

## 2.4. Abbasilər dövrü (VIII-IX əsrlər)

90 illik hakimiyyətdən sonra süqut edən Əməvilər sülaləsinin yerinə Abbasilər sülaləsi keçdi. Hakimiyyəti 508 illik bir dövrü əhatə edən Abbasilər sülaləsi İslam tarixində ən uzunömürlü sülalə (750-1258) sayılır[1*].

Xilafətin Məhəmməd peyğəmbərdən (s.a.s.) başlayaraq davam edən islamı yaymaq strategiyası, Abbasilər dövründə də davam etmişdir. Əməvilər dövründən başlayan ərəb qəbilə və tayfalarının Azərbaycana köçürülməsi siyasəti islamın yayılması ilə paralel gedirdi. Lakin, Əməvilər dövrüdə gedən bu proses Abbasilər dövrünə nisbətən daha ləng addımlarla gedirdi. Əməvilər dövründə başlanan əlifba islahatı ərəblərin "imtiyazlı xalq" statusunda olduğu həmin dövrdə islamlaşma sahəsinə kifayət qədər təsir göstərə bilməmişdi. Bu səbəbdən islamlaşma yavaş addımlarla

irəliləyirdi. Abbasilərin hakimiyyətə gəlməsi ilə müsəlmanlar öz ictimai mövqeyinə görə hüquqi cəhətdən bərabərləşdi, islamlaşma və ərəb dili intensiv olaraq yayılmağa başladı.

Əməvilər sülaləsinin süqutundan sonra hakimiyyətə gəlmiş Əbülabbas əs-Səffah (h.132-136/749-754) Abbasilər sülaləsinin ilk xəlifəsi seçildi. Əbülabbasın came məscidində proqram nitqini söyləməsi 28 noyabr 749 - cu ildə baş tutdu. Ona beyət də həmin gün olmuşdur. Sülələnin hakimiyyətə gəlməsini həmin tarixdən hesab etmək olardı, lakin II Mərvan hələ yarım il Xilafətin qərb hissəsini idarə edərək qalırdı (bax:İslam. Энциклопедический словарь. Москва, «Наука», 1991, стр.5). Yeni sülalənin xəlifələri arxalandıqları cənub qəbilələrini bu ərazilərə köçürməklə son Əməvi xəlifələrinin şimaldakı dayağı olan ərəbləri sıxışdırıb çıxardılar. Yeni sülalənin numayəndələri Arranda məskunlaşmış şimal ərəbləri tərəfindən düşməncəsinə qarşılandı, Beyləqan, Bərdə, Qəbələ, Dərbənd və digər yerlərdə Abbasilərin nümayəndələrinə güclü müqavimət göstərildi. Nəticədə, Təbrizdə Rəvvadilər, Məyanicdə Həmdanilər, Bərdədə Avdilər, Nərizdə Taylar, Səravda Kindilər yerləşdirildi.

Xəlifə Əbülabbas əs-Səffahın əl-Cəzirə, Mosul, əs-Suğur, Ərminiyə və Azərbaycana hakim göndərdiyi qardaşı Əbu Cəfər öz növbəsində Ərminiyəyə Yəzid ibn Usayd əs-Suləmini, Azərbaycana isə Yəzid ibn Hatim əl Mühəllibini vali təyin edir. Əl-Yəqubinin məlumatına görə, əl-Mühəllibi Bəsrədə olan yəmənli tayfaları Azərbaycana elə yerləşdirdi ki, bu vilayətdə nizarilərdən yalnız əs-Səffar ibn əl-Leys əl-Utbi və onun əmisi oğlu əl-Bais ibn Xəlbəs qaldı.

Qeyd etmək yerinə düşər ki, bu elə bir vaxt idi ki, icma torpaqlarının hüquqi statusunun ciddi dəyişikliyə uğraması, yəni icma üzvü olan kəndlinin mülkiyyətini zəbtetmə, satınalma və hədiyyəolunma kimi yollarla ələ keçirmə həmin mülkiyyətin məzmununda əsaslı dəyişiklik edirdi: icma üzvlərinin-kəndlilərin özlərinə məxsus torpaqlara olan mülkiyyət hüququ onların əməyinə əsaslanan və müəyyən asılılıqlara malik təsərrüfatın başlıca təməli olmaqdan çıxır, xüsusi torpaq sahibinin mülkiyyətinə çevrilir və özgə əməyindən istifadəyə əsaslanan feodal təsərrüfatının təməli qoyulurdu[1]. Bu hadisələr VIII əsrin ortalarına aiddir və həmin

---

[1] İsmayılov R.İ. VII-IX əsrlərdə Misirin siyasi və sosial-iqtisadi durumu. Doktorluq dissertasiyası. Bakı, s.169.

* İqta - feodalizm dövründə əsasən müsəlman ölkələrində yayılmış şərti torpaq mülkiyyəti. İqta mülkdən fərqli olaraq, irsən keçmirdi, ancaq xidmət müddətinə verilirdi.

dövrə aid mənbələrdə, vergi və dövlət sənədlərində, fərmanlarda əksini tapan məlumatlara görə, əldə olunan məhsuldan torpağın mülkiyyətçisinə çatacaq payın dəyəri çox vaxt kəndlidən alınan xəraca bərabər olurdu. Bunun da haqlı narazılığın artmasına səbəb olduğu qəbul edilə bilər.

Abbasilər dövründə Əməvilərin mülklərinin alınıb yəmənli təyfaları ilə bərabər xəlifələrin qohumlarına verilməsi halları var idi. Məsələn, Əməvilərin Marağada olan bütün mülkləri ərazilərilə birlikdə əllərindən alınıb Harun ər-Rəşidin qızlarının mülkiyyətinə çevrilmişdi. Hansısa bir ölkənin bütövlüklə iqta* olaraq kiməsə verilməsinin əsası elə Harun ər-Rəşid tərəfindən qoyulmuşdur. İlk dəfə o, İfriqiyəni (indiki Liviya və Tunis ərazisi) Əğləbilərə vermişdi. Misirdə isə ölkə yalnız xidmətə görə və müvəqqəti iqta şəklində verilmişdi. Eyni halı Azərbaycan da yaşamışdı. Xəlifə Mötəsimin Azərbaycan, Arran və Ərminiyəni Afşinə, xəlifə əl-Mütəvəkkilin isə Bab əl-Əbvab şəhərini və ətraf vilayətləri ilə birlikdə iqta olaraq Məhəmməd ibn Məzyədə verməsi faktları məlumdur[1].

Abbasilər dövründə Azərbaycanda yerləşdirilmiş şimal və cənub ərəb qəbilələri arasında münaqişələr də güclənmişdi. Yəzid ibn Məzyəd Azərbaycan və Arrana ikinci dəfə vali təyin edildiyi dövrdə (799-801) şimal tayfaları nizarilərlə yəmənli rəbiə tayfalarını bərabərləşdirdi. Bu siyasət, ölkə daxilində əmin-amanlığı bərpa etməyə yönəlmişdi. Harun ər-Rəşidin bu siyasəti ərəb qəbilələri arasında əmin-amanlıq yaratmasına baxmayaraq, yerli feodalların, o cümlədən Xürrəmilər hərəkatının qarşısını ala bilməmişdi. Harun ər-Rəşid dövründə başlanmış və əl-Məmun dövründə ən yüksək zirvəsinə çatmış Xürrəmilər hərəkatı, eləcə də bir çox ərazilərin Xilafət tərkibindən çıxması, ərəb tayfalarının Qafqaza köçürülməsinə təsir etdi və nəhayət, onu tamamilə dayandırdı[2].

Xilafətin elə şəhərləri olmuşdur ki, o şəhərlərin strateji mövqeyinin vacibliyi ön plana çəkilərək ora təyin olunacaq valilərin hüquqları azaldılırdı. Əl-Bəlazuri yazırdı ki, xəlifənin təyin etdiyi bir canişini o yalnız şəhər sakinlərinə pul və hədiyyələr payladıqdan sonra şəhərə buraxa bilərdi. "Dərbəndnamə"nin versiyasına görə xəlifə Harun ər-Rəşid Dərbənd sakinlərinə, hakimiyyətindən sui-istifadə edən hakimi qovmağa icazə verirdi[3].

[1] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1965, s.128 -129.
[2] Azərbaycan tarixi. II c. Bakı, "Elm", 1998, s.185.
[3] Кудрявцев А.А. Древний Дербенд. Москва, «Наука», 1982, стр.156.

Xəzərlər müsəlman ordusunu geri çəkilməyə məcbur edən zaman, *xəlifə Mənsurun* (136-58/754-75) vaxtında bu bölgəyə əlavə olaraq 7000 ərəb gətirilmişdir. Onları müşayiət edən işçi qüvvəsi bu ərəblər üçün 3 yaşayış məntəqəsi (Kamax, Məhəmmədiyyə və Bab-Vak) salmışlar[1]. Bu məlumatda iki fakt diqqəti cəlb edir. Birincisi, təqribən 10-15 il ərzində 24000 nəfərə əlavə olaraq 7000-də əlavə edilir. Bu rəqəmin üstünə onlar üçün evlər tikən işçi qüvvələrini də əlavə etsək böyük bir rəqəm alınır. Qeyd etmək lazımdır ki, Kamax, Məhəmmədiyyə və Bab - Vakda yaşayan ərəblər hələ XX əsrin əvvəllərində ərəb dilində danışırdılar. Bu onu göstərir ki, buraya köçürülmüş ərəblər həmin yerlərdə qalaraq öz adət-ənənələri və dillərini saxlamışdılar. “Dərbəndnamə” əsərinin məlumatına görə, Məsləmə Dərbəndə köçürülənləri mənşəyinə görə təsnif edərək onları hər birində məscid olan yeddi məhəllədə yerləşdiridi və bu məscidləri bura köçənlərin şərəfinə Fələstin, Dəməşq, Homs, əl-Cəzair adlandırdı[2].

Xəlifə əl-Mənsurun (136-58/754-75) Arrana vali təyin etdiyi Yəzid ibn Usayd ibn Zafir əs-Suləmi İraqdan gələrək Bərdə şəhərində qərarlaşdı. Ərəb mənbələrinin araşdırılması nəticəsində əldə edilən məlumatlar belə qənaətə gəlməyə əsas verir ki, bölgəyə təyin edilən valilərin əsas tapşırıqlarından biri yerli əhalinin, həmçinin ətraf bölgələrin islamlaşdırılması və dinin yerlərdə bərqərar olmasıydısa, digər tapşırıqları həm ərəblərin bu ərazilərdə məskunlaşdırılması, həm də hakimiyyətin dayaq nöqtələrinin möhkəmləndirilməsi idi. Xilafətin Azərbaycana uyğuladığı ərəbləşdirmə-islamlaşdırma siyasətinin yerlərdə həyata keçirilməsinə xüsusi canfəşanlıqla yanaşan valilər olmuşdur ki, onlardan biri də xəlifə əl-Mənsurun bu bölgəyə vali göndərdiyi Yəzid ibn Usayd ibn Zafir əs-Suləmidir. Müsəlman ərəblərin Arran ərazisinə ən çox yerləşdirildiyi dövr onun bölgə hakimi olduğu dövrə təsadüf edir. Onun valiliyi dövründə burada nəinki İraq, Suriya, əl-Cəzirə, hətta Fələstindən olan müsəlmanlar da yerləşdirilmişdi. Məhz bu valinin fəaliyyəti sayəsində xeyli müsəlman ərəb bu torpaqda məskunlaşdı. Xəlifə əl-Mənsur Yəzid ibn Usayda yazdığı məktubunda Arranda əmin-amanlığın bərpası naminə xəzərlərlə qohumluq əlaqəsinə girməsini məsləhət görürdü. Əl-Kufinin məlumatına görə, Yəzidin evləndiyi Xəzər xaqanının qızı Bərdəyə daxil olmazdan

---

1 اليعقوبى.تاريج. الجلد الثانى ص.٤٤٦

2 Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. Москва, «Восточная литература», 1963 г., стр.124-125.

əvvəl Bərdə qapıları yaxınlığında əl-Kəbbab adlı yerdə dayanaraq Yəzidin ona Quranı oxuyub şərh etmək üçün müsəlman qadınlarından yanına göndərməsini söylədi. Yəzid Bərdədən ona bir neçə qadın göndərdi[1]. Bu, Bərdədə xəlifə əl-Mənsurun vaxtında kişilərlə bərabər qadınlar arasında da Quran bilicilərinin olduğunu göstərir. Yəzid ibn Usaydın arvadının islamı qəbul edib-etməməsi haqqında məlumatımız olmasa da, hər-halda, əl-Xəraşinin hücumunu təfərrüatı ilə əks etdirən əl-Kufi Bərdəyə qonşu olan digər şəhərlərlə müqayisədə burada yaşayan müsəlmanların adını çəkməsi və əl-Xəraşinin gəlişindən onların sevindiklərini xəbər verməsi burada müsəlmanların çoxluq təşkil etməsinə dəlalət edir. XIX əsr tarixçisi əl-Qadari "Dərbəndnamə" əsərinə əsaslanaraq, bu vilayətdə ərəblər yaşayan bir neçə kəndin adını çəkir. O, Dərbəndə gələrək bu şəhərin kənarında məskunlaşmış ərəblərin adını daşıyan "Ərəblər" kəndi ilə bərabər Qubada, Şirvanda, Şəkidə də ərəblərin adını daşıyan kəndlər olduğunu qeyd edir. Onun məlumatına görə, Axtı nahiyəsində adı təhrif olunmuş Quruş kəndi Qüreyş qəbiləsinin adından götürülmüşdür. Burada vaxtilə ərəblər məskunlaşmışlar. O göstərir ki, hətta "Dərvaq" camaatının da ataları ərəb olublar. "Şirvan və əl-Babın tarixi" əsərinin müəllifi bu siyahıya Dərbənddən 20 km uzaqda yerləşən Kamax kəndini də əlavə edir[2]. S.B. Aşurbəyliyə görə, Quba toponimi Azərbaycanın istilasından sonra Mədinə yaxınlığındakı Quba şəhərindən köçmüş ərəb tayfalarının VII əsrdə özləri ilə gətirdikləri eyni adlı toponimlər sırasına daxildir[3]. Sara xanım bunun təsdiqi üçün Zeynalabdin Şirvaninin aşağıdakı məlumatına müraciət edir: "Qədimdə ərəb tayfalarından biri Qubaya köçərək burada məskən salmışdır"[4]. Əlavə olaraq qeyd etmək lazımdır ki, bu ad sonralar dəyişməmişdir. XIII əsr coğrafiyaşünası və səyyah Yaqut əl-Həməvinin Quba deyil, Feyruzqubad haqqında qeydləri[5], XIV əsr müəllifi Həmdullah Qəzvininin isə bu yerin Firuzabad da adlandırıldıgını, buranın yaxşı

[1] Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981, стр.63.

[2] Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981, стр.125.

[3] Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı, "Azərnəşr", 1997, s. 120.

[4] Керемов Н.С. Путещественник и географ Зейналабдин Ширвани. Баку, 1958, стр. 50.

[5] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu", 1999, s.176.




*Xilafət. Kitab xəzinəsi*

iqlimi və gözəl yerləri barədə məlumatı hələ XIV əsrdə belə səhərin adının dəyişmədiyini göstərir[1].

Abbasilər dövrü həm də daha çox müsəlman maarifçiliyi ilə yaddaşlarda qalmışdır. Müsəlmanlar bütün dünyada ilk dəfə, məhz bu zaman mədəniyyət təmsilçiləri sayılmışlar. Əbülabbas (750-754) islam aləmini yeni paytaxt seçdiyi Bağdaddan idarə etməyə başladı. Bununla da Xiləfətin elmi - əqli həyatı Suriyadan şərqə - İraq və İrana keçdi. Abbasilərin hakimiyyəti altında Sasani İranının əvvəlki zəngin mədəniyyəti dirçəlməyə başladı. Azərbaycan şəhərləri də bu mədəniyyətdən kənarda qalmamış, onun yaradıcısı və iştirakçıısına çevrilmişlər. IX əsrin birinci yarısına qədər Xilafətin çanişinlik mərkəzlərindən biri kimi fəaliyyət göstərən Bərdə 752-ci ildən etibarən Cənubi Qafqazın inzibati idarəetmə mərkəzinə çevrilmişdi. Şəhər Abbasilərin hakimiyyətinin ilk illərindən qonşu ölkələrə hücum edən və separatçı ərəb hakimlərinə qarşı cəza dəstələri göndərə bilən dayaq məntəqəsi rolunu da oynamışdır[2]. Bununla bərabər "Arranın anası" adlanan Bərdənin həm də Xilafətin mədəniyyət mərkəzlərindən biri kimi çəkisi artmışdı.

Abbasi xəlifəsi əl-Mənsur mədəniyyət sahəsinin inkişafında əhəmiyyətli rol oynamışdır. Müsəlman dünyasının ilk paytaxtı olan Dəməşqdə tərcümə işinin nizama salınması üçün "Tərcümə evinin" yaradılması Əməvi Xəlifələrindən Mərvan ibn əl-Hakəm (684-685) və Ömər ibn Əbdüləzizə (717-720) nəsib olsa da, daha sonra Abbasi Xəlifəsi Mənsur bu işin davamçısı kimi tərcümə işini daha yüksək səviyyəyə qaldıra bilmişdi. Əlbəttə, o dövrdə Xilafət ərazisində ərəb (kitab...) və fars (...xanə) "kitabxana" termini

[1] Хамдаллах Казвини. Нузхат ал-кулуб (Материалы по Азербайджану). Баку, «Элм», 1983, стр.54.

[2] Əl-Yaqubi. Tarix. II c., s.588-589; Саидов З.А. Выходцы из Берда в среде ученых Багдада и других культурных центров Халифата в IX –X веках// Изв.АН Аз.ССР, Серия истории, философии и права, Баку, «Елм», 1990, № 1, стр.116.

deyil, "xəzinət əl-kutub" ("kitab xəzinəsi") və ya "kitab iqamətgahı" anlayışlarından istifadə olunurdu. Bəzi mənbələrdə[1] qeyd olunur ki, bura dünyanın müxtəlif ölkələrində işıq üzü görən əsərlərin surətləri gətirilir, əvəzində həmin ölkələrə dini ədəbiyyat göndərilirdi. Ərəb xilafətinin bu kitabxanası əvvəlcə arxivlə birlikdə, sonralar isə müstəqil şəkildə fəaliyyət göstərmişdir. Kitabxana VIII əsrdə Ərəb xilafətinin yeni paytaxtı Bağdada köçürülmüş, Xəlifə əl-Mənsur Bizans imperatorundan bu kitabxana üçün riyaziyyata aid əlyazmalar göndərməyi xahiş etmişdi. Müəlliflərə görə, bu xahiş təmənnasız olmuşdur[2]. Xəlifə əl-Mənsurun xahişi mübadilə əsasında həyata keçirilmişdir[3].

Abbasilər dövründə dini proseslər daha qabarıq şəkildə özünü biruzə verməyə başlayır. 776/777-ci ildə Xorasanda "əl-Bərm" ləqəbli İbrahim adlı xarici tərəfindən böyük və ciddi bir üsyan qaldırıldı. Üsyan *xəlifə əl-Mehdinin* (775-785) özünə qarşı yönəlmişdi. Buna səbəb, xəlifənin həyat və davranış tərzinin xaricilərin təbliğ etdikləri və ideal saydıqları dini əxlaq normalarına uyğun gəlməməsi idi. Bu üsyan yatırılmış və onun yatırılmasında qoşun başçısı Yəzid ibn Məzyədin böyük rolu olmuşdur[4]. Maraqlıdır ki, üsyanın başlamasında da, yatırılmasında da dini pərdədən istifadə edilmişdir. Şair Əbülvalid Müslim üsyanı yatıran Yəzidə həsr etdiyi qəsidədə deyirdi: "...Salamat ol, Yəzid, nə qədər ki, sən sağsan, din və dövlət (hökümət) heç bir zərər görməyəcəkdir... Səhər sən Yusif əl-Bərmənin qoşunlarını öz gümrah ölüm saçan qoşunlarınla qarşıladın..."[5]

Abbasi xəlifələri bəzən ictimai fikri formalaşdırmaq üçün nüfuzlu şəxsləri öz tərəflərinə çəkir, bu məqsədlə istifadə etdikləri məşhur şairlərə qeyri-adi səxavətlə mükafatlar verirdilər. *Xəlifə Musa əl-Hadi (785-786)* Harun ər-Rəşidə deyil, varis kimi oğlu Cəfərə biət edilməsi üçün bu üsuldan istifadə etmişdi. Belə işlərdə səriştəsi olmayan Yəzid ibn Məzyədin ilk

---

[1] Josef W.M., Jere L.B. Mediavel Islamic Civilzation. An Encyclopedia: (Volume II). New-York, Taylor and Francis, 2006, 878 pp.450.

[2] Yenə orada, s.453.

[3] Суворова В.М. Международный документообмен: возникновение, становление, современное состояние и проблемы. Автореф. диссертации канд.пед.наук. Моск.гос.университет культуры и искусства, Москва, 1997, стр22.

[4] Жузе П.К. Мазядиты-шейбаниты в Азербайджане (Историко-биографический очерк). АИИ № 647, стр.12.

[5] Yenə orada, стр.13.

və sonuncu dəfə belə təfriqələrdə iştirakı ona heç də ürəkaçan nəticələr vermədi. Cəmi 1 il hakimiyyətdə olan əl-Mehdinin oğlu Xəlifə əl-Hadi (785) qəflətən vəfat etmiş, hakimiyyətə gələn Harun ər-Rəşid 1 ildən sonra YəzidiƏrminiyədə tutduğu vəzifədən geri çağırmışdı[1]. Xəlifə əl-Hadinin şəhərsalma işində rolunu isə xüsusi qeyd etmək lazımdır. Tədqiqatçı alim, memar Cəfər Qiyasi onun qədim şəhərin yanında yeni Qəzvin şəhərini tikdiyini göstərir[2].

Xəlifə Hadinin dövrü həm də ziyalılar arasında məzhəblərin yaranması və yayılması prosesilə bağlı bir sıra faktların ortaya çıxdığı bir dövr idi. Sözügedən prosesi təsdiq edən dini polemikaların sayı artır, dini mövzuda yazılmış əsərlər digər əsərləri həm sayca, həm də keyfiyyətcə üstələyirdi. Buna səbəb, həyatın və elmin müxtəlif sahələrinə mərkəzi hakimiyyətin himayəsinin dayanması, dini rəhbərlərin (bura ayrı-ayrı təfriqəçiləri, xariciləri və din pərdəsilə maskalanan digər məqsədli təşkilat və şəxsləri də əlavə etmək olar-N.Ə.) də fürsətdən istifadə edərək öz işlərini sürətləndirmələri idi.

İslam dininin Azərbaycanda yayılması və tədricən inkişafın düşüncələrə hakim kəsilməsinin bariz təzahürünü ölkəmizin ərazisində, onun mənəvi-mədəni mühitində mühüm mövqe tutmuş müsəlman dini cərəyanlarının fəaliyyətində görmək olar. Orta əsrlərdə yazıb-yaratmış "fars, türk və urdu poeziyası nümayəndələrinin əsərlərində elə bir sətir tapmaq olmaz ki, orada həmin sətir bu və ya digər dərəcədə müsəlman mədəniyyətinin dini əsasını əks etdirməsin"[3].

Orta əsrlərdə bəşəryyətin elm və mədəniyyət tarixi müxtəlif aspektlərdə inkişaf etmişdir. Xristian ölkələrində elm və mədəniyyətin inkişafinda hər cür təfəkkürün əsasını "kilsə ehkamı" təşkil edirdi. Məlumdur ki, "mömin müsəlman nə günahsız məbəd başçısını, nə də ümumdünya kilsə məclisini tanımırdı[4]. Bunun nəticəsi idi ki, orada yalnız dini mistika və sxolastika yayılmışdı. Şərqdə isə vəziyyət başqa idi. Xilafətin əksər dövrlərində,

---

[1] Жузе П.К. Мазядиты-шейбаниты в Азербайджане (Историко-биографический очерк). АИИ № 647, стр.12

[2] Cəfər Qiyasi. Nizami dövrü memarlıq abidələri.Вакı, "İşıq", 1991, s.10.

[3] Шиммель Аннемари. Мир исламского мистицизма. Москва, «Алетейа», 2000, стр. 225.

[4] Бартольд В.В. Ислам. Сочинения, т. VI . Москва, «Восточная литература», 1966, стр.112.

xüsusilə Raşidi xəlifələr, Ömər ibn Əbdüləziz, ər-Rəşid, əl-Məmun və digərlərinin dövrlərində qanunların başında hakimiyyətin əsası kimi, islami dəyərlərdən olan ədalət dururdu. Bu prinsip ailədə, ictimaiyyət və dövlətdə əsas hökm kimi qəbul edilirdi.

Dini ehkamların şərh olunması və inkişaf etdirilməsinin xəlifə, hökümət və dini müəssisələr deyil, dini elmlər sahəsində səriştəsi olan ayrı-ayrı şəxslər və ilahiyyatçılar tərəfindən aparılması islamın spesifik xüsusiyyətlərindən idi. Yeni dinin əsasını qoyan Məhəmməd peyğəmbərin (s.a.s.) ölümündən bir neçə onillik sonra islam aləmində bir neçə iri dini-siyasi qruplaşma meydana gəldi. Bu qruplaşmalar da öz növbəsində bir neçə məktəb, cərəyan və icmalara bölündü. Artıq VIII əsrdə ən azı beş belə qruplaşma var idi: əhl əs-sünnə (sünnə əhli), şiələr, xaricilər, mürcilər[*] və mötəzililər[**].

Abbasilərin qələbəsi islamın müxalif dini-şiyasi cərəyanları - bir tərəfdən şiə və xaricilik, digər tərəfdən ortodoksal sünni islamı arasında səd qoyulmasına səbəb oldu. Dini cərəyanlar arasında səddin səbəbi Abbasilərin qələbəsi ilə əlaqələndirilir[1]. Nəticədə sünni islamı Xilafət feodal dövlətinin ideologiya formasına çevrildi[2]. Digər tərəfdən, Əməvilər xilafəti kimi teokratik dövlət olması ilə yanaşı, Abbasilər öz hakimiyyətinə xarici teokratiya formalı çalarlar da qatırdılar. Onlar öz ətraflarına Abbasi xəlifələrini müctəhid hərəkatının (dinin nüfuzlu şəxsləri) başçısı kimi

[*] Mürcilər (əl-mürciə) - VII əsrin ikinci yarısında Dəməşqdə təşəkkül tapmış firqənin nümayəndələri. Onların əqidə sisteminə xristian ilahiyyatçılarının, xüsusilə Yuhənnə Diməşqinin təsiri duyulur. Mürciilər öz adlarını ərəb "əl-irca" sözündən götürmüşlər ki, bu da "təxirə salmaq" mənasındadır. Onlar deyirdilər ki, bu dünyada asilik edən müsəlman barəsində hökm çıxarılması qiyamət gününədək təxirə salınıb, odur ki, müsəlman necə günah etmiş olsa da, kimliyindən asılı olmayaraq onu pisləmək, küfrdə günahlandırmaq düzgün deyildir. Onun aqibəti barədə qəti hökmü yalnız Allah verəcəkdir (bu barədə daha geniş bax: Əliyev R.Y. İslam. Bakı,"İrşad", 2000, s.336-338).

[**] Mötəzililər – Mötəzili cərəyanının tərəfdarları. İslam dinində rasionalizm istiqamətli ilk teoloji sistem. Mötəzilə məzhəbinin yaranmasının əsas səbəblərindən biri, islam dünyasında zaman-zaman meydana çıxan əqidə ixtilafları və siyasi ixtilaflardır (bu barədə daha geniş bax: Bünyadov Z.M. Dinlər, təriqətlər, məzhəblər. Bakı, "Azərbaycan", 1991, s.160-164).

[1] Петрушевский И.П. Ислам в Иране в VII-XV веках. Ленинград, «Ленинградский Университет», 1966, стр.60.

[2] Yenə orada.

qəbul edən ruhani - qanunvericiləri - fəqihləri cəm edirdilər[1]. Bu da Xilafətin mərkəzi olan Bağdada çoxsaylı elm adamlarının toplanması səbəblərindən biri idi. Abbasi xəlifələrindən əl-Mənsur, Harun ər-Rəşid və əl-Məmunun milliyyəti və dinindən asılı olmayaraq göstərdikləri maddi-mənəvi himayədarlıq bir çox alimin, musiqiçi və sənətkarların ucqarlardan mərkəzə köçmələrinə səbəb oldu. Mərkəzə axın, tərcümə bürolarının, musiqi, rəqs, elm-sənətkarlıq məktəblərinin açılmasına, gələcəkdə isə digər şəhərlərdə birgə icma və kitabxanaların yaranmasına gətirib çıxartdı.

*Xəlifə Harun ər-Rəşid* (786-809). Bəzi tədqiqatçıların (Y.A. Belyayev və b.) fərqli mövqe tutmasına baxmayaraq, əksər tədqiqatçılar Harun ər-Rəşidin hakimiyyət illərini Abbasilər xilafəti tarixində ən parlaq dövr, ən gözəl günlər adlandırırlar. Bu, Xilafətdə tikinti-quruculuq işlərinin aparılması, iqtisadi-mədəni həyatın nisbətən dirçəlməsi ilə əlaqədar olmuşdur. Belə ki, təkcə h.170/786-cı ildə Harun ər-Rəşidin əvvəlcə Ceyhun ibn Nəcmi, sonra Rəbiə əl-Bəhilini, 173/789-cu ildə isə Həzimət ibn Cazibini 1000 adamla Dərbənd ətrafına göndərməkdə məqsədi, Dərbənddə abadlıq işlərinin aparılması olmuşdur[2].

İslamda xəstəxanaların açıldığı ilk dövr də Abbasilər mərhələsində başlayır. Harun ər-Rəşidin əmri ilə Cundişapurdakı tibb məktəbindən Bağdada çağrılan həkim Cəbrail (Cibril) Bahtişua Bağdadda bir xəstəxana təsis etmişdi[3]. Harun ər-Rəşidin vəziri olan Bərməkilərin də Bağdadda bir xəstəxana təsis etdikləri bildirilir. Yüksək mövqe sahibi olan türk əsilli sərkərdə və dövlət xadimlərinin də xəstəxana təsis etmələri haqqında qaynaqlarda məlumat var. Misirə vali olaraq təyin edilən və orada müstəqil dövlət quran türk əsilli Əhməd ibn Tulun 872-874-cü illər arasında bu gün də mövcud olan "İbn Tulun Camesi", iki hamam və bir xəstəxana təsis etmişdi. Əl-Makrizinin bildirdiyinə görə, bu xəstəxanada ayrıca ağıl xəstələri üçün də şöbə mövcud idi[4]. Tibbin nəzəri və təcrübi sahələrində fəaliyyət göstərən əsas heyət suriyalı nestorianlar, yəhudilər, parslar və az

---

[1] Петрушевский И.П. Ислам в Иране в VII-XV веках. Ленинград, «Ленинградский Университет», 1966, стр.60.

[2] əl-Qədari. Asaru Dağıstan. 1902, s.41.

[3] İbn əl-Qifti.Tarix əl-hukəma. Leypziq, 1903, s.383-384. İbn ən-Nədim. Kitab əl-Fihrist, Qahirə, 1348, s.303.

[4] Terzioğlu Arslan. Selcuklu hastaneleri ve Avrupa kültürüne tesirleri. Ankara, "Türk tarih kurumu", 1972, s.56.

sayda yunanlar idi. Ərəblərin özləri isə tibb elmində iştirak etmirdilər.

Ərəblərin Azərbaycana köçü Xəlifə Abbasdan sonra xəlifə ər-Rəşid tərəfindən davam etdirilmişdir. O, Yəzid ibn Məzyəd əş-Şeybanini Azərbaycan, Ərminiyə və Bab əl-Əbvaba vali təyin etdi. O da öz növbəsində rabii qəbiləsinin nümayəndələrini bölgəyə yerləşdirdi. Beləliklə, o, nizarilərlə yəmənlilərin güc, qüvvə və say nisbətini bərabərləşdirdi. Əl-Yəqubiyə görə hazırda oradakı rabiilər ərəb əhalisinin əsas hissəsini təşkil edir[1].

23 yaşında hakimiyyətə gələn Xəlifə ər-Rəşid çox aktiv həyat tərzi keçirirdi. O, digərlərindən fərqli olaraq həyatını keyf və əyləncələrə həsr etməmişdi. Bizansla müharibə apararkən qoşuna şəxsən sərkərdəlik etmişdi. Ərazisinin kiçilməsinə baxmayaraq, onun hakimiyyəti dövründə Abbasilər dövlətinin cah-cəlalı, şöhrəti, mədəniyyəti, ölkədəki bolluq zirvəyə çatmışdı. Paytaxt şəhəri Bağdad dünyanın ən zəngin şəhərlərindən idi. Şəhər bolluq və cah-cəlalla yalnız ondan geri qalan İsgəndəriyyə ilə müqayisə oluna bilərdi. Müsəlmanlar sənaye, ticarət, sənətkarlıq, elm və mədəniyyət sahəsində uğur əldə etmiş, Çinə gedib çatan nəhəng ticarət donanması qurmuşdular. Gəmilər Çindəki Kanton bölgəsi ilə gedərkən Hindistan, Seylon və İndoneziya ilə ticarət də aparırdılar. İri dəniz yollarından biri də xəzər, bulqar və rusların ölkəsindən keçərək Skandinaviyaya gedən marşrut idi. Rusiya, Finlandiya və İsveçdə tapılmış Xilafət sikkələri müsəlmanların bu ölkələrdə aktiv ticarət fəaliyyətinə şahidlik edir. Bu ticarətdə Şirvan da yaxından iştirak edirdi.

Ukrayna və Rusiyanın müxtəlif rayonlarında, eləcə də Azərbaycanda tapılan Xilafət sikkələri Azərbaycanın slavyan knyazlıqları ilə istisadi əlaqələrinin möhkəmləndiyini sübut edir.

VII-XII əsrlərdə slavyan knyazlıqlarının Qafqaz ölkələri ilə iqtisadi əlaqələri xüsusilə möhkəmləndi[2]. Rus tacirləri Volqa çayının Xəzər dənizinə qovuşan aşağı axarındakı Bulqar və İtil şəhərlərinin vasitəsilə Şərq ölkələri ilə ticarət aparırdılar. Xəzər xaqanlığının paytaxtı olan İtil şəhəri çox qədim zamanlardan müxtəlif ölkələrin tacirlərinin diqqətini özünə cəlb edirdi. Bu şəhərlər təkcə öz aralarında intensiv ticarət etmir, "...rus (rus dedikdə,

---

[1] Ал-Якуби. История. Текст и перевод с араб. проф. П.Г. Жузе. Материалы по истории Азербайджана. Изд. Общества обследования и изучения Азербайджана, Выпуск IV, Баку, 2-ая типография АЗГИЗА, 1927, стр.12.

[2] Алиев Ф.М. Азербайджано - русские отношения (XV –XIX вв.) Баку, «Элм», 1985, стр.3.

slavyan knyazlıqları başa düşülür-N.Ə.) da daxil olmaqla Təbriz, Gilan, Şamaxı, Dərbənd, Təbəristan, Curcan və s. yaxın və uzaq ölkə, şəhər və vilayətlərin ticari tərəfdaşı, vasitəçi və başlanğıc məntəqəsi idi"[1].

Azərbaycanın Rusiya ilə iqtisadi əlaqələri ikitərəfli ticarət münasibətləri zəminində qurulmuşdu. Ruslar məhz ticarət sayəsində Şərq ölkələri ilə yaxınlaşmış və geniş məlumat toplamışlar. Rusiyanın Avropa və Asiya ölkələri ilə ticarət əlaqələri üzrə görkəmli araşdırmaçı M.Çulkov yazır ki, "Rus tacirlərinin Yaxın və Orta Şərq ölkələrini tez-tez ziyarət etmələri Şərq dillərinin "tacirlər arasında çox geniş istifadə olunması" ilə təsdiq olunur[2].

Müsəlmanların bu siyasəti Şərqdə islamın yayılmasına öz müsbət təsirini göstərə bilərdi. Bu mərhələ təkcə var-dövlət, sərvət deyil, həm də gözəl əxlaq, davranış qaydaları, mədəniyyət, ədəbiyyat və incəsənət mərhələsi idi[3].

Abbasilərin Xorasanda olan qoşunun gücü ilə hakimiyyətə gəlməsinə baxmayaraq, Əməvilər dövründə olduğu kimi, vilayətdə Abbasilər dövründə də başqa düşüncələr inkişaf etmişdi. Bu onunla əlaqədar idi ki, yeni hakimiyyət xalqın ümidini boşa çıxarmış, mərhəmət və ədalət üzərində hakimiyyət qurmaq vədlərini yerinə yetirməmişdilər. Əksinə, Abbasilərin hakimiyyəti əvvəlkilərdən yaxşı deyil, bəlkə də daha pis idi[4].

Harun ər-Rəşidin dövründə 10 il hakimiyyətdə olmuş və özünün despotizmi ilə ad çıxarmış Xorasanın canişini Əli ibn İsa xalqın narazılığına səbəb olmuş və qiyam qalxmışdı. 807-ci ildə Xorasanda baş qaldıran bu qiyam xəlifəni ora gəlməyə vadar edir. Xorasanda onun səhhəti pisləşir və 809-cu ildə xəlifə 45 yaşında vəfat edir. Bundan sonra Xilafət tərkibində birləşmiş digər ölkələrdə də siyasi və iqtisadi ziddiyyətlər gərginləşdi. Ən

---

[1] Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1622 гг. Москва, «Наука», 1976, стр.30; Алиев Ф.М. Азербайджано - русские отношения (XV –XIX вв.) Баку, «Элм», 1985, стр.9.

[2] Чулков М. Исторические описания Российской коммерции при всех портах и границах от древних времен до ныне настоящего и всех преимущественных узаконений по оной государя императора Петра Великого и ныне благополучно царствующей государыни императрицы Екатерины Великая, т. I, кн. 1, СПб., Имп. Академия наук, 1781, стр.58.

[3] Доктор Рахман. Краткая история ислама. Москва, «Умма», 2002, стр.237.

[4] Yenə orada, стр.235.

başlıcası isə onun ölümündən sonra sülalədaxili çəkişmə və ziddiyyətlər daha da kəskinləşdi. Digər tərəfdən, bu proseslərin başvermə səbəblərindən biri də Harun ər-Rəşidin hələ sağlığında vəliəhdliyi əl-Əmin, əl-Məmun və əl-Mütəsim olmaqla sıralaması, bu sıranın qorunması üçün qardaşlar qarşısında qoyulan şərtlər idi. Xəlifə bunu rəsmi qaydada razılaşdırmışdı[1]. Vəliəhdlər arasında əl-Əminin birinci yerə çəkilməsinin səbəbi mövcud ənənələr yox, onun anasının ərəb əsilli-Xəlifə əl-Mənsurun nəvəsi Zubeyra, o biri qardaşların isə analarının qeyri-ərəb olmaları idi. Buna görə də sonralar qardaşlararası münasibətlər öz məcrasından çıxdı. Öz qardaşı *Xəlifə əl-Əminin* (809-813) hakimiyyəti illərində atası Harun ər-Rəşid tərəfindən Xorasana vali təyin olunmuş əl-Məmunla münasibətlərinin kəskinləşməsi, varislik haqqında qardaşlararası razılaşmanın pozulmasına gətirib çıxartdı. Bu şəraitdə onsuz da gərgin olan gizli narazılıqlar üzə çıxdı və silahlı mübarizə müstəvisinə keçdi. Hadisələrin belə xarakter alması Xilafətin bütün siyasi və hərbi qüvvələrinin iki yerə parçalanmasına səbəb oldu. Ərəb əsilli olanlar Xəlifə əl-Əminin, fars və güclənməkdə olan türk əsillilər, eləcə də ərəblərdən bəziləri *əl-Məmunun* tərəfində durdular. Qeysilər bir nəfər kimi, Xəlifə əl-Əminin müdafiəsinə qalxdılar. Misirə vali təyin edilmiş Rəbiə ibn Qeysin başçılığı altında qoşun Fustata doğru irəlilədi. Təbii ki, qarşı tərəf də geri çəkilmək fikrində deyildi və onun da qoşunu hazır vəziyyətə gətirildi. Beləliklə də ölkə vətəndaş müharibəsinə sürükləndi. Hərbi əməliyyatlar 813-cü ilin yanvarında başladı və onların gedişində çox sayda itkilər verən tərəflərdən heç biri əsaslı bir qələbə qazana bilmədi. Yarım ildən artıq davam edən döyüşlər yalnız iyulda əl-Əminin öldürülməsi və *əl-Məmunun* rəsmən xəlifə elan edilməsindən sonra dayandırıldı[2].

Tədqiqatçı R.İsmayılov qeyd edir ki, hadisələrin belə gedişi zəminində ərəb-türk imperiyası daha da gücləndi. Türklər həm Xilafətin Şərq və Mərkəzi əyalətlərində bu və ya digər səviyyəli mənsəbləri tutdular və təsir gücünə yiyələndilər, həm də siyasi hakimiyyət uğrunda sülalə və saraydaxili münaqişələrə cəlb edilmiş oldular. Məhz elə *Xəlifə əl-Məmunun* (813-833) dövründə Xilafət həyatının bütün sahələrində türklərin hərbi və siyasi

---

1 Ахундова Н. Тюрки в системе государственного управления Арабского Халифата. Баку, «Элм», 2004, стр.136.
2 əl-Kindi. əl-Vulat val-Qudat. Beyrut, Dər əl-Kutub, 2003, s.177.




*Xəlifə Məmun üzərində ekvatorun ilk ölçüsü olan xəritəni hazırladır*

qüvvə kimi rolu daha artıq dərəcədə hiss olunmağa başladı. Türklərə olan ehtiyac yüksələn xarakter aldı. Abbasi xəlifəsi əl-Məmunun xəlifəliyi dövrü həm də Xilafətin tarixində islam dini-mədəni və ziyalı mühiti üçün ilkin şərtlərin yarandığı parlaq və məhsuldar bir dövr idi. Onun hakimiyyəti illərində Xilafətin elmi, ədəbi və dini həyatında böyük bir canlanma baş vermişdir. Bağdadda "Hikmət evi"nin əsası məhz onun dövründə qoyulmuşdu. Bu müəssisə müxtəlif əsərlərin, o cümlədən yunan müəlliflərinin əsərlərinin tərcüməsi və təfsiri üzrə ixtisaslaşmışdı. Əsərlərin bəziləri sifarişlə yazılırdı. Sifarişlə yazılan və xəlifələrə həsr edilmiş əsərlərin haqqı yaxşı vəzifələr, daimi maaşla və ya birdəfəlik ödəmələrlə həyata keçirilirdi. "Müəllif xidməti" əsas etibarilə əsərin yazılmasına hamilik edən şəxsin adını əbədiləşdirməklə ona həsr edilməsini təmin edirdi. Əl-Məmunun akademiyasında çalışan alimlərin də yazdıqları və xəlifəyə həsr etdikləri çoxsaylı əsərlər var idi. Deyilənə görə, əl-Məmun tərcüməçi Hunayn ibn İshaqa onun tərcümə etdiyi əsərlərinin çəkisi qədər qızıl ödəmişdi[1]. Bu dövrdə təhsil ocaqlarının da sayı artmışdı. Ərəb fatehlərinin iqamətgahının yerləşdiyi Bərdədən (797-822) katolikosluğun çıxarılması bu mədəni mərkəzin həm də ənənəvi müsəlman təhsil ocağı kimi rolunu artırmışdı[2].

Lakin mədəni həyatın dirçəlməsi müəyyən kataklizmlərlə müşayiət olunurdu. Bunu Azərbaycanın timsalında görmək o qədər də çətin deyil. Hələ 794-795-ci illərdə Xəlifə Harun ər-Rəşidin dövründə Azərbaycanda sosial ziddiyyətlərin zəifləməsi nəticəsində Əbu Müslümün başçılığı ilə beyləqanlı xaricilərin qiyamı ətraf şəhərlərə yayıla bilmədi və Xəlifə qoşunlarının təzyiqi ilə 8000 xarici aman istədi. Nəhayət, üçüncü dəfə 811-813-cü illərdə bütün Xilafətdə əl-Əmin ilə əl-Məmun arasındakı

[1] Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. Москва, «Наука», 1985, стр.83.
[2] İbn əl-Qaysarani. Əl-Mutəlif və-l-müxtəlif. Beyrut, 2001, s.117.

mübarizə dövründə, Beyləqanda yenidən qiyam qalxdı. Mənbələrdə bu üsyanın başlama səbəbi haqqında məlumat yoxdur. Y.A. Paxomovun haqlı gümanına görə, bu toqquşmada da Beyləqandakı xarici əhvali-ruhiyyəsi rol oynamışdır[1]. Xəlifə Mütəvəkkilin dövründə Xilafətin digər vilayətlərində olan xaricilərdən bəziləri təqibdən qurtarmaq, sığınacaq tapmaq üçün Azərbaycana üz tutmuşdular. Xaricilərdən olan şair Məhəmməd ibn əl-Bəis ibn əl-Hələbi ər-Rabi Xəlifə Mütəvəkkilin hakimiyyətinin ilk çağlarında Azərbaycana qaçmışdı. Xəlifə onu həbs etdirmişdi. Həbsdən qaçan şair geri dönmüş və camaatı başına toplamışdı[2].

Əlbəttə, Beyləqanda qiyamların qalxması və 8000 xaricinin olması, təqib edilərkən Azərbaycana qaçması bu diyarda xaricilərin bazasının hələ də güclü olduğunu söyləməyə əsas verir.

Xəlifə əl-Məmunun dövründə mötəzililik rəsmi dini cərəyan kimi təsdiq edilmişdi. İslam aləmində dində azadfikirliliyi təbliğ edən bir cərəyan kimi, meydana çıxmış mötəziliyin nümayəndələri olan alimlər idrakı inamdan, hətta vəhydən belə üstün tuturdular[3]. Mötəzililik cərəyanı düz qalxan xətlə inkişaf etməmişdir. Əgər Abbasi xəlifəsi əl-Məmunun xəlifəliyi dövründə (813-833) mötəzililik rəsmi dini cərəyan kimi təsdiq edilirdisə, sonrakı xəlifə əl-Müntəsirin dövründə təqib olunurdu.

Bütün müsbət çalarları ilə yanaşı Xəlifə əl-Məmunun dövrü həm də ziddiyyətlər dövrü idi. Mədəni həyata bilavasitə təsir göstərən ictimai həyatda qarşıdurmalar güclənmiş, xalq hərəkatları baş alıb gedirdi. Onların arasında öz müqyasına görə ən güclüsü Azərbaycandakı Xürrəmilər hərəkatı idi.

833-cü ildə Xəlifə əl-Məmunun ölümündən sonra xəlifə olmuş *əl-Mütəsimin xəlifəliyi vaxtı da (833-842)* mötəzililərin nümayəndələri təqdir olunurdu. Bu dövrdə Azərbaycanın siyasi həyatında da türk əsilli sərkərdələr, o cümlədən Afşin, Aşnas, Buğa önə çıxdı və faktiki olaraq Azərbaycanın həyatında önəmli rol oynadılar. Bu xəlifədən bəhs edərkən

[1] Пахомов Е.А. Пайтакаран-Байлакан-Орен-кала//Материалы исследования по археологии СССР, № 67, Москва-Ленинград, Изд-во АН СССР, 1959, стр.23.
[2] İbn əl-Qifti Cəlaləddin. Tərix əl-üləma bi-əxbar əl-xukəma. Leypsiq, 1903, s.233.
[3] Шаймухамбетова Г.Б. Арабоязычная философия средневековья и классическая традиция. Москва, «Наука», 1979, стр.16.

Nizamülmülkün ona verdiyi qiyməti xatırlamamaq olmur. Onun yazdığına görə, əl-Mütəsimin üç qələbəsi olmuşdur ki, hamısı da islamın şöhrəti idi: birincisi, Rum üzərində qələbə; ikincisi, Babək üzərində qələbə; üçüncüsü, təbəristanlı Məzyər üzərində qələbə. Nizamülmülkə görə, bu üç qələbədən biri baş tutmasaydı, islam məhv olardı.

Orta əsrlərdə siyasətdə dindən istifadə hallarına bir neçə dəfə rast gəlmişik. Bunlardan da biri Xəlifə *əl-Mütəsimin* dövründə Babəkin siyasi manevr məqsədilə dindən istifadə etməsidir. Babək Bizans imperatoru Feofilin Xilafətə qarşı çıxmasını sürətləndirmək üçün imperatora məktub göndərmişdi. Məktubda deyilirdi: “Həqiqətən mən xristian övladıyam və gizlin şəkildə xristianlığa etiqad edirəm. Mən bütün tərəfdarlarımı da bu dini qəbul etməyə məcbur edəcəyəm. Lakin, onlara indi demək olmaz ki, bu dini indi qəbul edin. Mən bilirəm ki, indi bunu rədd edərlər. Mənim indiki dinim onların xoşuna gəlir, belə ki, bu din onları islamdan ayırır. Mən ərəblər üzərində elə ki, qələbə çaldım, onların hamısı mənim dinimi qəbul edəcək və mənim göstərdiyim yolla gedəcəklər”[1].

Şirvanşahlarla bağlı başqa bir məqam yenə də xəlifə *əl-Mütəsimin* (818-842) dövründə baş vermişdir. Xilafətdə bu dövrdə canişinlik instututu məhdudlaşdırılmış, sonra isə ləğv olunmuşdur. Lakin, nümizmat alim Ə.Rəcəbli son dəfə 217- 832/3-cü ildə Arran gümüş dirhəmləri üzərində “imzasını” qoyan məzyədi canişini Xalid ibn Yəzid ibn Məzyəd əş-Şeybanidən sonra keçən 150 ilə yaxın bir dövr ərzində irsi hakimiyyət sahibi olan Şirvanşahların sikkələrinin aşkarlanmamasının səbəbini açıqlayaraq göstərir ki, məzyədilərin sikkə reqaliyasının istismarı tarixində ilk dəfə müşahidə olunan bu numizmatik fenomeni “sikkəsizlik” dönəmi kimi səciyyələndirilməməlidir. O, haqlı olaraq göstərir ki, Xilafətdə əmtəə-pul münasibətlərinin vüsət tapdığı bir zamanda hər hansı bir vilayətin dövriyyə vasitələrindən məhrum olması ağlabatan deyil. Azərbaycan şəhərlərində xəlifələrin sikkə zərbi müntəzəm olaraq davam edirdi. Lakin, Şirvanşahların öz sikkə hüququndan istifadə etməmələrinin səbəbi, ilk baxışda nə qədər anlaşılmaz və qəribə görünsə də, heç şübhəsiz ki, xəlifə

[1] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. III clddə. I cild, Bakı, “Elm”, 1999, s.288; Васильев А.А. Византия и арабы. Политические отношения Византии и арабов за время аморийской династии. СП,1900, XII, стр.114; Томара М. Бабек. Москва, «Журнально-газетное объединение», 1936, стр.113.

Mütəvəkkilin qətlindən (861) sonra Xilafətin inzibati-siyasi- durumunda baş verən qarışıqlıq və bir sıra obyektiv reallıqlarla, ilk növbədə də, yuxarıda qeyd olunduğu kimi, xəlifə əl-Mütəsim (818-842) dönəmində canişinlik instututunun məhdudlaşdırılması, sonra isə ləğvi ilə bağlı olmuşdur. Belə ki, 220/835-ci ildə əl-Həsən əl-Bədqisidən sonra sikkələrdə canişinlərin əvəzində xəlifələr tərəfindən təyin olunan vəliəhdlərin, daha sonra xəlifələrin adları həkk olunurdu[1].

*Xəlifə əl-Mütəvəkkilin* (847-861) islamla bağlı həyata keçirdiyi bəzi işləri qeyd etmək lazımdır. 240/854-cü ildə xəlifə əl-Mütəsimin məvlası Buğa Ərminiyə, Azərbaycan və Şimşatın valisi olarkən Şəmkiri bərpa etdirdi və şəhər əl-Mütəvəkkiliyyə adlandırıldı. Bundan sonra himayə olunmaq xahişi ilə ona müraciət edib islamı qəbul etmək arzusunu bildirən xəzərləri bu şəhərə yerləşdirdi[2]. Digər tərəfdən, artıq xəlifə Mütəvəkkilin dövründə vəziyyət bir qədər başqa müstəviyə keçmişdi. Xəlifənin 852-ci ildə Tiflis əmirliyinin hakimi İshaq ibn İsmayılın üzərinə göndərdiyi Buğa ət-Türki ondan verməli olduğu xəracı və yanına gəlməyi tələb edir. Mənbədə deyilir ki, İshaq cavab yazaraq bildirir ki, Sultanın itaətindən çıxmamışdır və əgər ona pul lazımdırsa, o verər, əgər adamlar lazımdırsa göndərər, lakin özü gələ bilməz[3]. Bu, onu göstərir ki, o, üsyançı deyil, Xilafətə bağlı adam idi. Bütün bunlara baxmayaraq, Buğa İshaq ibn İsmayılla və Tiflisin müsəlman əhalisi ilə çox qəddarcasına rəftar etdi. Yanğın nəticəsində əhalidən 50 min insanın yanması, sağ qalanların isə əsir aparılması əsrlərlə xristian gürcülərə qarşı mübarizə aparan müsəlman tiflisliləri tamamilə zəiflətdi. Bu hadisədən sonra Tiflis xristianlarla mübarizədə hücum vəziyyətindən müdafiə vəziyyətinə keçmək məcburiyyətində qalır. Onların bu siyasəti təkcə Tiflisdə deyil, ümumiyyətlə, bölgədə islamı zəiflətdi. Qeyd etmək

---

[1] Rəcəbli Ə. Şirvanşahlar dövlətində sikkə zərbi (VIII-XVI yüzillər). Bakı, "Elm və təhsil", 2015, s.28.

[2] Qudama ibn Cəfər. əl-Xərac. Bağdad, 1981, s.328.

[3] Əl-Yaqubi. Tarix. Azərbaycanın VII-IX əsrlər tarixinə aid çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz və qeydlərin müəllifi Sevda Süleymanova/ Orta əsrlərdə ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Vətən tarixi seriyası. AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq institutu. Bakı, "Nurlan", 2005, s.224-225; اليعقوبي احمد إبن أبي يعقوب إبن جعفر إبن وادح الكاتب. تاريخ. الجلد الثاني, بيروت, ١٩٦٠, ص. ٤٨٩ -٤٩٠

lazımdır ki, bu hadisə bölgədə müsəlmanlığı yaymaq deyil, əksinə məhz müsəlmanlığın zərbə altına alınmasıydı. Bunu gənc tədqiqatçı Rəşad Mustafa Abbasilərin əslən Əməvilərdən olan ailəyə qarşı çox pis münasibətilə əlaqələndirir. O, "Tiflis əmirliyi" adlı dissertasiyasında göstərir ki, qəbilə təəssübkeşliyi Abbasilərə Əməvilərdən olan İshaq kimi bir qəhrəmanı dəyərləndirməyə imkan verməmiş və İshaqın varlığının bir təhdid ünsürü kimi görülməsinin səbəbi olmuşdur[1]. Abbasilər sülələsinin hakimiyyətə gəlməsi ilə Xilafətdə zəifləməyə başlayan mərkəzi hakimiyyət, görünür, bu hadisələrdən sonra daha da zəifləmişdir. Bizə belə gəlir ki, Tiflislə əlaqədar qeyd edilən hadisələr Abbasilərin hakimiyyətini daha da zəiflətdi və mərkəzdənqaçma qüvvələrinin daha da güclənməsinə səbəb oldu, bölgənin, xüsusən də Tiflisin müsəlman əhalisi üçün daha açı nəticələr verdi.

Xəlifə əl-Mütəvəkkilin dövründə daha sonra mötəzililərin ehkamları tənqid edilir, sıxışdırılır, Xilafətdə "sünnə qanunlarına" əsaslanan köhnə ənənələr yenidən dövlət dini inancına çevrilirdi[2]. Mötəzililər hələ də müsəlman sünnəsinə təhlükə kimi qalmaqda davam edirdi. Çünki, hələ də sünni ehkamlarının müəyyənləşdirildiyi bir sistem yox idi. İlk ərəb filosofu və alimi, Şərq peripatetizminin banisi, "Ərəblərin filosofu" adlandırılan əl-Kindi (v.e.873-də Bağdadda) mötəzili olmuşdur. O, hətta xəlifə əl-Məmunun dövründə saray münəccimi, yunan filosoflarının əsərlərinin tərcüməçisi və Xəlifənin oğlanlarından birinin tərbiyəçisi kimi sarayda böyük nüfuza malik idi. Təsadüfi deyil ki, sonralar bu cərəyan Xəlifə əl-Mütəvəkkilin dövründə sıxışdırılarkən, əl-Kindinin özü də təqib olunanların siyahısına düşmüş, kitabxanası isə müsadirə olunmuşdu.

Bu hadisələr Mərakeş, Əlcəzair, Tunis və Trablus (müasir Tripoli şəhəri) kimi, Məğrib (Qərb) ölkələrinin mərkəzi hakimiyyətdən ayrılmasına gətirib çıxardı.

Xəlifə *əl-Mötəmidin (870-892)* hakimiyyəti dövründə, 270/883-cü ildə Bakı neftindən Dərbənd qarnizonu üçün xüsusi vəsait ayrılmışdı və bu işin icrası Məhəmməd ibn Əqrar adlı bir şəxsə həvalə edilmişdi. Bu, Azərbaycanın Xilafət üçün nə qədər önəmli yer tutduğunu göstərir.

---

[1] Mustafa Rəşad.Tiflis əmirliyi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2014, s.76.

[2] Петрушевский И.П. Ислам в Иране в VII–XV веках. Ленинград, «Ленинградский Университет», 1966, стр.214.

Talenin qərarıyla Xilafətin başında dayanan, lakin o qədər də önəmli olmayan şəxslərin arasında 10 il müddətinə vəziyyəti stabilləşdirən və mərkəzdənqaçma qüvvələrini dayandıran əl-Müfəddidin (892-902) qəmgin və qaşqabaqlı fiquru xüsusilə seçilir. Ancaq onun ölümündən sonra hər şey "öz axarına" döndü. Xilafətin tənəzzülü isə getdukcə daha da sürətləndi. Və bu proses Xilafətə məxsus ərazilərdə Müstəqil dövlətlərin yaranmasıyla nəticələndi. 1055-ci ilə qədər yeni sülalənin-türk sülaləsi Səcuqların Xilafətdə hakimiyyəti ələ keçirməsiylə tənəzzülə uğramaqda olan Xilafətə sanki "yeni bir can, yeni bir nəfəs" verilmiş oldu. II əl-Muktəfinin hakimiyyəti tədricən öz əlinə keçirməsinə, yəni XII əsrin birinci yarısına qədər xəlifə hələ də Səlcuqlardan asılı vəziyyətdə idi. Xilafətin möhkəmlənməsi meylləri XIII əsrin ortasına qədər davam etdi və 1258 ildə Bağdadın monqollar tərəfindən dağıdılması və xəlifə əl-Mütəsimin həlak olmasıyla başa çatdı. Bununla da 500 ildən artıq bir dövr ərzində dünyaya islam işığı və elmini yayan Xilafət və ümumislam elmi dünyasına qaynaq təşkil edən elm mərkəzi Bağdad Çingiz xanın oğlu Hülakü xan tərəfindən dağıdıldı. Yüz illər ərzində dünyanın hər tərəfindən gətirilən minlərlə nadir əlyazma, musiqi əsərləri, minlərlə elm xadimi, sənətkar və sənət əsərləri monqol vəhşiliyinin qurbanı oldu. Kitablardan tonqallar qalandı, sənət əsərləri məhv edildi, sənətkarlar qul kimi satıldı.

Abbasilər dövrü bir sıra xüsusiyyətləri ilə yadda qalmışdır. Bu xüsusiyyətlərindən biri onda idi ki, ərəb sərkərdə-valiləri əvvəllər yalnız özlərinin nəslindən olan və mərkəzi hakimiyyətdən narazı ərəb qəbilələrini bu əraziyə köçürürdülərsə (bu qəbilələrin heç də hamısı zorla köçürülmür, bəziləri öz xöşları ilə meyllənirdilər - N.Ə.), VIII əsrdən sonra İslamı qəbul etmiş digər xalqları da tabeçiliklərində olan ərazilərdə yerləşdirirdilər. Əməvilər dövründə əsası qoyulan dil siyasəti-ərəb dilinin aparıcı dilə çevrilməsi, orta əsrlərdə Avropada latın dilinin tutduğu mövqedə dayanmışdı. İctimai həyat səviyyəsi və milli adət-ənənələri müxtəlif olan, islam dinini qəbul edib - etməmələrindən asılı olmayaraq Xilafət bayrağı altında birləşmiş əhalinin elmi, dini, ədəbi yaradıcılığında və məişətində də bu dildən istifadə olunurdu.

Abbasilərə qədər islam fiqhinin ehkamları tam sistemləşdirilməmişdi. Sinkretik ərəb-müsəlman mədəniyyətinin yaranması ilə islam ilahiyyatçıları əsərlərində bitkin təlim xarakteri almış müsəlman ehkamlarını

tərtib etməyə və sistemləşdirməyə başlayırlar. Lakin, islam fiqhinin ehkamlarının tam olaraq sistemləşdirilməsi Abbasilər dövründə həyata keçir.

### 2.5. Yerli müstəqil dövlətlər dövrü (IX-XI əsrlər)

IX-X əsrlərdə Xilafət tənəzzülə uğramağa başlayır. IX əsrin əvvəllərindən etibarən ucqarlarla mərkəz arasındakı mövcud əlaqələr zəifləyir və Xilafətin ayrı-ayrı hissələrə bölünməsi prosesi sürətlənir. Tənəzzül ilk növbədə Xilafətin cənubunda zinclərin hərəkatı, İraq, İran və Azərbaycanda şiəlik hərəkatı, Bəhreyn və Misirdə ismaili və qərmət hərəkatında, nəhayət Xilafətin müxtəlif vilayətlərində müstəqilliyə canatma meyllərində özünü biruzə verirdi. Kökündən sarsılaraq tənəzzülə uğrayan Xilafət, hərbi-siyasi və iqtisadi gücü ilə yanaşı ərazi bütövlüyü və birliyini də itirdi. İslam dünyası mərkəzləşdirilmiş, tək və nəhəng dövlət sistemindən çoxsaylı və kiçik dövlətlər sisteminə keçdi.

V.F. Minorski Qafqazda mərkəzləşdirilmiş hakimiyyətin tənəzzülünün başlangıcını Xəlifə əl-Mütəvəkkilin (847-861) dövrünə aid edir. Onun rəyinə görə, 859-cu ildə Yəzidi Məhəmməd tərəfindən Gəncənin əsasının qoyulması yerli hakimlər arasında mərkəzdənqaçma quvvələri üçün birinci siqnal oldu[1]. F.Hitti, Z.M. Bünyadov və N.M. Vəlixanlı kimi tədqiqatçılar Bağdad xəlifələrinin hakimiyyətinin əldən getməsinin başlıca səbəbini Xəlifə əl-Mütəsimin dövründə güclənən türklərin hakimiyyətində görürdülər[2]. Hakimiyyətin əldən getməsi isə öz növbəsində İranın bəzi vilayətləri və Azərbaycan üçün xüsusilə faydalı nəticələr verdi. Belə ki, X əsrin əvvəllərində ərəb xəlifələri tərəfindən Arranda möhkəm xəlifə hakimiyyətinin bərqərar olunması üçün cəhdlər edilsə də, tezliklə, əvvəlki ərəb əmirlərindən olan Yəzidi və Haşimi əmirlərinin sülalələri müstəqil hakimlərə çevrildilər.

Bu dövrdə karvan yollarının istiqaməti də dəyişdi. Əgər Abbasilər

[1] Minorsky V.F. History of Shirvan and Dardand in the 10th-11th century. 1958, Pp/187+32(Arabic)/heffer/caqmbridge. p.65.

[2] Ph.Hitti. History of the arabs., p.466-467; Буниятов З.М. Начало господства тюрок в Халифате Аббасидов. Избранные сочинения в 3-х томах, т.1, стр.459; Vəlixanlı N.M. Naxçıvan VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan, “Əcəmi”, 2015, s.71.

dövründə karvan yolları Orta Asiya, Xorasan, Həmədan, Bağdad, oradan isə Aralıq dənizi hövzəsi ölkələrinə gedirdisə, göstərilən dövrdə yerli və müstəqil dövlətlərin yaranması ilə əlaqədar karvan marşrutları şimaldan keçməyə başladı. Karvan yollarının Azərbaycan ərazisindən keçməsi və ticarət gəmilərinin Xəzər sularında üzməsi, bölgədə ticarətin inkişafına böyük təsir etdi. O dövdə Azərbaycan ərazisində mövcud olan dövlətlər beynəlxalq karvan ticarətində öz vacib rollarını oynamağa başladı. Dəniz yollarıyla həyata keçirilən əmtəə mübadiləsi Şirvanda ticarətin inkişafına əlverişli şərait yaratdı. Hələ X əsrdə ticari nöqteyi-nəzərdən Dərbənd limanı qədər əhəmiyyətə malik olmasa da, Bakı limanının da əhəmiyyəti artmağa başladı. Şirvan şəhərlərinin bir tərəfdən dəniz ticarətinə, digər tərəfdən tranzit karvan yollarına cəlb edilməsi, IX-XI əsrlərdə Azərbaycandan qonşu ölkələrə bir sıra qiymətli malların ixracına səbəb oldu. Orta əsrlər Azərbaycan tarixinin tədqiqatçısı M. Şəriflinin göstərdiyi kimi, "IX-XI əsrlərdə Azərbaycanın şəhər həyatı, sənətkarlıq və ticarət əlaqələri bəzi Yaxın və Orta Şərq ölkələrinə nisbətən daha inkişaf etmiş və daha aktiv idi[1].

Xilafətin vilayətlərinin başında duran və yerli əhali arasında dayaq tapmış ərəb canişinləri, eləcə də islamı qəbul etmiş yerli hakim qismində olanlar müstəqil hakimlərə çevrilirlər. Azərbaycanın şimal vilayətlərində Şirvanşah Məzyədilər[2*], Muğanda İbn Dəlulə, cənubunda sacilərdən Deysəm ibn İbrahim hakim idi. İdarə etmək üçün onlara verilən vilayətlər artıq özlərinin şəxsi mülkünə çevrilmişdi. Bu əmirlərin çoxu xəlifənin

---

[1] Шарифли М.Х. Феодальные государства Азербайджана второй половины II-XI веков. Баку, «Кавказ», 2012, стр.405.

[*] Məzyədilər - VII əsrin ortalarında Ərəbistan yarımadasının cənubundan indiki müstəqil Azərbaycan Respublikası ərazisinə gəlmiş böyük rəbiə qəbiləsinin şeybanilər tayfasının bir qoludur. Onlar bu adı Məzyədin oğlu Yəziddən götürmüşlər. Yəzid ilk Abbasi xəlifələri dövründə hazırkı Azərbaycan Respublikası, Gürcüstan, Ermənistan və Dağıstanın bir hissəsinin daxil edildiyi "Ərminiyə" adlandırılmış böyük ərazidə hərbi-inzibati vəzifəni yerinə yetirmişdir. Yəzid və onun nəslinin nümayəndələri əvvəlcə paytaxtı Bərdə olmuş yarımasılı valiliyə, sonradan isə Şirvanda müstəqil dövlətin başçısı olmuşlar (Bax: Жузе П.К. Мазядиты-шейбаниты в Азербайджане (Историко-биографический очерк). АИИ № 647. стр.2). Şirvanşah titullu ərəb mənşəli məzyədi isə h.247/861-ci ildə xəlifə əl-Mütəvəkkilin ölümündən sonra müstəqillik hüququ qazanmış Heysəm ibn Xalid sayılır (bax:Ашурбейли С.Б. История государство Ширваншахов (VI-XVI вв.). Баку, «Элм», 1983, стр.75.)

dini hakimiyyətini qəbul etmişdi. Bunu özlərinin kəsdirdikləri sikkələr və cümə namazlarında oxunan xütbələrdə xəlifələrin adlarının çəkilməsi ilə təsdiq edirdilər. Əgər Abbasilərin güclənməsi dövründə karvan yolları Orta Asiya, Xorasan, Həmədan, Bağdad, oradan isə Aralıq dənizi hövzəsi ölkələrinə gedib çatırdısa, IX əsrdə yerli müstəqil dövlətlərin yaranması ilə əlaqədar olaraq karvan yolları bir qədər şimaldan keçməyə başladı[1]. Bu isə ticarət mübadiləsinə öz müsbət təsirini göstərdi. Azərbaycanın digər ölkələrlə ticarət mübadiləsi daha da genişləndi. X əsrdə mübadilənin əhəmiyyətli dərəcədə genişlənməsini sikkələr üzərində tədqiqat aparan Y.A. Paxomov da təsdiq etmişdir[2]. Şirvan şəhərlərinin həm tranzit-karvan, həm də dəniz ticarətinə cəlb edilməsi, ticarət əlaqələrinin genişlənməsi ilə bərabər mədəni əlaqələrin artmasına da müsbət təsir göstərirdi.



*Qətran Cili Azərbaycani (Təbrizi) (1012-1081)*

Bir tərəfdən Mərkəzi Asiya ilə, digər tərəfdən də Volqaboyu və Şərqi Avropa ilə müsəlman ölkələri arasında ticarət və mədəni əlaqələr genişləndi[3]. Hər iki yolun qovşağında yerləşən Azərbaycanın ticarət münasibətləri, ölkənin mədəni əlaqələrinin də inkişafına şərait yaradırdı. Bu dövrdə Xilafət gümüşünün, o cümlədən bölgə dövlətləri - Şirvan Məzyədiləri, Sacilər və Salarilərin gümüş dirhəmlərinin xaricə axını baş verdi. Bu, Y.F. Paxomovun qeyd etdiyi kimi, İslam dünyası üçün Şimal-Cənub ticarəti və Xilafət daxilində baş verən sosial-iqtisadi "yüksəlişin" nəticəsi idi. Bu "yüksəlişin" nəticəsində X əsrin sonlarında Ön Asiya ölkələrinin pul təsərrüfatı və əmtəə-pul mübadiləsində gümüş defisiti, yəni "gümüş böhranı" özünü büruzə verdi.

---

[1] Шарифли М.Х. Феодальные государства Азербайджана второй половины II-XI веков. Баку, «Кавказ», 2012, стр.403.

[2] Пахомов Е.А. Арабские и прикаспийско-иранские феодалы в Азербайджане X-XI вв.//Сборник памяти И.Я.Марра, стр.428.

[3] Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв., Баку, Изд-во АН Аз.ССР, 1956, стр.161.

X əsrin son rübü - XI əsrin əvvəllərində Azərbaycanın siyasi tarixində Rəvvadilər dövləti mühüm rol oynamışdır. Xürrəmilər hərəkatının yayılmasından istifadə edərək müəyyən dərəcədə tam hakimiyyətə nail olmuş hakimlər sırasında Məhəmməd ibn Rəvvadın da adı çəkilir. Xarici-siyasi mövqeləri möhkəmləndirmək və dostluq münasibətləri yaratmaqda Rəvvadilərdən Vahsudanın böyük rolu olmuşdur. Onun yeritdiyi siyasət qonşu dövlətlərlə, o cümlədən Arran hökdarı Əbülhəsən Ləşkəri ilə barışmasına, xarici düşmənlərə qarşı birgə hərəkət etməsinə səbəb olmuşdu. Bu vaxt Gəncədə olmuş məşhur Azərbaycan şairi Qətran Təbrizi onlara belə müsbət qərara gəlmələri haqqında təbrik şeirləri yazır və ürəkdən alqışlayırdı[1]. Əbülhəsən Əli Ləşkərini mədh edən şair yazırdı:

*Onun xələtinin zinətindən Gəncə Təraz[2*] kimi olar,*
*Onun xəsiyyətinin bərəkətindən Ərran Xütənə[3**] çevrilər[4].*

Əsərinin bir fəslini IX-XIII əsr Azərbaycan şəhərlərinin_öyrənilməsinə həsr etmiş görkəmli arxeoloq Q.Əhmədov göstərir ki, Şirvanın və Arranın şəhərləri Şərqi Zaqafqaziyada (Cənubi Qafqazda-N.Əliyeva) birincilik rolunu monqolların hücumuna qədər qoruyub saxlamışldı[5]. Burada birincilik deyəndə, iqtisadi həyatla birlikdə siyasi və mədəni həyat da nəzərdə tutulur. Belə ki, Şirvanşahlar XII əsrin birinci yarısında Eldənizlərin əlində olan Arran və Ağsunqurilərin idarə etdiyi cənubi Azərbaycandan fərqli olaraq hələ də öz müstəqilliklərini qoruyub saxlayırdılar. Onlar siyasi hakimiyyətlərinin rəmzi kimi zərb etdirdikləri sikkələrin arxasında islam dini rəmzini də göstərirdilər.

Şirvanşahlar dövləti nəinki Cənubi Qafqazda, hətta Yaxın Şərqdə belə ən böyük və inkişaf etmiş müstəqil dövlətlərdən biri idi. XI-XIV əsrlərdə ölkənin və bölgənin ictimai-sıyası həyatında mühüm rol oynamış bu dövlət

---

1 Qətran Təbrizi. Divan. Bakı, Az.SSR EA nəşriyyatı, 1967, fars dilindən çevirən və çapa hazırlayan Q. Beqdeli, s.19.

* Təraz - Sovetlər dönəmində adı dəyişdirilərək Cambul qoyulan qədim qazax şəhəri.Müasir dövrdə qədim adı bərpa olunmuşdur.

** Xütən-qədim dövrlərdən bu günə qədər tikililərinin gözəlliyi, torpağının bərəkəti, maddi-mədəniyyət abidələri ilə bütün Şərqdə ad qazanmış Şərqi Türküstanda yerləşən qədim uyğur şəhəri Xotan nəzərdə tutulur.

4 Yenə orada, s.226.

5 Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, Azərb.SSR Elmlər Akademiyası, 1959, s.28.

Azərbaycan tarixində yerli dövlətlərin ən "uzun ömürlü"sü idi. Güclü dövlət kimi, Şirvanın hakimiyyəti öz ərazisindən başqa bəzən Arran və Muğan, bəzən isə hətta bu ərazilərdən də uzağa gedərək Xalxala qədər uzanırdı[1]. Şirvan həm də elm mərkəzlərindən idi.

Şirvan hakimi (əmir) məzyədilər sülaləsindən olan Yəzid ibn Məzyəd (763-788) xarakterinə, həyat tərzinə görə əsl bədəvi idi. Abbasi xəlifələri Mansurdan Harun ər-Rəşidə qədər onu ə`rabi (bədəvi) adlandırırdılar. Geniş ürəkli, həddən ziyadə səxavətli və müharibə olmayan adi vaxtlarda böyük "bon-vivant"[2] olan Yəzid döyüşdə şirə dönür, sərt, amansız bir hərbçiyə çevrilirdi. Tez- tez dövlətin paytaxtı Bağdadda olmasına, farsların güclü mədəni təsirinə məruz qalan saray əyanları ilə ünsiyyət saxlamasına baxmayaraq, bütün ərəblərin, xüsusilə ərəb zadəganlarının böyük məhəbbət bəslədiyi şeirlərdən xəbərsiz və ya ona etinasız idi. Buna baxmayaraq, Xilafətin ucqarlarından belə onun yanına gəlmiş və ya onun sarayında yaşayan şairlərə, o cümlədən görkəmli şair Müslim ibn əl-Validə səxavətlə mükafatlar verirdi[3]. İbn Xəllikan yazır ki, Harun ər-Rəşid iki dəfə Yəziddən Yəzidin özünə həsr olunmuş şeirlərin müəlliflərinin kim olması barədə soruşarkən, hər iki dəfə də bilmədiyini demişdi. Xəlifə əvəzində demişdi: Ayıb olsun. Bundan sonra sən necə qəbilə başçısısan (seyyidisən) ki, belə şeirlərlə səni tərifləyirlər, sən isə müəllifi tanımırsan[4]. Bu məlumat bir tərəfdən şairlərə qarşı xəlifə və saray əyanları tərəfindən diqqəti göstərir, digər tərəfdən də Yəzid ibn Məzyədin igid bir sərkərdə kimi çox məşhur olmasını təsdiqləyir.

Səlcuq imperiyasının Məlikşahın hakimiyyətindən (1072-1092) sonra keçmiş qüdrətini tədricən itirməsi, hakim sinif və taxt-tac sahibləri arasındakı müharibələrin baş verməsi, vassal asılılığında olan dövlətlərin iqtisadi-siyasi baxımdan güclənməsinə gətirib çıxarmışdı. Bu isə, öz növbəsində bütün müsəlman Şərqində elm və mədəniyyətin yüksək inkişaf səviyyəsinə çatmasına səbəb olmuşdu. Şirvanşahlar dövləti də bu prosesdən istisna deyildi. Şirvanın dəfələrlə hücumlara məruz qalmasına

---

1 Azərbaycan tarixi, II cild, Bakı, "Elm", 1998, s.318; Али-заде А.А. Некоторые сведения о Ширване (до нач. XIII в.)//Изв. АН Азерб.ССР, № 12, 1947, стр.3.
2 Жузе П.К. Мазядиты-шейбаниты в Азербайджане (Историко-биографический очерк). АИИ № 647, стр.9-10.
3 Yenə orada.
4 İbn Xallikan. Vəfayət əl-ə`yən. II c., s.423.

baxmayaraq, zəngin təbii sərvətləri, inkişaf etmiş sənətkarlığı, əlverişli mövqeyi və geniş ticarət əlaqələri sayəsində onun iqtisadi və mədəni həyatı tezliklə bərpa edilmişdi[1].

İndiyədək əldə edilən yazılı mənbələrə və arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələrinə istinadən demək olar ki, Şirvanda elm və mədəniyyətin inkişafının dərin kökləri olmuş, islamaqədərki mədəni irs bu tərəqqinin örnəyi rolunu oynamışdır. Bir sıra tarixçilərin və alimlərin əsərlərində gətirilən faktlara əsaslanan akademik B.Dorn yazır ki, bu faktlar arasında diqqəti daha çox çəkən odur ki, bir neçə şirvanşahlar elm və mədəniyyətə ətraflı himayədarlıq etmişlər[2]. Bu şirvanşahlar və Şirvan alimləri bununla hətta Yaxın Şərqdə elmin və poeziyanın tərəqqisinə kömək etmişlər. Bunu çex alimi Yan Rıbka Xaqani Şirvaninin yaradıcılığını tədqiq edərkən çox açıqlığı ilə göstərmişdir. O yazırdı ki, Xaqaninin yaradıcılığı göstərir ki, Şirvanın ədəbi mühiti hətta orta əsr İran mədəniyyətinə müsbət təsir göstərmişdir[3].

Epiqrafik abidələrin üzərindəki yazılar və həkk olunmuş naxışlar, eləcə də sənətkarların hazırladığı qabların üzərindəki yazılar da bu diyarın ziyalılarının, həmçinin sadə şəhər sakinlərinin müəyyən elmi-mədəni biliklərə malik olmalarını göstərir. Arxeoloq V.A. Kvaçidzenin I Bəndovan yaşayış məskənində tapdığı qabların üzərində şərq poeziyasından nümunələr və alıcıya ünvanlanmış arzu dolu sözlər göstərir ki, elmi biliyə malik sənətkar öz əməyilə elmi vəhdətdə görmək istəyini qab üzərinə köçürmüşdür[4]. Şirvan bölgəsi, çox sayda ziyalıları ilə yanaşı, Qurani-Kərimdə adı çəkilən Musa qayası haqqındakı rəvayətlə yanaşı çox sayda ziyalıları ilə məşhur olmuşdur. Məşhur coğrafiyaşünas, tarixçi-səyyah Yaqut əl-Həməvi bu barədə məlumat verərək yazır: “Deyirlər ki, [Şirvanın] yaxınlığında Musa (ə.s.) qayası var. Burada o Allah Təalanın sözləri ilə deyilsə: “Görürsənmi, biz [həmin yerdə] qayanın yanında gizləndiyimiz

[1] Али-заде А.А. Некоторые сведения о Ширване (до нач. XIII в.)//Изв. АН Азерб. ССР, № 12, 1947, s.9.
[2] Dorn B. Verguh eymer Keshuhte der Shirvanshahe. Met de Pitsburg.. IV, n.552; Mehrəliyev E.Şirvan Elmlər Akademiyası. B., “Çaşıoğlu”, 2000, s.11.
[3] Y. Ribka. Histori İranishe Liteaturgesihate. Leypzig. 1981, p.138.
[4] Квачидзе В.А. Археологические находки на Каспийском побережье. Памятники материальной культуры Азербайджана, вып. 9, Баку, «Внешторгиздат», 1986, стр.3.

zaman mən balığı unutdum"[1]. "Deyirlər ki, [haqqında Quranda söhbət gedən] qaya Şirvandakı qayadır, dəniz Gilan dənizidir, kənd Bacərvan kəndi [Musa peyğəmbərin (ə.s.)] rast gəldiyi xidmətçi oğlanın onu öldürdüyü kənd isə Cizan kəndidir"[2].

Digər tərəfdən şirvanlı alimlərin elmi yaradıcılığı barədə müxtəlif elm mərkəzlərində söhbətlərin getməsi, dövrün bir sıra görkəmli alimlərinin bura səfər etməsinə səbəb olmuşdur. Təsadüfi deyil ki, orta əsr ərəb mənbələrində İbn Makula, Yaqut əl-Həməvi, əs-Səmani, əs-Siləfi və İbn əs-Sabuni bir çox Şirvanlı alim haqqında məlumat vermişlər. Buna görə də bioqrafik janrın nümayəndələrindən biri olan Əbu Tahir əs-Siləfinin (h.478/1085-576/1180) Misirdən Şirvana səyahət etməsi də təəccüblü görünmür. Şirvanşah II Mənüçöhr digər güclü feodal hakimləri kimi öz ətrafında Şirvanın o dövrdəki mədəni qüvvələrinin – zəmanənin bir çox tarixçi və şairlərinin toplanmasına səy göstərmiş, Şirvanın siyasi, qismən də o dövrün elmi fikir mərkəzinə çevrilməsi üçün lazımi şərait yaratmışdı[3].

Ərəb müəllifləri Şirvanda elm və mədəniyyətin çiçəklənməsini xüsusi olaraq qeyd edirlər. Yazılı mənbələrə və arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət əşyalarına istinad edərək demək olar ki, Şirvanda elm və mədəniyyətin inkişafı üçün onun dərin kökləri, yəni islamaqədərki mədəni irsi olmuşdur.

XIV əsrdə Xəzər dənizində su səviyyəsinin yüksəlməsi ilə əlaqədar olaraq Bayıl qalası suya qərq olmuşdur. Qalanı 1234-cü ildə şirvanlı nisbəli ustad Zeynalabdin ibn Əbu Rəşid tikmişdir. Arxeoloji qazıntılar zamanı dənizin dibindən 750-yə qədər üzəri təsvirli və ərəb yazılı daşlar çıxarılmışdır. Daşların üzərindəki yazılar sakinlərin savadlılıq dərəcəsini göstərir.Orta əsrlərin ərəbdilli müəlliflərindən əs-Sübki, əs-Səmani, ibn Makula, əs-Siləfi, əl-Kəhhalə və başqalarının əsərlərində də Şirvanilər nisbəli ziyalılar haqqında yetərincə məlumat vardır ki, bu da Şirvan adının öz sərhədlərini çoxdan aşaraq dünya mədəniyyəti müstəvisinə qədəm qoyduğunu təsdiq edir. Buna görə də Misirdə adına mədrəsə açılmış və "alimlərin şeyxi" adını qazanmış əs-Siləfinin (h. 478/1085-576/1180)

---

[1] Qurani Kərim.18-ci surə, 63-cü ayə.

[2] Yaqut əl-Həməvi. Mucəm əl-Buldən. Beyrut,1977, III c., s.339.

[3] Минорский В.Ф. История Ширвана и Дербенда, Москва, «Восточная литература», 1963, стр.10.

Misirdən Şirvana səyahəti heç də təəccüb doğurmur. Məlumdur ki, Şirvanı o dövrdə məşhurlaşdıran mühüm xüsusiyyətlərindən biri də onun Təbriz və Bərdə ilə yanaşı elm və mədəniyyət mərkəzlərindən birinə çevrilməsi olmuşdur. Şirvanda zehni fəaliyyətin intişar tapması, əlverişli elmi-mədəni mühitin olması ilə şərtlənirdi. Bu bölgədən tapılan arxeoloji materiallar, sənətkarlıq nümunələri üzərindəki yazılar, eləcə də epiqrafik naxışlar, şəhər sakinlərinin savadlı olduğuna dəlalət edir[1]. Azərbaycanı səyahət zamanı öyrənmiş müəlliflərin əsərlərində Şirvanın çoxsaylı ziyalılarının olması və onların müxtəlif elmi mərkəzlərdə fəaliyyəti, elmi biliklərin inkişafındakı rolu barədə məlumat verilir. Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni bildirir ki, Əbülqasım ibn Ruvaha əl-Ənsari kimi böyük şeyx-alim Azərbaycanın Şirvan bölgəsindən olan Əbülhəsən əl-Müfəddidin tələbəsi olmuşdur[2]. Bu, Şirvanın özündə elmi mühitin yüksək səviyyədə olmasından xəbər verir. Şirvan alimlərinin formalaşmasında mühüm amil olan mühit bir neçə Şirvanşahlar nəslinin elmi-mədəni fəaliyyəti sayəsində yaranmışdı. Şirvanşahlar elm və mədəniyyətə ətraflı dəstək verməklə məşhur olmuşlar[3]. Şirvan, xüsusilə Şirvanşah I Fariburz (1063-1096) və onun vəziri Baha əd-Din Kamal əl-Mülk Əbülfərəc Məhəmməd ibn əl-Hüseyn əl-Kakuyinin[*] dövründə (XI əsrin sonlarında) "torpağına göylərin həsəd apardığı" çiçəklənən bir diyara çevrilmişdi[4]. Şirvanşah və onun vəziri savadlı şəxsləri himayə edirdilər. I Fariburzun sarayında ərəb dilində mədhiyyələr yazan şairlər toplanmışdı. Ərəb şairi əl-Qəzzinin bu diyara səyahət etməsi ərəbdilli poeziyanın ənənəvi janrlarının inkişafına təkan vermişdi. Əs-Siləfi kimi sufi, şeyx və alimin Şirvana ziyarəti isə bu

[1] Dostiyev T.M. Orta əsr şəhərlərinin arxeoloji tədqiqinin bəzi nəticələri. II Azərbaycanşünaslar müstəqil birliyinin beynəlxalq elmi-nəzəri yubiley konfransının məruzələr məcmuəsi. Bakı, 2004, s.105.

[2] İbn əs-Sabuni.Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. İraq, 1377/1957, s.316.

[3] Dorn B. Versuch eyner Geschichte der Schirvanschahe, Mem. De I Ac., IV serie, sc. pol. hist. ph, N, p.552; Mehrəliyev E.Q. Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər), Bakı, "Çaşıoğlu", 2000, s.11.

[*] Qeyd: Məsud ibn Namdar onu vəzirlər oğlu və nəvəsi kimi qələmə verir (Бейлис В.М. Масуд ибн Намдар.... 1970, лист 13а.

[4] Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М. Бейлиса. Москва, «Наука», 1970, л. 13 b; Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı, "Elm", 1984, s.142.

diyarda fiqh və sufilik, eləcə də hədis elminin geniş yayıldığını göstərir. Əs-Siləfinin Şirvana səyahətinin əsas məqsədi hədis toplamaq, orada yaşayıb-yaradan hafizlər, ilahiyyatçı alimlər, mühəddislər, qarelər, vaizlər barədə eşitdiklərini dəqiqləşdirmək, onların həyat və yaradıcılığı, inamı haqqında yeni məlumat əldə etmək olmuşdur[1]. Şirvan elmi mühitinin əsas iştirakçıları Şirvanda fəaliyyət göstərmiş ziyalılar idi. Əz-Zərəndi kimi tanınan qazı Əbülqasim əl-Həsən ibn Mumşaz əl-İsfahani Şirvanda kəramət sahibi idi. Həmin qazı varid olanda oradakı digər qazı həmədanlı Əbu Bəkr Əhməd ibn Səhl ibn Sirri öz fətvasından əl çəkərək demişdi: “O bunda məndən üstündür”[2]. Şirvan alimlərinin sorağı uzaq Misirdən də gəlirdi. Hədis sorağı ilə Şirvandan Misirə səfər etmiş Əbdülcabbar ibn Mələkdad Əbu Bəkr əş-Şirvani orada qalaraq tədrislə məşğul olmuşdur. İbn Cabir əl-Həmədani (v.e. h.585-də Qahirədə) onun mühazirələrini dinləmişdi[3].

III Mənuçöhrün hakimiyyətdə olduğu 40 il ərzində (514-555/1120-1160) də Şirvanşahlar dövləti özünün inkişafı dövrünü yaşamışdır. XII əsrin görkəmli ədibi, alim, otuz ilə yaxın Xarəzmşah Atsızın “Divani-inşa”sının başçısı olmuş Rəşidəddin Vətvat (h. 471-487) Şirvanşah Mənüçöhrə yazdığı tərcibənddə Şirvan dövləti və Şirvanşahlar ocağının güc və bacarığından, “Şirvanşahların sözükeçərliliyinin Rumun ən ucqarlarına belə gedib çatdığından danışır. Mənüçöhr ölkəsinin görən gözü, Şərq və Qərb hökmdarlarının başçısı kimi yazıya alınmışdır[4]. Rəşidəddin Vətvat Şirvanşahlar və Mənüçöhrün bütün bu keyfiyyətlərilə yanaşı elmin qayğıkeşi olmasından da danışır.

Bu tərəqqi özünü mədəni mühitdə də tapmışdı. Şair Fələki Şirvani[5], bütün Yaxın Şərqdə şöhrət tapmış, Azərbaycanda şeir məktəbini yaratmış görkəmli şairlər, “məlik əş-şüara” - “şairlər şahı” adlandırılan Əbül-

---

[1] Əliyeva N.A. Əbu Tahir əs-Siləfi və Şirvanın bəzi görkəmli şəxsiyyətləri// Azərbaycan Tarixi Muzeyi - 2006, Bakı, “Elm”, 2006, s.27.

[2] İbn əs-Sabuni.Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma’ va-l əlqab. Mustafa Cavadın nəşri. İraq, 1377/1957, s.316

[3] Yenə orada, s.7

[4] Qətran Təbrizi. Divan.1333, s.496-500; Kəndli Q. Xaqani Şirvani və Xarəzmşahlar ocağı//Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr. Bakı, “Elm”, 1985, s.48-88.

[5] Cəlaləddin Məhəmməd Fələki Şirvani (v.e. 1181).



*Şirvanşah Axsitan Bakı limanında. Rəssam Oqtay Sadıxzadə*

Üla Gəncəvi, Xaqani, Mücirəddin Beyləqani[1] III Mənüçöhrün sarayında cəm olmuşdu[2]. Mədhiyyəçi Cəlaləddin Məhəmməd Fələki Şirvani (v.e.1181) sarayda "şairlərin şahı" titulunu qazanmışdı. "Fələki" ləqəbini isə görünür münəccimliklə məşğul olduğuna görə almışdı. Fələki vəfat edərkən kürəkəni Xaqani ona uzun bir mərsiyyə də yazmışdı[3].

Şirvanşah I Fariburz kimi, Mənüçöhr də filosof, şair və alimlərin qayğısına qalırdı. Bu işin icrasına nəzarəti vəzirlərindən biri - Əmin əd-Din əl-Əxrasiyə həvalə etmişdi. Fələki Şirvani bu vəzirin Şirvandakı filosof, həkim, astroloq, şair və ənənəçilərə hamilik etməsindən bəhs edir[4].

Mənuçöhr vəfat edəndən sonra elm və incəsənətə hamiliyi davam etdirən Axsitan (v.e.1188-1194-cü illər arasında) onun yerinə keçdi. Nizami Gəncəvi də özünün "Leyli və Məcnun" poemasını 1188-ci ildə Şirvanşah Axsitanın sifarişi ilə yazmışdı[5]. Şair əsərində onun fəaliyyətini yüksək qiymətləndirmişdir.

Xaqani Şirvani (1126-1199) yeni şahın yeni seçdiyi paytaxtda - Bakıda qərarlaşdı[6]. Saray şairi kimi qəbul edilən Xaqani, uzun illər şairlik yaradıcılığının bir qolunu Axsitan, onun ailəsi və saray əyanlarına mədhiyyə

---

[1] Mücirəddin əl-Beyləqani haqqında bax: Mücirəddin Beyləqaninin Cahan Pəhləvanın adına yazdığı qəsidədə iki tarixi hadisə haqqında//Az.SSR EA Tarix İnstitutu və ADU-nun Tarix Fakültəsinin gənc alimlərinin ÜİLGİ-nin yaradılmasının 65-illiyinə həsr olunmuş elmi konfransın tezisləri. Bakı, 1983, s.60.

[2] Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку, Изд-во АзФАН, 1940, стр.27-70.

[3] Fələki Şirvaninin bioqrafiyası haqqında bax: К.Залеманн. Четверостишие Хакани. Спб. 1875, стр.15; Крымский А.Е. Персидская литература периода междоусобного разложения сельджукского царства (XII-XIII в.), стр.147.

[4] Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı, "Azərnəşr", 1997, s.160.

[5] Yusifli X. İnsan dühasının əlçatmazlıq nümunəsi.//Nizami Gəncəvi. Leyli və Məcnun. Tərcümə edəni: S.Vurğun. Bakı, "Lider", 2004, s.5.

[6] Крымский А.Е. Персидская литература периода междоусобного разложения сельджукского царства (XII-XIII в.), стр.148.

yazmaqla məşğul olmuşdur. Bu mədhiyyələr şairin divanının xeyli hissəsini təşkil etsə də, gələcək nəsillər üçün yaddaqalan hissə onun Şirvanşah və saray əyanlarına yazdığı həcvləridir. Şairin daha sonrakı dövr yaradıcılığında digər hakimlərə həsr etdiyi qəsidələr əsas yer tutur. Xaqaninin Şirvanın süzereni atabəy Qızıl Arslana (1186-1191), Şərqi İranın əzəmətli sultanı Xarəzmşah Təkəş (1172-1200) və digər dövlət başçılarına, o cümlədən, Bizans imperatoru İohan Komnenin qardaşı olan Kipr hökmdarı İsak Komnenə[1] həsr etdiyi qəsidənin Azərbaycanın beynəlxalq əlaqələrinin öyrənilməsində rolu vardır.



*Əbu Bədil Əfzələddin İbrahim ibn Əli Nəccar ibn Osman ibn İbrahim Həqaiqi Həssanul-Əcəm Xaqani Şirvani (1126-1199)*

Xilafətin müxtəlif bölgələrindən olan alimlər elm-bilik mərkəzlərinə daima can atmış, səyahətlər etmişlər. Nişapur, Qahirə, İsgəndəriyyə, Bağdad, Beyləqan, Samaxı, Bərdə və s. şəhərlərdə öz potensiallarını nümayiş etdirən dövrünün görkəmli alimləri daha da məşhurlaşmış, böyük elmi və dini mərkəzlərdə qalaraq elmin zirvələrini fəth etmiş, bəziləri müdərris qismində elə həmin mərkəzlərdə qalaraq çalışmış, fəaliyyət göstərmişlər. Belə mərkəzlər içərisində, IX əsrin ortaları - X əsrlərdə tərəqqi dövrünü keçirmiş Bağdadın XI-XII əsrlərdə xüsusi çəkisi xeyli artmışdı. Sözsüz ki, bu missiyanın yerinə yetirilməsində bölgədəki Nizamiyyə mədrəsəsinin əvəzolunmaz rolu qeyd olunmalıdır. Bu mədrəsədə Şirvan alimlərinin özünəməxsus yeri olmuşdur. Ziyalılarımız elmi-mədəni səviyyələrini artırmaq məqsədilə Nizamiyyə mədrəsəsini ziyarət edərək burada elmi mübadilə aparır, həqiqətin dərkinə çalışırdılar. Bağdada səfər edən şirvanlı şair Xaqani Bağdad alimlərinin elmi məclislərində iştirak etmişdir. Onun ərəbcə oxuduğu xütbəni Bağdad

[1] İsaq Komnen Kipri 1182-1191-ci illər arasında idarə etmişdir. Sonra burada Komnenlərin hakimiyyəti ləğv edilmişdi. Buna səbəb hərbi zadəğan xristianların adada özlərinin xüsusi xristian krallığının yaradılması olmuşdur. Krallığa 1489-cu ilə qədər Luzinyan sülaləsi başçılıq etmişdir. Bax: Крымский А.Е. Персидская литература.., стр.149.

alimləri dərindən alqışlamışlar. Şairimizə "Dəbiri-ərəb" ləqəbi verilmişdir[1]. Bağdad xəlifəsi ona öz yanında qalıb dəbir (münşi) olmağı təklif etdikdə ana yurdunu sevən vətənpərvər şair demişdi: "Mən dəbir deyil, vəzir olmağa belə razı deyiləm, Şirvanda məni anam gözləyir" – deyə, bu təklifi qəbul etməmişdı[2]. Bağdada tériflər yağdıran şairimiz Xilafətin paytaxtına həsr etdiyi şeirində Misirlə müqayisədə üstünlüyü Bağdada vermişdir.

Bağdada köçərək burada fəaliyyət göstərən şirvanlı alimlərdən Məhəmməd ibn Uşeyr ibn Məruf Əbu Bəkr əş-Şirvani (v.e. 547/1152) haqqında məlumat verən əs-Safadi onu dövrünün Hibbətullah ibn Mübarək ibn əs-Sakti kimi görkəmli alimi ilə yanaşı qoyur. O qeyd edir ki, Əbu Bəkr əş-Şirvani elmi Şirvan alimlərindən almışdır[3].

Nizamiyyədə ən layiqli, kamil biliyə malik mütəxəssislər çalışırdılar. Şirvan elmi-ədəbi məktəbinin yetişdirmələri bu baxımdan xüsusi nüfuz sahibləri olmuşlar. Şamaxıda doğulmuş Qəvaməddin Yusif ibn Mənsur ibn İbrahim əş-Şirvani (v.e. 1258) vətəni Şirvanda təhsil almışdı. Şirvan elmi-ədəbi məktəbinin yetişdirməsi kimi məşhurlaşdığı üçün Nizamiyyə mədrəsəsinə dərs deməyə dəvət olunmuşdu. Elmi–asami (onomastika) sahəsində əsərlərin müəllifi və müqayisəli qrammatika üzrə məşhur alim olmuşdur. Onun fəlsəfədən də dərs deməsi məlumdur. İbn əl-Fuvati onun öz əli ilə qazılara yazdığı təlimatı gördüyünü qeyd edir[4].

Şirvanın adlı-sanlı ziyalılarından sayılan Əbdülcabbar ibn Məlikdad Əbu Bəkr əş-Şirvani Misirə səyahət etmiş, orada dərs demişdir. İbn Cabir əl-Həmədaninin (v.e.h.585/1189-da Qahirədə) bir alim kimi yetişməsində Əbu Bəkr Məlikdad əş-Şirvaninin böyük rolu olmuşdur[5].

Güclü feodal hakimlərdən olan Şirvanşah I Mənuçöhr özünün hakimiyyəti illərində dövrün mədəni-intellektual qüvvələrini səfərbər edərək, diyarın

---

[1] Kəndli Q. Xaqani Şirvani. Həyatı, dövrü, mühiti. Bakı, "Elm", 1988, s.42.

[2] Xaqani Ş. Ürək döyüntüləri (seçilmiş əsərləri)/Tərtib, müqəddimə, lüğət və şərhlər Məmmədağa Sultanovundur. Bakı, "Yazıçı", 1979, s.5.

[3] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья третья)//Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1980, №2, стр.61; Takiəddin əs-Sübki. Tabəqat əş-Şafiiyyə əl-kubra. IV c. Qahirə, s.149.

[4] Сеидбейли М.Г. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.). Баку, «Чашыоглу», 1999, стр.118.

[5] Сеидбейли М.Г. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.). Баку, «Чашыоглу», 1999, s.7.

elm və poeziya mərkəzinə çevrilməsi üçün müstəsna iş görmüşdür. XIII əsr müəllifi, Marağa rəsədxasının kitabxanasına başçılıq etmiş İbn əl-Fuvati (1244-1326) Şirvanın müdərrisi, həm də qazısı olmuş Təbriz sakini Məcdəddin Əbülməcd əş-Şirvani barədə xəbər verir. İbn əl-Fuvati hər iki vəzifəni icra edən bu şəxsiyyətin elmi keyfiyyətlərini də açıqlayır: alim, şeyx, çoxsaylı təfsirlər bilən fəqih, disput aparmaq məharətinə malik olan Məcdəddin Şirvani gecə-gündüz öz üzərində çalışırdı[1].

Digər tərəfdən, Şirvan həm də Xilafətin elm adamlarının toplaşaraq elmi məclislərdə iştirak etdikləri məkanlardan olmuşdur. Belə şəxsiyyətlərdən biri də bütün Şərqdə məşhur olan Əbunnami Sədəqə ibn İbrahim ət-Tənəvvuxi əl-Məərridir. Babul-əbvab sakini, tacir Əbülfəth Əhməd ibn Səid ibn Həmdan əl-Fariki nəql edir ki, Şirvanda olarkən Əbunnami Sədəqə ibn İbrahim ət-Tənəvvuxi əl-Məərri də onunla bir yerdə toplaşanlar arasında olmuşdu. Əbunnami ona Nizamülmülkün şəninə bir mərsiyyə də söyləmişdir: “Nizam Əbu Əli bütün aləmin rəhbəri, dinin imamı idi. Onu zülmlə öldürməklə insanlar üçün gündüz gecəyə döndü. Onlar sadəcə bu böyük şeyxi öldürmədilər, əslində bütün camaatı və İslamı öldürdülər”[2]. Mərsiyyə şairin bu böyük şəxsiyyətə böyük ehtiramını göstərməklə bərabər, həm də Şirvanın o dövrdə şeir məclisləri və yarışmalarının, elm-bilik disputlarının təşkil olunduğu mədəniyyət mərkəzlərindən olduğunu bir daha təsdiqləyir.

Şamaxı şəhəri mühüm sənətkarlıq və ticarət mərkəzi olmaqla yanaşı, maarif və mədəniyyət mərkəzi olmuşdur. Şamaxıda məktəblərdə sxolastik dini elmlərlə yanaşı ərəb dilinin sərf-nəhvi, fars şairlərinin əsərləri, eyni zamanda təbabət, nücum elmləri də öyrədilirdi. Elmlə yanaşı incəsənət, xüsusilə memarlıq yüksək səviyyədə inkişaf etmişdi ki, dövrümüzə qədər mühafizə edilmiş bir çox_memarlıq abidələri, qeyri-incəsənət nümunələri bunun şahidləridirlər[3].

Azərbaycan alimlərinin şəxsi kitabxanalarından biri Şamaxıda yerləşirdi. Şair Xaqani Şirvaninin əmisi, zamanın savadlı, görkəmli alimi Kafiəddin Ömər ibn Osmanın şəxsi kitabxanasında elmin müxtəlif sahələrinə aid zəngin əlyazmaları olmuşdur.[4] Qayınatası və dostu olmuş

[1] Там же, стр.118.
[2] əs-Siləfi. Mucəm əs-Səfər, №78.
[3] Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. I cild, Bakı, 1960, s.64
[4] Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, 1987, s.65

Fələki kimi, Xaqani də Şirvanşahları tərənnüm edən şeirlər yazmışdır.

İndiyədək yazılı mənbələrə və arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət tapıntılarına istinadən demək olar ki, Şirvanda elm və mədəniyyətin inkişafı üçün real zəmin, yəni islamaqədərki mədəni irs olmuşdur. Şirvanşahlar dövlətinə xas olan mühüm xüsusiyyətlərdən biri, onun şəhər və kəndlərində elm, ədəbiyyat və dinin sintezindən ibarət özünəməxsus mədəni mühitin münbit zəmində formalaşmasıdır. Tədqiqatçı H.Ciddi Şamaxı üçün proqressiv halı onun elm və mədəniyyətinin inkişafında görürdü. Şamaxı şəhərində elm və mədəniyyətin inkişafı isə bilavasitə şəhərin özünün, iqtisadiyyatının, ticarət və mədəni əlaqələrinin formalaşmasına təsir edirdi. O, əlavə olaraq göstərirdi ki, Şamaxı bu cəhətdən digər Azərbaycan şəhərlərindən seçilirdi. Müəllifə görə, bu, tarixi mərhələlərdə şəhərin təkcə şimaldan və cənubdan gələn müxtəlif etnik qrupların deyil, həm də karvan yollarının kəsişməsində yerləşməsiylə izah olunurdu[1].

Şirvanlı alimlərin istər vətəndə, istərsə də digər mədəniyyət mərkəzlərindəki fəaliyyətləri göstərir ki, burada elmi-intellektual fəaliyyət üçün real şərait formalaşmışdı və elmi-mədəni fəaliyyətin ön plana çəkilməsi, Azərbaycanı Şərq dünyasında önəmli ziyalıları olan mədəni mərkəzlərdən biri qismində şöhrətləndirmişdi.

Şirvanşah Fariburz ibn Salların (456/1063-489/1096) hakimiyyəti dövründə demək olar ki, əyalət şəhəri olan Beyləqanda müsəlman, kafir, xristian və yəhudi dini qrupları olmuşdur. Şirvanşahların hakimiyyəti xeyli güclənmişdi. Şamaxıda baş verən güclü zəlzələdən sonra paytaxtı Bakıya köçürən Şirvanşah I Axsitan (1163-1196/97) burada ilk dəfə donanma yaradır. XII əsrdə Bakı limanının əhəmiyyəti daha da artır. Buna baxmayaraq, Şirvanşahlar sülaləsi də tam müstəqil deyildi, əvvəl

---
1 Джидди Г.А. Средневековый город Шемаха IX-XVII века. Баку, «Элм», 1981, стр. 72

Azərbaycan səlcuqiləri qoluna, sonralar isə İraq hökmdarlarına tabe idi[1].

Ərəblərlə bərabər Xəlifə tərəfindən mütəğəlliblərə[*] qarşı müharibəyə göndərilən və əl-Yəqubiyə görə, Bab əl-Əbvab və onun ətrafı 851-ci ildə qələbə ilə qayıdan Məhəmməd ibn Xalidə (844-856) verildi. Həmin vaxtdan islamın mövqeyinin güclənməsində ərəblərlə birlikdə bu sülalə də öz rolunu oynamağa başladı. Məhəmməd ibn Xalid Şirvanda hakimiyyəti dövründə, qonşuluqdakı "kafirlər" üzərinə yürüşlər etmişdir. X əsr müəllifi əl-Məsudinin Şirvan və Şirvandan şimalda yaşayan hakimlərin müsəlman olub-olmamasını vurğulaması nəinki xalqlar, hakimlər arasında belə müxtəlif dinlərə etiqad edənlərin olması gümanına gətirir[2]. Məsud ibn Namdarın məlumatına görə, lakların islamlaşması üçün Şirvanşah çox səy göstərmişdir. Şirvanşahın özü bəyan etmişdi ki, "onlardan (laklardan-N.Ə.) xərac və ya hər hansı bir vergi istəmir, onun istəyi yalnız budur ki, qumıqlar arasında islam dinini yaymaq üçün lakların köməyinə arxalana bilsin"[3]. Mənşəcə ərəb olan ilk Məzyədilərin islam ehkamlarına sadiqliyi onların "kafir" qonşulara qarşı arasıkəsilməz yürüşlərində özünü daha çox büruzə vermişdir. Lakin, qeyd etmək lazımdır ki, Şirvanşahlar dövlətinin strategiyası tək müharibələr vaxtı deyil, sülh dövründə də həyata keçirilirdi. Məhəmməd ibn Yəzidin oğlu II Heysəm ibn Məhəmməd bütpərəst inamlarını mühafizə edən kafirlərə qarşı müharibələri davam etdirməklə yanaşı, anbarlar tikdirmiş, yığılan bütün məhsulu qazilər və döyüşçülər arasında bölüşdürmüşdü. Bu yürüşlər onun oğlu Əli ibn

---

[1] Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку, Изд-во Аз ФАН, 1940, стр.13.

[*] Mütəğəllib - qalib gəlmiş mənasını verən ərəb sözüdür. Mütəğəllib adlandırılan ərəblər separatçı qismində mərkəzi hakimiyyətə qarşı çıxışlar törədirdilər. Burada Yesai Əbu Musanın separatizmi də qeyd olunmalıdır. IX əsrin axırları-X əsrin əvvəllərində Xilafətdəki şəraitlə əlaqədar olaraq knyazların və mütəğəllib deyilənlərin sepatatizmi o dərəcəyə çatmışdı ki, Xilafət heç də hər zaman onların öhdəsindən gələ bilmir və çox vaxt güzəştə gedirdi. (Bax. Azər. VII-IX əsrlərdə, s.183.)

[2] Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, "Azərbaycan", 1993, s.52.

[3] Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975, стр.31; Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М. Бейлиса. Москва, «Наука», 1970, лист 123b.

Heysəmin zamanına qədər davam etmişdir. Bu Şirvanşah h. 300-cü (912) ildə Dərbənd əmiri ilə birlikdə xristianlar yaşayan Şandana etdiyi yürüşdə məğlub olaraq əsir düşmüşdü. Məzyədilərdən Şirvanşahlar titulunu ilk dəfə h. 247/861-ci ildə Şirvanın hakimi Heysəm ibn Xalid qəbul etmişdir[1]. O, əl-Mütəvəkkilin ölümündən sonra Şirvanı idarə etməkdə müstəqil siyasət yürüdürdü. Şirvanın tarixində islam dini uğrunda kafirlərlə vuruşan bir neçə Şirvanşahdan Heysəmin adı xüsusi qeyd edilir. Bu Şirvanşah taxta oturduğu vaxtdan bu yöndə fəaliyyətini davam etdirmiş, 861-ci ildə "Sərir ölkəsində kafirlərlə döyüşmüşdür". Onun oğlu Məhəmməd ibn Heysəm ibn Xalid "ədalət məhkəməsini həyata keçirərək", və "kafirlərə qarşı vuruşaraq" atasının işini davam etdirmiş, Məhəmmədin oğlu Heysəm isə öz növbəsində "kafirlərə qarşı bir çox yürüşlər" keçirmişdir[2].

X əsrdə Xilafətdə parçalanmanın başa çatması, ərəbdilli mədəniyyətin canlanmasına nəinki mənfi təsir göstərdi, əksinə bir-biri ilə rəqabətə girən yeni-yeni siyasi-mədəni mərkəzlərin meydana gəlməsinə səbəb oldu. Belə ki, tacirlərin ardınca elm-sənət adamları da Xəzər hövzəsi ölkələri ilə mədəni əlaqələrini genişləndirməyə başladılar. Artıq bu dövrdə ticarət əlaqələrinin davamı kimi, ziyalılar arasında da mədəni əlaqələr genişləndi. Bərdə, Gəncə, Şamaxı, Bab əl-Əbvab, Təbriz, Marağa, Naxçıvan və digər Azərbaycan şəhərlərindən olan ziyalıların sədası Mərkəzi Asiya şəhərlərindən gəlməyə başlayır. Abbasilər imperiyasının siyasi süqutu və Bağdad hakim dairələrinin tənəzzülündən sonra, mərkəzi hakimiyyətin və Bağdad ideoloqlarının elmə və dinə nəzarətinin zəifləməsi, Xilafət tərkibində olan vilayətlərin, o cümlədən Azərbaycanın ziyalı mühitinin çiçəklənməsi ilə paralel gedirdi. Kramer qeyd edir ki, hakimiyyət birliyinin itirilməsi müəyyən dərəcədə və müəyyən vaxt ərzində ayrı-ayrı ölkələr arasında daha sıx mədəni yaxınlaşma ilə əvəz edildi[3]. Digər tərəfdən, bu dövr həm də məzhəblərin yaranma və yayılması dövrüdür.

---

[1] Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку, «Азернешр», 1983, стр.75; Бартольд В.В. Ширваншах.Сочинения, т.II, ч.1. Москва, 1965, стр.875; Dorn B. Geografica caucasica.-"Memoires de'l Acad. imp.de sciences de St.-Petersbourg", VI-e ser., sciences politiques, histoire, filologie, t.VII, 1848, hh.544.

[2] Минорский В.Ф. История Ширвана и Дербенда. Москва, 1963 г., стр.46-47.

[3] Бартольд В.В. Изб. Сочинения. Москва, «Наука», т.VI, 1966, стр.281.

Dini polemikanın canlanması isə dini mövzuda yazılmış əsərlərin sayının artmasına gətirib çıxarmışdı.

Xilafətdən sonrakı "Yerli müstəqil dövlətlər mərhələsi"ndə IX əsrin sonlarına yaxın Şirvanşahların mərkəzdən asılı olmayan siyasət yürütmələri, digər vilayətlərin canişinlərini də mərkəzdən ayrılmağına sövq edirdi[1]. Yeni gəlmişkən, ərəb müəlliflərinin məlumatına əsaslanaraq qeyd etmək olar ki, müstəqilliyə meyl edən bu canişinlərin bəzisi müxtəlif dini cərəyan və baxışların nümayəndəsi idi. İbn Miskəveyhin yazdığına görə, Azərbaycanda Salarilər dövlətini yaradan Mərzuban batinilər[*] təriqətinə meyl göstərirdi[2]. Deysəm isə təriqət etibarı[3] ilə xürrəmilərə[4**] mənsub idi.

IX əsrdə xəbərdarlıq etmədən, islamı yaymaq üçün yalnız zor gücündən istifadəyə yer verilməsi bu dövrün xüsusiyyəti kimi qeyd edilə bilər. Məhəmməd Rəfi Şirvaniyə görə, Həmzənin qızı Ümmatın nəslindən olanlar Şam və Misirdən sonra müharibə meydanı olan Çərkəz ölkəsinə

---

[1] Vəlixanlı N.M. Naxçıvan-ərəblərdən monqollaradək (VII-XII). Bakı, "Elm", 2005, s.59.

[*] Batinilər-gizli məna tərəfdarları. Şiələrin VII imamı İmam ibn Cəfərin adlarından biri. Batinilər Quranın kəlimələrində gizli-batini məna axtarırdılar (bax: аш-Шахристани. Книга о религиях и сектах.Перевод с арабского,введение и комментарии С.М. Прозорова, Москва, 1984, стр.202)

[2] İbn Miskəveyh. Təcərib əl-Uməm. EJW. Gibb. Memorial. vol VI, 1917, s.66.

[3] Şərifli M.X. IX əsrin ikinci yarısı - XI əsrlər Azərbaycan feodal dövlətləri. Bakı, "Elm", 1978, s.128.

[**] Qeyd: xürrəmilər və ya xürrəmdinilər ilkin məzdəkilərin etiqadlarını "ifratçı" şiələrin ideyaları ilə birləşdirib öz təlimlərində barışdıran icmaların ümumi adıdır. Məsələn, Abbasilər çevrilişinin əsl təşkilatçısı Əbü Müslimin edamından (753-cü il) sonra yaranmış Abbasi şiələri icmalarına xürrəmilər adı verilmişdi. Xürrəmilər adı Əbü Müslim tərəfdarlarının ilk dəfə özlərini tanıtdırdıqları yerin – Ərdəbilin Xürrəm rayonunun adından yaranıb. Onların bir qismi Əbü Müslimi Mehdi hesab edərək, onun qayıtmasını gözləyirdi. Digər qismini isə onun qızı Fatimənin imamətini qəbul etdiyi üçün Fatimilər, yaxud da Əbumüslimilər adlandırırdılar. Yaqut əl-Həməvi şair Mis`ara istinad edərək yazır: "Bəzzdə sahəsi 3 carib (4776 m) olan yer var. Deyirlər ki, burada ayaq qoyulan elə yer var, əgər kimsə onun üstünə çıxıb Allaha niyyət etsə bu niyyət mütləq eşidilər. Babək bu yerdəndir və əl-Mehdini də burada gözləyirlər" (Nərgiz Əliyeva. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu", 1999, s.149-150). Xürrəmilər Əbü Müslimi Mehdi hesab etdiklərindən və xürrəmilərin bayraqlarını qaldırdıqları bu müqəddəs yerdə gözlədiklərindən yuxarıda deyilən fikin düzgün olduğunu bir daha təsdiq edə bilərik.

gəlib çıxdılar. Uzun cəhddən və Qaytaq vilayətinin əmiri Qəzənfəri öldürdükdən sonra mal-dövlətini və xəzinəsini ələ keçirib əhalisini də müsəlman etdilər[1].

IX əsrdən XI əsrə qədər olan üç əsr ərzində müsəlman mədəniyyəti özünün üstünlüyünü daha qabarıq şəkildə göstərir. Bu fərqli xüsusiyyəti Dərbəndin şimalında yerləşən Şandanın islamlaşması timsalında görmək olar. Şandan əl-İstəxriyə (IX əsr) görə, kafirlər ölkəsi idi. H.423/1040-cü ildə rəis Əli ibn Həsən "dərbəndlilərlə birlikdə Şandan üzərinə islami yürüş təşkil etdi[2]. Yaqut əl-Həməviyə görə, Şandanın hakimi (III c., s.328) əl-Müqtədinin dövründə (yəni, 1040-1070-ci illər arasında) xristianlıqdan islama keçdi.

Tədqiqatçı T. Aytberovun fikrincə, Şandanın islama keçməsi, bir tərəfdən islami yürüşlə, digər tərəfdən isə müsəlman mədəniyyətininin üstünlüyü ilə bağlı idi[3].

Yaxın Şərq tarixində X əsrin sonu, XI əsrin əvvəlləri iğtişaş və hərc-mərclik dövrü adlandırılır. X əsrin ortalarından etibarən, Bağdad xəlifələrinin siyasi həyatda rolu, Xilafəti hissələrə bölən canişinlərin hakimiyyətini təsdiq etməklə məhdudlaşırdı. Xilafət daxilindəki siyasi qurumlarun özü XI əsrin əvvəllərindən artıq tənəzzül vəziyyətində idi[4]. Xilafətin birliyi çoxdan nəzəri məfhuma (anlayışa) çevrilmişdi. Bircə onu demək kifayətdir ki, XI əsrin əvvəlində "yeganə qanuni xəlifə" əvəzinə üç xəlifə var idi (İspaniyadakı Əməvilər xəlifəsi, Misirdə Fatimilər xəlifəsi və İraqda Abbasilər xəlifəsi). Abbasilər Fatimi xəlifələri timsalında tək siyasi rəqiblərini görmürdülər. Fatimilər özlərinin ələvi genealogiyalarına

---

[1] Bakıxanov A.A. Gülüstani İrəm. Bakı: Möminin intişaratı, 2001, s.70. (A.A. Bakıxanova görə, Məhəmməd Rəfi Şirvani h.712 (1313) tarix kitabını yazarkən h.318(931) yazılan bir əsərdən istifadə etmişdir. A.A. Bakıxanov bu məlumatı verərkən müəllifin 1030 (1617)-ci il nüsxəsindən istifadə etmişdir. Bu isə məlumatın etibarlı olmasını təsdiq edir.)

[2] Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. Москва, «Восточная.литература», 1963 г., стр.72.

[3] Айтберов Т.М. Центральная часть Восточного Дагестана в VIII-XIII вв. (к хронологии и борьбы с мусульманами)/Освободительная борьба народов Дагестана в эпоху средневековья. Махачкала, 1986, стр.36.

[4] Xilafətin şərq vilayətlərinin X əsrin sonu-XI əsrin əvvəlli haqqında ümumi xarakteristikası haqqında bax: Spuler, Iran, S.113-118, 128-129.

əsaslanaraq, müsəlmanların dini rəhbərliyi iddiasındaydılar[1]. Bu da göstərilən dövrdə Yaxın Şərqin siyasi tarixində mühüm hadisə idi[2].

Xilafətin parçalanmasının başa çatdığı X əsrdə Azərbaycan ərazisində hadisələr əvvəllər olduğu kimi cərəyan edirdi. Bir çox ərəb əmirləri müstəqil hakimə çevriləndən sonra da kafirlərə qarşı yürüşdən əl çəkməmişdilər. Kafirlərlə sərhəddə yerləşdirilən Məzyədilər və Müsafirilər də bu cəhətdən xüsusilə fərqlənirdilər. Hakimiyyətdə olan sülalələr nəsillər boyu bu işi davam etdirmişlər. 970-ci ildə Müsafiriləri Arrandan qovan Şəddadilər buranı idarə etməyə başladılar[3]. Şəddadi əmiri Məhəmməd ibn Şəddadın gördüyü ilk tədbirlərdən biri Dəbilin möhkəmləndirilməsi və lakların hücumlarının qarşısının alınması idi. Görünür, Arranda laklarla toqquşma və onların Arrana daxil olması faktları tez-tez baş verirdi[4]. Dəbilə ermənilərin və başqa "kafirlərin" başçılığı ilə lakların hücumu haqqında da məlumat verilir. 6000 nəfərlik ordu Dəbilə yürüş etmişdi. Belə hadisələr 314-342/952-953-cü illərdə də təkrar olunmuşdu[5]. Münəccimbaşının məlumatına görə, X əsrin ortalarında erməni, lak və digər kafirlər I Şəddadi hakimi Məhəmməd ibn Şəddada qarşı çıxmışdılar. Əl-Həmədaninin "Bab əl-Əbvabın 360 qəsrindən 110-nun müsəlmanların Tabasarana qədərki ərazidə yerləşməsi "haqqında məlumatı[6] islamın təsirinin Dərbənddən çox da uzağa yayıla bilmədiyini göstərir. Deməli, hələ X əsrdə hətta Dərbəndin daxilində belə islamın yayılmasını ləngidən səbəblər olmuşdur.

Xilafətin parçalanmasından sonra Azərbaycanda bir sıra dəyişiklikləri də müşahidə etmək olar. X əsrin sonlarında Arranda bəzi əmirlər öz hakimiyyətini saxlamaq naminə başqa dinə etiqad edənlərin köməyindən istifadə edirdilər. Məsələn, Yusif ibn Əbu Sac Azərbaycanda hakimiyyət

---

1 Бартольд В.В. Халиф и султан.Сочинения, т.VI, Москва, «Наука», 1966, стр.28.

2 Mez, Renaissance, p. 1-3; Lewis, 'Abbasids, p.20; Spuler, Iran*, S.*174-176.

3 Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З. М. Буниятова. Баку, «Элм», 1981, стр.41; Minorsky V. Studies in Caucasian History,-"Cambridge Oriental series", 1953, № 6, p.4.

4 Minorsky V. Studies in Caucasian History,-"Cambridge Oriental series",1953, № 6, p.4.

5 Шихсаидов А.Р. Ислам в средневековом Дагестане (VII-XV вв.). Махачкала, «Дагкнигоиздат», 1969, s.118.

6 Караулов Н. Из книги о странах Ибн ал-Факиха ал-Хамадани. Повествование об Азербайджане//СМОМПК, вып. XXXI, s.11.

başına keçəndə, Ərminiyə hakimi Sumbat (890-914) hədiyyələr göndərərək ona tabe olduğunu bildirmişdi. İohannes Drasxanakertlinin yazdığına görə, Yusif də çar Sumbatı özü tərəfə çəkmək istəyirdi. O, yazırdı ki, Yusif Sumbatın yanına özünün suriyalı xristian katibini göndərmiş və Ərminiyədən toplanacaq dövlət vergisinin Sumbat tərəfindən müəyyən edilməsini onun öhdəsinə buraxmışdı[1]. M.Kalankatlı yazır ki, Sumbat Yusifə müqavimət göstərdiyi üçün öldürülmüşdür. Erməni tarixçisi Vardan isə Sumbatın öldürülməsinə dini don geyindirərək Yusifin Dvində çar olan Sumbatı xristian olduğu üçün boğsunlar və dar ağacından assınlar əmrini verdiyini yazır[2].

"Şirvan və əl-Babın tarixi" əsərinin məlumatına görə, 377/987-ci ildə əl-Baba tabe olmayan şəhər rəisləri tərəfindən sıxışdırılan əmir Maymun ibn Əhməd ruslarla əlaqəyə girmiş, bundan sonra 18 gəmidən biri Dərbəndə yaxınlaşıb əmiri azad etmişdi. İki ildən sonra baş verən hadisə yenə də əmirin ruslara tərəf çıxması ilə nəticələnmişdi. 379/989-cu ildə Gilanlı təbliğçi əmirdən rus qulamlarını təhvil verməyi tələb etmişdi. O, təkid edirdi ki, bu qulamlar ya islamı qəbul etməli, ya da ölümü seçməlidirlər. Lakin əmir taxt-tacı itirmək təhlükəsinə belə məhəl qoymayaraq, təbliğçinin tələbini rədd etdi və qulamlarla birlikdə Tabasarana çəkildi[3]. Arranın hakimi Fəzl ibn Məhəmmədin oğlu Musa ibn Fəzl 421/1030-cu ildə 38 gəmi ilə gələn ruslardan atasına qarşı çəkişmədə istifadə etmişdi. Bu göstərir ki, kafirlərə qarşı mübarizə aparan bu bölgənin hakimlərindən bəziləri üçün artıq islamı yaymaq arxa plana keçmişdi.

Əgər islamın Azərbaycana gəlişinin ilk illərində ərəb əmirləri islama daha çox bağlıydılarsa, islam bayrağı altında qeyri-müsəlman xalqlara qalib gəlmiş ərəb əmirlərindən bəziləri, IX əsrin sonu X əsrdə hakimiyyəti əldə saxlamaq üçün başqa dindən olan xalqların nümayəndələrindən

[1] Şərifli M.X. IX əsrin ikinci yarısı - XI əsrlər Azərbaycan feodal dövlətləri. Bakı, «Elm», 1978, s.95-96.

[2] Вардан. Всеобщая история. русский перевод Н.Эмира, Москва, 1861, стр.111.

[3] Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. Москва, Изд-во вост.литературы, 1963 г., с.153.

istifadə etməyə başlayırlar[1]. Bəzi müəlliflər bunu müsəlman hakimlərinin siyasəti ilə bağlayırlar.

Bu missiyanı əslən ərəb olan müstəqil dövlətlərin hakimləri yerli sakinlərin vasitəsilə həyata keçirirdilər. Bu isə islamlaşmanın əhatə dairəsinin genişlənməsinə, daha çox insanın islamı qəbul etməsinə gətirib çıxarırdı. Y.A. Paxomovun 1935-ci ildə Dəvəçi rayonuna ezamiyyəti nəticəsində tarixi Şabran ərazisindəki müsəlman qəbiristanlığında aşkar etdiyi insan məzarları Azərbaycanın şimal-şərq zonasında islam dininin yayılmasının daha geniş olmasını göstərir[2].

Bu zamandan etibarən burada yerli xalqların oyanması dövrü başlayır. V.F. Minorski bu dövrü obrazlı şəkildə fasilə dövrü kimi qiymətləndirmişdir.

Beləliklə, Xilafətin parçalanmasının başa çatması ərəbdilli mədəniyyətin bütün sahələrinin canlanmasına nəinki mənfi təsir göstərdi, əksinə, bir-biri ilə ilə rəqabətə girən yeni-yeni siyasi-mədəni mərkəzlərin meydana gəlməsinə səbəb oldu. Şirvanın zəngin təbii sərvətlərinə, inkişaf etmiş sənətkarlığına, geniş ticarət əlaqələrinə, əlverişli mövqeyinə görə dəfələrlə hücumlara məruz qalmasına baxmayaraq, onun iqtisadi və mədəni həyatı tezliklə bərpa edilmişdir[3].

360/971-ci ildən Müsafiriləri Arrandan qovan Şəddadilər Gəncəni tam bir əsr ərzində özlərinin paytaxtı etdilər. Bu vaxtdan etibarən onlar burada islamın müdafiəçilərinə çevrildilər. Gürcü baqratidiləri, erməni knyazları, bizanslılar, alanlar və Qafqazın o biri tayında olan ruslara qarşı döyüşlərə başladılar. Şəddadilərdən olan Əbüləsvar I Şavur öz müasirləri arasında din yolunda vuruşan mücahid kimi məşhur idi[4].

*Mötəzili cərəyanı* X əsrin birinci yarısında Azərbaycanda da geniş yayılmışdı. Əslən bərdəli olan Əbu Bəkr Məhəmməd ibn Abdulla əl-Bərdəi (350/961) də mötəzili idi. İbn ən-Nədimin (X əsr) müəllifi olduğu

---

[1] Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. Москва, «Восточная литература», 1963 г., стр.68.

[2] Пахомов Е.А. Отчет о поездке в Дивичинский район в 1935г. НАНА НАИИ, инв.№320. стр.10-11.

[3] Ализаде А.А. Некоторые сведения о Ширване (до начала XIII в.). Изв. АН. Аз.ССР № 12, 1947, стр.9.

[4] Босворд К.Э. Мусульманские династии. Москва, «Наука», 1971, стр.133.

"Əl-Fihrist" kitabı onun mötəzili məzhəbinə mənsubiyyətini bildirən ilk mənbədir[1]. Alimlə şəxsən tanış olan İbn ən-Nədim onu h.340/ 951-952-ci ildə gördüyünü yazır. Əbu Bəkr əl-Bərdəi ilə söhbətindən onun mötəzili olmasını aydınlaşdıran İbn ən-Nədim əsərində bərdəli alimin əsərlərinin də adını çəkir[2]. Biblioqraflardan İbn ən-Nədimlə birlikdə Xətib əl-Bağdadi (1002-1071) və İbn Həcər (1372-1449) də digər bir həmyerlimiz – Əbülhəsən Əhməd ibn Ömər ibn Abdulla əl-Bərdəini mötəzili cərəyanının görkəmli nümayəndəsi kimi təqdim etmişlər. Ərəb müəlliflərinin əsərlərində qeydə alınan məşhur mötəzililərdən Əbu Əli Məhəmməd əl-Cübbəi haqqındakı məlumat bu nəcib və görkəmli alim-mütəkəllim Əbülhəsən əl-Bərdəidən götürülmüşdür.

Dinlə bidət[*] arasında gedən açıq mübarizənin çox vaxt ağır faciələrə gətirib çıxarması X əsrdə Bəsrədə yaranmış "İxvan əs-Səfa" cəmiyyətini gizli fəaliyyət göstərməyə məcbur edirdi. Cəmiyyətin yaradıcıları mövcud dinlər arasında mahiyyətcə fərq qoymur və göstərirdilər ki, insan öz etiqadında sərbəst olmalıdır. Həmin mütəfəkkirlərə görə, elmi biliklərə və yüksək əxlaqi keyfiyyətlərə yiyələnməklə mənən "saflaşmaq", kamilləşmək mümkündür. Bu cəmiyyətə Mərkəzi Asiya, Suriya, İran və başqa yerlərlə birlikdə Azərbaycandan olan elm adamları da toplaşmışdı. Onun üzvləri riyaziyyat və təbiət elmlərini, psixika məsələlərini, ilahiyyatı və dini-hüquqi elmləri əhatə edən risalələr (nəsihətnamə) yazmışdılar[3]. Bu risalələr

---

[1] Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, "Elm", 1978, s.20.

[2] İbn ən-Nədim. s.237.

[*] Bidət - dində olmayan şeyi qanun kimi dinə daxil etmək. İslam dinində böyük günahlardan biri sayılır və şəriət qanunlarına təcavüz kimi baxılır. İslam dinində qanuna ehtiram göstərmək ən mühüm məsələlərdən biridir. Hər bir kəs qanuna etinasızlıqdan və yaxud qanuna əl gəzdirib onu dəyişdirməkdən ciddi surətdə çəkinməlidir. Bu məsələ İslam dinində o qədər əhəmiyyətlidir ki, bu dində ilahi qanunu dəyişdirən şəxs üçün edam hökmü təyin olunmuşdur. Qanunu dəyişdirmək o deməkdir ki, bir şəxs İslam dinində olan ilahi qanunlardan hər hansı birini azaltsın və yaxud özündən ona bir şey artırsın, yaxud dində halal olan bir şeyi haram və ya haram bir şeyi halal etsin. Bu barədə Əli buyurub: "Allah dərgahında insanların ən pisi, özü əyri yolda olub, camaatı da bu yola çəkən və xalqın qəbul etdiyi adət-ənənələri götürüb, yerinə yabançı adət-ənənələri gətirən dövlət rəhbəridir".

[3] Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, "Elm", 1978, s.33.



*Əbu Əli Hüseyn ibn Abdullah ibn Həsən ibn Əli ibn Sina (980-1037)*

İbn Sinada hələ uşaq ikən maraq oyatmışdı. Onun tələbəsi olmuş Əbu Übeydulla əl-Cuzcaninin məlumatına görə, İbn Sinanın atası ismaili idi və dövlət işlərindən azad vaxtlarında "İxvan əs-Səfanın risalələri"ni mütaliə edərdi. İbn Sinanın özü də uşaqlıqda onu tez-tez oxuyardı. Tədqiqatçılardan bəzilərinin ehtimalına görə, "İxvan əs-Səfanın risalələri" Nizami Gəncəvinin ilham mənbəyi olmuşdur[1]. Qeyd etmək lazımdır ki, Nizami Gəncəvi bütün ömrü boyu Gəncədən çıxmayaraq burada yazıb-yaratmışdır. Mənbələrin məlumatına görə, şair sufi dairələri və əxi təşkilatları ilə yaxından əlaqə saxlamışdır. Tarixi mənbələrdə bu cəmiyyətin üzvlərindən yalnız dörd nəfərin adı çəkilir ki, bunlardan da biri Əbülhəsən Əli ibn Harun əz-Zəncanidir.

XI əsrin birinci yarısı Xilafətin şərq vilayətlərində "ictimai iqlimin" pisləşməsi ilə əlamətdardır. Əməvilər dövründə dövlət etiqadı səviyyəsinə qalxmış mötəzililiyin sonuclanması Abbasilər dövründə başa çatdı. Lakin, Xilafətdən sonrakı müstəqil dövlətlər mərhələsində mötəzili cərəyanı inkişafını davam etdirdi. İ.M. Filştinski IX-XI əsrlərdə Xilafətin şərq vilayətlərindən çıxmış mütəfəkkirləri - Bəsrədən əl-Kindi, Mərkəzi Asiyadan əl-Fərabi, Xorasandan İbn Sina və "İxvan əs-Səfa" ("Saflıq qardaşları") qrupundan olan ensiklopedist alimləri mötəzili cərəyanının nümayəndələri sayır[2].

Mötəzili dini cərəyanının yenidən çiçəklənməsi IX-X əsrlərə təsadüf edir. Bu təlimə qarşı kəskin mübarizə, mötəzililərlə ortodaksal sünnilik arasında olan mübarizə idi. Mötəzililərin təqib olunması da elə həmin

---

[1] Закузаде А.К. Состояние философии на Ближнем Востоке в эпоху Низами/Низами Гянджеви // Материалы научной конференции, посвященной жизни и творчеству поэта (3-6 июня 1947 г.) Баку, Изд-во АН Аз.ССР, 1947, стр.115.

[2] Фильштинский И.М., Шидфар Б.Я. Очерк арабо-мусульманской культуры. Москва, «Наука», 1971, стр.171.

dövrə düşür.

Ərəb tarixçisi, coğrafiyaşünas Əhməd əl-Yəqubi (...-897) o dövrdə Bərdədə müsəlman təəssübkeşləri ilə mötəzililər arasında baş vermiş münaqişənin nəticəsini təsvir edərək yazır: "Bərdədə mötəzililərlə təəssübkeş müsəlmanlar arasında dava düşdü. Onlar bir-birini az qala qırıb qurtarana qədər vuruşdular[1].

Müstəqil dövlətlərin meydana gəlməsi, mədəniyyət sahəsində də dəyişikliyə səbəb olmuşdu. Mərkəzləşdirilmiş dövlətdən parçalanaraq Azərbaycan ərazisində yaranmış müstəqil dövlətlərin mədəni həyatının tədqiqi göstərir ki, o vaxtlar da, sonralar da Azərbaycanın Xilafət tərkibində olmuş digər dövlətlərlə dini-intellektual birliyi pozulmadı. Bir-biri ilə rəqabətə girən yeni siyasi-mədəni mərkəzlərin meydana gəlməsi, ərəbdilli mədəniyyətin bütün sahələrinin canlanmasına heç də mənfi təsir göstərmədi, əksinə, yüksəlişinə səbəb oldu. Yerli dilləri mərkəzi və yerli müəssisələrdən sıxışdıraraq demək olar ki, çıxardan və fəth edilmiş ölkələrin məişətinə daxil olan ərəb dili dil birliyi də yaratdı. Xilafətin tam və bölünməz mədəni məkanının bir parçası kimi, Azərbaycan ərazisində yaranmış dövlətlər həmin tamlığa xələl gətirmədi, əksinə, islamı qəbul etmiş bütün xalqların yeganə ədəbi dili qismində çıxış edən ərəb dili bu xalqların Azərbaycan ərazisində yaranmış müstəqil dövlətlərin xalqları ilə yaxınlaşmasına və "müsəlman mədəniyyəti" adlanan bir növ qohum mədəniyyətin yaranmasına təkan verdi.

## 2.6. Səlcuqlar və Atabəylər dövrü

XI əsr Xilafətin siyasi hökümət sisteminin süqutu, güclü mərkəzdənqaçma meyllərinin yaranmasına və XI əsrin birinci yarısında kəskin xarakter almış ideoloji mübarizənin mürəkkəb və ziddiyyətli xarakter almasına səbəb oldu. O zamanlar vüsət almış dini-siyasi mübahisələrin əsasında müxtəlif dəstələrin (qrupların) "müsəlman icmasına" təsir etmək və onların dəstəyini almaq cəhdi dururdu. Abbasilərin öz baxışlarını qeyri-adi və ciddi-cəhdlə təşviq etmələri də bununla izah olunur. Xilafətdə siyasi təsirləri azaldıqca sülalənin islam qarşısında xidmətlərini vurğulayaraq

[1] Məmmədov Z.C. Azərbaycanda X-XI əsrlərdə fəlsəfi fikir . Bakı, "Elm" 1978, s.25.

özlərinin ali dini başçı olmaq haqlarını daha qızğın müdafiə edirdilər. Bununla da bir tərəfdən Fatimi-şiələrin analoji iddialarını dəf edir, digər tərəfdən isə özlərinin nominal sahib olduqları torpaqlar həddində şiələrlə mübarizə aparırdılar. Buveyhilərin[1*] şiələrə geniş şəkildə himəyadarlıq etməsi vəziyyəti daha da gərginləşdirirdi.

1969-cu ildə Oksford və Pensilvaniya Universitetləri tərəfindən təşkil olunmuş simpoziumunda çıxış edən aparıcı Qərbi Avropa və Amerika şərqşünasları X-XII əsrləri (950-1150) IV-VI əsrlərlə müqayisə edərək bu dövrləri müsəlman ölkələri tarixində ən mühüm və maraqlı mərhələ hesab etmişlər. Onların şərhinə görə, Səlcuq hücumları müxtəlif nəticələr verə bilərdi, lakin bu hücumlar özləri ilə yalnız ölüm və xarabalıq gətirməmiş, həm də bir çox hallarda yeniləşməyə və cəmiyyətin yeni keyfiyyət pilləsinə keçməsinə təkan vermişdir. Görkəmli şərqşünas alimlər Kaen, Le Turno və A.Lembton bunu elmi cəhətdən əsaslandırmışlar[2]. Səlcuqlar miras qalmış idarəetmə mexanizmini saxlamaqla yanaşı, bunu əhəmiyyətli dərəcədə təkmilləşdirmişdilər. Buxara Səmanilərinə xas dəbdəbə və təmtəraq Səlcuqlara yad idi. Mənbələrdə əksini tapan məlumatlara görə, ilk səlcuqlar geyim və silahları ilə öz hərbçilərindən demək olar ki, fərqlənmirdilər. Onlar bir qədər əvvəl qəbul etdikləri islam dininə olan rəğbətlərini saxlayırdılar. Ona görə ki, türklər həmişə təkallahlılığı qəbul etmiş və hətta üstündə yaşadıqları torpaqların göy qübbəsini də Allahdan endirilmiş hesab edirdilər[3]. Onlar islamın ideallarını həyatda canlandırmağa, ədaləti və ədalət məhkəməsini təcrübədən keçirməyə çalışırdılar[4]. Maraqlıdır ki, Səlcuqlar üçün İslam ideallarını həyata keçirmək heç də asan olmamışdı.Onların elmə, savada yüksək qiymət vermələrinə baxmayaraq, "...Səlcuqlardan

---

[*] Buveyhilər– 935-1055-ci illərdə Qərbi İranda və İraqda hakimiyyətdə olmuş İran sülaləsi. Buveyhilər 935-ci ilədək Qərbi İranı, 945-ci ildə Bağdadı işğal edərək Abbasilər xilafətinin siyasi hakimiyyətinə son qoydular və Büveyhilər dövlətinin müstəqil hakimləri oldular.

[2] Наумкин В.В., Пиотровский М.Б. XI-XII вв. в истории народов Ближнего и Среднего Востока-«эпоха трансформации»//Мусульманский мир (950-1150) Москва, «Наука», 1981, стр.7.

[3] Гусейнов Р.А. Сирийские источники об Азербайджане. Баку, АН Аз.ССР, 1960, стр.51-52.

[4] Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку, Изд-во АзФАН, 1940, стр.13.

Səncərə qədər olanların hamısı savadsız idi"[1]. Buna baxmayaraq, Səlcuqlar nəinki islamlaşmada, elm və mədəniyyətin inkişafında da çox böyük rol oynamışlar. M.Fuad Köprülü haqlı olaraq Böyük Səlcuq imperatorluğunun qurulmasından Monqol istilasına qədər keçən zamanın İran (İran deyəndə, hörmətli alim Azərbaycan da daxil olmaqla bütöv ölkəni nəzərdə tutur- N.Ə.) üçün inkişaf və mədəniyyət dövrü olduğunu göstərir[2].

X əsrdə Səlcuq islami fəaliyyətlərin ən aktiv cərəyan etdiyi Mavəraunnəhrə öz məiyyətindəki 100 atlı ilə gəlmişdi. O, içində yaşamaq arzusunda olduqları torpaqlarda yerli xalqın dininə girməsələr, adətlərinə uymasalar, kimsənin onlara hörmət etməyəcəyini və təcrid edilmiş şəkildə qalacaqlarını bilirdi. Buna görə də bütün məiyyəti ilə birlikdə müsəlman olmaq qərarına gəldi. O, Oğuz türklərinin üç bölgəsinin valilərinə xüsusi bir adam göndərərək, buralara gəlməkdən məqsədinin müsəlman olmaq olduğunu izah etdi və Oğuzlara islam əsaslarını öyrədəcək irəlidə gedən fəqihlərdən birini göndərməsini istədi[3]. Təqdir olunan cəhət kimi, vali Səlcuqa istədiyi adamla birlikdə hədiyyələr də göndərdi.

İslam dinindən istifadəsi ona qazilik vəzifəsini yerinə yetirməyə kömək etdi. Belə ki, hər zamankı kimi, Öğuzlar dövlətinə tabe olan Cənd şəhərinə illik vergi yığmağa gələn təmsilçiyə müsəlmanların qeyri-müsəlmanlara vergi verməyə razı olmadığını elan etdi və Oğuz dövləti təmsilçilərinə qarşı müharibə hazırlığına başladı. Bununla, qəza arzusunda olan Ucdakı türkləri ətrafına toplayan təmsilçiləri şəhərdən qovdu və Oğuzlar dövlətinin buradakı hakimiyyətinə son verdi. Qeyd etmək lazımdır ki, bu hadisələr Səlcuqun şöhrətinin hər tərəfə yayılmasına səbəb oldu və Türküstan xalqı axın-axın onun yanına gəlməyə başladılar. Şöhrətini duyan Türk qaziləri artıq özləri onun xidmətinə gəlirdilər.

Səlcuqlar hələ də müsəlman olmamış olan Türk ölkələrinə hücum etməkdən də qalmayırdılar. Hətta, Səlcuqun ən böyük oğlu Mikayıl onlara qarşı apardığı bir savaşda hücuma keçərkən şəhid oldu[4].

Səlcuq hökmdarları bir Türk-islam hökmdarları olduğu üçün hər

---

[1] Yenə orada.
[2] M.Fuad Köprülü. XIII asırda Marağa Rasathanesi hakkında bazı notlar. Türk tarih kurumu, Belleten, cilt 6, Ankara, s.208.
[3] Arslan Tekin. Selcuklu tarihi. İkinci basqı, İstanbul, 2015, s.76-77.
[4] Yenə orada, s.78.

(Sünni) İslam hökmdarı kimi, Abbasi xlifəsinin dini liderliyini tanıyır və ona mənəvi yöndən bağlı olurdu. Abbasi xəlifəri də Böyük Səlcuqlu hökmdarlarını, din və dünya işlərində, özlərini hər zaman ən qüdrətli yardımçıları olaraq təqdir edirdilər[1].

*Səlcuqlar dövründə sufilik.* X əsrdə canına sufilik hopmuş ayrı-ayrı sətir, rübai və şeirlər yazılsa da sufiliyin bütün rəngarəngliyini əks etdirən ilk sanballı divan XI əsrdə - Səlcuqlar dövründə meydana gəlmişdir. Bu divan alim - səyyah Baba Kuhi ləqəbli şairin divanıdır. Hədis toplamaq arzusuyla etdiyi səfərlər onu Nişapura gətirib çıxarmışdı. Baba Kuhinin Sovetlər birliyində ilk tədqiqatçısı V.A. Jukovskidir. Y.E. Bertels yazır ki, Rye və Etenin qeydləri rus iranşünası V.A. Jukovskinin diqqətini cəlb etmiş və o, Baba Kuhinin "Divan"ının araşdırılmasının sufi poeziyasının öyrənilməsində nə qədər böyük əhəmiyyəti olduğunu başa düşmüşdü[2]. Y.E. Bertels tərəfindən Baba Kuhinin "Divan"ı çapa hazırlansa da, naməlum səbəblər üzündən nəşr olunmamışdır. Lakin sonralar çapa hazırlanan "Divan"a müəllif tərəfindən yazılan ön söz işıq üzü görmüşdür. XI əsrin əvvəllərində burada yaranmış müxtəlif şaxəli sufilər məktəbinə məşhur şeyx Əbu Səid Əbülxeyr əl-Meyhani (v.e.440/1048-49) başçılıq edirdi[3]. Onun məşhur rubailərinin bəzilərini fars dilindən rus dilinə çevirən A.E. Krımski Əbu Səidi mötəbər sufi şairlərdən biri kimi təqdim edir[4]. O, qeyd edir ki, Əbülxeyrin yaradıcılığı forma və ya məzmunca sonrakı dövrün şöhrət tapmış Sənai, Xəyyam, Əttar, Cəlaləddın Rumi kimi farsdilli şairlərinə yaxınlaşır. Demək olar ki, dövrün bütün görkəmli sufiləri bu və ya digər dərəcədə həmin məktəblə bağlı olmuşlar. Xorasandakı məşhur dərviş hücrəsi Əbülxeyrin ixtiyarında idi. Azərbaycan sufiləri ilə yaxın bağı olan şeyxin təsəvvüf haqqındakı əsəri Azərbaycan sufilərinin stolüstü kitabı olmuşdur. Onun "Kitəbu-t-Təsəvvüf" adlı əsəri B-612 sayı

---

[1] Kenan Çetin. Selcuklu medeniyyeti tarihi. İstanbul, Yitik Hazine Yayınları, 2011, s.17.

[2] Бертельс Е.Э. Избранные труды/Суфизм и суфийская литература. т.3, Москва, «Наука», «Восточная литература», стр.286.

[3] Беляев Е.А. Арабские источники по истории туркмен и Туркмения IX-XIII вв.//Материалы по истории туркмен и Туркмении. Москва-Ленинград, 1939, стр. 54.

[4] Крымский А.Е. Персидская литература периода междоусобного разложения сельджукского царства (XII-XIII в.). стр.69.

ilə Azərbaycan Əlyazmalar İnstitunda saxlanılır.

Şeyx Əbu Tahir əs-Siləfi özünün qeyd etdiyi kimi, yaşıdı olan Əbu Səid əl-Meyhaninin nəvəsi Əbülqasim əl-Meyhani ilə yaxın olmuşdur. Onun yazdığına görə, bu iki şəxs arasında ittifaq olmuşdur. Onlar Bağdadda bir yerdə toplaşır, bir yerdə həccə gedirdilər. Əs-Siləfi qeyd edir ki, "Əbülqasim Məkkədə, Kufədə, Bağdadda, Gəncədə, Dəbildə və Azərbaycanın bir çox şəhərlərində mənim qiraətlərimi dinləmişdır". Göründüyü kimi, Azərbaycanın bir sıra şəhərlərində Xilafətin iri ruhani mərkəzləri və elmi məclislər fəaliyyət göstərmiş, digər bölgələrin şeyxləri bura səfər edərək öz həmkarları ilə fikir mübadiləsi aparmışlar. Arran bölgəsinin alimləri arasında qazı Tahir əl-Cənzi (gəncəli-N.Ə.) xüsusi qeyd edilir. Əs-Siləfi "öz şəhərinin əyanlarından olan qazı Tahir əl-Cənzinin fiqh və ədəb elmində fəzilətini" xüsusi vurğulayır. Tahir əl-Cənzi Əbülqasim Əli ibn Əbdürrəhman ən-Nişapuri və həmyerlisi Əbülfəzl Şəban ibn Əli ibn Məhəmməd əl-Bərdəi haqqında məlumat vermişdir. Əbülfəzl əl-Bərdəi onun fiqh üzrə müəllimi olub. X əsrdə bərdəli nisbəsilə məşhur olan alimlərin bir qismi müxtəlif dini mərkəzlərə səfər edərək o yerlərdə qalıb fəaliyyətlərini davam etdirir, digərləri öz vətənində qalıb elmin sirrini həmvətənlərinə öyrədirdilər. Çox guman ki, Əbülfəz Şəban ibn Əli də bu qəbil alimlərdən olmuşdur.

Orta əsr müəllifləri təsəvvüflə bağlı azərbaycanlı qadınlar haqqında da xəbər verirlər. "Nefahatü-l-Üns" əsərinin müəllifi "Er sufilerin mertebelerine ulaşan arife qadınlar" bölməsində "əl-Bərdəiyyə" nisbəli Fatimə adlı sufi qadın haqqında məlumat verir[1]. Bu, Gəncənin də Bərdə kimi, islam dini cərəyanlarından bəhrələndiyini və elmi-mədəni varislik ənənələri olduğunu göstərir.

"Mucəm əs-Səfər" əsərində Azərbaycanın mədəni həyatı haqqında qiymətli məlumatlar var. Tahir əl-Cənzi danışırdı ki, Sultan və vəziri ən-Nizam (Nizamülmülk-N.Ə.) Araniyyəyə (Gəncədəki məscidin Arraniyyə adlandığı güman olunur – N.Ə.) çatarkən, Bağdad hafizi ibn Makula Gəncə camesinə daxil olur və iki rükət namaz qılmaq istəyir. O, bilməyərəkdən qiblə əvəzinə başqa istiqamətə dönərkən Tahir əl-Cənzi

[1] Abdurrahman Cami. Nefahatü-l-Üns. Evliya menkibeleri.Tercüme ve şerh: Lamii Çelebi. Marifet yayınları, İstanbul,1998, s.851.

işarə ilə onu başa salır. O "hər daxilin öz şimşəyi var" – deyir və qibləyə dönərək namazı qılır. İbn Makula Gəncədə kitabxananın mühafizi naxçıvanlı Xodadad ibn Asimlə fikir mübadiləsi etmişdir. Beləliklə, İbn Makula və Əbu Tahir əs-Siləfi kimi sufi alim-şeyxlərin Gəncəyə ziyarətə getməsi burada yerli sufi alimlərin olmasını təsdiq edir.

Orta əsrlərdə Xilafətin müxtəlif vilayətlərindən gələrək Azərbaycanda məskunlaşan şeyxlər olmuşdur. Yerli əhali onları baba adlandırmış, yaşadıqları məkanı müqəddəs ocağa-pirlərə çevirmişdir. Quba rayonu ərazisindəki Şeyx Zeynuddin və Əfəndi Baba pirləri bu qəbildəndir. Əfəndi babanın adı İbrahim Əfəndidir. Bu şeyx Qələgah kəndində doğulmuş və o yerdə böyümüş bir misirlidir. İkinci "Əfəndi Babanın məqamı Quba rayonu Pir Vahid kəndinin şərq tərəfindədir. Xalqın rəvayətinə görə, Əfəndi Baba bu yerdən keçib yol ilə gedərkən Pir Vahidin ruhu ona görünür. O yerdə iki pir bir-biriylə söhbət etmişlər. Bura hazırda müqəddəs yerlərdən sayılır[1]. Lakin, Azərbaycanın Quba rayonu ərazisində sufilərə münasibət birmənalı olmamışdır. Deyilənə görə, bəzi kəndlərin əhalisi onlara əziyyət vermişdir. Baba Məhəmməd piri xalqın etiqadına görə, əslən Şam şəhərindən olan bir dərvişə məxsus idi. Bu adam əvvəl Quba rayonunun 18 kilometrliyində olan Suxtə Kələ kəndində məskən tutmuşdu. O yerin əhalisi tərəfindən Baba Məhəmmədə böyük əziyyət verildiyinə görə, o, camaata nifrin edib[2].

XIX əsrdə Qubada yaşamış Əhməd Əfəndi Çələbizadə yazır ki, Təkəy şıxı kəndi adlanan yerdə Baba Məhəmməd bir ev tikib yaşamağa başlamışdı. Təkəy "tək ev" sözündən qalmışdır. Ola bilsin ki, onların bəzisi, o cümlədən Baba Məhəmməd sufiliyin ilk çağlarında öz təriqətini təbliğ etmək üçün gəlmiş, lakin əhali onu başa düşməmişdir. Sonradan sufiliyə hədsiz sevgi, nəinki bəzi sufilərin peyğəmbərlə müqayisə olunmasına, həmçinin onların peyğəmbərlə bir dövrdə yaşadıqları fikrinin yaranmasına səbəb olmuşdur. Deyilənlərə görə, Quba rayonu ərazisində Həzrət baba məqamındakı məzar Həzrət baba adlı bir sufinin məzarıdır. Xalqın dini etiqadına əsasən, bu şeyx guya Musa peyğəmbərlə bir əsrdə yaşamışdır.

[1] Əhməd Əfəndi Çələbizadə. Quba-dövrün adət və qaydaları/Tərtibat, transliterasiya, qeyd, şərh və redaktənin müəllifi B.Kərimov. Bakı, "Ziya-Nurlan", 2009, s.304.
[2] Yenə orada, s.340-342.

Bu şeyxin Musa peyğəmbərlə bir zamanda yaşaması mübaliğə olsa da, xalqın Həzrət baba adlandırdığı şeyxin və anasının məzarı bir-birindən bir kilometr aralıda yerləşir[1].

Xilafətin başqa yerlərində olduğu kimi, Azərbaycanda da şeyxlərin xüsusi çəkisi-hörməti olmuşdur. Şeyx sözünün mənası - qoca, ağsaqqal deməkdir. Tarixçilər və bioqrafik mənbələr, Quran bilicilərinin (muqriyyun), hafizlərin (huffazun), ilahiyyatçıların (mütəkəllim), hədis bilicilərinin (mühəddisun), təfsirçilərin (müfəssirun), azan verənlərin (müəzzinun), kəlam alimlərinin (mütəkəllimun), ədiblərin (müəddibun) və başqalarının nüfuzlu şeyx olmasının vacib göstəricisi kimi, onların ilk növbədə ləyaqətli, əməlisaleh, dərin bilikli, Allaha dərin etiqadlı insan olmalarını əsas götürürdü. Quranı və çoxlu hədisi isnadları ilə əzbərdən bilənlər xüsusi qeyd edilirdi. Zahidlik və hədis işləri üçün uzunmüddətli səfərə çıxanların arasında da şeyxlər olmuşdur. Yazılı mənbələrlə bərabər Azərbaycan ərazisindən tapılmış epiqrafik abidələrdə də tez-tez şeyx sözü ilə bağlı ifadələrə - qudvat əl-məşayix əl-‘izəm, şeyx ər-rabbani, əş-şeyx ər-rəşid, qutvat əl-məşəyix əl-muhaqqiqin, şeyx əl-məşəyix əl- ə’zam və s. rast gəlinir[2]. Əslən azərbaycanlı və öz diyarının sərkərdələrindən birinə çevrilmiş digər bir həmvətənimiz haqqında ərəbdilli mənbələrdən məlumat alırıq. Urmiya bölgəsinin Fərfəqabad kəndindən olan əl-Həsən ibn əl-Həsən əş-Şəhham Əbu Əli əl-Urməvi əl-Fərfəqabadi Nişapurda olarkən öz diyarının şexlərindən olan Əbu Bəkr Məhəmməd ibn Əli əl-Fərfəqadi haqqında məlumat vermişdi. Bunu Yaqut əl-Həməvi “Mucəm əl-Buldən” əsərində yazıya almışdır[3].

Məlumdur ki, ziyalı mühiti şəhərin ab-havasının göstəricisidir. Orta əsrlərdə ziyalı mühiti məfhumunda dini təriqətlər xüsusi yer tuturdu. Ona görə də dövrün coğrafiyaşünas, tarixçi və səyyahları, elm-bilik adamları Xilafət şəhərlərinin təsvirini verərkən, dini təriqətlərin şəhərin

---

[1] Əhməd Əfəndi Çələbizadə. Quba-dövrün adət və qaydaları/Tərtibat, transliterasiya, qeyd, şərh və redaktənin müəllifi B.Kərimov. Bakı, “Ziya-Nurlan”, 2009, s.340-342.

[2] Наумкин В.В., Пиотровский М.Б. XI-XII вв. в истории народов Ближнего и Среднего Востока-«эпоха трансформации»//Мусульманский мир ( 950-1150). Москва, «Наука», 1981, стр.10.

[3] Yaqut əl-Həməvi. Mucəm əl-Buldən, IV c., 1977, s.254.

mədəni həyatındakı roluna xüsusi qeyd edirdilər.

Müsəlmanların əksəriyyəti özlərini sünni[1*] əhli sayırdı. Onlar bunu Quranın, peyğəmbərin (s.a.s.) sünnəsi və onun əshabələrinin yolu ilə getmələri ilə izah edirdilər. Sünnülər öz inamlarının doğruluğunu Məhəmməd peyğəmbərə (s.a.s.) aid bir hədislə bağlayırdılar. Əbu İsa ət-Tirmizi Peygəmbərin söylədiyi hədisə görə, Allahın Rəsulu (s.a.s.) öz ümmətinin 73 icmaya bölünəcəyini, onlardan 72-sinin cəhənnəmə düşəcəyini, yalnız birinin xilas olacağını, yəni cənnətə düşəcəyini xəbər vermişdi[2]. Məhəmməd peyğəmbərin (s.a.s.) izahına görə bu, " əhl əs-sünnə və-l-cama"a əs-sünnədir". Ondan "əhl əs-sünnə" kimdir, - deyə soruşduqda: "mənim özümün və əshabəmin tərəfində duranlar" - deyə cavab vermişdir[3]. Buna əsaslanaraq özlərini "əhl əl-haqq" ("haqq əhli") adlandıranlar başqa cür düşünən müsəlmanları "əhl əd-dəlalə" ("yolundan azmışlar") kimi qəbul edirdilər. Sünni ilahiyyatçıların islam aləmini "möminlər"ə və "azmışlar"a ayırma səddinin özü də şərti və birtərəfli idi[4]. Xilafətin ideologiya formasına çevrilən Sünni məzhəbi tərəfdarlarının öz aralarında da dini birlik yox idi. Hər məktəbin tərəfdarı "düzgün" yol tutduğu iddiası ilə çıxış edirdi. Kufəni özünə paytaxt seçmiş Xəlifə Əli ibn Əbu Talibin dövründə bu şəhər şiəliyin beşiyi sayılırdı. Dini-siyasi cərəyan kimi, şiəlik məhz bu şəhərdən yayılmışdır[5]. Xilafətin tərkibində olan Azərbaycanda da bu proseslər gedir, müxtəlif cərəyanların nümayəndələri, o cümlədən şiələr fəaliyyət göstərirdilər.

---

* Qeyd: Bəzən sünni məzhəbinin tərəfdarları , xüsusilə malikilər Fatimilərin dövründə təqibə məruz qalmışlar. Tarixçilər göstərirlər ki, kimdə Malikin əsəri tapılsaydı, o şəxs işgəncəyə məruz qoyulurdu. Fatimilərin yerinə keçmiş Səlahəddin ismailliliyi sünniliklə əvəz etdi. Onun açdırdığı mədrəsələrdə şafii və maliki məzhəbləri öyrədilirdi.

2 Əli ibn Məhəmmədə l-Fəxri. Kitab təlxis əl-bəyan fi zikri firaq əhl əl-ədyan. Əlyazmasının faksimilesi. Москва, 1988, л.5b.

3 Аш-Шахрастани. Книга о религиях и сектах. ч. 1. Москва, «Наука», 1984, стр.213.

4 Прозоров С.М. К вопросу о "правоверии" в исламе: понятие Ахл ас-сунна (сунниты)//Проблемы арабской культуры. Москва, «Наука», 1987, стр.213.

5 Буниятов Дж.З. Социально-экономические и политические предпосылки появления карматов в Саваде Куфы (Ирак, IX в.). Изв. АН Аз.ССР, 1983, №3, стр.38.

Hətta XI əsrin sonunda Şirvanşahların xidmətində olmuş Məsud ibn Namdara görə, Beyləqanda bu cərəyanlarla yanaşı ismaililərin də fəaliyyəti görünürdü.

Artıq X əsrə qədər Azərbaycan əhalisinin islamlaşması ilə əlaqədar bu şəhərlərin çoxunda tikilmiş, çox vaxt da kilsələrlə yanaşı yerləşən cümə məscidləri fəaliyyət göstərirdi[1]. Eyni bir bölgə xalqlarına məxsus olduğu üçün bu məscid və məbədlərin memarlıq üslubunda da oxşarlıq müşahidə olunur. Mərkəzi günbəzşəkilli, üçnefli və birnefli örtülü və ya açıq məbədlər (məsələn, Böyük Arran monastırı, Xotavənd monastırları və Şamaxının cümə məscidini) buna misal ola bilər.

Səlcuqlar dövründə dinlərarası çəkişmə arxa plana çəkilir. Səlcuq dövrü şəhərlərində "fikir azadlığı" mehi əsməyə başlayır[2]. Buna baxmayaraq, islam tarixində bəzi məzhəblər dövlət məzhəbi səviyyəsində təqdir edilmiş, bəzən də təqib olunmuşdur. Əgər sünni məzhəbli, xüsusən malikilər Fatimilərin hakimiyyəti dövründə təqib olunurdusa, Səlcuqların hökmranlığı illərində şiələr sıxışdırılırdı. Tarixi məlumatlara görə, kimdən Malikin əsərləri tapılsaydı, ona işgəncə verirdilər. Bəzi dövlət xadimləri bunun qarşısını ala bilmiş, hər an dağılmağa hazır olan dini müvazinəti qoruyub saxlayaraq ümumi nəticəyə nail olmuşdular. Səlcuq imperiyasının tanınmış siyasi xadimi, vəzir Nizamülmülk kimi, Fatimilərdən sonra hakimiyyətə gələn Salah əd-Din də bu tarazlığı saxlaya bilərək, ismaililiyi sünniliklə əvəz etmiş, şafii və maliki məzhəbini öyrədən məktəblər tikdirmişdi[3].

Abbasilərin islam bayrağı altında apardıqları mübarizə, XI əsrin birinci rübündə Xəlifə əl-Qadir və onu əhatə edən ilahiyyatçıların başqa cür düşünənlər üzərinə hücumu zamanı daha da sərtləşdi. Xəlifə Qadir hakimiyyətə gəldiyi andan aktiv şəkildə müsəlman ümmətinin imamı-dini başçısı rolunu oynamağa başladı. Onun h. 408-ci il (1017-

---

[1] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.130.

[2] Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку, Изд-во АзФАН, 1940, стр.13.

[3] Моттахеди Р. Управление буидским Казвином.Пер.с английского М.Б.Пиатровского//Мусульманский мир 950/1150, Москва, «Наука», 1981, стр.12.

ci il) fərmanına görə, ortodoksal islam ehkamlarından yayınanlar, xüsusilə şiələr, ismaililər və mötəzililər onun tərəfindən lənətlənərək məhv və ya sürgünə məhkum elan edildilər. Yalnız öz küfr (bidətçi) təlimlərindən əl çəkənlər əfv edilə bilərdi[1]. Xəlifə daha sonra ənənəvi sünni nəzəriyyəsinin əsas müddəalarını təsbit edən sənədi elan etmişdi. Bu sənəd gələcəkdə də bütün müsəlmanlar üçün vacib sayılırdı[2]. Bu sənədə görə, müsəlmanlar ortodoksal islamın ehkamlarına söykənməli, qisməti, alın yazısını, Allahın atributlarını və Quranın yaradılmadığını qəbul etməliydilər. Bundan əlavə, birinci dörd xəlifəyə, eləcə də Aişəyə ehtiram göstərməli, Müaviyəni isə pisləməli deyildilər. Bu sənəd, faktiki olaraq ortodoksal islamın dövlətin rəsmi dini kimi tanınması, ondan yayınanların isə dövlətə qarşı cinayətkar kimi qəbul olunması demək idi. Abbasilərin bu addımı onların müsəlman icmasının rəhbərləri kimi axırıncı əhəmiyyətli qərarları idi.

C.Maqdisinin "sünniliyin irəliyə doğrü uğurla irəliləməsi" ifadəsini əsas götürən L.A. Semyonova əl-Qadirdən sonra görkəmli müsəlman mütəfəkkiri ilahiyyatçı Əbu Hamid əl-Qəzalini (1058-1111) sonrakı dalğa adlandırmaqda haqlıdır[3]. İslam teologiyasını məntiq əsasında işləyib hazırlamış Əbu Hamid əl-Qəzali Əbülqasim əl-Quşeyridən (986-1072) sonra mötədil sufizm ilə ortodoksal islamı yaxınlaşdırmağa, barışdırmağa çalışmış və buna ilk dəfə məhz o, müvəffəq olmuşdur[4]. Burada Əbülhəsən əl-Əş`ərinin xidmətlərini də yada salmaq yerinə düşərdi. Bu böyük mütəfəkkir əl-Qəzalidən əvvəl məntiq müddəaları ilə sünnənin vəhdətini yaratmışdı.

Bu mübarizədə yəmənli Saleh kimi məşhur olan Saleh ibn Mehdi əl-Məkkinin adı çəkilir. Saleh ibn Mehdi tez-tez mötəzililərin ləyaqətini alçaldırdı[5].

---

1 Kəhhalə. Əl-Bidəyə və -n-nihəyə. Mədinə əl-Münəvvirə, VI c., "Dər ət-Taqva", s.405.

2 Фильштинский И.М. История арабской литературы X-XVIII вв. Москва, «Наука», 1991, стр.17.

3 Семенова Л.А. Из истории средневековой Сирии (сельджукский период). Москва, «Наука», 1990, стр.53.

4 Məmmədov Z.C.Azərbaycan fəlsəfəsi tarixi. Bakı, "İrşad", 1994, s.60.

5 Крачковский И.Ю. Дагесефт и Йемен/Памяти акад. Н.Я.Марра (1864-1934). Ленинград, 1938, стр.36.



*Alp Arslan (1033-1072)*

Səlcuq dövlətinin qüdrətinin artması ortodoksal islamın xeyrinə oldu. Belə ki, h.462/1069 -cu ildə Məkkə əmiri Alp Arslana elçi göndərib Misir şiə xəlifəsi adına oxunan xütbəni və ələvi əzanını Sünni xəlifəsi və sultan adına çevirəcəyini bildirir və Alp Arslanın himayəsini xahiş edirdi. Alp Arslan bu himayəni məmnuniyyətlə qəbul edib əmirə xalatlar və 30 000 dinar ehsan etdi. İllik 10 000 dinar da göndərəcəyini vəd etdi və Mədinə əmirinin də eyni şey etməsini istədi.

Sünniliyin Gəncədə möhkəmlənməsi ona gətirib çıxartmışdı ki, bu məzhəbə etiqad etməyənlərə şəhərdə məskunlaşmağa icazə verilmirdi. Belə ki, şəhər əhalisinin fikrincə, gəlmələr öz təlim və məzhəblərini təbliğ etməklə şəhərdə qarışıqlıq yarada bilərdilər[1]. Zəkəriyyə əl-Qəzvininin məlumatına görə, Xoy əhalisi sünni idi. Onlar da gəncəlilər kimi bir məzhəbə qulluq edir, məzhəblərində ayrı-seçkiliyə yol vermirdilər[2]. Əl-Müqəddəsiyə (təqr. 946-1000) görə, Ərdəbil əhli də onlar kimi başqa məzhəblərin əhalisinə etinasız idi[3].

Tiflis əhalisi də, sünni məzhəbinə mənsub olanlar arasında idi[4]. Monqolların gəlməsilə alimlərdən bir çoxu, o cümlədən, sünni məzhəbindən olan Azərbaycan ziyalıları Şama, Misirə və daha uzaq yerlərə mühacirət etmişdilər. İlahiyyat və fəlsəfə sahəsində sanballı əsərlərin müəllifi, dövrünün sayılan alimlərindən olan qazı Şəmsəddin Xoylu monqolların hücumu vaxtı Şama qaçmışdı. Burada da onu

---

1 Буниятов Дж. З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанской ССР. Серия истории, филасофии, права. 1976, № 3, стр.52.

2 Там же, стр.53.

3 Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.133.

4 Yenə orada, s.110.

layiqincə qiymətləndirməmişlər. O, yalnız Dəməşq mədrəsəsində əlavə dərslər vermişdir[1]. Belə mühacirət təbii sayılmalıdır, çünki monqollar bütpərəstliyi yaymaq naminə islama qarşı ciddi mübarizə aparırdılar. Onların hakimiyyətinin ilk 30 ilində mərkəzi dövlət aparatında "ölkənin baş qazısı" vəzifəsi rəsmən tanınmadı, vəqf torpaqları tutuldu, dini işlər idarəsi icarəyə verildi və beləliklə, islamın dövlət idarəsindəki mövqeyi zəiflədi[2] . Bağdadı əl keçirən monqol qoşunlarının başında Hülakü xan dururdu, onun xanımı xaçpərəst idi və yanında da xristian keşişləri var idi. Hülakü xanın övladları (Qazan xana qədər) xristianlığa dayaq durdular və Cənubi Qafqazda xristianlığın dini-iqtisadi mövqeləri daha da möhkəmləndi[3].

Hülakunun buddistlərə rəğbəti vardı, lakin bütövlükdə o, müxtəlif dinlərin nümayəndələrindən öz məqsədi üçün yararlanırdı. Ancaq onun böyük arvadı Doqquz Xatun xristian idi və onları himayə edirdi. Kit Buğa noyon nestorian idi. Nəhayət, monqolların tərəfində Kilikiya hakimi I Hetum da çıxış edirdi. O, qızını Boemunda verərək, Antioxiya səlibçi knyazlığını da monqollarla ittifaqa cəlb etmişdi. Bundan başqa monqolların yürüşündə gürcü qoşunları da iştirak edirdilər[4].

İslam fəthlərinin əvvəlki dövrlərində ayrı-ayrı hakimlər və zadəgan zümrəsi tərəfindən islam dininin qəbulu bəzən mənafe xidməti güdürdü. Bunu Albaniya hakimi Cavanşir və onun zadəganlarının timsalında görmək mümkündür. Siyasi mülahizələrə görə, yəni ölkəsini dağılmaqdan qorumaq üçün Cavanşir Xəlifə Müaviyənin dövründə (661-680) vassal asılılığını qəbul etmişdi. Yerli zadəganlar isə daxili müharibələrin qarşısını almaq üçün islamı qəbul edirdilər.

V.V. Bartold haqlı olaraq göstərir ki, "...islam zor gücü ilə həyata keçirilməmişdi. Nə xristianlar, nə də atəşpərəstlər təqib olunmurdular"[5].

---

1 Zəkəriyyə Qəzvini. Əsərul-bilədva əxbəru-l-'ibad. Beyrut, 1960, s.53.
2 Piriyev V. Z. Məhəmməd ibn Hinduşah Naxçıvani. Bakı, "Elm", 2001, s.13.
3 Ələkbərli Ə., Qaraqoyunlu E. Türkmənşəli erməni soyadları, Bakı, "Qaya", 2016, səh.6-7.
4 https://az.wikipedia.org/wiki/Monqolların_Yaxın_Şərq_yürüşü).
5 Бартольд В.В. Краткий обзор истории Азербайджана. Сочинения, т.II, ч.1. Москва, «Восточная литература», 1963, стр.777.

İslamın yarandığı ilk günlərdən özünün üstünlüyünü təmin etmək və ya yaymaq üçün daim kobud gücdən-qılıncdan istifadə etməsi barədə Avropada ədalətsiz iddia irəli sürülürdü. “Ərəblərin fəthi və hakimiyyəti dövründə islam və xristianlıq” əsərini rus dilinə tərcümə edən Umat - Girey Metsxal yazırdı: “Müsəlman dözümsüzlüyü” və “Müsəlman fanatizmi” bu gün də təəssüf ki, rus publisistlərinin sevimli və çeynənmiş mövzularındandır[1]. Onların islam fanatizmi haqqındakı fikirlərinin nə dərəcədə səmimi olduğunu mühakimə etmək çətindir, bunu onların vicdanlarına buraxaq. Lakin, güman etmək lazımdır ki, həm Avropa, həm də rus cəmiyyətinin müsəman dini dözümsüzlüyünə aid olan yanlış fikri qərəzçilikdən deyil, daha çox islam tarixi ilə dərindən tanış olmamalarından irəli gəlir.

İslam dünyasının bir parçası kimi, Azərbaycan tarixində Səlcuqlar dövrü mürəkkəb ideoloji proseslər dövrü idi. Səlcuqların siyasi və ideoloji sahədə gətirdikləri yeniliklərdən biri də yerli dini cəmiyyətlərin strukturunda və dini-siyasi fəaliyyət istiqamətində həyata keçirilən dəyişikliklər idi. V.V. Bartold XI əsrdən XII əsrə qədərki dövrü İran üçün kəskin dini mübarizə dövrü adlandırır[2]. Buna ilk səbəb, səlcuqlar dövründə “azadlıq mehinin əsməsi” idi.

Səlcuqların hakimiyyəti dövründə xristianların da fəaliyyəti üçün əlverişli imkanlar olmuşdur. Bu dövrdə Gəncədə Mxitar Qoş (1130-1213-cü illərdə), onun şagirdi Gəncəli Kirakosun və Vardanın müəllimi olmuş Vanakan yaşayıb yaratmışlar. “Alban evinin alicənab kilsə başçısı”, Albaniya katolikosu III Stepanosun təkidi ilə yazılan “Qanunnamə” Mxitar Qoşun qələminin məhsuludur. “Qanunnamə”yə Şərqi Roma imperiyası və Musanın qanunları ilə yanaşı (Aquan, Bərdə) kilsə kanonları (kilsə qanun-qaydaları-N.Ə.) da daxil idi[3]. Gəncəli Kirakos

---

[1] Граф Анри де Кострu. Ислам и христианство в эпоху завоеваний и владычества арабов. Пер. с французского Умат – Гирей Мецхаль. Петоград, 1915, стр.47.

[2] Бартольд В.В. Ислам. Сочинения, т. VI . Москва, «Восточная литература», 1966, стр.185.

[3] Буниятов З.М. Государство Хорезмшахов-Ануштегинидов.Соч. в 3-х т.3, стр.9-257. Баку, «Элм», 1999, стр.231; Кули-заде З. Из истории Азербайджанской философии XII-XVI вв. Баку, «Азербайджан», 1992, стр.94-95.

məlumat verir ki, Albaniya katolikosunun seçkisi vaxtı yeni seçilmiş katolikosun təyin edilməsi mərasimini keçirtmək üçün şəhər hakimi Əmir Ömərdən icazə istəmişdi. O, icazə verdikdən sonra katolikosu əla bir ata mindirərək ona nazik kətandan paltar vermiş, irəlidə və arxada şeypur səslərilə onu şəhərin küçələrində gəzdirməyi əmr etmişdi. Səlcuq sultanlarının da bəzən kilsələri vergidən azad etdiyi haqqında tarixi mənbələrdə lazımi qədər məlumat var.

Səlcuqlar sülaləsinin ayrı-ayrı feodal dövlətlərin ərazisini - böyük bir məkanı birləşdirməsi, Xilafətin əyalətləri arasında iqtisadi-ticari və mədəni əlaqələrin inkişafına və qüvvətlənməsinə təkan vermişdi ki, bu da islam aləmində dini-mədəni əlaqələrin daha da fəallaşmasına zəmin yaratmışdı. Dövlət siyasətində sünniliyin dəstəklənməsi, dini mübarizənın daha mürəkkəb və kəskin keçməsinə səbəb olurdu. Bu, o dövrdə Xilafətin şəhər və vilayətlərinə, əsasən də mədəniyyət mərkəzlərinə uzunmüddətli səfərlər, yaradıcılıq görüşləri və təhsil üçün də geniş imkanlar açırdı. Azərbaycanlı alimlərdən böyük qismi Qahirə, Nişapur, Buxara, Bağdad, İsgəndəriyyə, Şaş və s. şəhərlərə səfərləri zamanı müəyyən cərəyanın tərəfdarına çevrilirdilər.

XI əsrin II yarısından başlayaraq Xilafətin mərkəzi vilayətlərində dini-siyasi vəziyyəti şərtləndirən sünnilik cərəyanı güclənməyə və hələ “Raşidi xəlifələr” zamanında siyasi görüş sistemi kimi meydana gələn şiəlik cərəyanını əvəz etməyə başlasa da, sonucda bu, yalnız qismən baş tuta bildi.

Lakin, bizcə, “bu cərəyanın güclənməsi öz parlaq ifadəsini Səlcuqların fəaliyyətində tapmışdır” ifadəsini işlədilməsi daha düzgün sayılmalıdır. Səlcuqlar dövrünün mənəvi mühitini səciyyələndirən bir də o idi ki, yerli alimlər səlcuq aristokratiyasına mühüm təsir göstərə bilirdi[1]. Nizamülmülk kimi vəzirləri və bəzi dövlət məmurlarını bu qəbildən hesab etmək olar. Yerli feodalların mənafeyini müdafiə edən səlcuqların sünni məzhəbində olmasına baxmayaraq, onlar şiə və sünnilər arasında münaqişələrin dinc yolla həllində böyük rol oynayırdılar. Onların

[1] Али-заде А.А. Общность взглядов ученых Ирана и Азербайджана XI-XIV вв. по вопросам социально-экономического характера//Изв. АН Аз.ССР, Серия истории, философии и права . 1968, №1, стр.48.



*Əbu Əli Əl-Həsən ət-Tusi Nizamülmülk (1018-1092)*

hakimiyyəti o dərəcədə güclənmişdi ki, hətta məşhur Nizamülmülk özünü hökmdarın şəriki hesab edirdi[1]. Ortodoksal islamın bərqərar olması yönündə onun özü və oğlu nümunə göstərirdi.

Nizamülmülk Qivaməddin Qiyasəddövlə - vəzirlər vəziri Əbu Əli əl-Həsən ibn Əli ibn İshaq Tusda anadan olmuş, bir çox mühəddislərin söylədikləri hədisləri dinləmiş, özü də Mərvdə, Nişapurda, Reydə, İsfahanda, Bağdadda, bütün Xorasanda, Arran ölkəsində - Gəncədə, Bərdədə, Beyləqanda və digər şəhərlərdə hədis söyləmişdir. Hədis məclislərində hədisin düz oxunması diqqət mərkəzində olur və mühəddislərin savadı da ortaya çıxırdı. Nizamülmülkün İsfahanda təşkil etdiyi hədis məclisində fiqh və ədəbiyyat sahəsindəki fəzilətlərinə görə Gəncə şəhərinin say-seçmə alimlərindən olan gəncəli Qazı Tahir də iştirak etmişdir. Bu məlumata Əbülqasım Əli ibn Əbdurrəhman ibn Əlik Nişapuri və Əbülfəzl Şəban ibn Əli ibn Məhəmməd əl-Bərdəi və başqalarının əsərlərində rast gəlinir. Bu barədə əs-Siləfi yazır: “Bir gün Qazı Tahir İsfəhana gəlmişdi. Onun bu cür dediyini eşitdik: mən dövlət vəziri Nizam Əbu Əli Həsən ibn Əli ibn İshaqın məclisində iştirak edirdim, onun üçün hədis oxunarkən qiraətçi “əl-ci`ranə” (Məkkə yaxınlığında hacıların miqatı ucun yerin adıdır-N.Ə.) kəlməsini “əl ciirranə” kimi tələffuz elədi. Mən dedim: onu təxfif elə (yəni, “əl-ci`ranə” kimi oxu). Bu vaxt Nizam mənə baxdı. Elə bu kəlmə qazı olmağıma səbəb oldu”[2].

Səlcuqlar mərhələsində bəzi hakimlər islamın qorunması məsələsində səlcuqlardan da irəli gedirdilər. 1122-ci ildə Tiflisi tutan II David şəhərin müsəlman əhalisinə bir sıra güzəştlər vermişdi. Dini ibadətlər

[1] Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку, Изд-во Аз ФАН, 1940. стр.13.
[2] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan.Bakı, “Elm və təhsil”, 2016, s.67.

yenə də şəhərdə icra oluna bilərdi. Tiflis şəhərində müsəlman əhalisinin təhqirinə yol verməmək üçün şəhərdə donuz kəsmək qadağan edilirdi. Şəhərdə gürcü hökmranlığı dövründə üzərində ərəb əlifbasının hərfləri həkk olunmuş sikkələr kəsilirdi. Burada Allahın adı çəkiləndən sonra Məhəmməd peyğəmbərin(s.a.s.) adı yad edilirdi. Davidlə birlikdə onun oğlu Demetre Tiflisdə came məscidində xütbə və Qurana qulaq asmışdı. II David gəlmə tacirlər üçün karvansara, zahid dərviş-sufilər, şairlər üçün evlər tikmiş, təqaüdlər kəsmişdi. David müsəlman ilahiyyatçılar arasında baş tutan elmi-dini müzakirələrə xüsusi maraq göstərirdı. O, Gəncə şəhərinin qazısı ilə Quranın əbədi olması barədə söhbətə qoşulmuşdu[1].

XI əsrdə Azərbaycanda ərəbcə şeir geniş yayılmışdı. 1074-cü ildə öldürülmüş Əbülhəsən Əli əl-Həsən ibn Əli əl-Baxərzi "Dumyət əl-qəsr və usrat əhl əl-əsr" ("Qısa təsvir və əsrin seçilmiş adamları") əsərində Azərbaycan şairlərinə ayrıca bir fəsil ayırmışdır. İbn Quteybənin "Əş-Ş`ir və-ş-şüara" ("Şeir və şairlər") əsərində Mədinədə yaşayıb fəaliyyət göstərən şairlərdən bəhs olunur və qeyd edilirdi ki, "...Mədinədə məvalilərdən elə bir şair yoxdur ki, o, əslən Azərbaycandan olmasın"[2], əl-Baxərzinin təqdim etdiyi şairlərin çoxu isə Azərbaycanda yaşayıb yaratmışdılar. Əbu Nəsr Mümkan ət-Təbrizi, Əl-Hüseyn ibn əl-Həsən əl-Xətibi əl-Urməvi, Əbül-Məhasin əl-Hüseyn ibn Əli ibn Nəsr və başqaları əl-Baxərzinin məcmuəsindən aydınlaşdığı kimi, vətən torpağından ayrı düşməmişlər[3].

Səlcuqlar dövründə yaşamış əs-Siləfi "Mucəm əs-Səfər" əsərində Əbhərdə qazı olmuş Nəsr əs-Sərəvi haqqında məlumat verərək, onun adının belə sadə variantda deyilməsini yerli xüsusiyyət adlandırır. O qeyd edir ki, ata və baba adı, künyə Azərbaycan, Ərminiyə və Şirvanda deyilmir, sadəcə ad deyilir.

---

[1] Петрушевский И.П. Совместная борьба народов Закавказья против иноземных захватчиков в XI-XII вв. АН СССР, Изв. Филиал Аз.ССР, № 10, 1942, стр.32.

[2] İbn Qüteybə. əş-Şi`r və-ş-Şüəra. I və II c.Beyrut, 1964, s.481.

[3] Mahmudov M.R. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər). Bakı, "Elm", 1983, s.16.

Qeyd etmək lazımdır ki, səlcuqların dövründə geniş yayılmış kufi xətti XII əsrdə nəsx xətti ilə əvəz olunmağa başlayır. Kufi xətti kimi, ərəb xətti olan nəsx xətti İbn Muğlə əş-Şirazi tərəfindən yaradılmış, sadəliyi, rahat oxunuşu və rəvan yazılışı ilə diqqəti cəlb etmişdir. Bu xətt yarandığı gündən Quran və digər kitabların üzünün köçürülməsində, eləcə də dəftərxana işlərində geniş istifadə olunmuşdur.

Azərbaycan xalqının həyatında ərəbdilli mədəni abidələrlə bərabər, türkdilli mədəniyyət abidələri də özünəməxsus yer tutmuşdur. Hikmətamiz fikirlərlə zəngin olan, Dədə Qorqud adından söylənilən dastanlar qədim və erkən orta əsrlərin türk abidələri içərisində bəlkə də ən mükəmməlidir. Bu dastan öz bədii-estetik dəyərinə görə də bənzərsizdir. O, gerçək həyatı əks edən məndəricəsinə, abidələri dolgun və yığcam ifadə etmək xüsusiyyətinə, şeirlərdəki zəngin alliterasiyasının yaratdığı heyrətamiz musiqilik, ecazkar ahəngdarlıq, harmonik ritm keyfiyyətlərinə görə misilsiz sənət əsəridir[1].

Yusif Balasaqunlunun 1069-cu ildə başa çatdırdığı "Xöşbəxtliyə aparan elm" (قوتادقـو بيليـك) və Mahmud Kaşğarinin 1072-1074-cü illərdə qələmə aldığı "Divani lüğat-it türk" ( ديـوان لغـات تـورك) əsəri XI-XII əsrlərdə yaranmış türkdilli ədəbi nümunələrdəndir. Mahmud Kaşğarinin yaradıcılığı bütün türk dünyasının mədəniyyəti tarixində çox böyük mövqe qazanmışdı. Onun "كتـاب جواهـر النحـو فـي لغـات التـرك ("Türk dillərində qrammatikanın cövhərləri") əsəri türk dilçiliyi sahəsində apardığı tədqiqatın nəticəsidir. O, ilk dəfə olaraq türk dillərinin fonetik qanunları, morfoloji xüsusiyyətləri və sintaktik quruluşunun izahını vermişdir.

Əhməd Yəsəvi də (v.e.1166) Türk dünyasında öz dəsti-xətti olan şairlərdəndir. Onun "Hikmət" divanı şairin dünyagörşünü hərtərəfli əks etdirir. Əhməd Yəsəvinin yaratdığı Yəsəvilik təriqəti Yunus İmrə və başqa istedadlı şairləri öz ətrafında birləşdirmişdi. XI-XII əsrlərdə yaranmış və geniş yayılmış bu əsərlər daha çox ədəbi-bədii və elmi dəyərlərinə görə şöhrət tapsa da, bu əsərlərdə ictimai-siyasi və etik əxlaqi görüşlər özünəməxsusluğu ilə seçilir[2].

---

[1] Məmmədov Z.Seçilmiş əsərləri. Bakı, "Elm", 2015, s.556.
[2] Yenə orada. s.556-557.

Beləliklə, demək olar ki, Səlcuqlar dövründə Azərbaycanda islamın yayılması və möhkəmləndirilməsi, islam mədəni mühitinin güclənməsi istiqamətində ciddi işlər görülmüşdür. Ölkədə Alp Arslanın vəziri Nizamülmülkün iştirakı ilə çoxsaylı mədrəsələr tikilmiş, 30-dan artıq mədrəsədə azərbaycanlı müdərrisin tədrislə məşğul olması haqqında məlumat üzə çıxarılmışdır.

Məlikşahın ölümündən sonrakı dövr Azərbaycanda Səlcuq sultanlarının təsirinin getdikcə zəifləməsi və Şirvanşahlar sülaləsinin Şirvanın müstəqilliyini bərpa etməsi ilə yadda qalmışdır. Şirvan və onun mərkəzi seçilən Şamaxı II Mənüçehr (1120-1149-cu illər) və onun oğlu I Axsitanın dövründə (1149-1203-cü illər) daha da çiçəkləndi. Şirvandan fərqli olaraq Arran və Cənubi Azərbaycan uzun müddət Səlcuq sultanlarından asılı vəziyyətdə qaldılar. Sonralar burada Atabəylər dövləti (1136-1225) yarandı. Atabəyər dövlətinin tərkibinə Azərbaycan, Arran və Naxçıvan vilayətləri ilə yanaşı Fars İraqı, Rey və Həmədan vilayətləri daxil idi.

Səlcuq hakimləri şeirə və sənətə yüksək qiymət vermiş, söz ustalarını səxavətlə mükafatlandırmışlar. Bu dövrdə fars dili özünün inkişafı və təkmilləşməsini Azərbaycan poeziya məktəbinin nümayəndələrinə borcludur. Z.Bünyadova görə, Səlcuq hökmdarları fars dilinin Xorasandan tutmuş Kiçik Asiyaya qədər yayılmasına ona görə zəmin yaradırdılar ki, bütün sultanlar savadsız idilər* və öz sələflərinin yalnız farslardan ibarət məmurlarına arxalanırdılar.Türk əmirləri yalnız yürüşlər və vergi toplamaq qayğısına qalırdılar[1].

Söz ehtiyatı, sintaktik ifadələrin zənginliyi, məcaz və tərkiblərin ifadəliliyi və orijinallığı-poetik formanın bütün bu əlamətlərinə görə, XII əsr Azərbaycan şairləri müasirləri və sonrakı şairlər nəsli arasında seçilirdi. Mənşəcə Sasanilərdən olduqlarını iddia edən Şirvanşahlar farsca yazan şairləri böyük həvəslə himayələrinə götürürdülər. Nizami Gəncəvi "Xosrov və Şirin" poemasını Səlcuqlu hökmdarı III Toğrulun sifarişi ilə qələmə almışdı. Əsərdə şair III Toğrulla bərabər Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın fəaliyyətindən bəhs

* Qeyd: Əl-Hüseyninin dediyinə görə, Məhmud ibn Məhəmməd (1118-1131) ərəb dilini mükəmməl bildiyi üçün istisna təşkil edir.

1 Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-122-ci illər). Bakı, "Elm", 1984, s.222.

etmiş, onların fəaliyyətini yüksək qiymətləndirmişdi. Şair "Xosrov və Şirin" poemasını Cahan Pəhləvana göndərmişdi. Cahan Pəhləvanın ölümündən sonra taxta çıxan Qızıl Arslan Həmdünyan adlı kəndlə şairi mükafatlandırmışdı[1]. Şairin Sasani hökmdarı V Bəhramdan bəhs edən daha bir poeması - "Yeddi gözəl" Marağa hakimi Körpə Arslana ithaf olunmuşdu[2]. Atabəylərdən Nüsrətəddin Əbu Bəkrə "Şərəfnamə", Mosul hakimi İzzəddin Məsuda isə "İqbalnamə" əsəri ithaf olunmuşdu. Dərbənd hakimi Seyfəddin Müzəffər qıpçaq qızı Afaqı böyük şairə hədiyyə etmişdi.

Qeyd etmək lazımdır ki, sünni ənənəsinin təşviq olunması Atabəylər mərhələsində də da davam etdirilmişdir. Dəməşqdə Nur əd-Din tərəfindən yaradılmış ilk "Dər əl-hədis", sünni ənənəsini təşviq etmək üçün öz növbəsində bir yenilik idi[3]. Nur əd-Din məşhur tarixçi və şafii məzhəbindən olan İbn Əsakiri (1105-1176) onun başçısı təyin etmişdi. Məhəmməd ibn Əhməd ibn əl-Həsən ibn Əli ət-Təbrizi, Əbu Nasr Məhəmməd ibn Məhəmməd əz-Zeynəbidən eşitdiyi hədisi Təbriz şəhərində söyləmişdir. Bunu isə öz növbəsində Əbülqasim İbn Əsakir öyrənmiş və nəql etmişdir. İbn Nöqtə Ərbildəki "Dər əl-hədis" və burada məskunlaşmış təbrizli alim Əbülxeyr Bədəl ibn Əbülmemar ət-Təbrizi haqqında məlumat verir. O, qeyd edir ki, Əbülxeyr ət-Təbrizi eşidərək qələmə aldığı çoxsaylı hədisi bu "Hədis evində" söyləmişdir[4].

Dini-fəlsəfi təlim olan Əxilik XII əsrin axırlarında Xəlifə əl-Nasir Lidinillah (1180-1225) tərəfindən yaradılmış rəsmi dini-siyasi təşkilat olan fütüvvənin bir sıra xarakterik cəhətlərini özündə əks etdirmişdir. Əxilər öz təşkilatlarının nizamnaməsini fütuvvatnamə[5*] adlandırırdılar. Cərəyanın tərəfdarları dörd əsas dini-əxlaqi norma toplusuna - şəriət,

---

[1] Nizami Gəncəvi. htpp://www.gencekitab.az/docs/Nizami.pdf

[2] Yusifli X. İnsan dühasının əlçatmazlıq nümunəsi//Nizami Gəncəvi. Yeddi gözəl. Tərcümə edəni M.Rahim. Bakı, "Lider", 2004, s.4.

[3] Семенова Л.А. Из истории средневековой Сирии (сельджукский период). Москва, «Наука», 1990, стр.64.

[4] ƏliyevaN.A. İbn Makula azərbaycanlı ziyalılar haqqında.Bakı,"Turxan", 2014, s.79.

[*] Fütuvvatnamə- Fütüvvədən bəhs edən və ya fütüvvənin ədəb-ərkanı haqqında məlumat verən əsərlərin ortaq adı (bax: İslam ansiklopedisi, 13 cild, İstanbul, 1996, s.264-265).

həqiqət, təriqət və mərifətə ciddi riayət edirdilər. Türkiyədə geniş yayılmış əxilikdə güclü şiəlik elementləri var idi. Əxilik, antifeodal çıxışları zamanı şəhər sənətkarlarının ideoloji silahı funksiyasını daşımışdır. Əslində insan hüququna hörmət, imkansızlara maddi yardım göstərmək əxlaqi borc sayılırdı. Cərəyanın tərəfdarları hesab edirdilər ki, insanlar öz hüquqlarını silah gücünə müdafiə etməlidirlər. Əxilik din azadlığına, əqidə sərbəstliyinə, eləcə də insanlıq və qardaşlığın təbliğinə üstünlük vermişdir. Əxilik Azərbaycanda da, xüsusilə geniş yayılmışdı. A.A. Bakıxanov tarixin müəyyən dövrlərində məşhurlaşan və elm aləmində özündən sonra iz qoyanlar arasında Şabranda fəaliyyət göstərmiş əxi təşkilatı üzvlərindən biri - məşhur Şeyx Yaqub Çarxının adını çəkir[1]. Uzun müddət qadağan olmuş kitablar siyahısında olan "İxvan əs-Səfa risalələri" təəssübkeş islam ideoloqları tərəfindən yandırılan kitablar arasında olmuşdur[2].

XIII əsrin əvvəllərində Cənubi Qafqazın iki təcavüz dalğasının təsirinə düşdüyü tarixi mənbələrdə ətraflı şəkildə əks olunmuşdur. Monqol və Xarəzm qoşunlarının zərbələri Cənubi Qafqazın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdi. O dövrün mənbələrində bu hadisələr barədə çoxsaylı məlumatlar tapmaq olar ki, bunu da alim və səyyahların, tarixçi və sadəcə vicdanını itirməmiş, İlahi ədalətdən qorxan və inamında möhkəm olan şəxslər öz əsərlərində, risalə və məktublarında qeyd edir, insanları gördükləri və ya eşitdikləri hadisələrdən xəbərdar edirdilər. Yaqut əl-Həməvi də belə şəxsiyyətlərdən biridir. Yaqut əl-Həməvinin bu dövrdə gördükləri, onun şəxsən şahidi olduğu hadisələrdir. O, Xarəzmdən qərbə doğru hərəkət edərək Azərbaycanın bir çox şəhər və yaşayış məntəqələrindən keçmiş, monqol hücumlarının faciəli nəticələrini öz gözləri ilə görmüşdü. Gördükləri və eşitdikləri onda monqol işğalı nəticəsində Azərbaycanın ictimai-iqtisadi və siyasi həyatında baş vermiş sarsıdıcı dəyişikliklər, eləcə də dağıntıların miqyası haqqında aydın təsəvvür yaratmağa imkan vermişdi.

Monqolların hakimiyyəti, xüsusən də Hülakülərin dövründə

[1] Бакиханов А.К. Сочинения, записки, письма. Баку, «Элм», 1983, стр.268.
[2] Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, "Elm", 1978, s.33.

Azərbaycan nəinki xristianların yayıldığı yer, hətta təqib olunan xristianların sığınacağı olmuşdu. Məsələn, Bar Ebrey məlumat verirdi ki, Əmir Kutluq erməni katolikosunu və onun yepiskoplarını sıxışdırırdı, hətta onları 1271-ci ildə zindana salmışdı, onlar azad olandan sonra "Ordadan" çıxaraq Azərbaycana gəlmiş, Uşnu şəhərində məskunlaşmışdılar. Digərləri Marağa və Təbrizdə sığınacaq tapmışdı.

Beləliklə, islam mədəniyyətini eyni müqəddəratı və ənənəsi olan, etnik və dil baxımından eyni kollektivin mədəniyyəti kimi səciyyələndirmək olar. İslam mədəniyyətinin sonrakı dövründə ərəb xalqının mədəniyyəti aparıcı rol oynamamış, onun bir hissəsini təşkil etmişdir. Bu mədəniyyət, VIII əsrin birinci yarısında formalaşmağa başlamış və sonradan Xilafətin ayrı-ayrı rayonlarında (Şimali Afrikada, Cənub-Qərbi Asiyada və Cənubi Avropada) çiçəklənmə dövrünü keçirmişdir. Özünü Azərbaycanda tapmış bu mədəniyyətin inkişaf dövrünü X-XII əsrlərə aid etmək olar. Bu dövrdə ölkəmizin hüdudlarından uzaqlarda şöhrət tapmış həmvətənlərimizin - istedadlı ilahiyyatçı alimlərin, mühəddislərin, dil-ədəbiyyat, musiqi, astronomiya, tibb, nəzəriyyə və dəqiq elmlərlə məşğul olan alimlərin sayı artmışdı. Həmin dövrün istənilən məşhur şəxsin əsərində həmvətənlərimiz haqqında məlumata rast gəlmək mümkündür.

# III FƏSİL

# İSLAM MƏDƏNİYYƏTİNİN YARANMASI VƏ İNKİŞAFI PROSESİNDƏ AZƏRBAYCAN VƏ YERLİ ƏHALİNİN MÖVQEYİ



## 3.1. Azərbaycanda İslamdan əvvəl və islam ərəfəsində elmlər

İbtidai icma dövründə yaşayan insanlar ətrafda baş verən hadisələrin səbəbləri ilə maraqlanır və dünya haqqında biliklərini artırmağa çalışırdılar. İlkin biliklər ibtidai insanların gündəlik həyatları ilə bağlı idi. 200 min il bundan əvvəl yaşamış neandertal insanlar belə dərman bitkiləri haqqında müəyyən bilgilərə malik olmuşlar. Göy cisimlərinin öz yerlərini dəyişməsi, ildırım çaxması, sel, yağış və dolu yağması və s. təbiət hadisələri də qədim insanları maraqlandırmışdır. Bu baxımdan Azərbaycanın Azıx mağarasında tapılmış əşyalar xüsusi maraq kəsb edır. Burada 300-400 min il bundan əvvəl yaşamış insanların hazırladıqları va istifadə etdikləri əşyalar aşkar edilmişdir. Onların arasında üzərində xüsusi işarələr həkk olunmuş mağara ayılarının kəllələri də vardır. Alimlərin qənaətinə görə, bunlar say işarələri ola bilərdi. Çox güman ki, Azıxda yaşamış insanlar göy cisimlərinin hərəkətini izləyir və günləri, ayları saymağa çalışırdılar. 300 min il əvvəl Azıxda yaşayan insanlar daşlardan ilk primitiv "evlər" tikməyə başlamışlar. Sözsüz ki, bu da qədim insanlardan xüsusi səriştə və bilik tələb edirdi.

E.ə. 2-ci minilliyin sonu, 1-ci minilliyin əvvəllərində Azərbaycan ərazisində ilk dövlət qurumları meydana gəlmişdi. Onlardan ən güclüsü və böyüyü Manna dövləti idi. Mannada elmi inkişafın ən vacib şərti olan yazı mədəniyyəti mövcud idi. Güney (Cənubi) Azərbaycandan üzə çıxarılan erkən Kür-Araz mədəniyyəti nümunələrini (Yanıqtəpə, Göytəpə) araşdıran iranlı tədqiqatçı G.Barneyinin fikrincə, artıq erkən tunc dövründə Azərbaycanın və qonşu ərazilərin əhalisi yazı ilə tanış idilər və bu məqsədlə taxta lövhələrdən istifadə edirdilər[1]. Aşkar olunan Timərə (Teymərə) yazısının önəmi ondadır ki, burada damğadan fonetik işarəyə keçidin ən ilkin forması qorunub saxlanmışdır və fonetik səsləri ifadə edən və sonradan türk-run əlifbasında özünə möhkəm yer tutan işarələrin, demək olar ki, hamısı bu və ya digər türk boyunun damğasıdır[*].

---

[1] Tuncay B. Azərbaycan türklərinin islamaqədərki dil və ədəbiyyatı (şifahi və yazılı ədəbi nümunələr əsasında). Bakı, "Elm və təhsil", 2015, s.130-135.

[*] Mohamed Naserfərd qədim türk mədəniyyəti ilə tanış olmadığından, bu işarə və yazıların protoelam yazılar olduğunu zənn etmiş, lakin güneyli əski türk yazıları üzrə mütəxəssis Mənsur Rəhbərinin müdaxiləsindən sonra səhvini anlamış, bu işarələrin türk–oğuz damğaları olduğunu təsdiq etmişdir (bax: Tuncay B. Azərbaycan türklərinin islamaqədərki... 2015, s.130-135.)

Tibb, astronomiya və həndəsəyə aid biliklər xüsusi hazırlanan gil lövhəciklərdə mixi yazı ilə (xüsusi heroqliflərlə) həkk olunurdu. Manna hökmdarları İranzu (e.ə.737-718/17) və Ahşeri (vəfatı e.ə. 659) ölkədə elm və mədəniyyətin inkişafına böyük diqqət verirdilər. Mannalıların mineralogiya, kimya, riyaziyyat, astronomiya, tibb, kənd təsərrüfatı və s. sahələrdə təsəvvürləri var idi. O dövrdə Urmiya gölü ətrafındakı ərazilərə suvarma kanalları çəkilmişdi. Ölkədə çoxlu əkin sahələri, taxıl, arpa və şərab anbarları vardı. Aqrar sahənin belə yüksək səviyyəsi kənd təsərrüfatı sahəsində dərin biliklər tələb edirdi. Ev heyvanlarının xüsusiyyətlərini və davranışını öyrənən mannalılar yerli ev heyvanlarının (at, inək, camış, zebu, qoyun, keçi və s.) seleksiyasına çalışırdılar. Mannanın cins atları qonşu ölkələrdə yüksək qiymətləndirilirdi. Həsənlidən tapılan müxtəlif əşyaların üzərindəki rəsmlərdən görünür ki, təkərli nəqliyyat da, at miniciliyi də geniş yayılmışdı. Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında qoşqu araba modelləri ilə tanış olmaq olar.

Buğda, arpa və bir çox mədəni bitkilərin yeni növləri də məhz qədim Azərbaycan ərazisində aparılan uzunmüddətli seleksiya nəticəsində yaranmış və sonra da başqa ölkələrə yayılmışdı.

Mannada bilik tələb edən sahələrdən biri də kargüzarlıq olmuşdur. Əhalidən vergilərin yığılması, dövlət büdcəsinin planlaşdırılması, gəlir və xərclərin hesablanması riyaziyyata və hüquq elmlərinə aid biliklərin inkişafına təkan vermişdi. Mineralların öyrənilməsi isə mannalıları irimiqyaslı mədən işləri aparmağa və metallurgiyanı inkişaf etdirməyə sövq etmişdi. Mannanın metal üzrə sənətkarlarının iş texnikasına açıq qəliblərdə tökmə işləri, döymə, naxışvurma, ştamplama və həkkaklıq daxil idi. Eyni bir əşyanı bir neçə metaldan hazırlamaq metodu da geniş tətbiq edilirdi. Cənubi Azərbaycanın Ziviyyə və Göytəpə məntəqələrində aparılmış arxeoloji qazıntılar nəticəsində e.ə. IX-VII əsrlərə aid qızıl, gümüş və tuncdan hazırlanmış yüksək keyfiyyətli məişət və bəzək əşyalarının tapılması bunu sübut edir. Metalların fiziki və kimyəvi xassələrinə bələd olan Azərbaycan sənətkarları onlardan müxtəlif xəlitələr hazırlamağı və e.ə. 1-ci minillikdə isə bürüncün müxtəlif növlərini (mis-qurğuşun, mis-manqan və mis-zərnix) almağı bacarırdılar. Yerli sənətkarlar dəmir, qalay və qurğuşunun xüsusiyyətlərini öyrənir, onlardan müxtəlif əşyalar hazırlayırdılar.

E.ə. IX-VI əsrlərdə Azərbaycanda həndəsə və riyaziyyat elmləri də inkişaf etmişdi. Dəqiq həndəsi hesablamalar Manna memarlarına şəhərsalma, saray və qalaların inşasına, gözətçi qüllələri və bürclərin, müdafiə sədləri və istehkamların tikintisinə rəvac verirdi. Binalar tikilməzdən əvvəl onların layihələri hazırlanırdı. İnşaat işləri də (bünövrənin qazılması, daşların və sütunların eyni ölçüdə yonulması, naxışlarla bəzədilməsi və s.) riyaziyyat və həndəsə elmləri sahəsində səriştə tələb edən dəqiq hesablamalar əsasında aparılırdı. Həsənli yaxınlığındakı Əqrəbtəpədə qazıntı zamanı kiçik bir qala aşkar edilmişdi. Bu qalanın da ətrafında qabarıq bürcləri olan hasar çəkilmişdi. Qala iki dəfə yandırılmış, lakin dağıdıldıqdan sonra ilkin plan əsasında bərpa edilmişdi.

E.ə. VII əsrdə Azərbaycan və İran torpaqlarında Midiya dövləti yarandı. Midiya dövlətində də elmə və savada böyük əhəmiyyət verilirdi. Dövlət idarələrində çalışan katiblər "dipiri" (Akkad dilindən alınmışdır) adlandırılırdı. Sonralar bu söz Midiya (Mada) dilindən fars dilinə "dəbir" formasında keçmişdir. Midiyalılar (madalılar) dünyanın ən qədim əlifbalarından olan "arami" (qədim Suriya dili) əlifbasından istifadə edirdilər. Qədim Roma və yunan mənbələri Midiyada yazılı ədəbiyyatın və kitab mədəniyyətinin olmasından xəbər verir. Roma tarixçisi Plini, e.ə. III əsrdə yaşamış yunan alimi Hermippə istinad edərək yazır ki, maqların (atəşpərəstlərin) iki milyon sətirdən ibarət kitabları vardı. Təəssüf ki, "Avesta"dan başqa bu kitablardan heç biri bu günə gəlib çatmamışdır. Midiyanın ərazisində cəmisi bir neçə mixi yazılı fraqment (ikisi Marlikdən aşkar edilmiş möhürlərin üzərində, biri isə Nuşi-Cantəpədə tapılmış gümüş parçasında) və akkad dilində mixi yazılarla tərtib olunmuş kiçik bürünc cədvəl, habelə arami yazıları olan bir neçə vaza tapılmışdır.

Midiya neft yataqları ilə zəngin bir ölkə idi. Yataqların bir hissəsi Xəzər dənizinin sahillərində yerləşirdi. Onlar neftin xassələrini öyrənir, neft təsərrüfatında texniki ixtiralar və yeniliklər tətbiq edirdilər. Məsələn, dünyada ilk dəfə olaraq midiyalılar nefti çıxartmaq üçün xüsusi mexaniki qurğular ixtira etmişdilər. Mütəxəssislər neftdən müxtəlif dərman formaları (müalicəvi yaxmalar, damcılar, yağlar və s.) hazırlayırdılar. Hərb və kimya mütəxəssisləri xam neftdən və müəyyən minerallardan yandırıcı silahlar düzəldirdilər.

Midiya kahinləri cəmiyyətin ən savadlı zümrəsi idi. Onlar qədim dini mətnləri əzbər bilir və ilahiyyat elmini inkişaf etdirirdilər. Midiyanın

varisi olmuş Atropatena dövründə Azərbaycan atəşpərəstliyin mərkəzinə çevrildi. Atəşpərəstliyin əsas prinsipləri (xeyir fikir, xeyir söz, xeyir əməl) intellektual və mənəvi dəyərlərin vacibliyini vurğulayırdı. Midiya dövləti fars sülaləsi Əhəmənilər tərəfindən işğal olunduqdan sonra da Ön Asiyanın elmi və dini mərkəzi olaraq qalır, ölkədə fəlsəfə və ilahiyyat elmləri sürətlə inkişaf edirdi. E.ə. VI-V əsrlərdə yunan alimləri də Midiya maqlarının təlimindən bəhrələnmişdilər. Qədim yunan filosofu Empedok (təqr. e.ə. 490-430) bütün əşyaların dörd ünsürdən-sudan, havadan, oddan, torpaqdan ibarət olduğunu söyləyərkən atəşpərəstlərin müqəddəs varlıqlar (od, su, torpaq, hava) haqqında təsəvvürlərinə əsaslanırdı.

Əhəmənilər imperiyası Makedoniyalı İsgəndərin (e.ə. 356-323) qoşunlarının zərbələri altında süquta uğradıqdan sonra Yunanıstandan Hindistana qədər geniş bir ərazidə kökü 1000 illərə dayanan Şərq mədəniyyəti və elmində “ellinizm” dövrü başlandı. Qədim yunan və Şərq elmlərinin bir-birinə qarşılıqlı təsiri ilə səciyyələnən bu mərhələ Azərbaycanda da özünü büruzə vermişdi. O dövrdə Azərbaycanda müstəqil Atropatena dövləti yarandı və yerli dövlətin mövcudluğu, elmin inkişafına müsbət təsir göstərdi. Atropatenanın ilk hakimi Atərpat (yun. - Atropat, e.ə. IV əsr) atəşpərəstlik fəlsəfəsinin pərəstişkarı idi və o, ölkəni yunan mədəniyyətinin təsirindən qorumağa çalışırdı.

Ellinizmin qüdrətli olduğu bir dövrdə yunan mədəniyyətinin təsirindən tamamilə təcrid olunmaq real deyildi. Ellinizm dövründə yaşamış bəzi Azərbaycan alimləri, zadəganları və tacirləri artıq yunan dilini yaxşı bilirdilər. Hətta kiçik şəhərlərdə və kəndlərdə yaşayan savadlı insanların da yunan elminin müddəaları haqqında təsəvvürləri vardı. Atropatena dövlətinin Avroman[1*] bölgəsində aparılmış arxeoloji qazıntıların gedişində ellinizm dövrünə aid yazılı sənədlər (perqament) tapılmışdır. Yunan təsiri daşıyan bu sənədlərdə o dövrün hüquq və kənd təsərrüfatı elmlərinə aid məlumatlar toplanmışdı. Həmin dövrdə yunan alimləri Xəzərin və Xəzəryanı bölgələrin dəqiq xəritəsini hazırlamaq üçün iki dəniz ekspedisiyası təşkil etmişdilər. Birinci ekspedisiya Makedoniyalı İsgəndər dövründə (başçısı Heraklit idi), ikinci ekspedisiya isə e.ə. 285-280 illərdə (başçısı Patroki idi) fəaliyyət göstərmişdi. Ekspedisiyalar tam uğurla

[*] Avroman hazırda Qərbi İranda Kürdistan və Kermanşah vilayətlərində və şimal-şərqi İraqda yerləşən dağlıq bölgədir.

nəticələnməsə də, Azərbaycanın coğrafiyası haqqında biliklərin xeyli genişlənməsinə səbəb olmuşdu.

III əsrdə Sasani imperiyası Atropatena dövlətçiliyinə son qoydu və ölkəni istila etdi. Buna baxmayaraq, Atropatena bu imperiyanın elmi, dini və mədəni mərkəzlərindən birinə çevrildi. Bu, həm zərdüştilik fəlsəfəsinin, həm də yunan elminin nüfuzunun artdığı bir dövr idi. Azərbaycanda Qalenin, Hippokratın, Evklidin, Ptolomeyin yunan dilindən tərcümə edilmiş əsərləri yayılırdı. Daha sonrakı dövrlərdə nücum (astronomiya) elminə aid bir sıra əsərlər də yaradıldı.

IV-VII əsrlərdə Azərbaycanda dünyəvi elmlər də inkişaf edirdi. Bu dövrdə mövcud olmuş əsas elmi peşələrin adları "Tənsarın məktubu" adlı qaynaqda sadalanır: "katiblər, məktub və sənədləri tərtib edənlər, hesab üzrə mütəxəssislər, həkimlər, coğrafiyaşünaslar və münəccimlər". Zadəganların uşaqları ilk təhsilini evdə alır, yeddi yaşından sonra isə məktəbə gedirdilər. Məktəblərdə tibb, hesab, coğrafiya,musiqi və nücum elmləri tədris olunurdu[1].

Ölkədə riyaziyyat, kənd təsərrüfatı, tibb üzrə mütəxəssislər çalışırdılar. Başqa xristian ölkələrində olduğu kimi, Qafqaz Albaniyasında da yunan dili həm geniş yayılmışdı, həm də burada qədim yunan və orta əsr Bizans alimləri və filosoflarının əsərlərini də yaxşı tanıyırdılar. Albaniyada yaşamış türk tayfalarının kahinləri (şamanlar) müxtəlif biliklərə malik olmuşlar. Onların bəziləri xristianların dini-fəlsəfi ideyalarını mənimsəmiş, bəziləri isə qədim türk tanrıçılığına sadiq qalmışdılar. Oğuz tayfalarının elm sahəsində olan səriştələri "Kitabi-Dədə Qorqud"da da öz əksini tapmışdır.

Qədim dövrün bütün bu uğurlarına baxmayaraq, İslamın gəlişindən əvvəl Azərbaycanda dəqiq elmlər nisbətən ləng inkişaf edirdi. Qafqaz Albaniyasında bunun səbəbi əlifbanın yalnız IV əsrdə yaradılmasıdır.

## 3.2. İslam mühitində ilk addımlar

Ərəblərin ilk hücumları nəticəsində Azərbaycan şəhərləri dərussülh (müsəlmanların müharibə yolu ilə deyil, sülh və müahidə bağlamaq yolu ilə işğal etdikləri ərazilər belə adlanırdı) məkanına daxil oldu[2]. Bu ərazidəki

---

[1] http://www.azerbaijans.com/content_601_az.html

[2] İslam, tarix, fəlsəfə, ibadətlər/Məsul redaktorları akad. Z.Bünadov və fəls.e.d. R.Əliyev. Bakı, "Elm", 1994, s.152.

əhli-kitab (yəhudi, xristian və zərduştilər nəzərdə tutulur) əhl-əz-zimmə (himayədə olanlar) sırasına daxil edilir, müahidənin şərtini gözləməklə onların şəxsi və mülki toxunulmazlıqlarına zəmanət verilirdi. Müqaviləyə görə başqa yerlər kimi, Azərbaycanın da müsəlman dünyası qarşısında vəzifələri yerinə yetirmək, islam dininin təlimi və mərasimlərini təbliğ etmək, ona etiqad, islam dünyasına qarşı müharibə aparmamaq, bu dinin tərəfdarlarına qarşı müharibələrdə iştirak etməmək, vergi-xərac vermək əsas sayılırdı. Xilafət isə öz siyasətində onları xarici hücumlardan müdafiə etməli, əhalinin siyasi hüquqlarının və etiqad azadlıqlarının qorunub saxlanmasına təminat verməli, onların daxili həyatına və dini işlərinə qarışmamalı, mülkiyyət hüquqlarına, şəxsiyyətlərinə hörmət etməli idi. Bəzi müəlliflər on il müddətinə bağlanan müqavilənin şərtlərinin yerinə yetirilməməsini şəhərlərin xərac verməkdən yayınması ilə əlaqələndirirlər. Lakin məlum tarixi faktdır ki, müsəlman fütuhatından əvvəl ara verməyən Bizans-İran müharibələri, xəzər və digər köçəri xalqların ölkəyə hücumu nəticəsində dağıdılmış təsərrüfat, zəifləmiş məhsuldar qüvvələr Azərbaycan, xüsusilə Arranın əhalisini yoxsul vəziyyətə salmışdı. “Vergi yükü, xüsusilə ərəblərin işğallarının ilk onilliklərində yumşaldığına görə” əhali müsəlmanlığın bu dövründə daha yaxşı yaşayırdı[1]. Hələ Xəlifə Əbu Bəkr (632-634) ərəb fütuhatının ilk dövründə ərəb qoşunlarına belə əmr etmişdi: “Düşmənləri şikəst etməyin, nə kiçik uşaqları, nə çox qoca adamları, nə də qadınları öldürməyin; xurma ağaclarını tələf etməyin, yemək üçün lazım olandan başqa, qoyun, inək və dəvələri kəsməyin. Siz, hücrələrdə dini ayinlə məşğul olan adamların yanından keçəcəksiniz: onları rahat buraxın və məşğələlərinə mane olmayın”. Sonra əmrdə deyilir: “Sizi qəbul edən hər bir şəhər və xalq ilə müqavilə bağlayın, onlara verdiyiniz vədlərə sadiq olun, qoy onlar biz gələnədək əməl etdikləri qayda və qanunlarla yaşasınlar. Onlarla aranızda bir hədd olmaq üçün bac qoyun ki, onlar öz din və torpaqlarında qalsınlar. Sizi qəbul etməyənlərlə müharibə edin”[2]. Bütün islam tədqiqatçıları qeyd edirlər ki, ərəblərin fəth etdikləri ölkələrin xalqları yeni dini kütləvi şəkildə qəbul edirdilər, ona görə ki, rus şərqşünası baron V.R. Rozenin (1849-1908) sözləri ilə

[1] Пигулевская Н.В., Якубовский А.Ю., Петрушевский И.П., Строева Л.В., Беленицкий А.М. История Ирана с древнейших времен до конца XVIII века. Ленинград, «Ленинградский университет», 1958, s.157.
[2] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, “Azərnəşr”, 1989, s.79.

deyilsə, "ərəblər öz sadəliyi və qeyri-mürəkkəbliyi baxımından möhtəşəm olan yeni dinin daşıyıcıları idi". Təqib və çəkişmədən əziyyət çəkmiş xalqın sosial övqatına uyğun gələn islam dini həmçinin kütlələrin ağır yadelli işğalçıların zülmündən qurtuluş idealı idi. Belə ki, fəth olunmuş ölkələr ərəblərin hökmranlığını qəbul etdikləri təqdirdə, onların həyatını təmin edən daha dözümlü şərtlər vəd edilirdi[1] . Doğrudur, islamı silah gücünə qəbul etmiş bəzi tayfaların, xüsusilə bədəvi ərəblərin əqidəsində dini etiqad dəyərincə möhkəm yer tutmamışdı. Azərbaycanda da belə olmuşdur. İslamlaşmanın ilk mərhələsində könüllü qəbul edilmiş islam dini yalnız müəyyən vaxt keçdikdən sonra, öz mədəni təsirilə həqiqi inam kimi mənimsənilmiş tam elmi əqidəyə çevrilmişdir. Ona görə də, Azərbaycanda, başqa yerlərdə olduğu kimi bu din kütlələri birdəfəyə fəth etməyib. Xilafət əleyhinə çıxışlar müqavilədən sonra da davam edib. Buna görə də, Məhəmməd peyğəmbər (s.a.s) və onun ardıcılları yeni dini etiqadın əqidədə tam möhkəmlənmədiyi dövrdə bu dinin təbliğində və onu qəbul edənlərlə ehtiyatlı olmağı tövsiyə edirdi. Quranın "əl-Hucurat" surəsinin 14-cü ayəsi də bunu təsdiq edir[2].

VIII əsrin əvvəllərində sərkərdə Əbdüləziz ibn Hatim ən-Numan əl-Bəhilinin Azərbaycana yürüşü nəticəsində Azərbaycan şəhərləri yenidən digər yaşayış məskənləri ilə birlikdə Xilafətə birləşdirildi. IX əsr ərəb tarixçisi əl-Bəlazuri Əbdüləziz ibn əl-Bəhilinin Azərbaycanda quruculuq işlərindən bəhs edir. Müəllif sərkərdənin bu fəaliyyətini işğal edilmiş şəhərlərin tamamilə dağıdılması ilə əlaqələndirir[3].

İslam mədəniyyətinin yayılmasını öncələyən islamlaşma prosesi çox çətin və uzun sürən bir proses olmuşdur. Hətta əvvəllər fəth olunmuş ölkələrdə dini bayramlara toplaşan müsəlmanlar özləri ilə silah götürürdülər. Ensiklopedik alim Əbu Həfs Ömər ibn Məhəmməd ən-Nəsəfinin (460-537/1068-1142) yazdığı kimi islamı yaymağa gələn

---

[1] Беляев Е.А. арабы, ислам и арабский халифат в раннее средневековье. Изд.второе., Москва, «Наука», 1966 г., стр.140.

[2] Qurani Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M. Bünyadov və V.Məmmədəliyev. Ön söz V.M. Məmmədəliyev, qeyd və şərhlər Z.M. Bünyadovundur. Bakı, "Olimp", s.516.

[3] Bəlazuri, Kitabu- Futuh əl-Buldən, 1866, s.242.

şərait yarandı. Bu imtiyazlı zümrəyə daxil edilən məvalilər[1*] müsəlman adları ilə yazıb yaradırdılar. Bioqrafik mənbələrdəki məlumatlar onların hərbi fəaliyyətləri haqqında yazmasalar da, şairlik fəaliyyəti haqqında məlumat verirlər. İbn Qüteybənin "Əl-Məarif vəl-lataif" əsərində ziyalıların daxil olduğu ərəb qəbiləsinin adı xüsusi qeyd edilir. Öz doğma yurdundan ayrı düşmüş və ərəblərin mühitində yaşayan bu zümrəni islamlaşmış yerli xalqların bayraqdarı hesab etmək olar. İbn Quteybəyə

[*] Qeyd: Mövlə (məvali-cəm) termini islamdan əvvəlki Ərəbistanda geniş yayılmışdı. Bu termin tez-tez müxtəlif asılı kateqoriyadan olan əhaliyə şamil edilirdi. Məfhum çoxmənalı (qan qohumlarından tutmuş hamiliyə qəbul edilmiş özgə xalqlardan və azad edilmiş qullara qədər) olduğuna görə mavlə sözünün qrammatik məna kimi real məzmununu yalnız kontekstən çxış edərək açmaq olar (Bax: Негря Л.В. К вопросу о значениях понятия мавла в Аравии V-VII вв.-«Вестник МГУ». I (1977), стр.25-33). Ərəb fəthləri dövründə məvla termini yeni məzmun kəsb edir. Onlar yeni müsəlmanlar kimi ərəb ordusu tərəfində döyüşən müsəlman-ərəblərlə bərabər tutulurdu. Qənimətlərin bölgüsündə də bu təbəqədən olanlar ərəblərlə eyni pay alırdı. Ayrı-ayrı ərəblərə təhkim olan bu qeyri-ərəblər Xilafətin həyatında öyəmli rol oynamağa başladı. Onlar təhkim olunduqları qəbilə başçıları və onun qəbilə üzvləri ilə birlikdə fəth olunmuş yerə yerləşdirilir, onu hərbi əməliyyatlarda müşayət edirdilər (Bax: Колесников А.И. Завоевание Ирана арабами. Москва, «Наука», 1982, стр.173).

əsaslanan M.Mahmudov yazır ki, məvali- şairlər (Musa Şəhəvat, Əbul-Abbas, İsmayıl ibn Yasar və onun qardaşları) VII əsrin sonlarında və VIII əsrin I yarısında yaşayıb yaratmışlar. Onlar ictimai ziddiyyətlərin son həddə çatdığı Əməvilər dövründə (h.41-127/661-749) öz mənafelərinə uyğun olaraq bu və ya digər siyasi dəstənin tərəfində dururdular[1]. Həmin siyasi qruplar da öz növbəsində məvalilərin xidmətindən həvəslə istifadə edirdilər. Azərbaycanda islam mədəniyyətinin yayılmasında böyük rolu olmuş Xəlifə Əbdülməlikin özü ədəbiyyata böyük maraq göstərmişdir. Odur ki, əhalinin toplandığı yerlərdə şeir oxumaq və şairlərdən söhbət açılması barədə əmr vermişdi[2].

Sözsüz ki, bu şairlərdən Əməviləri, o cümlədən bu sülalənin nümayəndəsi olan Əbdülməliyi tərifləmək, haşimilər və xilafət fikrinə düşən başqa nəsilləri isə pisləmək tələb olunurdu[3]. Onların arasında azərbaycanlı şairlər də var idi. O dövrdə Mədinədə yaşayan Əbul-Abbas, Musa Şəhavat, Fərrux Yassar kimi məvaliləri Y.Belyayev mədəni səviyyələrinə görə iran və arami mədəniyyəti varisləri kimi ərəb-müsəlmanların ilk nəsillərindən ölçüyə gəlməyən dərəcədə üstün hesab edirdi. Onun fikrincə, bu, ərəblərə onlardan savad tələb olunan yerlərdə- müəssisələrdə, qoşunda və təsərrüfat sahələrində istifadə etməyə əsas verirdi[4]. Məvali şairlərin yaradıcılığını təhlil edən M.Mahmudov da təqribən belə nəticəyə gəlmişdi. O, yazır ki, Azərbaycan xalqının həmin dövrdəki bədii təfəkkürü digər müsəlman xalqlarının mədəni səviyyəsindən heç də geri qalmamış, bir çox millətlərin birgə səyi nəticəsində meydana gəlmiş ərəbdilli poeziyanın yeni keyfiyyətlər kəsb etməsində, forma və məzmunca dərinləşməsində, ictimai və siyasi həyata dərindən nüfuz etməsində öz faydasını əsirgəməmişdir[5].

Ərəblərin islamlaşmanın ilk mərhələsində dil siyasətinə üstünlük verməsini Quranın və Quran haqqında ədəbiyyatın öyrənilməsinə və

[1] Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər) Bakı, "Elm", 1983, s.11.

[2] İbn Qüteybə. Əl-Məarif vəl-lataif. Leyden, 1908, s.70.

[3] Azərli M. Xəlifə Əbdülməlik ibn Mərvanın islahatı və Azərbaycan (685-705-ci illər). Bakı, 1964. Tarix İnstitutunun elmi arxivi, №5678., s.92.

[4] Беляев Е.А. арабы, ислам и арабский халифат в раннее средневековье. Изд.второе. Москва, «Наука», 1966 г., стр.194.

[5] Azərli M. Xəlifə Əbdülməlik ibn Mərvanın islahatı və Azərbaycan (685-705-ci illər). Bakı, 1964. Tarix İnstitutunun elmi arxivi, №5678., s.76.


*Azərbaycanlı məvla-şair İsmayıl ibn Yasar*

yayılmasına kömək edən tədbir kimi başa düşmək olar. Zaman keçdikcə islamın yayılması sayəsində təşəkkül tapmış yeni müsəlman mədəniyyəti elmə misli görünməmiş maraq oyatmağa başlamışdı. Quran özü "bilənləri", "bilməyənlərdən" üstün tutmaqla müsəlmanları elmə, biliklərə yiyələnməyə həvəsləndirirdi. Müsəlman tarixçiləri islam mədəniyyətinin tarixini məlik və əmirlərin həyat yolu əsasında deyil, alimlərin fikri əsasında öyrənirdilər, çünki alimləri peyğəmbərin varisi hesab edirdilər[1]. Buna görə də islam aləmində alimlərə hər yerdə ehtiram göstərilir, onların rəyi ilə hesablaşırdılar. Hökmdarlar müxtəlif elm nümayəndələrinə himayədarlıq göstərir, elmin inkişafına verdikləri sərmayənin həcmi ilə fəxr edirdilər[2].

Müsəlman Şərqində elmlərin inkişafı VIII-IX əsrlərdən etibarən xeyli sürətlənmişdi. 132/750-ci ildə Xorasanda, Şərqi İranda baş vermiş mühüm siyasi hadisə-Əbu Müslim hərəkatı Əməvilərin devrilməsi və ərəb əyanları ilə fəth olunmuş qeyri-ərəb aristokratiyasının hüquqlarının bərabərləşməsi ilə nəticələndi[3]. Əməvilərin taxt-tacına sahib olan Abbasilər eyni dərəcədə həm həmyerlilərinə, həm idarə edən sülaləyə mənsub olmayan ərəb əyanlarına, həm də fəth edilmiş ölkələrin sakinlərinə arxalanırdılar[4]. Nəticədə, "... ərəblər tutduqları mövqeyə görə imperiyanın tərkiibnə daxil olmuş çoxsaylı xalqlardan birinə çevrildi"[5]. Bu isə, öz növbəsində ərəblərlə fəth olunan ölkələrin ziyalıları arasında qarşılıqlı mədəni əlaqələrin daha da gücləndirdi.

IX əsrin əvvəllərində Xilafətin mədəni-dini həyatı xüsusilə inkişaf edir, özünün çiçəklənmə dövrünü keçirirdi.

---

[1] Hacı Sabir Həsənli. İslam mədəniyyətində elm. Bakı, "Elm və həyat", 1998, s.27.

[2] Paşazadə A. Qafqazda islam. Bakı, "Azərnəşr", 1991, s. 115.

[3] Босворд К.Э. Мусульманские династии. Москва, «Наука», 1971, стр.30.

[4] Фильштинский И.М. Арабская литература в средние века (VIII-IX вв.), Москва, «Наука», 1978, стр.6-7.

[5] Ханна аль-Фахури. История арабской литературы. В 2-х томах, т. I. Москва, «Иностранная литература», 1959-1961г., стр.273.

A.Yakubovskiyə görə, bu dövrdə Xilafətin Bizans, Bağdadın isə Konstantinopol üzərində üstünlüyü haqqında danışmaq mümkündür[1]. Mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcümə olunması da elmin və mədəniyyətin inkişarına təkan verirdi. Hələ Harun ər-Rəşidin dövründə Bağdadda təsis edilmiş, Xəlifə əl-Məmunun adı ilə bağlı "Dərul-hikmə" və ya "Xəzinət əl-hikmə" ("Hikmət evi" və ya "Hikmət xəzinəsi") adlandırılan elmi mərkəz elm və mədəniyyətin inkişafına daha böyük imkanlar yaratmış, müxtəlif dillərdə (xüsusilə yunan və siryani) yazılmış əsərlərin ərəb dilinə tərcüməsi sahəsində mühüm işlər görmüşdür[2].

VIII-IX əsrlərdən ərəb dilinə tərcümə olunan Aristotelin, Hippokratın və Platonun əsərlərinin Şirvanda geniş yayılması Azərbaycan şairi Xaqaninin öz əmisi Kafiəddin Şirvani haqqında yazdığı şeirdə öz əksini tapmışdır[3].

**3.3. İslam mədəniyyəti Azərbaycan şəhərlərində**

*Arranın anası-Bərdə.* Artıq 950-1050-ci illərdə üç vilayət - Arran, Şirvan və əl-Babın sərhədləri müəyyənləşmişdi. Şirvan və Əl-Babın, yəni Dərbəndin sərhədləri Kür çayından şimalda, Arranınkı isə Kür çayından cənubda idi[4].

Bərdənin həyatında dönüş nöqtəsi, 942-ci ildə Dərbəndə qədər bütün Xəzəryanı ərazilərdən Saciləri qovan Salarilərin paxtaxt Bərdə olmaqla bütün Arranı tutması deyil, iki il sonra, yəni 944-cü ildə dəniz tərəfdən Bərdəyə soxulan ruslarla əlaqədar olmuşdur. h.332 (944)-ci il hadisələrini təsvir edən İbn Kəsirə görə, "dənizdən Azərbaycana tərəf istiqamət götürərək Bərdəyə gəlib çatan rusların bir tayfası, şəhəri mühasirəyə alıb, dağıdıb-qarət edəndən sonra camaatı əsir alıb-aparmışlar[5]. Bu hadisələrdən sonra Bərdə əvvəlki əzəmətini itirdi.

Əvvəllər Qəbələ, VI əsrdən sonra isə Sasanilərin Albaniyadakı canişinlərinin baş şəhəri olmuş Bərdə (Partav) 644-cü ildə xəlifə Osmanın

---

1 Якубовский А.Ю. Ирак на грани VIII-IX вв. (черты социального строя халифата при Аббасидах)//Труды Первой сессии арабистов 14 - 17 июня 1935 г. Ленинград, 1937, s.34.

2 Azərbaycan tarixi. II c. Bakı, 1998, s.261.

3 Mehrəliyev E.Q. Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər), Bakı, "Çaşıoğlu", 2000, s.37.

4 Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981, s.38.

5 İbn Kəsir. Əl-Bidəyə və ən-Nihayə. VI c., Dər ət-Təqva, s.252.



*Bərdə qazıntılarından tapılmış sütun altlıqları və başlıqlar*

orduları tərəfindən fəth edilmişdir. Bu dövrdə Albaniya (Arran) və Ərminiyə vilayətlərindəki Ərəb canişinlərinin də baş şəhərinə çevrilən Bərdə həm də alban knyzlarının iqamətgahı olaraq qalırdı. Z.Səidovun gümanına görə, ərəblər ilk vaxtlarda xərac və cizyənin toplanmasına fikir verir, şəhəri idarəetməni isə yerli hakimin öhdəsinə buraxırdılar[1]. Müəllif yazır ki, Bərdə Abbasilər dövründə - 752-ci ildə, ərəb inzibati idarəçilik mərkəzinə çevrilir. Bizə belə gəlir ki, əsas məqsədi fəth olunmuş ölkələrdə islamı yaymaq olan xəlifələr vergi toplamaqla bərabər bu siyasəti də həyata keçirirdilər. Bu dövrdə sərkərdələrin vəzifəsi hər vasitə ilə yerli sakinlərə islamı qəbul etdirməyə çalışmaq idi. Bunu biz sırf Arranla olmasa da, digər ölkələrlə, həmçinin həmin dövrdə öz hakimiyyətlərini Mərkəzi Asiya ölkələrində yaymağa gəlmiş fatehlərin apardığı siyasətdə görə bilərik. Sərkərdələr əvvəllər bütlərin saxlandığı yerlərdə məscid tikdirərək əmr verirdilər ki, şəhər sakinləri hər cümə günü bura ibadətə gəlsinlər. Əmrə əlavə olaraq ibadətə gələn hər adama 2 dirhəm veriləcəyi bildirilirdi[2]. Hələ 628-ci ildə İranla Bizans arasındakı müharibədə Bizansın müttəfiqi olan xəzərlər vasitəsilə dağıdılan Bərdənin yenidən qurulması da bu vaxtlara, yəni I Əməvi xəlifəsi Müaviyə (661-680) dövrünə təsadüf edir. Azərbaycanda idarəetmə mərkəzi sayılan Ərdəbildən başlayaraq ölkənin bir çox şəhərlərində, o cümlədən Arranda vali olmuş Əbdüləziz ibn Hatim tərəfindən yenidən qurulmuş Bərdədə came və məscidlər tikilmişdir.

---

[1] Саидов З.А. Выходцы из Берда в среде ученых Багдада и других культурных центров Халифата в IX –X веках//Изв.АН Аз.ССР, Серия истории, философии и права, Баку, «Елм», 1990, № 1, стр.115.

[2] Ан-Насафи Наджм ад-Дин Абу Хафс Умар ибн Мухаммад. Ал-Канд фи зикр улама Самарканд//Общественные науки в Узбекистане. Ташкент, 1997. № 9-10-11, стр.68.

Ona görə, ərəblərin Qafqaz bölgəsində siyasətinin həyata keçirilməsində əsas baza rolunu oynayan Bərdənin həm də müsəlman təhsil ocağı kimi rolunun artmasını, 752-ci ildə katolikosluğun oradan çıxarılması ilə bağlamaq dövrün tələbi idi demək daha doğru olardı. Bu mədəniyyət və təhsil ocağında yerli alimlərlə fikir mübadiləsi aparmaq üçün ətraf vilayət və şəhərlərdən ziyalılar gəlirdilər. Bab əl-Əbvabdan olan Məhəmməd ibn Əbu İmran əl-Babi əs-Saqafi də belə ziyalılardan idi. O, Bərdədə İbrahim əl-Xavarizmidən hədis söyləmişdir[1].

İbn Havqəlin "Arranın anası, diyarın gözü" kimi qələmə verdiyi Bərdə şəhəri elə qədim zamanlardan bəri böyük olmuşdur: bir fərsəxə yaxın uzunluğu, bundan bir qədər az enidir. Səyyah-alim sağlam havalı, məhsuldar yeri, vəziyyəti ali, mövqeyi uğurlu və sağlam hesab etdiyi Bərdəni Xilafət şəhərləri ilə müqayisə edərək yazır ki, İraq və Təbəristan arasında Reydən və İsfahandan sonra ondan daha məhsuldar, daha yaxşı mövqeli, təsərrüfat sahələri və bazarlarından tutmuş mehmanxanalara, karvansaralara, binalarına, əmlak və ticarətinə kimi daha böyük şəhər yoxdur[2].

Əsərinin bir fəslini Azərbaycanın IX-XIII əsr şəhərləri və onların öyrənilməsinə həsr etmiş görkəmli arxeoloq Q.M. Əhmədov göstərir ki, Şirvanın və Arranın şəhərləri Şərqi Zaqafqaziyada (Cənubi Qafqazda-N.Ə.) birincilik rolunu monqolların hücumuna qədər saxlamışdılar[3].

IX-XI əsrlərdə olduğu kimi, XII və XIII əsrin əvvəllərində də iri sənətkarlıq və ticarət mərkəzləri Cənubi Qafqazın Şimal rayonlarında

[1] Yaqut əl-Həməvi. Mucəm əl-Buldən, Beyrut, 1977,II c., s.305.
[2] Vəlixanlı N.A., Azərbaycan VII-XII əsrlərdə ....2016, s.289.
[3] Əhmədov Q. M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, Azərb.SSR Elmlər Akademiyasının Nəşriyyatı, 1959, s.28.

yerləşirdi[1]. Onların arasında o vaxta qədər bütün Qafqazın ən böyük və mədəni mərkəzlərindən sayılan Bərdə[*] öz əvvəlki əhəmiyyətini itirsə də, onun mövqeyi başqa bir şimali Azərbaycan şəhərinə- Gəncəyə keçir. Rəvvadilərin nümayəndəsi Məmlanın oğlu Vahsudanın Rəvvadilər dövlətinin möhkəmlənməsində və dostluq münasibətlərinin inkişafında Gəncə səfərinin də rolu olmuşdur. Bu vaxt məşhur Azərbaycan şairi Qətran Təbrizi də Gəncədə olmuş və onun şərəfinə qəsidə yazaraq mədh etmişdir. Orta əsr ərəbdilli mənbələrin azərbaycanlı ziyalılar haqqında verdikləri məlumatın təhlili göstərir ki, IX-X əsrlərdə "bərdəli" nisbəli, yəni mənşəcə Bərdədən olan alimlər üstünlük təşkil etmişdir. Qaynaqlarda Nişapurda inşa edilmiş ilk darussünnədə[*] bərdəli alim Əbu Bəkr Məkki ibn Əhməd Səadaveyhin (v.e. h.394) şərəfinə imla məclisi təşkil olunduğu qeyd olunur. Qeyd etmək lazımdır ki, əvvəllər imla tədrisin ən ali pilləsi sayılırdı. IX əsrdə ilahiyyatçılar və filoloqlar xüsusilə çox diktə (imla) edirdilər. Leksikologiyanı imla yolu ilə öyrədənlərin axırıncısı Əbülqasim əz-Zəccaci (v.e. 339/950) olmuşdur. Əs-Suyutiyə görə, ilahiyyat sahəsində imla üsulu hələ uzun müddət davam etmişdi[2]. Məşhur tarixçi mühəddis, "Əl-Ənsab" əsərinin müəllifi Əbdülkərim əs-Səmani (1113-1167) onun

[1] Петрушевский И.П. Хамдуллах Казвини как источник по социально-экономической истории Восточного Закавказья. Изв. АН СССР, отделение общественных наук, 1937, № 4. стр.10.

[*] Tədqiqatçı L.Qafarzadə D.Danlop və K.Bosvortun rusların Bərdəyə hücumlarının nəticələri barədə yazdıqlarını müqayisə edərək K.Bosvortun Bərdənin tənəzzül etməsinin əsas səbəbi kimi, rusların qarətçi hücumlarının olması fikrinə üstünlük verir. İbn Havqəl yazırdı ki, rusların basqınlarından sonra Bərdədə cəmi beş çörəkçi qalmışdı, baxmayaraq ki, baş verən hadisələrdən əvvəl əhalinin sayı 1200-ü ötürdü. L.Qafarzadə göstərir ki, D.Danlop məqaləsində bu sitatı gətirməsinə baxmayaraq, şəhərin tənəzzül səbəbini Salarilərin şəhəri pis idarəetməsi və vergilərin yüksək olmasında görürdü. Müəllif tədqiqatında bəzi şəxsiyyətlərin adlarının mənşəyinə də aydınlıq gətirir. K.Bosvort Sacilərin İran mənşəli olmasını yazırdı.U.Madelunq Sacilərin Usruşanadan (Məvəraunnəhrdə vilayət) olmasını vurğulamasına baxmayaraq, sülalənin əsasını qoymuş Əbu Sacın adını əsas götürərək onların mənşəcə türk deyil, daha çox soqdlar olduğunu göstərir. Lakin, L.Qafarzadə bununla razılaşmır. O, Azərbaycan və türk tarixşünaslığına əsaslanaraq, Sacilərin Orta Asiyanın türk əmirləri nəslindən, daha doğrusu Usruşanadan olduğunu vurğulayır (səh.142).

[*] Darussünnə-sünnə və islam hüququ sahəsində araşdırma aparan müəssisə.

[2] Əs-Suyuti. Kitab əl-Mazhar fi ulum əl-luğa va ənva`ihə lil-allamə Cəlaladdin əs-Suyuti. I c., 1325/1907. Qahirə, s.30.

haqqında bir çox müəlliflərin məlumat verdiyini yazır[1]. 302/914-cü ildə Nişapurda məskunlaşan həmyerlimiz bu dərüssünnədə bağdadlı Əbülqasım, hələbli Əbdüləziz, homslu əl-Abbas İbn Cabir və onun tələbələri haqqında rəvayətlər etmişdir. Əbu Bəkr ibn Məkki ibn Əhməd Səadaveyhin bu məlumatı Nişapurda verməsi onun İraq və Şam bölgələrinə səfərdən sonra Nişapura dönməsindən xəbər verir. Böyük alim Nişapurda dərüssünnəni yaratmış Əbu Bəkr Əhməd ibn İshaq əs-Sıbğı (342/954) ilə bir dövrdə fəaliyyət göstərmişdir. Əbu Bəkr ibn Səadaveyh əl-Bərdəi hədis toplamaq üçün səyahət edənlərin ən məşhurlarından sayılırdı[2]. Hakim Əbu Abdulla ən-Nişapuri "Nişapur tarixi"əsərində göstərir ki, Əbu Bəkr əl-Bərdəi 302/914-ci ildə hədis tələbi ilə Nişapura səfər edərək orada qalmış, 350/961-ci ildə Məvaraənnəhrə getmişdir. Xorasanda insanı heyrətləndirən çox şey yazmışdır. 354/965-cü ildə Şaşda vəfat etmişdir[3]. Beləliklə, Səadaveyh əl-Bərdəini nəinki Azərbaycanın, həmçinin Xilafətin ilk təhsil ocağının öncül alimlərindən hesab etmək olar.

Fiqh alimi Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh əl-Bərdəi əl-Bərdicinin (844-914)[4**] anadan olduğu yeri Bərdic hesab etmək olar. Bərdə şəhəri isə Arranın paytaxtı kimi tanındığından, "əl-Bərdəi" nisbəsini də götürdüyü güman olunur. Əs-Səmani onu "Nişapurlu hafiz" də adlandırmış, 10-a qədər alimdən dərs aldığını qeyd etmişdir. Onların arasında fitri yaddaşa malik Əbu Zur'a əd-Diməşqi (v.e. 281/894) də olmuşdur. Əl-Bərdicinin söylədiyi hədisləri X əsrin əvvəllərində əl-Hakim əl-Nişapurinin "şeyximiz" adlandırdığı Hafiz Əbu Əli dinləmişdi. Əl-Hakim əl-Nişapurinin məlumatına görə, o dövrdə nişapurlu şeyxlər Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh Əl-Bərdəi əl-Bərdicinin söylədiyi hədisləri yazmışlar. Əl-Hakim davam edərək yazır ki, "dövrün ona tay elə bir imamını tanımıram"[5]. Alimlər

---

[1] Əs-Səmani, I c., s.328

[2] Əliyeva N.A.Əs-Səmaninin....2010, s.24.

[3] Yenə orada.

[**] Qeyd: Tarixi qaynaqlarda Əhməd əl-Bərdicinin yazdıqlarından 3 əsəri xüsusi qeyd olunur.Onun "Peyğəmbrin əshabələri,onun tabiiləri və hədis əhlinin nadir adları" adlanan əsərinin nüsxələri Qüds, Dəməşq, ər-Riad və İstanbulda saxlanılır. Əli Kuşək əsərin tənqidi mətnini hazırlamış və Beyrutda 1990-cı ildə çap etdirmişdir. Burada 426 ad və yer adları var (bax: Мамедов З.Дж. Азербайджанские философы и мыслители средневековья. Баку, «Элм», 1993, стр.10-11)

[5] Əliyeva N.A.Əs-Səmaninin....2010, s.101-102.

arasında onun haqqında geniş bilginin olması və əl-Hakim ən-Nişapurinin söylədiyi kəlamlar, elm aləmində bu şəxsiyyətin böyük nüfuza malik olması qənaətinə gəlməyə əsas verir.

IX əsr mühəddis və hədis raviləri arasında görkəmli yer tutmuş bərdəli alimlərdən biri də Əbu Osman Səid ibn Əmr ibn Əmmar əl-Əzdi əl-Bərdəi (v.e. 292/905) olmuşdur. Bərdə şəhərində doğulan Əbu Osman hədis təhsili almaq üçün Xilafətin bir çox mədəniyyət mərkəzlərinə səyahət etmişdir. Bir çox bərdəlilər kimi, Əbu Osman da hədis elminin incəliklərinə yiyələnmək üçün IX-X əsrlərdə hədis elminin çox inkişaf etdiyi Nişapura yollanmışdı. Mühəddisin müəllimləri arasında Əbu Zur`a ər-Razinin (v.e. 281/894) xüsusi yeri olmuşdur. Əz-Zəhəbiyə görə, Əbu Zur`anın şərhini Səid ibn Əmr davam etdirmiş və Misirdə onu ziyarət edərək axırıncı dəfə ona öz kitabını oxumuşdu[1]. Tədqiqatçı Ziya Səidov hesab edir ki, bu, Səid əl-Bərdəinin üzünü köçürdüyü və Əbu Zur`anın axırıncı dəfə söylənilməsi üçün verilən əsəri olmuşdur. Qeyd etmək lazımdır ki, Səid əl-Bərdəinin özü də Əbu Zur`a ilə əlaqəli əsər yazmışdır. Bu, "əd-Duafa va-l kəzzabun va-l mətrukun min əshabi-l hədis" adlı əsərdir. Əbu Osmanın bu əsərinin əlyazması 40/41 sayı altında Köprülü kitabxanasında saxlanılır[2]. Əsərdə Əbu Osman əl-Bərdəinin hədis raviləri haqqında sorğularına Əbu Zur`anın və Əbu Hatimin cavabarı açıqlanır. Bu, bizə belə qənaətə gəlməyə əsas verir ki, müəllim tələbəyə bilik verərkən, hədis elminin tədrisi ənənəsinə görə tələbənin öyrənərək isnad etdiyi əsərin istifadə olunması üçün müəlliminin yazılı "icazəsi" olmalı idi. Ona görə də, müəlliflər bir-birlərindən götürdükləri məlumatları redaktə edir, əsərlərdə olmayan məlumatları əlavə etməklə yeni mənbələr yaratmış olurdular. Fikrimizcə, Səid əl-Bərdəinin əsəri də bu şəkildə meydana gələn əsərlərdən sayılmalıdır. Yaqut əl-Həməvi də Əbu Osmanla bağlı Həfs ibn Ömər əl-Bərdəinin söylədiyi maraqlı əhvalatı nəql etmişdir: Səid ibn Əmr əl-Bərdəi evinə qapanaraq demişdi: "Mən camaata nə hədis söyləyim? Adamlar artıq dəyişiblər. Hədis söyləyənlər Məhəmməd ibn Məsləmə ibn Varah ər-Razini xahişlə onun yanına göndərirlər. Razi onun yanına gəlib hədis söyləməsini xahiş edir.

---

1 Əz-Zəhəbi. Təzkirətu-l-huffaz.Heydərəbad, 1963, II c., s.349.

2 Kandemir M.Yaşar. Hakim en-Nişapuri. İslam Ansiklopedisi, 15-ci c., İstanbul, 1997.

O "yox" cavabını verir. Sonra ər-Razi deyir: Mənim sənin boynunda haqqım var". Əl-Bərdəi dedi: "Sənin mənim boynumda nə haqqın var?" O dedi: "Bir gün mən sənin dəvəni götürmüşdüm". O dedi: Bu sənin haqqındır, Allah köməyin olsun". Ər-Razi dedi: "Bir dəstə camaat sənə şər atmaq istədi, mən həmin şəri dəf` eylədim". Əl-Bərdəi dedi: "Bu da sənin müsəlman camaatına borcun edir". Ər-Razi dedi: "Mən bir gün sənin kəndində qonaq oldum. Yeməyə qədər mənimlə olanda mən sənin qəlbinə sevinc gətirdim". Nəhayət, Səid ibn Əmr əl-Bərdəi dedi: "Buna gəldikdə, bəli",- və onun istəyini yerinə yetirdi[1]. Müəllimlə tələbə arasındakı bu söhbət, əl-Bərdəinin hədislərin ötürülməsinə necə məsuliyyətlə yanaşmasını göstərir. Səid əl-Bərdəi 270/883-cü ildə vəfat etmişdir.

X əsr müəllifi əl-Müqəddəsiyə görə, burada yaxşı insanlar, din mücahidləri çoxdur, əhalisi Hənbəli məzhəbinin ardıcıllarıdır. Mənbə əlavə olaraq qeyd edir ki, onlarda fiqh (şəriət qanunlarına dair elm) zəifdir[2].

Bərdədən çıxmış alimlərdən bəziləri IX əsrin birinci yarısında Azərbaycanda da geniş yayılmış mötəzili və xarici cərəyanlarının nümayəndələri sayılmışlar. Bəzən bir ziyalı iki cərəyanın nümayəndəsi kimi qeyd edilirdi. Xariciliyin nümayəndəsi, Bərdədən çıxmış alimlərimizdən Əbu Bəkr Məhəmməd ibn Abdulla əl-Bərdəi (350/961) həm də mötəzili idi. İbn ən-Nədimin (X əsr) müəllifi olduğu "Əl-Fihrist" kitabı onun mötəzilə məzhəbinə mənsubiyyətini bildirən ilk mənbədir[3]. Mütəfəkkirlə şəxsən tanış olan İbn ən-Nədim onu h. 340/951-952-ci ildə gördüyünü yazır. Əbu Bəkr əl-Bərdəi ilə söhbətindən onun mötəzili olmasını aydınlaşdıran İbn ən-Nədim əsərində bərdəli alimin əsərlərinin də adını çəkir[4]. Biblioqraflardan İbn ən-Nədimlə birlikdə Xətib Bağdadi

---

[1] Əliyeva N.A. Azərbacan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu", 1999, s.223.

[2] Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə. Bakı, 2016, s.308-309.

[3] Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı,"Elm", 1978, s.20.

[4] İbn ən-Nədim. Fihrist. Beyrut, 1964, s.237.

[*] əl-Cübbəi, Əbu Əli Məhəmməd ibn Əbdülvahhab (850-915) - Bəsrə mötəzililərinin başçısı. əl-Əşarinin atalığı və müəllimi. O Cübbə (Xuzistan) şəhərində anadan olmuşdur (bax: Ислам. Энциклопедический словарь. Москва, 1981, стр.67).

(1002-1071) və İbn Həcər (1372-1449) digər bir azərbaycanlı alimi – Əbülhəsən Əhməd ibn Ömər ibn Abdulla əl-Bərdəini mötəzili cərəyanının görkəmli nümayəndəsi kimi təqdim etmişlər. Ərəb müəlliflərinin əsərlərində qeydə alınan məşhur mötəzililərdən Əbu Əli Məhəmməd əl-Cübbəi* haqqındakı məlumat isə nəcib və görkəmli alim-mütəkəllim Əbülhəsən əl-Bərdəidən (Əbu Bəkr Əhməd ibn Ravh) götürülmüşdür.

Nişapur və Bağdad kimi elm, mədəniyyət və təhsil ocaqlarında IX əsrin ikinci yarısı və X əsrin əvvəllərində çoxlu sayda bərdəli elm-din xadimlərinin olması IX əsrin 30-cu illərindən etibarən yüksək səviyyəli dini-ruhani təhsilin olmasını göstərir[1].

Bağdad və digər mədəniyyət mərkəzlərinə köçərək fəaliyyət göstərmiş bərdəli ziyalıları Qafqazın dıgər regionlarından çıxmış ziyalılarla müqayisə edən Z.Səidov belə nəticəyə gəlir ki, bərdəli alimlərin sayının çox olması bizə Bərdənin reqionda ən böyük müsəlman təhsil ocağı olmasını deməyə imkan verir[2].

Ətraf vilayət və şəhərlərdən bəzi ziyalıların Bərdəyə gəlməsi[3] və bu diyardan olan bəzi ziyalıların dövrün müxtəlif mədəniyyət mərkəzlərinə səfərlərindən sonra vətənlərinə dönərək fəaliyyət göstərməsi burada yerli ziyalı mühitinin formalaşdığını göstərir. Digər tərəfdən qeyd etmək lazımdır ki, islam mədəniyyəti daxilində fəaliyyət göstərmiş Azərbaycan alimləri arasında yaşadıqları dövrün qədimiliyinə görə öz mənşələrini Arrandan götürmüş və Bərdəli nisbəsi ilə tanınan alimlərin çoxluq təşkil etməsi, "bərdəli" nisbəli, yəni əsli Bərdədən olan alimlərin IX-X əsrlərdə üstünlük təşkil etməsi, bu dövrdə Bərdənin mədəniyyət mərkəzi olduğunu təsdiqləyir.

IX-X əsrlərdə İbn Havqəlin "Ummu-r-Ran" ("Arranın anası"), əl-Müqəddəsinin "ər-Rihabın* Bağdadı", əl-İstəxrinin isə İraq və Xorasandan, Rey və İsfahandan sonra ən mühüm, ən çiçəklənən, ən gözəl şəhər sandığı Bərdə rusların təqribən 944-945-ci illər basqınından sonra ərəblərin şimal bazarlarında ticarətini itirməsilə zəifləyir və tənəzzülə uğrayır. Beləki, XI-XII əsr tarixçilərinin əsərlərində onun adı demək olar

[1] Саидов З.А. Выходцы из Берда в среде ученых Багдада и других культурных центров Халифата в IX –X веках//Изв.АН Аз.ССР, Серия истории, философии и права, Баку, «Елм», 1990, № 1, стр.120.
[2] Там же, стр.120.
[3] Yaqut əl-Həməvi.Mucəm əl-Buldən.Beyrut, 1977, II c., s.305.

ki, çəkilmir[1]. XIII əsr coğrafiyaşünas-tarixçisi Yaqut əl-Həməvi şəhərin şan-şöhrətli vaxtlarını sadaladıqdan sonra monqol hücumlarının ardınca vəziyyətin təsvirini verir: "orada xarabalıqlar çox, kəndlərdəki qədər az əhali var; vəziyyət qarışıq, dilənçilik açıq-aşkar, zərər göz önündə, evlər yerlə-yeksan edilmişdir..."[2]. İş burasındadır ki, şəhər tək monqol hücumları nəticəsində deyil, ondan erkən dövrdə, yəni XII əsrdə də əvvəlki əzəmətini itirmişdi. Nizami Gəncəvi Bərdənin vəziyyətini təsvir edərək yazırdı:

*İndi o dərgahın taxtı alçalmış,*
*İpəyi,qumaşı küləklər çalmış.*
*Təzə nar gülləri tökülüb solmuş,*
*O narlar, nərgizlər dönüb toz olmuş.*[3]

Maraqlıdır ki, əl-İdrisi (1100-1165) Bərdəni Arran ölkəsinin paytaxtı adlandıraraq, onun ərazicə çox böyüklüyünü, uzunluğu və eninin 3 mil olmasını qeyd edir[4]. Yaqut əl-Həməvi kimi, əl-İdrisinin də cah-cəlallı və çox böyük Bərdə haqqındakı məlumatını kompilyativ hesab etmək olar. Hər iki müəllif mənbə qismində əsərlərində adları çəkilən İbn Xordadbeh, əl-İstəxri və İbn-Havqəl kimi müəlliflərin əsərlərindən istifadə etmişlər. Yəqin ki, Bərdə haqqındakı məlumat da həmin müəlliflərin əsərlərindən götürülmüşdür.

XII əsrdə yaşayıb yaratmış əs-Səmani coğrafiyaşünas-səyyah deyil, hədis və mühəddis sorağıyla səyahət edən şəxslərdən biri kimi, verdiyi məlumatların dəqiq təhlili ilə seçilir. Əs-Səmaninin "əl-Ənsab" əsərinin

---

[*] ər-Rihab - Ərəb müəllifləri əl-İstəxri, İbn Havqəl və onlardan həmin vaxt gəlmə və yerli sülalələrin idarə etdiyi "Azərbaycan, Arran və Ərminiyə" bölgəsi haqqında məlumat verdikdə, artıq bu yerləri "yalnız bir adamın tabeliyində olan məmləkət" kimi "vahid iqlimdə" birləşdirirdilər. Həmin məlliflərdən bir neçə il sonra Azərbaycanda olmuş əl-Müqəddəsi isə bu vahid iqlimi ər-Rihab adlandırmışdı(bax: N.Vəlixanlı, Azərbaycan VII-XII əsrlərdə.: tarix, mənbələr, şərhlər. Bakı, "Elm və təhsil", 2016, s.121).

[1] Пахомов Е.А. Башни-мавзолеи в Барде и их надписи. АН ССР. Труды Азербайджанского филиала. XXV, ист.сер, Баку, 1936 г., стр.82.

[2] Yaqut əl-Həməvi. Mucəm əl-Buldən, Beyrut, 1977,I c.,s.379; Əlıiyeva N.A.. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində, Bakı, 1999, s.153.

[3] Nizami Gəncəvi. İsgəndərnamə, I c., Bakı, 1941, s.195 ; Şərifli M.X. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətşləri. Bakı, "Elm", 1978, s.157.

[4] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s. 150.

Azərbaycan şəhərləri haqqındakı məlumatı ilə Yaqut əl-Həməvinin "Mucəm əl-buldən" əsərinin analoji məlumatı müqayisə edildikdə şəhərlərin statuslarındakı fərq açıq-aydın görünür. Qeyd edək ki, müəlliflərin məlumat verdikləri dövrlər arasında bir əsrə yaxın fərq vardır. Əs-Səmaninin xələfi olan görkəmli coğrafiyaşünas-tarixçi Yaqut-əl-Həməvi (1179-1225) mötəbərlik baxımından onun əsərini yüksək qiymətləndirmiş, dəfələrlə ona müraciət etmişdir[1]. Yəqin ki, gəzdiyi ölkələr və şəhərlər haqqında əsər yazmağı qarşısına məqsəd qoymuş Yaqut əl-Həməvini, əs-Səmaninin "Kitab əl-Ənsab" əsərindəki şəhərlər haqqındakı məlumatlar qane etməsəydi, mötəbər mənbə kimi ona dəfələrlə müraciət etməzdi. Əs-Səmani Azərbaycan şəhərlərinə səyahəti haqqında məlumat verməsə də, mənşəyini bu şəhərlərdən götürmüş müxtəlif mədəniyyət mərkəzlərində alimlərlə görüşdüyü zaman nəinki onların özləri barədə, habelə təmasda olduğu alimlərin həmvətənləri, anadan olduqları yerlər haqqında da ətraflı məlumat toplamışdır.

Əs-Səmani, yaşadığı dövrdə, yəni XII əsrin ikinci yarısında Bərdəni kiçik şəhər kimi qələmə verir. Əs-Səmaninin bu məlumatı Y.A. Paxomovun XII əsr Azərbaycan şəhərləri haqqındakı fikri ilə qismən üst-üstə düşür. Əs-Səmaninin əsəri yazdığı dövr XII əsrin ikinci yarısıdır. Paxomova görə "XII əsrdən başlayaraq XIII əsrin əvvəllərinə qədərki dövr təkcə Bərdənin deyil, bütün Azərbaycan və onun ətrafındakı ölkələrin iqtisadi cəhətdən tənəzzülü dövrüdür[2]. Əs-Səmaninin əsəri yazdığı dövrün XII əsrin ikinci yarısı olduğunu nəzərə alsaq və bu məlumata arxeoloqların gəldiyi nəticəni əlavə edərək Azərbaycan şəhərlərinin iqtisadi cəhətdən tənəzzülünün başlamasının XII əsrin əvvəllərindən deyil, XII əsrin ikinci yarısından sonra olduğunu qəbul etmək olar.

Səlcuq sultanlarının hökmü altında olan, gah Bərdə, gah da Gəncədən idarə edilən Arran XI-XII əsrin birinci yarısında Eldəgizlər tərəfindən demək olar ki, müstəqilləşir. Ətraf vilayət və şəhərlərdən ziyalıların Bərdəyə gəlməsi[3] və bu diyardan olan bəzi ziyalıların dövrün müxtəlif mədəniyyət mərkəzlərinə səfərlərindən sonra vətənlərinə dönərək fəaliyyət göstərməsi

---

1 Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində, Bakı, "Çaşıoğlu", 1999, s.54.

2 Пахомов Е.А. Башни-мавзолеи в Барде и их надписи. Труды Аз. ФАНССР (серия историческая), т. XXV, Баку, 1936, стр.83-96;

3 Yaqut əl-Həməvi.Mucəm əl-Buldən, Beyrut, 1977, II c., s.305.

Bərdədə yerli ziyalı mühitinin formalaşmasını göstərir. Digər tərəfdən, qeyd edilməlidir ki, ərəb-islam mədəniyyəti daxilində fəaliyyət göstərmiş Azərbaycan alimləri arasında yaşadıqları dövrün qədimiliyinə görə mənşəcə Arrandan olan və "bərdəli" nisbəsi ilə tanınan alimlərin IX-X əsrlərdə üstünlük təşkil etməsi bu dövrdə Bərdənin mədəni mərkəz olduğunu bir daha təsdiqləyir.Arxeoloji materiallar da bütün aydınlığı ilə sübut edir ki, şəddadilər və səlcuqlar dönəmində Arranda birincilik Gəncə şəhərinə keçsə də,Bərdə Azərbaycanın zəngin şəhərlərindən biri olaraq qalırdı[1].

XIII əsr ərəb bioqrafik ədəbiyyatının nümayəndəsi İbn əs-Sabuninin (604-678/1207-1282) "Təkmilət ikməlil-İkməl" əsərində arranlı nisbəli şafii alimi, zahid, fəqih Əbülməkarim Əbdülxaliq ibn Əbülməali haqqında məlumat verir. İbn əs-Sabuni yazır ki, Sufi şeyx Məhəmməd əl-Bavərdi Hələbdən ona on üç şeyx haqqında yazaraq məlumat vermişdir ki, onlardan da biri Əbül-Məkarim Əbdül-Xaliq ibn Əbül-Məali əl -Arranidir[2].

Bərdəli ziyalılar öz ölkəsini Xilafət məkanında tanıtmaq üçün həm də informator rolunu oynamışlar. Hafiz (Quranı əzbər bilən-N.Ə.) Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh əl-Bərdəi əl-Bərdicinin adından da göründüyü kimi, iki nisbə - həm Bərdə, həm də Bərdic nisbəsini daşımışdır. Bərdə şəhəri islam mədəniyyət mərkəzlərindən biri kimi, o dovrdə tanındığı və məşhur olduğu üçün əs-Səmanini onun daşıdığı ikinci nisbə - bərdici nisbəsinin nəyə aid olması maraqlandırmışdı. Əs-Səmaninin suala cavab tapmaq üçün müraciət etdiyi Əbu Bəkr Məhəmməd ibn Əli əs-Sabuni əl-Bərdəi demişdi: Bərdədən Bərdicə 14 fərsəxdir, Bərdicin kənarından Bağdaddakı Dəclə kimi böyük olan Kür çayı axır[3]. Bu məlumatdan Yaqut əl-Həməvi "Mucəm əl-Buldən" əsərində istfadə etmişdir.

Qeyd etmək lazımdır ki, ərəblərin Qafqaz bölgəsində siyasətinin həyata keçirilməsində əsas baza rolunu oynayan Bərdə dövrün təkcə ticarət deyil, həm də mədəni mərkəzlərindən biri idi. Ərəb fatehlərinin iqamətgahının yerləşdiyi Bərdədən (797-822) katolikosluğun çıxarılması bu mədəni mərkəzin həm də ənənəvi müsəlman təhsil ocağı kimi rolunu

---

[1] Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərləri.Bakı, "Elm və təhsil", 2016, s.29.

[2] İbn əs-Sabuni. Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. İraq, 1377/1957, s.32 .

[3] Əliyeva N.A. Əs-Səmaninin Kitab əl-Ənsab əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi.B., "Şərq-Qərb", 2010, s.101-102.

artırmışdı[1]. Orta əsr ərəbdilli mənbələrin azərbaycanlı ziyalılar haqqındakı məlumatının təhlili göstərir ki, IX-X əsrlərdə "bərdəli" nisbəli, yəni mənşəcə Bərdədən olan alimlər üstünlük təşkil etmişdir. Bu mədəniyyət və təhsil ocağında yerli alimlərlə fikir mübadiləsi aparmaq üçün ətraf vilayət və şəhərlərdən ziyalılar gəlirdilər. Bab əl-Əbvabdan nisbəsini götürmüş dövrün tanınmış hədis alimi Məhəmməd ibn Əbu İmran əl-Babi əs-Səqəfi də belə ziyalılardan idi. O, təhsil almaq üçün Dərbənddən Bərdəyə gəlmiş, burada mühəddis İbrahim (İsmayıl) ibn Müslim əl-Xarəzmi ilə görüşüb onun dəslərində iştirak etmişdi. Məhəmməd əl-Babinin özü də Bərdə şəhərindəki bir sıra mühəddislərdən hədis dinləmişdi[2]. İbn Hirarə ləqəbi ilə tanınmış məşhur bərdəli hədis hafizi əllamə Əbülhəsən Məhəmməd əl-Bərdəi (v.e.959) Məhəmməd əl-Babinin tələbələrindən olmuş, ondan hədis dinləyib nəql etmişdi.

Bağdad və digər mədəniyyət mərkəzlərinə köçərək fəaliyyət göstərmiş bərdəli ziyalıları Qafqazın digər regionlarından çıxmış ziyalılarla müqayisə edilərsə bərdəli alimlərin sayının çox olması qənaitinə gəlinir. Bu isə Bərdənin reqionda ən böyük müsəlman təhsil ocağı olmasını deməyə imkan verir[3]. Beləliklə, IX-XI əsrlərdə Bərdə də digər Xilafət bölgələrinin islam mədəniyyət mərkəzi qismində qalmaqda idi.

*İslam mədəniyyət mərkəzlərindən biri - Gəncə.* IX-XI əsrlərdə olduğu kimi, XII əsr və XIII əsrin əvvəllırində iri sənətkarkıq və ticarət mərkəzləri Cənubi Qafqazın Şimal rayonlarında yerləşirdi[4]. Onların arasında o vaxta qədər bütün Qafqazın ən böyük və mədəni mərkəzlərindən sayılan Bərdə öz əvvəlki əhəmiyyətini itirsə də, ancaq onun mövqeyi başqa bir şimali Azərbaycan şəhəri Gəncəyə keçir. Mərakeşdə tikilən Fəs (VIII əsrin axırı) kimi, Gəncə də İslam fəthlərindən sonra tikilən və uzunömürlü şəhərə çevrildi.[5]

Cəncədə də ərəb qəbilələrinin yerləşdirilməsi haqqında ərəb mənbəri

---

[1] İbn əl-Qaysarani. Əl-Mutəlif və-l-müxtəlif. Beyrut, 2001, s.117.

[2] Yaqut.Mucəm, II c., s. 305.

[3] Yenə orada.

[4] Петрушевский И.П. Хамдуллах Казвини как источник по социально-экономической истории Восточного Закавказья. Изв. АН СССР, отделение общественных наук, 1937, № 4. стр.10.

[5] Bartold, VI c. , s.158.

məlumat verir. Əl-Bəlazuri qeyd edir ki, Məhəmməd ibn Xalid[1*] adlı ərəb sərkərdəsi Diyarbəkrdən olan ərəbləri Cəncədə yerləşdirdi[2].

Artıq XI əsrdə Şəddadilərin Arranın paytaxtı elan etdikləri Gəncə Azərbaycanda mədəniyyət mərkəzlərindən biri kimi fəaliyyət göstərməyə başlayır. XIII əsr coğrafiyaşünas səyyah-tarixçisi Yaqut əl-Həməvinin məlumatına görə, Azərbaycan şəhərlərində olan ərəb və fars dillərində zəngin kitab fondlarından biri də Gəncədə yerləşmişdi. Belə kitab fondları olan kitabxanalar bütün arzu edənlər üçün açıq olurdu. Bura gələnlər qiraət və kitabların üzünü köçürməklə məşğul olurdular. Kənardan gələnlərə mürəkkəb və gələm verirdilər, elmin müxtəlif sahələrində işləyən alimlər isə maaşla təmin olunurdu. Belə kitabxanalarda məşhur alimlər iştirak edir, onların disputları təşkil edilirdi[3]. Məsələn, Gəncədəki elmi məclisdə İbn Makula kimi hörmətli alim iştirak etmişdi. Əs-Səmaninin məlumatından aydın olur ki, İbn Makula burada Gəncə kitabxanasının mühafizi Əbülfəzl Xodadad ibn Asim ibn Bəkran ən-Nəşəvinin hədislərini dinləmişdi[4]. Bununla yanaşı X əsrin 70-ci illərindən Arranda hökmranlıq edən Şəddadilər sülaləsinin paytaxtı Gəncə çox keçmədən Bərdəni geridə qoyaraq Arranın ən iri şəhərinə çevrilir[5].

XII əsrin I yarısında Gəncədə baş verən zəlzələlər, xüsusilə 1133-cü ildəki dəhşətli zəlzələ və gürcülərin dağıdıcı basqın və qarətləri şəhəri tamamilə dağıtmasına baxmayaraq, şəhərin strateji mövqeyi, xüsusilə sənətkarlığın yüksək inkişafı[6], eləcə də sultanın canişini Qara Sunqurun öz qoşunları

---

[*] Məhəmməd ibn Xalid –Ərminiyə və Azərbaycan valisi, Şirvanşahlar dövlətinin əsasını qoymuş Heysam ibn Xalidin qardaşı. 844-cü ildən hakimiyyətdə olmuşdur. S.Aşurbəyli qeyd edir ki, Cənzənin (Gəncənin) əsasını qoyan Məhəmməd ibn Xalid "Tarix-i əl-Bab"ın göstərdiyi kimi, yalnız Cənzənin hakimi olmuşdur. O, Ərminiyyə hakimliyini öz üzərindən götürdü, Cənzə şəhəri və mülklərinin mədaxili ilə kifayətləndi. Onun xələfi Heysam ibn Xalid Şirvanda müstəqillik əldə edəndə onun qardaşı Yəzid ibn Xalid də Layzanda müstəqillik qazandı. Heysəm Şirvanşah, onun qardaşı Yəzid isə Layzanşah adlanırdı». (bax:Aşurbəyli S.B. Şirvanşahlar dövləti, Bakı, 2007, səh.87)

[2] Bəlazuri, Fütah əl-buldən. Leyden, Matb`a Bəril, 1866.

[3] Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. Москва, «Наука», 1985, s.192.

[4] Əliyeva N.A. Əs-Səmaninin Kitab əl-Ənsab əsəri... 2010, s.131.

[5] Azərbaycan tarixi. II c. Bakı, "Elm" 1998, s.419.

[6] Альтман М.М. О гянджинском землетрясении в XII веке//Сб. «Низами», ч.1. Баку, 1940, s.108-111.


*İmamzadə kompleksi*

ilə gəncəlilərə qoşulması şəhərin "əvvəlki gözəlliyinin" bərpa olunmasına imkan vermişdi. Əl-Bondariyə görə, zəlzələdən sonra şəhər "əvvəlkindən də yaxşı" tikilmişdi[1].

Bu dövrdə Əbu Tahir əs-Siləfi Misirdən Yaxın və Orta Şərqin, o cümlədən Arran və Azərbaycanın şəhərləri arasında mədəni inkişaf səviyyəsinə görə seçilən Gəncəyə səyahət etmişdi. O, Gəncədə olarkən bu şəhəri ziyarətə gəlmiş bir çox alimlərlə görüşmüş, onlardan bəzilərinin nəql etdikləri hədisləri dinləyərək bu alimlər və onların isnadları haqqında yeni məlumat toplamışdır. O, əsasən onu öz şeirlərində tərənnüm edənləri "Mucəm əs-Səfər" əsərində qeyd edir. Onların arasında: "Öz zəkası ilə işıq saçan" Əbu Abdulla Məhəmməd ibn Əli Məhəmməd ət-Təbəri əs-Siləfiyə onu tərənnüm edən şerini oxuyur[2].

XI əsrin sonlarında yaşayıb yaratmış Məsud ibn Namdar "gənclik illərini kitablara sərf etmişdi". Məsud ibn Namdarın məcmuəsinin faksimilesini nəşr edən və ona geniş müqəddimə yazan prof. V. Beylisi onun harada təhsil alması, Gəncədə Nizamiyyə tipli mədrəsələrin mövud olub-olmaması düşündürmüş, faktın yoxluğu üzündən o, bu suala cavab tapa bilməmişdi[3]. Əs-Siləfinin "Mucəm əs-Səfəf" əsərinin tədqiqi bizə bu faktı əldə etmək imkanı verdi. Elm mərkəzi kimi Gəncə həm də sufi şeyxlərin toplaşaraq hədis məclislərinin fəalıyyət göstərdikləri şəhərlərdən

[1] Yenə orada, стр.62.
[2] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan. B., "Elm və təhsil", 2016, s.28.
[3] Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975, с.14.

olmuşdur. Sultan və vəziri Nizamülmülk Arraniyyəyə (ola bilsin ki, Gəncədəki came məscidi belə adlanırdı-N.Ə) çatanda Əmir ləqəbli bağdadlı hafiz İbn Makula da Gəncəni ziyarət edən alimlər arasında idi[1]. Gəncədə hədis məclisləri ilə yanaşı ədəbi yarışmalar da təşkil olunurdu. Şeir yarışmaları (muqaradat) Beyləqanda da keçirilirdi[2].

X əsrin 70-ci illərindən Arranda hökmranlıq edən Şəddadilər sülaləsinin paytaxtı Gəncə çox keçmədən Bərdəni geridə qoyaraq Arranın ən iri şəhərinə çevrilir. Səlcuq İmperiyasının üç ən böyük şəhəri (Mərv, Nişapur və İsfahan) ilə yanaşı Gəncə də böyük şəhərlər sırasına daxil olur. Lakin, XII əsrin I yarısında Gəncədə basqın və qarətlər şəhəri tamamilə dağıtmışdı. Buna baxmayaraq, şəhərin strateji mövqeyi, xüsusilə sənətkarlığın yüksək inkişafı, eləcə də sultanın canişini Qara Sunqurun öz qoşunları ilə gəncəlilərə qoşulması şəhərin "əvvəlki gözəlliyinin" bərpa olunmasına imkan vermişdi. Əl-Bundariyə görə, zəlzələdən sonra şəhər "əvvəlkindən də yaxşı" tikilmişdi.

Qeyd etmək lazımdır ki, Xilafətin hakimiyyət mərkəzləri, həmçinin elm, mədəniyyət mərkəzləri idi. Bu mərkəzlərdə dini, mədəniyyəti və dilləri müxtəlif olan alimlər elmin bütün sahələrinə yiyələnməyə çalışırdılar. Müxtəlif bölgələrdə yaşayıb yaratmış, elm öyrənmək niyyəti ilə mədəniyyət mərkəzlərinə səyahət etmiş bir çox xalqların nümayəndələri məhz bu bölgələrdə fəaliyyət göstərərək təcrübə mübadiləsi aparır, yeni məlumatlar əldə edərək biliklərini artırırdılar. Bu mədəniyyət mərkəzlərindən biri də Gəncə şəhəri olmuşdur.

Gəncədəki elmi məclisdə ərəb ədəbiyyatı tarixində mavlə, böyük əmir, alim, tarixçi, ədib, hafiz, tənqidçi, nəssəbə (geneologiya ilə məşğul olan alim-N.Ə.) kimi məşhur olan əmir ləqəbli bağdadlı hafiz Əbu Nəsr Əli ibn Hibbətullah ibn Əli ibn Cəfər ibn Əli ibn Məhəmməd ibn Makula (1030-1082) kimi hörmətli alim iştirak etmişdi. Əs-Səmaninin (1113-1167) məlumatından aydın olur ki, İbn Makula burada Gəncə kitabxanasının mühafizi naxçıvanlı Xodadad ibn Asim ibn Bəkran ən-Nəşəvinin hədislərini dinləmiş, onunla fikir mübadiləsi etmişdir. Bu fakt Yaqut əl-Həməvinin (1178-1179-1227) məlumatının dəqiqləşdirilərək Gəncə kitabxanasının İbn

[1] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan. B., "Elm və təhsil", 2016, s.67.

[2] Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М. Бейлиса. Москва, «Наука», 1970, стр.62.

Makulanın yaşadığı dövrdə, yəni XI əsrdə fəaliyyətini göstərir.

Elm mərkəzi kimi Gəncə həm də sufi şeyxlərin toplşaraq hədis məclislərində fəalıyyət göstərdikləri şəhərlərdən olmuşdur. Çox görkəmli sufi şeyx-alimlərdən olmuş əs-Siləfi (1085-1180) Azərbaycanla yaxından bağlı olan bir şəxsiyyət olmuşdur. Bağdadda əl-Kiyə Əbülhəsən əl-Hərrasidən fiqhi, Xətib Təbrizidən isə ərəb dilini öyrənmişdi. Onun böyük nüfuzu sayəsində Misirin sahibi Fatimi xəlifəsi əz-Zahir əl-Ubeydinin vəziri əl-Adil əl-Həsən ibn əs-Sallar 1151-ci ildə İsgəndəriyyədə mədrəsə tikdirərək, hədis toplamaq niyyəti ilə bir çox şəhərlərə, o cümlədən Gəncəyə səyahət etmiş, səyahət etmiş, orada çoxsaylı hafizlər, zəmanəsinin tanınmış şeyxləri ilə görüşmüşdü. Əbu Tahir əs-Siləfi kimi alim şeyxlərin Gəncə ziyarətində yerli alimlərlə görüşərək elmi mübadilə aparması yerli mədəni mühitin ab-havasından xəbər verir.



***Nizamülmülkün büstü. Məşhəd***

Sultan və vəziri Nizamulmülk Arraniyyəyə (ola bilsin ki, Gəncədəki came məscidi belə adlanırdı-N.Ə.) çatanda İbn Makula da Gəncəni ziyarət edən alimlər arasında idi.

Səlcuqlar dövründə müdərrislər mədrəsələrin baş müəllimləri hesab edilirdi. Onlar sultanlar və vəzirlər tərəfindən təyin edilirdi. Nizamülmülk vəzirliyi dövründə müdərrisləri özü təyin edirdi. Sultan Səncərin (1096-1157) də müdərrisləri təyin etdiyi məlumdur.

Bu şəhər bir çox görkəmli şəxsiyyətlər yetirmişdir. Nizamı Gəncəvi kimi bir düha Gəncədə yazıb-yaratmışdır. XI əsrin sonlarında yaşayıb fəaliyyət göstərmiş Azərbaycanın böyük şairlərindən Qətran Təbrizi dəfələrlə Gəncədə olmuşdur. Seyid Əhməd Kəsrəvi Qətranın hələ gənc yaşlarından Gəncəyə etdiyi ilk səfər barədə danışır. Tədqiqatçıya görə

Qətranın Gəncəyə ilk səfəri 425-430 (1038-1039)-cu illər arasında olmuşdur. Gəncədə şair Süpəhdar Əbülyəsrin vasitəsi ilə Arran hakimi Əmir Əbülhəsən Əli əl-Ləşkəri əş-Şəddadinin sarayına yol tapıb, orada öz yaradıcılığını davam etdirmiş və Gəncədə qalmışdır.

Ola bilməz ki, belə yüksək səviyyəli ziyalıları olan şəhərin elmi - mədəni mühitinin göstəricilərindən biri olan təhsil müəssisələri olmasın.

Hazırkı dövrə qədər Azərbaycan tarixşünaslığında Gəncədə yerli təhsil müəssisəsinin olması haqqında fakt mövcud deyildi.

Əs-Siləfi Misirdən Yaxın və Orta Şərqin, o cümlədən Arran və Azərbaycanın şəhərləri arasında mədəni inkişaf səviyyəsinə görə seçilən Gəncəyə səyahət etmişdi. O, Gəncədə olarkən bu şəhəri ziyarətə gəlmiş bir çox alimlərlə görüşmüş, onların nəql etdikləri hədisləri dinləyərək öyrənmiş, bu alimlər haqqında yeni məlumat toplamışdır. Onların arasında: "Öz zəkası ilə işıq saçan" Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbəri əs-Siləfiyə həsr etdiyi şerini oxumuşdur. Əs-Siləfi "Mucəm əs-Səfər" əsərində Azərbaycan və onun bir çox şəhərləri, o cümlədən Gəncə və onun Nizamiyyə mədrəsəsi haqqında məlumat verir. Məlum olur ki, Gəncədəki mədrəsədə qazı Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbəri kimi müdərris fəaliyyət göstərmişdir. "Parlaq zəkalı" bu şəxs oradakı təhsilə rəhbərlik etmiş, onun atası üçün Nizamulmülkün Gəncədə tikdirdiyi mədrəsədə müdərris vəzifəsində çalışmişdır. Fiqh və ədəb elmi fənlərinin müdərrisi olmaqla yanaşı həm də burada təhsilə başçılıq etmişdir. Əbu Abdulla ət-Təbəri həmin mədrəsədəki tədrisə rəhbərlik edərkən yaxşı işləmiş, onun idarəçilik qabiliyyəti daha da artmışdı. Ən-Nizamın Gəncədə tikdirdiyi mədrəsədə ilk dəfə dərs demək səlahiyyəti verilmiş Əbu Abdulla Məhəmməd ət-Təbərinin atası kim ola bilərdi? Həmin adı iki alim daşıya bilərdi. Hər iki ziyalı Azərbaycanın elmi mühitində əhəmiyyətli rol oynamışdır. Hər iki müəllifin adı, atasının adı və nisbələri eynidir, fərq yalnız künyələrindədir. Sufi-şafii-əşari alimi əl-Kiya əl-Hərrasi kimi məşhur olan Şəms əl-İslam İmadəddin Əbülhəsən Əli ibn Məhəmməd ət-Təbəri (450/1058-504/1110) və Camal əl-Quda Əbülhəsən Əli ibn Məhəmməd ibn Məhəmməd ət-Təbəri. əl-Kiya əl-Hərrasi Nişapurdakı Nizamiyyə mədrəsəsinin ilk rəhbəri məşhur imam əl-Cuveyninin (v.e.478/1086) tələbəsi olmuşdur. Əslən Təbəristanlı və "ləyaqətli insan olan alim-şeyx əl-Kiyə əl-Hərrasi Nizamiyyə mədrəsəsində dərs demiş azərbaycanlı fəqihlərin də müəllimlərindən sayılırdı. Camal əl-Quda

Əbülhəsən Əli ibn Məhəmməd ibn Məhəmməd ət-Təbəri də Azərbaycanla bağlı şəxsiyyət olmuşdur. İbn Namdara görə, Gəncədə təşkil olunmuş elmi yarışmalarda iştirak edən imamlar, divan əhli, qazılar arasında Camal əl-Quda Əbülhəsən Əli ibn Məhəmməd ibn Məhəmməd ət-Təbəri də iştirak etmişdi. Camal əl-Quda ət-Təbərinin Gəncə mədrəsəsinin ilk müdərrisi ola bilməsini də qəbul edə bilərik.

XII əsr ərəbdilli ədiblərdən biri də əslən Gəncədən olan Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzi (v.e. h. 550/1155-ci ildə Mərvdə) olmuşdur. Əs-Səmani bu ədibi fəzilət sahibi, dindar, xoş rəftarlı bir şəxsiyyət kimi oxucularına təqdim edir. Bağdadda qaldığı müddətdə böyük alimlərlə dostlaşaraq onlardan elm öyrənmşdir. Lakin əs-Səmani və Yaqut bu alimlərdən yalnız Əbülmüzəffər əl-Əbivərdinin adını çəkirlər. Əbu Həfs Ömər ədəb elminin sirlərini dərindən mənimsəmək niyyəti ilə Bağdaddan sonra Həmədanda da bu alimin yanında təhsilini davam etdirmişdir. Sərxəsdə Əbu Həfslə görüşən əs-Səmani onun özündən eşitdiyi şeirlərindən parçalar yazmışdır.Yaqut əl-Həməviyə görə Əbu Həfs Bağdadda təhsil aldıqdan sonra vətəni Gəncəyə dönmüş, sonra isə ikinci dəfə Bağdada qayıtmışdır. Mərvdə onunla görüşən Yaqut əl-Həməvi "Kitab əl-Ənsab"da olmayan bəzi məlumatı özünün "Mucəm əl-üdəba" əsərində açıqlayır. Onun ölüm tarixini göstərən əs-Səmaninin məlumatına əlavə olaraq Yaqut əl-Həməvi Əbu Həfsin yetmiş yaşında vəfat etməsini yazır. Bundan başqa əl-Cənzi haqqında aşağıdakı ifadələr də ona mənsubdur: "...Ömər əl-Cənzi iti ağlı ilə seçilir... Allah qarşısında çox mömin idi...bir çox əsərlər yazmış, özünün şərhini diqtə etməyə başlamışdı, əgər bunu tamamlasaydı, misli olmazdı... o məni vəsf etmişdi (ənşədəni)" və s. Ömər əl-Cənzi Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün (v.e.1106-cı ildə) uşaqlarına dərs demişdi. L.Orucova və Z.Şıxalibəyli yazır ki, bir çoxları güman edirlər ki, Ömər ibn Osman əl-Cənzi Nizami Gəncəvinin dayısı olmuşdur.

Gəncəli alimlər Yaxın və Orta Şərq şəhərləri, o cümlədən Bağdad və Dəməşqdə elmi fəaliyyətlərini davam etdirmişlər. Onlardan əslən Gəncədən olan İsmayıl ibn Əli İbrahim əl-Cənzəvi (v.e.588/1192) məskunlaşdığı Dəməşq şəhərinin adını da özünə ikinci nisbə kimi qəbul edərək, həm də "əd-Diməşqi" nisbəsi ilə də tanınmışdır. O, Bağdadda Əbülbərəkət Hibbətullah əl-Buxari kimi böyük alimlərin yanında təhsil almışdır.

İstər əs-Səmani, istərsə də Yaqutun əsərlərində Xarəzm, Mərv, İsfahan

kimi vilayətlərin ziyalılarının yaradıcılığı daha ətraflı işıqlandırılmışdır. Demək mümkündür ki, bu iki müəllifin əsərləri Azərbaycandan olan müsəlman mədəniyyəti nümayəndələrinin Xilafət ölkələrinin elmi dairələri ilə daimi əlaqələrinin mövcud olmasını sübut edir. Bir xüsusiyyəti də qeyd etmək lazımdır ki, mənşəyi Naxçıvandan olan ziyalılar ərəb-müsəlman mədəniyyəti mərkəzlərində təkcə təhsil almaqla kifayətlənməmiş, həmçinin həmin yerlərdə qalaraq müxtəlif dini biliklər sahəsində nüfuzlu və mötəbər şəxsiyyət kimi qiymətləndirilmişlər.

Azərbaycanın Bərdə, Gəncə, Təbriz, Naxçıvan, Xoy, Urmiya, Mərənd, Uşnu, Bərzənd, Dərbənd, Sərav, Miyanə, Varsan, Bərdic, Beyləqan, Miməz kimi şəhərlərindən çıxan və özlərinə yüksək mövqe və şöhrət qazandıran bu ziyalılarımızla tanışlıq bu şəhərlərdə mədəni həyatın inkişaf səviyyəsini müəyyənləşdirməyə imkan verir.

*Naxçıvan islam mədəniyyəti mühitində.* XII əsrin birinci yarısında Şirvanşahlar Eldənizlərin tabeçiliyində olan Arran və Ağsunqurilərin itaətində olan cənubi Azərbaycandan fərqli olaraq öz sülaləsinin müstəqilliyini qoruyub saxlaya bilmişdir. Düzdür, bu sülalə də tam müstəqil deyildi, çünki, əvvəl əsas səlcuq qoluna, sonralar isə İraq hökmdarlarına tabe olmuşdur[1]. Dövrün Bərdə, Beyləqan kimi böyük şəhərləri ilə yanaşı, Naxçıvanın da yenidən dirçəlməsi mühüm ticarət yolu üzərində yerləşən bu şəhərin strateji əhəmiyyətini də təsdiq edir[2]. Son illərdə Azərbaycan ərazisində tapılmış dəfinələrin tərkibində Naxçıvan zərbinə mənsub sikkələrin çoxluq təşkil etməsi ilkin orta çağlarda Naxçıvan şəhərinin Azərbaycanın iqtisadi-siyasi həyatında oynadığı rolu tam aydınlığı ilə əks etdirir. Atabəylərin dövlət xəzinələrindən biri burada, Azərbaycanın "ən böyük və ən gözəl şəhəri (Rubrik) Naxçıvanda saxlanırdı[3]. Naxçıvan təkcə Azərbaycanın deyil, demək olar ki, Yaxın Şərqin ticarət və islam mədəniyyəti mərkəzlərindən birinə çevrilmişdi. Buna təsir edən aşağıdakı amili də qeyd etmək lazımdır. Azərbaycanın şimalında-Albaniyada yerli dövlətçilik sistemi ləğv edildikdən sonra iqamətgahı Bərdədə

---

[1] Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку, Изд-во Аз ФАН, 1940, стр.13.

[2] Vəlixanlı N.M. Naxçıvan Ərəb Xilafəti dövründə (VII-IX əsrlər)//Azərbaycan Tarixi Muzeyi-2003. Bakı, "Elm", 2003, s.20.

[3] Rəcəbli Ə.Naxçıvan zərbxanaları (V-XIX yüzillər)//Azərbaycan Tarixi Muzeyi-2003. Bakı, "Elm", 2003, s.203.


*Atabəylər Memarlıq Kompleksi*

yerləşən vali yerli feodalların hakimiyyətini məhdudlaşdırmaqda davam edirdi. Bu isə, islamın tədricən Arrandan, o cümlədən Naxçıvandan digər dinləri sıxışdırmalarına sosial-siyasi imkan yaradırdı. İslamın yayılması ilə paralel olaraq Naxçıvana gələn tacir, səyyah və alimlər vasitəsilə müsəlman mədəniyyəti və islam dünyagörüşü də yayılmağa başlayırdı. Quranın öyrənilməsi və Qurana aid ədəbiyyatın yayılması İslam mədəniyyətinin başlanğıc nöqtəsi kimi qəbul edilir. Onun ardınca Məhəmməd peyğəmbərin (s.a.s.) söylədiyi hədislər yayılmağa, eləcə də hədis bilicilərinin siyahıya alınması üstünlük təşkil etməyə başlayır. Hədis biliciləri arasında Naxçıvan alimlərinin də nüfuz qazanması burada islam mədəni mühitinin yaranmasından xəbər verir. İbn Makulanın (v.e.h.487/1095) "Əl-İkməl fi əsmə ər-ricəl" ("Hədis söyləyənlərin adlarının təkmilləşdirilməsi") əsərində Gəncədə kitab evinin xəzinədarı olan naxçıvanlı Əbülfəzl Xudadad ibn Bukran ən-Nəşavinin Bağdad və digər şəhərlərdəki fəaliyyətini, dövrünün Əbu Nəsr əl-Qəzvini, əl-Həsən ən-Nihavəndi, Şueyb Təbrizi kimi ziyalılarla əlaqələrini göstərir[1].

İslamlaşma, Quranın öyrənilməsi, Qurana aid ədəbiyyatın geniş yayılması tədris müəssisələrinin (ruhani məhəllə məktəbləri, mədrəsələr, təkyələr) tikintisinə güclü təkan verdi[2]. Naxçıvanı Azərbaycanın yaxşı şəhərlərindən hesab edən əslən Bakıdan olan orta əsr coğrafiyaşünas – səyyahı Əbdürrəşid əl-Bakuvi (XIV əsr) bu diyarın təsvirini verir və göstərir ki, şəhəri şərəfləndirən onun mədrəsələri, imarət və xanəgahlarıdır[3]. 1263-1284-cü illərdə Naxçıvana aid verilmiş bir fərmanda isə buradakı mədrəsələrin dini

---

[1] Əs-Səmani. Kitab əl-Ənsab. Leyden, 1912, 560(b).

[2] Шихсаидов А.Р. Арабский халифат и Северный Кавказ//Проблемы исламизации Дагестана-Пути, реальные силы, последствия. Взаимовлияние цивилизаций на Востоке. Тезисы докладов и сообщений, т. II. Москва, 1988, стр.52.

[3] Ал-Бакуви Абду ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар. Пер. и комм. З.М.Буниятова. Москва, «Наука», 1971, стр.99.

xeyriyyə idarəsinə məxsusluğu göstərilir[1]. Həmin fərman deməyə əsas verir ki, Müsəlman Şərqində məscid, mədrəsə, kitabxana, xəstəxana və s. bu kimi ictimai müəssisələrin təsisi ənənəsi Azərbaycan Atabəylər dövləti dövründə Naxçıvanda da geniş davam etdirilmişdir. Mədrəsələrin məqbərələr və məscidlər nəzdində olması və fəaliyyəti nəinki dini məfkurənin təsirinin artırılmasını, həmçinin onların maliyyə xərclərinin mənsub olduqları məqbərə və ya məscidin vəqfləri hesabına təmin edilməsini şərtləndirirdi. İslamı daha geniş yaymaq məqsədilə böyük şəhərlər salınarkən və ya bərpa edilərkən dini binaların tikintisinə xüsusi diqqət verilirdi. Bunlardan biri Naxçıvanın abidələri arasında özünün çox böyük ölçüləri ilə fərqlənən, lakin zəmanəmizə qədər gəlib çatmamış Ordubad Cümə Məscidi (XII əsr) idi. Təsadüfi deyil ki, Naxçıvanda olmuş səyyahların diqqətini uzun müddət Möminə Xatun türbəsi deyil, məhz bu dini abidə cəlb etmişdir[2]. Bundan başqa Naxçıvanın hər bir küçəsində çarhovuzu olan xüsusi məscidlər də fəaliyyət göstərmişdir. Onlar, adətən böyük olmayan meydanlarda yerləşərək məhəllə camaatının toplaşdığı yer olmuşdur[3].

Ərəb dili məişətdə ünsiyyət vasitəsi olan yerli dili əvəz edə bilməsə də, digər müsəlman xalqları kimi, azərbaycanlılar da ərəb dilində yaradıcılıqla məşğul olurdular. Ərəb dilinin güclü təsiri ilə islam dininin yayılması da geniş vüsət alırdı. Naxçıvanda tapılan və ərəbcə yazılmış epiqrafik abidələr bunu sübut edir. Bu abidələrdə indiki Naxçıvan MR-nın ərazisində mövcud olmuş və fəaliyyət göstərmiş ictimai-siyasi təşkilatlar, mədəni-ideoloji mərkəzlər, ölkənin iqtisadi - siyasi və mədəni həyatında mühüm rol oynamış şəxsiyyətlər haqqında kifayət qədər məlumat var. Abidələrdəki məlumatlar xeyli təbii ehtiyata, həmçinin mühüm strateji əhəmiyyətə malik olan, Şərqlə Qərbi birləşdirən körpü rolunu oynayan Naxçıvanın müsəlman dini-ictimai mərkəzlərinin real vəziyyətindən xəbər verir[4]. Arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, orta əsr Azərbaycan şəhərlərinin sanitariya vəziyyətinə böyük diqqət yetirilməsi

---

1 Fuad Sezgin. Tarix Nigaruşhaye ərəbi. Tehran, 1380, s.57-60.

2 Azərbaycan memarlarığının Naxçıvan məktəbi abidələri. Bakı, 1985, s.187.

3 Султангулова Ф.Ф. Книга генеологии ас-Самани//Труды Ташкентского Государственного Университета. Новоя серия. Арабская и иранская филология. Выпуск 425. Ташкент, 1972, стр.94.

4 Пахомов Е.А. Крупнейшие памятники Сасанидского строительства в Закавказье.Проблемы ГАИИМК, Ленинград, 1933, стр.16.

şəhər əhalisinin mədəni səviyyəsinə, xüsusilə islam dininin tələblərinə cavab verirdi[1]. Naxçıvan gözəl hamamları ilə də məşhur idi. Evliya Çələbi Naxçıvan hamamları haqqında yazırdı: "Şəhərdə çox lətif, röşən hamamlar vardır. Bu hamamların divarları Çin kaşısından hörülmüşdür. Divarları al-əlvan şəkillərlə bəzədilmişdir"[2].

Naxçıvanın mədəni yüksəlişini şərtləndirən faktorlardan biri ticarət yolu üzərində yerləşməsi ilə bərabər, onun Yaxın Şərq və digər müsəlman ölkələri ilə iqtisadi- ticarət əlaqələri və bunun sayəsində çoxsahəli mədəni əlaqələrinin artması olmuşdur. Bu dövrdə Azərbaycanda təşəkkül tapmış Şirvan, Arran, Marağa, Qəzvin və Həmədanla yanaşı Naxçıvan memarlıq məktəbi də Qafqaz, Kiçik Asiya, İran və Orta Asiyanın memarlıq sənətinə xeyli dərəcədə təsir göstərmişdir[3]. Naxçıvanın inkişafında mühüm mərhələ, şübhəsiz ki, XI əsrin II yarısı olmuşdur. Bu dövrdə Alp Arslan (1063-1072) diyarda məskən salmış və bəzi məlumatlara görə özünə hətta iqamətgah da tikdirmişdi. Tarixi məxəzlərdən məlum olur ki, Yaxın Şərqin bir sıra ölkələrindən Naxçıvana çoxlu şair, alim, mütəfəkkirin toplaşması məhz Alp Arslanın vaxtına təsadüf edir. Daha sonra şəhər Səlcuq canişinlərinin qərargahına çevrilir. Əsli Tusdan olan Əbu Mənsur Əli ibn Əhməd Əsədi özünün "Qarşaspnamə" əsərini Naxçıvanda yazmışdır. Onun Naxçıvana gəlməsini stimulaşdıran həm diyarda həyat tərzinin yüksək olması, həm də buranın hakiminin şüubilik ideyalarına yaxın olması idi[4].

Naxçıvanlı ziyalıların bəziləri haqqındakı məlumatı onların qəbir yazılarından əldə etmək mümkün olmuşdur. Buradakı Ata-baba gümbəzində dəfn edilmiş ziyalılardan biri də Yusif ibn Kuseyir Niyazidir. Gümbəzin giriş qapısı üzərində kufi yazısı ilə onun böyük alim, hər yerdə arzu olunan

[1] Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərinin abadlığı//"Qobustan",1993, №1, № 2, s.18-19; Исмизаде О.Ш. Исследования в Баку//Археологические открытия 1979 Москва, 1980, стр.421-422; Ибрагимов Ф.А., Гусейнова С.Б.// Археологические исследования в Азербайджане. Баку, «Элм», 1990, стр.22-23

[2] Məmmədov R. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında//Az.SSR EA Xəbərləri, 1962, № 4, s.18; اوليـا جلبنـي سياحتنامه سي ايكنجي جلد در سعاده اقدام مطبه سي ، ص. ٢٣٧

[3] Ciddi H. Şamaxı Cümə Məscidi tarixindən//Azərb.SSR, EA-nın xəbərləri 1971, № 6, s.144.

[4] Бертельс Е.Э. Избранные труды. История персидско-таджикской литературы. Москва, «Восточная литература», 1960, стр.245.

qonaq, iman dayağı, islamın gözəlliyi, şeyxlərin qabaqda gedənlərindən olması kimi epitetləri və dəfn olunduğu tarix (h. 559/1164) yazılmışdır[1].

Müsəlman Şərqinin Naxçıvana səyahət etmiş alimləri ölkəmizin ziyalıları haqqında xeyli məlumat vermişlər. XII əsrin əvvəllərində yaşamış Şərqin məşhur alimlərindən Nizami Əruzi Səmərqəndi "Məcmə ən-Nəvadir" kitabında öz müəllimi naxçıvanlı Əbülfərəc ibn Məhəmməd Əbu Səid haqqında məlumat verir. Məlum olur ki, Əbülfərəc ən-Nəşavi İranın orta əsr ruhani alimlərindən Məhəmməd ibn Aqil əl-Qəzvini ilə yaxından əlaqə saxlamışdır[2].

Yaqut əl-Həməvinin məlumatına görə Xilafətin mühüm mədəniyyət mərkəzlərində fəaliyyət göstərən və mühəddis kimi məşhur olan Əhməd ibn əl-Hicaf əl-Azəri ən-Nəşavi 5 ölkəyə səyahət edərək müxtəlif alimlərin mühazirələrini dinləmişdir. Digər naxçıvanlı muqrilər (Quranı gözəl qiraət edənlər) Əbülfəth Saleh ibn Əhməd əl-Azəri və səffar (hədis əldə etmək üçün çox səyahət edən) naxçıvanlı Əliabbas Əhməd ibn Hüseyn ibn Nibhan vətəndən uzaqda olsalar da bir-birləri ilə daim təmasda olmuş, bir-birlərini məlumatlandırmışlar[3]. Əslən Naxçıvandan olan digər alim Gəncədə kitabxana mühafizi olan Asim ibn Bukran ən-Nəşavidir. Gəncədə bu kitabxana hələ X-XI əsrlərdə mövcud idi. Nəzərə alsaq ki, əs-Səmani Gəncədə yaşayıb yaratmış bəzi naxçıvanlı ziyalılar haqqında danışarkən XI əsr alimi İbn Makulaya isnad edir[4].

*Dərbənd və alimləri.* Məşhur tarixçi, filoloq, mühəddis Əbu Səad Əbdülkərim əs-Səmaninin "Kitab əl-Ənsab" əsərinə görə, Bab əl-Əbvab sərhəddə olan məşhur Dərbənd şəhəridir[5]. Məşhur səyyah, ensiklopedik alim Yaqut əl-Həməvinin "Mucəm əl-Buldən" əsəri də bunu təsdiq edir. Müəllifə görə "əl-Babi" nisbəsi Şirvanın Dərbəndinə aiddir. O, qeyd edir ki, buraya Bab-əl-Əbvab da deyirlər[6]. Ona görə də Bab əl-Əvvab

---

[1] Əzizbəyov İ. Məddah. Tiflis, Ərivan, Naxçıvan, Qarabağlar və b. yerlərdə müsəlman yazıları. Azərbaycan Asari-ətikə əxbar. Bakı, 1929, s.301.
[2] Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, "Elm", 1977, s.144; Низами Арузи Самарканди. Собрание редкостей или четыре беседы. Москва, «Восточная литература», 1963, стр.119.
[3] Yaqut əl-Həməvi.Mucəm əl-Buldən, Beyrut, 1977, V c., s.278.
[4] Əs-Səmani. Kitab əl-Ənsab.Leyden, 1912 v.549 (b) .
[5] Əs-Səmani.Kitab əl-Ənsab. Beyrut, I c., 1998, s.254.
[6] Yaqut. Mucəm əl-Buldən.Beyrut, I c., 1977, s.303.

və Dərbənd deyimlərinin hər ikisi verilərkən bunların eyni şəhər olması nəzərdə tutulur.

Əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri kimi Yaqut əl-Həməvinin "Mucəm əl-Buldən" əsərində olan bəzi əlavələr onun adını çəkdiyi mənbələrin bizə məlum olmayan redaktələrindən istifadə etmişdir. Belə ki, əl-Babın Ərdəbildən böyük olduğu haqqında əl-İstəxrinin məlumatını verən Yaqut, buraya "iki kvadrat mil" sözlərini əlavə edir[1].

Dərbənddə aparılmış arxeoloji qazıntılar Dərbəndin lokal və regional əlaqələrini göstərir, digər Azərbaycan şəhərləri ilə əlaqələrini təsdiq edir. Şəhərin mədəni təbəqələrindən aşkar edilmiş keramika və şüşə orta əsr Azərbaycanın Şamaxı, Qəbələ və Beyləqan şəhərlərinin analoq məhsulları ilə eynidir. Rey və Bağdadda hazırlanmış içi bol naxışlı piyalələr, Misir daşından hazırlanmış bəzək əşyaları, zərif şüşədən hazırlanmış piyalə və ətir şüşələri, ətirli maddələr üçün qablar, monoxrom və polixraomlu şüşə qolbağ və üzüklər, saxsı və Çin farforundan olan qablar və s. beynəlxalq ticarə əlaqələrinin varlığına şahidlik edirlər[2].

IX əsr müəlliflərinin (əl-Bəlazuri, İbn əl-Fəqih) Sasani dövrü şimal sərhədçiləri haqqında verdikləri məlumatı təkrar edən Yaqut, onların həmin mənbələrdə "siyasidja, sibasidja" formasında, görünür, təhriflə işlədilən adını həmçinin "əl-ənəşəstəkin" (farsca "neşeste"- sözündən) formasında da təqdim etmişdir. X əsr müəlliflərinin bizə çatan əlyazmalarındakı dolaşıqlıq üzündən tədqiqatçıların (S.T. Yeremyan, K.V. Trever, V.F. Minorski və b.) mübahisəli fikirlərinə gətirib çıxaran bu termin məhz Yaqutun düzəlişinə əsasən aydınlaşdırılmışdır[3].

Yaqut əl-Həməvinin üçüncü son əsəri olan "əl-Mütəlif vad'an va-l muftariq suq'an" əsəri də bizim üçün əhəmiyyət kəsb edir. Bu əsərdə adları oxşar yerlər haqqındakı məlumatla yanaşı bu və ya digər ziyalının oxşar şəhərlərdən məhz hansına aid olması da qeyd olunmuşdur. Yaqut əl-Həməvi yazılış forması Əl-Bab olan dörd yeri bir-birindən fərqləndirərək

---

1 Yenə orada, s.303..

2 Кудрявцев А.А. Развития торговли в Дербение в VI-первой половине XIII века.//Ближный Восток товарно-денежные отношения при феодализме. Москва., 1980, стр.112.

3 Велиханова Н.М. Измение исторической географии Азербайджана в результате арабского завоевания//Историческая география Азербайджана, стр.78-79.

hər biri haqqında ayrıca bilgi verir. Bu məlumat nəticəsində aydın olur ki, "birinci Hələb tərəfdə kiçik məşhur şəhər, ikinci- Buxaranın kəndlərindən, üçüncü Bəhreyn torpağında Həcər yaxınlıgında dağdır, dördüncü isə Bab əl-Əbvabdır ki, Şirvanın Dəbəndi adlanır". Yaqutun əsərindən aydın olur ki, Əbu İshaq İbrahim ibn Məhəmməd əl-Babi nisbəsi Buxaranın kəndi olan əl-Baba aiddir. Züheyr ibn Nüeym əl-Babi isə Şirvanın Dərbəndi adlanan Bab əl-Əbvabdan götürmüşdür[1].



*Dərbənd. Narınqala*

Ərəb ədəbiyyatı tarixində mavlə, böyük əmir, alim, tarixçi, ədib, hafiz, tənqidçi, nəssəbə (geneologiya ilə məşğul olan alim -N.Ə.) kimi məşhur olan ibn Makulanın "Əl-İkməl fi raf'i-l-irtiyəb ani-l-mu"təlif va-l-muxtəlif fı-l-əsmə va-l-kunə va-l-ənsab" ("Ad, künyə və nisbələrdəki oxşar və müxtəliflik üzərində olan şübhələrin aradan qaldırılmasının başa çatdırılması") əsəri şəxslərin adlarının dəqiqləşdirilməsi ilə bağlıdır. Əsərdə Azərbaycanın müxtəlif şəhərlərindən çıxmış xeyli sayda alimlər arasında nisbələrini Dərbənd şəhərindən götürmüş bir çox alimlərin adları da özünə yer almışdır. İbn Makula bu nisbənin aid olduğu "Əl-Bab və əl-Əbvab"da doğulmuş və ya bilavasitə əlaqəsi olmuş bir çox ziyalı haqqıda məlumat vermişdir.

Dərbənddə bəzi şeyxlər olmuşdur ki,onların nəsilləri ərəb qəbilələrindən, hətta xəlifə nəslindən olsa da, artıq onu yad edərkən adların bu şəhərin ziyalıları sırasında gedir. Onlardan biri əslini Osman ibn Əffanın nəslindən götürən Fəxrəddin Əbu Məhəmməd İbrahim ibn Mikail ibn İsmail ibn Əli əl Osmanın adı Cəbəl və Dərbəndin şeyxləri sırasında gedir[2].

Peyğəmbərin (s.a.s.) söylədiyi: "Əqiqi taxın, o sizi həqiqətən yoxsulluqdan uzaq edər" ("Təxtimu bi-l-əqiq, fəinnəhu yənfi-l-faqra") hədisini ötürənlər

[1] Yagut's Moschtarik, das ist Lexicon geografische Homoniyme. Aus den Handschriften zu Wien und Götting, 1846., p.32

[2] Сейидбейли М.Г.Сведения о деятелях Азербайджана XIII-начала XIV века в сохранившейся части сочинения Ибн-ал-Фувати (1244-1326) «Талхис Маджма' ал-адаб фи Му'джам ал-алкаб»//Изв.АН Аз.ССР. Серия истории, философии и права, 1987, № 1, стр. 87.

arasında *əl-Hüseyn İbrahim əl- Babinin* də adı keçir. İbn Makula hədisi söyləyən peyğəmbərlə (s.a.s) İbrahim əl-Babi arasında iki ravinin adını çəkir. Bunlar Humeyd və Ənəsdir. Peyğəmbərin (s.a.s.) söylədiyi hədisi əl-Hüseyn ibn İbrahim əl-Babi – Humeyddən, o isə Ənəsdən əxz etmişdir. İbn Makulanın məlumat verdiyi Hafiz Əbu Übeydə Hümeyd ət-Tavıl əl-Bəsri (688-760) isə Məhəmməd peyğəmbərin (s.a.s) səhabələrindən olmuş Ənəs ibn Maliklə görüşü vaxtı yuxarıda qeyd olunan hədisi dinləmişdir[1]. Bu isə əl-Hüseyn ibn İbrahim əl-Babinin buradan çıxmış digər mühəddislərdən vaxt etibarı ilə daha qədim dövrdə yaşamasını göstərir. Buidilər dövründə (334-447/945-1055) yaşayıb-yaratmış bu mühəddis Dərbənd şeyxi İbrahim əl-Babinin oğlu olmuşdur. Əbu Bəkr əş-Şirvani əd-Dərbəndi bu şeyx haqqında maraqlı məlumat verir. O, yazır ki, Antakiyadan Bab-əl-Əbvaba səfər etmiş Əbu Abdallah əl-Antaki bu şəhərdə üç görkəmli şeyxlə görüşmüşdür ki, onlardan da biri Şeyx əl-Hüseyn əl-Babidir[2] Dəməşqə gələrək orada qalan İsa ibn Məhəmməd ibn Abdulla əl-Bağdadi şeyx əl-Hüseyn əl-Babidən hədis dinləmişdir. Bu isə alimin Dəməşqdə fəalyyət göstərdiyini təsdiq edir.

*Əbu Hərb əl-Babi əl-Basri,* Həccac ibn Bab əl-Hümeyrinin oğullarındandır. Dilçi Yunis ibn Həbibə istinadən hədis nəql etmişdir. Ömər ibn Şəbbə isə ona istinadən hədis nəql etmişdir[3]. Qeyd etmək lazımdır ki, Ömər ibn Şəbbənin "ən-Nümeyri" olmasını Əs-Səmani "əl-Ənsab" əsərinə əlavə etmişdir. Bu isə onun ənənəsinə sadiq qalaraq qeyd etdiyi hər bir şəxsiyyətin adı ilə bərabər nisbəsini də verməyə çalışmasından irəli gəlir.

*Züheyr ibn Nüeym əl-Babi* Məhəmməd ibn Hişəm ibn ƏbdülHamid əl-Babi* –Yaqut əl-Həməvinin "Mucəm əl-buldən" əsərində isə bu şəxsiyyətin adı daha geniş şəkildə, yəni Məhəmməd ibn Hişəm ibn əl-Valid ibn Əbdülhamid şəklində verilir. Yaqut əl-Həməvi ayrıca olaraq onun ləqəbini (Əbülhəsən) kimi də qeyd edir. O, vurğulayır ki, Məhəmməd əl-Babi "Əbu İmran əl-Babi" ləqəbi ilə məşhur olmuşdur. Bundan başqa onun hədis nəql etdiyi mühəddisin adı da daha geniş - Əbu Səid Abdulla ibn Səid ibn əl-Əşəc əl-Kindi şəklində açıqlanır. Əbu İbrahim əl-Babi haqqında isə Misar

[1] Əliyeva N.A. İbn Makula...,2014, s.80.
[2] Аликберов А.К. Эпоха классического ислама на Кавказе. Абу Бакр ад-Дарбанди и его суфийская энциклопедия «Рейхан ал-хакаик» (XI-XII вв.). Москва, «Восточная литература», РАН, 2003.
[3] İbn Makula.İkməl. I c., s.573.

ibn Əli əl-Bərdəi nəql etmişdir[1].

*Əbülhəsən Həbib ibn Fəhd ibn Əbdüləziz əl-Babi (əd-Dərbəndi).* O, Məhəmməd əd-Dusti, Süleyman əl-İsfəhani, Əbülhəsən Buhtuveyx Asim ibn İsmail, Asim əl-Əhval kimi mühəddislərdən hədis öyrənmişdir. Onun vəfat tarixi haqqındakı məlumat Əbu Bəkr əl-İsmailiyə mənsubdur. Qeyd etmək lazımdır ki, Curcan əhlinin imamı əl-İsmaili zəmanəsinin görkəmli fiqh alimi və mühəddisi kimi tanınmışdır. O, Həbib əl-Babinin 270 il əvvəl (883/84-cü illərdə) Məhəmməd ibn Əbu İmran əl-Mukəbirinin qapısı yanında öldürüldüyünü yazır[2]. Əl-İsmailinin özü 371(981)-ci ildə Curcanda vəfat etmişdir[3]. Hər iki alim arasında yaş fərqi bir əsr olduğundan bu məlumatın mənbəyinin başqa bir isnadı olduğunu qəbul etmək olar .

*Əbu Bəkr Cəfər əl-Babi.* əs-Səmani onun Bab-əl-Əbvab əhlindən olduğunu vürgulayır. Əbdülğəni göstərir ki, o, Misirdə şeyxlərə əsasən gəlmələrə bilik verirdi. Əbdülğəni Misirdə onu görmüşdür və onun öyrətdiklərini dərk etdiyini əlavə olaraq söyləmişdir. Qeyd edək ki, Əbdülğəni ibn Səid əl-Əzdi İbn Makuladan əvvəl yaşayıb fəaliyyət göstərmidir. İbn Makula onun "əl-Mütəlif va-1-Müxtəlif“ və “Müştəbih ən-Nisbə“ əsərlərindən istifadə etmişdir[4]. Buna əsasən demək olar ki, Cəfər əl-Babi XI əsrdən əvvəl yaşamışdır.

*Hilal ibn Əli əl-Babi.* İbrahim əl-İsfahani ona istinadən rəvayət etdiklərini beytlər üzərində qurmuşdur[5]. “Mucəm əl-buldən” də bu şəxsin Bəb əl-Əbvaba mənsubluğu bildirilr, lakin Hilal ibn əl-Əalə kimi qeydiyyatdan keçirilir.

*Yəhya ibn Əhməd ibn əl-Hüseyn əl-Babi* - Məhəmməd ibn Tahir ət-Tarsusidən hədis nəql etmişdir. İbn Makula davam edərək yazır ki, Əl-Hafiz Əbu Tahir Əhməd ibn Məhəmməd əs-Siləfi isə ona istinadən hədis nəql etmişdir[6]. Qeyd etmək lazımdır ki, Əs-Siləfinin özü şəxsən Dərbəndi

* İbn Makula, əs-Səmani və Yaqut əl-Həməvi əsərlərində Züheyr ibn Nüeym əl-Babinin yalnız adını çəkirlər (bax: Əliyeva N.A. İbn Makulaazərbaycanlı ziyalılar haqqında. B., “Turxan”, 2014, s.80; Əliyeva N.A. Əs-Səmanin....2010, s.97; Əliyeva N.A. Yaqut əl-Həməvi və Azərbaycan. B., Çaşıoğklu...1999, s.222.

1 Əliyeva N.A.Yaqut əl-Həməvi...Bakı, 1999, s.222.

2 Yaqut.Mucəm.I c., s.306.

3 Əs-Səmani. Ənsab.,I c., s.158-159.

4 İbn Makula. I c., s.2.

5 Yenə orada, s.573.

6 Yenə orada, s.575.

ziyarət edən alımlər arasında olmuşdur. Ola bilsin ki, bu görkəmli alim Yəhya əl-Babidən hədisi məhz Dərbənddə olarkən dinləmişdi.

İbn Makulanın "əl-İkməl" əsəri sonralar İbn Nöqtə (v.e. h. 583/1187) tərəfindən davam etdirilmişdir.

İbn Nöqtənin "İkməl-ul-İkməl" kitabında daha bir neçə "Babi" nisbəli ziyalı haqqında məlumat verilir. Bunlardan *Hilal ibn Harun ibn Məhəmməd ibn Şərih əl-Babi* haqqında məlumatı məhz İbn Nöqtə vermişdir. Müəllifə görə isfahanlı müqri (Quran oxuyan) Əbu Bəkr Məhəmməd ibn İbrahimin məclisində müqri Əhməd ibn Saleh əl-Qəzviniyə istinadla hədis nəql etmişdir. Bu barədə Əhməd ibn Cəfər əl-Yəzdi yazmışdı. İbn Nöqtə bunu Yəhya ibn Mundəh (Məhdəh-?)in xətti ilə olan yazısından köçürdüyünü qeyd edir.

İbn Nöqtə İbn Makulanın əsərində olmayan daha bir " əl-Babi" nisbəli ziyalı haqqında məlumat verir. *Bu, Məhəmməd ibn Əbu İmran əl-Babi əs-Səqafidir.* O, göstərir ki, Əbu İmranın adı Hişamdır. Əsli Bab əl-Əbvabdandır. Bərdəyə gəlmiş, orada İbrahim ibn Müslim əl-Xarəzmidən hədis nəql etmişdir.

Orta əsrlərdə ziyalılar bəzən iki və ya üç nisbə də götürə bilirdilər. Bunlardan biri onun doğulduğu yer, ikincisi təhsil aldığı şəhər və ya işləyərək fəaliyyət göstərdiyi yer adı ılə tanına bilirdi. Onların arasında *fəqih Hakim ibn İbrahim ibn Həkim əl-Xınaluqi əd-Dərbəndini* göstərmək olar. Bioqrafik ədəbiyyatda bu ziyalının fəzilətli, qaygıkeş, mətin, mərd kimi xüsusiyyətləri yüksək qiymətləndirilmişdir. Əsli hazırda Quba rayonu yaxınlığında Xınalıq kəndindən olan Həkim ibn İbrahim İmam Şafii tərəfdarı olmuşdur. Bağdada təhsil almağa yollanmış *Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əd-Dərbəndi* əsli Azərbaycandan olan bir çox alim kimi görkəmli nəzəriyyəçi, ilahiyyatçı, fəqih Əbu Hamid əl-Qəzalinin (1058-1111), Mərvdə imam Müvəffəq ibn Əbdülkərim əl-Hərəvinin yanında fiqhi öyrənmişdir[1]. Çoxlu hədis dinləyən dərbəndli alim hədisləri öz əli ilə yazmışdır. Nizamiyyə mədrəsəsində yetişmiş onlarla alimlə birlikdə azərbaycanlı ziyalıların, o cümlədən Həkim əd-Dərbəndinin dünyagörüşünün formalaşmasında bu alimin də böyük əməyi olmuşdur. Bir neçə il Buxarada yaşamış və 538-ci (1143) ildə orada vəfat etmişdir.

Tarixi ədəbiyyatda XI-XIII əsrlərdə dövrün bir çox alimlərinin

[1] Səmani. Ənsab. V c. s.19; Yaqut.Mucəm, II c., s.394.

Azərbaycanı ziyarət etməsi haqqındakı məlumatlar yetərincədir. Bizim üçün daha maraqlı olan bu bölgəyə ziyarət edib öz gözü ilə gördüklərini əsərlərində qeyd etmiş müəlliflərin məlumatıdır. Araz çayından şimalda yerləşən şəhərlər, oradakı ziyalı mühiti, yerli alimlərin Xilafətin digər bölgə alimləri ilə qarşılıqlı elmi əlaqələri necə olmuşdur? Misirdə adına mədrəsə açılmış İsfahan şeyxi Əbu Tahir əs-Siləfi (XI əsr) Azərbaycanla yaxından bağlı şəxslərdən olmuşdur. Şirvan, Gəncə, Naxçıvan, Dərbənd kimi mədəniyyət mərkəzlərinə səfər etmiş əs-Siləfi, bu bölgələrdəki kitabxana, məscid, mədrəsə və hədis evlərində yerli alimlərlə birgə disskusiyalarda iştirak etmiş, yerli alimlərlə fikir mübadiləsi aparmış, onlar haqqında bilgi vermiş, onlara hədis öyrətmiş , özü isə yerli alimlərdən hədis öyrənmişdir.

Bəhs edilən dövrdə bir çox sahənin mütəxəssisləri həm də hədis elmi ilə məşgul olmağı özlərinə borc bilirdilər. Bu isə hədis elminin dövr üçün nə qədər önəm daşıdığını təsdiq edir. Tanınmış fəqihlərdən biri olan Əbülqasim Məymun ibn Ömər ibn Məhəmməd əl-Babinin (əd-Dərbəndi) əsas ixtisası fiqh olmasına baxmayaraq, o, həm də hədis elmi ilə məşğul olurdu. Əbu Həfs Ömər ibn əl-Hüseyn əl-Əzci ondan hədis dinləmişdi. Əbu Tahir əs-Siləfinin (1085-1180) məlumatından aydın olur ki, Babda olarkən Məymun ibn Ömərlə görüşmüş, ondan dinləmə yolu ilə (səmia) hədis öyrənmşdir[1]. İbn Makula "əl-İkməl" əsərində Məymun ibn Ömərdən dinlədiyi bu hədisin isnad zəncirini verməklə peyğəmbərin (s.a.s.) söylədiyi hədisi əsərində xüsusi olaraq qeyd etmişdir. Bu hədisdə deyilir: " …heç biriniz etibar etməyin, o vaxta qədər ki, onunla gəldiyin zaman istəyinə tabe olsun". Əs-Siləfi Bab əl-Əbvabda Məymun ibn Ömərlə görüşmüşdü. Müəllif məlumat verərək göstərir ki, o, Bab əl-Əbvabın fəqihlərinin böyüklərindəndir.

Beləliklə, Yaxın və Orta Şərq xalqları ilə yanaşı azərbaycanlı alimlərin aparıcı ziyalı qüvvələrinin formalaşmasında digər mədəniyyət mərkəzləri ilə yanaşı qaynar elmi-mədəni həyatı ilə fərqlənən Dərbənd şəhərinin böyük rolu olmuşdur. Azərbaycanın digər bölgələrindən olan alimlər buradakı alimlərlə qaynayıb qarışmış, Dərbənddən olan ziyalılar məşhur şəxslərdən dərs almış, bir tərəfdən orada elmi potensialını artırmış, onlardan öyrənmiş, digər tərəfdən orada yaşayıb fəaliyyət göstərən ziyalılarla ədəbi və dini baxışlar haqqında müxtəlif mühazirələrlə çıxış

[1] Siləfi.Mucəm əs-Səfər. №1265.

etmiş, elmi mübadilələr aparmış, bəziləri isə orada məskunlaşaraq fəaliyyətlərini davam etdirmişlər. Bu isə bir daha orta əsrlərdə Dərbənd şəhərinin mədəniyyət mərkəzi kimi formalaşmasında onun ziyalılarının böyük rolu olmasını təsdiqləyir.

*XII əsrdə Şərqin mədəni şəhərlərindən birinə çevrilən Beyləqan.* Hər bir şəhərin mədəni həyatının əsas göstəricisi əhalisinin savad və bilik göstəricisidir. Bu şəhərlər arasında Beyləqanın özünəməxsus yeri vardır. Hələ ilk orta əsrlərdə yaranıb inkişaf etməyə başlayan Beyləqan şəhərinin mədəniyyəti XI əsrdən etıbarən özünün çıçəklənmə dövrünə qədəm qoyur və XII –XIII əsrin əvvəllərində nəinki təkcə Azərbaycanın, hətta bütün Şərqin ən mədəni şəhərlərindən birinə çevrilir. Bu dövrdə Beyləqanda məktəb-mədrəsə, mehmanxana, çörəkxana, camaşırxana, əczaxana və başqa mədəni-məişət və maarif ocaqlarının varlığı, habelə kaşılarla zəngin işlənmiş came məscidi, ən çox ağ, şabalıdı və firuzəyi şirlə örtülmüş kaşılarla üstünə köynək geydirilmiş mavzoleylər, davamlı tağbəndi olan kanalizasiya və s. şəhərsalma mədəniyyətini nümayiş etdirən çox qiymətli və əvəzolunmaz arxeoloji materiallardır.

Hələ IX əsrdən başlayaraq Beyləqanın sənətkarlar məhəlləsinin formalaşması-sənət sahələrinin ayrıca məhəllədə cəmləşməsi şəhərin mədəni səviyyəsini nümayış etdirən gözəl dəlildir. Beyləqanda şirli və xüsusilə şirsiz qab məmulatı geniş yayılmışdı.Ümumiyyətlə, islam dini yayılan ölkələrdə məişətdə daha geniş istifadə olunurdu. Şərq adətləri kodeksində Məhəmməd peygəmbərə (s.a.s.) əsaslanaraq göstərilir ki, yeməkdə istifadə olunan qablar ağacdan və ya gildən olmalıdır. Gümüş və qızıl qablarda xörək yemək günahdır, dəmir, mis və qalaydan olan qablarda isə xörək yeməyə icazə verilmir[1]. Qısa bir müddət ərzində - IX-XIII əsrlərdə öz təcrübələrini artıraraq, istehsalı təkmilləşdirərən Azərbaycan dulusçuları-rəssamları yüksək peşə məharətinə sahib olmuşdular. Qabların üzərindəki ərəb dilindəki yazılar sənətkarların savadlı olmasına dəlalət edir. Beyləqanda aparılmış arxeoloji qazıntılar zamanı tapılmış şirli qab üzərində usta Bədəlin imzası ilə belə bir yazı verilmişdir : “Rahatlıq, əmin-amanlıq, şöhrət, müvəffəqiyyət və

[1] Сборник материалов по мусульманству. т.II, Ташкент, 1900, стр.62.



*Orta əsr Beyləqanın ümumi görünüşü. Rəssam S.Qruzdev*

xöşbəxtlik Allahdandır"[1]. Yazının qrammatik cəhətdən düzgün yazılması hətta sənətkarların da savadlı olması haqqında fikir yürütməyə əsas verir. Beyləqanda aparılmış axeoloji qazıntılar zamanı 16 dulusçunun adı təyin olumuşdur. Gəncədə aparılan qazıntılar isə iki keramika ustasının adı ilı tanış edir. Onlar Qafar və Əhməd ibn Əbu Bəkr Gəncəvidir. Fayans qablar üzərindəki yazılar da müəyyən marağa səbəb olur. Maraqlıdır ki, bu qablar üzərində yazılmış beyt və rübailər o dövrün şairlərinin bizə məlum olan şerlərində mövcud deyil. Ona görə güman etmək olar ki, bu şeirlərin əksəriyyəti ya ustalar, ya da bizə məlum olmayan şairlər tərəfindən yazılmışdır[2].

Mədrəsələrdə əsasən varlı təbəqəyə mənsub olan şəxslərin uşaqları təhsil alırdı. Lakin, Beyləqan qazıntılarından tapılmış epiqrafik məlumatdan aydın olur ki, əhalinin aşağı təbəqəsinə mənsub olan adamların içərisində də savadlı adamlar var idi. Beyləqanda istehsal olunmuş saxsı qabların üzərində xeyli miqdarda yazıların dulusçular tərəfindən yazıldığı şübhə oyatmır. Yazıların bəziləri lirik beyt və rübailərdən ibarətdir, yəni artıq

[1] Ахмедов Г.М. Средневековый город Байлакан. Баку, 1979, стр.80.
[2] Ахмедов Г.М. Города Азербайджана XII –начала XIII в. в свете новых археологических исследований. Низами Гянджеви. Альманах. Баку, 1984, стр.80.

şeir şəkli almış yazılardır[1]. Beyləqanda iki cür xətli-kufi (qədim ərəb xətti) və nəsx(orta ərəb xətti) yazlardan istifadə edilmişdir. Qablar üzərində yazılar əsasən ya ucu biz qələmlə, ya da adi fırça ilə yazılmlış və yaxud da möhülrə vurulmuşdur. Bundan əlavə, bişirilməzdən əvvəl gildən düzəldilib qaba yapışdırılmış yazılar da vardır[2].

XI əsrdə Beyləqanda müxtəlif dini qruplaşmalar və sektalar var idi. Məsud ibn Namdarın məlumatına görə, o,bu sektaların hüç birinə daxil deyildi. Bununla yanaşı şəhərdə ən azı üç dini - icma var idi. Müsəlman, xristian və yəhudi dini icmaları[3].

Zəkəriyyə əl-Qəzvini Mücirəddin əl-Beyləqanini digərlərindən fərqləndirir və onu daha üstün hesab edirdi. Müəllif əlavə olaraq məlumat verir ki, şair İsfahana gələrkən şeirində yerli sakinləri cahil adlandırmışdı. Bundan xəbər tutan İsfahanın rəisi bütün İsfahan şairlərinə buna münasibət bildirməyi əmr etmişdi. Onlar buna əməl etmiş, şeirləri bir kitaba cəm edərək, Mücirəddinə göndərmişdilər[4].

644-cü ildə müsəlman cəfərilər sülaləsi tərəfindən idarə olunan Tiflis İbn Havqəlin məlumatına görə Arranda Bərdə, əl-Bab və Tiflisdən [başqa] böyük şəhərlər yoxdur. Müəllifə görə 500-cü ilin (1107) son onluğunda buranı ələ keçirən gürcü hökmdarı (məlik əl-Kurc) özü kafir olmasına baxmayaraq (Tilis) əhalisinin qeydinə qalır, onları hər əziyyətdən qoruyur. İslamın şüarı burada əvvəlki kimi qalmaqdadır. Came məscid hər cür mundarlanmadan qorunur. Hökmdar orada şam və qəndillər yandırır, lazım

---

[1] Ахмедов Г.М. Средневековый город Байлакан. Баку, 1979, стр.80.

[2] Гюзалян Л.Т.Надписи на двух сфероконических сосудах из Байлакана. M.,-L, 1965, стр.324 .

[3] Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975, стр. 29; Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста , предисловие и указатели В.М. Бейлиса. Москва, «Наука», 1970, л.210 а, 109ф.

[4] Буниятов Дж.З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанскаой ССР. Серия истории, филасофии, права. 1976, № 3, стр.52

[*] 644-cü ildən Cəfərilər sülaləsi tərəfindən idarə edilən Tiflis əmirliyi 1122-ci ildə gürcü qoşunlarının Tiflisi alması ilə süqut etmişdir (Bax: Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə. Bakı, 2016, s.303)

olan hər şeylə təchiz edir. Bütün məscidlərində azan səsləri bərkdən ucalır. Heç bir kəs onlara pislik göstərmir. İndi müsəlmanlarla gürcülər qarışıblar*. Onun Bab əl-Əbvabdan kiçik hesab etdiyi Tiflis şəhəri hər tərəfdən düşmən əhatəsində olan mühüm sərhəddə yerləşirdi. Əhali xaricdən gələnlərə qarşı əminlik və xeyirxahlıq göstərir, təsadüfən [buraya] gəlib çıxan və azacıq düşüncə və biliyi olan hər kəsə dostcasına yanaşırdılar. Onlar qədim nəzəriyyələrə (təlimlərə) əsasən sünnilik tərəfdarlarının fikirlərini müdafiə edirlər. [Tiflislilər] hədis haqqında elmlərlə çox məşğul olur və bu elm ilə məşğul olanlara hörmət edirlər[1]. Tiflis alimləri özlərinin elmi səviyyəsinə görə müsəlman Şərqində tanınmışdılar. Nəinki yerli məsəlman əhali, eləcə də M.D. Lordkipanidzenin etirafına görə bu dövrdə islam dinini qəbul edən gürcülər Xilafətin və onun daxilində Tiflis əmirliyinin taleyində mühüm rol oynamışlar. O qeyd edir ki, onlar öz əsillərini təsqdiqləmək və ya unutmamaq üçün "əl-Kurci" nisbəsini qəbul etmişlər[2]. Lakin, ərəb müəllifi əs-Səmani əl-Kürci" nisbəsini millətin adı deyil, ölkə adını bildirdiyini göstərir. Əs-Səmani "kürci" (الكرجي) nisbəsini Kürc nahiyəsinə aid etmiş və onu Rum tərəfdən Azərbaycana aid sərhəd nahiyələrindən biri adlandırmışdır[3]. Müəllif oradan bir çox məvalinin çıxması haqqında məlumat verərək göstərir ki, onlar hədis dinləyərək rəvayət etmişlər. Əs-Səmani onlardan biri, Əbülhəsən Feyruz ibn Abdullanı " əl-Kürci" kimi qələmə verir və h. 525/1130-ci ildə vəfat etdiyini yazır. Digər tərəfdən, əs-Səmani "tiflisi" nisbəsinin Azərbaycanın sərhəd şəhəri Tiflisin adından götürüldüyünü təsdiq edir. "Təflisi" nisbəsini Azərbaycan ölkəsinin sərhəd şəhərlərindən birinə aid edən əs-Səmani buradan bir çox alim və mühəddisin çıxdığı haqqında məlumat verir:

*Əbu Bəkr Məhəmməd ibn İsmayıl ibn Bətun ibn Səri ət-Tiflisi.* Atası Nişapura gəlib orada məskunlaşanlardandır. Əbu Bəkr də orada anadan olmuşdur. Siqə, düz danışan idi, çoxlu hədis bilirdi. Hafiz Hakim Əbu Abdulla Məhəmməd ibn Abdulla, Əbu Tahir Məhəmməd ibn Məhəmməd əz-Ziyadi, Əbu Yəli Həmzə ibn Əbdüləziz əl-Məlhəbi və başqalarının nəql etdikləri hədislərə qulaq asmışdır. İsfahanda hafiz Əbülqasim İsmayıl ibn

---

[1] Vəlixanlı N. M. IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, s.109-110.

[2] Лордкипанидзе М.Д. Тбилиси (IV- начало XII в.). Тбилиси, «Самшобло», 1991, стр.69.

[3] əs-Səmani, əl-Ənsab, IV c. ,s.605

Məhəmməd Fəzl, Nişapurda Əbülqasim Əhməd ibn İbrahim əl-Muqri, Mərvdə Əbu Yəli Hüseyn ibn Əli əş-Şəhami və bir çox başqaları ona istinadən bizə hədis nəql etmişlər.

*Əbu Əhməd Hamid ibn Yusif Hüseyn ət-Tiflisi.* Tiflis əhlindəndir. Bağdada gəlmiş, orada və digər şəhərlərdə hədisə qulaq asmışdır. Fəzilətli, düzü əyridən seçən idi. Beytülmüqəddəsdə Əbu Abdulla Məhəmməd ibn Əli ibn Əhməd əl-Beyhəqinin, Məkkədə Əbülhəsən Əli ibn İbrahim əl-Aqulinin nəql etdikləri hədislərə qulaq asmışdır. Əli ibn Məhəmməd əs-Savi onun nəql etdiyi hədislərə qulaq asmışdır.

*Hüseyn ibn Əli əl-Fərzi.* Hələbdə Əbülhəsən Əli ibn Abdulla ibn Əbu Cəradə əl-Antaki ona istinadən bizə hədis nəql etmişdir. 484-cü ildən sonra vəfat etmişdir.

*Məhəmməd ibn Bəyan ibn Həmran əl-Mədaini ət-Tiflisi.* Əslən Tiflisdəndir. Bağdadda yaşamış, atasına, Həmad ibn Zeyd, Osman əl-Bərri, Mərvan ibn Şüca əl-Cəzəri, Səid ibn Məsləmə, əl-Əməvi, *Abdulla ibn Həmad ət-Tiflisi,* Məafi ibn İmran, Əbdüləziz ibn Xalid, Yəhya ibn Nəsr ibn Hacib və Əbu Əbdürrəhman əl-Muqriyə istinadən hədis nəql etmişdir. Əhməd ibn Yusif ibn Yaqub əl-Kufi ona istinadən hədis nəql etmişdir[1].

*Bakı.* İslamın yayılmasının ilkin dövründə ərəb qəbilələrinin bu əraziyə köçürülməsi barədə ərəbdilli mənbələrdə məlumat verilməsə də, Bakının köhnə İçərişəhər qalasında yerləşən Şirvanşahlar sarayı ərazisində aparılan arxeoloji tədqiqatların nəticələri hələ VIII əsrdə Bakıda sıx əhali təbəqəsinin olması qənaətinə gətirir[2]. Əbu Düləfin X əsrin ortalarına aid edilən ikinci qeyd kitabının Məşhəd əlyazmasında Bakı neftindən gələn gündəlik gəlirin 1000 dirhəmə çatdığı göstərilir[3]. O dövr üçün bu çox böyük rəqəm idi. Neft İran və digər ölkələrə karvan vasitəsilə aparılırdı.

Ərəb mənbələrindən Həmdullah Qəzvini 1340-cı ildə yazdığı əsərində Bakının əks istiqamətində yerləşən Pirallahı və Şamaxıdakı "Allah Əkbər" adlı yerlər haqqında məlumat verir. Ərəb dilinə tərcümədə hər iki yerin adı "Allah böyükdür" ifadəsindən götürülmüşdür. Bu ifadə fəthlər zamanı ərəb

---

1 Əs-Səmani. Əl-Ənsab. I c., s.493.

2 Левиатов В.Н. Археологтческие раскопки 1945 г. при Дворце ширваншахов в Баку, «Изв. АН Азерб.ССР», 1948, №1, с.121-122; Ашурбейли С.Б. Ремесла и торговля раннесренневековых городов Азербайджана,Материалы по историиАзербайджана, ,т.П, Б., Изд-во АН Аз.ССР,1957, с.159.

3 Вторая записка Абу Дулафа.Москва, 1960, стр.36.



*Bakı qalası*

ordusunu müharibəyə çağırış səsidir (nidasıdır). Abşeronun toponimikasını tədqiq edən S.Aşurbərli Pirallahı adasının adının Şamaxıdakı "Allah Əkbər" ifadəsindən götürüldüyünü, ikinci hissəsinin düşdüyünü, "Allah" sözünün saxlandığını göstərir. Digər tərəfdən Ərəb müəllifləri əl-Məsudi (X əsr), Əbu Hamid əl-Əndəlusi (XII əsr), anonim "Mücəm ət-təvarix və-l qısas"ın və digər orta əsr müəllifləri də Bakı yaxınlığında Pir Allahi adası haqqındakı məlumat verirlər. Yaxın vaxtlara qədər adadakı ibadət yeri (məbəd, müqəddəs yer) və orada müqəddəs şəxsin-dərvişin dəfn edilməsi haqqında deyimlər (rəvayət) vardır. Bu adadakı məbədə və yanar oda sitayiş etmək üçün ətraf yerlərın kəndlərindən əvvəllər atəşpərəst olmuş sakinlər ziyarət üçün gəlirdilər[1]. Bu isə islamın yayılmasını daha erkən dövrlərə aparıb çıxarır.

*Təbriz və digər Cənubi Azərbaycan şəhərləri.* Cənubi Azərbaycanın paytaxt şəhəri olan Təbriz müsəlmanlıq dövründə, daha doğrusu, VIII əsrin axırlarında Abbasilər dövründə Harun ər-Rəşidin arvadı Zübeydə tərəfindən əsası qoyulmuşdur. İlk dövrlərdə Təbriz kənd kimi qalırdı. Yalnız

[1] Ашурбейли С.Топонимика Абшерона. В связи с вопросом этногенеза азербайджанцев. Изв. А.Н Аз.ССР. сер. ист. филос. и права, 1967,№2, стр.54-67.



*Təbriz. Rəssam E.Flanden*

xəlifə Mütəvəkkilin dövründə (847-861) Təbriz şəhəri qiyamçı-hərbi başçı ər-Rəvvad əl-Əzdi və onun varisinin iqamətgahına çevrilir[1]. Təbriz hələ X əsrdə isə kiçik şəhərə çevrilmişdi. Orta əsr Təbrizinin yerli və beynəlxalq ticarət və sənətkarlıq mərkəzi kimi inkişafı və tərəqqisi XII əsrə təsadüf edir. Şəhərdə bir çox bazarların və məlum sənətkarlıq istehsalının olması, Şərqin mühüm karvan və hərbi-strateji yollarının kəsişməsində yerləşməsi Eldəgizləri Təbrizi özlərinin paytaxt şəhərinə çevirmələrinə səbəb olur. XII əsr mənbəsində yazıldığı kimi, "bu dövrdə Təbriz öz əzəməti ilə mərkəzə çevrildi"[2]. Elə bir sənətkarlıq nümunəsi yox idi ki, onun istehsalı bu şəhərdə təcrübədən keçirilməsin. Bu səbəbdən də 1213-cü ildə Təbrizdə olmuş Yaqut əl-Həməvi artıq şəhərin böyük sənaye mərkəzi olduğunu göstərir.

Əmir Vahsudan və oğlu Əmir Məmlanın sarayı alimlərə qiymət verilən məkanlardan olmuşdur. Şair Qətran Təbizi (1012-1088), 20 ilə yaxın bir müddətdə Təbrizdə bu ata-oğulun sarayında yaşamış, yazıb-yaratmışdır. Şairin öz sözləri ilə deyilərsə, bunların qapılarında qara saçlarını ağartmışdır.

---

[1] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində, Bakı, "Çaşıoğlu", 1999, s.157.

[2] Миклухо-Маклай Н.Д.Географическое сочинение XIII в.//Ученые записки ИВ АН СССР, т.IX, Москва-Ленинград, 1954, стр.203-204.

Əmir Vahsudan və oğlu Məmlan həmişə Qətranı hörmətlə qarşılayıb, layiqincə təltif etmişlər. Təbrizin yaxınlığında ona bir kənd və bir də bağ vermişlər ki, şair bir neçə dəfə bu haqda öz təşəkkürünü bildirmişdir[1].

Digər şəhərlər kimi, Təbrizdə də ədəbi və elmi əsərlər, müqavilələr, sənədlər ərəb dilində yazılmış, kargüzarlıq, xüsusi və rəsmi yazışmalar ərəb dilində aparılmışdır. Lakin buna baxmayaraq, ərəb dili məişətdə işlədilən yerli dili əvəz edə bilməmişdi. XI əsrin ərəb dilçiliyi sahəsində ad-san qazanmış görkəmli Azərbaycan şairi-alimi Xətib Təbrizi müəllimi əl-Məərridən[*] dərs aldığı vaxtda həmvətənli qonşuları ilə "öz əhalisinin dilində" danışmışdı[2].

Təbrizi Azərbaycanda ən məşhur şəhər adlandıran XII əsr müəllifi əs-Səmani onun Qazı Əbu Saheh Şueyb ət-Tibrizi və Əbu Zəkəriyyə Yəhya ət-Tibrizi kimi böyük alimlərindən söz açır[3]. Fəxrəddin Əbülfəzl İsmayıl ibn əl-Musənnə ət-Təbrizi, Xətib Təbrizi, Əminəddin Müzəffər ibn Əbu Məhəmməd ibn Əli ət-Təbrizi, Umdətəddin Əbu Mənsur ət-Təbrizi ,Əla əd-Din Əbülhəsən Əli ət-Təbrizi, Kamal əd-Din Əbu Məaz ət-Təbrizi, Məhəmməd ibn Əbu Məhəmməd ət-Təbrizi, Mahmud ibn Əli ibn İsmayıl ibn Yusif ət-Təbrizi, Əbu Şəfa Xəlil ibn Əhməd ibn Xəlil ət-Təbrizi kimi Təbrizdən çıxmış müdərrislər şəhərin islam mədəniyyət mərkəzi kimi məşhurlaşmasında böyük rol oynamışlar[4].

Alimlərinin toplaşaraq elmi məclislər təşkil etdikləri, diskussiyalar apardıqları şəhərlərdən biri də Səlmas olmuşdur. Orta əsr müəllifləri Səlmasa səyahət edərkən bəlağətli dilli, fəziləti ilə məşhur imam adlandırdığı Əbülqasim Həriz Əhməd ibn Həriz əs-Səlmasi ilə görüşmüşdür. Bu şəhərdə Mütəhhər ibn Məhəmməd ibn Məhəmməd əl-İsfəhaniyə istinadən nəql etdiyi hədisi dinləmə yolu ilə öyrənmişdir. Bu

[1] Təbrizi Qətran. Divan. Fars dilindən çevirən və çapa hazırlayan Q.Beqdeli. Bakı, Az.SSR EA-nın nəşriyyatı, 1967, s.13.

[*] Əbul-Əla əl-Məərri - fəlsəfi, lirik, pessimist xarakterli şeirlər yazmış ərəb şairi. Onun yaradıcılığının əsas mövzusu həyatdan narazılıq, dünya zülmü qarşısında çıxılmaz tənha adamın gücsüzlüyüdür. 973-1057-ci illər arasında yaşamışdır.

[2] M.Yaşar Kandemir. Hakim en-Nisaburi. İslam Ansiklopedisi, 15-ci c., İstanbul, 1997, s.17.

[3] Əliyeva N.A. Əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə aid mənbə kimi. Bakı, "Şərq-Qərb", 2010, s.105-106.

[4] Yenə orada, s.112-113.

şəhərdə müfid Əbülbərəkət Hibbətulla ibn Mübarək əs-Səqti kimi tanınmış hədis bilicisi ona istinadən hədis nəql etmişdir[1]. Səlmasın rəisi pak və dindar adam kimi təqdim edilən Əbülhəsən Nemətüllah ibn Ömər həm də mühəddis oğlu mühəddis idi. Səlmasda onunla görüşən şeyx əs-Siləfi onun əsərlərini yüksək qiymətləndirərək yazırdı ki, "...mən onun əsərlərində ziya və doğruluq gördüm[2].

Azərbaycanın fəthinin ilkin çağlarından Ərdəbil bölgənin inzibati və hərbi mərkəzi idi. Ərəb fəthləri haqqındakı məlumatlarda Ərdəbilin adı canişinin iqamətgahı kimi yad edilir. Ərdəbil həm də özünün parçaları, ağacdan düzəldilmiş qab və digər əşyaları, o cümlədən daraq, fincan, musuqi alətləri və minik arabaları ilə ad çıxarmışdı [3]. Ərəb müəlliflərindən İbn Makula Ərdəbili ziyarət etmiş, orada Ərdəbil şeyxi imam Əhməd ibn Yusif ilə görüşmüşdü. Ərdəbilli şeyx bu görüş vaxtı "Ləccam" sözünün Əbu Bəkr Əhməd ibn Hüseyn əl-Ləccam əl-Ərdəıbiliyə aid olduğuna İbn Makulanı inandırmışdı.

Həmdullah əl-Qəzvininin "Nuzhat əl-Qulub" əsərində şəhər sakinlərinin şafii olması haqqında məlumat verilir. Ərdəbilli alim, Camaləddin Məhəmməd ibn Əbdülğəni əl-Ərdəbili (v.e. 1249-cu ildə) təfsirçi kimi tanınırdı. Cərullah əz-Zəməxşərinin (467/1075-537/1144) "Nümunəvi qrammatika" əsərinə yazdığı şərh dərs vəsaiti kimi müsəlman aləmində məşhur olmuşdur[4].

Rauf Məmmədovun apardığı tədqiqat nəticəsində XI-XII əsrlərdə Azərbaycanda təqribən 100-ə yaxın şəhər olduğu göstərilir. Müəllifə görə bu şəhərlər təkcə Azərbaycanın deyil, bütün Yaxın və Orta Şərqin iqtisadi həyatında, xüsusən ticarətində mühüm rol oynayırdı[5]. Azərbaycan şəhərlərinin mədəni həyatının öyrənilməsi bu şəhərlərin təkcə iqtisadi həyatının deyil, mədəni həyatının da inkişaf etməsini göstərir.

---

[1] Əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.298.

[2] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan. Bakı, "Elm və təhsil", 2016.

[3] Гусейнзаде Р.А. Кавказ и сулджуки. Баку, «Кавказ», 2010, стр.149.

[4] Каталог арабских рукописей. Редактор - составитель д.ф.н. М.М. Адилов. 2-ое изд. Баку, «Нурлан», 2008.

[5] Məmmədov R.A. XI-XII əsrlərdə Azərbaycan şəhərlərinin inzibati-idarə quruluşu.Az.SSR EA Azərbaycan Tarixi Muzeyinin 1987-ci il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı, "Elm", 1988, s.15

# IV FƏSİL

# AZƏRBAYCANLI ZİYALILARIN FƏALİYYƏTİ



## 4.1. Azərbaycanlı alimlərin təsnifatı

*Mühəddislər.* Xilafətin genişlənməsi və inkişafı ilə əlaqədar onun daxilindəki hüquqi münasibətlər də islam qanunvericiliyinə uyğun olaraq tənzimlənir və formalaşırdı. Məhəmməd peyğəmbərin (s.a.s) ölümündən sonra Quranda həlli tapılmayan bəzi məsələlərin həllində peyğəmbər (s.a.s.) necə hərəkət edə bilərdi sualına cavab almaq məqsədilə, adətən peyğəmbərin (s.a.s.) dediklərini xatırlamaları üçün səhabələrinə və tabiilərə (səhabələri sonuncu görənlər nəsli-N.Ə.) müraciət edildi. Nəticədə, peyğəmbərin (s.a.s.) dilindən eşidilən, eşidildiyi ehtimal edilən hədisləri ötürən şəxslər qələmə alındı və onlara ümumi bir ad - "mühəddislər" adı verildi.

İlk müsəlman icması Quranın nazil olmuş ilahi əmrləri ilə idarə olunurdusa, Əməvilər dövründə hakimiyyətin teokratik xarakteri zəiflədikcə, dövlət idarəetməsində təkcə Quran kifayət etmirdi. İctimai-siyasi, eləcə də məişət məsələlərinin həlli üçün çatışmayan əlavələrə ehtiyac duyulurdu. Belə bir dövrdə Peyğəmbər (s.a.s.) tərəfindən deyilmiş və ya onun tövsiyyələri, əməlləri haqqında əshabələrinin və tabiilərin söylədikləri hədislər bu boşluğu aradan qaldırmağa başladı. Hədislərin özləri müxtəlif növlərə bölünürdü. Onların arasında səhih hədislər daha mötəbər sayılırdı. Məhəmməd peyğəmbərə (s.a.s) Allahdan vəhy kimi gələn hədislər isə qüdsi hədislər adlanırdı. Bu hədislərin əsasında VIII-IX əsrlərdə Məhəmməd peyğəmbərin (s.a.s) hərbi yürüşlərindən bəhs edən kitablar tərtib olunurdu. Bunlardan əl-Vahidinin "Kitab əl-mağazi" əsəri mühüm əhəmiyyət kəsb edirdi[1]. Əslində Məhəmməd peyğəmbər (s.a.s.) haqqında islam dövrü bioqrafik ədəbiyyatından sayılan bu əsərlər "Kitəbu-s-siyər" və ya "Kitabul-cihad" da adlanırdı.

Ənənəyə görə, hədis iki hissədən ibarət olmalı idi: isnad (ərəbcə "dirək", "istinad", "dayaq"), yəni hədisi üzə çıxaran şəxslərin sadalanması və mətn. Qeyd etmək lazımdır ki, hədislərin səhih olmasını təyin etmək cəhətdən isnadların böyük rolu olmuşdur. İsnad-yalnız hədislərin ötürülməsi sahəsində islam dövründə yenilik kimi istifadəyə daxil olmuşdur[2]. Əs-Səmani bunu obrazlı şəkildə belə ifadə etmişdir: "İsnad-imanın bir hissəsi,

[1] Петрушевский. Ислам в Иране в VII–XV веках. Ленинград, «Ленинградский Университет», 1966, с.124

[2] Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. Москва, Наука, 1985, с.105

möminin silahıdır; əgər onun silahı yoxdursa, o necə döyüşə bilər?”[1] Hədis söylənilərkən, əvvəlcə hədisi bir-birinə ötürənlərin adları sadalanır, sonra isə hədisin mətni verilir.

Həqiqətə uyğunluq dərəcəsinə görə hədislər üç növə ayrılırdı:

a) “Əgər hədis söyləyən şəxslərin-ötürücülərin heç biri şübhə doğurmurdusa, belə hədis səhih (ərəbcə-düzgün), yəni həqiqətə uyğun sayılırdı;

b) Əgər hədis ötürücülərinin sıra ardıcıllığında az tanınan və ya bütün mühəddislər tərəfindən qəbul edilməyən şəxs varsa və ya hər hansısa buraxılma (boşluq) olurdusa, belə hədis mükəmməl sayılmasa da, qəbul olunur və həsən (ərəbcə-yaxşı) sayılırdı;

c) Əgər hədis ötürücülərinin sıra ardıcıllığında dindarlığı və ya mənəviyyatında şübhə edilən şəxslər olurdusa, belə hallarda hədis daif (ərəbcə-zəif) sayılırdı. Hədis ötürücülərinin sıra ardıcıllığında buraxılma olmayan hallarda belə hədis müttəsil (ərəbcə-arasıkəsilməz) adlanırdı. Əgər belə buraxılmalar olurdusa, onda hədis müntəqi (ərəbcə-arasıkəsilmiş) adlanırdı.

VII əsrin axırları-VIII əsrin əvvəllərində hədis uydurmaçılığının olduqca çoxalması ilə əlaqədar hədislərin sayı dəhşətli dərəcədə çoxalmışdı. “Əl-Müsnəd” hədis toplusunun müəllifi Əhməd ibn Hənbəl (v.e.855) öz dövründə rəvayət edilən 750000 hədisdən təxminən 30000 hədisi, “Əl-Cami əs-səhih” kitabının müəllifi Məhəmməd ibn İsmayıl əl-Buxari (v.e. 870) isə 650000 hədisdən yalnız 7400 səhih, yəni doğru olan hədisləri seçmişlər[2]. Hədis nəql edənlərin sayının çoxalması ricəl elminə, yəni hədis nəql edən şəxslər haqqında elmin inkişafına təkan vermişdir. Hədis nəql edənin adil və inanılmış olub-olmaması, onların kitabı olub-olmaması, necə şəxsiyyət olması, haralı olması, kimlərlə dost olması kimi məsələləri rical elmi tədqiq edir. Rical elmi barəsində kitab yazmış ilk şəxs İmam Əlinin (ə) katibi Übeydullah ibn Rafe olmuşdur[3]. Ravilər də siqə[*] və zəif ravilər olaraq təsnif edilirdilər. Siqə raviləri əsərində cəm halında toplayaraq məlumat verən müəlliflər içərisində Əbül-Həsən əl-İclinin (v.e.h. 261/875) tabiilər, onların ardıcılları və ardıcılları izləyən nəsildən siqə

---

[1] Əs-Səmani. Ədəb əl-İmla. Leyden, 1952, s.5-8
[2] Əliyev R.Y. Dinin əsasları. Bakı, “Əbilov, Zeynalov və oğulları”, 2001, s.67
[3] Höccətül-islam vəl müslimin Seyyid Səid Rəşadi. Hədis elmi. Bakı, 2003, s.31
[*] Siqə - biliyinə və danışdıqlarına etimad edilən şəxs, nüfuz sahibi.

hesab etdiyi ravilər haqqında məlumat toplayaraq əlifba sırası ilə düzdüyü əsəri, daha sonra Nurəddin əl-Heysəmi, İbn Həcər Əskəlani, əz-Zəhəbi və başqalarının əsərləri daha önəmli sayılır. Ədəbiyyatda "əd-Duafa" mövzusunda, yəni rəvayət etdikləri hədisləri zəif olan ravilərdən bəhs edən əsərlər də yer alırdı. Buxari, Nesai, İbn Həbban, İbn əl-Cavzi kimi alimlərin "əd-Duafa" "mövzusunda əsərləri yayılmağa başladı. Tədricən təkmilləşən hədis elmi sonralar o qədər inkişaf etmişdi ki, müxtəlif elm sahələrinin mütəxəssisləri belə bu işlə məşğul olmağı özlərinə borc bilirdilər. Əs-Səmaninin "əl-Ənsab" əsərində qeyd etdiyi dilçilərdən Əbu Zəkəriyyə Yəhya ibn Əli ibn Məhəmməd ibn Həsən ibn Bistam əl-Şeybani əl-Təbrizi, Əbu Şüca Faris ibn Hüseyn ibn Faris ibn Hüseyn ibn Qureyb ibn Bəşir Zəhli Sührəvərdi, xətib Əbu Məhəmməd Abdulla ibn Nəsr bin Əbdüləziz ibn Süveyd Mərəndi və Qazi Əbülhəsən Əli ibn Həsən ibn Əli əl-Məyanəci, ədəbiyyatçı ədiblərdən - Əbu Bəkr bin Yəhya bin Hilal Bərdəi və şeirlərindən bir neçəsini əs-Səmaninin köçürdüyü Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzi (gəncəli-N.Ə.), 15 fəqih, o cümlədən – İbrahim ibn Məhəmməd Cənzi, nişapurlu hafiz Əbu Bəkr Əhməd ibn Harun ibn Ruh əl-Bərdəi əl-Bərdici, Əbulqasim Mahmud ibn Yusif ibn Hüseyn əl-Bərzəndi əl-Tiflisi, Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əl-Xunliqi əl-Dərbəndi, "Kamal" ləqəbi ilə tanınan Əbulfütuh Nəsrulla ibn Mənsur ibn Səhl əl-Duveyni əl-Xeyri, əsilləri Zəncandan olan Əbu Həfs Ömər, Əbu Cəfər Məhəmməd ibn Mənsur Məhəmməd və Əbu Bəkr Əhməd ibn Zəncunə, Əbu Bəkr əl-Xətibin "Tarix"ində azərbaycanlı fəqih kimi qeyd etdiyi Əbu Abdulla Nafe ibn Əli ibn Yəhya əs-Sərvi, tədris rəhbəri Əbu Turab Əbdülbaqi ibn Yusif əl-Nərizi əl-Maraği, kitabxana mühafizi Əbülfəzl Xodadad ibn Asim ibn Bəkran ən-Nəşəvi və başqaları hədislər söyləmiş, onlara istinadən də hədislər nəql edilmişdir.

Hədis toplamaq üçün səfər edən din xadimlərinin gördükləri və söylədikləri məlumatlar tarixçilər və coğrafiyaşünaslar, həmçinin səyyahlar üçün informasiya mənbəyi rolunu oynamışdır.

Azərbaycanda da hədis elmi ilə məşğul olan alimlər fəaliyyət göstərirdi. Əs-Siləfi (h. 478/1085-576/1180) kimi sufi şeyxi və aliminin Azərbaycanı ziyarət etməsi burada fiqh və sufiliyin, eləcə də hədis elminin geniş yayıldığını göstərir. Əs-Siləfinin Azərbaycana səyahətinin əsas məqsədi hədis toplamaq, orada yaşayıb-yaradan hafizlər, ilahiyyatçı alimlər,

mühəddislər, qarelər və vaizlərlə görüşüb, onlar haqqında eşitdiklərini dəqiqləşdirmək, eləcə də bu alimlərin həyat və yaradıcılığı, inamı haqqında yeni məlumat əldə etmək olmuşdur.

İlahiyyat, hədis, fiqh, ədəb və s. sahələrdə çalışan alimlərimiz Xilafətin müxtəlif elmi mərkəzləri ilə bərabər, öz doğma şəhərlərində fəaliyyət göstərən elmi məclislərdə də fəal iştirak edirdilər. Bunlardan ilahiyyatçı alimləri ilə məşhur olan Zəncana - vətəninə dönmüş fəqih Əbu Bəkr Zəncunə əz-Zəncuni burada hafiz Əbu Abdulla Hüseyn ibn Məhəmməd əl-Fələkinin nəql etdiyi hədisləri dinləmişdir[1].

Azərbaycanlı alimlər başqalarından hədis dinləməklə yanaşı, onlara istinadən də hədis söyləmişlər. Yerli mühəddislər arasında siqə alimlərin fəaliyyət göstərməsi, onların hədis biliciləri arasında mötəbərliyindən xəbər verirdi. Ayrıca qeyd etmək lazımdır ki, əs-Səmani əsli Naxçıvandan olan Xodadad ibn Asim əl-Nəşəvini, Əbu Nəsr İbn Makula kimi görkəmli alimin şeyxi adlandırır[2]. Bu isə həmyerlimizin dövrünün görkəmli simalarından olduğuna dəlalət edir. Xodadad ibn Asimin öz həmyerlisi Əbu Hatəm Əbdürrəhman ibn Əli ibn Yəhya ibn Məhəmməd ibn Rəvas ən-Nəşəviyə istinadən hədis nəql etməsi, Nəşavədə o dövrün əsas elmlərindən sayılan təqlidçilik elminin inkişafından xəbər verir. Səlmasdan və Azərbaycanın digər bölgələrindən də Nəşavəyə elm dalınca səyahət edənlər olmuşdur. Qazı Əbu Tahir İbrahim əs-Səlmasi Əbu Hatəm ibn Rəvas ən-Nəşəvinının nəql etdiyi hədisləri Nəşavədə dinləmişdir[3]. Bu məlumat "Hədis evləri"nin Naxçıvanda da mövcud olduğunu, hədis öyrənmək üçün başqa şəhərlərin ravilərinin naxçıvanlı mühəddisləri ziyarət etdiklərini göstərir.

Azərbaycanın ilahiyyat elmləri ilə məşgul olan alimlərinin yaşayıb-yaratdıqları şəhərlər Xilafətin müxtəlif bölgələrindən gələn və dövrün tanınmış alimləri üçün həmişə açıq olmuşdur. Onlar müxtəlif hədis məclislərində yerli ziyalıların söylədikləri hədisləri dinləmək və öyrənmək üçün bura toplaşmış, mötəbər mənbələrə istinadən hədislər nəql etmiş, eləcə də ravi kimi öz ölkəsinin mühəddislərindən və ya təhsil aldıqları

[1] Əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, IV c., 1998, s.189.
[2] Əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.27.
[3] Əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.27.

şəhərlərdə topladıqları hədisləri istinadları ilə nəql etmiş, diskussiyalar aparmışlar.

Əs-Səmaninin saf etiqadı, bəlağətli dili, fəziləti ilə məşhur imam adlandırdığı Əbülqasim Həriz Əhməd ibn Həriz əs-Səlmasi öz vətəni Səlmasda dinləmə yolu ilə Mütəhhər ibn Məhəmməd ibn Məhəmməd əl-İsfahanidən hədislər öyrənmişdir. Səlmasın elmi məclis və tədris müəssisələrinə Azərbaycanın digər bölgələrindən gələnlərlə yanaşı Xilafətin müxtəlif bölgələrindən, o cümlədən Misir, İsfahan və s. yerlərdən gələn alimlər toplaşırdılar. Səlmasda müfid Əbülbərəkat Hibətulla ibn Mübarək əl-Səqti kimi tanınmış hədis bilicisi səlmaslı Əbülqasimə istinadən hədis nəql etmişdir[1].

Çoxlu hədisi yadda saxlamaq hafizənin itiliyinə dəlalət etdiyindən hədis raviləri bu keyfiyyəti yüksək qiymətləndirirdilər. Elmi mühazirələrə toplaşaran alimlər bəzən mühəddislər haqqında da fikir mübadiləsi aparırdılar. Belə söhbətlərdən birində İbn Makula demişdi: "Əbu Bəkr Xətibin belə dediyini eşitmişəm: "Mühəddislərdən birinin (adını dedi, amma yadımda qalmayıb) məclisində iştirak edirdik. Əbu Abdulla əl-Vənni[*] bizimlə birlikdə idi. Mühəddis hədisləri söylədi, sonra ayağa qalxdı. Əl-Vənni artıq onlarla hədisi yadında saxlamışdı". İbn Makula əlavə edərək demişdi: "O, Əbu Əli Səffar, Əbu Cəfər əl-Buxturi və müəllimlərinin nəql etdikləri hədisləri söyləmişdir. Əbu Həkim əl-Xəbəri və başqaları onun nəql etdiyi hədisləri dinləmişdir". Bununla əlaqədar əs-Səmani Xətib Təbrizinin də Əbu Abdulla əl-Vənniyə istinadən hədis söylədiyini yazır"[2].

Orta əsrlərin ərəbdilli əsərləri konkret şəxslərə isnadların bolluğu ilə fərqlənir. Hər hansı bir fakt, hadisə, mülahizə və ya rəyi daha da dəqiqləşdirərək əsaslandırmaq üçün şahid qismində həmin məlumatı verən şəxsin və ya eşidənin adı qeyd edilirdi. Ərəb mətnlərinin müəyyən növü hesab edilən hədislərə isnadların olması xüsusilə vacib sayılırdı.

---

[1] Əliyeva N.A. Əs-Səmaninin kitab əl-Ənsab əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi. B., Şərq-qərb, 2010, s.117

[*] Vənn Kuhistanın kəndlərindən biridir və "kitab əl-Fəraiz"in müəllifi əl-Vənni o kəndə mənsubdur (bax: Yaqut əl-Həməvi. Mucəm əl-buldən, V c., s.385).

[2] Əliyeva N.A. Əs-Səmaninin kitab əl-Ənsab əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi. B., Şərq-qərb, 2010, s.132.

Hədislərin yazılmasında mühüm olan spesifik xüsusiyyət hədisi söyləyərək bir-birinə ötürənlərin zəncirvari silsiləsinin verilməsidir. Əs-Səmani və İbn Makulanın əsərlərində bu silsilədə adı keçən şəxsiyyətlərin adlarının oxşar - fərqli cəhətlərini göstərməklə düzgün yazılmış adın tərkibindəki ərəb hərflərini sadalamaqla verilir. Sonra isə bu adı daşıyanların kimliyi, onların anadan olma və ölüm tarixi, vətənləri və təhsil aldıqları, fəaliyyət göstərdikləri yerlər və tutduqları mövqe açıqlanır.

Orta əsrlərin ərəb ədəbiyatında hədisləri zəif və ya düzgün sayılmayan mühəddislərdən də bəhs edir. Azərbaycanlı mühəddislərdən üç nəfərin nəql etdiyi hədislər bu qəbildəndir. İbn Xürrəm kimi tanınan Hüseyn ibn İdris əl-Ənsari əl-Hərəvi əl-Xürrəminin Xalid ibn Həyyac ibn Bistamdan eşitdiyi hədis[1] və İbn İsa əl-Xəzərinin Əffan ibn Müslimə istinadən söylədiyi hədis zəif hesab edilmişdir[2]. İbn Xürrəmi xatırlayan Əbu Məhəmməd ibn Əbu Hatəm ər-Razi demişdir: “Xalid ibn Həyyac ibn Bistamdan eşitdiyi hədisləri yazıb mənə göndərmişdi. Üçüncü hədisi Əli ibn Hüseyn ibn Cüneydə göndərdim. Mənə dedi: “And içirəm ki, bu, əsli olmayan hədisdir və məndəki hədislə üst-üstə düşmür[3].

Əl-Qəbəli kimi tanınan Əbu Bəkr Məhəmməd ibn Ömər ibn Həfs ibn Həkəm əs-Səğri Bağdadda olarkən başqalarına istinadən hədis danışmış, ona istinadən də hədis söyləmişlər. Əs-Səmani məşhur hədis bilicisi Əbülhəsən əd-Daraqutniyə istinadən demişdir: “Məhəmməd ibn Ömər əl-Qəbəli çox zəifdir” (burada söhbət söylənilən hədisin zəif hədis olmasından gedir-N.Ə).

Yaşadığı dövr etibarı ilə daha qədim olmasına görə seçilən azərbaycanlı mühəddislərdən biri də Ərminiyə əhlindən olan və Bəsrədə məskunlaşan abid Əbu Yaqub Fərqəd ibn Yaqub əs-Səbəxidir. O, taun xəstəliyi yayılmamışdan, yəni h. 131/748-ci ildən əvvəl vəfat etmişdir. O, Həsən və Səid ibn Cübeyrə istinadən hədis nəql edirdi. Ona istinadən iraqlılar hədis söyləmişdir.

İbn Makula daha bir məvla haqqında məlumat verir. İbn Quteybənin qeyd etdiyi məvlalar Cənubi azərbaycanlı idilər. İbn Makulanın barəsində yazdığı məvlalar isə Ərminiyə ərazisində yaşayırdılar. Bu, Əli ibn Əbu Talibin məvlası Qənbərin övladlarından olan şair Məhəmməd ibn Əli əl-

[1] Əs-Səmani. Kitab əl-Ənsab, Beyrut, II c., 1998, s.404-405.
[2] Yenə orada, s.414.
[3] Əliyeva N.A. Əs-Səmani...bir mənbə kimi, 2010, s.108-109.

Qənbəri idi. O, Xəlifə Mötəmidin dövründə (h. 256/870) vəzirlər və katibləri mədh edirdi. Xəlifə Müktəfinin dövrünədək (h. 289/902) yaşamışdır. Əs-Suli[1*] ona istinadən hədis nəql etmişdi[2].

*Fəqihlər.* Orta əsrlərdə hədis elmiylə bərabər Quranın təfsiri və fiqh[**] ən ləyaqətli elmlərdən sayılırdı. Peyğəmbərin (s.a.s.) ölümündən sonra hədislərlə bərabər ilk müsəlman qanunvericilərinin, o cümlədən birinci dörd xəlifənin fətvaları da yazıya alındı. Quran əlavələri (hədis və fətvalar) ilə birlikdə şəriət kitablarının əsasını təşkil edirdi. Müsəlman qanunlar toplusu nəinki dini və dövləti, eyni zamanda hər bir müsəlmanın şəxsi həyatını da müəyyən qaydaya tabe edirdi.

Artıq XI əsrdə ilahiyyat elmi müsəlman ideologiyasının aparıcı qüvvəsi olduğundan, bu dövrün ərəbdilli ədəbiyyatının nümayəndələri öz əsərlərində ilahiyyatçılara xüsusi örnək vermişlər. İlahiyyatçılar və o cümlədən fəqihlər, mədrəsələrdə çalışan müəllim və şagirdlər rəsmi ideologiya olan

[*] Əs-Suli nisbəsi ilə iki şəxsiyyət qeyd edilmişdir. Birincisi, Əbu Bəkr Məhəmməd ibn Sul əs-Sulidir (v.e. h. 335-336/946-947). Onun babası Sul Curcanın əmirlərindən olmuşdur. Ondan sonra oğulları sultanlığın işlərində mövqe sahibi olmuş, yazı işlərinə başçılıq etmişlər. Əbu Bəkr ədəbiyyat sahəsində qələm çalan alimlərdən biri olmuşdur. O, bir çoxlarından hədis nəql etdiyi kimi, ona istinadən də hədis nəql etmişlər. Əslən Xorasanlı və şeir divanı ilə məşhurlaşan Əbu İshaq İbrahim ibn Sul adlı ikinci əs-Suli (v.e. h. 243/857) də hədis nəql edənlərdən olmuşdur. Əs-Səmani Məhəmməd ibn Əli əl-Qənbəriyə həsr etdiyi məqalədə yazır ki, əs-Suli ona (yəni, Məhəmmədə-N.Ə.) istinadən hədis nəql etmişdir. Fikrimizcə, Əbu Bəkr Məhəmməd əs-Suli əl-Qənbəridən daha əvvəlki dövrdə yaşadığına görə, belə nəticəyə gəlmək olar ki, məhz bu Suli ona istinad etmişdir.

[2] Алиева Н.А. Ибн Макула о мухаддисах Азербайджана. Москва, «Восточная библиотека», 2016, стр.80-81.

[**] Qeyd: X əsrin əvvəlinə qədər fiqh üzrə artıq bir neçə əsas və əhəmiyyətli əhli –sünni məktəbi və istiqamətləri formalaşmışdı. Fiqh şiə-zeydilər, imami və ismaililərdə də formalaşmışdı. Hər istiqamətin (məzhəbin) əsasını təşkil edən əsərlər demək olar ki, eyni mövzular: ritual və dualar, vergi, sədəqə və ehsanlar, oruc, ziyarətlər, din uğrunda müharibə, məhkəmə və and, təqdir olunan və təqdir olunmayan əməllər, miras və s. nəzərdən keçirilirdi. Qanunvericilik müsəlman dövlətçiliynin funksiyası deyildi və dövlət qanunları toplusu da hələ yox idi. Ona görə də fiqh üzrə yazılan əsərlər xüsusi əhəmiyyət daşıyırdı. (bax: Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. Москва, Наука, 1985, стр.61).

islamın daşıyıcılarına çevrilirdilər[1]. Əs-Səmani "Kitab əl-Ənsab" əsərində 21 fəqih haqqında məlumat vermişdir. Bu fəqihlər X-XII əsrlərdə yaşayıb-yaratmışlar. O dövrlərdə Azərbaycanın mədəniyyət və elm mərkəzləri olan Bərdə, Gəncə, Ərdəbil, Zəncan, Dərbənd, Şirvan, Marağa, Nəşavə, Urmiya, Mərənd, Miyanə, Xoy, Sərav, Dəbil və s. şəhərlərdən çıxmış alimlərin də yaradıcılığı ümummüsəlman mənəvi irsinin bir hissəsinə çevrilirdi. Dövrün nəhəng elmi mərkəzləri olan Bağdad, Nişapur, Mərv, Dəməşq və İsgəndəriyyədə fiqh elminə yiyələnən bu zəka sahibləri əsasən şafii məzhəbindən sayılırdılar. Belə fəqihlərdən biri də Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh Əl-Bərdəi əl-Bərdicidir. Onun anadan olduğu yeri Bərdic hesab etmək olar. Bu böyük şəxsiyyətin yaşadığı dövrdə Bərdə Arranın paytaxtı kimi tanındığından həmyerlimiz şəhərin adını özünə ikinci nisbə qəbul etmişdir. Ümumiyyətlə, orta əsrlərdə hədis və sünnələrin dəqiqliyinə xüsusi diqqət verilirdi. Hər şeydən əvvəl məlumatın səhihliyi, kimdən iqtibas edilməsi ciddi nəzərə alınırdı. Ona görə də dövrün ziyalıları əsərlərində məlumat verdikləri mühəddislərin və ya hədis elmi ilə məşğul olmuş fəqih, ədib və s. şəxslərin isnadını, məlumatın toplandığı və həmin şəxsin təhsil aldığı müəllimlərin adlarını qeyd edirdilər. Şəxs adları yazılarkən onların nisbələrinin düzgün yazılması mühüm əhəmiyyət kəsb edirdi. Belə ki, yer adlarını bildirən sözlərin sait səsləri hərəkələnməkdən başqa, ayrıca sözlərlə də yazılırdı. Bu, yazının üzünü köçürən katiblərin səhvinin azalması, şəxsiyyətin ad göstəricisinin gələcək nəsillərə düzgün çatdırılması məqsədilə həyata keçiriliridi. Buna görə də Əhməd ibn Harunun adının bir hissəsi olan əl-Bərdicinin yazılışında olan sait səslər yazılandan sonra bu sözün hansı yer adından götürüldüyü açıqlanır. Əs-Səmani onu "nişapurlu hafiz" adlandırır və 10-a qədər alimin mühazirəsini dinlədiyini vurğulayır. Onların arasında Əbu Zür'ə əd-Diməşqi (v.e. 281/894), Nasr ibn Əli əl-Cəhdami kimi alimlər olmuşdur. Əl-Hakim əl-Nişapurinin məlumatına görə, o dövrdə nişapurlu şeyxlər, o cümlədən Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh əl-Bərdəi əl-Bərdici ondan hədis yazmışlar[2]. Şəxsiyyət məşhurlaşdıqca onun haqqında məlumat verən müəlliflərin də sayı çox olurdu. Əl-Bərdicinin nəql etdiyi hədisləri X əsrin

---

1 Мирзоева Э.Городское управление Азербайджана (XI-XIII века). Баку, «Нурлан», 2002, стр.51.

2 Əs-Səmani. Kitab əl-Ənsab. I c., s.328-329.

ilk illərində əl-Hakim əl-Nişapurinin "şeyximiz" adlandırdığı Hafiz Əbu Əlinin dinləməsi və alimlər arasında onun haqqında geniş bilginin olması, elm aləmində bu şəxsiyyətin böyük nüfuza malik olduğunu göstərir. "Əl-Ənsab" əsəri Əhməd ibn Harun haqqında məlumat vermiş müəllifləri qeyd edir və Əbül-Abbas əl-Valid ibn Bəkr əl-Əndəlusini misal gətirir. Hafiz Əbu Abdulla əl-Hüseyn ibn Abdulla ibn Bukeyr demişdir: "Öyrəndim ki, bəzi hafizlər Əhməd ibn Harunun bərdəli olmasını inkar edirlər, o bərdəli-bərdiclidir. Ondan hədis öyrənən bir çoxları, o cümlədən Əbu Şeyx əl-İsfahani onu bərdəli kimi qələmə verir"[1].

Şafii məzhəbindən olan ərdəbilli fəqih Əbülhüseyn Yaqub ibn Musa əl-Ərdəbili (v.e. h. 381/991-ci ildə) siqə, etibarlı, fəzilətli bir şəxs idi. O, Bağdadda Əhməd ibn Tahir ibn Nəcm əl-Məyanəciyə (Miyanəçi-N.Ə.) və Səid ibn Əmr əl-Bərzəiyə istinadən Əbu Zür'ə ər-Razidən suallar və şərhlər nəql etmişdir[2]. Bu suallar və şərhlər ər-Razinin yeganə əsəri olan "Kitabüd-duafa və-l kəzzəbun və-l mətrukun min əshab əl-hədis" kitabına əsaslanır. Əsər, əl-Bərdəinin hədis raviləri haqqında suallarına Əbu Zür'ə ər-Razi və Əbu Hatim ər-Razinin verdiyi cavablar əsasında meydana gəlmişdir. Əbülhüseyn əl-Ərdəbilidən Əbü Zür'əyə qədər olan istinad zəncirinin hər iki qolu azərbaycanlıdır. Bilavasitə Əbu Zür'əyə istinad edən isə Səid ibn Əmr əl-Bərdəidir. Buna görə də ədəbiyyatda "hədis raviləri haqqında əl-Bərdəinin verdiyi suallar"ı məhz Səid ibn Əmr əl-Bərdəiyə aid etmək olar. Dəməşqə ziyarətləri vaxtı əd-Diməşqinin (v.e. 281/894) məşhur mühəddis Əbu Zür'ə söylədiyi hədislərə heyran qalan həmyerliləri tərəfindən Ər-Raziyə (v.e.264/878) Əbu Zür'ə künyəsi verilmişdir. Daha sonra səksəndən çox şəxs bu nisbəni götürmüşdür. Buna baxmayaraq, Əbu Zür'ə deyiləndə, əvvəlcə Əbü Zür'ə ər-Razi yada düşür[3]. Fitri yaddaşa malik olan ər-Razi ilə uzun müddət hədis müzakirə edən Əhməd ibn Hənbəl səhabə və tabiilərin sözlərini də diqqətə alaraq 700000-ə qədər rəvayətdən 600000-ni Əbu Zür'ə ər-Razinin əzbərdən bildiyini demişdi. ər-Razinin günümüzə gəlib çatan yeganə əsəri "Kitabüd-duafa və-l kəzzəbun və-l mətrukun min əshab əl-hədis"dir. Ərdəbilli Əbülhüseyn Yaqub ibn Musa, ər-Razinin bu

[1] Əs-Səmani. Kitab əl-Ənsab. I c., s.327-328.
[2] Yenə orada, s.108-109.
[3] M.Yaşar Kandemir. Ebu Zur'a er-Razi. İslam Ansiklopedisi, 10-cu c., İstambul, 1997, s.274-275.

əsərindən suallar və şərhlər söyləmişdir. Əbu Zür'ə ilə bir dövrdə yaşamış və onunla elmi məclisdə olmuş Bərdicli Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh Əbu Zür'ənin nəql etdiyi hədisləri dinləmişdir[1].

Zəncanlı Əbu Bəkr Əhməd ibn Məhəmməd ibn Zəncunə (təxminən h. 490/1096-cı ildə vəfat edib) əməlisaleh və bilikli fəqih olmuşdur[2]. O, Əbuttayyibin tələbəsi olan safii fəqihi kimi bir çox mənbələrdə qeyd olunur. “Reyhan əl-həqaiq”in müəllifi Əbu Bəkr əş-Şirvani onunla Zəncanda görüşəndə, Əbu Bəkr əz-Zəncani şəhər məscidinin imamı vəzifəsini ifa edirdi[3]. Əbu Bəkr əz-Zəncaninin müəllimi olmuş Əbuttayyib Tahir İbn Abdulla ət-Təbəri (v.e. 450/1058) görkəmli hüquqşünas, şafii hüququnun nəzəriyyəçisi olmuşdur. Bu alimi səciyyələndirən İbn Xəllikan yazır ki, 102 il ömür sürmüş Əbuttayyibin nəinki əqli fəaliyyəti normal və intellekti saf olmuş, hətta ömrünün sonuna qədər bəzi fəqihlərin səhvlərini düzəldərək, məhkəmə işlərini həll etmişdir[4]. O, müxtəlif vaxtlarda Bağdadın Kərx məhəlləsində qazı və müfti vəzifələrində çalışmışdır[5]. Şeyxin “Tabəqat əş-şafiiyyə” əsəri əs-Sübkinin “Tabəqat”ının əsas mənbələrindən biridir. Onun polemik əsərlərinin Xilafətin müxtəlif bölgələrində, o cümlədən Qafqazda şafii hüququnun yayılmasında rolu olmuşdur[6]. Əbu Həfs Ömər əl-Zəncani də Əbüttayyibin Zəncandan olan tələbələrindən idi[7]. Fiqh elmini Bağdada gələrək Əbuttayyibdən öyrənən əl-Zəncani ilahiyyatı Əbu Səid əs-Səmaninin atası Əbu Cəfər əs-Səmanidən mənimsəmişdi[8].

---

[1] Əs-Səmani. Kitab əl-Ənsab. I c., s.328-329.
[2] ƏliyevaN.A. Əs-Səmani... 2010, s.115-116.
[3] Аликбеков А.К. Эпоха классического ислама на Кавказе//Культура Народов Востока. Москва, «Восточная литература», 2003, стр.388.
[4] İbn Xəlliqan.Vəfayət əl-Ə'yan, II c., Beyrut, 1998, s.420; Ibn Khallikan`s Bioqraphical Dictionary. Tr. from Arabic by M.G.de Slane. I-IV . P.,1842-1871, p.644-647.
[5] İbn əl-Cavzi. Əl-Muntəzəm li-ibni-l-Cavzi, Heydərəbad, 1938-1940, VIII c., s.198.
[6] Аликбеков А.К. Эпоха классического ислама на Кавказе//Культура Народов Востока. Москва, «Восточная литература», РАН, 2003, стр.372.
[7] Əs-Səmani. Kitab əl-Ənsab, III c., s.188.
[8] Əliyeva N.A. Əbdülkərim əs-Səmani və onun elmi irsi. AMEA-nın xəbərləri (tarix, fəlsəfə, hüquq) № 5, 6. B., “Elm”, 2005, s.237.

Marağadan olan fəzilətli, zahid, xoş rəftarlı, xoş xasiyyətli imam Əbu Turab Əbdülbaqi ibn Yusif ibn Əli ibn Saleh ibn Əbdülməlik ibn Harun əl-Marağı (h.401-492/1010-1098) də fiqhi Əbuttayyib ət-Təbəridən öyrənmişdi. O, bu elmi yaxşı mənimsəmiş və onunla məşhurlaşmışdı. Nişapura gələn əl-Marağı orada müfti vəzifəsində fəaliyyət göstərmişdir[1].

Zəmanəsinin məşhur və fəzilətli adamlarından biri sayılan Qazı Əbülhəsən Əli ibn Həsən ibn Əli əl-Məyanəci (Miyanəçi - Miyanə Təbriz yaxınlıında bir kənddir-N.Ə.) Bağdada gələrək fiqh elminə vaqif olmaq üçün qazı Əbuttayyib Təbəriyə üz tutmuşdur. Hərtərəfli biliyə malik olan fəqih dilçiliyi və ədəbiyyatı da mükəmməl bilirdi[2].

“Kamal” ləqəbi ilə tanınan Əbulfütuh Nəsrulla ibn Mənsur ibn Səhl əd-Duveyni əl-Xeyri fəqih, əməlisaleh və saf bir adam idi. Bağdadda Əbu Hamid əl-Qəzalidən fiqhi öyrənmişdi[3]. Görkəmli nəzəriyyəçi, fəqih Əbu Hamid Məhəmməd ibn Məhəmməd ət-Tusi (1058-1111) Tusda (Xorasanda) doğulmuş, Nişapurda əş’əri əl-Cuveyninin tələbəsi olmuşdur. Qədim yunan, eləcə də Şərq filosoflarının əsərlərini mükəmməl öyrənmiş Əbu Hamid əl-Qəzali məntiq əsasında islam teologiyasını işləyib hazırlamışdı. Əbülhəsən Əşəri məntiq müddəaları ilə sünnənin vəhdətini yaratdığı kimi, Əbu Hamid Qəzali də Əbülqasim əl-Quşeyridən sonra mötədil sufizm ilə ortodoksal islamı yaxınlaşdırmağa, barışdırmağa çalışmış və ilk dəfə buna məhz o, müvəffəq olmuşdur[4]. 1091-ci ildə Nizamülmülk onu özünün Bağdadda təsis etdiyi Nizamiyyə mədrəsəsinə fiqh üzrə müdərris təyin etmişdi. 1095-ci ildə Nizamülmülkün ismaililər tərəfindən öldürülməsindən sonra h. 488/1095-ci ildə zül-qadə ayında Əbu Hamid əl-Qəzali Nizamiyyədə tədrisi tərk edərək Bağdaddan Beytü-l-Müqəddəsə köçmüşdü. Bu zaman onun artıq zahidə çevrildiyi dövrdür. Tədrisdə Qəzalinin qardaşı onun adından çıxış etmişdi. Həcc ziyarətinə getmiş, üç il sonra vətəninə qayıtmışdır. “İhya” kitabını da bu müddətdə yazmışdı. Ribatda onun yanına camaat toplaşır, onu dinləyirdilər[5]. Təhsil almaq üçün

---

[1] Əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, 1998, V c., s.130.
[2] Yenə orada. s.321.
[3] Əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, 1998, II c., s.574.
[4] Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı,“ İrşad”, 1994, s.60.
[5] İbn Kəsir. Əl-Bidəyə va-n-nihəyə, “dər ət-Təqva”, əl-Mədinə əl-Münəvvəra, VI c., s.540.

Bağdada gedən Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əd-Dərbəndi də onun yanında fiqhi öyrənmişdir[1].

Azərbaycanlı fəqihlərin müəllimlərindən biri də Nizamiyyə mədrəsəsində dərs demiş *əl-Kiya əl-Hərrasi* olmuşdur. Sufi, şafii əşari alim əl-Kiya əl-Hərrasi kimi məşhur olan Şəms əl-İslam İmadəddin Əbülhəsən Əli ibn Məhəmməd ət-Təbəri (v.e. 504/1110)[2*]- Əbu Bəkr Məhəmməd ibn Üşeyr əş-Şirvaniyə fiqhi öyrətmiş, Nişapurdakı Nizamiyyə mədrəsəsinin ilk rəhbəri - məşhur imam əl-Cuveyninin (v.e. 478/1086) tələbəsi olmuşdur. əl-Kiya əl-Hərrasi Nizamiyyə mədrəsəsində əl-Qəzali ilə birlikdə fiqhdən dərs demişdir. Özünün "Təlxis" əsərində Təbəristan haqqında məlumat verən Əl-Bakuvi əl-Kiya əl-Hərrasini əsli oradan olan məşhur alimlərdən biri kimi təqdim edir. Əl-Bakuvi yazır ki, ləyaqətli insan olan alim-şeyx əl-Kiya əl-Hərrasi Əbu Hamid əl-Qəzalinin davamçısı olmuşdur[3].

Əbu Hamid əl-Qəzali, əl-Kiyə əl-Hərrasi, Əbuttayyib ət-Təbəri kimi nəhəng ilahiyyatçılarla bərabər Əbu İshaq əş-Şirazinin (1003-1088) də həmvətənlərimizin elmli-bilikli fəqih kimi yetişməsində böyük əməyi olmuşdur. Şafii məzhəbi məktəblərindən birinin əsasını qoyan əşari Camaləddin Əbu İshaq İbrahim ibn Əli ibn Yusif Firuzabadi əş-Şirazi (v.e. 476/1083) fiqhə aid bir çox əsərlərin müəllifidir. Baş vəzir Nizamülmülklə yaxın əlaqələri sayəsində Bağdadda böyük təsirə malik idi. Əşəriliyin[**] mərkəzi olan Bağdadın Nizamiyyə mədrəsəsində 17 ildən çox fiqh fənnini

---

[1] Əs-Səmani. Kitab əl-Ənsab,Beyrut, V c., 1998, s.19.

[*] Qeyd: Məşhur ilahiyyatçı şafii fəqih – bax: İbn əl-Əsir, IX c., s.340; İbn əl-Cavzi. Əl-Müntəzəm s.9, s.162 ; Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, «Ворошиловградская правда», 1975, стр.42.

[3] Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар. Переводы и комментарии З.М. Буниятова. Москва, «Наука», 1971, стр.76.

[**] Əşərilik. - X əsrin əvvəllərində yaranmış əşərilik dini-fəlsəfi təriqət kimi, islam dininin ehkamlarını "əqli dəlillərlə" sübut etməyə çalışır, peripatetiklərin "cisim forma və materiyanın vəhdətidir" konsepsiyasını inkar edirdi. Təriqətin əsasını qoymuş əl-Əşəri (v.e. 935), əl-Bakilləni (v.e. 1013), İbn Furak (v.e. 1015), Əbu İshaq əl-İsfaraini ilə birlikdə əl-Cuveyni (v.e. 1085) də əşəriliyin görkəmli nümayəndələrindən sayılırdı (Ислам. Энциклопедический словарь. Москва, 1981, стр.32; Azərbaycan Sovet Ensiklopediyası. IV c. Bakı, 1980, s.261).

tədris etmişdir. Əbu İshaq Nizamiyyə mədrəsəsinin ilk rəhbəri kimi uzun müddət ona başçılıq etmişdir. Bağdada gəlmiş azərbaycanlılardan Əbülqasim Mahmud Yusifi ibn Hüseyn əl-Bərzəndi ət-Tiflisi, Əbulvəfa Xəlil ibn Möhsün ibn Məhəmməd əl-Mərəndi (v.e.Bağdadda h.512/1118-ci ildə), urmiyalılardan Əbülqənaim Qanim ibn Hüseyn və Əbülfəzl Məhəmməd ibn Ömərə fiqhi o öyrətmişdi[1]. Bağdadda qazı Əbüttayyib ət-Təbəridən fiqhi mənimsəmiş Əbülhəsən Əli ibn Həsən ibn Əli əl-Məyanəci ilə fiqhi birgə tədris etmişlər. Əs-Səmani onların münasibəti üçün səciyyəvi olan maraqlı bir fakt haqqında belə yazır: "Şeyx Əbu İshaq əş-Şirazinin qazı əl-Məyanəciyə göndərdiyi bir məktub gördüm. Sərlövhəsində yazılmışdı: "Fikirlərinə şərik olan, onunla fəxr edən və ona duaçı olan İbrahim ibn Əli əl-Firuzabadi"[2].

Əs-Səmani azərbaycanlılara fiqhi öyrədən daha bir neçə müəllimin adını çəkir. Bunlar Harun ibn Ravh əl-Bərdəi əl-Bərdiciyə fiqhi öyrətmiş Məhəmməd ibn Yəhya əz-Zəhli[3] və Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əl-Xunaliqi əd-Dərbəndiyə Mərvdə fiqhə aid bilik vermiş imam Müvəffəq ibn Əbdülkərim əl-Hərəvi və sufi şeyxi Əbünnəcib Əbülqahir ibn Abdulla əs-Suhrəvərdiyə bir müddət Nizamiyyədə dərs demiş Əsəd ibn Əbu Nəsr əl-Yəmənidir[4].

Bəzən bir bölgədən onlarla mühəddis çıxırdı. Sührəvərddən[*] olan bir neçə mühəddis arasında Əbu Şücə Faris ibn Hüseyn ibn Faris bin Hüseyn ibn Qureyb ibn Bəşir əz-Zəhli əs-Sührəvərdi (v.e. 407/1016) şeyx, siqə, düzgün hədis söyləyən ravi olmaqla bərabər, həm də dili və ədəbiyyatı yaxşı bilməsi, şeir deməsi ilə tanınmışdı. Əbu Əli Həsən ibn Əhməd ibn Şadan Bəzzaz, vaiz Əbülqasim Əbdülməlik ibn Məhəmməd ibn Bəşran və başqalarının nəql etdikləri hədislərlə bərabər əs-Sührəvərdi dinləmə üsulu ilə bir sıra ədiblərin söylədiklərini də öyrənmişdi. Əs-Səmani Əbu Şücəyə əsaslanaraq şəxsən onun özünə hədis söyləmiş altı nəfər ravinin

---

1 Əliyeva N.A. Əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə dai9r mənbə kimi. B., "Qərq-Qərb", 2010, s.56.

2 Yenə orada, s.56.

3 Səmani. Kitab əl-Ənsab. Beyrut, I c., 1998, s.328-329.

4 Əs-Səmani Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.325-326.

* Sührəvərd Zəncan yaxınlığında bir qəsəbədir (Bax: Əliyeva N.A. Əs-Səmani.... 2010, s.119).

adını çəkir. Bu isə onu göstərir ki, ədib əs-Sührəverdi hər iki elm sahəsini özündə birləşdirə bilmişdi[1].

*Dilçi, ədib və şairlər.* Xilafət tərkibində fəliyyət göstərmiş Azərbaycan ziyalıları elm və təsilin inkişafında böyük rol oynamışlar. Ərəbdilli müəlliflərin əsərlərində məlumat verilən ziyalılar dövrün xüsusiyyətinə uyğun olaraq ya sırf hədis biliciləri, ya da elmin başqa sahələri üzrə mütəxəssis olmaqla bərabər həm də hədis elmi ilə məşğul olanlar idi. Mühəddislərin nisbələrini dəqiqləşdirməklə onları doğulduqları, yaşayıb fəaliyyət göstərdikləri şəhərlərlə vəhdətdə göstərmək fikri daha çox bioqrafik mənbələrin müəlliflərini düşündürürdü. Adətən, bu ziyalıların müəllimləri, həmçinin hədisdən başqa digər elm sahəsi ilə məşğul olmaları barədə məlumatlar da mövzunun əhatə dairəsinə daxil olurdu. Ona görə də Yaqut əl-Həməvi və əs-Səmaninin Xətib ət-Təbrizi barədə məlumatlarını müqayisə etsək, görərik ki, əl-Həməvi Xətib ət-Təbrizinin bir dilçi kimi fəaliyyətini daha geniş işıqlandırmış, əs-Səmani isə onun dilçiliklə bağlı elmi bilikləri barədə daha qısa məlumat vermiş, əsas diqqəti isə onun hədis elmi ilə əlaqəsinə yönəltmişdir. “Kitab əl-Ənsab” əsərinə 6 nəfər Azərbaycan dilçisi haqqında məlumat daxil edilmişdir. Əs-Səmani məlumat verdiyi dilçinin ədəbiyyatı və qrammatikanı bilmə səviyyəsini göstərdikdən sonra, onların müəllimlərinin kimliyini də aydınlaşdırır. Məlum olur ki, ədəbiyyatı və qrammatikanı mükəmməl bilən böyük dilçi Əbu Zəkəriyyə Yəhya ibn Əli ibn Məhəmməd ibn Həsən ibn Bistam əş-Şeybani ət-Təbrizinin (v.e.h. 502/1108-ci ildə Bağdadda) müəllimləri müqri Əbüləla Əhməd ibn Abdulla ibn Süleyman və digər şamlılar olmuşdur[2]. Göründüyü kimi, əs-Səmani məşhur dilçi, şair Əbül Əla Məərrini də müqri kimi təqdim edir. Təbrizdən Bağdada gələrək ərəb dilindən dərs deyən ərəb müəllifləri Xətib Təbrizini böyük dilçi alim kimi təqdim edirlər. Bu böyük dilçidən ərəb dilini öyrənənlər arasdında Şeyx əs-Siləfini də göstərilir[3].

XI əsr müəllifi, əslən Azərbaycandan olan Masud ibn Namdarın əsərinin tədqiqatçısı V.M. Beylis Masudun dili ilə ədib və alim sözlərinin məna daşıyıcılarını fərqləndirərək yazır: Məsud sözün əsl mənasında ədib - yəni ədəbiyyat yönündə savad almış ziyalı idi, orta əsrlər elmi sahəsində

[1] Əs-Səmani, Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.366.
[2] Əs-Səmani, Kitab əl-Ənsab. Beyrut, I c., s.469.
[3] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan. Bakı, 2016, s.25.

mütəxəssis - alim deyildı[1].

XII əsr ərəbdilli ədiblərdən biri də əslən Gəncədən olan Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzi (v.e.h. 550/1155-ci ildə Mərvdə) olmuşdur. Əs-Səmani bu ədibi fəzilət sahibi, dindar, xoş rəftarlı bir şəxsiyyət kimi oxucularına təqdim edir. Bağdadda qaldığı müddətdə böyük alimlərlə dostlaşaraq onlardan elm öyrənmişdir. Lakin əs-Səmani və Yaqut əl-Həməvi bu alimlərdən yalnız Əbulmüzəffər əl-Əbivərdinin adını çəkirlər[2]. Əbu Həfs Ömər ədəb elminin sirlərini dərindən mənimsəmək üçün Bağdaddan sonra Həmədanda da bu alimin yanında təhsilini davam etdirmişdir. Sərxəsdə Əbu Həfslə görüşən əs-Səmani onun özündən eşitdiyi şeirlərindən parçalar yazmışdır.Yaqut əl-Həməviyə görə, Əbu Həfs Bağdadda təhsil aldıqdan sonra vətəni Gəncəyə dönmüş, sonra isə ikinci dəfə Bağdada qayıtmışdır. Mərvdə onunla görüşən Yaqut əl-Həməvi "Kitab əl-Ənsab"da olmayan bəzi məlumatı özünün "Mucəm əl-üdəba" əsərində açıqlayır. Onun ölüm tarixini göstərən əs-Səmaninin məlumatına əlavə olaraq, Yaqut əl-Həməvi onun yetmiş yaşında vəfat etməsini yazır. Bundan başqa əl-Cənzi haqqında aşağıdakı ifadələr də ona mənsubdur: "...Ömər əl-Cənzi iti ağlı ilə seçilir... Allah qarşısında çox mömin idi...bir çox əsərlər yazmış, özünün şərhini diqtə etməyə başlamışdı, əgər bunu tamamlasaydı, misli olmazdı... o, məni tərənnüm etmişdi" və s.[3]. Gəncəli Ömər Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün (v.e.1106-cı ildə) uşaqlarına dərs demişdi[4]. L.Orucova və Z.Şıxəlibəyli yazır ki, bir çoxları güman edirlər ki, Ömər ibn Osman əl-Cənzi Nizami Gəncəvinin dayısı olmuşdur[5].

Hərtərəfli biliyə malik ziyalılarımız öyrəndikləri elmin hər sahəsində uğur qazana bilirdilər. Onların arasında Həkim ibn İbrahim ibn Həkim əl-Lakzi

---

1 Бейлис В. Автореферат...., стр.16.

2 Əs-Səmani, Kitab əl-Ənsab, Beyrut, IIIc., 1998, s.127; Yaqut əl-Həməvi. İrşad. IV c., s.49.

3 Yaqut əl-Həməvi. İrşad. IV c., s.49; Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu", 1999.

4 Лембтон К.С. Аспекты расселения селъджуков-огузов в Иране/Пер.с анг. В.В. Наумкина//Мусулъманский Мир. 950-1150. Москва, «Наука», 1981, стр.121; Məmmədov Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, "Azərbaycan", 1986, s.20.

5 Оруджева Л.М., Шихалибейли З.Е. Развитие арабской филологии в Азербайджане. Баку, «Нурлан», 2004, стр.25.

əd-Dərbəndinin də adı çəkilir. Əbu Hamid əl-Qəzali və Müvəffəq əl-Hərəvi kimi görkəmli alimlərdən fiqh elminin sirlərinə vaqif olan əd-Dərbəndini şeir aləmi də dərindən maraqlandırmışdır. O, qədim şeirləri əzbər bilirdi[1].

Fəzilətli ədib, xətib, dilçilikdə, nəsr və nəzm yazmaqda məharət sahibi olan Əbu Məhəmməd Abdulla ibn Nəsr ibn Əbdüləziz ibn Süveyd əl-Mərəndi (v.e.h. 545/1150-ci ildə) həm də gözəl xətti ilə seçilirdi. Mərənddən olan ziyalımızın bu bacarıqlarını ləyaqətlə qiymətləndirən əs-Səmani onu əsərinə daxil etmişdir. Əs-Səmani yazır ki, o, bir müddət Bağdadda mədrəsədə qalmışdır[2]. Lakin müəllifin bu məlumatından onun mədrəsədə hansı vəzifəni tutduğu aydın deyil. Onun 15 il Mərvdə yaşadığı dövrdə nə ilə məşğul olması haqqında da bilgi əldə edə bilmirik. Maraqlıdır ki, əl-Mərəndi əs-Səmaninin əsərində adı çəkilən yeganə filoloqdur ki, onun hədis elmi ilə məşğul olması haqqında heç bir məlumat verilmir.

Hərtərəfli biliyə malik miyanəli qazı Əbülhəsən Əli ibn Həsən ibn Əliyə gəlincə, o, İraqda məşhur alim və fəzilətli adamlardan biri sayılırdı. Şeyx Əbu İshaq əş-Şirazi ilə birgə tədrislə məşğul olmuş miyanəli qazı Əbülhəsən dilçiliyi və ədəbiyyatı da mükəmməl bilirdi. Həmədanda Əbülfütuh Məhəmməd ibn Məhəmməd ibn Əli ət-Tai Əbülhəsənin oğlu atasının gözəl şeirindən bir parçanı əs-Səmaniyə oxumuşdu. Lirik təbə malik Əbülhəsən şeirində Həmədandakı Mavəşanı – dağın ətəyində yerləşən, ağacları, yaşıllığı, şirin suyu və kölgəlikləri bol olan bir yeri tərifləyir[3].

Azərbaycanlılar arasında sayılan, görkəmli alimlərdən biri də əvvəl Bağdadda yaşayan, h. 350/961-ci ildə isə Səmərqəndə əs-Səmaninin yanına gələn fəzilət sahibi Əbu Bəkr ibn Yəhya ibn Hilal əl-Bərdəi olmuşdur. Ədib və şair Əbu Bəkr ibn Yəhya mühəddislik fəaliyyəti ilə də məşğul olmuşdur[4].

Azərbaycanda olan iqtisadi tərəqqi özünü mədəni mühitdə də tapmışdı. Saraylarda cəm olunmuş, bütün Yaxın Şərqdə şöhrət tapmış, Azərbaycanda şeir məktəbini yaratmış görkəmli şairlər, "məlik əş-şüara" - "şairlər şahı" adlandırılan Əbül-Üla Gəncəvi, şair Fələki Şirvani[5], Xaqani, Mücirəddin

---

1 Əliyeva N.A. Əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbı kimi. B„"Şərq-Qərb", 2010, s.123.

2 Yenə orada, s.64, 126 .

3 Əs-Səmani, Kitab əl-Ənsab. Beyrut, V c., 1998, s.321-322.

4 Əs-Səmani, Kitab əl-Ənsab.Beyrut, I c.,1998, s.327-328.

5 Qeyd: Cəlaləddin Məhəmməd Fələki Şirvani (v.e. 1181).

Beyləqani[1] III Mənüçöhrün sarayında cəm olmuşdu[2]. Mədhiyyəçi Cəlaləddin Məhəmməd Fələki Şirvani (v.e.1181) sarayda "şairlərin şahı" titulunu qazanmışdı. "Fələki" ləqəbini isə görünür münəccimliklə məşğul olduğuna görə almışdı. Fələki vəfat edərkən Xaqani ona uzun bir mərsiyyə də yazmışdı[3].

Azərbaycanlı şairlərdən Xaqani Şirvani əslən şirvanlıdır. Bir çox Xilafət ölkələrini ziyarət etmiş şairə ərəb ədəbiyyatı nümayəndələri yüksək qiymət vermişlər. Zəkəriyyə əl-Qəzviniyə görə, Xaqani xüsusi nitq növü fikirləşib tapmışdı ki, ondan da özü istifadə edirdi[4].

Zəkəriyyə əl-Qəzvininin təqdir etdiyi şəxsiyyətlərdən biri də "Gəncədən öz nisbəsini götürmüş mufliq(مفلق)[*] şair, arif və müdrik insan Əbu Məhəmməd əl-Kəncidir[**]. Müəllifə görə, onun yaxşı bir divanı vardır. Divandakı şeirlərin əksəriyyətində ilahiyyat, moizələr, ariflərin işarələri və metonimiyalar vardır. "Xosrov və Şirin", "Leyli və Məcnun", "Sirlər xəzinəsi" və "Həft peykər" (Yeddi gözəl-N.Ə.) dastanı da onundur. Fəxri əl-Curcani Səlcuq Sultanı Toğrul üçün "Vis və Ramin" dastanını yazanda, doğrudan da bu çox gözəl idi. Onun şeiri axan su kimidir. Sanki öz başına və qeyri-ixtiyarı danışır. Nizami də "Xosrov və Şirin" dastanını bu minvalla yazmaq istəyirdi. Buradakı şeirlərin çoxu ilahiyyat, hikmətlər və ibrətamiz sözlər, moizə və təmsil və yaxşı hekayələrdən ibarətdir"[5].

---

1 Mücirəddin əl-Beyləqani haqqında bax: Mücirəddin Beyləqaninin Cahan Pəhləvanın adına yazdığı qəsidədə iki tarixi hadisə haqqında//Az.SSR EA Tarix İnstitutu və ADU-nun Tarix Fakültəsinin gənc alimlərinin ÜİLGİ-nin yaradılmasının 65-illiyinə həsr olunmuş elmi konfransın tezisləri. Bakı,1983, s.60.

2 Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку, Изд-во Аз ФАН, 1940, стр.27-70.

3 Fələki Şirşaninin bioqrafiyası haqqında bax: К.Залеманн. Четверостишие Хакани. Спб. 1875, стр.15; Крымский А.Е. Персидская литература периода междоусобного разложения сельджукского царства (XII-XIII в.), стр.147.

4 Буниятов Дж. З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанской ССР. Серия истории, философии, права. Баку, 1976, № 3, стр.55.

* Mufliq- seçmə şairlərə verilən epitet.

** Qeyd: Ərəb dilində "g" hərfi olmadığı üçün ərəb müəllifləri adətən bu hərfi "c"hərfi ilə əvəz etmişlər. Məs., Gəncə Cənzə kimi təqdim olunurdu. Zəkəriyyə Qəzvini isə Gəncəvi sözünü Kəncəvi kimi vermişdir.

5 Zəkəriyyə əl-Qəzvini. Əsəru-l biləd və əxbəru-l `ibəd.. Beyrut, 1960.

*Sufilər.* Son dərəcə mürəkkəb və çoxcəhətli olan sufilik Müsəlman Şərqində ictimai-siyasi hadisələrin kəskinləşdiyi şəraitdə yeni bir cərəyan kimi meydana çıxmışdı. Sufiliyin düşüncə tərzi kimi formalaşdığı mərhələdən başlayaraq, müsəlman mədəniyyətini təmsil edən şair, alim və mütəfəkkirlərin bir çoxu bu və ya digər təriqətə mənsub olmuşlar. Təriqətlər, ali mistik hərəkatın dərin intellektualizmi ilə xalq inancları poeziyası arasında körpü rolunu oynamışlar[1].

İslam dini zəminində formalaşmış sufilik - mistik baxışlar sistemi kimi, müsəlman cəmiyyətinin ən geniş təbəqələrini, yəni bu dini təlimə münasibət məsələsində fikir ayrılığı olan müxtəlif dini-hüquqi məktəblərin nümayəndələrini də əhatə edirdi. VIII əsrdə İraqda və sonra Suriyada yaranmış sufilik, IX əsrdə Məğrib ölkələri və İspaniyada, IX-X əsrlərdə İran, Azərbaycan və Mərkəzi Asiyada, XIII-XV əsrlərdə isə Hindistan, Malakka və Sumatrada cərəyan və təlim kimi, bu ölkələrin mənəvi həyatına böyük təsir göstərmişdir.

Sufilik yüzilliklər ərzində Şərq mədəniyyətinə əsaslı təsir etmiş, Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının həyatında böyük rol oynamışdır. Bunu Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda qorunub saxlanılan təsəvvüfə aid bir çox əlyazmaları da təsdiq edir. Sufi şeyxlərin İslama aid əsərlərinin yandırıldığı sovet ateizm rejiminin kəşməkeşlərinə baxmayaraq, bu əsərlərin dövrümüzə gəlib çıxması sufiliyin Azərbaycan gerçəkliyində nüfuzlu dini cərəyan olmasından xəbər verir. Bu əlyazmalar arasında müxtəlif sufi təriqətləri, xüsusilə Xəlvəti və Nəqşibəndi təriqətləri haqqında əlyazmalar daha çoxdur. Xəlvətiyyə Sufi cəmiyyəti Azərbaycanda XIV- XV əsrlərdə, Nəqşibəndiyyə Sufi cəmiyyəti isə XVIII - XIX əsrlərdə fəaliyyət göstərmişdi[2]. Onların arasında IX - XIII əsrlərdə yaşayıb-yaratmış sufi alimlərin əsərlərininin olması, həmin əlyazma müəlliflərinə bu diyarda yüksək qiymət verilməsini bir daha təsdiq edir. Sufi aləmində dəsti-xətti olan Əbdülkərim ibn Həvazi ibn Əbdülməlik ibn Talha ibn Məhəmməd əl-Quşeyrinin (v.e.465/1072-73) "Ədəbu-s- Sufiyyə", "Ədəbu-s-Salikin" və "Risələtun fi-t-Təsəvvüf" kimi

---

[1] Тименгэм Дж.С. Суфийские ордены в Исламе. Москва, «Наука», 1989; Нематзаде С.А. Мевлевия и нематуллахийя в религиозной и общественной жизни мусульманских народов. Могилев, 2015, стр.75.

[2] Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том II., Баку, «Элм», 2006, стр.31-51.

əlyazmaların qorunub saxlanaraq Azərbaycan Əlyazmalar İnstitutuna təhvil verilməsi bir daha göstərir ki, bu sufi şeyxin təmasda olduğu adamlar, eləcə də onun ardıcılları Azərbaycanda yaşayıb fəaliyyət göstərmişlər. Görkəmli sufilərdən Əbül-Leys əs-Səmərqəndinin (v.e. 373/983) "Risələtun fi-z-Zikr" və "Tənbihu-l-Ğafilin" adlı əsərlərinin əlyazmaları da İnstitutun fondunda qorunub saxlanılır. XI əsrin məşhur sufilərindən Məhəmməd ibn əl-Hüseyn əs-Suləminin (v.e. 412/1022) "Ravzatu-l-Müridin" əsəri də həmin əlyazmalar arasındadır.

Azərbaycanda mənbələrin təsdiq etdiyi çoxsaylı xanəgahların olması da sufizmin bu diyarda yayılmasına sübutdur. Həmin xanəgahlardan bir neçəsi, o cümlədən Şamaxının indiki Göylər kəndində Pir Mərdəkan və Pirsaatçay üzərində Pir-Hüseyn xanəgahı (XII-XIII əsrlər), İsmayıllı rayonundakı Qız qalası xanəgahı (XII əsr), Bəndovan burnu terrasının aşağı hissəsində kiçik kurqan şəklində "Pir Bəndovan" məbədləri hal-hazırda qalmışdır[1].

İbn Cubeyr "Şərqin cənnəti" və "İslam ölkələrinin üzüyü" adlandırdığı Dəməşq şəhərini tərif edərkən Dəməşq Universitetini şəhərin tacı hesab etmişdi. Bu, Xilafət dövründə təhsilə və tədris ocağına verilən qiymət idi. Əslən Bakıdan olan Əbdürrəşid Bakuvı (XIV əsr) Naxçıvanı Azərbaycanın yaxşı şəhərlərindən hesab edərək təsvirini verəndən sonra, mədrəsə ilə birlikdə xanəgahların da Naxçıvanı şərəfləndirdiyini yazır[2]. Bunu görkəmli şərqşünas Ziya Bünyadov da təsdiq edir. O, Şərqin iri və məşhur xanəgahları sırasında Naxçıvan xanəgahlarının da xüsusi yeri olduğunu qeyd edir və göstərir ki, bu xanəgahlar Müsəman Şərqinin ən məşhur xanəgahları ilə bir sırada durur[3].

Azərbaycanda izi qalmayan, lakin ərəb ədəbiyyatında haqqında məlumat verilən bir neçə sufi xanəgahının adı çəkilir. Bunlardan Naxçıvan ərazisindəki xanəgah haqqında XIII əsrin anonim "Əcaib əd-Dünya"

---

[1] Квачидзе В.А. Археологические находки на Каспийском побережье. Памятники материальной культуры Азербайджана, вып. 9, Баку, «Внешторгиздат», 1986, стр.32.

[2] Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар/пер. и комм. З.М. Буниятова. Москва, «Наука», 1971, стр.99.

[3] Буниятов З.М. Попечительство Мамлюкских султанов Эгипта над суфийскими обителями/Духовенство и политическая жизнь на Ближнем и Среднем Востоке в период феодализма. Москва, «Наука», 1985, стр.67

əsərində[1] və Əbu ər-Rəşid əl-Bakuvinin "Kitab təlxis əl-əsər və əcaib əl-malik əl-qahhar"[2] əsərində məlumat verilir. XIV əsrdə əslən Bakıdan olan orta əsr coğrafiyaşünas-səyyahı Əbu ər-Rəşid əl-Bakuvi Naxçıvanı Azərbaycanın yaxşı şəhərlərindən biri hesab edir və bu diyarın təsvirini verir. O, mədrəsələr və imarətlərilə bərabər, xanəgahları da şəhərin şərəfləndirdiyi tikililər sırasına daxıl edir[3]. Marağadakı sufi xanəgahı isə Zəkəriyyə əl-Qəzvini[4] və Yaqut əl-Həməvinin əsərində[5] qeyd edilmişdir.

Tarixi Azərbaycan ərazisində yerli ənənələrin müxtəlifliyi, ideoloji cəhətdən dini proseslərin fərqli xüsusiyyətlərinin yaranmasına yol açırdı. Şirvanşah Fariburz ibn Salların (təqr. 505/1111) xidmətində olan Məsud ibn Namdarın sənədləri hələ təkcə bir vilayət - şəhərin ruhani və milli qruplarının mənafeləri arasındakı ziddiyyəti göstərir. Bu qruplar mömin müsəlmanlar, kafirlər (ola bilsin ki, ismaililər nəzərdə tutulmuşdur), xristianlar və yəhudilər idi[6]. İslam yaranandan iki əsrdən sonra meydana çıxan sufilik (təsəvvüf), əş'arilik, eləcə də şiəlik hərəkatı Buveyhilərin hakimiyyəti dövründə (X əsrin ortaları-XI əsr) güclənməyə başlamışdır. Sufi sözü "suf" (ərəb dilində "kobud yun paltar") sözündən götürülmüşdür. Sufi təriqətinin ilk nümayəndələri olan müsəlman zahidlər kobud yun paltar geydikləri üçün onları sufi adlandırmışlar. Y.E. Bertelsə görə, sufilik hərəkatı fars zəminində inkişaf edərək şaxələnmişdi[7]. "Mənəm haqq" (mənəm Allah) elan edən ilk sufi Mənsur Həllac (858-921) bu sözlərinə görə, bidətçilikdə ittiham olunaraq edam edilmişdi. Mənsur Həllacın adının Azərbaycanla bağlı olmasına dair bəzi mülahizələr mövcuddur. Nizamülmülkün "Siyasətnamə" əsərində göstərildiyinə görə, Azərbaycan və Təbəristanda qərmətilik yayılmışdı. Bunu nəzərə alan B.N. Zaxoder, İbn ən-Nədimin "Fihrist"-inə əsaslanaraq yazir ki, Rey, Azərbaycan və

---

1 Миклухо-Маклай Н.Д. Географическое сочинение XIII в.//Ученые записки ИВАН СССР, т.IX, Москва-Ленинград, 1954, стр.208.

2 Ал-Бакуви. Талхис..., 1971, стр.9.

3 Yenə orada, s.99.

4 Zəkəriyyə Qəzvini. Əsər-u-l biləd va əxbər-u-l`ibəd, Beyrut, 1960, s.262; Zəkəriyyə Haşim Zəkəriyyə. Fadlu-l-hadarati-l-isləmiyyə..., s.19.

5 Yaqut əl-Həməvi. Mu´cəm əl-Buldən. Beyrut,s. 4-6.

6 Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981, s.157.

7 Бертельс Е.Э. Очерк истории персидской литературы. Ленинград., б/н. изд-ва, 1928, стр.50.

Təbəristanın birinci canişini Qərmətilər hərəkatının banisi Abdulla ibn Məymun adında Həllac əl-Qutn ləqəbini daşıyan Kardah adlı şəxsiyyət Bağdadda 921-ci ildə edam edilən kafir Mənsur Həllacın özüdür[1] .

Azərbaycandan Bagdada gedən şirvanlı alimin Mənsur Həllacdan xəbər verməsi və əs-Siləfinin Şirvanda olarkən şirvanlı vaizlə görüşündə bu barədə soruşması belə deməyə əsas verir ki, əl-Hüseyn ibn Mənsur əl-Həllac haqqında xəbərlər Bağdad alimlərini və şeyx əs-Siləfini son dərəcə maraqlandırmışdır. B.Zaxoderin yazdığı kimi, "Həllac əl-Qutnun elə Həllac Mənsurun özü olması" fikrini tam qəbul edə bilməsək də, əl-Hüseyn ibn Mənsur əl-Həllacın Azərbaycanla bağlılığı barədə fikir söyləmək mümkündür. Mənsur Həllacın obrazı sonrakı əsrlərdə də Şirvanda geniş yayılmışdı. Bu obraz XIV əsrdə Nəsimi yaradıcılığında xüsusi yer tutmuşdur və Nəsimi üçün igidlik, öz əqidəsinə sadiqlik qabiliyyətinin simvoludur[2].

Təsəvvüf tarixinə dair mənbələrdə sufilik ideyalarının Azərbaycan ərazisində islamın ilk dövrlərindən yayıldığı haqqında məlumatlara təsadüf edilir. Şeybani qəbiləsinə mənsub, əslən ərəb olan məşhur islam alimi, fəqih Əhməd ibn Hənbəl əş-Şeybani əl-Mərvəziyə (780-855) aid edilən, lakin tələbələri tərəfindən yazıldığı ehtimal olunan "Kitabuz-Zöhd" adlı əsərdə qeyd edilir ki, islam fəthlərinin ilk çağlarında sufi ideallarından sayılan Veysəl Qarani adlı nüfuzlu şəxs Azərbaycanda məskunlaşmış və burada vəfat etmişdir[3]. Həmin şəxsin müasir Ağdaş rayonunun ərazisində dəfn olunduğu güman olunur və onun adına orada bir türbə var. Hal-hazırda da Ağdaş rayonu sakinləri and işərkən "Veyis baba haqqı" kəlamını işlədirlər.

VIII əsrdə sufiliyin zahidi-mistik cərəyanı kimi yaranmış təsəvvüf, artıq XI-XII əsrlərdə fəlsəfi təlim kimi formalaşmışdı. İslamın yayıldığı ilk əsrlərdə bu cərəyanın tərəfdarlarını "zahid" ("asket"), "abid" adlandırırdılar. Yaşayış tərzi, ətrafa, maddi nemətlərə biganəliyi və s. cəhətdən zahid ilə sufi eyni mövqedə dururdular. Əslində, amal və qayələrinə görə bir-birindən fərqlənirdilər, yəni əgər zahid öz aləminə çəkilərək tənhalaşırsa, sufi əksinə, öz-özlüyündə deyil, Allahla mövcudluğunu ön plana çəkirdi. Yalnız X əsrdən sonra onları sufi adlandırmağa başladılar. Bir çox orta

---

[1] Заходер Б.Н. История восточного средневековья. (Халифат и Ближний Восток).Москва, «МГУ», 1944, стр.155

[2] Кули-заде З. Хуруфизм и его представители в Азербайджане. Баку, Изд. АН Азерб. ССР, 1970, стр.69.

[3] Ahmed ibn Hanbel. Kitab əz-Zühd ter. M.Emin İhsanoğlu, İstanbul, 1992, s.480.

əsr müəlliflərinin fikrincə, sufilik ərəbcə əs-suf (yun, qaba yun) sözündən götürülmüşdür. Sufilərin isti iqlim şəraitində narahat və qaba yun paltar geyməklə nəfslərinə hakim kəsilmələri sufi termininin məzmununa daha uyğun gəlməsini göstərir. Təsəvvüf təcrübəsi sufinin heç olmasa ən azı bir dəfə səfərə çıxmasını zəruri hesab edirdi. Digər tərəfdən, səfərlər zahidin formalaşması üçün vacib şərt sayılırdı. Orta əsrlər bu tələblərə daha uyğun gəlirdi. Adətən, təhsil müəssisəsi olmayan yerlərdə biliklərini yaya bildikləri üçün sığınacaq və qida tapan səyyah- zahidlər orada arzu olunan qonaqlar kimi qəbul edilirdilər. Kəndlərdə səyyah- zahidlərin ətrafına toplaşanlar onlara cüzi də olsa toxunmaqla bir qisim xeyir-dua almaq arzusuna çatırdılar. Onlar, adətən, zahidlərə suallar yağdırır, qohum-əqrəbalarına dua etməyi xahiş edir, onlardan məsləhət alır, qonaq dəvət edirdilər. Əs-Səmani kimi, tanınmış elm adamı belə bir neçə dəfə sufi Əbünnəcib Sührəvərdinin yanında olmuş, söhbətlərini dinləmiş, ondan xeyir-dua almışdı[1].

Klassik sufizm terminini işlədən Avropa şərqşünasları bu ifadə ilə cərəyanın yaranmasından Əbu Hamid əl-Qəzalinin "imamlıq" zirvəsi qazanmış əsərləri meydana gələnədək uzun bir inkişaf mərhələsini əhatə edən dövrü nəzərdə tuturlar. Bu dövr ilk sufiləri də özündə birləşdirir[2]. Əl-Qəzalinin dövründə müsəlman cəmiyyətində dini-hüquqi, ehkamçılıq, dini-siyasi və digər baxışlar bir-birinə qarışmışdı. Müsəlman ilahiyyatçısı eyni vaxtda həm şafii (hüquq məsələlərində), həm əşari (ehkam məsələsində), həm də sufi ola bilərdi.

X əsrdən başlayaraq fars dilində yazılmış sufi şeirlərindən ayrı-ayrı sətirlər, bir bəndlik şerlər işıq üzü görməyə başlayır. Mənbələrdə "təsəvvüfi dövr" adlanan X əsrdə yaşamış Əbu Hüseyn Dündari-Şirazi, Hüseyn ibn Yəzdinyar, Əbu Həsən, Əbu Zür`a, Əbu Abbas, Əbu Səid Abdal Bakuvi və başqaları kimi bir çox azərbaycanlı sufilərin adlarına rast gəlinir. XII əsrdən Azərbaycan təsəvvüf tarixində təriqətlər dövrü başlayır və sufizm müxtəlif nəzəri-ideyalar əsasında ayrı-ayrı qollara bölünür. Belə ki, tədqiqatçı Mehmet Rıhtıma görə, sührəverdilik, hürufilik, zahidlik,

---

[1] Əs- Səmani, Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.365-366.

[2] Trimingham J.Spencer. The Sufi orders in Islam Oxf., 1971; Шиммель Аннемари. Мир исламского мистицизма. Москва, «Алетейа», 1999, стр.27-83.

səfəvilik, xəlvətilik və xəlvətiliyin qolları olan rövşanilik və gülşənilik, eləcə də yəsəvilik, nəqşbəndilik təriqətləri bu ərazilərdə yaranmış və buradan da bütün islam aləminə yasyılmışdır[1].

Parlaq sufi rəngi ilə boyanmış tam bitkin divan Baba Kuhi təxəllüslü əl-Bakuviyə mənsubdur. Hədis toplamaq arzusu onu Nişapura gətirib çıxartmışdı. XI əsrin əvvəllərində burada məşhur sufi şeyxi Əbu Səad əl-Meyhaninin rəhbərlik etdiyi və özündə müxtəlif cərəyanları birləşdirən məktəbi yaranmışdı. Əl-Bakuvi Nişapura təsəvvüfü qəbul etməyən, onunla barışmayan bir şəxs kimi daxil olmuşdu. Sufilər arasında qalması onun bu soyuq münasibətini dəyişmiş və o, sufiliyin alovlu tərəfdarına çevrilmişdi. Sufilər arasında yüksək nüfuz və ehtiram qazanan Baba Kuhi hətta bir vaxtlar sufi xanəgahının başçısı (şeyxi) da olmuşdu[2].

Nişapurda bir qrup şeyxlə görüşən sufilərdən biri də Əbülməali Əbdülməlik ibn Əhməd ibn Əbdülməlik ibn Əbd Kan əl-Beyləqani (v.e.496/1102)-cı ildən sonra Beyləqanda) olmuşdur. Əs-Səmani yazır ki, şeyxlərimiz həmin şeyxə istinadən bizə hədis nəql etmişlər. O, Nişapurla yanaşı Bağdad, Curcan və Heratda bir çoxlarının söylədikləri hədisləri dinləmişdir[3].

Beyləqanda da sufilər üçün münbit zəmin olmuşdur. Məsud ibn Namdarın məlumatına görə, Beyləqanda Əbdülcabbara qarşı iğtişaş baş qaldıranda şəhər əhli onun yanına sufilərdən ibarət elçi heyəti göndərmişdi. Əmir onlara rədd cavabı verəndə, sufilər şəhərə qayıdaraq Beyləqan sakinlərini Əbdülcabbara qarşı silahlı müqavimətə çağırmışdılar[4].

İsnad zəncirinin səhihliyi bütün raviləri düşündürürdü. Ona görə də hədislərin səhih ötürülməsi üçün isnad zəncirində onlardan sonra kimin gəlməsi də ravilər üçün önəmli sayılırdı. Əs-Səmaninin yadelli səyyahlardan saydığı Abid Əbu Bəkr Əbdüləziz bin Həsən əl-Bərzəi (v.e.323/ 934 ) Əbu Bəkr Məhəmməd ibn İshaq ibn əl-Xuzeyməyə istinadən

---

[1] Rıhtım M.Azərbaycanda təsəvvüf//Təsəvvüf tarixi. Bakı İslam Universiteti, Bakı, 2011, s.214.

[2] Бертельс Е.Э. Очерк истории персидской литературы. Ленинград, б/н. изд-ва, 1928, стр.53.

[3] Əs-Səmani .Kitab əl-Ənsab. Beyrut, I c.,1998, s.458.

[4] Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса. Москва, «Наука», 1970, лл. 165а-166б)

hədis söyləmək üçün gəlmişdi. Əbu Bəkr onun zahidliyini və imanını nəzərə alaraq, hədislərini ona etibar etmişdir[1].

Hədis toplamaq niyyəti ilə səyahətə çıxan Əbülməali əl-Beyləqani Nişapur, Bağdad, Herat, Əd-Daraq əl-Ulyə və Curcanı ziyarət edərkən şeyxlərlə görüşmüş, onların söylədikləri hədisləri öyrənmişdir. Bundan sonra vətəninə qayıdan Əbülməali 496 / 1102-cü ildən sonra vətənində vəfat etmişdir[2].

Düşüncəsində fiqhi sufiliklə sintezdə birləşdirən alimin xalis fəqih və ya sufi olduğunun dəqiqləşdirilməsi çətinlik yaradır. Məşhur fəqihlərin sufiyə çevrilməsi o dövrdə adi bir hal almışdı. Əbünnəcib Əbülqahir ibn Abdulla ibn Məhəmməd ibn Əməveyh əs-Sührəvərdi (d. 490/1096) onların bariz nümunəsidir. Nizamiyyə mədrəsəsində Əsəd ibn Əbu Nəsr əl-Yəmənidən fiqhi öyrənən əs-Sührəvərdi bir müddət sonra insanlardan uzaqlaşmış, tənhalığa üstünlük vermişdi. Onun bir qrup müridi peyda olmuşdur. Dəclə sahilində özünə karvansara tikdirmiş, orada bir qrup əməlisaleh adam yerləşdirmişdi[3].

Əs-Səmani əs-Sührəvərdi ilə əlaqədar başqa bir sufi - müəllifin "şeyximiz" adlandırdığı Əbu Səad Əhməd ibn Məhəmməd əl-Bağdadi barədə də məlumat verir. Bağdad sufilərinin ruhani başçısı olan şeyx əş-şuyux (şeyxlər-şeyxi-N.Ə.) Əbu Səad Xilafətin mərkəzində "Əbu Səad ribatı" adlanan şəxsi xanəgah tikdirmişdi. Nizamiyyə mədrəsəsi ilə birlikdə bu xanəgah Nizamülmülkün dəstəyi ilə sufi-əşarilik ideyalarını təbliğ edən mərkəzə çevrilmişdi. O dövrün bir çox sufi və əşarilərinin hədis yaradıcılığı bu şəxsiyyətlə bağlıdır. Təsadüfi deyil ki, əs-Səmani Əbünnəcib əs-Sührəvərdini ziyarət edərkən, məhz bu sufidən qiraət (yəni, müəllifin bilavasitə özündən üzündən oxuma ) yoluyla öyrəndiyi hədisləri ona nəql etmişdi.

Fəqih, fəzilət sahibi, əməlisaleh, ləyaqətli sufi kimi təqdim edilən Əburruh Fərəc ibn Əbu Bəkr ibn Fərəc əl-Urməvi ilə əs-Səmani Tusun Nuqan məhəlləsində görüşmüşdü. Əs-Səmani göstərir ki, Əburruh Fərəc ibn Əbu Bəkr ibn Fərəc əl-Urməvi fiqhi şeyximiz Məhəmməd ibn Əbulabbasdan öyrənmişdir. Bu fakt göstərir ki, onun müəllimi görkəmli alimlərdən olmuşdur. Sufilərin atributlarından biri xanəgahdır. Onun xanəgahda yerləşməsinə əs-Səmani kömək etmişdir. O, yazır: "Sonra Mər-

[1] Əs-Səmani. Kitab əl-Ənsab.Beyrut, I c.,1998, s.331.
[2] Yenə orada, s.458.
[3] Yenə orada, III c., 1998, s.365-366.

və gəldi. Bu vaxt mən İraq səfərində olduğuma görə orada deyildim. O, əvvəlcə bizdə qaldı. Sonra onu Abdulla ibn əl-Həlvaninin köməyi ilə bir xanəgahda yerləşdirdim." Sufi fəqih, həm də şair idi. Əs-Səmani ondan şeir parçaları yazması haqqında məlumat verir[1].

X əsrdən başlayaraq fars dilində yazılmış sufi şeirlərindən ayrı-ayrı sətirlər, bir bəndlik şerlər işıq üzü görməyə başlayır. Mənbələrdə "təsəvvüfi dövr" adlanan X əsrdə yaşamış Əbu Hüseyn Dündari-Şirazi, Hüseyn ibn Yəzdinyar, Əbu Həsən, Əbu Zür`a , Əbu Abbas, Əbu Səid Abdal Bakuvi və başqaları kimi bir çox azərbaycanlı sufilərin adlarına rast gəlinir.

Səlcuqilərin hakimiyyətə gəlməsi sufizmə xələl gətirmədi, əksinə əvvəllər yazıya alınmış fars rəvayətinə görə, I Səlcuq sultanı Toğrul İrana daxil olanda Həmədanda (təxminən 1055-ci ilə yaxın) Əbu Səidin yaxını və o dövrün 3-cü mistik dördlüklərinin yaradıcısı divanə Baba Tahirdən xeyir-dua istəmişdi. O da Səlcuq sultanına bütün dünyanı fəth etmək üçün xeyir-dua və yuyunmaq üçün istifadə etdiyi bardağın lüləyindən sındırdığı gil üzüyü-həmayili vermişdi ki, sultan da hər dəfə döyüşdən əvvəl onu barmağına taxardı. Bununla da Səlcuq hakimiyyətinin yüksək vəzifəli şəxslərinin xoş münasibəti sayəsində sufizmin azad yayılması təmin olunmuşdu[2].

Artıq, XI əsrin əvvəllərində Baba Kuhi təxəllüslü əl-Bakuvinin hədis toplamaq arzusu ilə gəlib çatdığı Nişapurda müxtəlif cərəyanları ehtiva edən tam sufi məktəbi yaranmışdı. Bu məktəbə rəhbərlik məşhur sufi şeyxi Əbu Səid əl-Meyhaniyə müyəssər olmuşdur* .

Beyləqanda da sufilər üçün münbit zəmin olmuşdur. Məsud ibn Namdarın məlumatına görə Beyləqanda Əbdülcabbara qarşı iğtişaş baş qaldıranda şəhər əhli onun yanına sufilərdən ibarət elşi göndərmişdi. Əmir onlara rədd cavabı verəndə sufilər şəhərə qayıdaraq Beyləqan sakinlərini Əbdülcabbara qarşı silahlı müqavimət göstərmyə çağırmışdı[4].

İsnad zəncirinin səhihliyi bütün raviləri düşündürürdü. Ona görə də

[1] Əs-Səmani, Kitab əl-Ənsab, Beyrut, I c., 1998, s.119.

[2] Крымский А.Е. Низами и его современники. Баку, «Элм», 1981, стр.223.

* Əbu Səid əl-Fəzl ibn Əbülxeyr – Əsrinin görkəmli sufi Şeyxi Xorasanın Meyhani şəhərində 967-ci ildə anadan olmuş, 1049-cu ildə Nişapurda vəfat etmişdir.

[4] Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста , предисловие и указатели В.М. Бейлиса. М.: Наука, 1970,лл. 165а-166б)

hədislərin səhih ötürülməsi üçün isnad zəncirində onlardan sonra kimin gəlməsi də ravilər üçün önəmli idi. Əs-Səmaninin yadelli səyyahlardan saydığı Abid Əbu Bəkr Əbdüləziz bin Həsən əl-Bərzəi (v.e.323/ 934 ) Əbu Bəkr Muhəmməd ibn İshaq ibn əl-Xuzeyməyə istinadən hədis nəql etmək üçüm gəlmişdi. Əbu Bəkr onun zahidliyini və imanını nəzərə alaraq hədislərini ona etibar etmişdir[1].

Hədis toplamaq niyyəti ilə səyahətə çıxan Əbülməali əl-Beyləqani Nişapur, Bağdad, Heart, Əd-Daraq əl-Ulyə və Curcanı ziyarəti zamanı şeyxlərlə görüşmüş, onların söylədikləri hədisləri öyrənmişdir. Bundan sonra vətəninə qayıdan Əbülməali 496/1102-cü ildən sonra vətənində vəfat etmişdir[2].

Fiqhin sufiliklə sintezini düşüncəsində birləşdirən alimin xalis fəqih və ya sufi olduğunu dəqiqləşdirilməsi çətinlik yaradır. Məşhur fəqihlərin sufilərə çevrilməsi o dövrdə adi bir hal almışdı. Əbunnəcib Əbülqahir ibn Abdulla ibn Məhəmməd ibn Əməveyh əs-Suhrəvərdi (d. 490/1096)* onların bariz nümunəsidir. Nizamiyyədə Əsəd ibn Əbu Nəsr əl-Yəmənidən fiqhi öyrənən Sührəvərdi bir müddət sonra insanlardan uzaq gəzmiş, tənhalığı üstün tutmuşdu. Onun bir qrup müridi peyda olmuşdur. Dəclə sahilində özünə karvansara tikdirmiş, orada bir qrup əməlisaleh adam yerləşdirmişdi[3].

[1] Əs-Səmani. Kitab əl-Ənsab, Beyrut, I c.,1998, s.331.
[2] Yenə orada, s.458.
[3] Əs-Səmani, Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.365-366.
* Əbunnəcib Əbdqlqahir ibn Abdulla ibn Məhəmməd əs-Sührəvərdi- şafii fəqihi və mütəsəvvifi. Zəncan yaxınlığında kiçik Sührəvərd şəhərində 1168-ci ildə anadan olmuş, Bağdadda 1168-ci ildə vəfat etmişdir. Cavanlığında çətin günlər keçirən Əbunnəcib görkəmli alim, böyük sufi şeyxi kimi şöhrət qazanaraq Nizamiyyə mədrəsəsində dərs demiş,bir müddət isə həmin mədrəsəyə başçılıq etmişdir. Əbunnəcib xalq arasında böyük nüfuza malik, şafii şeyxi kimi tanındığı üçün onun hüququ hakim dairələr tərəfindən toxunulmaz olmuşdur. Mütəfəkkir təqib olunan şəxslərə öz sufi ribatlarında yer verməkdən belə çəkinməmişdir. AMEA-nın müxbir üzvü Zakir Məmmədov yazırdı: Əbunnəcib Sührəverdi sultandan, xəlifədən və başqalarından qorxmayıb ona pənah gətirənləri müdafiə etmiş, onlar təhlükədən sovuşmuşlar (bax: Закир Мамедов. Азербайджанские философы мыслители средневековья.Баку, 1993.)

*Musiqiçilər.* Əslən azərbaycanlı olan Səfiəddin əl-Urməvi (h.613-693/1215-1294) ərəb musiqisinin əsasını qoymuşdur. Onun musiqisi ərəb tarixində ən məşhur musiqilərdən sayılmışdır. H.G. Farmer (1882-1965) "Ərəb musiqisi tarixi" əsərində ən məşhur musiqinin məhz Səfiəddinin musiqisi olduğunu yazmışdır[1].



*Musiqiçilər. Abbasilər dövrü*

*Təfsirçilər.* Azərbaycanlı alimlər Xilafət bölgə alimlərinin əsərlərinə yazdıqları çox dəyərli şərhlərlə də məşhur olmuşlar. Cərullah əz-Zəməxşərinin (467/1075-537/1144) müsəlman aləmində məşhur olan "ألنموذج في النحو " ("Ən-Numuzəc fı-n-nəhv") adlı qrammatik vəsaitlərinə bir sıra şərhlər yazılmışdır. Onların arasında Zeyn əl-Araba Əli ibn Abdulla əl-Mısri ilə bərabər, Camaləddin Məhəmməd ibn Əbdülğəni əl-Ərdəbili (v.e.1249-cu ildə) və Səadəddin Səadallah əl-Bərdəinin (XV əsr) yazdıqdarı şərhlər daha məşhur olmuşdur. Cəmaləddin əl-Ərdəbilinin şəninə müasirləri tərəfindən yazılmış təriflər bunu bir daha

---

1 الموسوعة العربية . الجلد الاول. دمشق، ١٩٩٨، ص.٣٤٩

sübut edir: "mömin, şərəfli, mükəmməl, alim, hikmətlilərin hikmətlisi, tədqiqatçıların ən şöhrətlisi, böyük müəllim, görkəmli imam, təbiət və humanitar elmlərin dəryası, əsas və özəl dini elmlərin sahibi, icazə verilən və qadağan olunanları təyin edən, hər iki dünyanın rəbbinin mərhəməti sayəsində qorunan, qazı və hakimlərin ağası, dinin camalı-Camaləddin Məhəmməd ibn Əbdülğəni əl-Ərdəbili". Əsərin əlyazması Respublika M. Füzuli adına Əlyazmalar İnstitutundadır[1]. Bu ifadələrdən də göründüyü kimi, Camaləddin əl-Ərdəbili nəhəng alim, baş qazı, ilahiyyatçı və dilçi olmuş və 648/1249-50-ci ildə vəfat etmişdir. Onun "Ən-Numuzəc"ə yazdığı şərh Zəməxşərinin "Nümunəvi qrammatika"sı kimi məşhur və əsrin əvvəlinə qədər dərs vəsaiti olmuşdur[2].

### 4.2. Azərbaycanlılar idarəetmə strukturlarında

Geniş bir əraziyə çevrilmiş Xilafətin vergi məhkəmə, hərb, mülki və s. işlərini idarə etmək xəlifələrin üzərinə böyük məsuliyyət qoyurdu. Hər vilayətin başında vilayətin canişini dururdu ki, o, həm də həmin vilayətdə qoşunların komandanı hesab edilirdi. Əmir adlanan canişinləri bilavasitə xəlifələr təyin edirdilər. Adam Mets vilayətləri bir növ federal ştatlara bənzədərək onların az və ya çox dərəcədə bir-birindən asılılığını və həmçinin həmin vilayətlərin Bağdadda tabe olduqları divanın mövcudluğunu göstərir[3].

Ərəb fəthlərinin ilk dövrlərində müqavilələrə əsasən nəzərdə tutulan vergilərin toplanması ilə məşğul olan idarə sistemi orqanları hələ kifayət qədər möhkəmlənməmişdi. Məhz buna görə də fütuhatın ardınca, yəni VII əsrin ortalarından etibarən hakimiyyəti möhəmləndirmək, sərhədləri qorumaq, yerli əhalinin baş verə biləcək çıxışlarının qarşısını almaq və vergi toplamaq üçün xəlifə canişinlərinin yaşadıqları ordugahlar, başqa sözlə, rabatlar salınmağa başladı. Azərbaycanda Rabatların komandirləri

---

[1] Каталог арабских рукописей. Редактор - составитель д.ф.н. М.М. Адилов. 2-ое изд. Баку, «Нурлан», 2008.
[2] Yenə orada.
[3] МецА. Мусульманский ренессанс/Перевод с немецкого, предисловие, библиография и указател Д.Е. Бертелъса. Москва, 1966, стр.71.

yerli hakimiyyət nümayəndəsi vəzifəsini icra edirdilər. Bu vəzifə *amil* vəzifəsi idi[1]. *Amil* vəzifəsini yerinə yetirən şəxslərə qarşı çox vaxt narazılıq və iğtişaşlar baş vermiş, xalq kütlələri ayağa qalxmışdı. Hətta iş o yerə gəlib çatmışdır ki, Abbasilər dövründə bölgədə vali olan əl-Fadl ibn Yəhya əl-Bərməkinin Azərbaycana *amil*- "vergi yığan" göndərdiyi Əbu-s-Sabahın vergi zülmündən cana gəlmiş bərdəlilər onu öldürmüşdülər. Beyləqanda başlayan narazılıqlar isə daha sonra bölgənin bir çox yerlərini də əhatə edərək üsyana çevrilmişdi. Bəzən isə amil vəzifəsindən imtina halları olurdu. Məs., Səhabə Numan ibn Mukarrin də ona təklif olunmuş *amil* vəzifəsindən imtina edərək Allah yolunda qəza və cihada çıxmağı daha şərəfli iş hesab etmişdi[2]. Yerli dövlətçilik sistemi tənəzzülə uğradıqdan sonra Xilafətin reğiondakı təmsilçisi - *vali*[*] bölgənin şəriksiz hakiminə çevrildi. Akademik Nailə Vəlixanlı Bərdədə iqamətgah qurmuş valinin (Hatim ibn Numan-N.Əliyeva) timsalında idarəetmədə yaranan yeni vəziyyətin şərhini vermişdir: "Vali yerli əyanların hakimiyyətini məhdudlaşdırmış, onları ağır vergilərə məruz qoymuş, ölkənin ayrı-ayrı yerlərində Ərəbistandan gəlmə tayfaların yerləsdirilməsində böyük rol oynamış, Xəlifənin adından Azərbaycanda (Bərdə, Ərdəbil, Nəşavə, Beyləqan və s. şəhərlərində yaşayış məntəqələrində) quruculuq işləri ilə də məşğul olmuşdu. Əl-Bəlazuri xəbər verir ki, xəlifənin Bərdənin idarəetməsini həvalə etdiyi adamlar yerli camaatla xoş münasibət yaratdılar. Müəllifə görə, bu, oraya bir-birinə əl tutmaq, kömək etmək

---

1 Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Elm", 1989, s.165.
2 İbn Əsakir.Tərixu ibn Əsakir. XII c., s.142.
* Ömər ibn Xəttab səhabələri valilik vəzifəsinə nadir hallarda təyin edirdi. Ömərin onlara öz yanında, Mədinədə ehtiyacı var idi.Bu insanlar onun məşvərət məclisinə, şuraya daxil idilər. Və xəlifə onlarla gördüyü bütün işləri müzakirə edirdi. Bundan başqa Ömər ibn Xəttab "mən sevdiyim təmiz insanların vəzifə ilə bulaşmalarını arzulamıram" deyərək onları vilayətlərin, şəhərlərin idarəçiliyinə təyin etmirdi. Bilindiyi kimi, valilər öz işləri, icraatları ilə idarə etdikləri insanların heç də hamısını həmişə məmnun edə bilmirdilər. Bir çox hallarda valilərdən haqlı və ya haqsız şikayətlər edilirdi. Sərt məcazı ilə tanınan Ömər isə haqqında şikayət olunan insanları, bu hətta öz doğma övladı belə olsa, ağır şəkildə cəzalandırmaqdan çəkinmirdi. Ona görə də Xəlifə İslamın ən çətin günlərində Peyğəmbərlə (s.a.s.) çiyin-çiyinə durmuş insanları incidə biləcəyi əndişəsi ilə valiliyə təyin etmirdi (bax: Nəsirov E. İslam tarixi, I c., Bakı, "Nurlar", 2014, s.368-369).

istəyən çoxlu sayda insanın köçüb gəlməsinə səbəb oldu: onlar şəhəri bərpa edib abadlaşdırdılar[1].

Xəlifə Ömərin vali təyin etdiyi şəxslərdən müəyyən tələbləri var idi ki, bunlara ciddi şəkildə nəzarət olunurdu. Hər şeydən əvvəl valilər xüsusi yetişdirilmiş bahalı və cins ərəb atlarına minməməliydilər. Vali bahalı və bəzəkli paltar geyməməli idi. Özü üçün xüsusi yemək hazırlatmamalı, yeməyini öz ailəsi ilə birlikdə yeməli idi. İdarəsi altında olan insanlardan kənar və uzaq yaşamamalı, evi xalqın evlərinin arasında olmalı və qapısı daim onu görmək istəyənlərin üzünə açıq olmalı idi.

Vali öz vilayətində ali baş komandan idi. Valiyə onun tabeliyində olan əyalətləri, xüsusilə də sərhəd rayonlarını müdafiə etmək əmri verilirdi. Vilayətdə vəzifəcə ikinci şəxs valinin vəziri idi. Vilayət vəzirlərindən başqa əyalət və şəhərlərdə də vəzir vəzifəsi mövcud idi. Məsələn, Təbriz vəziri məşhur Şəmsəddin Tuğrayi idi. Atabəylər dövründə Səlmas, Urmiya və Xoy əyalətlərinin də öz vəzirləri var idi[2].

Xilafətin elə şəhərləri olmuşdur ki, o şəhərlərin strateji mövqeyinin vacibliyi ön plana çəkilərək ora təyin olunacaq valilərin hüquqları azaldılırdı. Əl-Bəlazuri yazırdı ki, xəlifənin təyin etdiyi bir canişini o yalnız şəhər sakinlərinə pul və hədiyyələr payladıqdan sonra şəhərə buraxa bilərdi. "Dərbəndnamə"nin versiyasına görə, xəlifə Harun ər-Rəşid Dərbənd sakinlərinə, hakimiyyətindən sui-istifadə edən hakimi qovmağa icazə verirdi[3].

Şübhəsiz ki, bu işlərdə şəhərlərə təyin olunmuş *imamlar* böyük rol oynamışlar. Onların arasında yüksək məqama çatan[4] bəzi həmyerlilərimiz

---

[1] Əl-Bəlazuri. Kitəb Futuhi-l-Buldən. Azərbaycanın VII-XII əsrlər tarixinə aid çıxarışlar/Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Hikmət Əkbərov//Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı, "Nurlan", 2005, s.182.

[2] Ан-Насави Шихаб ад-Дин Мухаммад ибн Ахмад ибн Али ибн Мухаммад ал-Мунши. Жизнеописание султана Джалал ад-Дина Манкбурны. Пер. с арабского, предисловие, комментарии, примечания и указатели З.М.Буниятова. Баку, «Элм», 1973, стр. 200; Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. B., "Elm", 1988, s.182.

[3] Кудрявцев А.А. Древний Дербенд. Москва, 1982, стр.156.

[4] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində, Bakı, "Çaşıoğlu", 1999, s.149.

görkəmli alim, şeyx[1], fəziləti ilə məşhur imam, məzhəbi yaxşı bilən imam[2] və s. epitetlər qazanmışlar. Fəth olunmuş ölkələrə imamlar göndərmək isə xəlifənin səlahiyyətində idi.

Şəhər məscidinin *imamı* vəzifəsi görkəmli fəqihlərə həvalə olunurdu. Zəncanlı Əbu Bəkr Əhməd ibn Məhəmməd ibn Zəncunə (təxminən h. 490/1096-cı ildə vəfat edib) əməlisaleh və bilikli fəqih olmuşdur[3]. O, Əbuttayyibin tələbəsi olan safii fəqihi kimi bir çox mənbələrdə qeyd olunur. “Reyhan əl-həqaiq”in müəllifi Əbu Bəkr əş-Şirvani onunla Zəncanda görüşəndə, Əbu Bəkr əz-Zəncani şəhər məscidinin imamı vəzifəsini ifa edirdi[4]. Əbu Bəkr əz-Zəncaninin müəllimi olmuş Əbuttayyib Tahir İbn Abdulla ət-Təbəri (v.e. 450/1058) görkəmli hüquqşünas, şafii hüququnun nəzəriyyəçisi olmuşdur. Bu alimi səciyyələndirən İbn Xəllikan yazır ki, 102 il ömür sürmüş Əbuttayyibin nəinki əqli fəaliyyəti normal və intellekti saf olmuş, hətta ömrünün sonuna qədər bəzi fəqihlərin səhvlərini düzəldərək, məhkəmə işlərini həll etmişdir[5]. O, müxtəlif vaxtlarda Bağdadın Kərx məhəlləsində qazı və müfti vəzifələrində çalışmışdır[6]. Şeyxin “Tabəqat əş-şafiiyyə” əsəri əs-Sübkinin “Tabəqat”ının əsas mənbələrindən biridir. Onun polemik əsərlərinin Xilafətin müxtəlif bölgələrində, o cümlədən



***Məsciddən bir səhnə .Əl-Həririnin “Məqam”ından miniatür. XIII əsr.***

[1] Əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, III c, 1998, s.298.
[2] Yenə orada, V c., s.23.
[3] ƏliyevaN.A. Əs-Səmani...2010, s.115-116.
[4] Аликбеков А.К. Эпоха классического ислама на Кавказе//Культура Народов Востока. Москва, «Восточная литература», 2003, стр.388.
[5] İbn Xəllikan.Vəfayət əl-Ə’yan, II c., Beyrut ,1998, s.420; Ibn Khallikan`s Bioqraphical Dictionary. Tr. from Arabic by M.G.de Slane. I- IV . P.,1842-1871, p.644-647.
[6] İbn əl-Cavzi. Əl-Muntəzəm li-ibni-l-Cavzi. Heydərəbad , 1938-1940, VIII c., s.198.

Qafqazda şafii hüququnun yayılmasında rolu olmuşdur[1]. Əbu Həfs Ömər əl-Zəncani də Əbüttayyibin Zəncandan olan tələbələrindən idi[2]. Fiqh elmini Bağdada gələrək Əbuttayyibdən öyrənən əl-Zəncani ilahiyyatı Əbu Səid əs-Səmaninin atası Əbu Cəfər əs-Səmanidən mənimsəmişdi[3].

Mənbələrin verdiyi məlumatdan görünür ki, Səlcuqilər dövründə *əmir* vəzifəsi də yüksək vəzifələrdən sayılırdı və hərbi hakimiyyət onların, maliyyə və milki bürokratiya işləri yerli mənsəb sahibləri - əyanların əlində idi. İlk müsəlman Şirvanşahlar sülaləsi olan məzyədilər Bərdədə oturan canişinə-əmirə tabe olmuşlar[4]. Əmirlər isə xəlifələr tərəfindən təyin olunurdular, tam mülki və hərbi hakimiyyətə malik idilər. Onlar ərəblərin qoyduqları yerli hakimlərin fəaliyyətinə, şəhər və kənd əhalisinin üzərinə qoyulan vergilərin (cizyə, xərac və s.) yığılmasına nəzarət etməli idilər[5].



***Böyük səhabə Numan ibn Mukarrinin məzarı. Baba Pir ziyarətgahı. Kirmanşah***

Müsəlman fəthlərinin ilk çağlarında bir şəxsin üzərinə müxtəlif vəzifələr düşə bilirdi. Peyğəmbər (s.a.s.) səhabəsinin sərkərdə olması adi bir hal idi. Xəlifə Ömərin Azərbaycanın fəthinə göndərdiyi Numan ibn Mukarrin sərkərdəlikdən əvvəl peyğəmbərin (s.a.s.) səhabələrindən idi.

Əmirlərin dövrün ən hörmətli elmlərindən sayılan hədis elmi ilə məşğul olma-

[1] Аликбеков А.К. Эпоха классического ислама на Кавказе//Культура Народов Востока. Москва, «Восточная литература», 2003, стр.372.
[2] Əs-Səmani. Kitab əl-Ənsab.Beyrut, III c., 1998, s.188.
[3] Əliyeva N.A. Əbdülkərim əs-Səmani və onun elmi irsi. AMEA-nın xəbərləri (tarix, fəlsəfə, hüquq), № 5; 6. Bakı, “Elm”, s.237.
[4] Минорский В.Ф. История Ширвана Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. Москва, «Восточная литература», 1963, стр.62.
[5] Aşurbəyli S.Şirvanşahlar dövləti. Bakı, 1997, s.112.

ları haqqında mənbələr məlumat verir. Əs-Səmaninin məlumatına görə, Şama gələn marağalı Əbu Bəkr Məhəmməd ibn Musa ibn Həbşun Şamın əmiri vəzifəsində çalışmışdır. Onun ikinci nisbəsi "ət-Tərtusi"olmuşdur. Saydada yaşayan bu əmir Əbu Nəsr Fəth ibn Əmləc ət-Tərsusiyə istinadən hədis danışırdı. Əbülhüseyn ibn Cami ona istinadən hədis nəql etmişdir[1].

Tarixi ədəbiyatda *vəzir* vəzifəsi daşıyanlar çox hörmətli şəxsiyyətlər hesab olunurdu. Abbasilər dövründə dövləti əsasən vəzirlər idarə edirdilər. Vəzir bu dövlətdə xəlifədən sonra birinci şəxs idi. Düzdür, geniş səlahiyyəti olan vəzirlər hələ Sasanilər dövründən məlum idi. Ərəb xilafətində isə bu vəzifə Abbasilər sülaləsi hakimiyyətə gələndən sonra təsis olundu. Vəzirlərin üzərinə geniş vəzifələr qoyulmuşdu. Xəlifə və ya sultanlara çox yaxın adamlardan olan vəzirlər, hökümətin ictimai – siyasi, dini və iqtisadi həyatında aparıcı rol oynayırdılar. Çox məsuliyyətli iş olan dövlət idarəetmə aparatı onların əlində cəmlənmişdi. Xarici dövlətlərlə danışıqlar aparmaq, ordu başçılarını və vilayət hakimlərini təyin etmək, mürəkkəb casus aparatı saxlamaq və digər mühüm funksiyalar onların üzərində idi. Abbasi vəzirlərinin ən başlıca vəzifəsi isə əhalidən torpaq və can vergisi toplamaq idi. Bu məqsədə nail olmaq üçün onun ixtiyarında böyük məmur aparatı mövcud idi. Xilafətin maliyyə sistemi də vəzirin əlində idi. Bu mürəkkəb və məsuliyyətli vəzifənin öhdəsindən gəlmək üçün vəzirin köməkçiləri olurdu.Və bu köməkçilər adətən onların yaxın qohumlarından olurdu. Abbasi xəlifəsi Harun ər-Rəşidin dövründə Bərməkilər ailəsi böyük rola malik idi. Vəzirlərlə birlikdə onların qohumları olan əyanlar var-dövlətə - torpaqlara, malikənalara və s. sahib idilər. Öz xidməti vəzifələrindən istifadə edərək onlar imperiyanın müxtəlif bölgələrində, hətta ondan asılı vəziyyətdə olan ölkələrdə çoxsaylı mülklər əldə edir, onlara düşmən olan əyanların, tacirlərin əmlakının müsadirə olunması və cəzalandırılması və nəhayət, xəzinə hesabına varlanırdılar[2].

Xəlifə əl-Müqtədirin dövründə (908-932) vəzirlər arasında görkəmli rolu İbn əl-Furat ailəsi oynamışdır. Bu ailə İbn əl-Mütəzzinin hakimiyyətə gəlmək cəhdinin yatırılması və gənc Cəfər əl-Müqtədirin tərəfdarlarının qəti qələbəsi sayəsində hakimiyyətə gəlmişdi. Bu hadisələr zamanı

[1] Əliyeva N.A. Əs-Səmaninin Əliyeva N.A. Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə aid mənbə kimi. Bakı, "Şərq-Qərb", 2010, s.125.

[2] Беляев Е.А. Арабы, ислам и Арабский халифат в ранее средневековье. Москва, Наука, 1966, с.187.



*Harun ər-Rəşid (786-809) və Bərməkilərin ağıllı cavabları*

xəlifə əl-Müqtədirin dövründə xidmətdə olmuş vəzir əl-Abbas ibn əl-Həsən öldürülmüş və 908-ci ilin dekabrında vəzirin yerini Əbülhəsən Əli ibn əl-Furat tutmuşdu. Xilafətin maliyyə işlərinin idarəsi məhz bu zaman onun qardaşı Cəfərə qismət oldu. Nəticədə dövlətin bütün gəlirləri həmin ailənin əlinə keçdi. O, 910-cu ilin yayında öldü, onun üzərində olan idarə işləri Əli ibn əl-Furatın iki oğluna həvalə edildi. Onlardan biri Xilafətin şərq hissəsinin, digəri isə qərb hissəsinin maliyyə işlərini idarə edirdi. Onların ataları Əli 912-ci ilin iyulunadək vəzir vəzifəsində qaldı, elə həmin ildə ondan şikayət olundu. O, həbs edildi və var-dövləti müsadirə olundu. Əli ibn əl-Furat, "quldur bədəvilərlə sui-qəsddə iştirak etməkdə ittiham edildi. Həmin bədəvilər Bağdada hücum edib onu qarət etməli idilər.Görünür, bu qarətdən vəzirə də pay düşməli idi[1]. Bununla yanaşı vəzir Əli ibn əl-Furat xəlifə əl-Müqtədirə lazım olan bir şəxs olmuşdur. O, hakimiyyətdə olduğu zaman Bağdadda dövlət bankına bənzər bir müəssisə təsis etmişdi. Əli ibn əl-Furat 917-ci ildə yenidən vəzir təyin olundu. Lakin bir il sonra onun tamahkarlığı dövlət maliyyəsini müflis etdi. 918-ci ildə yenidən həbs olundu. İkinci dəfə həbs olunmasına baxmayaraq xəlifə sarayında hələ də nüfuzunu qoruyub saxlayan oğlu atasının üçüncü dəfə vəzir təyin edilməsinə nail oldu.Lakin, 924-cü ildə Əli ibn əl-Furat və oğlu əl-Mühəssin həbs edildilər və həmin ilin iyul ayında edam edildilər. Vəzirin rüşvətxorluğu, xəzinə gəlirlərini mənimsəməsi, israfçılığı normal

[1] Беляев Е.А. Арабы, ислам и Арабский халифат в ранее средневековье. Москва, Наука, 1966, с.187-188.

hadisə hesab olunurdu, lakin onun sui-istifadə də son dərəcə iştirak etməsi pislənirdi[1]

Məlumdur ki, Səlcuqların hakimiyyətinin çiçəkləndiyi dövrdə mərkəzi hakimiyyətin güclənməsində vəzirlik həlledici qüvvəyə malik idi. Lakin ara müharibələri dövründə hələ Nizamülmülk tərəfindən əsası qoyulmuş bürokratik aparatın birliyi pozulmuşdu. Yəni, Səlcuqi xanədanının nümayəndələri və əsası Nizamülmülk tərəfindən qoyulmuş qəbilə ittifaqlarında birlik tarixə qovuşmuş, bir zamanlar qarşısına çıxanı udmağa hazır olan bürokratik aparat maşını artıq pozulmuşdu. Sultanın oğulları əks düşərgələrdə qərar tutmuşdular: Nizamülmülkün oğullarını vəzir vəzifəsinə cəlb edən qanuni sultan və taxt-taca iddialı olanlar "Nizamın evi"nin nüfuzundan istifadə etməyə çalışırdılar[2].

Yerli feodalların mənafeyini müdafiə edən Səlcuqların sünni məzhəbindən olmalarına baxmayaraq, Nizamülmülk şiə və sünnilər arasında münaqişələrin dinc yolla həllində böyük rol oynamışdır. Nizamülmülkün hakimiyyəti o dərəcədə güclənmişdi ki, o, özünü hətta hökmdarın şəriki hesab edirdi[3]. Ortodoksal islamın bərqərar olması yönündə də onun özü və oğlu böyük işlər görmüşdü.

Səlcuqların mənəvi mühitini səciyyələndirən xüsusiyyətlərdən biri yerli alimlərlə bərabər vəzirin səlcuq aristokratiyasına mühüm təsirinin olmasında idi. Vəzir, adətən, insan gözü ilə müqayisə edilirdi. İnsanın yaşayışı üçün göz nə əhəmiyyət daşıyırdısa, dövlət aparatının idarə olunmasında da vəzir o rolu oynayırdı[4]. Səlcuqlar dövrü vəzir vəzifəsində işləyənlərdən söhbət açılanda, yada ilk növbədə Nizamülmülk kimi vəzirlərin fəaliyyəti düşür. Məsud ibn Namdar Sultan Məlikşahın vəziri,

---

[1] Ковалевский А.П. Книга Ахмеда Ибн Фадлана и его путешествии на Волгу в 921-922 гг.Харьков, 1956, стр.11-12.

[2] Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975, с.23.

[3] Бертельс Е.Э. Великий Азербайджанский поэт Низами. Баку, Изд-во Аз ФАН, 1940. с.13

[4] Ализаде А.А. Общность взглядов ученых Ирана и Азербайджана XI-XIV веков. По вопросам социально-экономического характера (Низам-ал-Мульк, Рашидаддин и Мухаммед Нахчевани)//Изв-ия АН Аз.ССР, серия истории, философии и права, 1968, №1, стр. 48.

Nizamülmülkün oğlu Əbu Nəsr Əhməd ibn Qavaməddinin (h. 500-505/1107-1112) xidmətləri haqqındakı yazısında islamın və Səlcuqilar dövlətinin gücləndirilməsindəki bütün xidmətləri Sultan Məhəmməd ibn Məlikşaha deyil, sanki Nizamülmülkün ailəsinə aid edir. Məsud ibn Namdarın sözlərinə görə, "vəzir - islamın sədridir, sədrin oğlu da imanın özülünü möhkəmlədən, kafirləri darmadağın edən, islam və müsəlmanları xilas edərək möminlərin ürəyinə təsəlli verəndir[1]. Vəzirlər



*İraq müftisi*

hansı məziyyətlərə sahib olmalıydılar? İlk növbədə vəzir düzgün təfəkkür tərzinə malik bir şəxs və inancına görə, hənəfi[*] və şafii[**] məzhəbindən olan, ləyaqətli və vergi işlərini bilən, səxavətli, dövlət başçısının dostu və vəzirlər ailəsindən çıxan bir şəxs olmalıdır[2].Vəzir işlərini lazımi səviyyədə

---

[1] Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса. Москва, «Наука», 1970, л.2а.

[*] hənəfiyyə-adını imam Əbu Hənifədən almış mənsəbə mənsub olanlar.Hənəfi məzbəbi İraqda meydana gəlmiş və Abbasilər dövründə dövlətin əsas fiqh məzhəbi olmuşdur. Hazırda Azərbaycan və Dağıstan türklərinin, çərkəzlərin böyük bir qismi və Şimali Qafqaz türklərinin hamısı hənəfi məzhəbindədir (bax: Z.Bünyadov. Dinlər... 1997, s.250)

[**] şafiiyyə-adını əş-Şafii əl-İmam Əbu Abdallah Məhəmməd ibn İdrisdən almış mənsəbə mənsub olanlar.

[2] Сиясетнаме. Книга о правлении вазира XI столетия Низам а л-Мулька/ под редакцией Б.Заходера. Москва-Ленинград, 1949, стр.173.

aparmalıdır. Belə ki, dövlət başçısı və dövlət işlərinin xeyirli və ya zərərli olması vəzirdən asılıdır.[1]

Marağada qazı vəzifısində çalışan digər bir "Sədrəddin" adlandırdığı qazı haqqında Zəkəriyyə əl-Qəzvini məlumat verir. Müəllif onu səxavətli və alicənab adlandıraraq, xeyriyyəçiliklə məşğul olan qazının Qəzvin şəhərinin qala divarlarını ucaltdığını göstərir. Belə divarları hətta dövrünün qüdrətli hakimləri belə tikdirə bilməmişdilər. O, çox böyük hündürlükdə şəhər darvazaları da tikmişdir[2].

Azərbaycanla əlaqəli adı çəkilən vəzifələrdən biri də *müfti* vəzifəsi olmuşdur. Müfti fiqhi gözəl bilməli, bu sahədə başqalarından üstün olmalı idi. "Kitab əl-Ənsab" əsərində mufti (fətva[*] verən) vəzifəsində olmuş imam Əbu Turab Əbdülbaqi ibn Yusif ibn Əli ibn Saleh ibn Əbdülməlik ibn Harun əl-Maraği (h. 401-492/1010-1098) haqqında məlumat verilir. Göstərilir ki, Marağadan olan fəzilətli, zahid, xoş rəftarlı, xoş xasiyyətli bu imam Bağdadda qazı Əbuttayyib ət-Təbəridən fiqhi yaxşı mənimsənmiş və onunla məşhurlaşmışdır. Sonra Nişapura gəlmiş və orada mufti olmuşdur[3].

Xilafət dövründə Azərbaycanda adı çəkilən böyük vəzifələrdən biri də şəriət məhkəməsinin başçısı - *qazı* vəzifəsi idi. Şəriətə görə, qazının səsi qanuna bərabər idi və şəriət üçün çətin sayılan məsələlər qazı tərəfindən asanlıqla həll olunurdu. Onların arasında bu vəzifədə olan fəzilət sahibi fəqih Əbülfəth Nəsr ibn Əhməd ibn Sənat əl-Urməvi kimi ziyalıların ölkəsinə gedərək orada şəriət məhkəməsinin başçısı kimi fəaliyyət göstərməsi şəhərin dini-ruhani təbəqəsindən, ziyalı mühitindən xəbər verirdi. Mərvdə əl-Urməvi ilə yaxınlıq edən Əbdülkərim əs-Səmani onunla birlikdə çoxlu hədisləri dinlədiyini yazır. O, əl-Urməvinin öz əli ilə yazdığı şeir parçalarını onun özünün dilindən eşitmişdi[4].

Qazılar bəzən bu və ya digər dini-fəlsəfi cərəyan tərəfində duraraq onların nümayəndələrinə çevrilirdilər. Ərdəbil qazısı şafii-əşari Əbu Əmr Məsud

---

[1] Yenə orada, s.25.

[2] Буниятов Дж.З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанской ССР. Серия истории, философии, права. 1976, № 3, стр.54.

[3] Əliyeva N.A. Əs-Səmaninin Əliyeva N.A. Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə aid mənbə kimi. Bakı, "Şərq-Qərb", 2010, s.163.

[4] Yenə orada.



Qazılar qazısı

ibn Əli əl-Ərdəbili (492/1098-ci ildən sonra vəfat etmişdir) Azərbaycanda dini-fəlsəfi fikrli rasionalist cərəyanın görkəmli nümayəndələrindən biri olmuşdur. Əbülqasim əl-Quşeyrinin tələbəsi olan Əbu Əmr Ərdəbildə qazı vəzifəsində çalışmışdır.

Dövrün qazılarından bəziləri xeyriyyəçilik işləri ilə də məşğul olmuşlar. Zəkəriyyə əl-Qəzvininin "Sədrəddin" adlandırdığı qazı Marağada qazı vəzifəsində çalışırdı. Müəllif onu səxavətli və alicənab adlandıraraq, xeyriyyəçiliklə məşğul olan qazının Qəzvin şəhərinin qala divarlarını ucaltdığını göstərir. Belə divarları hətta dövrünün qüdrətli hakimləri belə tikdirə bilməmişdilər. O, çox böyük hündürlükdə şəhər darvazaları da tikmişdir[1].

Qazılar yeri gəldikcə özlərindən daha nüfuzlu qazılara hörmətlə yanaşaraq hörmət mənasında ayağa qalxaraq öz yerlərini onlara verərək elmi məclisi aparmaq üçün dəvət edirdilər. İbn əs-Sabuni yazırdı: "Hafiz Əbu Tahir Əhməd əs-Siləfi əl-İsfahani İsgəndəriyyədə belə bir əhvalat danışıb: "Şirvanda kəramət sahibi olan və əz-Zərəndi kimi tanınan qazı Əbülqasim əl-Həsən ibn Mümtaz əl-İsfahani varid olanda qazı Əbu Bəkr Əhməd ibn Səhl ibn Sirri əl-Həmədani öz fətvasından əl çəkdi və dedi: "O, bunda məndən üstündür"[2].

Azərbaycanlı qazılardan bəziləri tək Azərbaycan şəhərlərində deyil, Xilafətin digər bölgələrində də şəriət məhkəmələrinə başçılıq edirdilər. Əsli Əbhər[3*] şəhərindən olan qazı Əbu Bəkr Əbdürrəhman ibn Məhəmməd ibn

[1] Буниятов Дж. З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанской ССР. Серия истории, философии, права. 1976, № 3, стр. 54.
[2] İbn əs-Sabuni Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında.Azərbayvan Tarixi Muzeyi-2002, Bakı, "Elm", 2002, s.323.
[*] Əbhər-Zəncan yaxnlığında şəhər. Oradan bir çox maliki məzhəbli fəqih, mühəddis, sifi və ədib çıxmışdır (bax: Əliyeva N.A. Əs-Səmaninin..... 2010, s.91)

Ələviyyə əl-Əbhəri Şaş şəhərində şəriət məhkəməsinə rəhbərlik etmişdir. Xorasanda isə Əl-Əbhəri şikayətlərə baxan idarəyə rəhbərlik edirdi. Əs-Səmaniyə görə, o, h. 342/953-ci ildə Şaş sarayında vəfat etmişdir[1].

Azərbaycanlı qazılar öz peşələri ilə bərabər başqa elm sahələrinə də yiyələnməyə çalışırdılar. İbn əl-Fuvati göstərir ki, Qazı Fəxrəddin Əbu-s-Sariy Ömər ət-Təbrizi həm də gəmiqayırma elmini bilirdi[2]. Qazı-filosof Qiyasəddin Nəsr əş-Şirvani isə ədəbiyyatdan əlavə gəmiqayırma sahəsində də yaxşı biliyə malik idi[3].

XI-XIII əsrlərdə yaşayıb fəaliyyət göstərmiş ərəbdilli müəlliflər mühəddis və qazının müavini vəzifəsinin də adını çəkirlər. Xoylu Əbu Yaqub Yusif ibn Məhəmməd ibn Xuveyyi qazının müavini vəzifəsində çalışmışdır[4]. Ölkəsinə qayıdaraq fəaliyyət göstərən alimlərdən biri də beyləqanlı Əbülməali Əbdülməlik ibn Əhməd ibn Əbdülməlik ibn Əbd Kan olmuşdur. Hədisləri köçürərkən xəttin yaxşı və nəfis olmasını, həmçinin düzgün köçürmə bacarığını mühəddislər yüksək qiymətləndirirdilər. Əbülməali də belələrindən idi. O, Nişapurda, Bağdadda, Cürcanda, Heratda hədis elmini öyrəndikdən sonra vətəninə qayıdaraq mühəddislik etmişdir. Əs-Səmani Əbülməali ilə şəxsən tanış olmasa da, Nişapurda onu görən şeyxlərin Əbülməali barəsində hədis söylədiklərini vurğulamışdır. Əbülməali h. 496/1102-cı ildə Beyləqanda vəfat etmışdir.

Ərəb mənbələrində vəzifələrdə çalışanların fəzilətləri haqqında da məlumatlar var. Əsli Xoydan olan Nukan Tusun bələdiyyə rəisi Yusif ibn Tahir ibn əl-Həsən (v.e.549/1154) həm də əla ədib, bacarıqlı fəqih, təmiz əxlaqlı, xeyirxah, həlim xasiyyətli, xarici görünüşü xoş, gur saçlı, nizam-intizamlı bir şəxs idi. Əbu Turab Əbdülbaqi əl-Marağİ (401-492/1010-1098) bir çox azərbaycanlılar kimi, fiqhi Əbüttayyib ət-Təbəridən öyrənmişdir. Fəzilətli, zahid, xoş rəftarlı, xoş xasiyyətli bu şəxs fətva verən idi[5]. Onların arasında bu vəzifədə olan fəzilət sahibi fəqih Əbülfəth Nəsr ibn Əhməd ibn

---

[1] Əliyeva N.A. Əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi. Bakı, "Qərb və Şərq", 2010, s.89.

[2] Сейидбейли М.Г. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.). Баку, «Чашыоглу», 1999, стр.74.

[3] Yenə orada, стр.118.

[4] Səmani. Kitab əl-Ənsab, II c.,1998, s.480.

[5] Əliyeva N.A. Əs-Səmaninin Əliyeva N.A. Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə aid mənbə kimi. Bakı, "Şərq-Qərb", 2010, s.53.

Sənat əl-Urməvi kimi ziyalıların ölkəsinə gedərək orada şəriət məhkəməsinin başçısı kimi fəaliyyət göstərməsi şəhərin dini-ruhani təbəqəsindən və ziyalı mühitindən xəbər verirdi. Mərvdə əl-Urməvi ilə yaxınlıq edən Əbdülkərim əs-Səmani onunla birlikdə çoxlu hədislər dinlədiyini yazır. O, əl-Urməvinin yazdığı şeir parçalarını özünün dilindən eşitmişdi[1].

Mənbələrdə qazı vəzifəsi ilə bərabər əsgər qazısı ("Qadı-l əsgər") termininin də adı çəkilir. Əl-Əsnəvi "Tabaqatuş-şafiiyyə əl-Əsnəvi" əsərində Şərif Şəmsəddin Əbu Abdulla Məhəmməd ibn Hüseyn ibn Məhəmməd əl-Ələvi əl-Hüseyni əl-Urməvi əl-Mısri (v.e. 1252) haqqında məlumat verərək onun həm də Misirdə "Şərifiyyə" mədrəsəsində dərs deməsini qeyd edir.

Sultan tərəfindən dövlət xidmətinə təyin olunmuş alimlər (üləma) müavinət alır, bəzən də iqta torpaqlarına sahib olurdular. Bununla bərabər bəzən xüsusi hamilik də qalırdı.

Qazılar şəhər başçıları kimi xüsusi statusa malik idilər. Təsadüfi deyil ki, monqollar Təbriz şəhərini alarkən, şəhər sakinləri tabe olaraq onlara müxtəlif hədiyyələr və pul göndərərkən onların sərkərdəsi təşəkkür edərək başçılarının gəlməsini tələb etdi. İbn əl-Əsir xəbər verir ki, onun yanına şəhər qazısı, rəisi və bir neçə zadəgan yollandı[2]. Qazının adının birinci yerdə getməsi onun böyük statusa malik olduğunu təsdiqləyir. Digər bir misal: XI əsrin 80-ci illərinin sonunda İkiçayarasına hökmdar təyin edilən Qaraxani əmiri Əhməd xanının zülmündən qaçan rəiyyətlə birlikdə əyanlar həmin hakimə nifrət bəsləyən ali müsəlman ruhanilərini, o cümlədən şafii qanunvericisi Əbu Tahiri Xorasana Məlikşahın yanına Əhməd xana qarşı yürüş etməyə razı salmaq üçün göndərdi[3].

Səlcuqlar dövründə də iki şəhərdə – Tiflis və Beyləqan kimi şəhərlərin idarəsinin yerli əhalinin əlində olması, yəni daxili müstəqillik barədə mənbələrdə məlumatlar var. Əl-Fariqi qeyd edirdi ki, işğala qədərki (Lori və Aqarani qalalarının işğalı və Tiflisin İslam ölkələrindən ayrı düşməsi-N.

---

[1] Yenə orada.

[2] Ан-Насави Шихаб ад-Дин Мухаммад ибн Ахмад ибн Али ибн Мухаммад ал-Мунши. Жизнеописание султана Джалал ад-Дина Манкбурны. Пер. с арабского, предисловие, комментарии, примечания и указатели З.М. Буниятова. Баку, «Элм», 1973, стр.408.

[3] Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва, «Наука», 1991, стр.94

Əliyeva) qırx il ərzində şəhər idarəetməsi yerli əhalinin əlində idi[1]. S.A.Mesxia Tiflisin, kommuna-şəhər, respublika-şəhər olması iddiasını irəli sürür.

Azərbaycan şəhərlərinin inzibati-idarə quruluşu İslam hüququna-fiqhə əsaslandığı üçün yaxın və oxşar idi. Lakin XI-XII əsrlərdə digər Xilafət şəhərlərinin idarəetmə sisteminin ümumi cəhətləri ilə yanaşı fərqli cəhətləri və özünə xas xüsusiyyətləri də mövcud idi. Artıq bu dövrdə şəhər idarəçiliyi nisbətən təkmilləşmiş və mürəkkəbləşmişdi. Şəhər idarə sistemində müxtəlif pillələr və vəzifələr yaranmışdı. Yazılı mənbələrdə və memarlıq abidələrinin üzərindəki kitabələrdə şəhərlərdə mövcud olan vəzifələrə dair müəyyən məlumatlar saxlanılır. Onların arasında mühüm yerlərdən birini "*rəis"* tuturdu. Tədqiqatçi R.Məmmədov göstərir ki, şəhər rəisi institutunun X əsrdə meydana gəlməsi Azərbaycan feodal şəhərlərinin tam təşəkkülü prosesinin başa çatması dövrü ilə eyni vaxta düşüb, şübhəsiz ki, bu prosesin bilavasitə nəticəsidir[2].

XI-XII əsrlərdə *şəhər rəislərinin* iqtisadi potensialı xeyli yüksəlmişdi. Onlar şəhərin varlı silkinə mənsub olub, iri iqamətgahlar və torpaq sahələrinə, karxanalar və karvansaralara malik idi. Rəis vəzifəsi, adətən irsi xarakter daşıyırdı. V.Minorskiyə görə, böyük məbləğdə pul vəsaiti və çoxlu əmlakı olan şəhər varlıları şəhər rəisi vəzifəsinə təyin oluna bilərdilər. Lakin, sosial hərəkatlar müvəffəqiyyətlə nəticələndikdə bəzən nadir hallarda şəhər rəisləri əhalinin orta və aşağı ictimai təbəqəsindən də təyin edilirdi[3]. Sara Aşurbəyliyə görə, XI əsrin 70-ci illərinin sonlarından Şirvanda şəhər əhalisi arasında feodal hakimiyyətindən yaxa qurtarmağa, şəhərin idarə olunmasında müstəqilliyə can atan rəislər zümrəsi güclənmişdi[4]. Bakının İçərişəhər hissəsindəki Sınıqqala məscidindəki h.471-ci (1078/9) ilə, yəni Fəribürzün səlcuq sultanına tabe olduğu dövrə aid kitabədə məscidin əl-ustad ər-rəis Məhəmməd ibn Əbu Bəkr tərəfindən tikildiyi göstərilir. Müəllif Fəribürzün adının çəkilməməsini, səlcuqlara tabe olan Şirvanın daxili siyasi vəziyyəti və Bakıda rəislərin hakimiyyətinin güclənməsi ilə əlaqələndirir.

---

1 Месхиа Ш.А. Дидгорская битва.Тбилиси. «Мецниереба», 1974, стр.66.

2 Məmmədov R.A. XI-XII əsrlərdə Azərbaycan şəhərlərinin inzibati-idarə quruluşu. Azərb.SSR EA Azərbaycan Tarixi Muzeyinin 1987-ci il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyanın materialları, Bakı, "Elm", 1988, s.16.

3 Yenə orada, s.17.

4 Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, "Azərnəşr", 1997, s.147.

Şəhərin inzibati işləri və mülki idarələrinə başçılıq edən *kələntər* şah və ya sultan tərəfindən varlı tacir və əyanlardan təyin olunurdu. Əfzələddin Xaqani Şirvanşah Axsitana yazdığı mədhiyyədə dövlət sistemində yüksək vəzifə tutan Şamaxı şəhərinin kələntəri Seyfəddin Atabəy Mənsurun adını çəkir və onun hökmdardan sonra mühüm bir vəzifə sahibi olduğunu göstərir. Kələntər vergilərin müəyyənləşdirilməsinə və toplanmasına da nəzarət edirdi.

Orta əsrlərdə bir şəxsin iki vəzifəni icra etməsi haqqında da məlumatlar var. Təbriz sakini Məcdəddin Əbülməcd əş-Şirvani Şirvanda həm müdərris, həm də qazı olmuşdu. İbn əl-Fuvati hər iki vəzifəni icra edən bu şəxsiyyətin elmi keyfiyyətlərini açıqlayır: alim, şeyx, çoxsaylı təfsirlər bilən fəqih, disput aparmaq məharətinə malik Məcdəddin Şirvani gecə-gündüz öz üzərində çalışırdı[1]. Əbu Turab Əbdülbaqi ən-Narizi əl-Marağinin (v.e.h. 491/1097) xoşniyyətli mömin və görkəmli imam kimi xüsusiyyətləri onun həm tədrisə, həm də “Uqeyl” məscidində ruhani rəhbər vəzifəsinə təyin edilməsinə səbəb olmuşdu[2].

Əgər müsəlman fəthləri dövründə bir şəxsin üzərinə iki vəzifə qoyulması hallarına rast gəlinirdisə və onlar hər iki vəzifəni təmənnasız, vicdanla yerinə yetirirdisə, səlcuqlar dönəmində bundan sui-istifadə hallarına rast gəlmək olurdu. Səlcuq hakimi Rizvanın hakimiyyətdə olduğu dövrdə Hələbdə rəis vəzifəsini hələ Ağ-Sunqur və Tutuşun zamanınında tutmuş Bəkətək əl-Məcənnə məhkəmə işləri və vəzirliyi öz əlinə almışdı. Bunu əldə etmək üçün o, özünün rəqibi saydığı vəzir Əbu Nəsr ibn Nəxxası öldürmüşdü. Rizvan yeni rəis təyin etmiş, vəzir və qazı vəzifələri isə yenə də onda qalmışdı[3].

Azərbaycanda Əbdülcabbar hərbi canişin-şihna kimi Beyləqana göndərilmişdi. Əhali ilə olan münaqişəsi onun rəis təyin olunmasına rəvac verməmişdi. Sultanın xüsusi fərmanı Əbdülcabbara rəis vəzifəsini tutmağa

---

[1] Сеидбейли М.Г. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.). Баку, «Чашыоглу», 1999, стр.118.

[2] Səmani, Kitab əl-Ənsab. Leyden, 1912, s.558, v.(a)

[3] Семенова Л.А. Из истории средневековой Сирии (сельджукский период). Москва, «Наука», 1990, стр.69

qadağa qoymuşdu[1]. Buna görə də, Nizamülmülk vəzifə plüarizminə qarşı çıxmışdı. O, yazırdı: "Dövlətdə böyük, kiçik, orta vəzifələr var. Hər bir amil və mütəsərrifə onun istedadı, qabiliyyəti, ləyaqəti və vəsaitinə görə vəzifə tutmasına əmr verməк lazımdır. Əgər o, bir vəzifəni tutub, ikincisini də istəyirsə, razılıq vermə, icazə vermə ki, yad qaydalar istifadə olunsun"[2].

### 4.3. Azərbaycalı alimlərin fəzilətləri

Bioqrafik əsərlərin müəllifləri ziyalıları təqdim edərkən onları başqalarından fərqləndirən üstün cəhətlərini də göstərməyə çalışmışdır. Onlar ilk növbədə alimin müsbət xüsusiyyətlərinin cəmi kimi fəzilət sahibi olmasını əsas götürür, bu cəhətə üstünlük verirdilər. Bütün məqalələrdə ana xətlə keçən bu cəhətlə yanaşı siqə (biliyinə, danışdıqlarına etimad edilən şəxs, nüfuz sahibi), fiqh və hafizlikdə tanınması ziyalının daha yüksək statusa malik olmasına kömək edirdi. Hədis elmini yenicə öyrənməyə başlayanlar belə alimlərdən öyrənməyə can atırdılar. Dövrün tanınmış alimlərinin hədis söyləmək qabiliyyəti xüsusilə təqdir edilirdi. Əs-Səmani belə qabiliyyətə malik Əbu Bəkr Əhməd ibn Ravh əl-Bərdəi əl-Bərdici haqqında yazırdı: "Dövrünün elə bir imamını tanımıram ki, onu seçib ondan faydalanmasın"[3].

Hədisin düzgün danışılması da mühəddislərin xüsusi qabiliyyəti sayılırdı. Mühəddisin söylədiyi hədisin səhihliyini (düzgün olması) və dəyərliyini bir sıra amillər şərtləndirirdi. Belə şərtlərdən biri bu idi ki, mühəddisin söylədiyi hədisdə Məhəmməd peyğəmbərin (s.a.s.) özünə aid rəvayətlərə də tənqidi yanaşılması nəzərə alınırdı. İkinci şərtə görə, rəvayətləri bir-birinə nəql edənlər (ötürənlər) isnadlara əsaslanmalı idilər. İsnadın səhih olması bütün raviləri düşündürürdü. Ona görə də hədislərin səhih ötürülməsi üçün isnad zəncirində onlardan sonra kimin gəlməsi də ravilər üçün önəmli idi.

[1] Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М. Бейлиса. Москва, «Наука», 1970, л. 182 аб.
[2] Сиасет-Наме. Книга о правлении вазира XI столетия Низам ал-Мулька. Перевод, введение и изучение памятника и примечания проф. Б.Н. Заходера. Москва-Ленинград, 1949, стр.170-171.
[3] Səmani. Kitab əl-Ənsab. Beyrut, Ic., 1998, s.328-329.

Əs-Səmani bərdəli Əbu Əli Hüseyn bin Səfvan bin İshaq bin İbrahimin (v.e. 340/951) bu cəhətinə-hədisi düzgün söyləməsinə önəm verərək "əl-Ənsab" əsərində onu qiymətləndirmişd[1]. Ravilər mühəddislərin hədisi düzgün, yaxud qeyri-düzgün söylədiyini təyin etmək üçün bəzən etibarlı mənbələrdən onların fikrini də öz əsərlərinə əlavə edirdilər. Əs-Səmani İbn Əbu Hatəmin Əbu Səhl Səri bin Mehran Zəncaninin "Hədisi düz danışan olması" barədəki fikrini əsərinə əlavə etmişdir[2].

Ravilər arasında mühəddislərin hədisi düzgün söyləməsi ilə bərabər onların zahidliyi və imanı da nəzərə alınırdı. Qeyd etmək lazımdır ki, orta əsrlərdə ziyalının ən ümdə və ən ali sayılan keyfiyyəti də onun imanının nə dərəcədə yüksək məqamda durmasından asılı idi. Sarsılmaz, səbatlı, mətin inam. İbn Həcər əl-Əskəlani saydığı 12 xüsuyyət arasında birinci yerdə bu xüsusiyyəti görür.

Bərdədən olan digər həmyerlimiz Abid Əbu Bəkr Əbdüləziz ibn əl-Həsən Bərdəinin məhz bu xüsusiyyətlərini nəzərə alan Əbu Bəkr Məhəmməd ibn İshaq ibn Xüzeymə hədislərini ona etibar etmişdi. Abid Əbu Bəkr Əbdüləziz ibn əl-Həsən Bərdəi Əbu Bəkr Məhəmməd bin İshaq bin Xüzeymənin yanına gəlmiş yadelli (ər.- غريب ğarib) səyyahlardan idi. İbn Xüzeymə sağlığında da, ölümündən sonra da bərdəli Əbu Bəkr Nişapurda müfid olmuşdur. 318/930-cu ildə Nişapuru tərk edib Ribati-Fəravəyə getmiş, bir müddət orada qalmış, sonra Nəsada məskunlaşmış və 323/934-cü ildə orada vəfat etmişdir[3].

Əbu Übeydulla Hüseyn ibn Əhməd ibn Məhəmməd əz-Zəncani zahid olmaqla yanaşı o qədər hörmətli və bilikli idi ki, adamlar ondan xeyir-dua alırdılar. Vaxtilə müqəddəs ocağın (Kəbə məscidi - N.Ə.) şeyxi olmuş Məhəmməd əz-Zəncaniyə paxıllıq edən bir nəfər Məkkə əmirinə demişdi: "Adamlar Zəncaninin əlini qara daşdan çox öpürlər". Əs-Səmani yazırdı ki, babam imam Əbülmüzəffər əs-Səmani, Əbülfəzl əl-Müqəddəsi və Əbu Cəfər əl-Həmədani onun hədislərini dinləmişlər. Əbülmüzəffər Əbdülmünim ibn Əbülqasim əl-Qüşeyri ona istinadən bizə hədis söyləmişdir[4].

Əgər əvvəllər hədislər yaddaşlarda saxlanırdısa, vaxt keçdikcə

---

[1] Səmani.Kitab əl-Ənsab.Beyrut, 1998, I c., s.330.
[2] Yenə orada, III c., s.188.
[3] Yenə orada, I c., s.331.
[4] Səmani. Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.187.

isnadların sayının artması hədis ötürücülərinin adlarının düzgün qeyd edilməsi zərurətini ortaya çıxarırdı. Buna görə də hədis və onun raviləri artıq yazılı şəkildə təsnif edilirdi. Əbülməali Əbdülməlik ibn Əhməd ibn Əbdülməlik ibn Əbd Kan əl-Beyləqaninin (v.e. 496/1102) xəttinin yaxşı olması və düzgün köçürməsi bu işi asanlaşdırırdı. Əs-Səmani onun bu cəhətini qiymətləndirərək əsərində qeyd etmişdir[1].

Bəlağətli dil hər ziyalıya nəsib olmurdu. Fəziləti ilə məşhur imamlardan biri Əbülqasim Həriz Əhməd ibn Həriz Səlmasinin etiqadının saflığı ilə bərabər, dili də bəlağətli idi. Əbülqasim əs-Səlmasi Mütəhhər ibn Məhəmməd əl-İsfahanidən dinləmə yolu ilə hədis öyrənmişdir. Müfid Əbülbərəkət Hibətulla ibn Mübarək Səqti kimi tanınmış hədis bilicisi Həriz əs-Səlmasiyə istinadən hədis nəql etmişdir. Bu isə Səlmasdakı islam elmi mühitindən xəbər verir[2].

VII əsrin axırları – VIII əsrin əvvəllərində hədis uydurmaçılığının olduqca çoxalması ilə əlaqədar hədislərin sayı dəhşətli dərəcədə artmışdı[3].



***İmam buxari***



***Əhməd ibn Hənbəl***

"Əl-Müsnəd" hədis toplusunun müəllifi Əhməd ibn Hənbəl (v.e.855) öz dövründə rəyayət edilən 750000 hədisdən təxminən 30000 hədisi, "Əl-Cami

[1] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. B., "Çaşıoğlu" 1999, s. 217; Səmani. Kitab əl-Ənsab.Beyrut, I c, 1998, s.458.
[2] Əliyeva N.A. Səmani. "Kitab əl-Ənsab", Beyrut, III c., 1998, s.298.
[3] Səmani. Kitab əl-Ənsab. Leyden, 1912, s.5-8.

əs-səhih" kitabının müəllifi Muhəmməd ibn İsmayıl əl-Buxari (v.e.870) isə 650000 hədisdən yalnız 7400 səhih, yəni doğru olan hədis seçmişlər[1]. Hədis söyləyənlərin sayının çoxalması ricəl elminə, yəni hədis nəql edən şəxslər haqqında elmin inkişafına zəmin yaratmışdı. Mühəddisin adil və sadiqliyi, onların kitab müəllifi olub-olmaması, şəxsi keyfiyyətləri, əsli, kimlərlə dostluq etməsi və bu kimi məsələləri rical elmi tədqiq edirdi. Ravilər siqə (biliyinə, söylədiklərinə etimad edilən şəxs, nüfuz sahibi) və zəif ravılər təsnif edilirdi. Məcmu halda məlumat verən siqə ravilərin əsərləri içərisində önəmlilərindən biri Əbül-Həsən əl-İclinin (v.e.261/875) tabiilər, onlara tabe olanlar və tabe olanları izləyən nəsildən siqə qəbul etdiyi raviləri toplayaraq əlifba sırası ilə düzdüyü, daha sonra Nurəddin əl-Heysəminin, İbn Həcər Əsqəlaninin, əz-Zəhəbinin və b.-nın əsərlərini qeyd etmək olar. Ravilərlə yanaşı mühəddislərin də seçimli siqələri təqdir edilirdi.

"Əl-Ənsab" əsərində azərbaycanlılardan bir neçə nəfər "siqə" adlandırılaraq biliyinə, söylədiklərinə etimad edilən şəxs qeydə alınmışdır. Əs-Səmani şafii məzhəbli fəqih Əbülhüseyn Yaqub ibn Musa Ərdəbilini etibarlı şəxs, fəzilət sahibi kimi həm də siqə adlandırır. O, yazır ki, bunu Əbu Bəkr əl-Bərqani də təqdir etmişdir.

Əs-Səmani Xətib Bağdadiyə isnadən Əbu Abdulla əl-Hüseyn ibn Cəfər ibn Məhəmməd ibn Cəfər ibn Davud ibn əl-Həsən əs-Səlmasinin bir sıra müsbət keyfiyyətlərini dəyərləndirmişdir. Bunlardan vacib keyfiyyət onun siqə olmasıdır. Müəllif bu təriflə bərabər Əbu Abdullanın digər müsbət xüsusiyyətlərini də qələmə alır. Əbu Abdulla əs-Səlmasi həm də etibarlı insan idi, xeyirxahlıqda, kasıblara əl tutmaqla, çoxlu sədəqə verməklə məşhur olmuşdur[2].

Əsli Sührəvərddən olan Zəhli Sührəvərdi şeyx, siqə, hədisi düzgün söyləyən ravi olmaqla bərabər, həm də dilçiliyi yaxşı mənimsəməsi, ədəbiyyatı bilməsi, şeir deməsi ilə tanınmışdı. Siqə kimi tanınan mühəddis Əbu Tahir Möhsün bin Cəfər bin Məhəmməd bin Cəfər bin Davud bin Həsən bin Səlmasi (v.e.436/1044) həm də hədisi yaxşı dərk etməsi ilə fərqlənirdi.

---

[1] Əliyev R.Y. Dinin əsasları. Bakı, Əbilov, Zeynalov və oğulları, 2011, s.67
[2] Səmani. Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.298.

İbn Maraği kimi tanınan Əbülqasim Əli ibn Əhməd ibn Həsən də (326-411/937-1020) siqə idi, çoxlu hədis bilirdi[1].

Azərbaycanlı ziyalılardan əsli Şirvandan olan fəqih Əbu Bəkr Məhəmməd bin Üşeyr ibn Mərufun əməlisaleh olması onun fəzilətlərindən idi. Bağdaddakı Nizamiyyə mədrəsəsində yaşayan Əbu Bəkr əş-Şirvani İlkiya əl-Hərasidən fiqhi öyrənmişdir. Ona istinadən Müqri Əbülxeyr Mübarək ibn Hüseyn Qəssal əs-Səmaniyə hədis nəql etmişdir[2]. Fəqih Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əl-Ərdəbilinin (v.e. 538/1143)- əməlisaleh, ləyaqətli olması ilə bərabər həm də köhnə şeirləri əzbər bilməsi vurğulanır[3]

Fəzilətli, əs-Səmaninin "şeyximiz" adlandırdığı Əbülfəzl Məhəmməd ibn Ömər ibn Yusif əl-Urməvi əl-Lövzi (453-547/1061-1152) məzhəbi yaxşı bilən imamlardan sayılırdı[4]. Fəzilətli, zahid imam olan marağalı Əbu Turab Əbdülbaqi ibn Yusif ibn Əli ibn Saleh ibn Əbdülməlik ibn Harunun (401-492/1010-1098) xoş rəftarlı, xoş xasiyyətli olması onun nüfuzunu daha da artırırdı. Bağdadda şöhrət tapmış Əbu Turab əl-Maraği Nişapurda müfti kimi qalmışdır. Əs-Səmani Bağdad, Nişapur, Damğan, Mərv, Nuqan, Miyənə, İsfahan kimi şəhərlərə səfəri vaxtı ona istinadən nəql edilən hədisləri dinləmişdi[5]. Fəzilətli sufi alim ədib, fəqih Əbülhəsən Əli ibn Həskəveyh ibn İbrahim əl-Maraği (v.e.516/1122) də xoş rəftarı ilə seçilirdi[6].

Mühəddislər arasında hədis öyrənmək niyyətilə ən çox səyahət edən, ən çox hədis toplayan Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Haris əl-Marağı 60 ildən çox hədis yazmış və ömrünün sonunadək yazmaqda davam etrmişdir. Bu işdə çox ardıcıl və dəqiq idi. əs-Səmani mühəddisin bu cəhətini fəzilət kimi qiymətləndirmişdir[7].

Məşhur mühəddis Əbu Zür'ə əd-Diməşqininin (v.e.281/894) künyəsi verilmiş səksən şəxsdən biri də həmyerlimiz ərdəbilli şeyxi Əbu Zür'ə Əbdülvahab ibn Muhəmməd ibn Əyyub (v.e.415/1024) olmuşdur[8]. Aşağıdakı sözlər bu zahid şeyxin nəsihətlərindəndir: "Ömrünüzün uzunluğunu

---

[1] Səmani. Kitab əl-Ənsab. Beyrut, III c., 1998, s.299.
[2] Yenə orada, s.443.
[3] Səmani. Kitab əl-Ənsab. Beyrut, V c., 1998, s.19.
[4] Yenə orada, s.23-24.
[5] Yenə orada, s.130.
[6] Yenə orada, s.130-131.
[7] Yenə orada, s.131.
[8] Səmani, I c., s.109.

xalqı incitmək üçün yox, onun rifahını təmin etmək üçün istəyin. Bizim təriqətimizdə yaşayış bundan başqa bir şey deyildir, heç kimə əzab-əziyyət vermək istəmirik, bacardıqca insanların rahatlığını istəyirik”[1].

Məşhur ərəb şairi əl-Buhturi (819-897) Azərbaycanı ziyarət etmiş şairlərdəndir. Ona görə onun şeirlərini ilk mənbə kimi qəbul etmək olar. Şair Babək üsyanı vaxtı sərkərdə Afşinin qəhrəmanlığını mədh edərək ona şeir həsr etmişdir. Şeirdə deyilir: “Babəkin vaxtında necə də cəngavər kimi bir qəhrəman idin. Və nə qədər tez-tez ölümün qapısını döyürdün. Sən xürrəmilərin Bəzzini tutdun və əlçatmaz hesab olunan yeri tam dağıntıya məruz qoydun”[2]. Azərbaycan ziyalısı Əhməd ibn Osman ən-Narizini xatırlayan Əbülfəz əş-Şeybani onun hafiz olmasını və əl-Buhturinin şeirində xatırlandığını deyib[3].

Beləliklə, ərəb müəlliflərinin qələmə aldıqları Azərbaycandan olan alimlər elmin müxtəlif sahələrində özlərini sınayan, dövrün elmi səviyyəsinə görə uğurlar qazanmış hərtərəfli biliyə malik ziyalı kimi şöhrət sahibi olmuşlar. Bu ziyalılara xas olan müsbət xüsusiyyətlər- fəzilət sahibi olmaları onların nüfuzunu daha da artıraraq bütün Şərqdə şöhrətli etmişdir.

---

[1] Məhəmmədəli Tərbiyət. Danişməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı, “Azərnəşr”, 1987, s.103.

[2] Məhəmmədəli Tərbiyət. Danişməndani Azərbaycan. s.221.

[3] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində, Bakı, “Çaşıoğlu”, 1999, s.221.

# V FƏSİL

# AZƏRBAYCANIN XİLAFƏTİN DİGƏR ÖLKƏLƏRİLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ



### 5.1. Xilafətin mədəniyyət mərkəzlərilə əlaqələri

Ərəb fəthləri mədəni əlaqələrin istiqamət yönünü də dəyişdi. Xilafət tərkibində olan ölkələrin bəzisi ilə Azərbaycanın ticarət, mədəni-elmi əlaqələri artır, digərləri ilə isə yenidən qurulurdu.

*Azərbaycan ziyalıları Şamda.* Böyük İpək Yolu üzərində yerləşən Azərbaycanın islam fəthlərindən sonra Xilafət daxilində birləşmiş ölkələrlə, o cümlədən Əməvilər dövlətinin paytaxtı olmuş Şam ilə ticarət əlaqələrilə yanaşı mədəni əlaqələri də genişlənmişdi. Bunun əsas səbəbi də bu ölkələrin tarixində islam faktorunun hegemon, aparıcı faktor olmasıdır. Bu, islamın qüdrətiydi ki, müsəlman ölkələrində tarix, siyasət və ya siyasi hakimiyyət məhvərində deyil, din məhvərində öyrənilirdi. Hətta islamda tarix sözü ilk dəfə Peyğəmbərin (s.a.s.) hicrəti əsasında müsəlman təqviminin qəbul edilməsi ilə əlaqədar işlədilmişdir. Hicrətdən 17 il keçəndən sonra xəlifə Ömər ibn əl-Xəttab müsəlman təqviminin qəbul edilməsini zəruri saymış və əmr etmişdir ki, bu təqvim 622-ci ilin 16 təmmuz-iyulundan, yəni Peyğəmbərin (s.a.s.) Məkkəni tərk edərək Mədinəyə yola düşdüyü gündən başlasın[1]. Əgər islamdan qabaq tarix, Quranda da verildiyi kimi, peyğəmbərlərin tarixi kimi başa düşülürdüsə, islamda o, alimlərin tarixi kimi öyrənilmişdir. Müsəlman tarixçiləri islam mədəniyyətinin tarixini məlik və əmirlərin həyat yolu əsasında deyil, alimlərin fikri əsasında öyrənirdilər, çünki alimləri peyğəmbərin varisi hesab edirdilər[2]. Buna görə də Xətib Bağdadi, əd-Daraqutni, əl-Hakim Əbu Abdulla, İbn Makula, Əs-Səmani, İbn Nöqtə, İbn əs-Sabuni, Əbu Yusif bin Tahir əs-Siləfi, İbn Xəllikan, İbn Əbi Useybiyə, əl-Cavzi, əl-Qifti,Yaqut əl-Həməvi və digər alimlərin əsərləri elm adamları ilə bağlı yazılmışdır. Bu əsərlərdə Yaxın və Orta Şərqin elm və din daşıyıcıları olan ziyalıları kimi, azərbaycanlıların da islam mədəniyyətinin yaranması və inkişafındakı rolu, onların müxtəlif elm mərkəzlərinə səfərləri, oradakı fəaliyyətləri göstərilir.

Vahid islam dövlətində birləşən xalqlar mənəvi birlik hiss etdikcə ərəb dili və mədəniyyəti sivil aləmdə üstünlük təşkil etməyə başladı. Belə nəhəng bir dövləti birləşdirə bilmiş təsir qüvvəsi təkcə siyasətdə

[1] İslam: tarix, fəlsəfə, ibadətlər. Bakı, “Elm”, 1994, s.328-29.
[2] Həsənli S. İslam mədəniyyətində elm, Bakı, “Elm və həyat”, 1998, s.27.

deyil, dil və intellektual sahədəki maneələrin dağıdılmasında da özünü göstərirdi. Artıq islam dövlətində azərbaycanlı ziyalı Xilafətin mədəniyyət mərkəzlərində başqa xalqların nümayəndələri ilə görüşüb diskussiya apara bilirdi. Belə mərkəzlərdən biri Bağdad, Qahirə, Nişapur, Buxara, İsgəndəriyyə, Qahirə kimi şəhərlərlə yanaşı məşhur məğribli səyyah İbn Cubeyrin "Şərqin cənnəti" və "İslam ölkələrinin üzüyü" adlandırdığı Dəməşq şəhəri idi[1].

XII–XIII əsrlərə aid arxeoloji qazıntılar zamanı Beyləqanda və Gəncədə şirvanşahlar, Əhər məlikləri və gürcülərlə yanaşı Kiçik Asiya səlcuqlarına aid sikkələrin tapılması, bu şəhərlərin ticarət mühiti ilə yanaşı mədəni və elmi əlaqələrinin də inkişaf etməsindən xəbər verir.[2]

Xilafət tərkibində olan ölkələr, o cümlədən Azərbaycanda islam bərqərar olduqca yeni din bu ölkələrin xalqlarını ideoloji cəhətdən birləşdirən böyük qüvvəyə çevirirdi. Bu din daşıyıcılarından olan Azərbaycan ziyalılarının bir çoxu Suriyanın Dəməşq, Hələb, Homs şəhərlərində təhsil almış, bəziləri orada qalaraq müxtəlif tədris müəssisələrində dərs demişlər. Xüsusilə, səlibçilər və monqollar üzərində qələbə Misir və Suriyanın müsəlman mədəniyyəti mərkəzi kimi əhəmiyyətini artırmışdı[3]. Azərbaycanlı alimlərdən bəziləri bu səbəbdən monqolların hücumu vaxtı bu ölkələrə üz tutmuşdular. Taleyin qisməti elə gətirmişdi ki, əsli Xoydan olan, ilahiyyat və fəlsəfə sahəsində gözəl əsərləri olan fəzilətli alim, qazı Şəmsəddin də onların arasında olmuşdu. Şamda lazımınca qiymətləndirməyən alim yalnız Dəməşq mədrəsəsində repetitorluq etmişdir. O, h. 640/1240-cı ildə, cavan yaşında vəfat etmişdir[4].

---

[1] Nəcdə Xəmaş.Əl-asrul-islami hattə nihayətil-ahdil-məmluki//Əş-Şam asımətu-s-səqafə əl-islamiyyə. Dəməşq, 2008, s.140.

[2] Ахмедов Г.М. Города Азербайджана ХП –начала ХШ в. в свете новых археологических исследований.-Альманах Низами Гянджеви.Книга первая. Баку, 1984, стр.86.

[3] Халидов А.Б. Книжная культура//Очерки истории арабской культуры V-XV вв. Москва, 1982, стр. 68.

[4] Буниятов Дж.З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанской ССР. Серия истории, философии, права. 1976, № 3, стр.53.

Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni xəbər verirdi ki, Əbülqasım ibn Ruvaha əl-Ənsari kimi alim, şeyx Azərbaycanın Şirvan bölgəsindən olan Əbülhəsən əl-Müfəddidin tələbəsi olmuşdur[1]. Əbülhəsən ona qiraətdən dərs demişdi. İbn əs-Sabuninin özünün Dəməşqdə mühazirələrini dinlədiyi digər azərbaycanlı ziyalı h. 560/1164-cü ildə anadan olmuş Əbu Şəfa Xəlil ibn Əhməd ibn Xəlil ət-Təbrizi 655/1257-ci ildə vəfat edənə qədər burada qalaraq fəaliyyətini davam etdirmiş, Dəməşqdə, sufilərin qəbirstanlığında dəfn edilmişdir[2].

Əsli Azərbaycandan olan Əbu Əhməd Zəki ibn əl-Həsən ibn İmran əl-Beyləqani də Dəməşqə gəlmiş, orada hədislər söyləmişdi. Şafii məzhəbindən olan Əbu Əhməd ilahiyyat alimi, həm də tacir olmuşdu. Fəzilətli fəqih kimi tanınan alim bu elmi, İbn əl-Xətib kimi tanınmış İmam Əli Abdulla Məhəmməd ibn Ömərə öyrətmişdi. Əl-Beyləqani haqqında oxucularını məlumatlandıran İbn əs-Sabuni Dəməşqdə olarkən onun mühazirələrini dinlədiyini xəbər verir[3]. Şamda yüksək vəzifə tutmuş şəxslərdən biri də "hikmət elmlərində zəmanəsinin yeganəsi, şəriət işlərində öz zəmanəsinin görkəmli alimi, tibbin əsaslarının bilicisi" Şəmsəddin Xoylu olmuşdur[4]. Misridən sonra Şamda baş qazi vəzifəsini tutmuş azərbaycanlı alim Cəmaləddin 7 şəban 637-ci ildə (2 mart 1240-cı) vəfat etmiş və Kasiyun dağının ətəyində dəfn olunmuşdur.

Əs-Səmani Şamla əlaqəsi olmuş Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Haris əl-Maraği haqqında maraqlı məlumat verir. Əbu Məhəmməd hədis öyrənmək üçün ən çox səyahət edən, ən çox hədis toplamaqda ad çıxarmışdı. 60 ildən çox hədis yazmış və ölənədək yazmağa davam etmişdir. Bu işdə ən düz və ən dəqiq adam idi. Əs-Səmani əl-Hakim ən-Nişapurinin "Nişapur tarixi əsərinə əsaslanaraq yazır ki, Əbu Məhəmməd əl-Maraği Şamda olarkən yazdığı əsərləri orada qalmışdı. Bu, alimin uzun müddət Şamda yaşadığını və əsərlərini

---

[1] Kitəbu Təkmiləti İkməlil-İkməl bi İbn əs-Sabuni, İraq,1377/1957, s.316.
[2] İbn əs-Sabuni, Kitəbu Təkmiləti İkməlil-İkməl bi İbn əs-Sabuni, İraq, 1377/1957, s.55.
[3] İbn əs-Sabuni, 1957, s.144.
[4] İbn Əbi Üseybiə.Uyun əl-ənba fi tabəqat əl-ətibba. I-II, Misir, h.1299 (1881), s.355; Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, 1978, s.76.

də orada yazdığını göstərir. 356/966-cı ildə Nişapurda vəfat edərkən Cəfər əl-Marağinin yaşı 80-dan çox idi[1].

H. 339 (950)-ci ildə İsfahana gəlmiş Məkki ibn Bəndər əz-Zəncani, Misir və İraqla bərabər Şamda da çox sayda hədis yazmışdır[2].

Vaxtilə müqəddəs ocağın şeyxi olmuş Əbu Abdulla Hüseyn ibn Əhməd ibn Məhəmməd əz-Zəncani Şam və Misir əhlindən olan bir qrup adama istinadən hədis söyləmişdir. Hörmətli, bilikli, zahid olan Məhəmməd əz-Zəncanidən adamlar xeyir-dua alırdılar. Hətta ona paxıllıq edən bir nəfər Məkkə əmirinə demişdi: "Adamlar əz-Zəncaninin əlini qara daşdan çox öpurlər". Azərbaycanlı alimlərin Dəməşqlə əlaqəsindən bəhs edən müəlliflərdən biri də məşhur hafiz İbn Tahir Yusif əs-Siləfi (478/1085-576/1180) olmuşdur. İbn əs-Sabuni öz təhsil illəri barədə yazarkən əs-Siləfidən ilk mənbə kimi istifadə edir. O yazır: Dəməşqdə və Qahirədə mühazirələrini dinlədiyim alim-şeyxlər Əbülqasım ibn Ruvaha və Əbülhəsən Əli ibn Cubara əl-Kindidən aşağıdakı məlumatı almışam: "Əl-Hafiz Əbu Tahir əs-Siləfi əl-İsfahani bizə belə bir əhvalat danışıb: "Şirvanda kəramət sahibi olan Əbülqasım əz-Zərəndi varid olanda Əbu Bəkr Əhməd əl-Həmədani öz fətvasından əl çəkdi və dedi: "O bunda məndən üstündür". Əs-Siləfi bu sözləri Şirvanda Əbülhəsən əş-Şirvanidən eşitdiyini yazır. Əs-Siləfi bu məlumatı özünün "Mucəm əs-səfər" əsərində də qeyd etmişdir[3].

Adı Dəməşqlə bağlı digər bir azərbaycanlı alim də əl-Həsən ibn Əbülhəsən əs-Safi idi. Əslən Urmiyadan olan Əbu Nəzar dilçi idi. "Maliku-n-nühat" ("Dilçilərin başçısı") kimi şöhrət tapmış bu alim üçün Dəməşqdə məscid açılmış, o orada dərs demişdi. İbn Əsakirin məlumatından istifadə edən Yaqut əl-Həməvi "Mucəm əl-Buldən" əsərində onun 10-a yaxın əsərinin adını çəkir[4]. Onun əsərləri arasında

[1] Əliyeva N.A. Yaqut əl-Həməvi və Azərbaycan. Bakı, "Çaşıoğlu", 1999, s. 131-132
[2] Əs-Səmani. Kitab əl-Ənsab, III c., s.187
[3] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan. B., "Elm və təhsil", 2016, s.34.
[4] Əliyeva N.A. Yaqut əl-Həməvi və Azərbaycan. Bakı, "Çaşıoğlu", 1999, s.206.

müxtəlif mövzularda, o cümlədən qrammatika, şeir, qiraət elmi[1*], fiqh, dinin əsasları haqqında kitablar əsas yer tutur. Şam bölgəsindəki alimlərin hədis məclisləri digər müsəlman alimləri kimi, azərbaycanlıların da cəm olduqları yer olmuşdur. Azərbaycanlı ziyalılardan ilahiyyatçı alim Məkki ibn Əhməd Səadaveyh əl-Bərdəi[2], Miməz şəhərinin qazısı olmuş Əbu İshaq əl-Ənsari[3], bərdəli Səid ibn Əmr ibn Əmmar Əbi Osman əl-Əzdi[4], Səlmaslı Musa ibn İmran ibn Musa ibn Hilal[5], naxçıvanlı Əhməd ibn Hicaf Əbu Bəkir əl-Azəri ən-Nəşavi[6] və başqaları hədis toplamaq üçün Dəməşqi ziyarət edənlər arasında olmuşlar. Onlar burada o dövrün tanınmış mühəddislərindən Əbu Zura əd-Diməşqi (v.e. 281/894)[7] , Əhməd ibn Uşeyr,

---

[*] Qiraətin tədrisdə böyük əhəmiyyəti olmudur. Yaqut əl-Həməvi Xətib Təbrizinin kitabından qiraət etdiyini yazırdı. Burada işlədilən “qar`a” sözü texniki termin kimi hər növ qiraəti deyil, yalnız qiraətin müəyyən növünü bildirir. Tələbə müəlliminin qarşısında öyrənmək istədiyi mətni oxuyur. Bu mətnin yazısını o ya özü əvvəlcədən hazırlaya bilər, ya müəllimindən, ya da üçüncü şəxsdən götürə bilərdi. Bu kontekstdə Xətib Təbrizi tələbə qismində mətn kimi Xətib Bağdadinin əsərini götürmüşdür. Tələbə mətni səsləndirməli idi. Bu isə asan məsələ deyildi, yəni bu zaman tələbə çalışırdı ki, əsəri düzgün başa düşdüyünü nümayiş etdirsin. Əgər ona bir şey aydın olmazsa, müəlliminə sual verməli idi. Müəllimin rolu isə ondan ibarət idi ki, mətnin düzgün oxunmasına nəzarət etsin, lazım gələn yerlərdə düzəliş və qeydlərini desin, suallara cavab versin, mətni şərh etsin. Burada mətn müəllimin özünün olduğuna görə o, onu kimdən və necə öyrəndiyini aydınlaşdırmalı idi .Orta əsr ərəbdilli müəlliflərin əsərlərinin tekstoloji cəhətdən təhlili deməyə əsas verir ki, bu əsərlər son dərəcə kompilyativ xarakter daşıyır. Buna səbəb, məlum əsərlərin redaktə və şərh olunması yolu ilə yeni əsərlərin yaradılmasına imkan verən mövcud elmi biliklərin ötürülməsi ənənəsi idi. Orta əsrlərin təlim üsulu və hədis elminin tədrisi ənənəsinə görə, müəllim tələbəyə bilik tədris edərkən, öyrətdiyi elmin hansı mənbəyə əsaslandığını göstərməli idi. Həm də öyrənərək isnad etdiyi əsərin istifadə olunması üçün müəlliminin yazılı “icazəsi” olmalı idi. Beləliklə, “İcazətnamə” deyilən bu sənəd təlimin keyfiyyətli, doğru məlumatın ötürülməsinin adekvat olmasının qarantı kimi bir növ diplom rolunu oynayırdı. Ona görə də, müəlliflər bir-birlərindən əxz etdikləri məlumatları redaktə edir, əsərlərdə olmayan məlumatları əlavə etməklə yeni mənbələr yaratmış olurdular.

[2] Əliyeva N.A. Yaqut əl-Həməvi və Azərbaycan. Bakı, “Çaşıoğlu”, 1999, s.215.

[3] Yenə orada, s.219.

[4] Yenə orada, I c., s.382.

[5] Yenə orada, II c., s.239

[6] Yenə orada, V c., s.278

[7] M.Yaşar Kandemir. Ebu Zur”a ed-Dimaşki. İslam ansiklopedisi. İstanbul, 1994, 10-cu cildi, s.272-273

Yəhya ibn Talib əl-Əkkab, Əbuddəhdah kimi tanınmış mühəddislərdən hədis elmini öyrənmişlər. Azərbaycanlı ziyalılar hədisləri dinləməklə yanaşı, hədis hafizləriylə müzakirələr də aparırdılar.

433/1041-42-ci ildə Dəməşqdə təşkil olunan belə məclislərin birində Məhəmməd ibn Abdulla ibn Bəndər əl-Mərəndi əslən Bağdaddan olan əd-Daraqutni, İbn Şahin, Əbu Həfs əl-Kinəni və başqaları haqqında söhbət açmışdır[1].

Suriyanı ziyarət edərkən burada məskunlaşıb fəaliyyət göstərən azərbaycanlı alimlərdən bəzisi hətta Dəməşq şəhərinin adını da öz nisbələrinə daxil etmişlər. Əslən Gəncədən olan İsmayıl ibn Əli İbrahim əl-Cənzəvi (v.e.588/1192) ikinci nisbə kimi, əd-Diməşqi nisbəsi ilə də tanınmışdır[2]. O, Bağdadda Əbülbərəkət Hibbətullah əl-Buxari kimi böyük alimlərin yanında təhsil almışdır.

Azərbaycanlıların Suriyada yaşayıb fəaliyyət göstərdikləri ikinci böyük şəhər Hələb olmuşdur. Əbu Bəkr Məhəmməd ibn Bərəkə əl-Bərdəi kimi alimin öz həmyerlisi Musa ibn İmran əs-Səlmasiyə (v.e.h.380) elm öyrətməsi məhz Hələb şəhərində baş tutmuşdu[3]. Təbrizdə 613-cü (1216) ildə doğulan digər azərbaycanlı muqri (Quran oxuyucusu) Məhəmməd Əbdülkərim ibn Əli ət-Təbrizi də Hələbə köçərək orada fəaliyyət göstərən ziyalılardan sayılırdı[4] .

Azərbaycan ziyalıları Dəməşq və Hələb şəhərləri ilə yanaşı *Homsdan* olan alimlərlə də təmasda olmuşlar. Səmərqənd şəhərində şərəfinə imla məclisi qurulan bərdəli alim Əbu Bəkr Məkki bin Əhməd orada məlumat verdiyi alimlər arasında homslu əl-Abbas ibn Cabirin adını çəkərək ondan hədis söyləmişdir[5]. Qeyd etmək lazımdır ki, Şam şəhərlərində fəaliyyət göstərən şeyxlər bəzi azərbaycanlıların alim kimi yetişməsində böyük rol oynamışlar. Ədəbiyyat və qrammatika sahəsində tam biliyə malik, dilçilik sahəsinin imamlarından sayılan, Nizamiyyə mədrəsəsində dilçiliyin tədrisi kafedrasına və oradakı kitabxanaya başçılıq etmiş böyük dilçi Əbu Zəkəriyyə Yəhya ibn Əli ibn Məhəmməd ibn Həsən ibn Bistam əş-Şeybani

---

1 Yaqut əl-Həməvi. Mucəm əl-Buldən, Beyrut, 1977, V c., s.110.

2 Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu, 1999, s.224.

3 Yenə orada.

4 İbn Həcər əl-Askalani .Əd-Durər.., IV c., s.142.

5 Əs-Səmani.Kitab əl-Ənsab. Beyrut, I c., 1998, s.328.

ət-Təbrizi Bağdaddakı Nizamiyyə mədrəsəsində uzun müddət dərs demişdir. Əs-Səmani onun hədis sahəsindəki fəaliyyətini də qeyd edir[1]. Onun bir alim kimi formalaşmasında müqri Əbüləla Əhməd bin Abdulla ibn Süleyman, Əbülfəth Səlim ibn Əyyub ər-Razi, Əbülqasim ər-Rəqqi, Əbdükərim əs-Səyyari və digər şamlıların böyük rolu olmuşdur[2].

Beləliklə, Yaxın və orta Şərq xalqları ilə yanaşı azərbaycanlı alimlərin aparıcı qüvvələrinin bir hissəsinin formalaşmasında digər mədəniyyət mərkəzləri ilə yanaşı qaynar elmi - mədəni həyati ilə fərqlənən Şam şəhərlərinin böyük rolu olmuşdur. Azərbaycandan olan alimlər buradakı alimlərlə qaynayıb-qarışmış, Şamdan olan məşhur şəxslərdən dərs almış, bir tərəfdən orada elmi potensialı_artırmış, onlardan öyrənmiş, digər tərəfdən orada yaşayıb fəaliyyət göstərən ziyalılarla ədəbi, dini və müxtəlif elm sahələri üzrə mühazirələr söyləyərək elmi disputlar keçirmiş, bəziləri isə orada məskunlaşaraq fəaliyyətlərini davam etdirmişdir.

Orta əsrlərdə islam dini elmləri - Quranın təfsiri, hədis və fiqh ən ləyaqətli elmlərdən sayılırdı. Artıq XI əsrdə ilahiyyat elmi müsəlman ideologiyasının aparıcı qüvvəsi olduğundan bu dövrün ərəbdilli bioqrafik ədəbiyyatının nümayəndələri öz əsərlərində ilahiyyatçılara xüsusi örnək vermişlər. İlahiyyatçılar, fəqihlər mədrəsələrdə çalışan müəllim və şagirdlər rəsmi ideologiya olan islamın daşıyıcılarına çevrilirdilər.[3]

*Bağdadda.* X-XII əsrlərdə islamın mərkəzi olan Bağdad şəhərində kənardan gəlmə alim və şairlərin ədəbi söhbətlərə, yığıncaqlara dəvət edilməsi adət şəklini almışdı. Xəlifələr, vəzirlər və digər yüksək mənsəb sahibləri alim və şairləri məclislərinə dəvət etməklə onlara özlərinin ədəbiyyat və şeir sahəsində biliklərini nümayiş etdirmələrinə imkan verirdilər. Belə açıq mühazirələr üçün hətta məscidlərdən də istifadə olunurdu. Görkəmli şəxslər də məclislər təşkil edirdilər. Hədis bilicilərindən olan Əhməd ibn İbrahim ibn Musa ibn Abdulla əl-Cənzini atası Əbu Əmr ibn Mundaveyhin məclisinə gətirmiş, o əbu Əbu Əmrə hədis öyrətmişdi[4].

Bağdada köçərək burada fəaliyyət göstərən alimlər arasında öz nüfuzuna,

---

[1] Əs-Səmani.Kitab əl-Ənsab. Beyrut, I c., 1998, s. 469.

[2] Yenə orada.

[3] Мирзоева Э. Городское управление Азербайджана (XI-XIII века). Баку, «Нурлан», 2002, стр.51.

[4] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. B., Çaşıoğlu, 1999, s.218.

elmi dünyagörüşünə və səviyyəsinə görə digələrlərindən seçilən alimlər az deyildi. Onlardan Məhəmməd ibn Uşeyr ibn Məruf Əbu Bəkr əş-Şirvani (v.e. 547/1152) haqqında məlumat verən əs-Safadi onu dövrünün Hibbətullah ibn Mübarək ibn əs-Sakti kimi görkəmli alimi ilə yanaşı qoyur[1].

Əslən Qəbələdən olan və "əl-Qəbəli" adı ilə tanınan Əbu Bəkr Məhəmməd ibn Ömər əs-Suğri Bağdadda digər alimlər haqqında məlumat vermişdir. Yaqut əl-Həməvi əlavə olaraq məlumat verir ki, indi o qocalmışdır[2].

IX əsrin ortaları-X əsrlərdə tərəqqi dövrünü keçirərək X-XII əsrlərdə xüsusi çəkisi artmış Bağdadda Nizamiyyə mədrəsəsinin yaranması, azərbaycanlı alimlərin də Bağdaddla əlaqələrinin artmasına səbəb olmuşdu.

*Misirin mədəniyyət mərkəzlərində.* Misirdə doğulub böyüyən Yusif ibn Məhəmməd ibn Yusif əl-Ərdəbili orada da vəfat etmişdi. Əs-Siləfi yazır ki, o əslən azərbidir. Yusif əl-Ərdəbili Zəkəriyyə əl-Buxaridən, fəqih əs-Şüveyh əl-Urməvidən və müqri Nəsr ibn Əbdüləziz əş-Şirazidən hədis söyləmişdir. Əs-Siləfinin məlumatına görə, onun atası Misir qazısı idi. Onunla əs-Siləfi arasında şeirlə (mənzum) yazışma olmuşdu[3].

Azərbaycanlı ziyalılardan bir çoxu Misirə təsəvvüflə əlaqədar gəlmişdilər. Azərbaycanlı alimlərin çoxsaylı olması ilə fərqlənən Urmiyadan bir şox sufi alim, o cümlədən Əbu Abdulla əl-Hüseyn əl-Urməvi, Xəlil ibn Osman ibn Xəlil əl-Urməvi əl-Məkki, əsgər qazısı olmuş Şərif Şəmsəddin əl-Urməvi əl-Mısrı (v.e.1252) Misirdə yaşamış və orada hədis elmini tədris etmişdir. İbn Xəlil əl-Urməvi isə şeyxlərlə görüşərək onlardan faydalanmış, sonra Əskəlana səfər edərək bir müddət orada qalandan sonra Damyata getmiş və orada da h. 530/1135-cu ildə vəfat etmişdir[4]. Şəmsəddin əl-Urməvi isə zadəgan sinfinin nümayəndəsi olub, əsgər qazısı vəzifəsində çalışmışdır[5].

---

[1] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья третья)//Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1980, №2, стр.61; Takiəddin əs-Sübki. Tabəqat əş-Şafiiyyə əl-kubra. IV c. Qahirə, s.149.

[2] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu", 1999, s.225.

[3] Əs-Siləfi. Əbu Tahir Mucəm əs-Səfər, www.mostafa. com, s.253.

[4] Yenə orada, № 212.

[5] Tərbiyət M. Danişməndani Azərbaycan. Bakı, "Azərnəşr", 1987, s.433.

Dəməşqdə 1228-ci ildə anadan olmuş şafii Şihabəddin Əbu Abdulla Məhəmməd əl-Xoyi elmin bütün sahələrində bilikli bir alim olmuşdur. Digər əsərlərindən savayı iyirmi elm haqqında böyük bir kitab yazmışdır. Şihabəddin Qüdsdə, Məərrədə, Bəhənsada qazı vəsifəsində fəaliyyət göstərmiş, sonra isə Misirə gələrək baş qazı vəzifəsində çalışmışdır. Onun haqqında deyilmişdir: Əgər Allah tərəfindən Xoylunun Dəməşqə gəlməsi yazılmasaydı, bizdən elm sahibi çıxmazdı[1].

Əsli Cənubi Azərbaycanın Xunəc şəhərindən olan Əfzələddin əl-Xunəci ilk təhsilini vətənində almış, orada işləmiş və sonralar bir çox ölkələri gəzmiş, nəhayət, Misirdə məskunlaşmışdı. O, ehramlar diyarında həm dövlət işlərində çalışmış və ictimai-siyasi məsələlərlə məşğul olmuş, həm də özünü yaradıcı alim və möhtərəm müəllim kimi tanıtmışdı[2]. Ömrünün son çağlarında Misirin baş qazısı vəzifəsini tutmuşdur. Orta əsr müəllifləri onun müəllimlik fəaliyyətini yüksək qiymətləndirmişlər. O, ciddi elmi axtarışda olmuş, dərin bilik əldə etmiş, dünyəvi elmlərdə yetkinləşmiş, zəmanəsinin nadir şəxsiyyətlərindən sayılmışdır. Bu fikir, bir sıra mənbələrdə təkidlə irəli sürülmüşdür[3]. Əfzələddin əl-Xunəcinin müasiri, onunla h. 652/1254-ci ildə Qahirədə görüşmüş İbn Əbi Useybiyə onun bir çox sahələrdə işlədiyini, sonda Misirdə "qadı- əl-qudat"(baş qazı) kimi yüksək vəzifədə bulunduğunu vurğulayır[4].

*Orta Asiyanın mədəniyyət mərkəzlərində.* Orta Asiyayanın Xilafət tərkibinə daxil olması ilə onun Uzaq Şərq, Cənubi Asiya və Şərqi Avropa ölkələri ilə əlaqələri zəifləyir[5]. Azərbaycanda da belə proseslər cərəyan edir. Xilafət tərkibinə daxil olan Azərbaycanın bəzi olkələrlə əlaqələrinin zəifləməsi, Kiçik Asiya ölkələri ilə bərabər Orta Asiya ilə olan əlaqələrinin sıxlaşması ilə müşayət olunur. Ticarət əlaqələrinin[6] ardınca elmi əlaqələr

1 Tərbiyət M. Danişməndani Azərbaycan. Bakı, "Azərnəşr", 1987, s.435-436.
2 Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, "Şərq-Qərb", 2006, s.192
3 Yenə orada.
4 İbn Əbi Useybiyə. Uyun əl-ənbiyə fi tabəqati-l-ətıbbə. Beyrut, 1998, s.541
5 Толстов С.П. Периодизация древней истории Средней Азии.-КСИИМК, XXVIII, Москва, 1949, стр.18
6 Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında olan Azərbaycan ərazisindən tapılmış və üzərində mixi yazılsı olan Kiçik Asiya ölkələrindən gətirilmə qab, habelə şüşədən bəzək və məişət əşyaları da Azərbaycanın Kiçik Asiya ölkələri ilə hələ qədimdən geniş ticarət əlaqələrinin olmasını təsdiq edir.

özünə yol açır. Ərəb fəthlərindən sonra Xilafətə daxil olan bu ölkələrlə əlaqələr daha da genişlənir.

Orta əsr mənbələrində Azərbaycan şəhərlərindən Nişapura gələrək islam renessansının inkişafında rolu olmuş bir sira alimlərimizin fəaliyyəti barədə məlumat verilir. Nişapurda inşa edilən darüssünnədə bərdəli alim Əbu Bəkr Məkki ibn Əhməd Səadaveyh əl-Bərdəinin (v.e.h. 394/1003) şərəfinə imla məclisi təşkil edilmişdi. Bərdəli alimlərdən Əbu Bəkr Əbdüləziz əl-Bərdəi (v.e. 323/934-935) hədis dalınca Xilafətin müxtəlif bölgələrinə, o cümlədən Dəməşq, Mosul, Rabat, Misirlə, Nissa ilə bərabər Nişapura da səfərlər etmişdir[1].

Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Haris əl-Maraği (h. 321-356/938-966) Nişapura gəlmiş, 60 ildən çox hədis yazmiş və ölənədək bu işinə davam etmişdir. Əl-Marağinin yaradıcılığı haqqında onun nəql etdiyi hədisləri şəxsən dinləmiş nişapurlu əl-Hakim Əbu Abdulla məlumat vermişdir[2].

Təhsil aldıqdan sonra hədis toplamaq üçün Dəməşq, Bağdad, Tripoli, Misirdən sonra 330-cu (942) ildə Nişapura da səfər edən Məkəyyu ibn Əhməd ibn Səadaveyh əl-Bərdəi orada qərarlaşaraq 20 il qalmışdı. 20 ildən sonra isə 350-ci (965) ildə Məvəraunnəhrə hədis səfərinə getmişdi. Burada hədis imlası üçün dərnək yaratmışdı.

Əs-Siləfi Xoy şəhərinin sakinlərindən Xoş Baş kimi tanınan Əbülhəsən Əli ibn Əbu Bəkr ən-Nişapuri əs-Siləfiyə ustad Əbu Osman İsmayıl ibn Əbdürrəhman ən-Nişapuri haqqında bilgi vermişdi. Əbu Osman Nişapurda böyük sufi şeyxi Əbu Səid Fəzlulla ibn Əbülxeyr əl-Meyhəni ilə birlikdə bir saat söhbət etmişlər. Bu vaxtı onlar Sərəxsdə görüşdükləri şeyx Əbu Əli Zahir ibn Əhmədin söylədiyi hədisi xatırlayırlar. Bu hədisə görə, "dünya sevgisi hər bir günahın başlanğıcıdır". Ustadın söylədiyi başqa hədislər də onları zənginləşdirmişdi. Xoş Baş təmkinli, sinli bir şeyx olmuşdur. Əs-Siləfi bu sətirləri yazarkən o artıq dünyasını dəyişmişdi.

Azərbaycanlı ziyalılardan bir çoxu Bağdadda Nizamiyyə mədrəsəsində təhsil aldıqdan sonra bir sira bölgələrə səfərlərə çıxmışlar. Hakim ibn İbrahim əd-Dərbəndi əl-Lakzi müsəlman qanunlarını əl-Qəzalidən

[1] Əliyeva N.A. Azərbaycan. Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu, 1999, s.217.
[2] Səmani, Ənsab, V c., s.131.

öyrənəndən sonra Buxaraya getmiş və 538-ci (1143-44) ildə vəfat edənə qədər orada qalmışdır[1].

Əs-Səmaninin vətəni və Yaqut əl-Həməvinin zəngin kitabxanalarını təriflədiyi Mərv şəhərinə Əbülqasim Mahmud əl-Bərzəndi ət-Tiflisi (v.e. h.505/1111-ci ildən sonra) səfər etmişdir. O, buradakı hədis məclisində həmyerlisi Əbu Bəkr Tayyib ibn Əhməd əl-Qəzairi əl-Əbyəverdi ilə birlikdə digər həmyerliləri beyləqanlı Əbülməaliyə istinadən hədis söyləmişlər[2].

Tarixi qaynaqlarda tək-tək və hətta kütləvi şəkildə başqa ölkələrə aparılan azərbaycanlı sənətkarlar haqqında məlumat verilir. Orta əsr təzkirəçi və tarixçiləri bu ölkələrin ayrı-ayrı dövrlərə xas tikililəri, o cümlədən Səmərqənddə Bibi xanım, Qahirədə Əmir Qasun və Sultan ən-Nasir Məhəmməd məscidlərinin və s. azərbaycanlı ustalar tərəfindən tikildiyini aydın yazsalar da, çox təəssüf ki, bu memarların nəinki həyat və yaradıcılığı haqqında məlumat verməyi, hətta onların adlarını belə çəkməyi gərəksiz saymışlar. Tükiyədə çalışmış azərbaycanlı memar və nəqqaşların adı və əsərləri elmə daha çox bəllidir. XII əsrdə böyük bir tikinti meydanına çevrilmiş Anadolunun Səlcuq sultanlarının ucaltdıqları çoxlu saray, məscid, türbə və mülki tiklilərdə, xüsusilə onların bəzədilməsində Azərbaycandan gələn sənətkarlar fəal iştirak edirdilər. Anadolu şəhərlərində çalışan və adı bəlli olan ilk usta Azərbaycan memarı marağalı Həsən Firuz oğludur. XII əsrin ikinci yarısında fəaliyyət göstərmiş bu sənətkar Menqucuların (Ərzincan, Kemah, Divriqi və Şərqi Qarahisar şəhərlərində XIII əsrin birinci yarısınadək hakimlik edən türk sülaləsi) saray memarı olmuşdur.[3]

Beləliklə, azərbaycanlı alimlər Xilafət bölgələrinə aşağıdakı səbələrlə getmişdilər:

1. Elmi dünyagörüşlərini artırmaq üçün;
2. Elm mərkəzlərində yaşayıb-yaratmaq, fəaliyyət göstərmək üçün;
3. Tatarların hücumundan qorunmaq üçün;
4. Ruzi axtarmaq üçün.

### 5.2. Ərəblər Azərbaycanda

Xilafətin şimal sərhədlərinin möhkəmləndirilməsi üçün böyük sayda

---

[1] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. B., "Çaşıoğlu", 2010, s.218.

[2] Əs-Səmani. Ənsab, I c., s.120.

[3] Cəfər Qiyasi. Yaxın-uzaq ellərdə. Bakı, "İşıq", 1985, s.79

ərəb əhalisinin köçürülməsi və burada məskunlaşması ilə müşayət olunurdu. Digər fatehlər kimi ərəb xəlifələri də zəbt olunmuş yerlərdə möhkəmlənmək üçün bu siyasətdən istifadə edirdilər. Hazırda əhalisinin 96%-i müsəlman olan Azərbaycanda əhalinin islam yönündə maarifləndirilməsində bu ölkəyə köçürülmüş ərəb qəbilələrinin (istər köçəri, istərsə də oturaq) rolu böyük olmuşdur. Çox keçmədən Bərdə, Beyləqan, Qəbələ, Dərbənd, Varsan, Təbriz, Məyanic, Bərdə, Nəriz, Sərav və digər zəbt olunmuş və ya yerli əhalidən satın alınmış Arran və Azərbaycan torpaqlarında ərəb qəbilələri məskunlaşmağa başladı.



İslamın ilkin dövründə yalnız iri şəhərləri və yeni ölkələrlə qovşaq mərkəzlərini tutan ərəblər orada çox da böyük olmayan qoşun hissələri yerləşdirirdilər. Bu dövrdə hərbiçilər fəth etdikləri ölkələrə özləri ilə yalnız ailələrini, öz qəbiləsindən olanları və onların qəbilələrinə birləşərək qəbilə üzvlərinə çevrilmiş məvlalarını apara bilərdilər. Şəhərlərin tutulmasında bu qəbilələr fəal rol oynayırdılar. Onlar şəhərləri tutandan sonra orada tikinti işləri ilə məşgul ola bilirdi. İbn əl-Fəqihə görə, Urmiya şəhərini tutmuş əl-Əzd qəbiləsinin məvlası Sədəqə ibn Əli burada qəsrlər tikdirmişdir.

Ərəb-xəzər müharibələrində Azərbaycan ərazisində hərbi-nəzarət məntəqələrinin yaradılması və ərəb qəbilələrinin bu məntəqələrdə və yaxın ərazilərdə yerləşdirilməsi, burada məscidlərin tikilməsi, ərəblərlə yerli əhalinin qarışması islamın yayılmasında öz rolunu oynamışdır. Hətta qala bürclərində tikilmiş məscidlər də əhalini islam yönündə maarifləndirilməsini nəzərdə tuturdu. əl-Bakuvi Bab əl-Əbvab şəhərində çoxlu bürclərin olması haqqında məlumat verərək göstərir ki, "hər bir bürcdə dini elmlərlə məşgul olan uşaqlar üçün məscidlər mövcuddur"[1]. Qeyd etmək lazımdır ki, Azərbaycanda olan ilk qovşaq mərkəzlərindən biri Ərdəbil olmuşdur. İslamın ilk dövründə əmirlərin qərargahı burada salınmış, ilk məscid də burada tikilmişdi. Yerli əhalinin islam dini

[1] Ал-Бакуви Абд ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар. Пер. и комм. З.М. Буниятова. М.: Наука, 1971, стр.88.

cəhətdən maariflənməsi üçün bu qərargahlarda yerləşən qoşun hissələrinin də müəyyən rolu olmuşdur. Ərəb fatehləri ilə azərbaycanlı mərzbanlar arasında bağlanılan müqavilələrin bəndləri bunu təsdiq edir. Belə bir müqavilə h. 18/639-cu ildə ərəb sərkərdəsi Utbə ibn Fərqəd ilə azərbaycanlı mərzban İsfəndiyar arasında bağlanmışdı. Müqavilənin şərtlərinə görə, hər bir azərbaycanlı bir sutka ərzində müsəlman ordusunun əsgərini öz evində saxlamalı, lazım olanda ona bələdçilik etməli idi.

Ərəblərin Azərbaycan ərazisinə köç edərək məskunlaşması hələ Raşidi xəlifələri dövründən başlamışdır. Zəbt edilmiş torpaqlarda islamın mövqeyini gücləndirmək üçün Xəlifə Ömər (634-644) 641-ci ildə reestr (siyahı-qeydiyyat) mənasını daşıyan divan adlanan bir qurum yaratmışdı. İslam dövləti - Xilafətin yaranmasında yaxından iştirak etmiş qəbilə və ayrı-ayrı şəxslərin adları orada qeydiyyatdan keçmişdi. Divanda qeydiyyatdan keçmiş bu şəxslər fəth olunmuş ölkələrdən toplanmış vergilərdən təyin olunmuş miqdarda müavinət alırdılar. Müavinət alan və divanda qeydiyyatda olanlar Azərbaycanda da yerləşdirilmişdi. Camaatı islama çağırmaq onların öhdəsinə düşən əsas vəzifələrdən idi.

S.Aşurbəyliyə görə, Quba toponimi Azərbaycanın istilasından sonra Mədinə yaxınlığındakı Quba şəhərindən köçmüş ərəb tayfalarının VII əsrdə özləri ilə gətirdikləri eyni adlı toponimlər sırasına daxildir. Sara xanım bunun təsdiqi üçün Zeynalabdin Şirvaninin aşağıdakı məlumatına müraciət edir: “Qədimdə ərəb tayfalarından biri Qubaya köçərək burada məskən salmışdır”.

Azərbaycanda islamın yayılması yolunda ilk cəhdlərdən birini Xəlifə Ömər sərkərdə əl-Əşas ibn Qeys vasitəsilə həyata keçirmişdir. Əl-Əşas ibn Qeys Fərqad ibn Ütbədən sonra Azərbaycanı “hanə-hanə” tabe etdikdən sonra “əl-əta və divan əhlindən” olan ərəbləri burada sakin edib onlara camaatı islama çağırmağı əmr etmişdi. Yeri gəlmişkən qeyd edək ki, xristianlıqdan fərqli olaraq dini yaymaq missiyası ərəb fatehlərinin üzərinə düşürdü. Lakin sonralar xistianlıqdakı missionerliyə oxşar hala zəif, əlahiddə şəkildə bəzən islamda da təsadüf edilirdi. Görkəmli tarixçi-filosof Zakir Məmmədov əl-Əşas ibn Qeysin dövlət təqaüdü və maaş alan ərəbləri Azərbaycana köçürərək əhalisini islama döndərməyi tapşırmasını məhz belə missiyadan hesab edirdi. Bu, islamı yaymaq strategiyasının taktiki gedişlərindən idi və öz bəhrəsini vermişdi. Azərbaycana yenidən

vali təyin edilərkən bu ölkəyə qayıdan Əşas İbn Qeys Azərbaycanın çox yerində əhalinin islama etiqad etməsinin və Quran oxumasının şahidi olmuşdu. Əl-Əşas bu siyasəti sonralar da davam etdirmişdir. Bu dəfə yenidən ərəbləri Ərdəbilə köçürərkən burada yerləşdirmiş, onlar üçün məscid tikdirmişdi. Ərəblər Azərbaycanda məskunlaşarkən onların əl-Masran (Kufə və Bəsrə şəhərləri–N.Ə.) və Şamda olan qohum-əqrəbaları da buraya köçürüldü. Hər bir qövm tutduğu yerdə qalırdı. Raşidi xəlifələr dövründən Ərəblərin Azərbaycan ərazisinə köç edərək məskunlaşması yeni hakimiyyətin orada Əməvilər sülaləsinin möhkəmlənməsindən sonra, yəni Əməvilərin I xəlifəsi Müaviyə ibn Əbu Süfyanın xəlifəliyi dövründə (661-680) mümkün olmuşdur. Əl-Bəlazurinin məlumatına görə, Xəlifə Müaviyə sərkərdə Həbib ibn Məsləməyə 2000 müsəlman göndərdi. Məsləmə isə onlara torpaq paylayaraq Qaliqalada yerləşdirdi. Onlar ərəb sərkərdələrinin tutduqları şəhər və yolları mühafizə edirdilər.

Ərəb sərkərdələrinin mövqeləri möhkəmləndikcə, fəth etdikləri ölkələrdə qoşun hissələrinin sayı artırdı. Belə ki, VIII əsrin I yarısında Xəlifə əl-Hişamın dövründə (105-125/724-743) sərkərdə-vali Məsləmə Dərbəndə 24 min suriyalını yerləşdirərək onlara məvacib təyin etmişdi.

Yenə Hişam ibn Əbdülməlikin dövründə Dərbənd qoşununa sərkərdə təyin edilən Usayd ibn Zafir əs-Süləminin İslamiyyətin möhkəmləndirilməsində böyük rolu olmuşdur. Mirzə Kazım bəyin nəşri və Peterburqda Ümumi Kitabxananın Şərq Əlyazmaları Kataloqunun tərtibçisi A.Dornun əlyazmasına (s. 109) əsaslanan prof. V.Minorski yazır ki, Xəlifə Hişam ibn Əbdülməlik 118/736-cı ildə Əsəd ibn Zafir əs-Süləmini Dərbənd valisi təyin edərkən öz idarəçiliyində olanlardan (ərkan əd-davlə-N.Ə.) 400 nəfəri və müxtəlif ərəb qəbilələrindən (onlardan biri çox guman ki, bənu-Suleym olmuşdur-V.Minorski) olan adamları da onun sərəncamına verdi. Xəlifə Hişamın bu taktiki gedişi nəticəsində 146/736-cı ildə böyük qüvvə ilə Dərbəndi mühasirə edib müsəlmanlarla böyük miqyasda müharibə aparan xəzərlər şimal əyalətlərinə qayıtmağa məcbur oldular.

Azərbaycan ərazisində islamın yayılmasında iştirak edən ərəb qəbilələri arasında bəzən münaqişələr də baş verirdi. İlk belə münaqişə Həbib ibn Məsləmə və onunla gələn suriyalılarla Salman ibn Rabiə və onunla gələn kufəlilər arasında baş vermişdi. Münaqişəyə səbəb qənimətin düzgün bölüşdürülməməsi olmuşdu. Həmin münaqişə barədə Xəlifə Osmana

xəbər çatanda, o, bunu suriyalıların xeyrinə olaraq Salmanın Arran üzərinə hücum etməsi göstərişini vermişdi. Əl-Yəqubinin yazdığına görə, ikinci belə münaqişə, Məsləmə ilə Səid ibn Əmr arasında baş vermişdi. Belə ki, Səid ibn Əmr Məsləmədən icazə almadan 10 min müsəlmanı əsir saxlayan xəzər qoşununa zərbələr vurmuş, əsirləri azad etmiş, xaqanın oğlunu öldürərək başını xəlifə Hişama göndərmişdi. Qəzəblənmiş Məsləmə onun bayrağının ağacını sındırmış, onu işdən azad edərək Qəbələ həbsxanasına salınması əmrini vermişdi.

Şirvanda hazırda mövcud olan və adları ərəb sözlərindən götürülən yerlərin əhalisi oraya çox güman ki, Yəzid ibn Usaydın 135/753-cü ildə xəlifə əl-Mənsur tərəfindən təyin edildiyi vaxtlarda köçürülmüşdür. Yaqut əl-Həməviyə görə, o dövrdə dağıdılmış Şamaxını bərpa etdiyinə görə şəhər onun şərəfinə Yəzidiyyə adlandırılmışdır.

Azərbaycanda həmin dövrdə ərəb vali və sərkərdələrinin şərəfinə adlandırılan digər yer adları da olmuşdur. Adiy ibn Adiy əl-Kindi Əməvilərdən Süleyman və Ömərin xəlifəliyi dövründə (h. 96-101/715-720-ci illər) altı il ərzində Ərminiyənin hakimi olmuşdur. Əl-Bəlazuri bu hakim barəsində məlumatında göstərir ki, o, Əli ibn Əbu Talibi tərk edərək Raqqaya çəkilənlərdən biridir. Əl-Bəlazuri yazır ki, bu həmin Adiydir ki, Beyləqandakı çay onun adını daşıyır. Doqquzuncu Əməvi Xəlifəsi Yəzidin (h. 101-105/720-724) Ərminiyəyə hakim təyin etdiyi əl-Cərrah Abdulla əl-Hakəmi Ərminiyə sərhəddindən 4 fərsəx (təx. 28-30 km.) aralı xəzərlərlə 3 gün döyüşdən sonra həlak olmuşdur. Əl-Bəlazuriyə görə, bu münasibətlə həmin çay "əl-Cərrah çayı", üzərindəki körpülərdən biri isə "əl-Cərrah körpüsü" adlanır . Beyləqanda daha bir qala ərəb qəbilələrindən olan kəlbilərin adı ilə "Kilab qalası" adlanmışdır. H. 245/859-cu ildə Xəlifə Arran vilayətində Gəncə və onun ətraf malikanələrinin varislik hüququnu bu şəhəri salan Məhəmməd ibn Xalidə və övladlarına vermişdi. "Tarixu Şirvan və əl-Bab"ın müəllifi yazır ki, bu yerlər indiyə qədər də "Xalidiyyat" adlanır. Ərəb coğrafiyaşünas - səyyahları Azərbaycandakı ərəb qəbilələri haqqında bəzi məlumatlar yazmışlar. Əbu Hamid əl-Qərnatidən (1131-1153) sonra, yəni 1154-cü ildə Gürcü çarı Demetre ilə Gürcüstanı və Dərbəndi ziyarət edən XII əsr tarixçisi əl-Fariqi (İbn əl-Əzraq-N.Ə.) xəbər verir ki, Dərbənd yaxınlığındakı Mədinət əl-Babdan 10 fərsəx aralı, dağların arasında kənddə yaşayan ərəb qəbilələrini görmüşdür.

Əl-Fariqinin "ərəblər burada haradandır?" sualına ərəblərdən biri belə cavab vermişdir: "Mən və bu kənddə olanların hamısı ərəbdirlər, biz ərəb dilində danışırıq, buraya 500 il bundan əvvəl gəlmişik... bənu Uməyyə, bənu Kind və başqa qəbilələrdənik, biz qarışmışıq[1]". İbn əl-Əzraq təsdiq edir ki, onlar VII əsrdə əl-Muxtarın üsyanından sonra qaçıb burada kök salmışlar. Rus tədqiqatçısı V. Minorski qeyd edir ki, ərəblər yaşayan həmin yerdə olmuş İbn əl-Əzraqın vaxtından keçən 500 il ərzində yaddaş silinə, dəqiq olmaya bilər[2]. Hər halda, fakt odur ki, köç etmiş ərəblər bu kəndlərdə məskunlaşmışlar.

Əgər ilk dövrlərdə islamın yayılıb genişləndirilməsində ərəb sərkərdə və valiləri, eləcə də regiona köçürülmüş ərəb qəbilə üzvləri fəallıq göstərirdilərsə, zaman keçdikcə islamı qəbul etmiş yerli xalqlar ərəblərlə birlikdə islam dinini və islam mədəniyyətini təbliğ edirdilər. 861-ci ildə Şirvan hakimi yerli qazilərlə birlikdə Sərir ölkəsinə kafirlərlə döyüşə getmişlər. Onun oğlu Məhəmməd, sonralar isə nəvəsi Heysəm də "kafirlərə qarşı müharibə aparmışlar". Hətta XVIII əsrdə Azərbaycanın Qarabağ bölgəsində də ərəblərin yaşaması haqqında məlumat vardır. Bunu, XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın verdiyi fərman təsdiq edir[3]. Fərman Qarabağda olan ərəb ailələrinin vergidən azad olunmaları haqqındadır.

Sonrakı dövr tarixi mənbələrində ərəb qəbilələrinin yaşadıqları ərazi, onların həyat tərzi haqqında bəzi məlumatlar əksini tapmışdır. Prof. P.Juze "ərəb" sözü ilə əlaqəli daha bir neçə yaşayış yerlərini qeyd edir: Ərəb Burxanlı, Ərəbqardaşbəyli, Ərəbbala-oğlan, Ərəb Şahverdi[4]. Bundan əlavə, Naxçıvanda Ərəbyeycə kəndi, Bilici ərəbxanlı oymağı[5] və s.

Azərbaycanın müxtəlif bölgələrində ərəb sözü ilə başlayan toponimlər mövcuddur. Lənkəran ərazisində-Ərəb; Ağdaşda Ərəb kükəl, Ərəb Bəsrə,

[1] Церетели В.Г. Арабская хрестоматия. Тбилиси, 1949. (арабский текст), стр.73.
[2] Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. Москва, «Восточная.литература», 1963 г., стр.225.
[3] Fərman. XVIII əsr dövlət fərmanları. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyat Muzeyi. C.Məmmədquluzadənin arxivi. İnv. №2185/2309.
[4] Əliyeva N.A. Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli ədəbiyyatın rolu (XI-XIII əsrlər). Bakı, "Elm və təhsil", 2015, s.86.
[5] Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII–XVIII əsr Kəngərli arxeoqrafika sənədləri Bakı: 2001, s.107.

Kəlxası, Ərəb, Ərəb ocağı; Gəncədə Ərəbli, Zəngəzurda Ərəb mahalı, Ərəb Şəki kəndləri, Quba rayonu ərazisində - Ərəb-Dağma, Ərəb Əli, Ərəb Hacı, Keymuraz; Yevlax rayonunda Ərəb-Bəsrə və s. də bu ərazilərə köçmüş ərəb qəbilələrinin adı ilə bağlı olmuşdur. Bu kəndlərdən çoxu bu gün də qalmaqdadır. Hal-hazırda Şabran şəhərinin yaxınlığındakı, əhalisi azərbaycanlılar tərəfindən assimilyasiyaya uğramış Ərəblər kəndinin də toponim kimi əsası ərəb fəthləri dövründə qoyulmuşdur.

Şamaxı ərazisində olan ərəb sözü ilə başlayan yaşayış məskənləri aşağıdakılardır:

*Ərəbqədim kəndi*. Bu kənddə məskən salmış ərəblər üç tayfaya bölünmüşlər. Nasırı, İbn Əmir və Şahbədəlli. Onlar yerli xalqlardan fərqlənmək üçün qəbir daşlarında işarələr qoyurdular. Bu yerin sakinləri köçəri həyat tərzi keçirirdilər, belə ki, onları torpağa bağlamağa yönəlmiş inzibati tədbirlər nəticə vermirdi. Ərəbqədimlilər Qafqaza (bu yerlərə) gəlmələri haqqında belə danışırdılar: Məhəmməd peyğəmbər (s.a.s.) özünü peyğəmbər elan edəndə əmisi Əbu Ləhəb, əmisi oğlanları Əbu Qalib və Əbu Süfyan onu öldürmək istəmişlər, bu vaxt Allah "Əbtər" adlı Quran ayəsi göndərmişdi. Əbu Ləhəbin oğlu Əmir islamı qəbul etmişdi, onun Atama və Anama adlı iki oğlu da Məhəmmədə peyğəmbərə (s.a.s) yaxın olmuş və müsəlmanlığı qəbul etmişdi. Onlar bu əyalətə Şam şəhərindən quru yolla köç etmişdilər.

*Ərəbşahverən* – rəvayətə görə, ərəbşahverdilərlə ərəboğlanlılar (Cavad nahiyəsi) yeni ərəb adlanırlar, çünki onlar Qafqaza ərəb cəbirlilərdən sonra gəlmişlər. Yeni ərəblər ərəb qədimlilər kimi həyat tərzi keçirsələr də, onlar arasında artıq ərəb dilini bilənlər yoxdur.

*Ərəb Şamlı*– bu yerin sakinləri olmuş ərəblər özlərini Suriyadan gəlmiş hesab edirdilər. Bir mənbənin məlumatına görə, onlar Suriyadan qovulmuş ərəblərdir. Onlar da yerli əhalidən seçilmək üçün qəbirlərinə işarə qoyurdular. Burada isə ərəb dilini bilənlər vardır.

*Ərəbşalbaş və Ərəbcabirli* – deyilənə görə, bu kənddə məskunlaşan ərəblər Məkkədən qovulmuşlar, amma səbəbini açıqlayan yoxdur. Güman etmək olar ki, onlar Nadir şahın vaxtında Dərbənddən Şirvan əmirinin (Sərdar bəy Qırxlı) əmri ilə Sursun qəbiləsi ilə yerlərini dəyişmişlər. Şalbaş anlayışı baş örtüyü olan şal sözü ilə əlaqədardır ki, bu da Məkkədəki ərəb qəbilələri üçün səciyyəvidir.

*Göylər kəndi* – Kəndin qoca bir sakininin (Hacı Pir Hacı İbrahim) verdiyi məlumata görə, Buci adlı bir şəxs oğlanları Musil, Bəy Ağas, Murad Ğəsil, və Qazı-xanla 700 və ya 800 il bundan əvvəl (XI əsrdə-N.Ə.) Bağdad elindən Qafqaza gəlmiş və burada məskən salmışlar, onlara şimaldan köçmüş başqa insanlar da qoşulmuşlar. Məskunlaşanların gözlərinin göy olmasına görə, kənd belə adlanmışdır. Kəndin yaxılınlığında, Olearinin yazdığı kimi, fars müqəddəsi Pir Mərdəkanın məqbərəsi var.

*Şıx Bərkö və ya Pir Bərkö* – deyilən kurqan var ki, burada Dərbənd "qırxları"nın qəbir daşlarına bənzəyən üç eyni yazılı qəbir daşı var. Şıx Bərkö görkəmli sərkərdə olmuşdur. İrandan gələnlər Şıx Bərkönün qəbirinin içində zəngin dəfinəsi olduğunu güman edərək dağıtmaq istəmişlər, lakin yerli sakinlər buna mane olmuşlar.

*Kuşi* – köçəri tayfası arasında da əslən Ərəbistandan olanlar var.

Əhməd Əfəndi Çələbizadə "Quba rayonunun adət və qaydaları" adlı əsərində yerli xalqın rəvayətinə əsaslanaraq pirlərin təsvirini verir və Baba Rüstəm pirindəki məzarın Şamdan olan şeyxə məxsus olduğunu göstərir[1] .

Azərbaycan şəhərlərindən Marağanın adı da ərəblərlə bağlı olmuşdur, onlar bu şəhəri belə adlandırmışlar. Əl-Bəlazurinin məlumatına görə, Marağa şəhəri əvvəllər İqrahruz adlanırdı. Ərminiyyə və Azərbaycanın valisi Mərvan ibn Məhəmməd Muğana və Gilana yürüşündən sonra Marağa yaxınlığında düşərgə salmışdı. Bu ərazidə çoxlu peyin olduğundan onun və silahdaşlarının atları peyində ağnamağa başladılar. O vaxtdan el içində "Heyvanların toz-torpaqda ağnadığı yerə, "əl-Mərağaya gedin" deyimi işlədilir. Sonralar "yer" sözü ixtisara düşmüş və buranı sadəcə "əl-Marağa"-Marağa adlandırmışlar. Azərbaycanda bundan başqa xəlifə əl-Mütəvəkkilin və iki ərəb sərkərdəsinin adına da şəhər salınmışdır. 752-ci ildə ərəblərə qarşı üsyan edən siyavurdilər Şəmkuru dağıtmışdılar. Siyavurdiyələri məglub edərək islam dinini qəbul etmiş xəzərləri və Bərdədə ticarətlə məşğul olanların bir hissəsini bura köçürdərək şəhəri abadlaşdıran Abbasi sərkərdəsi Buğa əl-Kəbir bu şəhərə xəlifə əl-Mütəvəkkilin (847-861) şərəfinə Mütəvəkkiliyyə adını vermişdir. Bəlazuriyə görə, Şirvandakı Şəmaxiyyə şəhəri də əş-Şəmax ibn Şucanın adını daşıyır. Bu şəxs Səid ibn Səlim əl-

[1] Əhməd Əfəndi Çələbizadə. Quba-dövrün adət və qaydaları/Tərtibatın, transliterasiyanın, qeyd, şərh və redaktələrin müəllifi B.Kərimov. Bakı, "Ziya-Nurlan", 2009.

Bəhili Ərminiyədə vali olduğu dövrdə Şirvanın hökmdarı olmuşdur.

1925-1928-ci illərdə M.N. Avdeyevin rəhbərliyi ilə Mil-Qarabağ düzü, Kür və Araz çayları arasındakı kəndləri öyrənmək üçün ekspedisiya göndərilir. Ekspedisiyanın əldə etdiyi nəticəyə görə, məzar daşlarından birinin üzərindəki ərəb yazısına görə, Bağdaddan olan Əhməd Hüseyn ağa burada h.750/1349-ci ildə dəfn olunmuşdur. Avdeyevə görə, burada daha qədim məzar daşları bir neçə yüz il əvvəl, hətta ola bilsin ki, min ilə yaxın bir vaxtdan əvvəl mövcud olmuşdur. Bu fakt Qarabağ ərazisində islamlaşmanı göstərdiyi kimi, ərəblərin səlcuqlar və ondan sonrakı dövrlərdə də köçüb gələrək bu ərazilərdə yaşayaraq milli mənsubiyətini itirməməsini göstərən bariz nümunədir.

A.Genko 1905-ci ildə Mərkəzi Statistika Komitəsinin əhalinini siyahıya alınması zamanı doğma dilinin ərəb dili olmasını təsdiq edən cədvəl verildiyini göstərir. Bu cədvələ görə, Qafqazda 955 nəfər öz doğma dilinin ərəb dili olmasını göstərmişdir. Onlardan 457 nəfəri kişi, 455 nəfəri qadın olmaqla birinci yeri Dağıstan vilayəti tutur. Bakı quberniyasında 6 kişi, 5 qadın, Tiflis və İrəvan quberniyalarının hər birində isə 2 nəfər ana dilinin ərəb dili olmasını təsdiq etmişdir[1].

Ərəb mədəniyyətinin mərkəzi olan Bağdadın Hülaki xan tərəfindən 1252-ci ildə dağıdılması ilə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda yaşayan ərəblər assimilyasiyaya məruz qalaraq tədricən doğma dilini itirmiş və azərbaycanlılarla qaynayıb qarışmışlar. Təbii ki, din birliyi də az rol oynamamışdır.

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, əgər ərəb qəbilələrinin bəziləri buraya təyin edilmiş valilərlə missionerlik rolu oynamaq üçün köçüb gələn qəbilə üzvləri idisə, digərləri (Ərəb Şamlı, Ərəb-Şalbaş) ola bilsin ki, öz ölkələrindən uzaqlaşdırılmış tayfalar olmuşlar. Ərəb Şamlılar Suriyadan, Ərəb Şalbaşlar isə Məkkədən köç edənlər idi. Əgər bəzi ərəb qəbilələrinin buraya köçürülməsi islamlaşma siyasətilə bağlı olmuşsa, digərləri müəyyən hadisələrdən sonra bu ərazidə məskunlaşdırılmışlar.

Ərəb müəllifləri islamı yaymaq üçün Azərbaycana gəlmiş bir sıra sərkərdələrin fəaliyyəti haqqında da məlumat vermişlər. Onlardan Xəlifə Ömər və Xəlifə Osmanın hakimiyyəti illərində sərkərdə olmuş Hüzeyfə

[1] А.Генко. Арабский язык и кавказоведение//Труды второй сессии ассоциации арабистов. 19-23 октября 1937 г., стр.81.

ibn əl-Yəmən (v.e. 36/656) Nihavənd savaşından bir il sonra - 22/642-ci ildə Azərbaycana hücum edib onlarla sülh müqaviləsi bağlayan ilk sərkərdə idi. Hüzeyfə həm də Məhəmməd peyğəmbərin (s.a.s.) 14 ən yaxın səhabəsindən biri olmuşdur. Hz. Peyğəmbər və Xəlifə Ömər haqqında hədislər söyləyən bu sərkərdə-valinin əl-Buxari və Müslimin hədislər toplusunda 225 hədisi vardır. Onlar döyüşçülərlə birlikdə yeni əraziləri öyrənmək, müsəlmanlığı təbliğ etmək, islam dininin mahiyyətini yerlərdə camaata başa salıb öyrədə bilmək, o cümlədən fəth olunmuş ərazidə islam qayda-qanunlarının tətbiqinə nəzarət etmək üçün sərkərdələr elm adamları –hafiz, qarelər (Quran oxuyanlar) və tərcüməçilər gətirirdilər. Bəzən sərkərdələrlə yerli əhali arasında bağlanan müqavilənin təsdiqi də onların öhdəsinə düşürdü. Bu ziyalılar dövrün sayılıb - seçilən, tanınmış simalarından sayılırdılar. Ər-Rusaris ibn Cunədib və Hamələ ibn Cuveyyə əl-Kinəni ərəblərin sayılan, nüfuzlu şəxslərindən olmuşlar. Ət-Təbəriyə görə, əl-Kinəni Xəlifə Ömərin göstərişi ilə İran şahı ilə danışıqlar aparmaq üçün yaradılan heyətin tərkibində olmuşdur. Azərbaycan valisi Mərvan ibn Məhəmmədi yürüşlərdə müşayiət edən Nuh ibn Saib əl-Əsədi və Əbdürrəhman ibn Fulan əl-Haulani isə islam təlimini və Quranı təbliğ edənlərdən olmuşdur. Mərvan ibn Məhəmməd Xəzər xaqanını məğlub edəndə bu ziyalılar onunla birlikdə olmuş və xaqana islam və Quranın mahiyyətini başa salmışlar[1].

Bəzən əskərlər arasında Quranın düzgün oxunması barədə mübahisələr gedirdi. Belə mübahisələrin gələcəkdə baş verməməsi üçün sərkərdə Hüzeyfə ibn əl-Yəmən Ərminiyə və Azərbaycanla müharibə vaxtı Mədinəyə gedərək, Quranın yeni, tam və əsaslı şəkildə cəm edilməsi xahişi ilə Xəlifə Osmana müraciət etmişdi[2]. Hüzeyfə ona demişdi: "Ya Əmirə-l-Mömінin! bizim dinimizdə olan bu şəri məhv et ki, Qurana qarşı mübahisəli fikirlərin artaraq yəhudi və xristianların mübahisəsinə bənzəyən mübahisələr yaranmasın[3].

XI əsin sonu – XII əsrin əvvəllərində də islam və onun qayda-qanunları haqqında tövsiyə və təlimat vermək üçün imam və xətiblər müxtəlif yerlərə

[1] Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку, «Элм», 1981, стр.52.
[2] İbn Şammə əl-Müqəddəsi. Kitab əl-Murşid əl-vaciz. Ankara, 1982, s.48.
[3] Остроумов Н.П. Исламоведение. Коранъ. Ташкент, 1912, стр.77-78.

göndərilmişdir. Şirvanşah Fəxrəddin Fariburz oğlu əl-Ədudu qumıqlar üzərində hakim təyin edərkən dəvət etdiyi xətib və imamdan bu işdə istifadə etmişdir[1].

Müsəlman tarixçiləri islam mədəniyyətinin tarixini məlik və əmirlərin həyat yolu əsasında deyil, alimlərin fikri əsasında öyrənirdilər, çünki alimlər peyğəmbərin varisi hesab edilirdilər[2]. Təsadüfi deyil ki, Xətib Bağdadi, əd-Daraqutni, əl-Hakim Əbu Abdulla, İbn Makula, Əs-Səmani, İbn Nöqtə, İbn əs-Sabuni, Əbu Yusif ibn Tahir əs-Siləfi, İbn Xəllikan, İbn Əbi Useybiyə, əl-Cavzi, əl-Qifti,Yaqut əl-Həməvi, İbn əl-Fuvati və digər alimlərin əsərlərindəki məlumatların çoxu elm adamlarının həyat və fəaliyyəti ilə bağlıdır. Bu müəlliflərdən bəziləri azərbaycanlı ziyalılarla ya onların vətənlərində, ya da bölgələrin mədəniyyət mərkəzlərində görüşərək əlaqə saxlamış, gələcək elmi işlərində, onların həyat və yaradıcılıqları haqqında əsərlərində məlumat vermişlər. Bu əsərlərdə Yaxın və Orta Şərqin elm və din daşıyıcıları olan ziyalıları kimi azərbaycanlıların da islam mədəniyyətinin yaranması və inkişafındakı rolu, onların müxtəlif elm mərkəzlərinə səfərləri, elmi əlaqələri, oradakı fəaliyyətləri göstərilir.

İlk hicri əsrlərdə yaşayan mühəddislər isnadın önəmli olduğunu vurğulamış və hədisi ilk mənbədən götürmək üçün hədis ədəbiyyatında "rihlə" kimi məlum olan hədis səfərlərinə çıxmışlar. Belə ki, Əbül-Aliyə (v.e.90/708): "Biz Bəsrədə Rəsulullahın əshabından bəzi rəvavətləri eşidirdik. Lakin bu rəvayətləri gedib məhz o səhabələrin dilindən eşitməyənə qədər narahat olurduq"[3] ifadəsi bunu təsdiq edir. Yuxarıda qeyd olunan ərəbdilli müəlliflərin bir çoxu həm də mühəddis kimi hədis səfərlərini yazıya almış, səfər etdikləri şəhərin elmi dini həyatı haqqında, tədris müəssisələri, yerli alimlərlə görüş və diskussiya apardıqları məclislər və s. haqqında bilgi vermişlər.

"Əsmə' ət-tabi'in" ("Tabiunların adları") əsərinin müəllifi məşhur ərəb təqlidçi alim-geneoloqu Əbülhəsən əd-Daraqutni (918-995) azərbaycanlı

[1] Бейлис В.М. Масуд ибн Намдар.Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М. Бейлиса. Москва, «Наука», 1970, стр.41

[2] Həsənli S. İslam mədəniyyətində elm. Bakı, 1998, s.27.

[3] Abuzərov N. Hədislərin mətn baxımından təhlili məsələsi. Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin "Elmi məcmuəsi", № 12, sentyabr 2009, s.90; Əl-Xatib. "əl-Kifayə fi ilmir-rivayə", Qahirə, s.402-402.

alimlərlə yaxın əlaqələr saxlamış, onlar haqqında bilgilər vermişdir. Əbülhəsən əd-Daraqutni azərbaycanlı mühəddislərdən gəncəli İbrahim ibn Məhəmməd ilə birlikdə hədislər yazmışdır. O, gəncəli İbrahimin şafii məzhəbi üzrə fiqhi öyrənməsini, kamal sahibi olmasını xəbər verir. Onunla təmasda olan Əbülhəsən informasiyanı yazarkən, o artıq ölkəsinə getmişdi. Sonralar da İbrahim ilə əlaqəsini üzməyən əd-Daraqutni onun ölüm xəbərini aldığını yazır[1].

Digər müəlliflərdən fərqli olaraq əs-Siləfi də İbn Makula kimi təkcə Cənubi Azərbaycana deyil, Araz çayından şimala, Arran və Şirvana da səyahət etmişdir. Onun xüsusilə, Gəncə, Şirvan, Bab əl-Əbvab, Səlmas alimləri haqqında başqa mənbələrdə olmayan qiymətli məlumatları vardır. Əs-Siləfi Azərbaycanın mədəniyyət mərkəzlərinə səyahəti vaxtı görüşdüyü şeyxlərdən hədis toplamaqla yanaşı özü də onlara hədis söyləmiş və öyrətmişdir.

*Ərəb ziyalıları Şirvanda.* Şirvan alimlərinin formalaşmasında mühüm amil olan elmi mühit bir neçə Şirvanşahlar nəslinin elmi- mədəni fəaliyyəti sayəsində yaranmışdı. Şirvanşahlar elm və mədəniyyətə ətraflı dəstək verməklə məşhur olmuşlar[2]. Şirvan, xüsusilə, Şirvanşah I Fariburz (1063-1096) və onun vəziri Baha əd-Din Kamal əl-Mülk Əbülfərəc Məhəmməd ibn əl-Hüseyn əl-Kakuyinin[*] dövründə (XI əsrin sonlarında) "torpağına göylərin həsəd aparıldığı" çiçəklənən bir diyara çevrilmişdi[3]. Şirvanşah və onun vəziri təhsilli şəxslərə himayədarlıq edirdilər. I Fariburzun sarayında ərəb dilində mədhiyyələr yazan şairlər toplanmışdı. Onların arasında ərəb şairi Əbu İshaq İbrahim ibn Osman ibn Abbas əl-Əşbihi əl-Kəlbi əl-Qəzzinin (441-524/ 1049-50-1129-30) bu diyara səyahət etməsi ərəbdilli poeziyanın ənənəvi janrlarının, əs-Siləfi (h.478/1085- 576/1180) kimi sufi

[1] İbn-Makula. Əl-İkməl, II c., s.127.

[2] Dorn B. Versuch eyner Geschichte der Schirvanschahe, Mem. De I Ac., IVserie, sc. pol. hist. ph, N, p. 552; Mehrəliyev E.Q. Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər), Bakı, "Çaşıoğlu", 2000, s.11.

[*] Qeyd: Məsud ibn Namdar onu vəzirlər oğlu və nəvəsi kimi qələmə verir (Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М.Бейлиса. Москва, «Наука», 1970, л.13а.

[3] Бейлис В.М. Масуд ибн Намдар. Сборник рассказов, писем и стихов. Факсимиле текста, предисловие и указатели В.М. Бейлиса. Москва, «Наука», 1970, v. 13b; Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı, "Elm", 1984, s.142.

şeyxi və alimin Şirvana ziyarəti isə bu diyarda fiqh və sufiliyin, eləcə də hədis elminin geniş yayıldığını göstərir. Əs-Siləfinin Şirvana səyahətindən əsas məqsəd hədis toplamaq, orada yaşayıb-yaradan hafizlər, ilahiyyatçı alimlər, mühəddislər, qarelər, vaizlər barədə eşitdiklərini dəqiqləşdirmək, onların həyat və yaradıcılığı, inamı haqqında yeni məlumat əldə etmək olmuşdur[1]. Şirvan elmi mühitinin əsas iştirakçıları yerli alimlər idilər. Onlardan biri - şirvanlı vaiz Əbülhəsən Əli ibn Əhməd Əli əl-Müfaddid haqqında əs-Siləfi və ona əsaslanan İbn əs-Sabuni (anadan olub h.604 /1207) məlumat verir. O yazır: "Hafiz Əbu Tahir əs-Siləfi (Allah ona rəhmət eləsin) "Mucəm əs-Səfər" əsərində əl-Müfaddid əş-Şirvanini xatırlayaraq yazır ki, o, həqiqətən Şirvanın şəhərləri və ona yaxın yerlərdə məşhur sinli bir şeyx olmuşdur. O, dövrünün ən yaxşı vaizlərindən hesab edilirdi. Şirvanın "dər əl-məmləkəti" olan Yəzidiyyədə hörməti vardı. O, əl-Hüseyn ibn Mənsur əl-Həllacın xəbərlərini toplamışdır. Onun haqqında bizə Bağdadda onu dinləmiş bir nəfər rəvayət etmişdir. Sonra Şirvanda onunla görüşüm vaxtı bu ("Xəbərlər") haqda ondan öyrəndim". Bizim bəzi təfsirlərimizdə onun haqqında xatırlanıb"[2]. Digər tərəfdən Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni bildirirdi ki, Əbülqasim ibn Ruvaha əl-Ənsari kimi şeyx-alim Azərbaycanın Şirvan bölgəsindən olan Əbülhəsən əl-Müfəddidin tələbəsi olmuşdur[3]. Bu, Şirvanın özündə elmi mühitin yüksək səviyyədə olmasından xəbər verirdi.

"Əxbaru-l-Həllac" ("Həllacın xəbərləri")ın müəllifi kimi tanınan vaiz, qəssas Əli ibn Əhməd əs-Şirvani haqqında məlumat digər orta əsr ərəb müəllifi İbn Həcərin "Lisən əl-Mizən" əsərində də verilir. Bu müəllif də əs-Siləfinin Şirvanda olması və Əli ibn Əhməd əs-Şirvani ilə görüşü haqqında yazır.

Şirvanşah I Fariburz kimi, Mənuçöhr də filosof, şair və alimlərin qayğısına qalırdı. Bu işin icrasına nəzarəti vəzirlərindən biri olmuş Əmin əd-Din əl-Əxrasiyə həvalə etmişdi. Fələki Şirvani bu vəzirin Şirvandakı

---

[1] Əliyeva N.A. Əbu Tahir əs-Siləfi və Şirvanın bəzi görkəmli şəxsiyyətləri// Azərbaycan Tarixi Muzeyi-2006, Bakı: Elm, 2006, s.27.

[2] Əliyeva N.A. İbn əs-Sabuni Azərbaycanın orta əsr görkəmli şəxsiyyətləri haqqında//Azərbaycan Tarixi Muzeyi-2002. Bakı, "Elm", 2002, s.323.

[3] İbn əs-Sabuni. Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. Mustafa Cavadın nəşri. İraq, 1377/1957, s.316.

filosof, həkim, astroloq, şair və ənənəçilərə hamilik etməsindən bəhs edir[1]. Xaqani Şirvani Fələki və digər Şirvan şairləri kimi, şirvanşah Mənuçöhrü mədh etmişdir. III Mənuçöhr şairlərdən Xaqaniyə saysız-hesabsız mükafat və hədiyyədən başqa hər il 30 min dirhəm məvacib verirdi.

Mənuçöhr vəfat edəndən sonra elm və incəsənətə hamiliyi davam etdirən Axsitan şah (v.e. 1188-1194-cü illər arasında) onun yerinə keçdi. 1188-ci ildə Nizami Gəncəvi də özünün "Leyli və Məcnun" poemasını ona ithaf etmişdi. S.Aşurbəyliyə görə, bu poema Şirvanşah Axsitanın sifarişi ilə yazılmış, Axsitan ona mövzunu sifariş etmiş və poemanı fars dilində yazmağı, lakin ərəb dili elementlərini işlətməyin vacib olduğunu vurğulamışdı[2]. Sevgi haqqında Şərqdə məşhur olan bu poema Azərbaycanın XII əsr romantik poeziyasının zirvəsi hesab edilirdi. Nizaminin yaradıcılığı Şərqin bir sıra ölkələrinə - Hindistan, Orta Asiya, İraq, Türkiyə ədəbiyyatına təsir göstərmişdi. Şərqin görkəmli şairlərindən Əmir Xosrov Dəhləvi (1253-1325), Əbdürrəhman Cami (1414-1493), Əlişir Nəvai (1441-1501), Məhəmməd Füzuli (1498-1556) və digərləri onun "Xəmsə" əsərini təqlid edən əsərlər yazmışlar. Nizaminin "Leyli və Məcnun" əsərinə isə bir sıra Şərq dillərində 40-dan artıq nəzirə yazılmışdır.

Əsir Əxsikerti (v.e.1212) Xaqani ilə görüşüb deyişmək üçün Fərqanədən Şirvana yola düşmüşdür. Xaqani 1194-1199-cu illər arasında Təbrizdə vəfat etmiş, Sürxab adlı şəhər qəbristanlığında "Şairlər məqbərəsi"ndə dəfn edilmişdir. Burada ondan əvvəl Beyləqani (1198) və bir az sonra Zahir Fəryabi və digərləri dəfn edilmişdir.

*Ərəb ziyalıları Gəncədə.* Azərbaycan ziyalılarının müsəlman elmləri sahəsindəki xidmətləri, onların elmi potensialı alimlərin Azərbaycandakı islam mədəniyyəti mərkəzlərini ziyarət etmələrinə səbəb olmuşdu. Bu mərkəzlərdən biri də Gəncə şəhəri idi. Arranda hökmranlıq edən Şəddadilər sülaləsinin paytaxtı olan Gəncə artıq X əsrin 70-ci illərindən Bərdəni geridə qoyaraq Arranın ən iri şəhərinə çevrilir. Bu şəhər artıq Böyük Səlcuqların üç ən böyük şəhəri (Mərv, Nişapur və İsfahan) ilə yanaşı böyük şəhərlər sırasına daxil olur[3].

Gəncə mədəni sahədə də böyük nailiyyətlər qazanmağa başlayır. Elmin

---

1 Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, "Azərnəşr" 1997, s.160.
2 Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджане с Индией в средние века. Баку, «Элм», 1990, стр. 91.
3 Sümer F. Eski türklerde şehercilik. Ankara, 1994.

müxtəlif sahələrində, xüsusilə ilahiyyat və hədis elmi sahəsində çalışan azərbaycanlı alimlərin sayı getdikcə çoxalır. Xüsusilə, IX-X əsrlərdə hədis elmi ilə məşğul olanların sayının daha artdığından, X əsrdə fəaliyyət göstərmiş, Dərbənddə Xilafət torpaqlarını xəzərlərin hücumlarından qorumağa qadir olan çox güclü qarnizon da Suriyadan köçürülmüş əsgərlərdən təşkil olunmuşdu.

Səlcuqlar dövründə islam aləmində ictimai-siyasi əlaqələrlə yanaşı dini-mədəni əlaqələr daha da fəallaşır. XI əsrdə Gəncəni ziyarət edən alimlərin də sayı artmışdı. Ərəbdilli müəlliflərdən bəziləri şəhərə səfər edərək onun məscidi, kitabxanası, tədris müəssisələri, burada təşkil olunan hədis məclisləri, yerli alimlərlə görüş və müzakirə apardıqları məclislər və s. haqqında bilgi vermişlər.

Artıq XII əsrdə Şirvanşahlarla bərabər Eldəgizlərin də mövqeyi güclənir, ölkənin siyasi-iqtisadi və mədəni əlaqələri genişlənirdi. Qərb və Şərqin böyük ticarət mərkəzlərini birləşdirən karvan yolları Azərbaycandan keçdiyindən, Azərbaycan şəhərlərindən bir çoxu, o cümlədən Gəncə strateji əhəmiyyətə malik tranzit məntəqə sayılırdı. Ona görə də bütün hökmdarlar, o cümlədən Atabəylər onun möhkəmləndirilməsinə birinci dərəcəli əhəmiyyət verirdilər. Lazım olduqda Gəncə düşmənə qarşı çoxlu miqdarda əla silahlanmış döyüşçü çıxara bilərdi. XIII əsrin anonim əsərinin məlumatına görə Gəncənin cavanları cəsur oxatanlar və din uğrunda vuruşan döyüşçülərdir[1].

Xilafət bölgələrinin alimləri arasında Azərbaycanın digər şəhərləri ilə yanaşı Gəncəyə də səfər etmiş və bu şəhəri sərhəd şəhəri kimi qeyd edən şeyx Əbu Tahir əs-Siləfi əl-İsfahaninin (1085-1180) adını xüsusi qeyd etmək lazımdır. O, dövrünün nüfuz sahiblərindən olmuşdur. Fatimi xəlifəsi əz-Zahir əl-Ubeydinin 1151-ci ildə İsgəndəriyyədə tikdirdiyi mədrəsənin idarə etmək səlahiyyətini ona verməsi onun böyük nüfuzu sayəsində idi[2]. Azərbaycanla yaxından bağlı olan bu çox görkəmli şəxsiyyətin müəllimləri arasında İlkiyə əl-Hərrasi ilə bərabər Xətib Təbrizinin də adı çəkilir. Əs-Siləfi hədis dalınca uzun müddətli səfərlərə çıxması ilə məşhur olmuşdur. O, Şirvan, Bab əl-Əbvab, Səlmas, Naxçıvanla bərabər Gəncəyə də səfər

[1] Михлухо-Маклай Н.Д. Географическое сочинение XIII века на персидском языке. «Уч.зап.ИВАН СССР», т. IX, 1954, с.208.

[2] Əbdülhadi Məhbubə. Əl-Harakə əl-ilmyyə fi miət əl-xəmsiyyə əl-hicriyyə va əsəru-n-nizamulmulk. Bağdad. 1942/43, s.543.

etmiş, orada çoxsaylı hafizlər, zəmanəsinin tanınmış şeyxləri ilə görüşərək fikir mübadiləsi aparmışdır[1]. Müəllifin "Mucəm əs-Səfər" əsərində Gəncə və gəncəli alimlər haqqında başqa mənbələrdə təsadüf olunmayan qiymətli məlumatlar vardır. Əs-Siləfi, hədis toplamaq arzusu ilə səyahət edərkən dövrünün çoxsaylı tanınmış şəxsləri ilə görüşmüşdür[2]. Hədis toplamaq niyyəti əs-Siləfini Misirdən Yaxın və Orta Şərq, o cümlədən Azərbaycanın bəzi şəhərlərini ziyarət etməsinə səbəb olmuşdu. Bu şəhərlər arasında müəllif Gəncəni xüsusi olaraq qeyd edir.

Elm mərkəzi kimi Gəncə həm də sufi şeyxlərin toplaşaraq hədis məclislərində fəaliyyət göstərdikləri şəhərlərdən olmuşdur. XI əsrin əvvəllərində Nişapurda yaranmış sufilər məktəbinə məşhur şeyx Əbu Səid əl-Meyhani (v.e.440/1048-49) başçılıq edirdi[3]. Demək olar ki, o dövrün bütün görkəmli sufiləri bu və ya digər dərəcədə həmin məktəblə bağlı olmuşlar. Azərbaycan və Azərbaycan sufiləri ilə yaxından bağlı olmuş həmin şeyxin təsəvvüf haqqındakı əsəri Azərbaycan sufiləri üçün rəhbər rolunu oynamışdır. Onun "Kitəbu-t-Təsəvvüf" adlı əsəri B-612 sayı ilə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Əs-Siləfi özünün qeyd etdiyi kimi yaşıdı olan həmin şeyxin (Əbu Səid Əbülxeyr əl-Meyhaninin-*N.Əliyeva*) nəvəsi Əbülqasim əl-Meyhani ilə yaxın olmuşlar. Əs-Siləfinin yazdığına görə, bu iki şəxs arasında isti münasibət olmuşdur. Onlar Bağdadda bir yerdə toplaşır, bir yerdə həccə gedirdilər. Əbülqasim əl-Meyhani əs-Siləfinin qiraətlərini Məkkə, Kufə, Bağdadla yanaşı Azərbaycanın bir çox şəhərlərində, o cümlədən Gəncədə dinləmişdir[4].

Gəncə alimləri arasında qazı Tahir əl-Cənzinin (gəncəli-N.Ə.) xüsusi yeri olmuşdur. Əs-Siləfi "Gəncə şəhərinin əyanlarından olan qazı Tahir əl-Cənzinin fiqh və ədəb elmində fəzilətini xüsusi vurğulayır. Tahir əl-Cənzi Əbülqasim Əli ibn Əbdürrəhman ən-Nişapuri və həmyerlisi Əbülfəz Şaban ibn Əli ibn Məhəmməd əl-Bərdəi haqqında məlumat vermişdir. Əbülfəz əl-Bərdəi onun fiqh üzrə müəllimi olmuşdur.

Gəncəni ziyarət edən alimlər arasında öz dovrünün tanınmış

---

[1] İbn Xəllikan. Kitabu vəfayət əl-əyan va ənbəu-z-zaman. I c., Qahirə, 1981, s.31.

[2] İbn Xəllikan. Kitabu vəfayət əl- əyan va ənbə əz-zaman. Beyrut, 1998, s.121.

[3] Бертельс Е.Э. Очерк истории персидской литературы. Ленинград., 1928, s.54.

[4] Əs-Siləfi Əbu Tahir Əhməd bin Məhəmməd. Mucəm əs-Səfər. www.al-mostafa.com. № 550.

simalarından sayılan İbn Makulanı (1030-1082) da qeyd etmək lazımdır. Ərəb ədəbiyyatı tarixində mavlə, böyük əmir, alim, tarixçi, ədib, hafiz, tənqidçi, nəssəbə (genealogiya ilə məşğul olan alim – N.Ə.) kimi məşhur olan Əbu Nəsr Əli ibn Hibbətullah ibn Makula (1030-1082) Bağdadda vəzirlər, qazılar yetişdirən hörmətli, sayılıb-seçilən bir ailədə doğulmuşdur. Bir çox mənbələrdə onun Azərbaycanla bağlı adı çəkilir. O, Bağdadda olarkən azərbaycanlı şafii fəqihi, hədis ravisi dövrün nəhəng alimlərindən Əbu İshaq əş-Şirazinin tələbəsi Bədil ibn Əli əl-Bərzəndi İbn Makulanın özünün şeyxlərinə hədis söyləmişdir[1]. İbn Makula Gəncə səfəri zamanı ziyarət etdiyi yerlər arasında Gəncə məscidi və kitabxanasının adını çəkir. Yuxarıda adı çəkilən Gəncə qazısı Tahir əl-Cənzinin məlumatına əsaslanan əs-Siləfi yazır: "Sultan və vəziri Nizamülmülk Arraniyyəyə (ola bilsin ki, Gəncədəki came məscidi belə adlanırdı-N.Ə.) çatanda İbn Makula da buranı ziyarət edənlər arasında idi"[2]. Bu məsciddə o, iki rükət namaz da qılmışdı.

Gəncədəki kitabxanada İbn Makula Gəncə kitabxanasının mühafizi naxçıvanlı Xodadad ibn Asim ən-Nəşəvi ilə görüşmüş, burada onun hədislərini dinləmişdir[3]. "Kitab əl-Ənsab" əsərinin müəllifi əs-Səmani (1113-1167) naxçıvanlı Xodadad ibn Asimi bağdadlı hafiz İbn Makulanın şeyxi kimi təqdim edir. Yeri gəlmişkən qeyd edək ki, Xodadadın İbn Makula kimi tanınmış şəxsiyyətin şeyxi hesab edilməsi naxçıvanlı alimin böyük nüfuzunun olmasını göstərir. İbn Makulanın özü Xodadad haqqında məlumat verərək göstərir ki, o, Bağdadda və başqa şəhərlərdə hədis söyləmişdir. İbn Makula onun hədis söyləyərkən istinad etdiyi alimlər kimi, Əbu Nəsr Əbdülvahid ibn Hübeyrə əl-Qəzvini, əl-Həsən ibn Əli, Əbu Müslim Əbdürrəhman ibn Ğəzv əl-Əttar ən-Nihavəndi, Şüeyb ibn Saleh ət-Təbrizini göstərir. İbn Makulanın yazdığı kimi, naxçıvanlı şeyxin söylədiyi hədisləri isə İbn Makula Gəncədə olarkən ondan dinləmə yolu ilə öyrənmişdi[4]. Bu isə bir daha mədəniyyət mərkəzlərində mövcud olan hədis evlərinin Gəncədə də fəaliyyət göstərməsi ilə yanaşı, Xilafətin

---

[1] İbn Makula. əl-İkməl fi rəf`il-irtiyab an əl-mu¢təlif vəl-muxtəlif fil-əsma va-l kunə va-l ənsab. Beyrut, 1990, I c., s.218-219.

[2] Əs-Siləfi Əbu Tahir Əhməd bin Məhəmməd. Mu¢cəm əs-Səfər. www.al-mostafa.com, № 398.

[3] Əbdülkərim əs-Səmani. Kitab əl-Ənsab. Beyrut. 1998, V c., s.387-388.

[4] İbn Makula. əl-İkməl fi rəf`il-irtiyab an əl-mu¢təlif vəl-muxtəlif fil-əsma va-l kunə val-ənsab, Beyrut, 1990, VI c., s.289.

digər mədəniyyət mərkəzləri alimlərinin Gəncədəki fəaliyyətini göstərir.

İbn Makulanın Gəncədə kitabxananın mühafizi Əbülfəzl Xodadad ibn Asim ən-Nəşəvi ilə görüşməsi[1] faktı Yaqut əl-Həməvinin (1178-1179/1227) məlumatını dəqiqləşdirilərək Gəncə kitabxanasının hələ İbn Makulanın yaşadığı (XI əsrdə) və bəlkə də ondan əvvəlki dövrdə fəaliyyət göstərdiyini təsdiq edir. Bundan əlavə İbn Makula və Əbu Tahir əs-Siləfi kimi şeyxlərin Gəncəni ziyarət etməsi, İbn Makulanın Gəncədə əs-Səmaninin "İbn Makulanın şeyxi" kimi təqdim etdiyi naxçıvanlı Əbülfəzl Xodadad ən-Nəşəvi ilə görüşərək fikir mübadiləsi aparması, bu şəhərin elmi mühitində sufiliyin önəmli rol oynamasını göstəməklə yanaşı Gəncə kitabxanası mühafizinin böyük nüfuz sahibi olmasını göstərir.

Gəncə şəhəri bir çox görkəmli şəxsiyyətlər yetirmişdir. Nizami Gəncəvi kimi bir düha Gəncədə yazıb-yaratmışdır. XI əsrin sonlarında yaşayıb fəaliyyət göstərmiş Azərbaycanın böyük şairlərindən Qətran Təbrizi dəfələrlə Gəncədə olmuşdur. Ola bilməz ki, belə yüksək səviyyəli ziyalıları olan şəhərin elmi-mədəni mühitinin göstəricilərindən biri olan təhsil müəssisələri olmasın. Gəncədə bir çox alimin harada təhsil alması sualı bir çox tarixçiləri düşündürmüşdür. "Gənclik illərini kitablara sərf etmiş" Məsud ibn Namdar harada təhsil almışdı, Gəncədə Nizamiyyə tipli mədrəsələr mövcud olmuşdurmu? Bu fikir Məsud ibn Namdarın məcmuəsinin faksimilesini nəşr edən və ona geniş müqəddimə yazan prof. V.Beylisi də düşündürmüşdü, lakin faktın yoxluğu üzündən o, bu suala cavab tapa bilməmişdi[2]. Əbu Tahir əs-Siləfinin (1085- 1180) "Muccəm əs-səfər" əsərinin tədqiqi yeni faktı əldə etməyə imkan verdi. Əs-Siləfi bu əsərində Azərbaycan və onun bir çox şəhərləri, o cümlədən Gəncə və onun Nizamiyyə mədrəsəsi haqqında məlumat verir. Səlcuqlar dövründə müdərrislər mədrəsələrin baş müəllimləri hesab edilirdi. Onlar sultanlar və vəzirlər tərəfindən təyin edilirdi. Nizamülmülk vəzirliyi dövründə müdərrisləri özü təyin edirdi. Sultan Səncərin (1096-1157) də müdərrisləri təyin etdiyi məlumdur[3]. Gəncədəki mədrəsədə qazı Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbəri kimi müdərris fəaliyyət göstərmişdir. Əbu Abdulla ət-Təbəri

---

[1] Əbdülkərim əs-Səmani. Kitab əl-Ənsab. Beyrut. 1998, V c., s.387-388.

[2] Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975.

[3] Mehmet Altay Köymen. Alp Arslan ve zamanı, Ankara, 1983.

həmin mədrəsədəki tədrisə rəhbərlik edərkən yaxşı işləmiş, onun idarəçilik qabiliyyəti daha da artmışdı"[1]. Əbu Abdulla Gəncədə Nizamülmülkün onun atası üçün tikdirdiyi mədrəsədə müdərris vəzifəsində çalışmışdır. Şeyx əs-Siləfi "Muccəm əs-Səfər" əsərində qeyd edir ki, Gəncədə olarkən "Öz zəkası ilə işıq saçan" Əbu Abdulla Məhəmməd ibn Əli Məhəmməd ət-Təbəri onu öz şeirlərində tərənnüm etmişdi. Gəncəli müdərris əs-Siləfiyə onu tərənnüm edən şeirini oxumuşdu.

Xilafətin mədəniyyət mərkəzlərində yaradıcılıqla məşğul olmuş azərbaycanlı ziyalıların bəzilərinin həyatlarının müəyyən hissəsi də vətənləri ilə bağlı olmuşdur. XII əsrin ərəbdilli ədibi, əslən Gəncədən olan Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzinin (v.e.1155-ci ildə Mərvdə) Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün (v.e.1106-cı ildə) uşaqlarına dərs deməsi, gəncəli müdərrisin tədris işində mahir olduğunu göstərir. Fəzilət sahibi, dindar və xoş rəftarlı bu ədib Bağdadda qaldığı müddətdə böyük alimlərlə, o cümlədən Əbülmüzəffər əl-Əbivərdi ilə dostlaşaraq ondan elm öyrənmişdi. Əbu Həfs Ömər ədəb elminin sirlərini dərindən mənimsəmək niyyəti ilə Bağdaddan sonra Həmədanda da bu alimin yanında təhsilini davam etdirmişdir. Sərxəsdə Əbu Həfslə görüşən əs-Səmani onun özündən eşitdiyi şeirlərindən parçalar yazmışdır. Əbu Həfs Bağdadda təhsil aldıqdan sonra vətəni Gəncəyə dönmüş, sonra isə ikinci dəfə Bağdada qayıtmış və yetmiş yaşında vəfat etmişdir. L.Orucova və Z.Şıxəlibəyli yazır ki, bir çoxlarına görə, Ömər ibn Osman əl-Cənzi Nizami Gəncəvinin dayısı olmuşdur[2].

Xilafət alimləri Gəncəyə gəldikləri kimi, əsli Gəncədən olan alimlər də Yaxın və Orta Şərq şəhərləri, o cümlədən Bağdad və Dəməşqdə elmi fəaliyyətlərini davam etdirmişlər. Onlardan əslən Gəncədən olan İsmayıl ibn Əli İbrahim əl-Cənzəvi (v.e. 588/1192) məskunlaşdığı Dəməşq şəhərinin adını da özünə ikinci nisbə kimi qəbul edərək, həm də "əd-Diməşqi" nisbəsi ilə də tanınmışdır[3]. O, Bağdadda Əbülbərəkət Hibbətullah əl-Buxari kimi böyük alimin yanında təhsil almışdır.

Səlcuq dövrünün mənəvi mühitini səciyyələndirən xüsusiyyətlərdən

---

[1] Əs-Siləfi Əbu Tahir Əhməd bin Məhəmməd. Mu¢cəm əs-Səfər//www.al-mostafa.com. № 1177.

[2] Оруджева Л.М., Шихалибейли З.Е. Развитие арабской филологии в Азербайджане. Баку, «Нурлан», 2004, стр.25.

[3] Məmmədəliyev V.M. Bəsrə qrammatika məktəbi. Bakı, "ADU", 1983, s.172.

biri o idi ki, yerli alimlər səlcuq zadəganlarına mühüm təsir göstərə bilirdi. Nizamülkün yanında təşkil olunan hədis məclislərində Azərbaycandan olan hədis biliciləri də iştirak edirdilər. Belə məclislərin birində hafiz İbrahim ibn əl-Əzhər Əbu İshaq əl-Mərəndi barədə İbn Makula məlumat verərək yazırdı: "əl-Mərəndi şeyxdir, onu Nizamülmülkün qapısında atasından, onun da Əbu Səid ibn əl-Ərabidən hədis söylədiyini gördüm[1] .

Dini mövzularla bağlı mübahisələr Səlcuqlar dövründə də davam edirdi. 1122-ci ildə Tiflisi tutan çar David şəhərin müsəlman əhalisinə bir sıra güzəştlər vermişdi. Dini ibadətləri yenə də şəhərdə icra oluna bilərdi. Tiflisin müsəlman əhalisinin təhqirinə yol verməmək üçün şəhərdə donuz kəsmək qadağan edilmişdi. Şəhərdə gürcü hökmranlığı dövründə ərəb əlifbası ilə yazılmış sikkələr kəsilirdi. Burada Allahın adı çəkiləndən sonra Məhəmməd peyğəmbərin (s.a.s.) adı yad edilirdi. David və onun oğlu Demetre Tiflisdə came məscidini ziyarət etmiş, xütbə və Qurana qulaq asmışdı. O, gəlmə tacirlər üçün karvansara, zahid dərviş-sufilər, şairlər üçün evlər tikmiş, təqaüdlər kəsmişdi. David xüsusilə müsəlman ilahiyyatçıları arasında baş verən ehtiraslı mübahisələrə maraq göstərirdı. O, hətta Gəncə şəhərinin qazısı ilə Quranın əbədi olması barədə söhbətə də qoşulmuşdu[2].

Azərbaycanın Bərdə, Gəncə, Təbriz, Naxçıvan, Xoy, Urmiya, Mərənd, Uşnu, Bərzənd, Dərbənd, Sərav, Miyanə, Varsan, Bərdic, Beyləqan, Miməz kimi şəhərlərindən çıxan, özlərinə yüksək mövqe və şöhrət qazandıran ziyalılarımızla tanışlıq bu şəhərlərdə mədəni həyatın inkişaf səviyyəsini müəyyənləşdirməyə imkan verir. Əbu Tahir əs-Siləfi kimi alim şeyxlərin isə Gəncə ziyarətində yerli alimlərlə görüşərək elmi mübadilə aparması yerli mədəni mühitin ab-havasından xəbər verir. Artıq XIII əsrin II yarısından XV əsrə qədər olan dövr ərəb dilinin yayılma sferasının daralması, bu dildə ədəbi və elmi yaradıcılığın vüsətdən düşməsi, ərəb dilində yazılmış kitabların kütləvi şəkildə məhv edilməsi ilə xarakterizə oluna bilər. A.B.Xalidov daha da irəli gedərək göstərir ki, bu dövrdə Məğribdə, İraq və İranda ayrı-ayrı görkəmli yazarların görünməsi, hətta dərin tənəzzül şəraitinin olduğu XVI-

---

[1] Əliyeva N.A. İbn Makula azərbaycanlı ziyalılar haqqında. B., "Turxan", 2014, s.91.

[2] Петрушевский И.П. Совместная борьба народов Закавказья против иноземных захватчиков в XI-XII вв. АН СССР, Изв. Филиал Аз.ССР, № 10, 1942, стр.32.

XVIII əsrlərdə belə iri intellekt (erudisiya) abidələrinin üzə çıxması, xüsusilə ədəbiyyatın "min bir gecə" sadə xalq ədəbi yazıları ilə zənginləşməsinə baxmayaraq, tənəzzülün ümumi səviyyəsini dəyişdirmək mümkün olmadı. Bu vəziyyət başqa bir şərait də yaratmışdı. Səlibçilər və monqollar üzərində qələbə Misir və Suriyanın müsəlman mədəniyyəti mərkəzi kimi əhəmiyyətini xeyli artırmışdı.

*Digər Azərbaycan şəhərlərində.* Xilafətin mədəniyyət mərkəzlərində təhsil alaraq vətəninə qayıdan alimlər digər mədəniyyət mərkəzlərində öyrəndikləri hədisləri öz vətənlərində hədis məclilərində söyləyirdilər. Onların arasında Əbülqasim Mahmud ibn Yusif ibn Hüseyn əl-Bərzəndi ət-Tiflisini (v.e. h.505/1111-ci ildən sonra) qeyd etmək lazımdır. O, Bağdadda şeyx Əbu İshaq əş-Şirazidən fiqhi öyrəndikdən sonra vətəninə qayıtmışdı. Vətənində isə əs-Səmaninin ifadəsi ilə deyilsə "İki şərafətli adama-Əbülhüseyn Məhəmməd ibn Əli ibn Mühtədi Billah və Əbülğənaim Əbdüssəməd ibn Əli Məmun əl-Haşimiyyəyə istinadən hədis söyləmişdir"[1].

Azərbaycanın mədəniyyət ocaqlarından Təbrizdə də ədib, fəqih və digər ihahiyyatçı alimlər toplaşır, müxtəlif mövzularda ədəbi yarışmalar (mukatabat) keçirilir, Xilafətin digər şəhərlərindən ziyarətə gəlmiş mühəddislər hədis evlərində hədislər söyləyir, yerli alimlər tərəfindən müzakirələr və diskussiyalar təşkil olunurdu.

Dilçilik üzrə görkəmli alim Məcdəddin Əbülfəzl Əhməd ibn Əbu Bəkr ibn Əbu Məhəmməd əl-Xavarani haqqında İbn əl-Fuvati məlumat verir. Yaqut əl-Həməvi də özünün "Mucəm əl-üdəba" əsərində onu yad edərək yazır ki, "Mən Təbrizdə onunla görüşdüm. Qarşımdakı dilçiliyi gözəl bilən, ağıllı, Quranı əzbərdən bilən layaqətli bir gənc idi". Yaqut əl-Həməvi ondan h. 617-ci ildə (1220-21) ayrılmışdı. O, h. 620/1223-ci ildə vəfat etmişdi[2].

Yaqut əl-Həməvinin Təbrizə səfərləri, əsasən kitab ticarəti ilə bağlı olmuşdur. Bu zaman o kitabxanalarda kitablarla tanış olur, bəzilərinin üzünü köçürür, qiymətli kitabları əldə etməyə çalışırdı.Yaqut əl-Həməvi xəbər verirdi ki, Təbriz şəhərində əl-Cavhərinin "əs-Sihah" əsərinin surətini

---

1 Əs-Səmani.Kitab əl-Ənsab. Beyrut, I c.,1998, s.120.

2 Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в. Баку, 1999, стр.56.

tapmışdır[1]. Əsərin digər nüsxəsini də Dəməşqdə əldə etməsi Yaqutun hər iki nüsxəni tutuşduraraq faəliyyətində istifadə etmək istəyi ola bilərdi.

Onun əlyazma və kitablara olan sevgisi üç il Mərvdə qalmasına səbəb olmuşdu. Hələb valiliyinin vəziri Camal əd-Din əl-Qiftiyə göndərdiyi məşhur məktubunda Yaqut yazırdı: "Mən orada cildləri əql sahibləri tərəfindən yazılmış müxtəlif elmlərə dair bəzi kitabları tapdım. O vaxt ki, mən onları öyrənirdim, onda nə ailəni, nə ölkəni, nə də həqiqi dostları və evi fikirləşirdim"[2].

Beləliklə, Azərbaycanın şəhərlərində elmi məclislər fəaliyyət göstərmiş, digər bölgələrin şeyxləri bu şəhərlərə səfər edərək burada öz həmkarları ilə fikir mübadiləsi aparmışlar.

Ərəbdilli mənbələrin Azərbaycan şəhərlərindən çıxmış çoxsaylı alimlər haqqında məlumat verməsi, ətraf vilayət və şəhərlərdən ziyalıların Azərbaycana gəlməsi və bu diyardan olan ziyalıların dövrün müxtəlif mədəniyyət mərkəzlərinə səfərlərindən sonra vətənlərinə dönərək fəaliyyətlərini davam etdirməsi, buradakı yerli ziyalı mühitinin formalaşmasını göstərməklə bərabər Azərbaycanın Xilafətin digər bölgələrinin alimləri ilə elmi-mədəni əlaqələrini sübut edir.

Xilafətin mədəniyyət mərkəzlərini ziyarət edən azərbaycanlı alimlər bu elm mərkəzlərindəki müxtəlıf elm ocaqlarında həm təhsillərini artırmış, həm elmi yaradıcılıqla, həm də tədrislə məşğul olmuşlar.

[1] Yaqut əl-Həməvi. İrşad əl-Ərib. Misir, II c., s.270.
[2] İbn Xallikan. Vəfayət əl-Əyan, s.352.

# VI FƏSİL

# AZƏRBAYCANDA İSLAM MƏDƏNİYYƏTİ OCAQLARI VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİ



## 6.1. İlk elm, mədəniyyət və təhsil ocaqları

İslam coğrafiyası hüdudlarının genişlənməsi, müsəlmanları digər mədəniyyətlərlə (ellin, İran, hind və s.) təmasda olmağa gətirib çıxarmışdı. Bu isə onlara qarşı böyük bir marağın yaranmasına səbəb olmuşdu. Fərqli mədəniyyətlər arasında ortaya çıxan bir sıra diskussiya və mübahisələrdə müsəlmanlar öz inam və düşüncələrini tutarlı şəkildə sübut etmək və islamın üstünlüklərini göstərmək üçün həmin mədəniyyətləri dərindən tanımaq məcburiyyətindəydilər. Bu cəhətdən xəlifə Əbdülməlik ibn Mərvanın əlifbanı dəyişdirmək, divanlarda yazı işlərinin ərəb dilində aparılması haqqında 700-701-ci illərdə başlayan islahatını xüsusi qeyd etmək lazımdır. Müvəffəqiyyətlə aparılan bu islahatlar mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcüməsi ilə bərabər böyük tədqiqat işlərinin aparılmasını da zəruri etmişdi.

VIII əsrin axırlarında "sülh şəhəri" Bağdadda o dövr Şərqinin Elmlər Akademiyası - məşhur "Beytül-hikmə" ("Hikmət evi") nin əsası qoyuldu. Nəhəng kitabxanası və astronomik müşahidələr üçün rəsədxanaları olan bu elm mərkəzi elm və incəsənətə qiymət verən, maarifçilik cəhdlərini təşviq edən Xəlifə Harun ər-Rəşidin (786-809) oğlu Xəlifə əl-Məmun (813-833) tərəfindən yaradıldı. "Beytül-hikmə"də kitabxana və bir çox rəsədxana ilə yanaşı, tərcümə şöbəsi də fəaliyyət göstərirdi. Bu intellektlər ocağında əsas diqqət fəlsəfi və elmi mətnlərin (poeziya, dramaturgiya və tarixi mətnlər istisna idi) ərəb dilinə tərcüməsinə verilirdi[1]. Xilafətin müxtəlif bölgələrindən olan bir çox alim elm və tərcümə sahəsində fəaliyyət göstərmək üçün "Beytül-hikmə"yə cəlb edilmişdi. Bu elm məbədində yunan və hind elminin nailiyyətlərinə böyük diqqət yetilirdi[2]. Əbu Xəlifə əl-Fadl mühazirələrini dinlədiyi talakanlı İbad əd-Dini "Dər-əl-Kutub"da ("Kitab evi") görmüşdü.

"Beytül-hikmə"dən danışarkən "Xəzinətül-hikmə"ni qeyd etməmək mümkün deyil. Xəlifə Məmun 830-cu ildə Bizansdan dönərkən oradan toplatdığı kitabları özü ilə Bağdada gətirdi. O, "Xəzinətül-hikmə"ni - kitabxananı zənginləşdirmək üçün böyük miqdarda pul ayırdı. Daha sonra xəlifə "Beytül-hikmə"nin müdiri Səlim ilə İbnü-l-Batrik, Həccac ibn Matar

---

[1] Доктор Рахман. Краткая история Ислама.Москва, «Умма»,2002, стр.255-256 .

[2] Хайруллаев М.М., Бахадиров Р.М., Абу Абдаллах ал-Хорезми. Москва, «Наука», 1988, стр.17.

və Yühənna ibn Masaveyhdən (777-857) ibarət bir heyəti Bizansa göndərərək bu heyətin kitabxanalardan seçəcəyi kitabların ona göndərilməsini imperatordan rica etdi. “Beytül-hikmə”dən əvvəl isə Əməvilər sülaləsinin paytaxtı olan Dəməşqdə “Dərul-tərcümə”(“Tərcümə evi”) inşa edilmişdi[1]. “Beytül-hikmə” quruluncaya qədər bir əsrdən çox müddət ərzində “Dərul-tərcümə” ayrı-ayrı şəxslər, şahzadə və xəlifələrin şəxsi maraqları üzrə fəaliyyət göstərmişdi[2]. Bunların arasında Əməvi şahzadələrindən Xalid ibn Yəzid ibn Müaviyə (v.e. 85/704) birinci olaraq tibb, astronomiya, kimya kimi elmlərə maraq göstərmiş və bu mövzuda yazılmış yunan və qibti dilindəki əsərləri isgəndəriyyəli bir rahib olan Staphon və Maraianosa tərcümə etdirmişdi[3]. “Tərcümə evinə” ilk kitabları Xalid ibn Yəzid toplamışdır. Onun bu işini Əməvi Xəlifələrindən Mərvan ibn Hakəm (684-685) və Ömər ibn Əbdüləziz (717-720) davam etdirmişdir.

Xəlifə Mehdinin dövründə (775-785) daha çox xarici düşüncə tərzindən qaynaqlanan zındıqlıq hərəkatı baş verdiyi üçün tərcümə işinə önəm verilmədi. Bir müddət sonra, Harun ər-Rəşidin dövründə (786-809) yenidən bir sıra tərcümə əsərləri yarandı. Daha sonra Abbasi Xəlifəsi Mənsur tərcümə işini daha yüksək səviyyəyə qaldıra bildi. Elmlərə böyük həvəs göstərən Xəlifə Mənsur özünün bildiyi hədis, fiqh, dil və ədəbiyyatdan başqa məntiq, fəlsəfə, riyaziyyat, həndəsə, astronomiya və təbabət kimi nəzəri və təcrübi elmlərə böyük maraq göstərirdi. Özünün rəsmi tərcüməçisi olmuş Əbu Yəhya ibn əl-Batrik (v.e.796-806-cı illər arasında) onun hamiliyi ilə Qalen və Hippokratın təbabətə dair elmi əsərlərinin ərəb dilinə ilk tərcüməsini həyata keçirmişdir. Xəlifə Mənsur Ərəstunun (Aristotel) “Orqanon” adlı məntiq kitabını, “Kəlilə və Dimnə”ni farscadan ərəbcəyə tərcümə etdirdi. Bundan başqa hindli bir səyyahın özü ilə gətirdiyi riyaziyyat və astronomiyaya aid iki kitab tərcümə edildi. Beləliklə, hind rəqəmləri və s. islam mədəni dünyasına daxil oldu. Mənsur, oğlu Mehdiyə də bu işi davam etdirmək üçün lazımi tövsiyələr vermişdi.

“Hikmət evi” bilik ocaqlarının örnəyi kimi, Xilafətin hər yerindən elmin ən müxtəlif sahələrində çalışan və müxtəlif dini dünyagörüşləri olan

[1] Nəcdə Xəmaş. Əl-asru-l-islami hattə nihayəti əl-ahdi-l-məmluki. Əş-Şam asımətu əs-səqafə əl-islamiyyə. Diməşq, 2008, s.126.
[2] Abdulla Aydemir. Beytülhikme. İE., 6-cı c., İstanbul, 1992, s.88.
[3] İbn ən-Nədim. Əl-Fihrist. Misir, h. 1348, s.340.

hindli, soqd, iranlı, türk, ərəb, qipti, bərbər, hətta çinlilərin elmi və mənəvi ideyalarının cəmləşdirildiyi yerə çevrildi.

"Hikmət evi" özündə zəngin kitabxana, tərcümə şöbəsi və bir çox astronomiya rəsədxanalarını birləşdirirdi. Bu intellektual ocaqda əsas səy bədii, dramatik və tarixi yox, yalnız antik fəlsəfi və elmi mətnlərin ərəb dilinə mükəmməl tərcümə edilməsinə yönəlmişdi. Yunan alimlərinin əsərləri arasında musiqiyə aid çoxlu kitablar var idi. Tərcümə olunmuş belə kitablar sayəsində ərəblər yunanlardan musiqi terminologiyasını, musiqi sisteminin akustik əsaslarını və s. mənimsəmişdilər.[1] O dövrdə çap maşınlarının olmadığı bir vaxtda nəssax və xəttatların rolu böyük idi. Hiradan olan, yüksək təhsil görmüş xristian-nestorian Hunayn ibn İshaq (809-873) tərcüməçilər komandasının rəhbəri idi. Yaxşı ad qazanan və təcrübəli tibb işçisi olan Hunayn həm də yunan dilini tədris edirdi. "Beytül-hikmə"ni bir neçə dəfə görmüş ərəb müəllifi İbn ən-Nədim (v.e. 995) bu barədə bir sıra qiymətli məlumatlar vermişdir. Onun yazdığına görə, yunancadan süryaniyəcə, oradan da ərəbcəyə və ya ərəbcədən yunancaya tərcümə edən mütərcimlərin sayı qırx yeddi idi, farscadan tərcümə edənlərin sayı on altı, sanskritcədən tərcümə edənlərin sayı isə üç nəfər idi[2]. Məmunun Bağdad yaxınlığında tikdirdiyi rəsədxanada tədqiqatla məşğul olan riyaziyyatçı və astronomların çoxu "Hikmət evinin" kadrlarından olan alim və ixtiraçılar idi.

VIII-IX əsrlərdən antik irsin görkəmli nümayəndələrinin əsərləri Azərbaycanda da yayılmağa başladı. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan əlyazmalar bunu təsdiq edir. Onlardan biri də suriyalı tərcüməçi Hüseyn ibn İshaqın (809-873) oğlu, özü də IX əsrin məşhur tərcüməçisi olan Əbu Yaqub İshaq ibn Hüseynin " ألإدوية المفردة" ("Sadə dərman vasitələri") əsərinin əlyazmasıdır. Antik yunan təbibləri – Hippokrat, Halen, Aristotel və Duoklun traktatları kitabın əsas mənbələrindən sayılır.

Fondda qorunan daha bir əlyazma, Zəncan şəhəri yaxınlığındakı Əbhər adlı yerdən olan Əsirəddin Müfaddal ibn Ömər əl-Əbhərinin (v.e.1265) isgəndəriyyəli Porfiri Tirskinin (232-304) o vaxtlar Aristotelin məşhur "Məntiq" əsərinə "Giriş" qismində qələmə aldığı və "İsağuci" əsərinə yazdığı traktatdır. Əsər Porfiri Tirskinin (232-304) o vaxtlar məşhur olan dərsliyini

[1] Səfərova Z. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı, "Azərnəşr", 2006, s.29.
[2] İbn ən-Nədim. Əl-Fihrist, Misir, h. 1348, s.340-342.

şərh edir. Yunan filosofu olan Porfiri Platonun şagirdi, neoplatonizmin görkəmli nümayəndələrindəndir. "İsağuci" antik müəlliflərin müsəlman elminə daxil olan ilk əsərlərindəndir. Onun ərəb dilinə tərcüməsi əl-Kindi, Əbülfərəc ibn ət-Tayyib, Əbülabbas Əhməd ibn Məhəmməd Mərvan əs-Sərxasi, Muhyiddin Əbdüllətif ibn Yusif əl-Bağdadi tərəfindən işlənmişdir. Lakin, əl-Əbhərinin traktatından sonra onların hamısı tədris fəaliyyəti sahəsindən sıxışdırılıb çıxarılmışdı. O, 700 il ərzində Azərbaycan, İran, Türkiyə və Orta Asiyada əsas dərs vəsaiti rolunu oynamışdır. Əsərin azərbaycanlı tərəfindən yazılması və əlyazmasının müxtəlif dövrlərdə üzünü köçürənin də azərbaycanlı (Əbdülğəni ən-Nuxəvi ibn Hacı Məhəmməd Əfəndi Xalisəqarızadə) olması Azərbaycanda əsrlər boyu təhsilə, elmə verilən yüksək qiyməti göstərir. Əsərdə deyilir: "Bu traktat məntiq haqqındadır. O bizə elm öyrənənlərə nəyi bilmək lazımolduğunu öyrədir"[1]. Əl-Əbhəridən sonra şirvanlı alimlərdən Numan ibn Şeyx Səid əş-Şirvani[2] və Muhyiddin ət-Talışi (təqr. XIV-XV əsrlər) də "İsağuci" əsərinə şərh yazmışdır. Hikmətin yüksək zirvələrinə qalxmış, ədəbiyyatın dərinliklərinə varmış, həm şeirdə, həm də nəsrdə ustad olmuş Əbu Səid Həkim əl-Urməvidən qalmış bir sıra əsərlər içərisində "Evklidin birinci və ikinci məqaləsinin şərhi" də olmuşdur[3].

Azərbaycan şairi Xaqani Şirvaninin əmisi Kafiəddin Şirvani haqqında yazdığı şeirdə deyilir: "Onun sözü həndəsədən dəqiqdir. O, Ərəstun, Əflətunun şagirdidir..." və ya "O, ədəbiyyat və elm adamıdı. O, ədəbiyyatı, fəlsəfəni dərindən bilir, demək olar ki, o, dövrümüzün fəlsəfəsini dərindən bilir, demək olar ki, o dövrümüzün Aristotelidir"[4]. Bu beytlərdən görünür ki, Kafiəddin Şirvani özünün elmi, xüsusilə fəlsəfi müddəalarında yunan alimləri Aristotel (e. ə. 384-322) və Platonun (e. ə. 348-328) əsərlərindən bəhrələnmişdir.

Nizami Gəncəvi (1140-1211) də Ərəb Xilafəti və İran şahlarının islamaqədərki tarixi ilə bərabər antik dövr tarixini də gözəl bilirdi. O, "Respublika", "Qanunlar", Platonun "Timsos"unu, Aristotelin məntiqdən

[1] Каталог арабских рукописей/составители к.и.н. А.Г. Алиев и к.и.н. К.К. Шарифов. Баку, «Элм», 2000, стр.61-63.

[2] Hacı Xəlifənin "Kəşf əz-Zünun"da bu əsərin adı çəkildiyinə görə onun XVII əsrə qədər yaşadığı ehtimal edilir (bax. Каталог арабских рукописей, стр.147).

[3] Tərbiyət Məhəmmədəli. Danışməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı, "Azərnəşr", 1987, s.106

[4] Xaqani Şirvani. Töhfətul-İraqeyn, s.42; E.Mehrəliyev. Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər) Bakı, "Çaşıoğlu", 2000, s.19-21.

bəhs edən əsərlərini, Arximed, Evklid, Hermes Trismegist, Fales Miletski, Appoloni Tianski, Porfiri Tirski və başqalarının əsərləri ilə yaxından taniş idi[1]. Məhəmmədəli Tərbiyətə görə, Nizaminin "İsgəndərnamə" əsəri əfsanəvi yunan dastanından alınmış bir hekayədir. Bu dastanı, ya da tarixi hadisəni İsgəndərin munşilərindən biri olmuş yunan Kalstensə aid edirlər[2].

Xəlifədən başqa bəzi varlı ailələr də şəxsi kitabxana quraraq müxtəlif əsər, tərcümə və elmi araşdırmalara böyük məbləğdə vəsait xərcləyirdilər. "Xəzinətül-hikmə"də kitabların qorunduğu hücrələr, müəllif, mütərcim, katib, müstənsix (yazının üzünü köçürən) və mücəllidlər üçün ayrılan otaqlarla yanaşı, qiraət salonu da mövcud idi. Başlanğıcda bir tərcümə bürosu və kitabxana kimi təsis edilən "Beytül-hikmə" genişlənərək pozitiv elmlərin tədqiq olunduğu bir tədris mərkəzinə çevrilmişdi.

Bəzən kitabxana ayrıca "Dər-əl-Kutub" ("Kitab evi") adlanırdı.Vaxtilə Əbu Xəlifə əl-Fadl mühazirələrini dinlədiyi talakanlı İbad əd-Dini "Dər-əl-Kutub"da ("Kitab evində") görmüşdü.

A.Yakubovski "IX əsrin əvvəllərində Xilafətin Bizans, Bağdadın isə Konstantinopol üzərində üstünlüyü haqqında danışmaq mümkündür" deyərkən Xilafətin mədəni-dini həyatının inkişaf etməsini, çiçəklənmə dövrü keçirməsini nəzərdə tutmuşdu[3]. İ.E. Qrunebaum VII-XIV əsrlər arasında islamın meydana çıxması və inkişafı, ilahiyyat və hüququn əsasları, ən başlıcası isə islam dininin sayəsində formalaşmış və dünya mədəniyyətinin mühüm hissəsini təşkil edən ərəb-müsəlman mədəniyyətinin, Şərq tarixi, ədəbiyyatı və incəsənətinin xüsusiyyətləri, onların antik, Bizans və Qərb (Avropa) mədəniyyəti ilə müqayisəli təhlil etmiş, müqayisədə ərəb-müsəlman mədəniyyətinin həyatiliyi və bəşəriliyinə üstünlük vermiş, onun Avropa mədəniyyətinə mütərəqqi təsirini dəfələrlə qeyd etmişdir[4]. Görkəmli şərqşünas V.Bartold da Şərq və Qərb mədəniyyətlərini müqayisə

---

[1] Низами Гянджеви. Сем красавиц. Филологический перевод с фарси, предисловие и комментарии Рустама Алиева. Баку, «Элм», 1983, стр.9.

[2] Tərbiyət Məhəmmədəli. Danişməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı, "Azərnəşr", 1987, s.260.

[3] Якубовский А. Ирак на грани VIII-IX вв. (черты социального строя халифата при Аббасидах). Ленинград., 1935, стр.34.

[4] Q.E. Fon Qrünebaum. Klassik islam (600-1258). Rus dilindən tərcümə Ş.H. Hənifəzadənin, müqəddimə Maqsud Fərhadoğlunun, ön söz V.V. Naumkinindir. Bakı, "Azərbaycan Ensiklopediyası", 1998, s.8.

edərək yazırdı ki, Şərqdə bir sıra elmlər, o cümlədən hesab və cəbr inkişaf edəndə Qərbdə bu haqda təsəvvür belə olmamışdır. Hindistanda kəşf edilən rəqəmlər Qərbə Azərbaycan, İran və Misir vasitəsilə keçmişdir[1].

Mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəb dilinə tərcümə olunması da inkişafa təkan verən amillərdən idi. Nəzərə alınmalıdır ki, müsəlmanların yunanlardan öyrəndikləri antik elm tam şəkildə müzakirədən və əlavələr etdikdən, müəyyən hissəsi də onlara xas nöqteyi-nəzərdə yenidən işləndikdən sonra mənimsəmənin özü elmi inkişaf etdirməkdir. VIII-IX əsrlərdən ərəb dilinə tərcümə olunan Aristotelin, Hippokratın və Platonun əsərləri Azərbaycanda yayılmışdı. Bu, Azərbaycan şairi Xaqani Şirvaninin əmisi Kafiəddin Şirvani haqqında yazdığı şeirdə də əks olunmuşdur.[2]

Azərbaycanda kitabxana mədəniyyətinin yayılması, Azərbaycan ərazisinə kitabların daxil olması, bu ərazidən digər yerlərə kitabların daşınması islamdan əvvəlki dövrə - VII əsrdən əvvəlki dövrə də təsadüf edir. Məlumdur ki, V əsrdə Albaniyada 52 hərfdən ibarət alban əlifbası tərtib edilmiş və bir çox kitablar alban dilinə tərcümə olunaraq yayılmışdı. Həmin dövrdə kilsə və məktəblərdə təşkil olunan kiçik kitabxanalarda müxtəlif xalqların alban dilinə tərcümə olunmuş ədəbiyyat nümunələri toplanmışdı. Eyni zamanda, alban dilində hazırlanan əsərlərin ya əsli, ya da üzü köçürülərək başqa məmləkətlərə aparılmış və müxtəlif kitabxanalara yerləşdirilmişdi[3].

İslamın yayıldığı ilk illərdə dərs deyilən yerlər mədrəsə adlandırılmasa da Rəsuli-əkrəm (s.a.s) zamanında Mədinədə Quranın öyrənildiyi "dərül-qurra" ("qiraət evi") adı verilən ev olmuşdur. Bundan başqa ilk inşa edildiyi gündən etibarən bir təhsil və öyrətmə qurumu kimi də fəaliyyət göstərən "Məscidu-n-nəbəviyyə"("Peyğəmbər məscidi") və orada yerləşən Suffəyi mədrəsələrini ilk təhsil model kimi qəbul etmək daha doğrudur[4]. Mədinədə inşa edilən bu məscidin dövlətin təşəkkülü və qurulmasında, islam dininin yayılmasında, mühacirlərlə ənsarların birləşməsində və müsəlman icmasının güclənməsində, onun nəzdindəki mədrəsənin isə müsəlman toplumun təlim-tərbiyəsində fövqəladə dərəcədə böyük xidmətləri olmuşdur. Peyğəmbər məscidi, müsəlman camaatı üçün toplanma və məşvərət yeri, bir ədliyyə

[1] Бартольд В.В. Избранные сочинения, т, VI, стр.165.
[2] Mehrəliyev E. Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər). Bakı, 2000, s.37.
[3] Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik, I-II hissələr. Bakı, "BUN", 2001, s.76.
[4] Nəbi Bozqıvet. Medrese. 1. A., Ankara, 2004, 28-ci il, s.324.

mərkəzi, bir mədəniyyət və elm ocağı, təlim və təhsil aparılan bir məktəb kimi də fəaliyyət göstərmişdir.

Peyğəmbər məscidi üç bölümdən ibarət idi. Bu bölümlərin biri namaz qılmaq üçün ayrılmış böyük bir salon, ikinci bölümü Allahın Rəsulunun (s.a.s.) zövcələrinə ayrılan otaqlar, üçüncü bölüm məktəb və bəzən yataqxana kimi fəaliyyət göstərən "süffə" yəni "talvar" adı verilmişdir[1].

Qaynaqlarda mədrəsə kimi anılan ilk darussünnə isə Əbu Bəkr Əhməd ibn İshaq əs-Sıbği (v.e. 342/954) tərəfindən Nişapurda inşa edilmişdir[2]. Həsən ibn Məhlədi və Məhəmməd ibn Hüseyn əl-Həsəni kimi hədis alimlərinin imla məclisləri düzəltdiyi bu dərüssünnədə 1000-ə qədər müəllimin dərs deyə bildiyi göstərilir[3]. Bu dərüssünnə bərdəli alim Əbu Bəkr Məkki ibn Əhməd Səadaveyh əl-Bərdəinin (v.e. h. 394/1003) şərəfinə imla məclisi təşkil etmişdi. Əvvəllər imla tədrisin ən ali pilləsi sayılırdı. IX əsrdə ilahiyyatçılar və filoloqlar xüsusilə çox diktə (imla) edirdilər. Leksikologiyanı imla yolu ilə öyrədənlərin axırıncısı Əbülqasim əz-Zəccaci (v.e.339/950) olmuşdur. Əs-Suyutiyə görə, ilahiyyat sahəsində imla üsulu hələ uzun müddət davam etmişdi. Məşhur tarixçi mühəddis, "Əl-Ənsab" əsərinin müəllifi Əbdülkərim əs-Səmani (1113-1167) onun haqqında bir çoxlarının məlumat verdiyini yazır[4]. Hicri 302/914-ci ildə Nişapura gələrək orada yaşamağa başlayan həmyerlimiz bu darüssünnədə bağdadlı Əbülqasım, hələbli Əbdüləziz, homslu əl-Abbas İbn Cabir və onun təbəqələri haqqında rəvayət etmişdir. Əbu Bəkr ibn Səadaveyh əl-Bərdəi Nişapurda darüssünnəni qurmuş Əbu Bəkr Əhməd ibn İshaq əs-Sıbği ilə (v.e. 342/954) bir vaxtda yaşamışdır. İmam Sıbği mədrəsə və onun vəqf işlərini özündən sonra tələbəsi olmuş Hakim ən-Nişapuriyə (h.321-405/933-1014) vəsiyyət etmişdi. Hakim ən-Nişapuri Nişapurda tanış olduğu Əbu Bəkr ibn Səadaveyh əl-Bərdəini (354/965) yüksək qiymətləndirmişdir.

---

1 Haydar Baş. Hz.Muhammed (s.a.s.). İ c., İstanbul,"Fatih-İstanbul", 1993, s.271; Kazıcı Ziya. İslam medeniyyeti ve müessiseleri tarihi. İstanbul, 1999, s.226; Hemidullah Muhammed. İslam peyğəmbəri (hayatı ve faaliyyeti 2 cildde) I nc., İstanbul, "İrfan yayımçılıq ve ticaret", 1980, s.75; Ə.Həsənov. Salman əl-Farisinin islam tarihçiliyində rolu. Bakı, "Elm və təhsil", s.41.

2 Əz-Zəhəbi. Əaləmu-n-nübəla, XVI, s.540.

3 İbn Nöqtə. ət-Təqyid li-məarifəti ruvatis-sünən vəl-məsanid, nşr. Kamal Yusif əl- Hut. Beyrut, 1408/1998. I c., s.230.

4 Əs-Səmani.Kitab əl-Ənsab. Beyrut, 1419/1998, I c., s.328.

Qeyd etmək lazımdır ki, məscidlərin nəzdində mədrəsələr də fəaliyyət göstərmişdir. Belə məscidlərdən birinin adı əslən Urmiyadan olan azərbaycanlı Şeyx Əbu Nəzar əl-Həsən ibn Əbülhəsənin adı ilə bağlı olmuşdur. Şeyx qrammatika sahəsində tanınmış alim idi. O, "Maliku-n-nühat" ("Dilçilərin başçısı") kimi şöhrət tapmışdı. Onun nüfuzu idi ki, adına Dəməşqdə məscid açılmış, o, orada dərs demişdi. İbn əl-Əsakirin məlumatından istifadə edən Yaqut əl-Həməvi "Mucəm əl-Buldən" əsərində "Maliku-n-nühat" ("Dilçilərin başçısı) kimi şöhrət tapmış bu alimin 10-a yaxın əsərinin adını çəkir[1]. Onun əsərləri arasında qrammatika ilə yanaşı digər mövzularda, o cümlədən, şeir, qiraət elmi, fiqh, dinin əsasları haqqında kitablar əsas yer tutur.

Darüssünnə ilə yanaşı "Darul-elm"("Elm evi") adlanan tədris ocaqlarının da təhsilin yayılmasında xidməti olmuşdur. "Beytül-Hikmə"dən sonra yaradılan "Darul-elm"lərdə kitabxanalar ("xəzinə") yalnız bu müəssisənin xüsusi hissəsini təşkil edirdi[2]. Hicri 383-cü (993) ildə Büveyhi hökmdarı Bahauddövlənin vəziri olmuş Əbu Nəsr Sabur ibn Əzdəşir Bağdad yaxınlığındakı Kərxdə tikdirdiyi binanı "Darul-elm" adlandıraraq kitablarını ora daşıtdırmış və bu "Daru-l-elm"i fəqihlər üçün vəqf yaratdığını elan etmişdi. İbn Kəsir bu məlumatı h. 383-cü (993) il hadisələrini şərh edərkən yazmışdır[3]. Bu isə Kərxdəki təhsil ocağının Nizamiyyə mədrəsələrindən çox əvvəl yarandığı fikrini irəli sürməyə əsas verir.

IX əsrdə hədis elminin inkişafı, mühəddislərin sayının artması yerlərdə "Dər əl-hədis"lərin yaranması üçün şərait yaratdı. Ərəb bioqrafik ədəbiyyatının nümayəndələrindən İbn Nöqtə Ərbildəki "Dər əl-hədis" və burada məskunlaşmış təbrizli alim Əbülxeyr Bədəl ibn Əbülmimar ət-Təbrizi haqqında məlumat verir. O qeyd edir ki, Əbülxeyr ət-Təbrizi qələmə aldığı çoxsaylı hədisləri bu "Hədis evində"söyləmişdir[4]. Hədis evləri ilə yanaşı azərbaycanlı alimlər "münəzərə" adlanan məclislərdə də

---

[1] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu", 1999, s.206.

[2] Мец А. Мусульманский ренессанс. Перевод с немецкого, предисловие, библиография и указатель Д.Е. Бертельса. Москва, 1966, стр.152.

[3] İbn Kəsir. Əl-Bidəyə və ən-Nihəyə. V c., s.360.

[4] Əliyeva N.A.İbn Makula azərbaycanlı ziyalılar haqqında. B. "Turxan"2014, s.79.

iştirak etmişlər. 1183-cü ildə Suriyaya gedən Sührəverdi[1*] bu məclislərdə fəal iştirak etmişdir. Elmi mübahisələrdə ziyalıların rəğbətini qazanmasına baxmayaraq, əleyhdarları Şihabəddini açıqfikirlilik üstündə təqsirləndirib zindana saldırmışlar.

Ziyalılar mədəniyyət mərkəzlərində müxtəlif məclislər, "hədis məclisləri" ilə yanaşı "möüzə məclisi" də təşkil edirdilər. Belə məclislərdən biri Bağdadda Nizamiyyə mədrəsəsində çalışan müdərris Əbülxeyr Əhməd ibn İsmail ət-Talaqani tərəfindən Qəzvində təşkil olunmuşdu.

### 6.2. Nizamiyyə mədrəsələri və yerli ziyalılar

*Bağdad Nizamiyyə mədrəsəsi.* Müsəlman məktəblərinin xüsusi növü olan mədrəsələr islam və islam mədəniyyətinin yayılmasında mühüm rol oynamışdır. Mədrəsə sözü ərəbcə "dərəsə-oxumaq, anlamaq, bir mətni öyrənmək və əzbərləmək üçün təkrarlamaq" kökündən olub "dərs deyilən yer" deməkdir. Bu sözdən "tədris", "müdərris" ("dərs deyən"), midrəs ("Quran oxunan yer") və s. kimi terminlər yaranmışdır.

İslamın yayıldığı ilk dövrlərdə ayrı-ayrı ilahiyyatçı alimlərin mühazirə oxuduqları yer, eləcə də böyük məscidlərdə daimi məktəb və ya mühazirə kursları mövcud idi. Mədrəsə adlanan xüsusi tipli orta və ali ilahi-hüquqi məktəblər h. IV/IX əsrdə Xilafətin Şərqində (Mərkəzi Asiya və Xorasanda) yaranmış, daha sonra isə oradan qərb vilayətlərinə keçmişdi[2].

Mədrəsə təsisatı Səlcuqların dövründə özünün çiçəklənmə dövrünü keçirirdi. Bəs buna səbəb nə idi? Mədrəsələr konkret hansı vəzifələri yerinə yetirməli idi? Bu haqda alimlər arasında yekdil fikir yoxdur. Bəzi

* Şihabəddin Sührəvərdi-görkəmli sufi alim Əbunnəcib əs-Sührəverdinin qardaşı oğlu. 1145-ci ildə Sührəvərddə anadan olmuşdur. Kiçik yaşında atası vəfat etmiş, əmisi Əbunnəcibin yanında böyümüşdür. Bağdada gedərək əmisindən, Əbdülqadir Cilidən, Əbu Zürədən və başqalarından təhsil almışdır. Mütəfəkkir fiqh, təsəvvüf, dilçilik və ədəbiyyata dərindən yiyələnmişdir (bax: Məmmədov Zakir. Azərbaycanda IX-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, 1978, s.54). Mənbələrdə "Bağdad şeyxlərindən biri kimi yad edilən Şihabəddin 1234-cü ildə Bağdadda vəfat etmişdir. İbn Əbi Üseybiyə onu "fəlsəfə elminin yeganəsi, fəzilətli imam" adlandıraraq yüksək qiymətləndirmişdir (bax: İbn Əbi Useybiyə. Uyun əl-ənbə. Beyrut, 1998, s.594-595).

2 Петрушевский И.П. Ислам в Иране в VII-XV веках . Ленинград., 1966, s.91-92.



*Bağdad. Nizamiyyə mədrəsəsi*

tədqiqatçıların (C.Maqdisi və K.Klauzner) fikrincə, Səlcuqlar bu mədrəsələri yalnız inzibati idarəetmə kadrlarının hazırlanması məqsədilə yaratmışdılar[1].

Lakin tədris prosesində gələcək inzibatçılar özlərinin fəaliyyəti üçün vacib olan elmləri və təcrübəni almırdılar[2]. C.Maqdisi mədrəsəni bitirən şəxslərin aldığı ğeniş əhatəli vəzifələri sadalayarkən qazı vəzifəsindən başqa hökümət xidməti ilə bağlı heç bir vəzifənin adını çəkmir. Qazı vəzifəsi isə dini xarakter daşıyırdı. Bununla belə Maqdisi göstərirdi ki, mədrəsədə təlim almış şəxs-fiqhdə, yəni qanunvericilikdə-hüquqşünaslıqda məlumatı olan şəxs hesab olunurdu. O, məhkəmədə qazı vəzifəsində çalışa və mədrəsədə müdərris kimi tədris hissəsinə başçılıq edə bilərdi.

Bağdadda Nizamiyyə mədrəsəsinin yaradılması dövrün tələbi idi. Qahirədəki şiə ismailiyyə universiteti müqabilində yaranan Nizamiyyə adlanan tədris müəssisəsi sonralar bütün müsəlman dünyasına yayılmışdı. Filştinskiyə görə, Nizamiyyə mədrəsəsi hər cür dini azadfikirliyin qarşısını almaq tələbatından yaranmışdı. Artıq dini münaqişələr silah gücünə deyil, elmdən istifadə yolu ilə həll edilirdi[3]. Çünki Nizamiyyədə olan ab-hava əl-Cahiz vaxtındakı Bəsrə məscidinə xas olan alimlərin azad və sərbəst fikir mübadiləsindən fərqlənirdi.

Müasir ərəb tarixçisi Əbu Hac Məhbubə haqlı olaraq yazırdı ki, Nizamülmülk əleyhdarlarını zəif salmaq üçün silahdan əlavə elmdən də istifadə edirdi. A.Müllerə görə, onun bu siyasəti yeritməsi özünün fars əsilli olaraq dini təəssübkeşliyi ilə bağlı idi və o bununla özünün fars milli mənliyinə iltifat göstərirdi. Qeyd etmək lazımdır ki, Nizamiyyənin sünnilik tərəfdarı olan rəhbərləri hər şeydən çox tələbələrin müstəqilliyindən qorxurdular.

---

1 Klauzner C.L. The Selcuq Vezirate: a stady of Sivil Administration, 1055-1194. Cambridge (Mass.), 1973, p.62.

2 Семенова Л.А. Из истории средневековой Сирии (селджукский период) Москва, «Наука», 1990, стр.62.

3 Фильштинский И.М. История арабской литературы X-XI вв. Москва, 1991, стр.17.

Lakin, dini münaqişələri həll etməklə bərabər mədrəsənin üzərinə hər şeydən əvvəl daha böyük bir missiya - elmi inkişaf etdirmək missiyası düşürdü. Məlikşahın Bağdaddakı Nizamiyyə mədrəsəsinin rəisi Əbu İshaq Şiraziyə göndərdiyi məktubda bunun təsdiqini tapmaq olar. O yazırdı: "Nizamiyyə mədrəsəsi məzhəb münaqişələri üçün deyil, elmi inkişaf etdirmək üçündür[1]."

Bağdaddakı Nizamiyyə mədrəsəsinin açılması o dövrdə dünya elmində və mədəniyyətində ən mühüm hadisə idi. Dini münaqişələri həll etmək və ya heç olmasa şiəliyin təsirinin qarşısını almaq üçün savadlı alimlərdən istifadə etmək lazım gəlirdi. Sözsüz ki, tədris və təlim kimi missiyanın yerinə yetirilməsində buradakı Nizamiyyə mədrəsəsinin əvəzolunmaz rolu qeyd olunmalıdır. 459-cu il zülqədə ayının 10-da (2 sentyabr 1067-ci ildə) Bağdad Nizamiyyə mədrəsəsinin təntənəli açılışı oldu. Tikintisinə 200 min dinar sərf edilən Nizamiyyə mədrəsəsində 6000 tələbə təhsil alırdı. Bu mədrəsə öz yeni keyfiyyətlərinə görə, digər mədrəsələrdən tamamilə fərqlənirdi. Onu sözün əsl mənasında orta əsrlərdə dünyada təşkil olunmuş universitetlərin ən mükəmməli adlandırmaq olardı. Burada dilçilik, tibb, tarix, məntiq, ədəbiyyatşünaslıq, ədəbiyyat tarixi, bəlağət, riyaziyyat, astronomiya, ilahiyyat kimi kimi dünyəvi və dini elmlər tədris olunurdu. Nizamiyyə mədrəsəsində təhsil pulsuz idi, müəllimlərə isə dövlət hesabına aylıq maaş verilirdi. Müəllimlərə mühazirə zamanı tamamilə sərbəstlik verilmişdi və onlar tədris üslubu seçməkdə müstəqil idilər. Bundan əlavə, mədrəsədə dərs deyən müəllimlər tələbələrinə özləri yazdıqları əsərlərdən dərs keçirdilər. Dərslər asandan çətinə, sadədən mürəkkəbə prinsipi əsasında qurulmuşdu. Tələbələrə əvvəlcə dilçiliyin əsasları öyrədilir, daha sonra müxtəlif nəzəri elmlər tədris olunurdu. Fiqh və onun üsullarının öyrədilməsi "Nizamiyyə"də təhsilin son mərhələsini təşkil edirdi .

Mədrəsələrdən bəziləri də sufi xanəgahlarında fəaliyyət göstərirdi. Burada təhsil alan tələbələrə ət, çörək, ayda bir dəfə şirniyyat, yağ, sabun verilirdi. Bəzi xanəgahlarda isə yetim uşaqlar üçün mədrəsələr tikilmişdi. Burada təhsil alan yetim uşaqlara gündəlik çörək və digər ərzaqlar verilirdi.

Sözün həqiqi mənasında mədrəsə deyilərkən anılan tədris ocaqları daha çox Alp Arslan və oğlu Məlikşahın vəziri olmuş Nızamülmülkün Nişapur və Bağdadda tikdirdiyi təhsil ocaqları yada düşür. X əsrin sonlarında xüsusilə

---

[1] Osman Turan. Türkiyə sultanlatı haqqında rəsmi vəsiqələr. Ankara, 1958, s.57-60.

ilahiyyat sahəsində mübahisəli fikirlərin artması, mədrəsələrin yaranmasına təkan verirdi. Məscidlərdə ("Allahın evində") mübahisə açmaq istəməyən alimlər xüsusi dini təhsil müəssisələrinin-mədrəsələrin əsasını qoydular.

Bağdaddakı Nizamiyyə mədrəsəsindən qabaq Nişapur başda olmaq üzrə Şərqi İslam dünyasında otuzdan çox mədrəsənin tikilməsi haqqında məlumat vardır[1].

Tədqiqatçı Nəbi Bozqurt "Səlcuqlar tarixi" əsərinə əsaslanaraq yazır ki, ilk mədrəsələr Bəlx və Buxarada Buddist viharaları (bilginin toplandığı yer-N.Ə.) təqlid edilərək yaradılmışdır. "Buxara" adı da buradan, yəni "Vihara" sözündən götürülmüşdür[2].

Bu dövrdə ilk belə müəssisə Nişapurda açıldı. Adam Mets ən mötəbər mənbələrdən saydığı "Nişapur tarixi" əsərinin müəllifi əl-Hakim Əbu Abdullaya (h. 321-405/933-1014) əsaslanaraq ilk mədrəsənin onun müasiri olmuş əl-İsfəraini (v.e. 418/1027) tərəfindən Nişapurda açıldığını yazır[3]. Lakin bəzi müsəlman alimlərinə görə, artıq Harun ər-Rəşidin hakimiyyəti dövründə mədrəsələr mövcud olmuşdur. Xəlifə əmr etmişdi ki, hər bir məscidin yanında elmlərin tədrisi üçün mədrəsə tikilsin[4].

Abbasi xəlifələri mədrəsə tikintisi sahəsində bir-birləri ilə yarışa girir, ətraflarına topladıqları alimlərin adı və şan-şöhrəti ilə fəxr edirdilər. Xəlifə Harun ər-Rəşid (786-809) Xorasana səfəri zamanı Qəzvində bir məscid və şəhər ətrafında əzəmətli divarlar tikdirir[5]. Kütlə arasında nüfuzu güclü olduğu üçün hakim dairələr alimləri ələ almağa çalışır, onları hər vəchlə saraya dəvət edirdilər[6]. Böyük qəznəvi sultanı Mahmud ibn Sabuk Təkinin dövründə (999-1030) mədrəsələrə böyük önəm verilirdi. Bu hökmdar elm və mədəniyyətin hamisi kimi alimlərin qayğısına qalırdı. Beyhaqda Qəznəvi sultanının dörd məzhəb üçün tikdirdiyi dörd mədrəsə zamanına görə, çox məşhur idi.

Nişapur, Qahirə və İsgəndəriyyə ilə yanaşı, IX əsrin ortaları - X əsrlərdə tərəqqi dövrünü keçirən Bağdadın artıq X-XII əsrlərdə xüsusi çəkisi artmışdı.

---

[1] Naci Məruf. Mədaris qablə-n-Nizamiyyə, Bağdad. 1973, s.67-68
[2] Nəbi Bozqıvet, Medrese. 1. A., Ankara, 2004, 28-ci il, s.324
[3] Мец А. Мусулъманский ренессанс. Перевод с немецкого, ред., библ. и указ. Д.Е. Бертелъса. Москва,1966, стр.155.
[4] Zəkəriyyə Haşim Zəkəriyyə. Fadl əl-Hədara əl-islamiyyə əl-arabiyyə fi-l-aləmi. Qahirə, 1970, s.314.
[5] Cəfər Qiyasi 1991, s.10
[6] Həsənli S.İslam mədəniyyətində elm. Bakı, 1998, s.106

Bu elə bir dövr idi ki, dini münaqişələr artmış, şiəlik tərəfdarları çoxalmışdısa da mədrəsələrin də sayı artmışdı.

Nizamiyyə mədrəsəsinin yaradılması barədə naxçıvanlı alim Hinduşah ən-Naxçıvani belə bir hadisə danışmısdı: "Sultan Alp Arslan Nişapur şəhərinə girərkən kirli və kasıb halda olan bir qrup adamla rastlaşdı. Onlar sultanı görərkən nə salam verdilər, nə də hörmət etdilər. Sultan təəccüb edib belə davranış barədə vəziri Nizamülmülkdən bu barədə soruşarkən, o, demişdi: "Dünya nemətləri onlar üçün deyildir, onlar bu dünyadan zövq almazlar. Qiyafətləri isə yoxsulluqlarına dəlalət edir. Sultanımın icazəsi olarsa, onlar üçün qalacaq bir yer inşa edər və onlara rizq verərəm. Beləliklə, onlar elm, təhsil və dövlətin inkişafı üçün dua ilə məşğul olarlar[1].

Nizamiyyə mədrəsəsinin adı vəzir Nizamülmülkün adından götürülmüşdür və onun şərəfinə "Nizamiyyə" mədrəsələri adlandılırmışdır. Nizamülmülk ləqəbi daşıyan Həsən ibn Əli, Alp Arslanın (455-465/1063-1072) dövründə ölkənin daxili həyatının idarə edilməsində demək olar ki, bütün səlahiyyətlərə malik idi. O, 1018-ci ildə Xorasanda dehqan ailəsində doğulmuşdu. İstedadlı gənc olan Həsən ibn Əli hələ Qəznəvilər vaxtında inzibati sahədə işləmişdi, sonra Bəlxdə Səlcuq əmirinin katibi olmuş, daha sonra Çakır bəyin ölümündən sonra Şərq vilayətlərini idarə edən Alp Arslanın vəziri təyin edilmişdir. Orta əsr ərəb alimləri Nizamülmülkün şəxsiyyəti haqqında gözəl fikirlər söyləmişlər. İbn əl-Əsirə görə, Nizamülmülk dindar və imanlı olmaqla bərabər səxavətli, adil və həlim xasiyyətli, yumşaq günah-ları çox vaxt bağışlayan, az danışan idi. Kasıbları nahara dəvət etmək və onları özünə yaxınlaşdırmaq və onlarla yaxın olmaq onun adətlərindən idi[2]. Vəzirin xeyirxahlığına dövlət xadiminin "Siyasətnamə" əsəri də şahidlik edir. "Hər kəs öz təsərrüfatının güc və həcminə görə alicənab və səxavətli olmalıdır"[3].

Nizamülmülk oğlu Fəxrülmülkə yazdığı məktubların birində zülmə məruz qalmış insanların üzünə heç olmasa həftədə bir dəfə qapıları açmağı, bu işlə və yalnız bu işlə olmağı, bu işlə məşğul olarkən isə ehtiyatı əldən

---

[1] İbn Səncər Hinduşah Naxçıvani. Təcəribu-s-Sələf. Naşir Abbas İqbal. Tehran, 1313, s. 270; Əliyeva N.A. Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti. B., "Turxan", 2015, s.58.

[2] İbn əl-Əsir. Əl-Kamil fi –t-Tarix. X c., s.144.

[3] Сиясат-наме. Книга о правлении везира XI столетия Низам ал-Мулка/ Пер., введение в изучение памятника и прим. Б.Н. Заходера. Москва-Ленинград, Изд-во АН СССР, 1949, стр.135.



*Nizamiyyə mədrəsələrinin əsasını qoymuş Nizamülmülkün öldürülməsi səhnəsi. XIV əsr. Topqapı muzeyi.*

verməməyi məsləhət görürdü. Bilmək lazım idi ki, insan niyə şikayət edir və onun problemini necə həll etmək lazımdır[1]. Əbu Zəkəriyyə Xətib Təbrizinin gecə gəzintilərinə Nizamülmülkün nə şəkildə reaksiya verməsi vəzirin alicənab olmasını təsdiq edir. Nizamülmülk Xətib Təbriziyə sərt sözlər demədən, cəza vermədən, işdən xaric etmədən və hətta cərimə də vermədən ona tərbiyə dərsi vermişdi[2]. Burada Nizamülmülk Sultan Alp Arslanın onunla etdiyi kimi hərəkət etmişdi. Hadisə belə olmuşdu. Səlcuqlu sultanına vəzir haqqında bir məktub ötürülmüşdü. Sultan müəlliminin ləyaqətli tələbəsi kimi, alicənab və müdrik bir hakimə yaraşan hərəkət etmişdi. Məktubu Nizamülmülkə verərək belə söyləmişdi: “Bu məktubu götür, əgər orada yazılanlar doğrusa, xasiyyətini bir az mülayimləşdir və fəaliyyətlərini yaxşıya doğru dəyiş, əgər onlar yalansa, onların bu hərəkətlərini bağışla və onlara vacib və lazımlı bir iş ver ki, belə işlərlə məşğul olmaqdansa, xeyirli işlərlə məşğul olsunlar [3]. Nizamülmülk çox gözəl başa düşürdü ki, din azadlığının qəbul edilməsi və mane olunmaması ölkənin və onun hökmdarının xeyrinədir. Ona görə də o, Alp Arslanı şiələr və əşarilərə qarşı gördüyü tədbirləri ləğv etdirməyə inandırmaqla yanaşı, bundan daha çox güzəştə nail oldu. O, imamların qəbirlərinə ehtiram göstərilməsinə nail oldu. Belə bir siyasət ziyalı təbəqədə dövlətə qarşı daha yaxşı təəssürat yarada bilmişdi. Xətib Təbrizi öz şerində onu “həm özü qazandığı, həm də ata-babadan qalma var-dövləti səxavətlə paylayan”, “xain taleyin məhrumiyyətindən insanları xilas edən”, “quraqlıq illərdə öz səxavət yağışı ilə güllərə həyat verən alicənab şəxs” kimi tərifləyir.

Mədrəsələr əsasən bir mərtəbəli, bir evli, ətrafında isə bir dərsxana və tələbə otaqlarından ibarət olurdu. Mədrəsələrdə ayrıca bir məscid yer ala

[1] Taneri A.Böyük Selcuqlu imperatorluğunda vezirlik. c. V, Ankara, 1967, s.8-9.
[2] Yenə orada, s.120.
[3] İbn əl-Əsir. Əl-Kamil fi -t-Tarix. елек. ресурс-режим доступа Darul Kitab. com. X c., s.54.

bilməzdi, baş tərəfində mehrab yeri olan dərsxanalarda gündəlik namazlar da qılınırdı. Mədrəsələrin təhsil və elmi fəaliyyətində əsas ünsürlərdən biri vəqf kitabxanalarının olmasıdır. Kitabxana otağı olmayan bəzi mədrəsələrdə isə vəqf kitabları dərsxananın şkaflarında yerləşdirildi. Mədrəsələrdə təhsil ərəb dilində aparılırdı. Müsəlman ilahiyyatı və fiqhi, Quranın qiraəti və öyrənilməsi, təfsir, hədislər və s. mədrəsələrdə keçilən fənlər idi. Bəzi mədrəsələrdə ərəb dili və qrammatika, filologiya, məntiq və s. də keçilirdi. Tədris üçün müəyyən vaxt təyin edilmirdi, tələbələr istədikləri müddət ərzində mədrəsədə qalaraq istədikləri müdərrisləri hətta həyatlarının sonuna qədər dinləyə bilərdilər[1]. Bu mədrəsələr eyni vaxtda həm məktəb, həm də yataqxana rolunu oynayırdı. Xarakteri və xarici görünüşü mükəmməl olan istedadlı oğlan uşaqlarını məsciddəki məktəbin rəhbəri özü seçib tələbə kimi götürürdü[2]. Şəriət dərslərində məşğələlər müdərrisin "qumu" (ərəbcə: "ayağa qalxın!") deməsi ilə müşayət olunaraq "əl-həmdu li-llah" və Məhəmməd əleyhissəlamın şəninə sözlərilə başlayıb yenə də Allaha və rəsuluna dua ilə başa çatırdı[3].

Tələbələr mədrəsələrdə xüsusi zaviyələrdə[4*] yaşayırdılar. Onlar müdərrislərin mühazirələrini dinləyir və seçilmiş kitabları oxumaqla məşğul olurdular. Mədrəsədə bir şərt gözlənilməli idi. Qadınlara mədrəsəyə daxil olmaq qadağan idi. Evli tələbələr həftədə bir dəfə həyat yoldaşı ilə görüşmək üçün evinə dönə bilərdi. "Üç aylarda" və xüsusilə də ramazanda mədrəsənin tətili olarkən ehtiyacı olan tələbələrə öz qəsəbə və kəndlərinə getmələri üçün icazə verilir, onlar isə orada katiblik, vaizlik edərək əldə etdikləri pulla keçinməyə çalışırdılar.

Mədrəsə təhsilini müvəffəqiyyətlə tamamlayan tələbələrə icazə verilir, bir müddət sonra qabiliyyəti olmayan tələbələr isə uzaqlaşdırılırdı. Dərslər əzbərləmə, təkrar, təfəkkür, müzakirə və imla metodu ilə öyrədilməyə çalışılırdı.

Qeyd etmək lazımdır ki, müdərrislərin fəzilətləri ərəbdilli müəlliflər tərəfindən xüsusi vurğulanır, onları başqalarından fərqləndirən cəhətlər qeyd

[1] Петрушевский И.П. Ислам в Иране в VII-XV веках. Ленинград, 1966, стр.92.
[2] Сеидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.) Баку, 1999, стр.60.
[3] Əs-Sübki Təkiəddin. Tabəqat əş-Şafiiyyə əl-Kübra. Qahirə, 1906, c. II, s.257.
[*] Zaviyələrin müxtəlif təyinatı olmuşdur. Burada dini məktəb .

edilir, müdərris kimi vəzifəyə götürülən ziyalıların əməlisaleh və imanlarının möhkəm olmaları nəzərə alınırdı. Onlarla qrammatika, dinin əsasları, üslub, şeir, şafii məzhəbi, fiqh və s. üzrə çoxcildli əsərləri ilə tanınan urmiyalı müdərris əl-Həsən ibn Əbülhəsən əs-Safi haqqında əs-Səmaninin məlumatı müdərrisin hansı şəxsi keyfiyyətlərə malik olmalıdır fikrini tamamlayır: "Allahdan qorxan, zahid bir həyat sürən, müttəqilərin imamlarından hesab edilən əs-Safi görkəmli və fəzilətli olması ilə fərqlənirdi[1].

Şirvan qazısı Məcdəddin ibn Səncər əş-Şirvani müdərris-qazı kimi bir çox müsbət keyfiyyətlərə, alim, şeyx, çox sayda təfsirləri bilən fəqih, disput aparmaq məharətinə malik idi. Bu keyfiyyətləri ilahiyyatdan dərs deyən müdərrislərə daha çox aid etmək olar. Əs-Səmaninin bu tədris müəssisəsinə başçılıq etmiş Məcdəddin haqqındakı məlumatı "müdərris hansı şəxsi keyfiyyətlərə malik olmalıdır?" fikrini tamamlayır. Müttəqilərin imamlarından hesab edilən bu şəxs görkəmli və fəzilətli olması ilə fərqlənirdi.

Mədrəsələrdə müdərris vəzifəsindən başqa – müid (məktəbdənkənar işlər üzrə müəllim-N.Ə.) vəzifəsi də olmuşdur. Vaxtilə bir çox məşhur adamların vətəni olan Azərbaycandakı Səlmas şəhərində anadan olmuş Sədid Məhəmməd ibn Hibbətullah ibn Abdulla əs-Səlmasi (v.e.1152-ci ildə) Yaxın və Orta Şərqin bir çox görkəmli alimlərinin ustadı olmuş, bir neçə elmi mükəmməl bilmiş, Bağdaddakı Nizamiyyə mədrəsəsində müid işləmişdir[2].

Məscidlər kimi mədrəsələr də vəqf adlandırılan gəlir əmlakı ilə (kəndlilərilə birlikdə becərilən torpaqlar, bağlar, üzümlüklər, dəyirmanlar, şəhərlərdə-dükanlar, bazarlar və s.) təmin olunurdu. Tacirlər və sənətkarlar mədrəsələrə icarə pulu kimi vəsait verirdilər. Bu vəqflərdən gələn gəlir bütünlüklə müdərris, onların köməkçiləri və digər xidməti personala verilir, eləcə də məscid və mədrəsə binalarının saxlanılması və təmirinə gedirdi. Vəqf dükanlarını kirayələyir,onlardan alınan pulu isə məscid və mədrəsələrə verirdilər. Naxçıvandakı "Cəfəriyyə" məscidinin divarına vurulmuş lövhədə məscid üçün iki dükanın vəqf olunduğu yazılmışdır. Bunlardan birindən gələn gəlir məsciddə yaşayanlara, digəri isə məscidin nəfinə nəzərdə tutulurdu.

Beləliklə, Sultan tərəfindən dövlət xidmətinə təyin olunmuş alimlər həm müavinət alır, bəzən isə iqta torpaqlarına sahib olurdular. Bununla bərabər

---

[1] Əs-Səmani. Əl-Ənsab.V c., s.37.

[2] İbn Xəllikan. Kitabu vəfayət əl-əyan va ənbə`u -z-zaman. I c., Qahirə, 1981, s.31.

xüsusi hamilik də qalırdı. Mədrəsələrdə tələbələrə şafii və hənəfi məzhəbinə mənsub qanunşünaslıq üzrə təlim verilirdi. O, məhkəmə təsisatında qazı qismində işləyə, müfti kimi hüquqi məsləhətlər verə, təhsil müəssisəsində müdərris kimi çalışa bilərdi. Bununla yanaşı, qanunvericilikdən uzaq olan ixtisaslarda da özünü sınaya; öyrəndiyi hədisləri imla üsulu ilə tədris edə, tədris müəssisəsində vaiz kimi moizə oxuya və ya sufi kimi sadəcə təsəvvüf cərəyanı nümayəndəsi (təmsilçisi) ola bilərdi. Belə şəxslər mənbələrdə üləma-alim, elm adamı, yəni dini bilən, dini işlərdə müəyyən dərəcədə məlumatı olan şəxslər adı altında birləşdirilirdi.

Şəhərlərin əzəmətli abidələri, mədrəsələri və xanəgahlarının olması həmin şəhərin statusunu artırır, daha yaxşı şəhərlərdən hesab olunmasına əsas verirdi. İbn Cubeyr "Şərqin cənnəti" və "İslam ölkələrinin üzüyü" adlandırdığı Dəməşq şəhərini tərif edərkən Dəməşq Universitetini şəhərdə ən üstünü hesab etmişdi. Bu, Xilafət dövründə təhsilə və tədris ocağına verilən qiymət idi.

Bağdad mədrəsəsində Əbu İshaq Şirazi (1002-1083), Əbu Hamid Məhəmməd əl-Qəzali (1052-1111), Əbdürrəhman əl-Ənbari (1119-1181), İlkiyə əl-Hərrasi (v.e. 1110), Şihabəddin əs-Sührəvərdi (1145-1234), Xətib Təbrizi kimi Şərqin görkəmli alimləri dərs demişlər.

*"Gəncə" mədrəsəsi.* Gəncə şəhəri bir çox görkəmli şəxsiyyətlər yetirmişdir. Nizamı Gəncəvi kimi bir düha Gəncədə yazıb-yaratmışdır. XI əsrin sonlarında yaşayıb fəaliyyət göstərmiş Azərbaycanın böyük şairlərindən Qətran Təbrizi dəfələrlə Gəncədə olmuşdur. Ola bilməz ki, belə yüksək səviyyəli ziyalıları olan şəhərin elmi-mədəni mühitinin göstəricilərindən biri olan təhsil müəssisələri olmasın.

Son illərə qədər Azərbaycan tarixşünaslığında Gəncədə yerli təhsil müəssisəsinin olması haqqında fakt mövcud deyildi[1]. Düzdür, Gəncədəki elmi məclisdə ərəb ədəbiyyatı tarixində mavlə, böyük əmir, alim, tarixçi, ədib, hafiz, tənqidçi, nəssəbə (geneologiya ilə məşğul olan alim - N.Ə.) kimi məşhur olan əmir ləqəbli bağdadlı hafiz Əbu Nəsr Əli ibn Hibbətullah ibn Əli ibn Cəfər ibn Əli ibn Məhəmməd ibn Makula (1030-1082) kimi hörmətli alim iştirak etmişdi. Eyni zamanda, Əs-Səmaninin (1113- 1167) "Kitab əl-

[1] Бейлис В. Сочинения Масуда ибн Намдара как источник по истории Аррана и Ширвана нач. XII в. и памятник средневековой арабской литературы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 1975, s.14.

Ənsab" əsərindən aydın olur ki, İbn Makula burada Gəncə kitabxanasının mühafizi naxçıvanlı Xodadad ibn Asim ibn Bəkran ən-Nəşəvinin hədislərini dinləmiş[1], onunla fikir mübadiləsi etmişdir. Əs-Siləfinin (h.478/1085-576/1180) "Muccəm əs-Səfər" əsəri isə Azərbaycanın elm və təhsili sahəsində daha bir yeni məlumat ıldə etməyimizə kömək etdi. Və bu məlumat əvvəllər olan boşluğu doldurmağa, Gəncə mədrəsəsisində təhsil, onun müdərrisi haqqında yeni bilgi almağımıza imkan yaratdı. Əs-Siləfi Misirdən Yaxın və Orta Şərqin, o cümlədən Arran və Azərbaycanın şəhərləri arasında mədəni inkişaf səviyyəsinə görə seçilən Gəncəyə səyahət etmişdi. O, Gəncədə olarkən bu şəhəri ziyarətə gəlmiş bir çox alimlərlə görüşmüş, onların nəql etdikləri hədisləri dinləyərək öyrənmiş, bu alimlər haqqında yeni məlumat toplamışdır. Onların arasında: "Öz zəkası ilə işıq saçan" Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbəri əs-Siləfiyə həsr etdiyi şerini oxumuşdur. Əs-Siləfi "Mu´cəm əs-Səfər" əsərində Azərbaycan və onun bir çox şəhərləri, o cümlədən Gəncə və onun Nizamiyyə mədrəsəsi haqqında məlumat verir. Məlum olur ki, Gəncədəki mədrəsədə qazı Əbu Abdulla Məhəmməd ibn Əli ibn Muhəmməd ət-Təbəri kimi müdərris kimi fəaliyyət göstərmişdir. O, həm də Gəncədəki təhsilə rəhbərlik etmişdir. " Əbu Abdulla ət-Təbəri həmin mədrəsədəki tədrisə rəhbərlik edərkən yaxşı işləmiş, onun idarəçilik qabiliyyəti daha da artmışdı". Əvvəla, Bu fakt Yaqut əl-Həməvinin (1178-1179-1227) məlumatının dəqiqləşdirilərək Gəncə kitabxanasının İbn Makulanın yaşadığı dövrdə, yəni XI əsrdə fəaliyyətini göstərir. Sultan və vəziri Nizamülmülk Arraniyyə məscidinə çatanda İbn Makula da Gəncəni ziyarət edən alimlər arasında idi[2].

Səlcuqlar dövründə müdərrislər mədrəsələrin baş müəllimləri hesab edilirdi. Onlar sultanlar və vəzirlər tərəfindən təyin edilirdi. Nizamülmülk vəzirliyi dövründə müdərrisləri özü təyin edirdi. Sultan Səncərin (1096-1157) də müdərrisləri təyin etdiyi məlumdur[3].

Nizamülmülk Gəncədə tikdirdiyi mərdəsədə ilk dəfə dəsr demək səlahiyyətini kimə vermişdi. "Mücəm əs-Səfər" əsərindəki məlumatdan aydın olur ki, onun Gəncəyə səyahəti vaxtı təhsilə Əbu Abdulla Məhəmməd ibn Əli ibn Məhəmməd ət-Təbəri başçılıq etmişdir. Əlavə olaraq bildirilir ki,

[1] Əbdülkərim əs-Səmani. Kitab əl-Ənsab. Beyrut, V c., s. 387-388.
[2] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan.B., "Elm və təhsil", 2016, s.67.
[3] Mehmet Altay Köymen. Alp Arslan və zamanı. Ankara, 1983, s.365, qeyd 67.

mədrəsəyə ilk dəfə onun atası başçılıq etmişdi. Bəs, mədrəsənin ilk müdərrisi kim olmuşdu. Bu vəzifə iki şəxsin üzərinə düşə bilərdi. Bunlardan biri Əbu Abdulla Məhəmməd ət-Təbərinin atası sufi-şafii-əşari alimi əl-Kiya əl-Hərrasi kimi məşhur olan Şəms əl-İslam İmadəddin Əbülhəsən Əli ibn Məhəmməd ət-Təbəri (450/1058-504/1110) ola bilərdi. İlkiyə əl-Hərrasi Nişapurdakı Nizamiyyə mədrəsəsinin ilk rəhbəri məşhur imam əl-Cuveyninin (v.e.478 / 1086) tələbəsi olmuşdur. Əslən Təbəristanlı "ləyaqətli insan olan alim-şeyx İlkiyə əl-Hərrasi Nizamiyyə mədrəsəsində dərs demiş azərbaycanlı fəqihlərin də müəllimlərindən sayılırdı. Digər tərəfdən həmin adı Camal əl-Quda Əbülhəsən Əli ibn Məhəmməd ibn Məhəmməd ət-Təbəri də daşımışdır. Hər iki şəxsiyyətin adı eynidir, fərq yalnız künyələrinddir. Z.Saidova görə mədrəsənin rəhbəri ikinci ət-Təbəri, yəni Camal əl-Quda da ola bilərdi.

"Xaqani Şirvaninin həyatı, dövrü və mühitini araşdıran Qafar Kəndli Mücirəddin əl-Beyləqani ilə Xaqani Şivaninin əlaqələrindən bəhs edərək Xaqaninin Camaləddin Mosuluya yazdığı qəsidədən təsirlənərək onun daha bir qəsidə yaz-dığını bildirir. Tədqiqatçı qeyd edir ki, bu qəsidə Gəncədə qazı və Gəncə mədrəsəsinin müdərrisi İmam Əfzəl Məhəmmədin adına yazılmışdır. Mücirəddin divanının elmi-tənqidi mətninin 125-ci səhifəsinin nüsxə fərqlərində isə qəsidənin qazı Zeynəddin ət-Təbərinin adına yazıldığı bildirilir. İbn Namdara görə, Gəncədə təşkil olunmuş elmi yarışmalarda imamlar, divan əhli, qazılarla birlikdə Camal əl-Quda Əbülhəsən Əli ibn Məhəmməd ibn Məhəmməd ət-Təbəri də iştirak etmişdir. Onun Məsuda qayğı göstərdiyi də bildirilir. Qafar Kəndliyə görə, Gəncədə qazılıq və müdərrislik edən İmam Əfzəl Məhəmmədin bu soydan olduğunu da düşünmək olar. Belə olsa, onda Təbəri ailəsi bir neçə arxadan bəri Gəncədə yaşamışdır[1]. Bütün bunları nəzərə alaraq Gəncə mədrəsəsinin ilk müdərrisinin Camal əl-Quda Əbülhəsən Əli ibn Məhəmməd ibn Məhəmməd ət-Təbəri olduğunu təsdiq etmək olar.

*Şirvan Elmlər Akademiyası.* Ərəb alimi Əbülqasim İbn Havqəl hələ IX-X əsrlərdən Bərdədə, Beyləqanda, Şamaxıda, Dərbənddə, Tiflisdə böyük elmi mərkəzlərin olmasını xəbər verir. Şamaxıda aparılan axreoloji qazıntılar nəticəsində Şamaxı Cümə məscidinin VIII-IX əsrlərdə mövcüd olduğu aşkarlanmışdır. Burada aşkar olunmuş hücrələr XII əsrdə tikilmişdir.

[1] Qafar Kəndli Herisçi. Xaqani Şirvani. Həyatı, dövrü və mühiti. B., "Elm", 1988, s.54.



*Şamaxı təhsil müəssisəsi binasının qalıqları*

Hücrələrin Şamaxı Cümə məscidi nəzdində tədris ocağı olması heç bir şübhə doğurmur. Arxeoloqlar H.Ciddi, N.Musayev tədris ocaqlarının həcmini nəzərə alaraq, qeyd edirlər ki, səkkiz hücrədə eyni vaxtda 80 nəfər tələbənin dərs alması mümkündür ki, bu da XII əsr üçün diqqətəlayiq rəqəmdir. Orta əsrlərdə ali məktəblərin məhəllə məscidlərində və ali təhsil ocaqlarının Cümə məscidlərinin yaxınlığında yerləşməsi faktına əsaslanan müəlliflər həmin hücrələri Nizami dövründə ali mədrəsə vəzifərini ifa etdiklərini söyləmişlər[1]. Şirvan Elmlər Akademiyası haqqında 1953-cü ildə Parisdə nəşr olunan elm tarixi ensiklopediyasında da məlumat verilir. Şərqdə elmin inkişafına həsr olunmuş məqalədə bu elm ocağının XI əsrdə fəaliyyət göstərdiyi qeyd olunur[2].

Bəs bu ali təhsil müəssisəsinə kim başçılıq etmişdir? Heç şübhəsiz belə bir tədris ocağına Xaqani Şirvaninin əmisi Kafiəddin Ömər Osman oğlu Şirvani (1080-1151) rəhbərlik edə bilərdi. Xaqani Şirvani bu elmi mərkəzin valisini belə səciyyələndirirdi. “O cahı-cəlalı dünyəvidən üz döndərən, fəqirə sığınan, pisi yaxşıdan seçən, gələcəyinə ümid bağlayan “Sədri fəzail” (“Fəzilətin başçısı) olan şəxs idi. Kafiəddin Şirvaninin şəninə təriflər söyləyən Xaqani onun “elmi hikmətdə”, “elmi ədəbdə” ən yaxşı hünər sahibi, qüdrətli hakim, mahir cərrah, riyaziyyatda ustad təfəkkürlü, “darul-ülumda” ustad, dahi müəllim, gənclərin fərasətli yolgöstərəni, yer üzünün filosofu, fələk bacarıqlı, yüksək ideya göylərinin qapılarını açan, hərdən bir şeir yazan əvəzsiz şəxsiyyət” kimi səciyyələndirirdi. Həqiqətən, Kafiəddinin elmə başçılıq etdiyi – XI-XII əsrlərdə astronomiya, riyaziyyat, fəlsəfə, kimya, tibb, farmakalogiya, dilçilik, rəsm, musiqi, inşaat, hərb, hüquq, məntiq daha çox inkişaf edirdi. E.Mehrəliyev yazırdı ki, Kafiəddin Şirvani elm sahələri şəbəkəsini ixtisaslar üzrə quraşdırıb, əvvəlcə iki- “elmi-ədəb” və “dərül-ülum” mərkəzləri

1 H.Ciddi, N.Musayev. Şamaxıda aşkar olunmuş Nizami dövrünə aid mədrəsə// Nizami Gəncəvi. Almanax. II kitab. Bakı, 1991, s.31.

2 L`Historoire de la Seinse. Paris la volume II, 1953, la page 52; Mehrəliyev E.Şirvan Elmlər Akademiyası(X-XIII əsrlər).B., Çaşıoğlu, 2000, s.5.

yaratdı. Sonra onların tərkibini genişləndirib, vahid-çoxtərəfli mərkəzə çevirdi[1]. Müxtəlif ixtisaslar üzrə görkəmli alimlər yetişdirən Şirvanın bu elm ocağını tədqiqatçı alim 6 şöbəyə - "astronomiya və riyaziyyat", "tibb və farmokologiya", "fəlsəfə, məntiq və hüquqşünaslıq", "müsiqişünaslıq və heykəltaraşlıq", "hərb və dövlət quruculuğu", "dil, ədəbiyyat və pedaqogika" bölmüşdü. Buna əlavə olaraq, bu sahələrdə yetişmiş alimlərin adlarını aldıqları təhsilə görə qruplaşdırmışdır.

*Naxçıvan mədrəsələri.* Əslən Bakıdan olan Əbdürrəşid Bakuvinin "Kitab təlxis əl-əsər və əcaib əl-malik əl-qahhar"[2] əsərində və XIII əsrin anonim "Əcaib əd-Dünya" [3] əsərində Naxçıvan mədrəsələrinin adları çəkilmiş, onlar Naxçıvanı şərəfləndirən tikililər sırasına daxil edilmişlər. Tədqiqatlara görə, Atabəylər dövründə Naxçıvanda da fəaliyyətə başlayan mədrəsələrin tarixi, məhz Əcəminin tikdiyi türbələrin tarixinə uyğundur. Bu mədrəsələr mənsub olduqları məqbərə vəqflərinin gəlirləri hesabına saxlanırdı. XII əsrə aid Elxani fərmanı Azərbaycan Atabəylərinin hakimiyyəti illərində Naxçıvanda təsis edilmiş iki mədrəsəyə aiddir[4].

*"Beyləqan" mədrəsəsi.* XI əsr yerli müəlliflərdən Məsud ibn Namdarın yazdığı əsərdə Azərbaycan şəhərlərindən Beyləqan mədrəsəsi haqqında da bəzi məlumatlara rast gəlmək olur. Əsərdə "məktəbdən qayıdan uşaqlardan" və "məktəblilərin imla yazı lövhələri" ndən söz açılır. Məsudun məlumatından aydın olur ki, bu mədrəsələrdən biri şəhərin qərbində, qala divarlarından xaricdə yerləşmişdir. Orta əsrlər Beyləqan şəhərini arxeoloji cəhətdən tədqiq edən arxeoloq Qara Əhmədov bu məlumatları əsərində təsdiq edir[5].

*"Atabəylər" adlı mədrəsələr.* Dəməşqin qərbindəki Salihiyyə adlı məhəllədə Atabəylər mədrəsəsi yerləşirdi. Qazı İzzəddin əl-Hələbinin yazdığına görə, onu Mosulun sahibi Nurəddin Arslan ibn Atabəyin qızı tikdirmişdi. Məliklərin şərəflisi Müzəffərəddin Musanın qadını Sultan

---

[1] Mehrəliyev E. Şirvanilər. 3-cü kitab. Bakı, 2011, s.76.

[2] Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар. Пер. и комм. З.М. Буниятова. Москва, «Наука», 1971, стр.99.

[3] Миклухо-Маклай Н.Д. Географическое сочинение XIII в.//Ученые записки ИВАН СССР, т.IX, Москва-Ленинград, 1954, стр.208.

[4] Hüseynzadə Ə. Naxçıvan mədrəsələrinə dair bir bir elxani fərmanı. Azər.SSR EA məruzələri., c.XXI. Bakı, 1960, № 12; Vəlixanlı N.M. Naxçıvan VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan, 2015, s.110.

[5] Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, "Elm", 1979, s.80

əl-Məlik İzzəddin Məsud ibn Qütbəddin Maudid ibn Atabəy Zəngi ibn Ağ Sunqurun qızı Atabəyli Hacıxanım Xatun (v.e. h. 640/1242) mədrəsə və türbənin sahibəsi idi. Bu mədrəsədə dərs deyən müdərrislərdən biri Safiyuddin Əbu Abdulla Məhəmməd ibn Əbdürrəhim ibn Məhəmməd əl-Hindi əl-Urməvi əş-Şafii sayılırdı. Əşari məzhəbli bu urmiyalı mütəkəllim h. 644/1246-cü ildə Hindistanda anadan olmuşdu. Ona qiraəti öyrədən ana babası fəzilətli insanlardan idi. O, h. 647/1249-ci ildə Dehlidən çıxmış, həcc ziyarətinə getmiş, üç ay orada dolanmışdı. Sonra Yəmənə daxil olarkən oranın maliki əl-Müzəffər ona 400 dinar hədiyyə vermişdi. O, daha sonra h. 701/1301-ci ildə Misrə çataraq dörd il orada qalmışdı. Oradan Antakiya yolu ilə Ruma səfər etmişdi. Rumda 11 il, Konyada 5 il, Sivasda 5 il, Kasyonda 1 il qalmışdı. Urmiyalı qazı Siracəddinlə görüşərkən ona ehtiram göstərmiş, sonra 85-ci ildə Dəməşqə gələrək, oranı özünə yaşayış məskəni seçmişdi. Safuyiddin şeyxlər şeyxi rütbəsini almışdı. Urmiyalı alim Dəməşqdəki "Zahiriyyə", "Cavaniyyə", "Ruhaniyyə", "Davləiyyə" və "Atabəkiyyə" mədrəsələrində dərs demişdi.

Əbdülqadir əd-Diməşqi onun fətva verməsini, qiraət, üsul, məntiq və təsnifat üzrə gərgin işlədiyini qeyd etmişdi. O, yazırdı ki, insanlar onun və onun şagirdlərinin təsnifatından çox xeyir götürmüşlər. Onun bircə xətti pis idi. O, kitablarını Əşrəfi hədis evində saxlayırdı. Onda xeyirli bə birləşdirə bilən bir qüvvə vardı. İbn Kəsir yazır ki, Safyuddin h. 725/1324-ci ildə vəfat etmişdir.

Tarixi ədəbiyyatda Qazı əl-Qudat Nəcməddin ibn Sasarinin də urmiyalı Safiyuddin Əbu Abdulla ilə birlikdə Atabəkiyyə mədrəsəsində dərs deməsi haqqında da məlumat verilir. Urmiyalı müdərrisdən iki il əvvəl h. 725/1324-ci ildə vəfat edən Qazı əl-Qudat Nəcməddin ibn Sasari də bu mədrəsədə fəaliyyət göstərmişdi[1].

Marağada da "Atabəylər" mədrəsəsi fəaliyyət göstərmişdir. Bu mədrəsənin əsası alim qazı Kəmaləddin Əbu Abdallah Məhəmməd əl-Qəzvini əl-Marağİ tərəfindən qoyulmuşdur. Onun özü də bu mədrəsədə müdərrislik etdiyi üçün "əl-müdərris" ləqəbini almışdır. Azərbaycan Atabəyləri və sultanlarının yanında böyük hörmət və mərhəmət sahibi olmuşdur. O, sultan Cəlaləddin Xarəzm şahın yanına gəldikdə, sultan onu ən hörmətli adam kimi qəbul edir

[1] Ən-Nüeymi Əbdülqadir ibn Məhəmməd əd-Diməşqi. Əd-Dəris fi tarix əl-Mədaris.Dər əl-kutub əl-elmiyyə. I c., Beyrut, 1990, s.98.

və taxtda öz yanında oturdurdu. Ömrünün axırında Ərbilə köçür və 628-ci (9.XI 1230- 28.X 1231) ildə vəfat edir[1].

*"Əl-Qazi" mədrəsəsi.* Qazı Kəmaləddin Əbu Abdallah Məhəmməd əl-Qəzvini əl-Marağinin əsasını qoyduğu mədrəsələrdən biri də "Əl-Qazi" mədrəsəsi adı ilə məşhur olmuşdur.

*"Zəncan" mədrəsəsi.* Orta əsr ərəbdilli müəlliflərdən Əbu Tahir əs-Siləfi özünün "Mucəm əs-Səfər" əsərində Zəncan mədrəsəsi haqqında məlumat verir. Müəllif bu mədrəsədə dəsr demiş Əbülvəfaya onun doğum tarixi, müəllimləri və səfərləri haqqında suallar vermiş və onun cavabından Əbülvəfanın h. 430/1039-cu ildə anadan olduğunu, Mərvəruz, Mərv, Şaş, Buxara və Nişapurda görkəmli müəllimlərdən fiqhi öyrəndiyini qeyd edirdi. O, əsli Azərbaycanın Təbriz yaxınlığındakı Əbyaverd kəndindən olan Əbu Səhl əl-Əbyaverdidən yararlanmaq üçün bir sıra məsələləri mülahizə etmişdir. Fəzilətli ustad olan Əbülvəfa əl-Buxari Zəncan mədrəsəsində dəsr deməklə yanaşı uzun müddət Zəncanda qazılıq da etmişdi[2].

*"İqbaliyyə" mədrəsəsi.* Mədrəsəni Xoca İqbal tikdirmişdi. O, Beytül-Müqəddəsdə rəhmətə getmişdi. İbn Kəsir özünün tarix kitabında h. 603/1206-cü il hadisələrini şərh edərkən yazırdı ki, İqbaliyyə mədrəsəsi Salahəddinin xadimlərindən Camaləddin İqbal tərəfindən inşa edilmişdir. Əvvəlcə şafii və hənəfi evlərindən ibarət olan tikili sonradan iki mədrəsəyə çevrilmişdi. Daha böyük olan şafii, daha kiçik olan isə hənəfi mədrəsəsi sayılırdı. Mədrəsələrin üzərində üç vəqf var idi. Camaləddin İqbal müqəddəs Qüdsdə vəfat etmişdir[3]. Tarixi ədəbiyyatda İqbaliyyə mədrəsəsində dərs deyənlər arasında Şeyx İmam Əllamə Tac əd-Din Musa ibn Məhəmməd ibn Musa əl-Marağinin də adı çəkilir. İbn Kəsir h. 690/1291-cı il hadisələrini təqdim edərkən bu şeyxin də adını çəkir. Onun görkəmli şafiilərdən biri olduğunu qeyd edərək fıqh, üsul, nəhv elmlərinə baş vurduğunu, güclu fəhmi olduğunu qeyd edir. O, yazır ki, əl-Marağі vəfat edərkən yaşı 90-ı haqlamışdı.

Bu mədrəsədə dərs deyən din xadimlərindən biri də Şeyx Əllamə Qazı-əl-qudat (qazılar qazısı) "əsrin fəridi Əla əd-Din Əbülhəsən Əli ibn Nurəddin Əbülfida İsmayıl ibn Yusif əl-Kunəvi ət-Təbrizi olmuşdur[4]. Konyada h.

---

1 Z.Bünyadov. Atabəylər dövləti. Bakı, 1984, s.232.

2 www.al-mostafa.com//Əs-Siləfi Əbu Tahir. Mucəm əs-Səfər, № 103.

3 Ən-Nüeymi Əbdülqadir ibn Məhəmməd əd-Diməşqi. Əd-Dəris fi tarix əl-Mədaris.Dər əl-kutub əl-elmiyyə. I c., Beyrut, 1990, s.119.

4 Yenə orada, s.160.

668/1269-ci ildə anadan olan Əla əd-Din həmin şəhərdə çalışmışdır. H. 693/1293-cü ilin əvvəlində Dəməşqə gəlmiş və orada h. 729/1328-cu ildə vəfat etmişdir. O, Kasyon dağının ətəyində dəfn edilmişdir.

*"Böyük Adiliyyə" mədrəsəsi.* Bu şafii mədrəsəsinin əsası Nurəddin Məhəmməd Zəngi tərəfindən qoyulmuşdur. O vəfat edərkən, mədrəsənin inşası hələ tamamlanmamışdı. Sonra onu Məlik əl-Adil Seyfəddin davam etdirmişdir. Sonra o da vəfat etmiş və bu işi onun oğlu əl-Məlik əl-Muazzam başa çatdırmışdır. Mədrəsədə müdərris kimi çalışanlar qismində qazı Kəmaləddin Ömər Əbu Həfs ibn Bəndər ibn Ömər ət-Tiflisinin də adı çəkilir. Ömər ət-Tiflisi təqribən h. 602/1205-ci ildə anadan olmuşdur. Ömər ət-Tiflisi Misir diyarına üz tutana qədər Qadı əl-Qudat (baş qazı) xoylu Şihabəddinin müavini vəzifəsində çalışmışdır. Misirdə h. 672/1273-ci ildə vəfat edənə qədər tədrislə məşğul olmuşdur[1].

Adiliyyə mədrəsəsində digər bir azərbaycanlı, əsli Xoydan olan Şəmsəddin Əbülabbas Əhməd ibn əl-Xəlil ibn Səadə ibn Cəfər ibn İsa fəaliyyət göstərmişdir. Böyük sultan İsa ibn Məlik əl-Adilin zamanında Şəmsəddin Şama gəldiyi vaxt ona böyük hörmət edərək, əhvalını soruşur və sözlərini diqqətlə eşidərdi. Bu sultan özü şəriət elmlərini və fiqhi bildiyi üçün Şəmsəddinə çox hörmət bəsləyər, onunla söhbət edərdi. Sonralar sultan ona Dəməşqdə yer verib, onun üçün maaş təyin etmişdir. Bir çox xadimlər onun yanında oxumuş və biliyindən faydalanmışlar. Mən (təzkirənin müəllifinə işarədir) ondan İbn Şəhlanın "Ət-Təbsirə" ("Aydınlaşdırma") əsərini öyrənmişəm. O, gözəl danışıqlı, iti düşüncəli, fəsahətli, bəlağətli, səxavətli və mərd bir adam idi. Onun müəllimi Fəxrəddin ibn Xətib Ərrey də onun yanına gəlmiş, onun da şagirdləri var idi. Sonralar böyük Sultan Şəmsəddini Dəməşqin baş qazısı təyin etmişdir. Buna baxmayaraq, o, olduqca təvazökar və xoşsöhbət idi, namaz vaxtında namaz qılmaq üçün məscidə ayaqla gələrdi. Qazı Əbülabbas Əhməd ibn Xəlil ibn Səadə ibn Cəfər əl-Xuveyyi Dəməşqdə "əl-Adiliyyə" mədrəsəsində qiraət yolu ilə isnad zənciri kimi, 14 mühəddisi sayaraq qeyd etdikdən sonra Peyğəmbər (s.a.s.) haqqında Aişənin söylədiyi hədisi nəql etmişdir. Şəmsəddin həmin mədrəsədə yaşamış və vəfat edənədk orada dərs demişdir[2]. İbn Əbi Useybiyə onu "Sədr əl-İmam" - "kamil alim",

---

[1] Ən-Nüeymi Əbdülqadir ibn Məhəmməd əd-Diməşqi. Əd-Dəris fi tarix əl-Mədaris.Dər əl-kutub əl-elmiyyə. I c., Beyrut, 1990, s.274.

[2] Tərbiyət Məhəmmədəli. Danişməndani Azərbaycan. Görkəmli elm və sənət adamları.Bakı, 1987, s.424.

"qadı əl-qudat" kimi epitetlərin sahibi kimi qələmə alır. O, qeyd edir ki, Şəmsəddin orada fəqihlərə dərs demiş, bu işi h. 637/1239-cu ildə rəhmətə gedənə qədər davam etdirmişdir[1].

*"Sührəvərdiyyə" mədrəsəsi.* Əbunnəcib əs-Sührəvərdi (490/1097-563/1168) Zəncan yaxınlığında yerləşən və bir çox məşhur şəxslər yetişdirən Sührəvərd qəsəbəsində doğulmuşdur. Mənbələrdə mütəfəkkirlə yanaşı, ailəsinə aid görkəmli şəxsiyyətlər haqqında da məlumat vardır[2]. Ziyalı ailəsində doğulan Əbunnəcib Nizamiyyə mədrəsəsində təhsil aldıqdan sonra 1152-ci ildə həmin mədrəsəyə başçılıq etmiş və dərs demişdir. 1168-ci ilin aprel ayında vəfat edən Əbunnəcib öz mədrəsəsində dəfn edilmişdir[3]. Sührəvərdi nisbəsi ilə bərabər Əbu Bəkrin nəslindən olduğu üçün Bəkri və Qüreyşi nisbələri ilə də anılır. İlk təhsilini məmləkətində aldıqdan sonra İsfahana və Bağdada gedib Nizamiyyə mədrəsəsində hədis dərsləri aldı. Ayrıca fiqh, fiqh üsulu, kəlam elmi ilə bağlı bir çox kitab oxudu. Bu illərdə Bağdadda bir təkyədə şeyx olan əmisi - qazı Vəcihuddin ona sufi xirqəsi geydirdi. İyirmi beş yaşında tamamilə zahid həyatı yaşamaq düşüncəsi ilə mədrəsədən ayrılıb dövrünün görkəmli sufisi Əhməd əl-Qəzaliyə* murid olmaq üçün İsfahana getdi. İcazə aldıqdan sonra müridləri və tələbləri ilə birlikdə Dəclə çayının kənarında bir xarabalıq yerdə qalaraq tədris və irşad fəaliyyəti ilə məşğul olan Əbunnəcib zaman keçdikcə məşhurlaşaraq sultanların etibar etdiyi bir şəxsə çevrildi. Bu xarabalıqda təkkənin (ribat) yanında bir mədrəsə də tikildi. Bu zamanlar sultanın və ya Xəlifənin qəzəbinə düçar olanlar onun dərgahına sığınırdı. Abbasi xəlifəsi Raşid –Billah h.529-cu (1135) ildəki biət mərasiminə qatılan Əbunnəcibin xəlifəyə önəmli nəsihətlər verdiyi bildirilir. O mədrəsəsində vasitli-bağdadlı İmam Əbülqasim Mahmud ibn Mübarək əl-Mucir əl-Vasiti əl-Bağdadiyə dərs demişdi[4].

---

[1] İbn Əbi Useybiyə. Uyun əl-ənbiyə fi tabəqati-l-ətıbbə. Beyrut, 1998, s.598-599.

[2] Ülkər Zakirqızı. XI-XII əsrlərin görkəmli sührəvərdiləri. AMEA-nın Xəbərləri, Humanitar elmlər seriyası, 2016, № 1, s.33.

[3] Yenə orada.

* Əbülfütuh Məcdəddin Əhməd ibn Məhəmməd ibn Məhəmməd ibn Əhməd ət-Tusi əl-Qəzali(v.e.520/1126 Qəzvində) - Əbu Hamid əl-Qəzalinin qardaşı.Tusun görkəmli şair və ədibi.Qardaşı tədrisi tərk edəndə onun əvəzinə Nizamiyyədə dərs demişdir.

[4] İbn Əbi Useybiyə. Uyun əl-ənbiyə fi tabəqati-l-ətıbbə. Beyrut, 1998, s.169.

Əbu Nəcib 1150-ci ildə Nizamiyyə mədrəsəsinə baş müdərris təyin olundu. Burada fiqh və hədis dərsləri verdi və bu vəzifədə iki il qaldı. Abbasi xəlifəsi əl-Müktəfi biəmrillah ilə Səlcuq sultanı Məsud ibn Məhəmməd Təpər arasında baş vermiş gərginlik və ardından sultan vəfat edərkən (1152) sultanın yaxın adamı olaraq göründüyü üçün 1153-cü ildə mədrəsəni tərk etmək məcburiyyətində qaldı. Bir müddət həbsdə qalan Əbunnəcib Mosula, sonra Dəməşqə, daha sonra isə Qüdsə getdi. Dəməşqdə qaldığı qısa müddət ərzində hədis halqaları, zikr və söhbət məclisləri təşkil etdikdən sonra Bağdada döndü. Bağdadda vəfat etdi və Dəclə kənarındakı mədrəsəsində dəfn olundu[1].

*"Əz-Zahiriyyə əl-Batiniyyə" mədrəsəsi.* Əllamə Nurəddin Əbu Məhəmməd əl-Fərəc əl-Ərdəbili Dəməşqə gələrək buradakı əz-Zahiriyyə əl-Bəraniyyə mədrəsəsində dərs demişdir[2].

*"Ən-Nasiriyyə" mədrəsəsi.* Azərbaycanlı ziyalılardan Təbrizdən bir fərsəx aralı yerləşən kəndlərdən sayılan Varandan çıxmış Əbülxeyr əl-Varani ət-Təbrizi (558/1162-621/1224) Bağdaddan Misirə səyahət edərkən, bu görkəmli alimə orada qalaraq Misir məscidinin yaxınlığında yerləşən "ən-Nasiriyyə" mədrəsəsində dərs demək həvalə olunmuşdu. Bu mədrəsə "İbn Zeyn ət-Tüccar" adıyla məşhur idi. Buranın əhalisi həmin mədrəsədən istifadə etmiş, orada bilik öyrənmişdi. Əl-Varani öz şəhərinə qayıtmaq istədiyindən, oradan da səfər etmişdir. "Kitab təkmiləti ikməlil ikməl"in ("Kamilin əlavəsinin təkmilləşdirilməsi" kitabı) müəllifi İbn əs-Sabuni (604-678/1207-1282) Dəməşqdə onunla görüşmüşdü. İbn əs-Sabuni xəbər verir ki, Hafiz Əbu Məhəmməd Əbdül-Əzam əl-Mənzəri onun mühazirələrini dinləmiş, özünün "Vəfayət" əsərində onu yad edərək h. 558-ci (1162) ildə anadan olduğunu, h. 621-ci (1224) ildə Şirazda vəfat etdiyini yazmışdır[3].

*"Ən-Nasiriyyə əl-Cavaniyyə" mədrəsəsi.* Mədrəsə "Əməvilər məscidinin" şimalında yerləşirdi. Bu mədrəsəyə Kəmaləddin əş-Şirazi başçılıq etmişdir. O, şafii imamlarından olmuşdur. İbn Kəsir h. 306/918-ci il hadisələrini təsvir edərkən onun h. 507/1113-cü ildə vəfat etdiyini göstərir[4]. Kəmaləddin əş-Şirazi vəfat edəndən sonra mədrəsəyə Nurəddin əl-Ərdəbili başçılıq etmişdir[5].

[1] Reşat Öngören. İslam Ansiklopedisi, 38-ci cilt, İstanbul, 2010, s.35.
[2] Yenə orada, s.172.
[3] Əliyeva N.A. İbn əs-Sabuni Azərbaycanın orta əsr görkəmli şəxsiyyətləri haqqında//Azərbaycan tarixi Muzeyi-2002. Bakı, "Elm", 2002, s.323-324.
[4] İbn Kəsir. Əl-bidəyə va-n-nihayə, VI c., s.180.
[5] Ən-Nüeymi Əbdülqadir ibn Məhəmməd əd-Diməşqi. Əd-Dəris fi tarix əl-Mədaris.Dər əl-kutub əl-elmiyyə. I c., Beyrut, 1990, s.353.

*"Ən-Nasiriyyə əs-Salihiyyə" mədrəsəsi.* Qahirədə fəaliyyət göstərmişdir. Bu mədrəsədə hüquqşünas alim Əminəddin Müzəffər ibn Əbu Məhəmməd ibn Əli ət-Təbrizi dərs demişdir. O, h. 588-ci (1163) ildə doğulmuşdur. Qahirədəki mədrəsədən əvvəl Bağdadda "ən-Nizamiyyə" mədrəsəsində müəllimlik etmişdir. Üçcildlik "Sakt əl-fəvaidə" və "əl-Müxtəsər" əsərinin müəllifidir. Şiraza köçmüş, 621-ci ilin zül-hiccə ayında (yanvar, 1225-ci il) orada vəfat etmişdir[1].

*"Əş-Şafiiyyə" mədrəsəsi.* Mahmud ibn Əli ibn İsmayıl ibn Yusif ət-Təbrizi (719/1319) "əş-Şafiiyyə" mədrəsəsində dərs demiş, "Davadariya" xanəgahının şeyxi olmuşdur[2].

*"Şərifiyyə" mədrəsəsi.* Misirin Came məscidinin yaxınlığında Səlahəddin tərəfindən vəqf edilmişdir. Mədrəsədə "Əskər qazısı"(hərbi işlərə baxan qazı) adı ilə məşhur olmuş Şərif Şəmsəddin Əbu Abdulla Məhəmməd ibn Hüseyn ibn Məhəmməd əl-Ələvi əl-Hüseyni əl-Urməvi əl-Mısri (v.e. 1252) tədrislə məşğul olmuşdur. O, Nəqibuləşərəfin babasıdır. Fiqh elmini Şeyx Sədrəddin ibn əl-Himəviyyənin yanında öyrənmişdi. "Tabaqatuş-şafiiyyə əl-Əsnəvi" əsərində onun əskər qazısı olması barədə məlumat verilir[3].

*"Şərəfiyyə" mədrəsəsi.* Bağdadda fəaliyyət göstərmişdir. Tacəddin Əbu Əhməd Məhəmməd ibn Hüseyn əl-Urməvi (v.e.654/1256) bu mədrəsədə yaşamış və orada dərs demişdir. Qazı-imam Fəxrəddinin ən görkəmli şagirdlərindən olmuşdur. O, fəlsəfə və hikmət elmlərində böyük müvəffəqiyyət əldə etmiş, ər-Razinin "əl-Məhsul" əsərinə xülasə yazıb, ona "əl-Hasil" adı vermişdir. Tacəddin malı, sərvəti və etibarı olmaqla bərabər çox təvazökar idi. Tacəddin Bağdadda monqol hücumlarından əvvəl vəfat etmişdir. Bu hadisələri Hafiz Dimyati öz əsəri "Mucəm"də qeyd emtişdir[4].

"Əl-Cəruhiyyə" mədrəsəsi. Bu mədrəsə Dəməşqdə "Əz-Zahiriyyə əl-Cavaniyyə" mədrəsəsindən şimalda yerləşirdi. Mədrəsənin əsasını Seyfəddin ləqəbli Carux ət-Turkməni qoymuşdu. Özündən əvvəl mədrəsədə dərs demiş İbn Şəhhamın kürəkəni Nurəddin Əbu Məhəmməd Fərəc ibn Məhəmməd

[1] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı, "Elm", 1984, s.231; Əl-Əsnəvi. Tabəqat əş-Şafiiyyə, I, s.314-315.

[2] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья четвертая)//Изв.АН Аз.ССР. Серия истории, философии и права, 1980, №3, s.64.

[3] Məhəmmədəli Tərbiyət. Danişməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı, 1987, s.433.

[4] Yenə orada, s.325-326.


*Dəməşq mədrəsəsi.*

ibn Əhməd ibn Əbi Fərəc əl-Ərdəbili də bu mədrəsədə müdərris kimi fəaliyyət göstərmişdir. Təbrizdə mühazirələr oxumuş, Şeyx Fəxrəddin əl-Carberdinin mühazirə kurslarını bitirdikdən sonra Dəməşqə qayıdaraq fiqhlə məşğul olmuş, əvvəlcə "əz-Zahiriyyə əl-baraniyyə", sonra "Əl-Cəruxiyyə"də, daha sonra isə "Ən-Nasiriyyə əl-Cavaniyyə" mədrəsəsində dərs demişdir. Hafiz Taqiyyuddin ibn Rafi`(تقي الدين ابن رافع ) deyirdi: "dindar, xeyirli, lazımlı işlər görən, cəsarətli idi."

*Dəməşq mədrəsəsi.* Bu mədrəsədə əslən Xoylu, ilahiyyat və fəlsəfə sahəsində gözəl əsərləri olan fəzilətli alim, qazı Şəmsəddin repetitorluq etmişdir. Qisməti elə gətirmişdi ki, o, monqolların hücumu vaxtı Suriyaya gedən alimlər arasında olmuşdu. Lakin, bəzən, ziyalılarımız məcburən yeni vətən seçdikləri ölkələrdə layiq olduqları qiymətlərini ala bilmirdilər. Zəkəriyyə Qəzviniyə görə, Şamda lazımınca qiymətləndirilməyən alim Dəməşq mədrəsəsində yalnız repetitorluqla məşğul olmuşdur. O, h. 640/1240-cı ildə cavan ikən vəfat etmişdir[1].

*"Fərəc Xuvəyyu" mədrəsəsi.* "Nizamiyyə" mədrəsəsində dərs almış həmyerlilərimizdən bəziləri öz doğma şəhərinə qayıdıb tədrislə məşğul olmuşlar. Orta əsr mənbələri Azərbaycanın Xoy, Maraga, Gəncə və b. şəhərlərində fəaliyyət göstərən mədrəsələri və orada fəaliyyət göstərən elm adamları haqqında məlumat verirlər. Onlardan Bağdadda fiqhi Əbu İshaq Şirazidən və Əbu Səid əl-Mütəvəllidən öyrəndikdən sonra doğma Xoy şəhərinə qayıdan Əburravh Fərəc ibn Übeydullah ibn Xələf əl-Xoyi burada mədrəsə açaraq əldə etdiyi biliyi həmvətənlərinə öyrətmişdir. Mədrəsə 521/1127-ci ildə fəaliyyətə başlamışdı. Xoydakı bu mədrəsə də "əl-Fərəc əl-Xuvəyyu mədrəsəsi" adlanırdı. Əl-Əsnəvi göstərirdi ki, Əburravh Azərbaycanın ürəyi kimi tanınırdı. Çoxlu alimin müəllimi olan Əburravh doğma şəhərində vəfat etmişdir. Bu mədrəsələr də bəzən digər mədrəsələr kimi, onun əsasını

[1] Буниятов Дж.З.Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанской ССР. Серия истории, философии, права. 1976, № 3, стр.53.

qoyanın adı ilə tanınırdı. Belə ki, Xoyda 1127-ci ildə əsası qoyulmuş "əl-Fərəc əl-Huveyyi" mədrəsəsi onu tikdirən Fərəc ibn Übeydullah ibn Xələf əl-Xuveyyinin adı ilə məşhurlaşmışdı[1].

*"Müstənsəriyyə" mədrəsəsi.* Qeyd olunan mədrəsələrlə yanaşı Xəlifələrin öz mədrəsələri də fəaliyyət göstərirdi. Bu mədrəsələrə öz savadı ilə seçilən müdərrisləri dəvət edirdilər. Abbasilər sülaləsinin xəlifəsi əl-Müstənsir (1226-1242) Dəclə çayının şərq sahilində elə bir gözəl mədrəsə tikdirmişdi ki, onun bənzəri yer üzündə heç yerdə inşa edilməmişdi. Buraya dörd ayrı məzhəb üçün dörd müdərris təyin edildi. İçinə bir xəstəxana və fəqihlər üçün də bir mətbəx düzəltdirildi. Buraya içində soyuq su olan böyük küplər qoyulmuşdu. Fəqirlərin qalacaqları otaqlara həsir, xalı, zeytun yağı, kağız, mürəkkəb kimi şeylər qoyulmuşdu. Bundan əlavə hər fəqih üçün ayda bir dinar maaş bağlanmışdı. Ayrıca onlara əvvəllər bənzəri olmayan bir hamam da inşa edilmişdi. Müstənsəriyyə mədrəsəsinin illik xərci 70.000 miskalı[*] aşmışdı. H. 625/1227-ci ildə başlanan inşası 631/1233-ci ilıdə tamamlanmışdı. Bura 160 dəvə yükü kitab daşınmışdı. Dörd məzhəbdən 248 fəqih var idi. Dörd müdərris, bir hədis şeyxi, bir nəhv şeyxi, bir tibb şeyxi, bir fəraid şeyxi vardı. Çörək, qurudulmuş ət, şirniyyat və meyvə ilə təchiz edilmişdi. Ayrıca otuz yetim yerləşdirildi və ağla gəlməyən miqdarda bir ödənək ayrıldı. Əz-Zəhəbiyə əsaslanan əs-Suyuti yazırdı ki, "mədrəsə Rəcəb ayının beşində açıldı (12 aprel 1254). Qadınlar, müdərrislər, alimlər, öndə gedənlər və dövlətin geri qalanları da açılışa hazır dayanmışdılar. Bu, hər kəsin toplanıb araya gəldiyi bir gündür[**]. Xəlifə özünün əl-Müstənsəriyyə adlanan mədrəsəsinə "fəzilətləri özündə birləşdirən alim, ədəb, fiqh, hüquq və hikmətdə səriştəli şeyx Rəşidəddin əl-Fərqanini bu mədrəsənin müdərrisi təyin etmişdi. Əslən Azərbaycanın Mərənd şəhərindən olan İmadəddin Əbu Zülfəqqar Məhəmməd ibn əl-Əşrəf əl-Mərəndi (596-680/1199-1200-1281) də bu mədrəsənin müdərrisi olmuşdur. Bu təyinatdan əvvəl h. 630-cü (1233) ildə Bağdada gələn bu ləyaqətli fəqih "əl-Xilatiyyə" ribatında sakin olmuşdu. H.631(1234)-cü ildə "Müstənsəriyyə" mədrəsəsinin

---

1 Əliyeva N.A. Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti. B., "Turxan", 2015, s.82-83.

* Miskal- 4, 25 qram.

** Əl-Müstənsir Billah. Anası türk cariyəsi idi. İbn Nəccarın söylədiyinə görə, atasının vəfatından sonra beyət almışdır. Xalqına ədalət saçir, verdiyi qərarlarda adil idi. Elm və din əhlinə yaxın idi. Məscidlər, ribatlar, mədrəsələr və xəstəxanalar inşa etdirdi.



*"Müstənsəriyyə" mədrəsəsi*

açılışı vaxtı mədrəsənin fəqihi təyin edilmişdi. Sonra isə 648-ci (1250-1251) ildə Vasitdə məskunlaşaraq tədrislə məşğul olmuşdu. O, h. 680-ci (1281) ildə vəfat etmiş və imam Musa ibn Cəfərin yanında dəfn edilmişdi[1].

Bu mədrəsədə bəzi görkəmli azərbaycanlı ziyalıların təhsil alması haqqında məlumat vardır. Bağdadın "Müstənsəriyyə" mədrəsəsinə oxumaq üçün gedənlər arasında XIII əsrin elm və hünər sahiblərindən olan Səfiyəddin Əbdülmömin ibn Yusif Fəxir əl-Urməvini də qeyd etmək lazımdır. O, təhsil almq üçün kiçik yaşlarında bu mədrəsəyə getmişdi[2]. Yusif əl-Urməvi fiqh fakültəsini bitirməsinə baxmayaraq, ərəb dilini, tarixi, fəlsəfəni, ədəbiyyatı və başqa fənləri də gözəl bilirdi. H. 689/1290-cu ildə onunla Təbrizdə rastlaşan Həsən əl-Ərbilinin sözlərinə görə, Yusif özü haqqında ona belə demişdi: Hələ uşaqkən Bağdada gəlmiş və Müstənsəriyyəyə daxil olmuşam. Orada mühazirələr dinləmiş, ərəb dili və ədəbiyyatı ilə məşğul olmuş, kamil xəttat kimi yetişmişəm. Özümü indi xəttatlıqda daha qabil hesab edirəm.[3]

*"Kəmaliyyə" mədrəsəsi.* Bağdadda fəaliyyət göstərmişdir. Səfiyəddin Əbdülmömin ibn Yusif fəxir əl-Urməvi bu mədrəsdə dərs demiş, h. 625-ci (1228) ildə vəfat etmişdir[4].

*"Muhyiddin" mədrəsəsi.* Tarixi ədəbiyyatda azərbaycanlı müdərrislər haqqında kifayət qədər informasiya mövcuddur. Özünün mədrəsəsini təsis etmiş azərbaycalı müdərrislər isə barmaqla sayıla bilər. Bunlardan biri şafii məzhəbli fəqih, görkəmli və nüfuzlu marağalı ziyalı Sədrəddin Əbu Bəkr əl-

---

[1] Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.) Баку: 1999, с.113; İbn əl-Fuvati.Təlxis, IV/II, стр.818-819.

[2] Tərbiyət Məhəmmədəli. Danışməndani Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı, "Azərnəşr", 1987, s.313.

[3] Bayramova N. Səfyəddin Urməvi haqqında araşdırma. "Ədəbiyyat və incəsənət" qəzeti, 5 sentyabr 1980.

[4] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı, "Elm", 1984, s.230; Əl-Əsnəvi. Tabəqat əş-şəfiiyyə. I c., Bağdad, 1390, s.136.

Marağinin oğlu Qazı Mühyyiddin Əbu Məhəmməd Həsən ibn Məhəmməd ibn Abdulla əl-Marağidir. Şərəfinə qəsidələr yazılmış Qazı Mühyyəddin özünün təsis etdiyi mədrəsədə şafii fiqhini tədris edirdi.

*"Marağa Atabəylər" mədrəsəsi.* Azərbaycanın Marağa şəhərində "Atabəylər", "Qazı" və "Əhmədağa" adlı üç mədrəsə açılmışdı. Marağanın qazısı təyin edilmiş təbrizli Kamal əd-Din əbu Məaz qazılıq fəaliyyəti ilə yanaşı "Atabəylər" mədrəsəsində dərs də demişdir. Buranın müdərrisi olduğuna görə, təbrizli qazı "əl-Müdərris" ləqəbini qazanmışdır.

*"Qazı" mədrəsəsi.* Bu mədrəsə də Marağada fəaliyyət göstərirdi. Müdərrislərdən Sərab qazısı Kamal əl-Din (v.e.1230-1231-ci ildə, Ərbildə) Azərbaycan Atabəyləri yanında böyük hörmət-izzət sahibi olmuşdur. Xarəzmşah Cəlaləddinin yanına gələrkən sultan onu hörmətlə qarşılayaraq taxtın yanında oturmağa dəvət edərmiş.

*"Əhmədağa" mədrəsəsi.* Yuxarıda qeyd olunmuş Marağa mədrəsələrindən biri də belə adlanırdı.

*"Mərənd" mədrəsəsi.* Bu mədrəsə haqqında İbn Əbu Useybiyə "Uyun əl-Ənbə fi tabəqat əl-Atıbbə" əsərində məlumat vermişdir. O, Fəxrəddin ər-Razi haqqındakı məqaləsində Mərənd qazısı Muhyiddinin dilindən yazır ki, ər-Razi Mərəndə gələrkən atam orada müdərris işləyirdi[1].

*"Salihiyyə" mədrəsəsi.* Misirdə təsis olunmuş bu mədrəsədə Əfzələddin Əbu Abdulla Məhəmməd əl-Xunəci (1194-1248) müdərris kimi fəaliyyət göstərmişdir. O, əslən Cənubi Azərbaycanın Xunəc şəhərindəndir. İlk təhsilini vətənində almış, orada işləmiş və sonralar başqa ölkələrə çıxıb getmişdir. Bir çox ölkləri gəzmiş, nəhayət, Misirdə yaşamışdır. O, ehramlar diyarında həm dövlət işlərində çalışmış, ictimai-siyasi məsələlərlə məşgul olmuş, həm də yaradıcı alim və möhtərəm müəllim kimi özünü tanıtmışdır[2]. Ömrünün son çağlarında Misirin baş qazısı vəzifəsini tutmuşdur. Orta əsr müəllifləri onun müəllimlik fəaliyyətini yüksək qiymətləndirmişlər. O, ciddi elmi axtarışda olmuş, dərin bilik əldə etmiş, dünyəvi elmlərdə yetkinləşmiş, zəmanəsinin nadir şəxsiyyəti sayılmışdır. Bu fikir bir sıra mənbələrdə təkidlə irəli sürülmüşdür[3].

"Xoy" mədrəsəsi. Bu mədrəsə haqqında əs-Siləfi məlumat vermişdir. O,

---

[1] İbn Əbi Useybiyə. Uyun əl-ənbiyə fi tabəqati-l-ətıbbə. Beyrut, 1998, s.424.
[2] Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, "Şərq-Qərb", 2006, s.192.
[3] Yenə orada, 2006, s.192.

yazır ki, Əburravh Fərəc ibn Übeydullah ibn Xələf əl-Xoyi Azərbaycanın böyüklərindən və şafii əshabələrinin imamlarından idi. O, Bağdadda Əbu İshaq əş-Şirazidən təhsil alandan sonra öz şəhərinə qayıtmış və orada mədrəsə açmışdı. Əs-Siləfi yazır ki, əshabələrdən bir qrup fəzilətli insan mədrəsədə təhsil alaraq (نبغ) irəli getmişdir[1].

*"Akbuqaviya" mədrəsəsi.* İbn Qazı əl-Əsğər adı ilə məşhur olan Şərəf əd-Din Əbülhəsən əl-Urməvi ədəbiyyatı və hüququ bu mədrəsədə öyrənmişdir.

*"Məşhəd Hüseyni" mədrəsəsi.* İbn Əsakir xəbər verir ki, İbn Qazı əl-Əsğər adı ilə məşhur olan Şərəf əd-Din Əbülhəsən əl-Urməvi "Akbuqaviya" mədrəsəsi ilə yanaşı bu mədrəsədə ədəbiyyat və hüquqa dair mühazirələr dinləmişdir.

*"Mövlanə "mədrəsəsi.* Mədrəsəni təbrizli Bədrəddin tikmişdi. Konyada tikilmiş bu mədrəsə günümüzə gəlib çatmamışdır.

*"Göy mədrəsə".* Sivasda olan bu mədrəsənin tikintisində Azərbaycandan olan Əhməd ibn Əbubəkr əl-Mərəndi çalışmışdır[2].

*"Tibb" mədrəsəsi.* Tədris mərkəzlərindən biri də Şamaxının Məlhəm kəndində açılan "Mədrəseyi tibb" ("Tibb mədrəsəsi") və müalicəxanası idi. Tibb mədrəsəsini Xaqaninin əmisi Kafiyəddin Ömər ibn Osman açmışdı. O, mədəniyyət tariximizə həm də bilici həkim və görkəmli filosof kimi daxil olmuşdur.

*"Saxur" mədrəsəsi.* Səlcuqlar dövründə Nizamülmülkün şəxsi vəsaiti hesabına Saxur kəndində məşhur mədrəsənin əsası qoyulmuşdur[3].

*Sarayda fəaliyyət göstərən mədrəsələr və müdərrisləri.* Azərbaycanlı müdərrislərdən əslən Gəncədən olan ədib Əbu Həfs Ömər ibn Osman ibn Şüeyb əl-Cənzi (v.e. h. 550/1155-ci ildə Mərvdə) Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün (v.e.1106-cı ildə) uşaqlarına dərs demişdir[4].) Fəzilət sahibi, dindar, xoş rəftarlı bir şəxsiyyət kimi təqdim olunan ".... Ömər əl-Cənzi iti ağlı ilə seçilirdi[5].Mərvdə onunla görüşən Yaqut əl-Həməvi onun

---

[1] əs-Siləfi. Mucəm əs-Səfər, s.183.
[2] Cəfər Qiyasi. Yaxın-uzaq ellərdə. Bakı, "İşıq", 1985, s.80.
[3] Əliyev Ş.H. Şimal-Qərbi Azərbaycan: İngiloylar (I kitab: ən qədim zamanlardan XIII əsrin ortalarınadək) Bakı, "Təhsil", 2007, s.239.
[4] Лембтон К.С. Аспекты расселения сельджуков-огузов в Иране/пер.с анг. В.В. Наумкина//Мусульманский Мир. 950-1150. Москва, 1981, стр.121; Məmmədov Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, "Azərnəşr", 1986, s.20.
[5] Əs-Səmani, Kitab əl-Ənsab. III c., s.127; Yaqut əl-Həməvi. İrşad. IV c., s.49.

yetmiş yaşında vəfat etdiyini yazır[1].

Fəxrülmülkün sarayında onun uşaqlarına dərs deyənlərdən biri də Əbu Səid Həkim əl-Urməvi olmuşdur. Bu haqda əl-Beyhəqinin "Tarixul-hükəmə" əsərinə əsaslanan M.Tərbiyət məlumat vermişdir.

*Məscid nəzdindəki mədrəsələr.* Həmyerlilərimiz müxtəlif mədəniyyət mərkəzlərində məscidlərin nəzdindəki təhsil ocaqlarında da fəaliyyət göstərmişlər. "Makilu-n-nuhat" ("Qrammatiklərin başçısı") kimi tanınan Urmiyalı əl-Həsən ibn Əbülhəsən əs-Safii üçün məscid açılmış, o orada dərs demişdi. Urmiyalı qrammatiklərin başçısı düzgün etiqadlı, alicənab bir şəxsiyyət olmaqla yanaşı, həm də məhsuldar bir alim olmuşdu. Yaqut əl-Həməvi onun ona yaxın samballı əsərlərinin adlarını çəkir[2].

Azərbaycandan Məscid tərkibində olan məktəblərdən biri də Təbrizdə "Məhəllə meydanında" yerləşirdi. Onun əsası Şəmsəddin Məhəmməd ibn Məhəmməd əl-Cuveyni tərəfindən qoyulmuşdu[3].

Nişapurdakı Uqeyl məscidindəki tədrisə narizli - marağalı imam Əbu Turab Əbdülbaqi ibn Yusif ən-Nərizi əl-Maraği başçılıq etmişdir[4]. İmanlı imamlardan və tanınmış fəzilət sahiblərindən sayılan Əbu Turab məscidinin həm imamı olmuş, həm də həmin məscidin nəzdindəki tədrisə rəhbərlik etmişdir. Onun mömin, zahid kimi cəhətlərini əs-Səmani də təqdir etmişdir. Cəmiyyətdə özlərinə nüfuz qazanmış belə alimlərimizin bəziləri kimi o da dövrün tələb etdiyi çox hörmətli işlərdən olan hədis nəql etməklə də məşğul olmuşdur.

Təbrizli həkim Məhəmməd ibn Əbu Məhəmməd Dəməşqdə "əl-Mənsuri" şəfaxanasında işləyəndən sonra buradakı "əl-Mardini" məscidinin nəzdindəki mədrəsədə dərs demişdir.[5]

Orta əsrlərdə bir və ya bir neçə mədrəsədə elm öyrənib təhsil artırmaq mümkün idi. Buna görə də adətən mənbələr təhsilin artırılması üçün bir

---

1 Yaqut əl-Həməvi. İrşad. IV c., s.49; Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, "Çaşıoğlu", 1999, s.210-211.

2 Əliyeva N.A. Yaqut əl-Həməvi və Azərbaycan. Bakı, 1999, s. 206; Yaqut əl-Həməvi. İrşad əl-Ərib. V c, Misir, 1925, s.74-80.

3 Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII-начало XIV в.) Баку, 1999, с.60

4 Əs-Səmani. Kitab əl-Ənsab. V c., s.37.

5 Буниятов З. Новые материалы о видных деятелях Азербайджана (Статъя четвертая). Известия Академии Наук Азербайджана. История, Филасофия, Право, № 3, 1980, с.64 (далее. Новые материалы…).

və ya bir neçə mədrəsədə mühazirə dinləyən alimlərin hansı mədrəsədə oxuduğunu qeyd etmişlər. Qeydiyyat aparılarkən, əsas məsələ şəxsiyyətin hansı müəllimdən dərs alması və onların mühazirələrini dinləyənlərin kim olmasıdır. Əli ibn Abdulla əl-Ərdəbili (h. 667/1268-746/1346) 30 yaşına qədər 14 ixtisasa (qrammatika, fiqh, tibb, məntiq, ritorika, əl-Hacibiyyənin təfsiri, hüquq, riyaziyyat, mexanika, fiqhdə lakoniklik, irsi hüquq, differensal bərabərlik, sünnə) yiyələnmək üçün müxtəlif mədrəsələrdə 10-a yaxın mütəxəssisdən dərs almışdır.

Mənbələrdə qeyd edilən şəxsiyyətin müəlliminin adı tez-tez vurğulanmasına baxmayaraq, alimi yetişdirən mədrəsənin adı daha az çəkilirdi. İbn əl-Həcər əl-Əskalani xəbər verir ki, İbn Qazı əl-Əsğər adı ilə məşhur olan Şərəf əd-Din Əbu-l-Həsən əl-Urməvi ədəbiyyatı və hüququ "Akbuqaviya" və "əl-Məşhəd əl-Hüseyni" mədrəsələrində mühazirələri dinləməklə öyrənmişdir.

Mədrəsələr, əsasən dövlət məmurları və varlı adamlar tərəfindən bir alimin dərs verməsi arzusu ilə açılırdı. Alimlər arasında varlı olub öz gəliriylə mədrəsə açdıranlar da olmuşdu. "Təhzibül-əsar" əsərinin müəllifi "hargüşi başlıq" ("kalan-süve") düzəldib sataraq qazandığı pulla bir mədrəsə, kitabxana, bir də xəstəxana inşa etmişdi. Mədrəsələrdən bəziləri də sufi xanəgahlarında fəaliyyət göstərirdi. Burada təhsil alan tələbələrə ət, çörək, ayda bir dəfə şirniyyat, yağ, sabun verilirdi. Bəzi xanəgahlarda isə yetim uşaqlar üçün mədrəsələr tikilmişdi. Burada təhsil alan yetim uşaqlara gündəlik çörək və digər ərzaq verilirdi.

### 6.3. Təhsildə rolu olmuş digər müəssisələr

İslamlaşma, Quranın öyrənilməsi, Qurana aid ədəbiyyatın geniş yayılması tədris müəssisələrinin (ruhani məhəllə məktəbləri, mədrəsələr, təkyələr) tikintisinə güclü təkan verdi[1]. Onlara əlavə olaraq, Quran evləri, hədis evləri, ribatlar, türbələr, zaviyələri də tədris müəssisələri qisminə əlavə etmək olar. Bunlardan əlavə dörd məzhəb məktəblərini (şafii, hənəfi, maliki və hənbəli) də tədris müəssisələri sırasına qatmaq olar. Bu müəssisələr tələbələrin tərbiyə

[1] Шихсаидов А.Р. Арабский халифат и Северный Кавказ//Проблемы исламизации Дагестана. Пути, реальные силы, последствия. Взаимовлияние цивилизаций на Востоке.Тезисы докладов и сообщений, т. II. Махачкала, 1988, s.52.

və tənbeh edilməsi, dərs deyənin göstəriş verə bildiyi təhsil müəssisələri olmuşdur[1]. Bu tipli təhsil müəssisələrində əsli Azərbaycandan olan təhsil xadimləri islam intibahının inkişafında görkəmli yerlərdən birini tutmuşlar.

*"Davadariya" xanəgahı.* Bəzən xanəgah şeyxi həm də mədrəsədə dərs deyə bilirdi. Mahmud ibn Əli ibn İsmayıl ibn Yusif ət-Təbrizi (719/1319) "Şafiiyyə" mədrəsəsində dərs demiş, "Davadariya" xanəgahının şeyxi olmuşdur[2]. İbn Kəsir h. 698/1298-ci il hadisələri haqqında danışarkən bu xanəgah, oradakı mədrəsə və hədis evi barədə məlumat vermişdir.

Dəməşq Universitetində təhsil almış İbn əs-Sabuni xəbər verirdi ki, Əbülqasim ibn Ruvaha əl-Ənsari kimi alim-şeyx Azərbaycanın Şirvan bölgəsindən olan Əbülhəsən əl-Müfəddidin tələbəsi olmuşdur[3]. Əbülhəsən ona qiraətdən dərs demişdir. İbn əs-Sabuninin özünün Dəməşqdə mühazirələrini dinlədiyi digər azərbaycanlı ziyalı h.560/1164-cü ildə anadan olmuş Əbu Şəfa Xəlil ibn Əhməd ibn Xəlil ət-Təbrizi 655/1257-ci ildə vəfat edənə qədər burada fəaliyyətini davam etdirmiş, Dəməşqdə, sufilər qəbirstanlığında dəfn olunmuşdur[4].

*"Əbu Səad" ribatı.* Əbu Nəcib əs-Sührəvərdinin "şeyximiz" deyə adlandırdığı Bağdad sufilərinin ruhani başçısı şeyx əş-şuyux Əbu Səad Əhməd ibn Məhəmməd əl-Bağdadi Xilafətin mərkəzində "Əbu Səad ribatı" adlanan şəxsi xanəgah tikdirmişdi. Nizamiyyə mədrəsəsi ilə birlikdə bu xanəgah Nizamülmülkün dəstəyi ilə sufi-əşarilik ideyalarını təbliğ edən mərkəzə çevrilmişdi. O dövrün bir çox sufi və əşarilərinin hədis yaradıcılığı bu şəxsiyyətlə bağlıdır. Təsadüfi deyil ki, əs-Səmani Əbu-Nəcib əs-Sührəvərdini ziyarət edərkən məhz bu sufidən qiraət (yəni müəllifin bilavasitə özünün əsərindən üzündən oxuma) yolu ilə öyrəndiyi hədisləri ona nəql etmişdi.

Urmiyalı Əburravhla yaxın olan əs-Səmani yazır ki, o Mərvdə olanda mən İraq səfərində olduğuma görə orada deyildim. Bu vaxt o əvvəlcə bizdə qaldı. Sonra onu Abdulla ibn Həlvaninin köməyi ilə bir xanəgahda yerləşdirdim.

---

1 Ən-Nüeymi Əbdülqadir ibn Məhəmməd əd-Diməşqi. Əd-Dəris fi tarix əl-Mədaris.Dər əl-kutub əl-`ilmiyyə. Beyrut, 1990, s.5.

2 Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья четвертая)//Изв.АН Аз.ССР. Серия истории, философии и права, 1980, №3, стр.64.

3 İbn əs-Sabuni. Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. Mustafa Cavadın nəşri. İraq, 1377/1957, s.316.

4 Yenə orada, s.55.

Əs-Səmani ilə Əburravh əl-Urməvi bir-birlərindən faydalanmışlar. Əs-Səmani fəqih, fəzilət sahibi, əməlisaleh, ləyaqətli adam kimi tanıdığı əl-Urməvidən şeir parçaları yazmışdır. Əburravh əl-Urməvi də öz növbəsində əs-Səmanidən diktə və dinləmə yolu ilə çox hədis yazmışdır.

Əs-Səmani əsərində səkkiz azərbaycanlı sufinin adını çəkərək onları hədis elmi ilə əlaqədar xatırlayır. Haqqında məlumat verilən sufilər arasında Azərbaycanın Ərdəbil şəhərindən çıxanlar daha çoxdur. Bakı, Bərdə, Beyləqan, Nəşəvə, Sührəvərd, Mərənd də azərbaycanlı sufilərin vətəni olmuşdur. Ordubad rayonu Vənəndçay vadisi orta əsrlərdə sufiliklə bağlı mərkəzlərdən hesab edilir. Hacı Fəxrəddin Səfərli Xanağa, Sir Xanağa, Pir Maqsud, Xəlifə Süleyman və Baba Yaqub kimi xanəgahlar haqqında tədqiqat apararaq Vənəndçay vadisində sufi yaşayış məskənlərinin olmasını Böyük İpək yoluna məxsus ticarət karvanlarının hərəkər etdiyi əsas sənətkarlıq mərkəzlərinin qovşağında qərar tutması ilə əlaqələndirir. Bu fikri əsas tutaraq əlavə etmək olar ki, sufiliyin kök salması üçün ailədə və ya ailənin ətrafında münbit mühitin olması da əsas şərtlərdən sayılırdı.

Əbu Səid əl-Meyhəninin oğlu, nəvəsi, eləcə də imam Əbülqasim əl-Qüşeyri və oğlu Əbu Səid, çoxlu hədis bilən sufi alim kimi təqdim edilən Əbu Abdulla Məhəmməd ibn Abdulla ibn Bakuveyh əş-Şirazi əl-Bakuvinin (v.e. 420/1029-cu ildən sonra) qardaşı Şirvanda Pirsaat çayı üzərindki məşhur xanəgahın əsasını qoymuş Pir Hüseyn İbn Abdulla ibn Ubeydullah əş-Şirvani də sufi olmuşdur. Əl-Bakuvinin mühüm xidmətlərindən biri sufilərin hekayətlərini toplamasıdır. O, Əbu Abdulla ibn Xəfif əş-Şirazini və başqalarını görmüşdür. Ona istinadən hədis söyləyən bir çox ravi və sufilər arasında Əbu Səad ibn Əbu Sadiq əl-Hiri, ustad, imam Əbülqasim əl-Qüşeyri və oğlu Əbu Səid, müəzzin Əbu Saleh Əhməd ibn Əbdülməlik və Əbu Bəkr Əbdülqəffar ibn Məhəmməd ibn Hüseyn əş-Şirəvi misal gətirilir.

X əsrdən başlayaraq fars dilində yazılmış sufi şeirlərindən ayrı-ayrı sətirlər, bir bəndlik şeirlər işıq üzü görməyə başlayır, lakin parlaq sufi rəngi ilə boyanmış tam bitkin divan isə Baba Kuhi təxəllüslü əl-Bakuviyə mənsubdur. Hədis toplamaq arzusu onu Nişapura gətirib çıxarmışdı. XI əsrin əvvəllərində burada məşhur sufi şeyxi Əbu Səad əl-Meyhaninin rəhbərlik etdiyi müxtəlif cərəyanları ehtiva edən tam sufi məktəbi yaranmışdı. Əl-Bakuvi Nişapura təsəvvüfün düşməni kimi

daxil olmuşdu, lakin sufilər arasında qalması onlara olan münasibəti dəyişmiş, sufiliyin alovlu tərəfdarına çevrilmişdi. Sufilər arasında yüksək nüfuz və ehtiram qazanan Baba Kuhi hətta bir vaxtlar sufi xanəgahının başçısı (şeyxi) olmuşdu.

*Zaviyələr.* Əvvəllər zaviyə məscid və ya onun nəzdində müsəlmanlar üçün Quran, ərəb dili və s. oxunduğu yerə deyilirdi. XII əsrdə sufi qardaşlığının (əxilik) yaranmasından sonra zaviyələr ruhanilərin (şeyx, mürşid) yaşayış yeri olmuşdur. Burada onların tələbələri-müridləri təhsil alırdı. Yüzlərlə sufinin yaşayış məskəni olan xanəgahlardan fərqli olaraq zaviyə, adətən şeyx və onun müridi üçün sığınacaq sayılırdı.

*"Urməvi zaviyəsi".* Qasyon dağındakı bu zaviyə şeyx Abdulla ibn Yunis əl-Urməvinin idi. İbn Kəsirə görə, bu şeyx təqlid olunmağa layiq bir zahid olmuşdur. Əməlisaleh və təvazökar idi. Tək gəzir, lazım olanı alır, fəqir kimi yaşayırdı.

*Təkyələr* də təhsil və tərbiyə məkanlarından sayılırdı.

### 6.4. Görkəmli təhsil xadimləri azərbacanlıların təhsilində

*Görkəmli yerli müdərris Xətib Təbrizi.* Ərəbdilli müəlliflər Azərbaycanın bir sira elm və təhsil ocaqlarını ziyarət edərkən həm görkəmli müdərrislər, həm də mədrəsələr haqqında bilgi vermişlər. Onların arasında görkəmli yerli müdərrislərin də adları çəkilir. Alimlərin həqiqəti üzə çıxarmaq məqsədilə keçirdiyi diskussiyalar bu mədrəsələrə başqa ölkələrin nümayəndələri ilə yanaşı Azərbaycan alimlərini də cəlb edirdi. Onlar mədrəsədə müxtəlif vəzifələrdə çalışaraq onun davamlı fəaliyyətində yaxından iştirak edirdilər. Təsadüfi deyil ki, mədrəsənin tikintisi başa çatan kimi, Nzamülmülk bu dövrdə dərin bilikli, ərəb dili sahəsində kamil əsərləri olan azərbaycanlı Xətib Təbrizini mədrəsə kitabxanasının müdiri, eyni zamanda İ.Y. Kraçkovskinin təbirincə desək, ədəbiyyat kafedrasının "professoru" təyin edir. Nizamülmülk Bağdada gələrkən mədrəsə ilə tanış olmaq istəmişdi. Əyanlar və ölkənin tanınmış adamları onun xidmətində idi. Onun gəlişini təntənəli bayram edənlərlə mədrəsədə oturmuşdu. Şairlər onun şərəfinə və şəninə tariflər deyirdilər. Nizamülmülk mədrəsənin nəzarətçisindən soruşdu: "Əbu

Zəkəriyyənin maaşı nə qədərdir?" O dedi: "On dinar". Nizamülmülk dedi: Əgər özünün dediyi kimi, on dinar çatmırsa, maaşını istədiyi kimi - 15 dinara qaldırın". Bu, vəzirin mədrəsə işçilərinə, o cümlədən həmyerlimizə göstərdiyi qayğıdır. Azərbaycanlı alimlər bu mədrəsədə özünəməxsus mövqe tutmuşlar. Ziyalılarımız mənəvi qidanın artırılması məqsədilə uzun yollar qət edərək Nizamiyyə mədrəsəsini ziyarət edirdilər. Burada yığışaraq elmi mübadilə aparır, həqiqəti üzə çıxarmaq istəyir, elmi yaradıcılıqla bərabər tədrislə də məşğul olurdular.

XI əsrdə tanınmış azərbaycanlı alim və şairlərdən biri də Muinəddin Əhməd əl-Təntərani əl-Marağidir.[1*] 1067-ci ildə Bağdadda Nizamiyyə mədrəsəsi açılan kimi, Nizamülmülk onu Universitetə dəvət etmiş və ömrünün sonunadək orada Xətib Təbrizi ilə birlikdə dərs demişdi.

Bağdada köçərək burada fəaliyyət göstərən şirvanlı alimlərdən Məhəmməd ibn Uşeyr ibn Məruf Əbu Bəkr əş-Şirvani (v.e. 547/1152) haqqında məlumat verən əs-Safadi onu dövrünün Hibbətullah ibn Mübarək ibn əs-Sakti kimi görkəmli alimi ilə yanaşı qoyur. O qeyd edir ki, Əbu Bəkr əş-Şirvani dövrunun digər alimləri ilə yanaşı Şirvan alimlərindən elm öyrənmişdir[2].

İbn əl-Fuvati İmam əl-Mötəsim Billahın Təbrizdə Şəmsəddin Məhəmməd ibn Məhəmməd əl-Cuveyninin əsasını qoyduğu məktəbi ziyarət etməsi barədə yazmışdır. Qeyd etmək lazımdır ki, imam Cuveyni (v.e. 478/1086) Nişapurdakı Nizamiyyə mədrəsəsinin ilk rəhbəri olmuşdur.

Azərbaycan ziyalılarının savadlanmasında rolu olmuş müdərrislərdən biri Gəncədəki mədrəsədə tədrisə rəhbərlik etmiş Əbu Abdulla ət-Təbəri də qeyd olunmalıdır. Misirdən Azərbaycana səyahət edən Şeyx əs-Siləfi Gəncə

---

* Qeyd: Əhməd əl-Marağinin ərəb dilində yazdığı "Təntəraniyyə" qəsidəsi böyük şöhrət qazanaraq, geniş coğrafi ərazidə yayılmışdır. Bu qəsidənin bir neçə əlyazması və dilimizə edilmiş XVI əsr tərcüməsi Misirin "Dəru-l-kutub və-l-vəsaiq əl-qaumiyyə"("Kitab evi və milli sənədlər") də saxlanılır.Əl-Marağinin bu qəsidəsi və tərcüməsi bizə məlum olsa da burada onun bizə məlum olmayan "Lauhətəni li əqval Əflatun fi-l-hikəm və təsəvvüf" ("Əflətunun fəlsəfə və təsəvvüf haqqında sözlərinə iki lövhə") adlı elmi əsərinin əlyazması saxlanılır (bax: Şərifov Kamandar. Qürbətdəki yazılı abidələrimiz."Elm" qəzeti, № 39-40 (640-641), 20 dekabr 2002, s.11.)

[2] Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья (статья третья)//Изв.АН Аз.ССР, Серия истории, философии и права, 1980, №2, 61; Əs-Sübki. Tabəqat əş-şəfiiyyə əl-kubra. Hələb, 1958, IV c., s.149.

mədrəsəsində fiqh və ədəbiyyat fənlərindən dərs deyən Əbu Abdullanın tədris fəaliyyətini bəyənərək təriflənmişdir[1].

İranın Kəzarun şəhərindən çıxmış Əhməd ibn Mənsur əl-Kəzaruni 539/1144-45-ci ildə Bağdada gəlib, şafii məzhəbi üzrə alim-mütəxəssis kimi yetişməsində Əbülfəzl ibn Ömər əl-Urməvinin böyük roli olmuşdur.

Urmiyadan çıxmış və fiqh elmini Əbu İshaq əş-Şirazidən öyrənmiş alimimiz Əbu Bəkr Məhəmməd ibn əl-Hüseyn əl-Urməvinin özü də müəlliminin yolunu gedərək Nizamiyyədə fiqhdən dərs demişdir. Urmiyalı müdərrislə Bağdaddakı Dərbüs-silsilə məhəlləsindəki evində görüşən əs-Səmani ona istinadən imam Əbu İshaq əş-Şirazinin söylədiyi iki beyt yazmışdır. İkinci şeir parçası isə İmam Əbu İshaq əş-Şiraziyə aiddir. Əbu İshaq Fəqih Əbu Bəkr Məhəmməd əl-Urməvinin müəllimi olmuşdur. Əs-Səmani Əbu İshaq əş-Şirazinin saf dostluq haqqında şerindən bir beyti yadında saxlamış tələbəsi əl-Urməviyə istinadən yazmışdır.

Mənbələrdə haqqında məlumat verilən, lakin günümüzədək gəlib çatmayan "Tarixu Azərbaycan" əsərinin müəllifi təbrizli Fəxrəddin Əbülfəz İsmail ibn əl-Müsannə Bağdaddakı Nizamiyyə mədrəsəsində mühazirələr oxumuş, 580/1185-ci ildə Təbrizdə vəfat etmişdir. Bağdadda müəllim köməkçisi olan Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn Cəfər əl-Ərdəbili müəllimlik fəaliyyəti ilə yanaşı hədis söyləməklə də məşğul olmuşdur.

*Əbu İshaq əş-Şirazi.* Əbu Hamid əl-Qəzali, İlkiyə əl-Hərrasi, Əbuttayyib ət-Təbəri kimi nəhəng din xadimləri ilə bərabər Əbu İshaq əş-Şirazinin (1003-1088) də azərbaycanlı ziyalıların elmli, bilikli fəqih kimi yetişməsində böyük əməyi olmuşdur. Şafii məzhəbi məktəblərindən birinin əsasını qoyan əşari Camaləddin Əbu İshaq İbrahim ibn Əli ibn Yusif Firuzabadi əş-Şirazi (v.e. 476/1083) fiqhə aid bir çox əsərlərin müəllifidir. Səlcuqların baş vəziri Nizamülmülklə isti əlaqələri sayəsində Bağdadda böyük təsirə malik idi. Əşərizmin mərkəzi olan Bağdadın Nizamiyyə mədrəsəsində 17 ildən çox fiqh fənnini tədris etmiş, mədrəsənin ilk müdiri kimi uzun müddət onun başçısı olmuşdur. Bağdada gəlmiş azərbaycanlılardan Əbülqasim Mahmud Yusifi ibn Hüseyn əl-Bərzəndi ət-Tiflisi, Əbulvəfa Xəlil ibn Möhsün ibn Məhəmməd əl-Mərəndi, urməvilərdən Əbulqənaim Qanim ibn Hüseyn və Əbülfəzl

[1] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan. B., "Elm və təhsil", 2016, s.97.

Məhəmməd ibn Ömərə fiqhi o öyrətmişdi[1]. Bağdadda qazı Əbuttayyib ət-Təbəridən fiqhi mənimsəmiş Qazı Əbülhəsən Əli ibn Həsən ibn Əli əl-Məyanəci ilə fiqhi birgə tədris etmişlər. Əs-Səmani onların münasibəti üçün səciyyəvi olan maraqlı bir fakt haqqında belə yazır: "Şeyx Əbu İshaq əş-Şirazinin qazı əl-Məyanəciyə göndərdiyi bir məktub gördüm. Sərlövhəsində yazılmışdı: "Fikirlərinə şərik olan, onunla fəxr edən və ona duaçı olan İbrahim ibn Əli əl- Firuzabadi"[2].

Əbu İshaq Şirazidən elm öyrənənlərdən biri də Əbülfəz Məhəmməd ibn Ömər ibn Yusif əl-Urməvi əl-Lavzi ( v.e. h. 540/1145-cı ilin ortasında) idi. Onun ikinci - əl-Lavzi nisbəsi Bağdadın "Əl-Lavz" məhəlləsinin adından götürülmüşdür. Fəzilətli şafii fəqihi olan urmiyalı Məhəmməd fiqhi İshaqdan öyrənmişdir. İmam Əbu İshaq onun vəfat etmiş ən sonuncu dostlarından olmuşdur[3].

İmam Əbu İshaqın şəriət fənnindən dərs dediyi tələbələrdən Əbülfəz Məhəmməd əl-Urməvi Aqul[4] şəhərində məhkəmə işlərini idarə etmişdir.

Ərəb ədəbiyyatında azərbaycanlılara fiqhi öyrədən daha bir neçə müəllimin-Məhəmməd ibn Yəhya əz-Zəhli, imam Müvəffəq ibn Əbdülkərim əl-Hərəvi və Əsəd ibn Əbu Nəsr əl-Yəməninin[5]də adı çəkilir. Onlardan hər üçü Bərdə, Dərbənd və Sührəverddən olan həmyerlilərimizə (Harun ibn Ravh əl-Bərdəi əl-Bərdici, Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əl-Xunaliqi əd-Dərbəndi, sufi şeyx Əbunnəcib Əbülqahir ibn Abdulla əs-Sührəvərdiyə) fiqh fənnini tədris etmişlər. Bunlar Harun ibn Ravh əl-Bərdəi əl-Bərdiciyə fiqhi öyrətmiş Məhəmməd ibn Yəhya əz-Zəhli[6] və Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əl-Xunaliqi əd-Dərbəndiyə Mərvdə fiqhə aid bilik vermiş imam Müvəffəq ibn Əbdülkərim əl-Hərəvi və sufi şeyx Əbunnəcib Əbülqahir ibn Abdulla əs-Sührəvərdiyə bir müddət Nizamiyyədə dərs demiş Əsəd ibn Əbu Nəsr əl-Yəmənidir[7].

---

1 İbn əl-Əsir. Əl-Lubəb fi təhzib əl-Ənsab. Qahirə, 1369, s.126; Əs-Səmani. Kitab əl-Ənsab, Beyrut, IVc., 1998, s.333; Yenə orada,I c., s. 144-145; Yenə orada, V c., s.23-24. 80.

2 Əs-Səmani.Kitab əl- Ənsab,V c., s.321.

3 İbn əl-Əsir. Lubəb, s.72.

4 Qeyd: Aqul-Dəclə sahilində Bağdaddan 15 fərsəx aralıda şəhər.

5 Əs-Səmani. I c., s.328-329; Əs-Səmani, III c., s.325-326.

6 Əs-Səmaniə. Ənsab, I c., s.328-329.

7 Əs-Səmani. Kitab əl-Ənsab,III c., s.325-326.

Bağdadda Əbu İshaqın ziyasına yığılaraq ondan elm öyrınənlərdən biri də Mərəndli Əbülvəfa Xəlil ibn Möhsün ibn Məhəmməd idi[1].

Belə nəticəyə gəlmək olar ki, Yaxın və Orta Şərq xalqları ilə birlikdə azərbaycanlı alimlərin aparıcı qüvvələrinin böyük bir hissəsinin formalaşmasının başa çatmasında Nizamiyyə mədrəsələrinin çox mühüm və məhsuldar rolu olmuşdur.

Azərbaycanda Səlcuqlar dövründə yaradılmış mədrəsələr VII-XIII yüzildə monqolların hücumu vaxtı böyük zərər çəkmişdi. Lakin, Elxanilər zamanında Qazan xan mədrəsələri yenidən canlandırdı. Onun Təbrizdə yaratdığı Qazaniyyə külliyəsində hənəfi və şafii mədrəsələri özünəməxsus yer tutmaqda idi. Qazan xandan sonra gələn bir çox dövlət adamları da mədrəsələr inşa etdilər. Onlardan Olcaytunun vəziri Tacəddin Əli Şah Gilaninin Təbrizdə inşa etdirdiyi camidə mədrəsə və zaviyə də var idi.

Beləliklə, Azərbaycanda mədrəsələrin fəaliyyəti göstərir ki, təhsil müharibə vaxtı zərər çəksə də tezliklə bərpa olunub inkişaf etdirilirdi. Bu isə Azərbaycanın təhsil ənənəsinin möhkəm bazası, yerliçilik ənənələri olduğunu göstərir.

1038-ci il təvəllüdlü hərtərəfli biliyə malik olan nəhşəli Əbülvəfa Zəncanın qazısı olmaqla bərabər həm də Zəncan mədrəsəsində dərs deyirdi[2].

Fiqhi məsələlərdə imam sayılan Əbu Bəkr Zəncəvinin dərs yoldaşı şeyx Əbu İshaq Şirazi olmuşdur. Fiqhi Bağdadda Qazı Əbuttəyyib ət-Təbəridən öyrənmişdir. "Azərbaycan şafiilərinin böyüklərindən" (əimmətu əshab əl-şəfiiyyə) olan Əburravh Fərəc ibn Übeydullah ibn Xələf əl-Xoyi şafii imamlarından idi. O, Bağdadda Əbu İshaq əş-Şirazidən təhsil alandan sonra öz şəhərinə qayıtmış və orada mədrəsə açmışdı. Əs-Siləfi yazır ki, əshabələrdən bir qrup fəzilətli insan mədrəsədə təhsil alaraq irəli getmişdir[3].

Əs-Səmani qələmə aldığı azərbaycanlı alimlərin bir çoxu ilə şəxsən tanış olmuş, onlarla xoş ünsiyyət bağlamışdır. Bu görüşləri zamanı o, ziyalılarımızı yaxından tanımağa, onlar haqqında çox məlumat toplamağa çalışmışdır. Bu ünsiyyətdən əs-Səmani də faydalanmış, onlarla birlikdə hədisləri dinləmiş, nəql etdikləri hədisləri öyrənmiş, özü də onlara hədis öyrətmişdir. Azərbaycanlı alimlərlə təmasda olan müəllif nəinki onların özləri, eləcə də

---

1 İbn əl-Əsir. Lubəb. s.126.
2 Əliyeva N.A.Şeyx əs-Siləfi və Azərbaycan. B., "Elm və təhsil", 2016, s.53.
3 Əs-Siləfi Əbu Tahir. Mucəm əs-Səfər. www.mostafa.com, s.83.

onların ölkələri, elm öyrəndikləri mədrəsələr və müəllimləri haqqında da bilgi əldə etməyə çalışmışdır.

Maraqlıdır ki, elm mərkəzlərinə toplaşan tanınmış şəxslər bir-birlərinə elmi məclislərdə həmin vaxt iştirak etməyən soydaşları haqqında məlumat vermiş, fikir mübadiləsi aparmışlar. Şirvanlı vaiz Əbülhəsən Əli ibn Əhməd Əli əl-Mufaddid haqqında İbn əs-Sabuni yazır: "Mən Dəməşq universitetində təhsil alarkən onun haqqında bizə ondan qiraəti öyrənmiş alim-şeyxlərdən biri - Əbülqasım Abdulla ibn əl-Hüseyn əl-Ənsari məlumat verib. Qahirədə təhsil aldığım vaxt isə Əbülhəsən Əli ibn İsmayıl ibn İbrahim ibn Cubara əl-Kindidən aşağıdakı məlumatı almışam: əl-Hafiz əbu Tahir Əhməd əs-Siləfi əl-İsfahani İsgəndəriyyədə tələbə olarkən belə bir əhvalat danışıb: "Şirvanda kəramət sahibi olan və əz-Zərəndi kimi tanınan qazı Əbülqasım əl- Həsən ibn Mümtaz əl- İsfahani varid olanda qazı Əbu Bəkr Əhməd ibn Səhl ibn Sirri əl-Həmədani öz fətvasından əl çəkdi və dedi: "O, bunda məndən üstündür". Bu və buna yaxın mənadalı sözlər Şirvanda əl-Mufaddiddən eşitdiyim kəlamlardır"[1]. Əl-Mufaddid əş-Şirvaninin bu məlumatı Şirvanda fəaliyyət göstərmiş ruhani təbəqəsi nümayəndələrilə tanış etməklə yanaşı Şirvanda kəramət sahiblərinə göstərilən böyük ehtiramı da qeyd edir.

*Əbu Hamid əl-Qəzali.* Əbu Hamid əl-Qəzalinin adı İlkiyə əl-Hərrasi, Əbüttayyib ət-Təbəri, Əbu İshaq əş-Şirazı kimi nəhəng din xadimləri ilə bərabər çəkilir. Qədim Yunanıstan, eləcə də Şərq filosoflarının əsərlərini mükəmməl öyrənmiş Əbu Hamid əl-Qəzali islam teologiyasını məntiq əsasında işləyib hazırlamışdı. Əbülhəsən Əşəri məntiq müddəaları ilə sünnənin vəhdətini yaratdığı kimi, 1091-ci ildə vəzir Nizamülmülk onu özünün Bağdadda təsis etdiyi Nizamiyyə mədrəsəsinə fiqh üzrə müdərris təyin etmişdi. 1095-ci ildə Nizamülmülkün ismaililər tərəfindən öldürülməsindən sonra h. 488/1095-ci ildə zül-qadə ayında Əbu Hamid əl-Qəzali Nizamiyyədə tədrisi tərk edərək Bağdaddan Beytü-l-Müqəddəsə köçmüşdü. Bu zamanlar onun artıq zahidə çevrildiyi dövrdür[2*]. Ribatda olarkən yanına camaat toplaşır, onu dinləyirdilər. Qeyd etmək lazımdır ki, kəndlərdə onların ətrafına toplaşanlar cüzi də olsa

[1] İbn əs-Sabuni.Kitab təkmilət ikməlil-ikməl fi-l-ənsab va-l əsma' va-l əlqab. Mustafa Cavadın nəşri. İraq, 1377/1957, s.17.

[*] İslamın yayıldığı ilk əsrlərdə bu cərəyanın tərəfdarlarını "zahid" ("asket"), "abid" adlandırırdılar. Yaşayış tərzi, ətrafa, maddi nemətlərə biganəliyi və s. cəhətdən zahid ilə sufi eyni mövqedə dururdular. Amalları, qayələri etibarı ilə isə bir-birindən fərqlənirdilər. Əgər zahid öz aləminə çəkilərək tənhalaşırsa, sufi əksinə, öz-özlüyündə deyil, Allahla mövcudluğunu ön plana çəkirdi.

toxunmaqla bir xeyir-dua almaq arzusuna çatırdılar. Onlar, adətən zahidlərə suallar yağdırır, qohum-əqrəbalarına dua etməyi xahiş edir, məsləhət alır, qonaq dəvət edirdilər. Əs-Səmani kimi tanınmış elm adamı belə bir neçə dəfə sufi Əbunnəcib əs-Sührəvərdinin yanında olmuş, söhbətlərini dinləmiş, ondan xeyir-dua almışdı.



*Əbu Hamid Məhəmməd ibn Məhəmməd əl-Qəzali (1058-1111)*

Yalnız X əsrdən sonra onlar sufi adlandırılmağa başladılar. Təsəvvüf təcrübəsi sufinin heç olmasa ən azı bir dəfə səfərə çıxmasını zəruri hesab edirdi. Digər tərəfdən, səfərlər zahidin formalaşması üçün vacib şərt sayılırdı. Adətən, təhsil müəssisəsi olmayan yerlərdə sığınacaq və qida tapan səyyah-alimlər orada arzu olunan qonaqlar kimi qəbul edilirdilər, çünki öz biliklərini səfərlərdə yaya bilirdilər.

Klassik sufizm terminini işlədən Avropa şərqşünasları Əbu Hamidin adını çəkirlər. Onlar bu ifadə ilə cərəyanın yaranmasından Əbu Hamid əl-Qəzalinin "imamlıq" zirvəsi qazanmış əsərlərlərinin meydana gəlməsinədək uzun bir inkişaf mərhələsini əhatə edən dövrü nəzərdə tuturlar. Bu dövr ilk sufiləri də özündə birləşdirir.

Əl-Qəzalinin dövründə müsəlman cəmiyyətində dini-hüquqi, ehkamçılıq, dini-siyasi və digər baxışlar bir-birinə qarışmışdı. Müsəlman ilahiyyatçısı eyni vaxtda həm şafii (hüquq məsələlərində), həm əşari (ehkam məsələsində), həm də mistik (sufi) ola bilərdi. Son dərəcə mürəkkəb və çoxcəhətli olan sufilik müsəlman Şərqi ölkələrində ictimai-siyasi hadisələrin kəskinləşdiyi şəraitdə yeni bir fikir cərəyanı kimi meydana çıxmışdı. İslam dini zəminində formalaşmış sufilik - mistik baxışlar sistemi kimi müsəlman cəmiyyətinin ən geniş təbəqələrini, yəni bu dini təlimə münasibət məsələsində fikir ayrılığı olan müxtəlif dini-hüquqi məktəblərin nümayəndələrini də əhatə edirdi. VIII əsrdə zahidi-mistik cərəyan kimi yaranmış təsəvvüf, artıq XI-XII əsrlərdə fəlsəfi təlim kimi formalaşmışdı.

Əbu Hamid tədrisi üç il tərk etmiş, sonra qayıdaraq, həcc ziyarətinə getmiş, daha sonra vətəninə dönmüşdü. "İhya" kitabını da bu zaman

yazmışdı. Əbu Hamidin tədrisi tərk etdiyi 3 il ərzində qardaşı tədrisdə onun adından çıxış etmişdi. Tədris vaxtı Bağdada təhsil almağa yollanmış bir çox azərbaycanlı onun yanında təhsil alaraq elm öyrənmişdir. Onun “İhya ulum əd-din” əsərinin əlyazmasının Respublika Əlyazmalar İnstitutunda mühafizə olunması Azərbaycan elmi mühitində bu əsərin öz payının olmasını göstərir.

Ərəbdilli ədəbiyyatda Hamid əl-Qəzalidən elm öyrənmiş bir çox azərbaycanlı haqqında məlumat verilir. Onun dərs dediyi tələbələr arasında şafii fəqihi, saleh, sədid əs-sirati (tədbirli, kamallı) Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əd-Dərbəndinin də adı çəkilir. Həmyerlimiz Bağdadda onun yanında fiqhi öyrənmişdir[1].

“Kamal” ləqəbi ilə tanınan Əbülfütuh Nəsrulla ibn Mənsur ibn Səhl əd-Duveyni əl-Xeyri fəqih, əməlisaleh, saf bir adam idi. Bağdadda Əbu Hamid əl-Qəzalidən fiqhi öyrənmişdi[2]. Görkəmli nəzəriyyəçi, ilahiyyatçı fəqih Əbu Hamid Məhəmməd ibn Məhəmməd ət-Tusi (1058-1111) Tusda (Xorasan) doğulmuş, Nişapurda əşəri əl-Cuveyninin tələbəsi olmuşdur.

*İlkiya əl-Hərrasi.* Azərbaycanlı fəqihlərin müəllimlərindən biri də Nizamiyyə mədrəsəsində dərs demiş əl-Kiya əl-Hərrasi olmuşdur. Sufi, şafii, əşari alim əl-Kiya əl-Hərrasi kimi məşhur olan Şəms əl-İslam İmadəddin Əbülhəsən Əli ibn Məhəmməd ət-Təbəri (v.e.504/1110) Əbu Bəkr Məhəmməd ibn Üşeyr əş-Şirvaniyə fiqhi öyrətmişdir[3]. O, Nişapurdakı Nizamiyyə mədrəsəsinin ilk rəhbəri məşhur imam əl-Cuveyninin (v.e. 478/1086) tələbəsi olmuşdur. İlkiya əl-Hərrasi Nizamiyyə mədrəsəsində əl-Qəzali ilə birlikdə fiqhdən dərs demişdir. Özünün “Təlxis” əsərində Təbəristan haqqında məlumat verən əl-Bakuvi əl-Kiya əl-Hərrasini əsli oradan olan məşhur alimlərdən biri kimi təqdim edir. Əl-Bakuvi yazır ki, ləyaqətli insan olan alim şeyx İlkiya əl-Hərrasi Əbu Hamid əl-Qəzalinin davamçısı olmuşdur[4].

Bağdaddakı Nizamiyyə mədrəsəsində əməlisaleh fəqihlərdən olan Əbu Bəkr Məhəmməd ibn Üşeyr ibn Məruf əş-Şirvani İlkiya əl-Hərrasidən fiqhi öyrənmişdir. Əbu Bəkrə istinadən müqri Əbulxeyr Mübarək ibn Hüseyn Qəssal əs-Səmaniyə hədis söyləmişdir[5].

---

1 İbn əl-Əsir. Əl-Lubəb fi təhzib əl-Ənsab. Qahirə, 1369, s.70.
2 Əs-Səmani. Kitab əl-Ənsab, V c., s.574.
3 Əs-Səmani. Kitab əl-Ənsab, III c., s.443.
4 Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар/пер. и комм. З.М. Буниятова. Москва, «Наука», 1971, стр.76.
5 Əs-Səmani. Kitab əl-Ənsab, Beyrut, 1998, III c., s.443.

Bioqrafik mənbələrdən əz-Zəhəbinin "Müxtəsər Tarixi-İbnu-d-Dübeysi" əsərində şafii məzhəbli fəqih, dövrünün əyanlarından, fəzilətli və nüfuzlu şəxslərindən olan Qazı Sədrəddin Əbu Bəkr Məhəmməd ibn Abdulla ibn Əbdürrəhman əl-Marağinın (1143-1175) Bağdaddakı mədrəsələrdə təhsil alması, müəlliminin isə şeyx Əbülbərəkat İsmayıl ibn Əbu Səadın olması vurğulanır. Əsərdə qeyd edilir ki, o, müəlliminin hədis dərslərində iştirak etmişdi[1].

*Əbüttayyib ət-Təbəri.* Mənbələrdə tez-tez Əbüttayyib ət-Təbərinin azərbaycanlı ziyalıların müəllimi kimi adı çəkilir. Onların arasında fiqh məsələlərində imam sayılan Əbu Bəkr Zəncəvi, fiqhi Bağdadda Qazı Əbüttəyyib ət-Təbəridən öyrənmişdir[2].

Fihqi qazı Əbüttayyibdən öyrənənlərdən biri də marağalı şafii fəqihi İmam Əbu Turab Əbdülbaqi ibn Yusif ibn Əli ibn Salih ibn Əbdülməlik əl-Maraği idi. İmamın yanından xaric olandan sonra Nişapurda məskunlaşmış, oranın müftisi olmuşdur[3].

Zəmanəsinin məşhur və fəzilətli adamlarından biri sayılan Qazı Əbülhəsən Əli ibn Həsən ibn Əli əl-Məyanəci Bağdada gələrək fiqh elminə vaqif olmaq üçün qazı Əbuttayyib Təbəriyə üz tutmuşdur. Oradan çıxandan sonra Nişapura gəlmiş, orada müfti işləmişdir. Hərtərəfli biliyə malik olan fəqih dilçiliyi və ədəbiyyatı da mükəmməl bilirdi.

---

[1] Əz-Zəhəbi Şəmsəddin Əbu Abdullah Məhəmməd ibn Əhməd. Müxtəsər Tarixi-İbnu-d-Dübeysi, s.33 /www.balligho.com.; Nəsirov E. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. Bakı, "Nurlar", 2011, s.150.

[2] Əliyeva N.A. Şeyx əs-Siləfi və Azərbaycan. B., "Elm və təhsil", 2016, s.55

[3] İbn əl-Əsir. Əl-Lubəb fi təhzib əl-ənsab. Qahirə, 1369, s.119.



# VII FƏSİL

# AZƏRBAYCAN MÜSƏLMAN MEMARLIĞININ YARANMASI VƏ İNKİŞAFI



İncəsənət dünyasında öz layiqli yerini tutmuş islam sivilizasiyası incəsənəti istər memarlıqda, istər xalçaçılıqda, istər şüşə sənətində və istərsə də, metalişləmə və s. sənətlərdə öz nadir və inkişaf etmiş nümunələrini yaratmışdır. İslam sivilizasiyasına aid olan metal, şüşə, keramika işlərinə baxarkən bir sənətkarın həmin əşyaların formasının tələb etdiyi çətinliyə baxmayaraq, onu yüksək məharətlə yerinə yetirdiyi görünür. İslam incəsənəti xüsusilə Şərq memarlığı üçün səciyyəvi olan ictimai və dini binalar - məscidlər, minarələr, saray kompleksləri, karvansaralar, örtülü bazarlar, ictimai hamamlar və s. orta əsrlər müsəlman şəhərlərinin simasını müəyyənləşdirirdi. İslamın yayılması ilə islam dini ideologiyası yeni təyinatlı dini binaların tikilməsi zərurətini meydana gətirirdi. Bununla əlaqədar Azərbaycan şəhərlərinin tipologiyası dəyişir, diyar zaman keçdikcə yeni tipli binalarla zənginləşirdi. Bunlar came və məhəllə məscidləri, mədrəsələr və digər dini təyinatlı binalar idi. Mülki binalarda olduğu kimi, dini binaların tikintisində də çatma tağlar, tağ-tavanlar, günbəzlər, çatma tağlı portallar, şəbəkəli pəncərələr, stalaktit karnizlər kimi konstruktiv elementlərdən geniş istifadə olunurdu[1].

Azərbaycanın karvan yollarının üzərində yerləşməsi bəzi tacir və elm adamlarının burada məskən salmasına, həyatlarını Azərbaycanla bağlamalarına gətirib çıxarırdı ki, bu da həmin xalqların mədəniyyəti ilə tanışlığı labüd edir, sənətkarlıq və tikinti, dulusçuluq, zərgərlik elementləri ilə bəzədilmiş məhsulların çeşidlərinin çoxalmasına, keyfiyyət və rəngarəngliyinə bilavasitə təsir göstərirdi. İslama qədərki dövrdə binalara kaşılardan üz çəkilməsi hallarına demək olar ki, rast gəlinmir. Ancaq islam dövrünün tikinti sahəsində böyük uğurlara baxaraq saxsı məmulatlardan istifadəyə geniş yer verildiyini söyləmək olar. Əvvəllər də məlum olan saxsı lövhələrə (kaşı, üzərinə parlaq şirdən naxışlar çəkilmiş gil-çini piltə-N.Ə.) üz çəkilməklə müsəlman xalqlarının monumental tikililərində geniş isfifadə edilməsinə başlandı. Məscid və mədrəsələrin qübbə və divarları, xüsusilə də giriş portalları gözəlliyi ilə insanı valeh edir, göz oxşayırdı.

Orta əsrlərdə dövrün bütün əzəmətli abidələri, onların dini və ya ictimai xarakterindən, kərpicdən və ya daşdan tikilməsindən asılı olmayaraq dekorativ naxışlarına görə əvvəlki dövr abidələrindən fərqlənirdi. Bu

[1] Azərbaycan arxeologiyası. VI cilddə, VI cild, Bakı, "Şərq-Qərb", 2008, s.66.

dövrün abidələrinin üzəri müxtəlif naxışlar, rəsmlər, kitabələr, heyvan fiqurları həkk olunmuş kaşılarla bəzədilmişdi[1]. Müsəlman memarlığında istifadə edilən, tikililəri bəzəyən naxışların məna və gözəllik anlamı baxımından bədii surətini qavramaq olur. İslami naxışın 3 növü var:

1. *Naxış elementi kimi semantikası çox vaxt bilinməyən həndəsi fiqurlardan yaradılmış naxışlar;*
2. *Bitki və canlı şəkillərin stilizə edilməsilə yaradılan naxışlar;*
3. *Ərəbcə yazılardan düzəldilmiş, bitkiyə oxşar və həndəsi naxışlar.*

*Birinci növ,* çoxsaylı həndəsi fiqurların çuğlaşmasından ibarət olmalı, onların ştrixləri bir-birinə qarışaraq mürəkkəb və sonsuz bir naxış yaratmalıdır. Bu naxış insanın "müxtəliflikdəki vəhdəti və vəhdətdəki müxtəlifliyi" dərk etdiyi təvəkkül səviyyəsinin simvoludur. Onlar harmoniya yaradan, boşluq dolduran, keçidlər yaradan ümumi naxış kompozisiyasının ahəngi və ölçüsünü təşkil edən vasitədir.

*İkinci növ,* nəbati naxışlardan ibarət olur və ahəngdarlıq prinsipinə əsaslanır. O qədər stilizə olunub ki, təbiətə oxşarlığını itirmişdir. Əslində burada ahəngdarlıq qrafikası səciyyə kəsb edir. Nəbati və həndəsi ərəb naxışları piçək xətti şəklində şaxələr üzərində oturdulmuş yarpaq və çiçəklər, səkkizguşəli xonçalar, paxlavalar, altıbucaqlar, beşguşəli ulduzlar, çevrələr və s. sonsuz təbiətə malikdirlər. Onların hüdudları qapanmış görünsə də, sonsuzluğa qədər davam etdirilə bilər. Burada məqsəd yerlə göyün əlaqəsini, mömin insanın özünün sonlu dünyada mövcud olduğunu hiss etməklə, sonsuz aləmə tapınmaq səyini, hər şeydən ağah olduğuna inamını rəmzlər vasitəsilə ifadə etməkdir[2].

*Üçüncü növ,* ərəb qrafikalı xətt növlərindən olan kufi, süls, nəsx, nəstəliq və s. xətlərdən düzəldilmiş həndəsi naxışlardır. Qurani-Kərim ayələrinin kufi və digər xətt növləri ilə naxışa çevrilməsi, heç də bu naxışların estetik dəyərini azaltmır. Əksinə, həmin naxışların firuzəyi, yaşıl, göy rənglərdə bəzədilməsi bu gözəlliyi daha da artırır.

XI-XIII əsrlərdə tikinti epiqrafikasında kərpiclə yığılan kufi xətti aparıcı yer tutmuşdur. Bu xəttin özlüyündə düzxətli və düzbucaqlı olması kərpic

[1] Архитектура Азербайджана эпохи Низами. М, 1947.
[2] Məşədi A.X., Məşədi E.N. İslam memarlığı və inşaat. Bakı, "Nurlan", 2001, s.23.

bəzək üçün çox əlverişlidir. Buna görə də kərpic tikililərdə kufi xətt yüksək dekorativ quruluş almışdır. Kufi kitabələrini memar Əcəmi Naxçıvani yeni yüksək səviyyəyə qaldırmışdır. Kitabələr Əcəminin əsərlərində o vaxtacan görünməyən bədii-estetik dəyər almışdır. Kufi kitabələrinin bolluğu, mürəkkəbliyi, həndəsi ornamentlərlə qaynayıb qarışması baxımından, Möminə xatun türbəsinin Ön Asiya memarlığında tayı-bərabəri yoxdur[1]. Bu cəhətdən Dərbənd şəhərindəki tikililər də maraq kəsb edir. Şəhərin bu dövrə aid tikintiləri müdafiə xarakteri daşımaqla bərabər, həm də öz naxışlarına görə insanı cəzb edəcək dərəcədə gözəl olmuşdur. M.İ. Artamonov haqlı olaraq yazırdı ki, XI əsrdə Dərbənd əvvəlki dövrlərdən fərqli olaraq bir qədər başqa əhəmiyyətə malik olmuşdur. O, sərhəd qalasından öz-özünü təmin edən müstəqil əhəmiyyətə malik bir şəhərə çevrilmişdir[2].

Müsəlman ictimai və dini binaları şəhərlərin görkəminə xüsusi yaraşıq verirdi. İbn Cubeyr "Şərqin cənnəti" və "İslam ölkələrinin üzüyü" adlandırdığı Dəməşq şəhərini tərif edərək, Dəməşq Universitetini şəhərdə ən üstünü hesab edirdisə, X əsrin ərəb coğrafiyaşünas səyyahlarının "son böyük nümayəndəsi" əl-Müqəddəsi Təbriz haqqında yazırdı: "Sən dərk edirsənmi nədir Təbriz! Təbriz bir saf qızıldır, əzəmətli kimyadır, alınmaz və seçilmiş şəhərdir. O, Bağdaddan üstündür. Müsəlmanlar onunla fəxr edirlər. Təbrizin gözəlliyinin həddi-hüdudu yoxdur." Tədqiqatçı alim memar Cəfər Qiyasiyə görə, əl-Müqəddəsi memar nəvəsi olduğundan şəhərsalmanı və memarlığı yaxşı bilir, gördüyü şəhər və abidələri xüsusi sevgi və peşəkarlıqla təsvir edirdi[3].

İslamın Azərbaycanda yayılmağa başladığı ilk dövrlərdə (VII əsrdə) Dərbənd, Şamaxı, Ərdəbil, Qəzvin və Təbrizdə məscidlər və qalalar tikilməyə başlamışdı. Mənbələrdə qalaları tikdirən ayrı-ayrı şəxslər - vəzifə sahibləri haqqında məlumat verilir. Marağada "Sədrəddin" adlı səxavətli və alicənab qazı Qəzvin şəhərində elə qala divarları ucaltmışdı ki, belə divarları hətta dövrünün qüdrətli hakimləri belə tikdirə bilməmişdilər. O, çox böyük hündürlükdə şəhər darvazaları da tikmişdir[4]. Xəlifə Harun ər-

---

[1] Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı, "İşıq", 1991, s.186.

[2] Артамонов М.И. Древний Дербент. С.А. № VIII, 1946, стр.139.

[3] Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı, "İşıq", 1991, s. 10.

[4] Буниятов Дж.З. Материалы из сочинений Закарии ал-Казвини об Азербайджане//Известия АН Азербайджанской ССР. Серия истории, философии, права. 1976, № 3, стр.54.

Rəşiddən bir az sonra sərkərdə Mübarək ət-Türki isə Qəzvində bir qala tikdirir ki, qaynaqlar onu Mübarək şəhər adlandırırlar.

Azərbaycan xanəgahları və türbələri bir memarlıq abidələri kimi bütün dövrlərdə məşhur olmuşdur. Azərbaycanda artıq izi qalmayan, lakin ərəb ədəbiyyatında haqqında məlumat verilən bir neçə sufi xanəgahının adı çəkilir. Onların arasında Marağadakı sufi xanəgahı Zəkəriyyə əl-Qəzvini[1] və Yaqut əl-Həməvinin əsərlərində[2] qeyd edilmişdir.

Azərbaycanda dini binalar arasında türbələrə daha çox təsadüf edilir. Orta əsrlərə aid olan bu binalar şeyx və seyidlərin, eləcə də yüksək səviyyəli şəxslərin adlarını əbədiləşdirmək məqsədilə tikilirdi. Türbələr örtüksüz və örtüklü olmaqla iki qrupa bölünürdü. Bu türbələr öz memarlıq quruluşuna görə də bürcvari, səkkizbucaqlı, günbəzli, günbəzli olmaqla fərqlənirdi. Örtüksüz binalar az xərclə başa gələn binalardır. Bu türbələrin ucuz başa gəlməsinin səbəbi dam örtüyünün olmaması, divarlarının alçaq və ucuz materiallardan tikilməsi, quruluş və memarlıq bəzəyi cəhətdən sadə olmasıdır[3].

Naxçıvandakı qədim abidələr haqqında məlumat verən səyyahlar Yaxın və Orta Şərqin ən gözəl incilərindən sayılan Atabəy və Möminə xatun türbələrini xüsusi qeyd edirlər. XIX əsrdə Naxçıvanda olmuş səyyahlardan Dübua de Monpere, Robert Ker Porter, tədqiqatçılardan X.Fren, N.Xanıkov və başqalarının məlumatları ona görə qiymətlidir ki, onlar türbələrin vaxtı ilə mövcud olmuş, lakin indi itib getmiş bir sıra fraqmentləri haqqında xəbər verirlər. Möminə xatun türbəsinin giriş qapısının üstündəki portalda olan iki sətirlik kitabədə onun h.582-ci ildə (miladi-1186-cı ildə) naxçıvanlı memar Əcəmi Əbubəkr oğlu tərəfindən tikildiyi göstərilmişdir. Türbənin kim tərəfindən və kimin üçün tikilməsi haqqında müxtəlif fikir və mülahizələr olmuşdur. Bəzi tədqiqatçılar səhv olaraq, türbənin Şəmsəddin Eldəğəz Atabəy tərəfindən öz arvadı üçün tikdirildiyini göstərmişlər. Türbənin Məhəmməd Cahan Pəhləvan tərəfindən tikdirildiyini ilk dəfə N.Xanıkov söyləmişdir. Lakin, o bu fikrini tarixi dəlillərlə əsaslandırmamışdır. Tədqiqatçı, epiqraf alim Ə.Ələsgərzadənin

[1] Zəkəriyyə Qəzvini. Əsər-u-l biləd və əxbərul-`İbəd. Beyrut, 190, s.262; Zəkəriyyə Haşim Zəkəriyyə. Fadlul-hadaratil-islamiyyə əl-arabiyyə fil-aləm. Qahirə 1970, s.19.

[2] Yaqut əl-Həməvi. Mucəm əl-Buldən. Beyrut, s.4-6.

[3] Kərimzadə S. Örtüksüz türbənin öyrənilməsi məsələsinə dair//Azərbaycan incəsənəti. V c., Bakı, Az.SSR EA nəşriyyatı, 1956, s.322.

şərhinə görə, türbə Şəmsəddin Eldəgizin oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən arvadı Mömünə xatunun şərəfinə tikdirilmişdir[1]. R.Məmmədov Məhəmməd Cahan Pəhləvanın Mömünə xatun adlı arvadı olduğunu tarixi qaynaqların təsdiq etdiyini göstərir[2].

Naxçıvan və Marağa memarlıq məktəbi abidələrini müqayisəli təhlil edən Təbriz İslam Universitetinin professoru Bəhram Acarlı belə nəticəyə gəlmişdir ki, Səlcuqlar dövrünün türbə tikintisi Qəzvində Qaraxanilərdən başlamış, Marağa memarlığında inkişaf yolu keçmiş və nəhayət Əcəminin memarlıq məktəbində təşəkkül tapmışdır. O, həmçinin göstərir ki, Naxçıvan və Marağa memarlığı daima qarşılıqlı əlaqədə olmuş və bir-birlərinə təsir göstərmişlər. Müəllif Göy günbəz türbəsinin də memar Əcəmi Naxçıvani tərəfindən inşa olunması qənaitinə gəlmişdir[3].

Əgər sufi təriqətlərinin meydana çıxdığı ilk zamanlar bu barədə söhbət aparmaq, ortaya çıxan problemləri müzakirə və həll etmək kimi məsələləri came, məscid və müxtəlif evlərdə həll olunurdusa, təsəvvüfün yayılması ilə əlaqədar xüsusi binaların tikilməsi zərurəti meydana çıxırdı. Bunlar sonradan qrup şəklində birləşən dərviş və sufilər üçün tikilən təkkə, zaviyə, dərgah, ribat və xanəgah deyilən binalar idi. Burada onlar söhbət və zirk edir, ədəb-ərkan öyrənir, tərbiyə alır, ruhən yetişirdilər. Bununla yanaşı, təkyələr müxtəlif dini və dünyəvi elmlərin öyrədildiyi müəssisələr idi.

İlk təkkənin nə vaxt və harada qurulduğu haqqında fərqli baxışlar mövcuddur. Abdulla əl-Hərəvinin "Tabəqat əs-sufiyyə" və Əbdürrəhman əl-Caminin "Nəfəhatü-Üns" əsərinə görə ilk təkkə h. II (VIII) əsrdə Fələstinin Rəmlə bölgəsində, İbn Təymiyyəyə görə isə həmin əsrdə Bəsrənin Abadan bölgəsində inşa edilmişdir"[4].

Təbrizdə Zübeydə xatunun tikdirdiyi bir məscid (VIII əsr) və Məmlan məscid- türbəsi (X-XI əsrlər) ölkədə sütunlu, mərkəzi künbəzli məscidlərlə yanaşı tağbənd örtülü-böyük eyvan tipli dini binaların da tikildiyini göstərir.

---

[1] Ələsgərzadə Ə. Yusif bin Kusəyr və Mömünə xatın türbələrinin kitabələri. A.Bakıxanov adına Tarix İnstitutunun Əsərləri, I c., Bakı,1947 s.81-82.

[2] Məmmədov R.A. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında//Az.SSR EA Xəbərləri, 1962, № 4, s.17.

[3] Bəhram Acarlı. Naxçıvan və Marağa memarlıq abidələri//Naxçıvanın türk-islam mədəniyyət abidələri: tarixdə və günümüzdə. Naxçıvan, "Əcəmi", 2017, s.89.

[4] Mustafa Kara. Tekke. İslam Ansiklopedisi, c.40, İstanbul, 2011, s.368.

Cəfər Qiyasi qeyd edir ki, sonrakı dövrlərdəki Azərbaycan məscidlərinin bəzi tiplərinin əsası VII-X əsrlərin tikinti təcrübəsində qoyulmuşdur[1].

İslamın yayılmasında məscidərin rolu danılmazdır. Ərəb müəllifi əl-Qəlqəşəndi qeyd edir ki, Azərbaycanda ilk məscid Ərdəbil şəhərində tikilmişdir. İslamın yayılmasına ayrı bir önəm verən valilər şəhər tikintisində məscid və camelərin tikintisi ilə bərabər getdikcə çoxalan müsəlman camaatının ehtiyacını köhnə məscidlər ödəmədiyindən məscidləri genişləndirirdilər. İdarəetmə mərkəzləri seçilmiş şəhərlərdə bu işlərə xüsusi önəm verilirdi. Prof. Z.Kitabçıya görə, Xəlifə Müaviyənin dövründə Ərminiyənin valisi Əbdüləziz ibn Hatim ibn ən-Numan Dəbil şəhərinin məscidini genişləndirmişdi.

Bu dövrdə mədrəsə, xəstəxana, sığınacaq evləri ilə yanaşı möhtəşəm ibadət binaları tikilmişdir. Memarların böyük himayədarı kimi, I Valid ibn Əbdülməlikin (705-715) Dəməşqdə tikdirdiyi Əməvilər məscidi ibadətxana olmaqla bərabər, həm də dövlət başçısının qonaqları rəsmi qəbul etdiyi məkan kimi istifadə olunurdu. Bu məqsədlə xəlifə xüsusi olaraq valehedici palata da hazırlatmışdı. Bu məscid yeni ənənəli və klassik tipli məscidlərin ən böyüyü idi.



*Möminə Xatun türbəsi*

O dövrdə böyük şəhərlərdəki mərkəzi məscidlər təkcə ibadət yeri funksiyasını yerinə yetirmir, bir neçə binadan ibarət olub, toplu, kompleks, külliyyə vəzifəsini daşıyırdı. Burada ibadətlə yanaşı, həm təhsil verilir, həm də dövlət işləri həyata keçirilirdi. Məscidlərin tikintisinə önəm verən Əməvilər nahiyələrin xəzinəsini (beytul malını) məscidlərdə qoruyurdular. Dəməşqdəki Əməvilər məscidi və Babul-Əbvabdakı məscidlə yanaşı, Xilafət üçün əhəmiyyətini nəzərə alaraq, Bərdə məscidinin də belə məscidlərdən ola biləcəyini düşünürük.

Digər tərəfdən, Əməvilər fəth olunmuş şəhərlərdə tikdirdikləri məscidləri sərkərdələr və Xilafət qoşunları ilə oraya gəlmiş qəbilələrin adları ilə adlandırırdılar. Dağıstanlı tədqiqatçı əl-Qədariyə görə, Ürdün

[1] Qiyasi C.Nizami dövrü ..., 1991, s.12.



Əməvilər məscidi

məscidi həm də Xəzər məscidi adlanırdı. Ola bilsin ki, bu məscid ilk olaraq tikilmiş, müsəlmanlığı qəbul etmiş xəzərlər bu məsciddə namazı və digər ayinləri yerinə yetirmişlər. Bunlardan başqa, şəhərin mərkəzində Cümə məscidi inşa edilmişdi. Öz varlığını müasir dövrə qədər qoruyub saxlamış həmin məscidin üzərindəki kitabəyə əsasən, məscid h. 115/733-734-cü ildə tikilmiş və Dəməşqdəki Əməvilər məscidi kimi qədim sayılır.

Şamaxıda aparılan axreoloji qazıntılar Şamaxı Cümə məscidinin VIII əsrdə mövcud olması haqqında fikri təsdiq edir. Əlavə olaraq, tədqiqatçılar məscidin həyətində aşkar olunmuş abidələr haqqında belə nəticəyə gəlmişlər ki, burada aşkar olmuş hücrələr ilk dəfə XII əsrdə tikilmişdir[1]. Mütəxəssislərin yekdil fikrinə görə, Şamaxı məscidinin ilkin plan quruluşu düzbucaqlı olmuş, ibadət salonu üç kvadrat biçimli bölümə ayrılaraq bir-bir ilə geniş keçidlərlə əlaqələndirilmişdir.

IX-XI əsrlərdə Azərbacan şəhərlərində yeni tip müsəlman tikilisi olan məscidlərin sayı artırdı. Tağlardan məscidlərin tikinti və tərtibatında geniş isifadə edilirdi. Əslinə qalsa, tağlar yalnız ərəb memarlığı üçün xarakterik olmamışdır. O hələ qədim zamanlardan ibadətgahların tikintisində istifadə olunurdu. Tağlardan tikinti sahəsində istifadə VII əsrədək davam etmiş, memarlıqda və təsvirlərdə onlardan istifadə isə ərəb fəthləri ilə nəinki aradan çıxmamış, hətta yeni dini adətlərə-İslam dini adətlərinə uyğunlaşaraq sonrakı dövrlərdə də inkişafı təmin olunmuşdur[2]. Əski dini məbədlərin bir qədər dəyişdirilərək məscidlərə çevrilməsi hallarına da rast gəlmək olurdu. Bakı sakinləri arasında rəvayət gəzir ki, İçərişəhərdə

[1] Джидди Г.А. Средневековый город Шемаха IX-XVII века. Баку, «Элм», 1981, стр.26.

[2] Катанов Н.О. О погребальных обрядах у тюркских племен Центральной и Восточной Азии. Казан, Типолитография императорского университета, 1894, s.109.

yerləşən Cümə məscidi qədim atəşpərəst məbədi üzərində tikilmişdir. Belə ki, məsciddən daha qədim olanının ortasındakı üzəri örtülməyən tağlar atəşpərəst məbədindən idi və sonradan müsəlmanlar tərəfindən məscid tikintisində istifadə edilmişdir[1]. Məscidin əl-ustad ər-rəis Məhəmməd ibn Əbu-Bəkr tərəfindən 1078-79-cu illərdə tikildiyi göstərilir. Bu minarəli məscidin tikintisi ilə şəhər memarlığında yeni mərhələ - islami sitayiş məbədləri memarlığının daha güclü dövrü başlanır. Sınıqqala minarəsi ilə Şirvan tikililərində minarələrin əsası qoyulur.

IX-X əsrlərdə şəhərlərdə su-təchizat və kanalizasiya sisteminin olması şəhər mühitinin abadlıq səviyyəsini göstərməklə bərabər, müsəlmanların dini mərasimləri, o cümlədən beş dəfə namazın yerinə yetirilməsində mühüm amil sayılırdı.

Ərəb fəthlərinin ilk dövrlərində qoşunların yerdəyişməsi köhnə körpülərin yenidən qurulmasına, yeni körpülərin tikintisinə rəvac vermişdisə, sənətkarlığın inkişafı ticarətin inkişafına təkan vermiş və Azərbaycanın Xilafət tərkibində olan ölkələrlə əlaqəsinin artmasına, həmçinin yerlərdə karvansaraların, bazarların tikintisinə təkan vermişdi. Karvansaralarda, əsasən başqa şəhərlərdən gəlmiş tacirlər yaşayır, müxtəlif əmtəə malları saxlanılır və ticarətlə əlaqədar məsələlər həll olunurdu. Azərbaycanın karvan yolları üzərində tikilən və zəmanəmizə qədər ancaq qalıqları gəlib çatan orta əsr karvansaralarına -Təbrizdə Zübeydə karvansarası (VIII əsr), Cuğada (XIII əsr), Salyan yolu üzərində (XIV əsr), Bakıda İçəri şəhərdə Buxara (XIV əsr) Multanı Qaradağ dəmiryolu stansiyası yaxınlığında rast gəlmək mümkündür[2]. Dövrün yazılı qaynaqlarından aydın olur ki, ticarət yolları kənarında karvanları qaçaq və quldurların basqınından qorumaq üçün karvansavaran adlanan xüsusi keşikçi dəstələri qoyulurdu[3].

Dini binalar şəhərlərə xüsusi gözəllik verirdi. Əslən bakılı olan Əbdürrəşid Bakuvi (XIV əsr) "Kitab təlxis əl-əsər və əcaib əl-malik

---

[1] Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджане с Индией в средные века. Баку, «Элм», 1990, стр.43; Etimad əs-Səltənə Məhəmməd Həsən xan. Marat əl-buldən. Tehran, 1293, fars mətni, s.154.

[2] Məmmədov R.A. XIII-XIV əsrlərdə Arran(Azərbaycan) şəhərlərinin iqtisadi vəziyyəti haqqında (ticarət və ticarət yolları. Azərbaycan tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, Bakı, "Elm", 1988, s.18.

[3] Məmmədov R.A. XIII-XIV əsrlərdə.... 1988, s.18.


*Bakı. Buxara karvansarası*

əl-qahhar"[1] əsərində Naxçıvanı Azərbaycanın yaxşı şəhərlərindən hesab edərək, mədrəsə ilə birlikdə xanəgahların da Naxçıvanı şərəfləndirdiyini yazır. Bunu XIII əsrin anonim "Əcaib əd-Dünya" əsəri[2] və əl-Bakuviyə istinad edən görkəmli şərqşünas alim Ziya Bünyadov da təsdiq edir. O, Şərqin iri və məşhur xanəgahları sırasında Naxçıvan xanəgahlarının da xüsusi yeri olduğunu qeyd edir, bu şəhərin mədrəsələri və imarətləri ilə bərabər xanəgahlarını da şəhərlərini şərəfləndirən tikililər sırasına daxıl edir[3] və göstərir ki, bu xanəgahlar Müsəlman Şərqinin ən məşhur xanəgahları ilə bir sırada durur[4].

Azərbaycanın adını ölkə hüdudlarından kənarda məşhurlaşdıran, Xilafətin digər bölgələrindən vətənmizə alim, ziyalı, şeyxlərin axınını təmin edən xüsuslardan biri də ərəbdilli ədəbiyyatda haqqında məlumat verilən sufilər və sufi mərkəzlərinin olmasıdır. Ərdəbil Sufi mərkəzindən çıxanlar sayca üstünlük təşkil edirlər. Bakı, Bərdə, Beyləqan, Nəşəvə, Sührəvərd, Mərənd, Zəncan, Naxçıvanda da sufi mərkəzləri olmuşdur. Ordubad rayonunun Vənəndçay vadisi orta əsrlərin sufi mərkəzlərindən hesab edilir. Fəxrəddin Səfərli Xanaga, Sir Xanaga, Pir Maqsud, Xəlifə Süleyman və Baba Yaqub kimi xanəgahlar haqqında tədqiqat apararaq Vənəndçay vadisində sufi yaşayış məskənlərinin olmasını Böyük İpək yoluna məxsus ticarət karvanlarının hərəkər etdiyi əsas sənətkarlıq

---

[1] Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар. Пер. и комм. З.М. Буниятова. Москва, «Наука», 1971, стр.9.

[2] Миклухо-Маклай Н.Д.Географическое сочинение XIII в.//Ученые записки ИВАН СССР, т.IX, Москва-Ленинград, 1954, стр.208.

[3] Ал-Бакуви Абу ар-Рашид. Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар/пер. и комм. З.М. Буниятова. Москва, «Наука», 1971, 158, стр.99.

[4] Попечительство Мамлюкских султанов Египта над суфийскими обителями/Духовенство и политическая жизнь на Ближнем и Среднем Востоке в период феодализма. Москва, «Наука», 1985, стр.67.

mərkəzlərinin qovşağında qərar tutması ilə əlaqələndirir[1]. Bu fikri əsas tutaraq əlavə etmək olar ki, sufiliyin kök salması üçün ailədə və ya ailənin ətrafında münbit mühitin olması da əsas şərtlərdən sayıla bilər. Əbu Səid əl-Meyhaninin oğlu, nəvəsi, eləcə də imam Əbulqasim əl-Qüşeyri və oğlu Əbu Səid kimi, çoxlu hədis bilən sufi alim kimi təqdim edilən Əbu Abdulla Məhəmməd ibn Abdulla ibn Bakuveyh əş-Şirazi əl-Bakuvinin (v.e. 420/1029-cu ildən sonra) qardaşı Şirvanda Pirsaat çayı üzərindki məşhur xanəgahın əsasını qoymuş Pir Hüseyn İbn Abdulla ibn Ubeydullah əş-Şirvani də sufi olmuşdur[2]. Əl-Bakuvinin mühüm xidmətlərindən biri də sufilərin hekayətlərini toplamasıdır. O, Əbu Abdulla ibn Xəfif əş-Şirazini və başqalarını görmüşdür. Ona istinadən hədis söyləyən bir çox ravi və sufilər arasında Əbu Səad ibn Əbu Sadiq Hiri, ustad, imam Əbülqasim əl-Qüşeyri və oğlu Əbu Səid, müəzzin Əbu Saleh Əhməd ibn Əbdülməlik və sonuncusu Əbu Bəkr Əbdülqəffar ibn Məhəmməd ibn Hüseyn əş-Şirəvi misal gətirilir[3] .

Pir Hüseynin adına tikilmiş Pir Hüseyn xanəgah kompleksinə türbə, məscid, karvansara və yardımçı tikililər daxildir. Bu kompleks Pir Hüseynin qəbri ətrafında yerləşmişdir. Kompleksə daxil olan tikililərin çoxu Şirvanşah Gərşasbın oğlu Fəribürz və II Axsitanın oğlu II Gərşasbın vaxtında tikilmişdir. Elxani və Qızıl Orda hökmdarları Azərbaycanın elmi-dini fikir tarixində mühüm rol oynayan bu xanəgahı dəfələrlə ziyarət etmişlər. Minarənin giriş qapısı üzərindəki daş kitabədə monqolların xanəgah vəqfləri və oranın abadlaşdırılmasına fikir verməları haqqında məlumatlar vardır. Kitabələrdə minarənin memarları Şəmsəddin Məhəmməd ibn Əbülabbas və Mahmud ibn İbrahimin adları qeyd olunmuşdur. Xanəgahın zəngin təsərrüfatı, kitabxanası, xəzinəsi olmuşdur. Sonradan, Şirvanşah Xəlilullahın dövründə burada bərpa işləri aparılmışdır. Xanə-

[1] Səfərli F. Vənəndçay vadisində sufiliklə bağlı mərkəzlər//Naxçıvan Dövlət Universitetinin əsərləri. № 1(29), Naxçıvan, “Qeyrət”, 2010, s.83.

[2] Бертельс Е.Э. Суфизм и суфийская литература. Избранные труды. т. III, Москва, «Наука», 1965, стр.288; Ашурбейли С.Б. Ханака на реке Пирсагат и ширваншахи //Духовенство и политическая жизнь на Ближнем и Среднем Востоке в период феодализма. Москва, «Наука», 1985, стр.32-37. Нейматова М.С.Надписи как источник для изучения истории ханаки Пир Хусейна.// Восточное историческое источниковедениие и специальные исторические дисциплины , вып.1. Москва, 1989, стр.292-298.

[3] Əs-Səmani, I c., s.279.


*Pir Hüseyn xanəgah kompleksi*

gahı digərlərindən fərqləndirən onun türbəsinin al-əlvan, yazılı-naxışlı kaşılarıdır. Bu kaşılar əsasən frizdən və panel təşkil edən çoxlu kiçik ulduz və xaçvari hissələrdən ibarətdir. Xanəgahın kaşıları bu dövr islam memarlıq abidələri içərisində ən zəngini hesab olunur. Hazırda Sankt-Peterburq Dövlət Ermitajı, Gürcüstanın İncəsənət Muzeyi, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi və Milli Azərbaycan Tarixi Muzeyində bu kaşılardan nümunələr saxlanır.

Son onilliklərdə aparılan arxeoloji qazıntılar zamanı IX əsrə aid müsəlman qəbiristanlıqlarının qeydə alınması, bəzi fikirləri söyləməyə əsas verir. Azərbaycanın şimal-şərq zonasında aparılan kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar zamanı qeydə alınan orta əsr qəbristanlıqlarının topoqrafiyasından da aydın olur ki, IX əsrdə müsəlman dəfn adəti bölgədə geniş yayılmışdı. Orta əsr Dağbilici, Köhnəpir, Rutar, Canaxır, Əmiramu yaşayış yerləri ilə birlikdə müsəlman qəbiristanlıqları da aşkarlanmışdır[1]. Külli miqdarda qəbirüstü xatirə daşları olan Şabran şəhər yerində Y.A. Paxomov 1935-ci ildə apardığı tədqiqatlar nəticəsində bu qəbristanlığın bəzi daşları üzərində bəzəkli kufi xəttilə yazılmış epitafiya müəyyənləşdirə bilmişdir[2]. Yazılarla bərabər, abidələr üzərindəki işləmələr də yerli memarlıq abidələrinin spesifik xüsusiyyətlərini əks etdirir. Məsələn, Şirvanın "Şəkixan oba" qəbristanlığından tapılan abidələrin üzərindəki işləmələr (qaraçarpma, cilalama, yonma və s.) Şirvan memarlığı üçün xarakterik olsa da, onun bu və ya digər sahələrindən orta əsr Şabran sənətkarlığında

[1] Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı, "BDU", 2001, s.228.

[2] Пахомов Е.А. Отчет о поездке в Дивичинский район в 1935г. НАНА НАИИ, инв. № 320, 11.

da geniş istifadə olunmuşdur[1].

Arxeoloji kəşfiyyat işləri zamanı üzərində kufi yazısı müəyyənləşdirən məqbərələrdən biri də Şıx Babı Veys məqbərəsi olmuşdur. Qeyd etmək lazımdır ki, Babı kəndinə (Horadiz) bitişik olan qəbristanlıqda bir qədər zədələnmiş və türklərə məxsus daş qoç heykəli də aşkara çıxarılmışdır[2].

Adıçəkilən zümrənin nümayəndələri canlıların şəklini çəkib onlara sitayiş etdiklərindən, canlıların şəklini çəkməyin qadağan edilməsi müsəlmanların mübarizə metodu idi. Onların arasında islamdan əvvəlki dövrün incəsənətində (xristian incəsənətində) böyük yer tutan nəqqaşlıq və heykəltaraşlıq tamamilə yox olur[3] .

Qeyd etmək lazımdır ki, IV-VIII əsrlərdə tikilmiş Alban kilsələri xristian memarlığında özünəməxsusluğu ilə seçilir. Əsas etibarı ilə birnefli olan bu kilsələr xristianlıqda mövcud olan təriqət dəyişikliyini bir o qədər əks etdirməmişdir. VIII əsrdən sonra inşa edilmiş kilsələr əsasən Qafqaz dağlarının ətəklərini əhatə etmişdi. Memarlıq ölçüləri də zamanın tələbinə uyğun olaraq dəyişmişdir. Gənc tədqiqatçı N.Alışov bunun səbəbini düzən ərazilərin islamlaşması, dövrün təbii tikinti materiallarının dağətəyi ərazilərdə yerləşməsi, Alban kilsələrinin həcmcə daha böyük və baxımlı olmasında özünü göstərməsilə izah etmişdir[4].

İslam mədəniyyəti tərkibində memarlıqla bərabər bədii sənət nümunələrinin də özünəməxsus yeri olmuşdur. Bədii incəsənət növü olan kalliqrafiya İslamda yüksək qiymətləndirilirdi. İslam incəsənətinin yaratdığı və onu digər özündən əvvəlki sivilizasiyaların incəsənətindən xüsusi şəkildə fərqləndirdiyinin ən bariz nümunəsi ərəb kalligrafiyasında öz yerini tutur. Müsəlmanlar xətti mühüm ornament elementi kimi istifadə

---

[1] Məmmədov A.M., Abbasova F.İ.Orta əsr Şabran şəhərində daşişləmə sənəti haqqında//Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2006, 31, s.112-121; Мустафаев А.Н. Обработка камня в Ширване. Баку, «Элм», 1986, стр.22.

[2] Мещанинов И.И. Краткий осводомительный отчет о работе мильской экспедиции 1933 г. SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı Əsərləri, XXV, tarix seriyası, SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının nəşriyatı, Bakı, 1936, s.18.

[3] Bünyadov Z. Azərbaycan tarixi VII-IX əsrlərdə. Bakı,1965, s.90.

[4] Alışov N. Qafqaz Albaniyasının IV-VIII əsr kilsələrinin Azərbaycanın maddi və mənəvi mədəniyyətində yeri. Milli Azərbaycan Tarixi Muzeyi-2012.Bakı, "Elm", 2012, s.255.

edən ilk insanlar olmuşlar[1]. Ərəb xətti sənətkarlar tərəfindən inkişaf etdirilir, yazı ornamentləri islam sivilizasiyası ruhunun əsas hissəsi kimi əks olunaraq incəsənətdə bariz bir yer tuturdu. Kalliqrafiya müsəlman üçün Allah kəlamını əbədiləşdirən vasitə olmaqla yanaşı, onun estetik hisslərini ifadə edirdi. Kalliqrafiya müsəlmana islam tərəfindən qadağan edilən heykəltaraşlığı əvəz edirdi. Abbasilər dövründə vəzir olmuş Məhəmməd ibn Əli ibn Mukla həm də dövrünün ən görkəmli kalliqraflarından idi. Deyilənə görə, ərəb yazısına kufi yazını sıxışdırıb çıxaran nəsx adlanan çəpəki yazını ilk dəfə olaraq o, gətirmişdi. Nəsx yazı növü ilk əvvəl təqdirəlayiq iş kimi Quranın üzünü köçürmək üçün istifadə edilsə də, artıq XI əsrdən yazışmalarda və memarlıq dekorasiyalarında geniş istafadə edilirdi[2].Yeni mədəniyyət qil qablarla bərabər toxuculuq məmulatları üzərində də əks olunurdu. Dəstəmaz alınması, Qurandan bəzi surələrin oxunması ilə bərabər namazlıqlardan istifadə olunması da namaz ayininin icra olunması üçün lazım olan atributlardan idi. Namazlıqlar islam mədəniyyətinin təsiri ilə yaranan ilk toxuculuq məmulatlarındandır. Onların üzərində əsasən tağ və mehrablar toxunurdu. Tağların bədii tərtibatındakı insan fiquru namazlıqların qədim dini inancla bağlı olduğunu təsdiqləyir[3]. Bu cür tağlar Azərbaycanda İslam dininin yayılmasından sonrakı qəbir abidələri üçün də xarakterikdir.

---

[1] Təsviri və dekorativ-tətbiqi sənət məsələləri № 1 (9). Usama Abdul Rəhman Abdul Əlim Səid Əhməd - Metalişləmə sənətində islam incəsənəti fəlsəfəsinin izi. Bakı – 2012. s.80

[2] Доктор Рахман. Краткая история ислама. Москва, «Умма», 2002, стр.331.

[3] Катанов Н.О. О погребальных обрядах у тюркских племен Центральной и Восточной Азии. Казан, Типолитография императорского университета, 1894 s.122.

# NƏTİCƏ

Dövlətçilik və mədəniyyət tarixi çox qədim, əhalisinin mütləq əksəriyyəti müsəlmanlardan ibarət olan Azərbaycan islam dünyasının ayrılmaz hissəsi kimi, özünün mədəni-mənəvi dəyərlərini təqribən 1400 il ərzində islam dini dəyərləri əsasında yaratmışdır. Xalqın əxlaqının, adət-ənənələrinin, ayrı-ayrı şəxslərin psixologiyasının formalaşmasında islam dininin müstəsna rolu olmuşdur. İlk İslam mədəniyyətini sırf eyni müqəddəratı və ənənəsi olan, etnik və dil baxımından eyni kollektivin mədəniyyəti kimi səciyyələndirmək olar. Lakin, islam mədəniyyəti adı altında olan sonrakı dövr mədəniyyətində artıq Ərəbistan yarımadasında yaşayan ərəb xalqının mədəniyyəti aparıcı rol oynamamış, bir hissəsini təşkil etmişdir.

Bu mədəniyyət VIII əsrin birinci yarısında formalaşmağa başlamış və sonradan Xilafətin ayrı-ayrı bölgələrində çiçəklənmə dövrünü keçirmişdir.

İslam dininin qəbulu Azərbaycan əhalisinin maddi-mənəvi həyatının bütün sahələrinə dərin təsir edərək, yerli islam mədəniyyətinin formalaşmasına səbəb olmuşdur. Bunu müsəlman kitab mədəniyyəti, musiqi, təhzib, miniatür sənəti nümunələri, memarlıq abidələrinin qalıqları, təsviri sənət əsərlərində nəbati və həndəsi ornamentlərin hakim mövqe tutması, arxeoloji, etnoqrafik, epiqrafik və numizmatik və s. materiallar sübut edir. Mənbələrin təhlili göstərir ki, Azərbaycanda bu mədəniyyətin çiçəklənmə dövrünü ölkəmizin hüdudlarından uzaqlarda belə şöhrət tapmış istedadlı azərbaycanlı ziyalıların sayının da xeyli artdığı XI-XII əsrin birinci yarısına aid etmək olar.

Xilafətə daxil olan xalqları milli mənşə deyil, mənsub olduqları və birgə yaratdıqları mədəniyyət birləşdirirdi. Bu mədəniyyətin əsas dili ərəb dili idi.

Tezliklə Yaxın Şərqin əhalisi ilə qaynayıb qarışan ərəblər öz dilini qəbul etdirmiş, eyni zamanda da milli identiklik və özünəməxsusluqlarını itirmək təhlükəsi qarşısında qalmışlar. Xilafət tərkibinə daxil olmuş digər ölkələr isə islam dinini qəbul etsə də, öz dilini saxlamışdı. Azərbaycan

da onların arasında idi. Şübhəsiz, dövrün şüur səviyyəsinə uyğun olaraq ərəblərin dini təbliğatı öz güclü təsirini lazımi qədər göstərirdi. İlk növbədə ilahi hökmlər məcmusu olan Quranın müqəddəsliyi Xilafətdə bütün yazışmaların ərəb dilində olması zərurətini artırır və ərəbləşdirmə prosesini həyata keçirmək yollarını asanlaşdırırdı. Məhz bunun nəticəsi idi ki, ərəb dili 30-40 il ərzində geniş ölkələri əhatə edə bilmiş, cahanşümul bir elm dilinə çevrilmişdir. Dövrün tələbinə görə, elmi ədəbiyyat ərəb dilində, şeir və poeziya isə daha çox fars dilində yazılırdı. XII əsrdə Azərbaycanın bədii təfəkkür mədəniyyətində farsdilli poeziya kök salsa da, ərəbdilli ədəbiyyat da özünəməxsus mövqeyini saxlayır və hətta əvvəlki dövrlərə nisbətən görkəmli sənətkarların simasında daha intensiv şəkildə özünün qızğın tərəfdarlarını tapırdı.

Müxtəlif elm mərkəzlərini ziyarət etmiş ziyalılarımız vətənə qayıdarkən özləri ilə ərəb dilində müxtəlif elm sahələrinə aid kitablar, əlyazmalar gətirmiş, elmi fəaliyyətlərini davam etdirmiş, həmvətənlərini müsəlman Şərqinin elmi, mənəvi dəyərləri ilə maarifləndirmişlər. Bu fikri Azərbaycan Əlyazmalar İnstitundakı əlyazmaların və qiymətli tarixi sənədlərin Azərbaycan ərazisindən toplanması faktı da təsdiqləyir. Bu isə Azərbaycanda ziyalı mühitinin formalaşması üçün münbit şərait olduğunu bir daha təsdiq edir.

Ərəb fəthləri ilə əlaqədar daha bir yeni mədəni-ideoloji mühit yaranırdı. Belə ki, ərəb fəthləri mədəni əlaqələrin istiqamət yönünü də dəyişirdi. Xilafət tərkibində olan ölkələrin bəzisi ilə Azərbaycanın ticarət və mədəni-elmi əlaqələri artır, bəziləri ilə yenidən qurulurdu.

Tədqiqatda daha çox yer verilən ən böyük fəsildə (II fəsil) Azərbaycanda ərəb fəthləri və ondan sonrakı dövrdə baş verən müsbət yönlü dəyişiklərə xüsusi yer ayrılmışdır.

Raşidi xəlifələr dövrünün nisbətən qısa sürməsinə baxmayaraq, Azərbaycanda islamın yayılmasında böyük əhəmiyyəti vardır. Bu dövr təkcə Azərbaycanda hərbi-siyasi tarix nöqteyi-nəzərindən deyil, həm də cəmiyyətin sonrakı həyatında önəmli rol oynamışlar.

Raşidi xəlifələr dövründə olduğu kimi, Əməvilərin də dövlət siyasətinin əsasını İslamı yaymaq və yerlərdə möhkəmlənmək təşkil edirdi. Yerli hakimlərlə qohum olmaq, məscid və ya mədrəsələr tikdirmək, vergi toplamaq işi isə bu vəzifənin yerinə yetirilməsi üçün bir vasitə olmuşdur.

Məhəmməd peyğəmbərin (s.a.s.) Quranın şərtləri əsasında cizyə ödəmək müqabilində "himayə olunan azlıq" və onların dininə hörmət əsasında qurduğu siyasət, bəzi sapmalara baxmayaraq, Əməvilər dövründə də davam etdirilmişdi. Onların mənsub olduqları dini icmalardan hər biri özlərinin dini rəhbərlərinin başçılığı altında daxili muxtariyyətlərini qoruyub saxlayırdılar. Hüquqi problemlərdə, günahkarların cəzalandırılması və s. məsələlərdə əgər müsəlmana aid deyildisə, öz dinlərinə məxsus qanunlara dayanaraq azad fəaliyyət göstərə bilirdilər. Müsəlmanlar və digər dindən olan əhali arasında kifayət qədər yaxşı və dözümlü münasibət hökm sürürdü. Əməvilər digər dindən olanlara – xristian və yəhudilərə hörmətlə yanaşırdılar. Bunu qeyd etmək kifayətdir ki, müəyyən problem yaranarkən onların nümayəndələri xəlifələrə müraciət edər, onlar da münsif rolunda çıxış edərdilər.

Əməvilər dövründə əsası qoyulan dil siyasəti-ərəb dilinin aparıcı dilə çevrilməsi, orta əsrlərdə Avropada latın dilinin tutduğu mövqedə dayanmışdı. İctimai həyat səviyyəsi və milli adət-ənənələri müxtəlif olan, islam dinini qəbul edib etməmələrindən asılı olmayaraq Xilafət bayrağı altında birləşmiş əhalinin elmi, dini, ədəbi yaradıcılığında və məişətində də bu dildən istifadə olunurdu. Buna baxmayaraq, islam əhalinin çox böyük hissəsinin dininə çevrilmiş, hətta əhalinin islamı qəbul etməmiş hissəsi belə, ərəb dilini qəbul etmişdi.

Əməvilərin son dövrlərində cəmiyyətdəki ayrı-seçkilik daha kəskin şəkil almışdı. Daxili çəkişmələr dini təfriqəçilik və ictimai parçalanma kimi proseslər əsasında baş verirdi. İraqdan çıxan və özlərinin missionerlik fəaliyyətlərini Şimali Afrikada davam və inkişaf etdirən xaricilərin Ərəbistanda olduğu kimi, İranda və Azərbaycanda da ardıcılları vardı. Peyğəmbərin (s.a.s.) nəslindən olan ədalətli imamın hakimiyyətə gəlməsinə dəstək verən şiələr də müxalif hərəkat kimi, hakimiyyətə real təhlükə idi. İran və Azərbaycandan olan məvlalar bu cərəyanın söykəndiyi əsas dayaq idi.

Əməviləri onların dövründə böyük qüvvəyə çevrilmiş xaricilərlə bərabər şiə çıxışları daha çox narahat edirdi. Bəzi tədqiqatçılar Əməvilərin süqutu və Abbasilərin hakimiyyətə gətirilməsi ideyasının başında duran dəstə, qrup və təriqətlər halında mübarizə aparan quvvələr arasında daha böyük qüvvə kimi, qeyri-ərəb əsilli məvaliləri görürlər. Ərəb-

müsəlmanların ilk nəsillərindən üstün hesab edilən məvalilərdən savad tələb olunan yerlərdə - müəssisələrdə, qoşunda və təsərrüfat sahələrində istifadə edilirdi. Məvalilərdən bəzilərinin şairlik qabiliyyəti belə siyasi məqsədlər üçün də istifadə edilirdi. VIII əsrin ortalarında və sonunda Azərbaycanda xaricilərin bazasının hələ də güclü olduğu dövrdə, Mədinədə yaşayan əsilləri Azərbaycandan olan Əbul-Abbas, Musa Şəhavat, Fərrux Yassar kimi məvali şairlərin şeirlərindən siyasi qruplar öz mənafeləri üçün istifadə etmişlər. Onların yaradıcılığı həm də ərəbdilli poeziyanın yeni keyfiyyətlər kəsb etməsində, forma və məzmunca dərinləşməsində böyük rol oynamışdır. Əməvilərin hakimiyyətinin süqutu və Abbasilərin hakimiyyətə gəlməsində hər üç qrupun - xarici, şiə və məvalilərin rollarını inkar etmək olmaz.

Abbasilər dövrü də bir sıra xüsusiyyətləri ilə yadda qalmışdır. Bu xüsusiyyətlərindən biri onda idi ki, ərəb sərkərdə-valiləri əvvəllər yalnız özlərinin nəslindən olan və mərkəzi hakimiyyətdən narazı ərəb qəbilələrini bu əraziyə köçürürdülərsə (bu qəbilələrin heç də hamısı zorla köçürülmür, bəziləri öz xoşları ilə meyllənirdilər - N.Ə.), VIII əsrdən sonra İslamı qəbul etmiş digər xalqları da tabeçiliklərində olan ərazilərdə yerləşdirirdilər.

Xilafətə Abbasilər sülaləsinin gəlməsi ilə, digər proses, Xilafətdə xaricilik hərəkatından sonra Xilafətin cənubunda zinclərin hərəkatı, Bəhreyn və Misirdə ismaili və qərmət hərəkatında, İraq, İran və Azərbaycanda şiəlik hərəkatı, xüsusilə Xəlifə əl-Mütəsimin dövründə güclənən türklərin hakimiyyəti Xilafətin ayrı-ayrı hissələrə bölünməsi prosesi sürətlənir. İslam dünyası mərkəzləşdirilmiş, tək və nəhəng dövlət sistemindən çoxsaylı və  kiçik dövlətlər sisteminə keçdi. Azərbaycanın vilayətlərində hakimlik edən Şirvanşah-Məzyədilər, Sacilər, Rəvvadilər, xəlifənin dini hakimiyyətini qəbul etmişdi.

Abbasilərin hakimiyyətinin əldən getməsi isə öz növbəsində Azərbaycan üçün faydalı nəticələr verdi. Əgər Abbasilər dövründə karvan yolları Orta Asiya, Xorasan, Həmədan, Bağdad, oradan isə Aralıq dənizi hövzəsi ölkələrinə gedirdisə, göstərilən dövrdə yerli və müstəqil dövlətlərin yaranması ilə əlaqədar karvan marşrutları şimaldan keçməyə başladı. Karvan yollarının Azərbaycan ərazisindən keçməsi isə ticarət gəmilərinin Xəzər sularında üzməsi, bölgədə ticarətin inkişafına böyük

təsir etdi. Dəniz yollarıyla həyata keçirilən əmtəə mübadiləsi Şirvanda ticarətin inkişafına əlverişli şərait yaratdı. X əsrdə ticari nöqteyi-nəzərdən Dərbənd limanı ilə bərabər Bakı limanının da əhəmiyyəti artmağa başladı. Şirvan şəhərlərinin bir tərəfdən dəniz ticarətinə, digər tərəfdən tranzit karvan yollarına cəlb edilməsi IX-XI əsrlərdə Azərbaycanın şəhər həyatı, sənətkarlıq və ticarət əlaqələri ilə bərabər mədəniyyət əlaqələrinin genilənməsə də təkan verdi. Şirvanda elmi-mədəni fəaliyyətin ön plana çəkilməsi, Azərbaycanı Şərq dünyasında önəmli ziyalıları olan mədəni mərkəzlərdən biri qismində şöhrətləndirmişdi.

Bir çox ərəb əmirləri müstəqil hakimə çevriləndən sonra da kafirlərə qarşı yürüşdən əl çəkməmişdilər. Kafirlərlə sərhəddə yerləşdirilən Məzyədilər və Müsafirilər də bu cəhətdən xüsusilə fərqlənirdilər.

Xilafətin parçalanmasının başa çatması ərəbdilli mədəniyyətin bütün sahələrinin canlanmasına nəinki mənfi təsir göstərdi, əksinə, bir-biri ilə ilə rəqabətə girən yeni-yeni siyasi-mədəni mərkəzlərin meydana gəlməsinə səbəb oldu. Gəncəni tam bir əsr ərzində özlərinin paytaxtı edən Şəddadilər də burada islamın müdafiəçilərinə çevrildilər. Gürcü baqratidiləri, erməni knyazları, bizanslılar, alanlar və Qafqazın o biri tayında olan ruslara qarşı döyüşlərə başladılar. Şəddadilərdən olan Əbüləsvar I Şavur öz müasirləri arasında din yolunda vuruşan mücahid kim ad qazanmışdı.

XI əsrin birinci yarısı Xilafətin şərq vilayətlərində “ictimai iqlimin” pisləşməsi ilə əlamətdardır. Əməvilər dövründə dövlət etiqadı səviyyəsinə qalxmış mötəzililiyin sonuclanması Abbasilər dövründə başa çatdı. Lakin, Xilafətdən sonrakı yerli müstəqil dövlətlər mərhələsində mötəzili cərəyanı inkişafını davam etdirdi. Bu təlimə qarşı kəskin mübarizə, mötəzililərlə ortodaksal sünnilik arasında olan mübarizə idi. Mötəzililərin təqib olunması da elə həmin dövrə düşür.

Azərbaycan ərazisində yaranmış müstəqil dövlətlərin mədəni həyatının tədqiqi göstərir ki, o vaxtlar da, sonralar da Azərbaycanın Xilafət tərkibində olmuş digər dövlətlərlə dini-intellektual birliyi pozulmadı. Bir-biri ilə rəqabətə girən yeni siyasi-mədəni mərkəzlərin meydana gəlməsi, ərəbdilli mədəniyyətin bütün sahələrinin canlanmasına heç də mənfi təsir göstərmədi, əksinə, yüksəlişinə səbəb oldu. Yerli dilləri mərkəzi və yerli müəssisələrdən sıxışdıraraq demək olar ki, çıxardan və fəth edilmiş

ölkələrin məişətinə daxil olan ərəb dilli dil birliyi də yaratdı. Xilafətin tam və bölünməz mədəni məkanının bir parçası kimi, Azərbaycan ərazisində yaranmış dövlətlər həmin tamlığa xələl gətirmədi, əksinə, islamı qəbul etmiş bütün xalqların yeganə ədəbi dili qismində çıxış edən ərəb dili bu xalqların Azərbaycan ərazisində yaranmış müstəqil dövlətlərin xalqları ilə yaxınlaşmasına və "müsəlman mədəniyyəti" adlanan bir növ qohum mədəniyyətin yaranmasına təkan verdi.

Bu dövrdə bəzi bölgələrdə əhali arasında islamın yayılmasında neqativ hallara da rast gəlinir. Xəlifə Mütəvəkkilin 852-ci ildə canişin göndərdiyi Buğa quruculuq işləri ilə məşğul olması ilə bərabər əhalisi ilə qəddar rəftar etməsi bölgədə islamın zəifləməsinə gətirib çıxarmışdı.

Tədqiq olunan dövrdə islam dünyasında elmin zirvəsi təbii ki, hədis, fiqh, hafizlik, mühəddislik, siqəlik və s. sayıldığından elmin bu sahəsi ilə məşğul olanların sayı digər elmlərə nisbətən daha çox idi. Bu baxımdan da ilk dönəmlərdə açılan mədrəsələrdə yalnız dini biliklər verilir, şəriət, fiqh, hədis elmi, dini ədəb-ərkan öyrədilirdi. Mədrəsələrdə təhsil almaq da o qədər asan iş deyildi. Tələbələr seçilib götürülür, bütün ruhuyla müəlliminə bağlanır, özünü müəlliminin ixtiyarına verirdi. Hər ziyalının da təbii ki, mədrəsə açmaq imkanı yox idi. Mədrəsələr, adətən, tanınmış, elminə şübhə edilməyən, hamının tanıdığı və zahidliyi ilə seçilən şeyxlər tərəfindən açılırdı. Hədis elmini öyrənməyə başlayan şəxslər belə alimlərdən təlim almağa can atırdılar. Digər tərəfdən, mühəddislər yaddaşlarında saxladıqları hədisləri onlardan sonra nəql etmək üçün seçdikləri şəxsdə hədisi düz danışmaq qabiliyyəti ilə bərabər onun zahidliyini və imanını da nəzərə alırdılar. Dindarlıq, Quranı çox oxumaq, çoxlu təhəccüd (gecələr qılınan namaz) namazı qılmaq kimi keyfiyyətlər, bəlağətli dil də bu sahədə çalışan insanlar üçün təqdir olunan xüsusiyyətlər sayılırdı. Hədis toplamaq üçün çox səyahət edən ziyalıları səyyah adlandırır və başqalarından fərqləndirirdilər. Yazılan əsərlərdə islam arealının yayıldığı ölkələr, onların əhalisi və ziyalıları haqqında bəzən ötəri, bəzən də geniş, hərtərəfli məlumatlar verilirdi.

Qərb ideoloqlarının Şərqdə, o cümlədən Azərbaycanda təhsil sistemində nəzərəçarpacaq inkişafın olmaması fikrinə İran tarixşünaslığında da rast gəlinir. İran tədqiqatçılarından Roknəddin Homayun Fərrox hicri 620-ci

(1223) ildən hicri 800-ci (1397-1398) illədək Xorasanda, Azərbaycanda və İranın digər böyük məntəqələrində mədrəsələrin təsisinə dair heç bir məlumat olmadığını və bu barədə mənbələrdə verilən məlumatın Fars, Yəzd və İsfahana aid olduğunu göstərir. Gəncədə Nizamiyyə mədrəsəsi, Naxçıvan mədrəsələri, Şirvanda XI əsrdə fəaliyyət göstərmiş elm ocağı, Təbrizdə nəhəng Rabi Raşidi kompleksinin təsisatı, bu fikrin qərəzli olduğunu ortaya çıxarır. Tədqiqat göstərir ki, azəbyacanlı müdərrislər Xilafətin otuzdan çox mədrəsəsində, o cümlədən Azərbaycanda təsis olunmuş mədrəsələrdə fəaliyyət göstərmişlər.

Ərəblər tərəfindən Sasani imperiyasının dağıdılması Arranda müsəlman hakimiyyətinin tezliklə bərqərar olmasına gətirib çıxarmadı. Alban knyazları bir müddət eyni vaxtda həm ərəblərə, həm bizanslılara, həm də xəzərlərə vergi verirdilər. Yalnız VIII əsrin əvvəllərində Albaniyaya olan iddialar islamın xeyrinə həll olundu. Beləliklə, ilk ərəb fəthlərindən keçən təqribən 3 əsr ərzində bütün Azərbaycan əhalisinin əksəriyyəti müsəlmanlaşdı.

Səlcuqlar dövründə Azərbaycanda islamın yayılması və möhkəmləndirilməsi, islam mədəni mühitinin güclənməsi istaqamətində ciddi işlər görülmüşdür. Ölkədə Alp Arslanın vəziri Nizamülmülkün iştirakı ilə çoxsaylı mədrəsələr tikilmiş, 30-dan artıq mədrəsədə azərbaycanlı müdərrisin tədrislə məşğul olması haqqında məlumat üzə çıxarılmışdır.

Səlcuqluların dövründə geniş yayılmış kufi xətti XII əsrdə nəsx xətti ilə əvəz olunmağa başlayır. Bu xətt sadəliyi, rahat oxunuşu və rəvan yazılışı ilə diqqəti cəlb etmişdir. Nəsx xətti yarandığı gündən Quran və digər kitabların üzünün köçürülməsində, eləcə də dəftərxana işlərində geniş istifadə olunmuşdur.

Bu dövrdə dini əlaqələr daha da fəallaşır. Xilafətin müxtəlif vilayət və şəhərlərinə uzunmüddətli ziyarətlər mühüm təlim və yaradıcılıq üçün material toplamaq formasına çevrilir. Şam və Bağdad, Təbriz, Nişapur və digər böyük şəhər və mədəniyyət mərkəzlərinə səfər edən ziyalılarımız nəinki bu ölkələrin alimlərinə, eləcə də öz həmvətənlərinə dərs demiş, onlardan öyrənmiş və öyrətmişlər.

Bu mərhələdə bəzi hakimlər islamın qorunması məsələsində səlcuqlardan da irəli gedirdilər. 1122-ci ildə Tiflisi tutan II David şəhərin müsəlman

əhalisinə bir sıra güzəştlər vermişdi. David və onun oğlu Demetre Tiflisdə came məscidini ziyarət etmiş, xütbə və Qurana qulaq asmışdı. II David gəlmə tacirlər üçün karvansara, zahid dərviş-sufilər, şairlər üçün evlər tikmiş, təqaüdlər kəsmişdi.

Azərbaycanın Yaxın və Orta Şərq, həmçinin Şərqi Asiya ölkələri ilə ticarət əlaqələrinin yaranması mədəni əlaqələrin də inkişafı üçün münbit zəmin yaratmışdı. Bu əlaqələrin intensiv xarakter almasında quru və su yolları xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbycanın Bərdə, Təbriz, Şamaxı, Marağa və s. şəhərlərinin ticarət yolları üzərində yerləşməsi, ərəb coğrafiyaşünas səyyahlarının əsərlərində qeyd olunmuşdur. Ərəbdilli əsərlərdə qeyd olunmuş və arxeoloji qazıntılarla təsdiq edilmişdir ki, Bərdədən Xilafətin müxtəlif şəhərlərinə ayrılan ticarət yollarının iqtisadi əlaqələrlə yanaşı, islam mədəniyyətinin yayılmasında böyük rolu olmuşdur.

Məlikşahın ölümündən sonrakı dövr Azərbaycanda Səlcuq sultanlarının təsirinin getdikcə zəifləməsi və Şirvanşahlar sülaləsinin Şirvanın müstəqilliyini bərpa etməsi ilə yadda qalmışdır. Şirvandan fərqli olaraq Arran və Cənubi Azərbaycan uzun müddət Səlcuq sultanlarından asılı vəziyyətdə qaldılar. Sonralar burada Atabəylər dövləti ( 1136-1225) yarandı. Atabəyər dövlətinin tərkibinə Azərbaycan, Arran və Naxçıvan vilayətləri ilə yanaşı Fars İraqı, Rey və Həmədan vilayətləri daxil idi.

Səlcuq hakimləri şeirə və sənətə yüksək qiymət vermiş, söz ustalarını səxavətlə mükafatlandırmışlar. Bu dövrdə fars dili özünün inkişafı və təkmilləşməsini məhz Azərbaycan poeziya məktəbinin nümayəndələrinə borcludur. Söz ehtiyatı, sintaktik ifadələrin zənginliyi, məcaz və tərkiblərin ifadəliliyi və orijinallığı-poetik formanın bütün bu əlamətlərinə görə, XII əsr Azərbaycan şairləri müasirləri və sonrakı şairlər nəsli arasında seçilirdi.

Qeyd etmək lazımdır ki, sünni ənənəsinin təşviq olunması Atabəylər mərhələsində də da davam etdirilmişdir.

Dini-fəlsəfi təlim olan Əxilik XII əsrin axırlarında Xəlifə əl-Nasir Lidinillah (1180-1225) tərəfindən yaradılmış rəsmi dini-siyasi təşkilat olan fütüvvənin bir sıra xarakterik cəhətlərini özündə əks etdirmişdir. Əxilər öz təşkilatlarının nizamnaməsini fütuvvatnamə□*

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

**Azərbaycan dilində**


- *Azərbaycan tarixi.* II c. (III-XIII əsrlər). Məsul redaktor: Nailə Vəlixanlı, Bakı, 1998.
- *Azərbaycan tarixi* üzrə qaynaqlar. S.Əliyarlının redaktəsi ilə. Bakı, "Çıraq", 2007.
- *Azərbaycan Tarixi* Atlası. Y.Mahmudovun rəhbərliyi və redaktəsi ilə. BKF, Bakı, 2007.
- *Azərbaycan tarixi* üzrə qaynaqlar. S.S.Əliyarov və Y.M.Mahmudovun redaktəsi ilə Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 1989.
- *Azərbaycan ədəbiyyatı* tarixi 3 cilddə. I cild, Bakı, 1960.
- *Azərbaycan Sovet* Ensiklopediyası, IV c., ASE-nın baş redaksiyası Bakı, 1980.
- *Azərbaycan tarixi* xəritələri. Bakı, Azərbaycan ensiklopediyası, 1994.
- *Azərbaycan arxeologiyası.* VI cilddə, VI cild, Bakı, "Şərq-Qərb", 2008.
- *Abbasova F.* Şabran. Bakı, "Elm", 2002.
- *Acarlı B.* Naxçıvan və Marağa memarlıq abidələri // Naxçıvanın türk-islam mədəniyyət abidələri: tarixdə və günümüzdə.Naxçıvan, "Əcəmi", 2017, s.81-89.
- *Ağayev Ə.* Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqi: nailiyyətlər və perspektivlər /Azərbaycanşünaslar müstəqil birliyinin beynəlxalq elmi-nəzəri yubiley konfransının məruzələr məcmuəsi Bakı, 2004.
- *Arzu Əşrəfqızı.* Car-Balakən camaatlığı.Bakı, "UniPrint", 2007.
- *Aşurbəyli S.* Şirvanşahlar dövləti. Bakı, "Azərnəşr", 1997.
- *Azərli M.* Xəlifə Əbdülməlik ibn Mərvanın islahatı və Azərbaycan(685-705-ci illər). Bakı, 1964. Tarix İnstitutunun elmi arxivi, №5678.
- *Azərli M.İ.* İX əsrin ərəbdili mənbəyi qədim Azərbaycan haqqında. Azərb.SSR EA-nın Məruzələri, XXX c., 1974, s.86-89.
- *Balasaqunlu Y.* Qutadqu bilik–xöşbəxtliyə aparan elm/Tərcüməçilər K.Vəliyev, R. Əsgər. Bakı, "Azərnəşr", 1994.

- *Bağırlı B.* Sədid Səlmasi//"Elm və Həyat" jurnalı, №4, 1985.
- *Bakıxanov A.* Gülüstani İrəm. Bakı, Möminin intişaratı, 2001.
- *Bayramov M.C.* Azərbaycanın orta əsr kənd tipli yaşayış yerləri (IX-XIII əsrin əvvəlləri) tarix üzrə fəlsəfə doktoru elmi adını almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2015.
- *Bayramova N.* Xəlifə ən-Nasir dövründə vəzirlik və onun fəaliyyətinə dair // Средневековый Восток. Баку, «Элм», 1993.
- *Bayramova N.* "Səfyəddin Urməvi haqqında araşdırma". "Ədəbiyyat və incəsənət" qəzeti, 5 sentyabr 1980.
- *Belyayev Y.A.* Müsəlman təriqətləri. Bakı, Azərbaycan ensiklopediyasının baş redaksiyası, 1991.
- *Bəxtiyarova R.* Azərbaycanda ağac ayini. Avtoreferat. Bakı, 2004.
- *Bünyadov Z.M.* Mxitar Qoşun "Alban xronikası"// Az.SSR EA-nın Xəbərləri. İctimai elmlər seriyası. 1960, №3.
- *Bünyadov Z.M.* Azərbaycan Atabəyləri dövləti (1136-1225) Bakı, "Elm", 1984.
- *Bünyadov Z.M.* Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Azərnəşr", 1989.
